*Könül Bünyadzadə*

# Sufi fenomenologiya

*Müqəddəslik duyğusunu mənə tanıdan* ***ANAMA***
*ithaf edirəm.*



**II cild**

Bakı–2023

***USTADLARIM****:*

*getdiyim yolda yorulmamağı, mübarizə etməyi öyrədən Atam*
***Yusif BÜNYATOVA,***

*bacarığımı maksimum istifadə etməyi, axtarışlarımda dərinlərə getməyi öyrədən*
***Ələsgər MƏMMƏDOVA****,*

*Sufizmin sirlərinə açar verən, "Mən də varam" deməyi öyrədən*
***Seyfullah SEVİMƏ,***

*fərddən universallığa keçmək, millətimin hikmətini təqdim etmək cəsarəti verən*
***Səlahəddin XƏLİLOVA***

*minnətdarlıq hissi ilə.*

Könül Bünyadzadə. **Sufi fenomenologiya**. 2 cilddə. II cild.
Bakı, "Zərdabi Nəşr" MMC. 2023, 416 səh. (*20 sxem və şəkil*).

Əsər düşüncə tarixində yeni fəlsəfi sistemin təqdimidir. Burada ruhani təcrübə ilə şüur təcrübəsinin vahid strukturu işığında varlıq probleminə və idrak nəzəriyyəsinə yeni bir baxış bucağı açılır. Təməlində sufizm və fenomenologiya dursa da, monoqrafiyada vahid xəttin və başlıca ideyanın əsaslandırılması məqsədi ilə antik yunan dövründən başlayaraq bir çox fəlsəfələrə, fəaliyyət sahələrinə, hətta dəqiq elmlərə, xüsusilə kvant fizikasına müraciət olunur.

Əsər iki cildlidir. Birinci cild sufi fenomenologiyaya girişi və yeni fəlsəfənin əsaslarını ehtiva edir. İkinci cildə isə sufi fenomenoloji metodologiya və ağıl haqqında mülahizələr daxil edilib.

Kitab öz mahiyyətini dərk etmək, mənəviyyat və gerçəklik arasında sabit körpü qurmaq, fəlsəfənin günümüzdə əhəmiyyətini və rolunu dərk etmək, dünyaya yeni və fərqli işıqda baxmaq istəyən şəxslər üçün nəzərdə tutulub.

ISBN 978 9952 554 92 2

© K. Bünyadzadə, 2023
© "Zərdabi Nəşr" MMC, 2023

# Mündəricat

## III Fəsil
## SUFİ FENOMENOLOJİ METODOLOGİYA

### I bölmə. Sufi fenomenoloji metodologiyaya giriş


*§ 84. Eydedik zəncirin qurulması*............................................................7
*§ 85. Eydedik zəncirin qurulması və yaradıcılıq*....................................13
*§ 86. Sufi fenomenologiya və empatiya*..................................................15
*§ 87. Konkretlikdən mücərrədliyə keçid*................................................20
*§ 88. Fəlsəfi məsləhətləşmə və sufi fenomenologiya*.............................24
*§ 89. Sufi fenomenologiya və başqa fənlər*............................................29
*§ 90. Sufi fenomenologiya – metod olaraq*.............................................33


### II bölmə. Özünüreduksiya


*§ 91. Həqiqətin qradasiyası və eydosların düzülüşü*..............................36
*§ 92. Refleksiya və özünüreduksiya*........................................................39
*§ 93. Refleksiya və özünüreduksiya (davamı)*........................................44
*§ 94. Özünüreduksiya və şüurun səviyyələri*..........................................48
*§ 95. Üstşüur – şüurun nüvəsi kimi*........................................................53
*§ 96. Üstşüur maddi çərçivədən Loqosa çıxış kimi*................................57
*§ 97. Meditasiya (ruhani təcrübə) və özünüreduksiya.*
*Özünüreduksiya – reallığın qəbulu.*...............................................63
*§ 98. Özünüreduksiya və Mən*................................................................68
*§ 99. Fenomenoloji zaman*.....................................................................72
*§ 100. Özünüreduksiya və fenomenoloji zaman*......................................75
*§ 101. İdeyanın zaman axınında formalaşması*........................................79
*§ 102. İntensionallıq və özünüreduksiya*.................................................83
*§ 103. Özünüreduksiya, ideya və materiya*..............................................87
*§ 104. Özünüreduksiya, ideya və materiya (davamı)*...............................92

## III bölmə. Sufi fenomenologiyada noema və noezis

*§ 105.Nous – Noema – Noezis (noeza)* ....95
*§ 106.Noema və şeylərin "ruhu"* ....99
*§ 107.Noematik nüvə – varlığın qnoseoloji nüvəsi olaraq. Noema və vəhdət.* ....104
*§ 108.Fəlsəfi məsləhətləşmə aspektində noematik struktur. Psevdo-noema.* ....110
*§ 109.Noema və intensionallıq* ....113
*§ 110.Noemaların konkretliyi və mücərrədliyi* ....116
*§ 111.Noema və diqqətin yayınması* ....121
*§ 112.Loqos, noema və yaradıcılıq* ....127
*§ 113.Noematik məqam (noes)* ....130
*§ 114.İlahi iradə və insan iradəsi işığında noema* ....135
*§ 115.Vəhdət əl-vücud və noema* ....141

## IV bölmə. Noematik strukturda işıq

*§ 116.Noema, noeza və işıq* ....146
*§ 117.İlahi yaranışda və idrak prosesində işığın qradasiyası* ....150
*§ 118.İşıq və şüurun intensiyası* ....154
*§ 119.Mənbə və işıq, sükut və hərəkət* ....158
*§ 120.Vahid nur və nurların vəhdəti* ....164
*§ 121.Noemaların formalaşması – işığın təcəllisi* ....168
*§ 122.İntensiya və biliyin fraqmentarlığı* ....172
*§ 123.Noezaların ümumiliyi və xüsusiliyi* ....176
*§ 124.Varlıq və yoxluq (§62-nin davamı)* ....181
*§ 125.Varlıq, nur və zaman* ....184
*§ 126.Nur və ruh* ....188
*§ 127.Noemanın sabitliyi, dəyişkənliyi və nur* ....191
§ 128.*İman və nur* ....195
*§ 129.Qaranlıq, yanılma və küfr* ....202
*§ 130.Noemanın mənalandırılmasında işıq* ....208
*§ 131.Noeza və intensiyanın qarşılıqlı təsiri* ....210
*§ 132.Ruh və noezaları* ....212
*§ 133.Loqos və Nurlar nuru* ....216

## IV Fəsil
## SUFİ FENOMENOLOGİYADA AĞIL

### I bölmə. Ağlın fenomenologiyası


*§ 134.İdrak sistemində ağlın yeri* ........................................................220
*§ 135.Ağlın noematik strukturu* ..........................................................226
*§ 136.Ağıl – noema, yoxsa noes? Dəyişməyən mahiyyətin dəyişən xüsusiyyətləri.* ....................................................................231
*§ 137.Ağlın mahiyyəti və təzahürü* .....................................................235
*§ 138.Şüur səviyyələri və ağıl. Daxili səs və ya vicdan.* .......................241
*§ 139.Ağlın səviyyələri və hüdudları* ..................................................246
*§ 140.Tək, ümumi və xüsusi ağıl* ........................................................251
*§ 141.Ağıl və bədən* ............................................................................257


### II bölmə. Ağıl və gerçəklik


*§ 142.Obyektiv və subyektiv gerçəklik* ................................................261
*§ 143.Ağıl və təcrübə formaları* ..........................................................266
*§ 144.Yaddaş və gerçəklik* ...................................................................271
*§ 145.Ehtimal və yəqinlik* ....................................................................276
*§ 146.Həqiqət və gerçəklik. İlk və son həqiqət.* ....................................281
*§ 147.Gerçəklik: şər və xeyir* ................................................................289
*§ 148.Ontoloji və ontik gerçəklikdə ağıl* ..............................................296
*§ 149.Vasitəli və vasitəsiz ağıl* ............................................................299
*§ 150.Ağıl və zaman. Ağıl indi və əbədiyyət kontekstində.* ....................304
*§ 151.Din, iman və ağıl* ........................................................................310
*§ 152.Din, iman və ağıl (idollar, maneələr)* .........................................314
*§ 153.Kamillik və ağıl* ..........................................................................319


### III bölmə. Ağıl və Loqos


*§ 154.Ağıl rasional və irrasional düşüncə işığında* ..............................324
*§ 155.Şüur və ağlın hərəkət trayektoriyaları* .........................................329
*§ 156.Bəşəri və ilahi yaradıcılıqda ağıl. Alın yazısı.* ............................334
*§ 157.Daxili və xarici fenomenoloji reduksiyalarda ağıl* .......................342
*§ 158.İdeya, mənalandırma və ağıl* .....................................................347
*§ 159.Ağıl və üstşüur. Haqq əl-həqiqət ağıl prizmasında.* .....................351
*§ 160.Loqos və ağıl idrak prosesinin iki qütbü kimi* .............................354

**Eydosologiya** ........................................................................................ 359

***Ədəbiyyat siyahısı*** ........................................................................................ 367
***Bibliyadan istifadə olunmuş ayələr*** ........................................................... 382
***Qurani-Kərimdən istifadə olunmuş ayələr*** ................................................. 384
***Adların indeksi*** ........................................................................................... 390
***Terminlərin indeksi*** ..................................................................................... 398

# III Fəsil
# SUFİ FENOMENOLOJİ METODOLOGİYA
***(davamı)***

## I bölmə. Sufi fenomenoloji metodologiyaya giriş

### *§ 84. Eydedik zəncirin qurulması*

Sufi fenomenologiyanın açar kəlmələrindən biri və başlıcası eydosdur. O, həm yaradılışın, həm də idrak prosesinin metafizik anlamda ən kiçik zərrəsidir. Elm şeylərin mahiyyətini, xassələrini atomlar, kvant hissəcikləri vasitəsilə öyrəndiyi kimi, sufi fenomenologiyaya görə, insan metafizik qatda eydoslar vasitəsilə tədqiqat aparıb, şeyləri dərk edə bilər. Məhz onlara səbəb şüur öz mahiyyətindən başlayaraq Loqosa/ meqaşüura qədər idrak zənciri qurur, universal sistemin tərkibinə nüfuz edir, Mütləq ruh müstəvisinə qədər yüksələ bilir. Əvvəl də qeyd etdiyimiz kimi, təhlillərimiz zamanı biz maddi dünyadan nümunələr gətirsək də, söhbət şeylərin konkret formasından, mənasından deyil, eydedik strukturundan gedir. Əslində, eydos daha çox üstşüurun müstəvisi olsa da, məsələyə bu baxış bucağından yanaşma bir çox qaranlıq məqama işıq salır.

Müasir dövrün nəzəri fizikasının fərziyyələrindən birinə – simlər nəzəriyyəsinə görə obyektlər arasında əlaqə nöqtələrlə deyil, birölçülü kvant simləri vasitəsilə qurulur (*sxem 22*). Sxem 22-də (1) – şeyin mik-

roskopik səviyyəsidir, (2) – molekulyar səviyyə, (3) – atomar səviyyə: proton, neytron, elektron, (4) – subatomar səviyyə – elektron, (5) – subatomar səviyyə – kvarklar, (6) – sim səviyyəsi.[1] Bəziləri sim nəzəriyyəsini – "hər şey haqqında nəzəriyyəni" elmin sonu hesab etsə də, onu əksinə, yeni başlanğıc adlandıranlar da var.[2] Bizim fikrimizə görə, eydedik səviyyə sim səviyyədən sonradır və simlər özləri də eydoslardan ibarətdir. Hər obyektin strukturu özlüyündə tam, bütöv olsa da, ətrafındakı digər obyektlərlə eydedik xətlər – simlər vasitəsilə əlaqəlidir.



*Sxem 22. Almazın quruluşu.*

Yeri gəlmişkən, simlərin zərrələrdən ibarət olması fərziyyəsi simlər nəzəriyyəsinin həllini gözləyən problemlərindən biri hesab edilir. Məhz həmin eydedik simlər vasitəsilə şüur bir obyektdən digərinə keçə bilir, çünki bir obyektin həqiqətinin ən azı bir zərrəsi digər obyektin strukturunun tərkib hissəsinə daxildir. Bunu nəzərdə tutaraq, idrak prosesinin – şüurun eydoslar əsasında irəliləmə aktını eydedik zəncirin qurulmağı adlandırırıq. Hər nə qədər eydedik zəncir metafizik mahiyyətli görünsə də, əslində burada dialektik metodun prinsipləri – obyektivlik, konkretlik, hərtərəflilik – istifadə olunur. Çünki bunu edən şüurdur və onun qazandıqları irrasional biliklər olsa belə, zəncir məntiq əsasında qurulur ki, ümumi nəticə də rasional xarakterli olsun. Bununla yanaşı, həm də qeyri-səlis məntiq metodundan, yəni yalnız yalan-həqiqət meyarları ilə deyil, həqiqilik dərəcəsindən çıxış etməli oluruq, çünki mümkün eydosların nüvəyə yaxınlıq qradasiyası, ətraf mühitin təbii quruluşa, eydedik struktura təsir gücü də nəzərə alınmalıdır.

Şeylərin simlərdən ibarət quruluşunu görmək gücündə olan mikro-

[1] Теория струн. https://ru.wikipedia.org/wiki/%D0%A2%D0%B5%D0%BE%D1%80%D0%B8%D1%8F_%D1%81%D1%82%D1%80%D1%83%D0%BD

[2] Brian Greene. A Theory of Everything? https://www.pbs.org/wgbh/nova/elegant/everything.html

skop kəşf edilməyib hələ. Eydedik strukturu görmək üçün isə ümumiyyətlə cihaza ehtiyac yoxdur, çünki onu yalnız şüur və ruhun nuru aydınlada bilir. Eydosu yalnız özü kimi eydos görə bilər. Bu o deməkdir ki, eydedik zəncirin qurulması özünüreduksiyadan başlamalıdır. Məhz özünüreduksiya zamanı insan özünün yalnız fiziki orqanlardan ibarət bir sistem olmadığını dərk edir və ontik mövcudluğu ilə yanaşı həm də ontoloji varlığını düşünməyi, bununla da özünün eydedik strukturuna keçməyi öyrənir. Bir daha təkrar edək ki, obyektin istər mümkün, istərsə də, vacib eydoslarına yol yalnız insanın eydosundan başlamalıdır. Özündə eydosu kəşf eləməsə, tanımasa, insan obyektin eydedik strukturuna da nüfuz edə bilməz.

Eydedik zəncirin qurulması bir eydosdan başlayaraq bütöv sistemin üzə çıxarılması, tanıdılmasıdır. Şüurdan asılı olaraq sistemin miqyası da dəyişə bilir. Necə ki, xətt nöqtələrdən ibarətdir, musiqi ayrı-ayrı notların/nöqtələrin düzülüşüdür, eləcə də idrak prosesi nöqtələrin/eydosların birləşməsidir. Bu xəttin uzunluğu və trayektoriyası bilavasitə ilk nöqtədən – şüurun səviyyəsindən asılıdır. Fenomenoloji reduksiyanı arxeologiyaya bənzədən Husserl yazır: "Fenomenoloji arxeologiya – Mən-in və subyektiv olanı əslində olduğu kimi araşdırmaq, qarşımıza təcrübəli dünyanın nəticəsi olaraq çıxan gizli əsas konstruksiyanın əlaqəli fəaliyyətini açmaqdır... Adi arxeologiyada rekonstruksiya kimi".[1] Biz eydedik zəncirin özünü arxeoloji qazıntıya bənzədərdik. Rekonstruksiya isə artıq geri dönən və idrak çevrəsi tamamlanan insanın şüurunda baş verir. XVII əsrdə aparılmış adi bir qazıntı Pompey şəhərinin və tarixin böyük bir səhifəsinin üzə çıxmasına səbəb oldu; bir almanın düşməyi (bu hadisə şərti olsa da) sonda ümumdünya cazibə qanununun kəşfinə gətirdi. Yaxud eydedik zəncirin qurulmasına nümunə kimi hermenevtikanı da göstərmək olar. Bir mətnin sözlərindən, quruluşundan çıxış edərək həmin mətnin yazıldığı dövrün sosial durumunu, mədəni mühitini, hətta müəllifin özünün şəxsiyyətinə qədər təhlil və təfsir etmək mümkündür. Bu baxımdan, hermenevtikanın öz başlanğıcını feno-

[1] Бабушкин. Феноменологическая философия науки…

menologiyadan götürməyi də bir qanunauyğunluq, məntiqli davam hesab etmək olar.

Şüurun intensiyasından əlavə, eydedik zəncirin qurulmasında obyektin strukturun da təsiri ola bilər. Husserlin dediyinə görə, "Ümumi növünə görə metod eyni sahənin fundamental yerli quruluşundan və onun ümumi strukturundan irəli gələn normadır, yəni idrakda onun nailiyyəti əsaslı şəkildə bu strukturların özünün idrakından asılıdır".[1] Düzdür, eydedik strukturun mahiyyətini tam şəkildə yalnız onun vacib eydosu vasitəsilə öyrənmək mümkündür. Eyni zamanda, şüur insanın öz eydedik strukturunda istənilən bir eydosu başlanğıc nöqtəsi kimi istifadə etdiyi kimi, obyektin də strukturunda fərqli yerlərdən keçə bilər. Onu da əlavə edək ki, şeylərin eydedik strukturu imkan verir ki, eydedik zəncirlər istənilən istiqamətə – keçmişə, gələcəyə, ilahi aləmə, yaxud elə maddi dünyanın özünə doğru qurulsun. Bu, əhəmiyyətli məqamdır: hər insanın öz başlanğıc nöqtəsi və öz eydedik zənciri var.

Eydedik zəncirlər ümumi biliklər əsasında qurulmur. Lakin bu da bir həqiqətdir ki, məhz məlum biliklər arasından seçilmiş birinin eydedik qatına keçmək zəruridir. Yəni bir var məlum həqiqətləri bir mövzu ətrafında toplayır, bir də var bir məlum həqiqət vasitəsilə eydedik qata keçir. Birinci halda şüur nəyə yeni bir şey yaratmır. Məsələn, fəlsəfə tarixində eşq konsepsiyası adlı mövzunun tədqiqatçısı bu istiqamətdə yazılmış əsərləri araşdırır, öz qurduğu plan əsasında bir əsər yazır. Onun özü eşq haqqında yeni bir söz, həqiqət demək iddiasında deyil, sadəcə elmi dərəcə almaq üçün məlum həcmdə bir dissertasiya yazır və elmi işlər qarşısında qoyulmuş tələbləri ödəyir. Əlbəttə, əgər bu tədqiqat mexaniki şəkildə görülür və alınan həqiqətlər eklektik şəkildə toplanırsa, burada hər hansı eydedik zəncirdən söhbət gedə bilməz. Eydedik zəncir məhz şüurun yaratdığı müəyyən nüvənin ətrafında gedən proses zamanı yarana bilər, yəni ikinci halda. İlk ideya nüvə rolu oynayır və onun reallaşması üçün plan, layihə hazırlanır. Eydedik zəncirlər səthi, müvəqqəti, bir şüur miqyasında da ola bilir, uzunömürlü, zaman və mə-

[1] Гуссерль. Идеи I., с. 229.

kan çərçivəsinə sığmayan da. Bu isə asılıdır yeni eydedik strukturda hansı eydoslardan istifadə edilməsindən.

Eydedik zəncirlər fərqli səviyyələrdə qurulur: mümkün eydoslar və nüvələr səviyyəsində. Bunu təqribən iki rəssamla müqayisə etmək olar. Kimsə öz işini mexaniki şəkildə, gördüyü kimi çatdırır, digəri dərindən təhlil edərək ideyanın mahiyyətini verməyə çalışır, rənglər burada sanki ikinci dərəcəyə keçir, öndə obraz, ideya qalır. Nəticə ortaya çıxan rəsmdə özünü göstərir: birinin rəsmi bütün texniki göstəriciləri yerində olan, amma cansız göründüyü halda, digərinin rənglərdən ibarət olduğu unudulur və kətan üzərində yalnız obraz, məna qalır.

Mümkün eydoslar özləri də fərqli olur: a) nüvəyə yaxın və onun mahiyyətinin açılmasında əhəmiyyətli rol oynayan və b) nüvədən çox uzaq və özündə obyektin nisbi, müvəqqəti keyfiyyətlərini ehtiva edən. Təbii ki, onlar vasitəsilə qurulan eydedik zəncirlər də müvafiq mahiyyətə sahib olurlar. Burada haqlı irad yarana bilər ki, nüvəyə gedən yol da mümkün eydoslardan keçir. Məsələ burasındadır ki, idrak prosesi başlanğıcını hansı eydosdan götürürsə, o səviyyədə biliklərlə də tanış olur. İstisna deyil ki, nüvədən başlanan eydedik zəncir mümkün eydosda dayana, yaxud şüur hər hansı mümkün eydosdan nüvəyə keçid edə. Burada mütləq kənar təsir faktoru öz rolunu oynayır. Şüurun intensiyasının təbii axını isə uyğun eydoslar arasında baş verir.

Mümkün eydosları nüvənin mahiyyətinin mini daşıyıcısı da hesab etmək olar. Xatırladaq ki, onlar, bir tərəfdən, öz mahiyyətindən başqa, nüvənin reallaşmasına da xidmət edirlər, digər tərəfdən, ümumi eydedik strukturun mahiyyətində də əks olunurlar. Məhz buna görə də, mümkün eydosların öyrənilməsi ümumi strukturun da, nüvənin də dərkində böyük əhəmiyyətə malikdir. Sadəcə bir həqiqət var ki, mümkün eydoslar səviyyəsində qurulan eydedik zəncirlər bir strukturun çərçivəsindən kənara çıxmır və başqa üst sistemə keçid baş vermir. Buna görə də, bu səviyyədə qurulmuş eydedik zəncirlər kiçik miqyaslı yaradıcılıqlarda, elmi işlərdə öz əksini tapır. Nəhayət, onu da əlavə edək ki, mümkün eydoslar arasında qurulan zəncir nüvələr arasındakı əlaqənin tərkib

hissəsidir. Əvvəla, o, ümumi strukturun öyrənilməsini təmin edir və bununla vacib eydosun tanınmasında xüsusi rol oynayır, ikincisi, hər eydosun dərki şüura öz işığını qatır və yalnız onlar sayəsində güclənmiş intensiya nüvəyə çata bilir.

Eydedik zəncirin ən üst səviyyəsi vacib eydoslar arasında qurulandır və özündə əvvəlki zəncirləri də ehtiva edir. Bu, üst sistemə keçid edən və Loqosa qədər yüksələn, universal sistemin bir hissəsini işıqlandıra bilən, mütləq ruh müstəvisində öz ideyasının zirvəsinə çatan eydedik zəncirdir. Xüsusilə qeyd edək ki, məhz bu eydedik zəncirin nəticəsində idrak çevrəsi tamamlanır. Burada bir neçə əhəmiyyətli məqamı vurğulayaq. Birincisi, nüvələr üzərində qurulmuş eydedik zəncir özündə şüurun – insanın bütün potensialını ehtiva edir. İkincisi, bu zəncirin qurulması fenomenoloji reduksiya ilə tam üst-üstə düşən prosesdir. Üçüncüsü, yalnız bu zəncirin sonunda fenomenoloji epoxé-yə çatılır. Nəhayət, onu da vurğulayaq ki, diaqonal boyu eydedik zəncir qurulmur. Nüvələri birləşdirən eydedik zəncir ən böyük və digərlərini də özündə ehtiva edən çevrədir.

Şeylərin strukturları mürəkkəb və çoxeydoslu olduğuna görə, şüurun qurduğu zəncirin hansı səviyyəyə aid olmasını ayırd etmək çətindir. Əslində, elmdə, yaxud müəyyən sahədə yaranan mübahisələrin kökündə də məhz bu durur, çünki hər kəs öz bildiklərini, inandıqlarını yeganə həqiqət hesab edir. Xatırladaq ki, Eynşteyn hər zaman kvant nəzəriyyəsinə şübhə ilə yanaşmışdır. İnsanların eyni obyektə fərqli qatlardan və fərqli eydoslardan yanaşmaqları, üstəlik alınan biliklərin başqa əlavələrdən təmizlənməməsi, eyni obyekt haqqında əldə edilən son nəticəyə ciddi təsir göstərir. Axı hər əlavə həqiqətə öz təsirini göstərə, ona kölgə sala, əhəmiyyətli bir tərəfini görünməz edə bilir. Bunu təqribən eyni rəqəmin bir tərəfdən 6, digər tərəfdən 9 olmasının mübahisəsinə bənzətmək olar. Deməli burada şüurun, subyektin öz səviyyəsi, məsələyə yanaşması və obyekti hansı radius daxilində öyrənməsi əhəmiyyətli rol oynayır.

Hər nə qədər eydedik zəncirin qurulmasında məntiqin, dialektik

prinsiplərin mövcudluğunu vurğulasaq da, burada konkret model, sabit sillogizm qurmaq olmaz. Çünki birincisi, burada həm də qeyri-səlis məntiq qüvvədədir. İkincisi, hər eydedik zəncir şüurun potensialının ifadəsidir və unikallıq, təkrarsızlıq məhz buradan irəli gəlir. Artıq mövcud model üzrə eydedik zəncir qurmaq mümkün deyil, onun təkrarı, təqlididir. Elmdə və digər sahələrdə bu, kifayət qədər yayılmış və normal qəbul edilən üsuldur. Söhbət ilk dəfə yaradılan bir eydedik zəncirdən getdiyi halda isə, hər hansı şablon, yaxud mövcud plan işləmir.

### *§ 85. Eydedik zəncirin qurulması və yaradıcılıq*

Eydedik zəncirin qurulmasının nəticəsi yaradıcılıqdır. Belə ki, əgər zəncir qurularkən ilk ideya kənar ideyalardan təmizlənir və son nəticədə təsdiqlənirsə, yaradıcılıq prosesi boyu həmin ideyanın reallaşması, maddiləşməsi üçün başqa eydoslar əlavə edilir. Bu, idrak çevrəsinin tamamıdır. Əslində, hər ikisi tək-ümumi-tək prinsipi üzrə hərəkət edir, sadəcə birinci hissədə reduksiya aparılır və ideya saflaşır, ikincidə isə şüurun öz seçimi ilə yeniləri əlavə edilir. Burada əhəmiyyətli bir məqam var. Fenomenoloji reduksiya zamanı aparıcı qüvvə ilk ideyası olan şüurdur. Təbii ki, hərəkət trayektoriyası onun intensiyasına uyğun olacaq. Hər nə qədər şüur eydosların əksəriyyətini öyrənib onların arasından birini seçməli olsa da, seçim məhz ilk ideyasına və öz səviyyəsinə uyğun edəcək. Yəni burada obyektivliyin pozulması, həqiqətin kənarda qalması halları da mümkündür. Yaradıcılıq gedən prosesin tam güzgü əksi olaraq geri dönüşüdür. Buraxılan hər səhv, yanlış addım, natamamlıq orada özünü göstərir. Bəzən bunu həqiqətin, ilk ideyanın tam reallaşa bilməməyi kimi də qələmə verirlər. Sənətkar xəyalındakı rəsmi çatdırana qədər bir neçə qaralama nüsxə yaranır, hətta sonuncunun üzərində də davamlı olaraq ştrixlər əlavə edir. Deyiləndə müəyyən həqiqət payı olsa da, bunu da qəbul etməliyik ki, ilk ideya nə qədər aydın olarsa, bir o qədər onu dəqiq ifadə etmək asan olur. Başqa sözlə desək, özünüreduksiyanın səviyyəsi yalnız eydedik zəncirin qurulmasında deyil, həm də yaradıcılıqda və son nəticədə də özünü göstərir.

Eydedik zəncirin qurulması bilavasitə obyektin təbii quruluşuna nüfuz etməkdir. Elmdə bunu eksperimentlərlə, təcrübələrlə, müşahidələrlə edirlər. Kvant nəzəriyyəsinin gəldiyi qənaətə görə, istənilən nəticə mütləq subyektin varlığı faktını da özündə ehtiva edir. Eydedik zəncirin qurulması metafizik anlamda obyekt üzərində eksperimentdir. Şüurun – subyektivliyin son nəticədəki payı ilk ideyadan asılıdır. Belə ki, məqsəd obyektin öz nüvəsini öyrənmək olanda, fenomenoloji reduksiyanın sonunda şüurun öz radiusu qədər hissə yaradıcılığın – kəşfin nəticəsi olur. Əvvəl də gətirdiyimiz nümunələrdən məlum olduğu kimi, bəzən həmin radiusdan kənarda kifayət qədər vacib bir həqiqət də qala bilir. Lakin şüur yalnız işıqlandırdığı hissəni ifadə etmək gücündədir. Nəticə şüur sahibinin bacarığına uyğun olur – teorem, formul, tənlik və s. Həmin formul, yaxud fərziyyə eydedik zəncirin son halqası – obyektin nüvəsinin ifadəsidir. Bununla yanaşı, şüur öz ideyasının – yeni bir struktur yaratmaq istəyinin eydedik zənciri fenomenoloji reduksiya ilə eyni irəliləsə də, burada subyektivliyin payı daha çoxdur və son halqa yenə də obyektin nüvəsi olsa da, o, ilk ideyaya uyğun olaraq başqa bir strukturda istifadə olunmağa başlayır. Burada da son nəticə şüurun daxili radiusu çərçivəsində qalır, sadəcə bu, obyektin nüvəsinin deyil, şüurun özünün ifadəsi olur.

Eydedik zəncirin qurulmasını həm də metafizik metod adlandırmağımız təsadüf deyil. Əvvəla, fenomenoloji reduksiya yalnız maddi dünyadan deyil, həm də ilahi aləmdən keçir. İkincisi, insan maddi dünyanın özündə də şeylərin konkret formalarının fövqünə qalxaraq məsələyə mücərrəd baxış bucağından təhlil verməyə çalışır. Nəhayət, burada ilahi iradənin təsir faktı da nəzərə alınır. Xatırladaq ki, §53-də biz ruh vasitəsilə şüurun beşinci ölçüyə keçmək imkanından danışmışdıq. Bir tərəfdən, ruh eydedik zəncirin qurulma sahəsini genişləndirir, digər tərəfdən, ilahi iradənin vasitəçisinə çevrilir. Lakin burada bir sıra mühüm məqam da nəzərə alınmalıdır. İlahi iradə müəyyən hazırlığı olan şüura müvafiq təsir göstərir. Buraya istər eydedik şüurun başlanması, istərsə də prosesi aiddir. İlahi iradənin müdaxiləsi şüurun intensiyasını artıq

malik olduğu, yəni radiusunda olan bir eydosa fokuslamaqdır. Bu, həm də o deməkdir ki, eydedik zənciri quran şüurun özüdür, ilahi iradə deyil.

Eydedik zəncirin qurulması prosesdir. Əgər onu nəticəsi rasional şəkildə ifadə olunarsa, o zaman həmin proses nəticə ilə bərabər ümumi həqiqətlər sırasına qatıla bilir və başqaları ondan öz eydedik zəncirlərində istifadə edə bilir. Yəni ilk ideya və nəticə fərqli olsa da, müəyyən hissə eyni ola bilir. Bu, təqlid deyil, ümumi həqiqət kimi istifadədir. Eydedik zəncirin ilk halqası – şüurlar fərqli olduğuna görə, hətta prosesin müəyyən hissələri oxşar olsa belə, nəticə mütləq fərqlənməlidir. Maraqlıdır ki, şüur son nəticə haqqında tam təsəvvürə malik olmasa da, eydedik zəncirin nə vaxt bitdiyini yalnız o bilir, yalnız həmin nöqtəyə – vəhdətə çatanda şüur sakitləşir, rahatlanır. Hətta çatdığı müəyyən bir mərtəbə ətrafını qane etsə də, artıq bunun son olduğuna onu əmin etməyə çalışsalar da, kulminasiya nöqtəsini təyin edən şüur özüdür, çünki başlanğıc, həmin çevrənin ilk nöqtəsi özüdür. Onu da qeyd edək ki, bəzən bütöv bir eydedik zəncir tək həqiqət kimi ümumiləşir və ayrı bir idrak prosesinin halqalarından biri kimi istifadə oluna bilir.

### *§ 86. Sufi fenomenologiya və empatiya*

Empatiya psixoterapiyada metod kimi artıq təcrübədən keçirilib. Yaspersin adı ilə əlaqələndirilib "şərti olaraq "yuxarıdan" – fəlsəfi ideyadan gələn metod"[1] adlandırsalar da əsasən insanın mənəvi dünyasını, hiss və həyəcanlarını daha yaxşı anlamaq üçün istifadə edirlər. Bununla yanaşı, onu da etiraf edirlər ki, "Elmlərin fövqündə bir boşluq qalır ki, onu yalnız ağılla anlamaq mümkün deyil, onu hiss eləmək lazımdır, ondan zövq almaq olar. Rasional əldə ediləndən başqa obyektdə hansı isə harmoniya var ki, onu "cəbrlə yoxlamaq" olmur. Bu irrasional tərkib həqiqət və gözəlliyin əlaqəsini açmağı, elmi düşüncədə estetik başlanğıcı

---

[1] Карягина Т.Д. "Эмпатия как метод: точка зрения современной гуманистической психотерапии". Консультативная психология и психотерапия. 2016, т. 24. № 5, с.179.
https://psyjournals.ru/journals/cpp/archive/2016_n5/cpp_2016_n5_karyagina.pdf.

görməyi, başqa xalqın mentallığını anlamağı, insan və cəmiyyətin mənəvi dünyasını yaratmağı bacaran başqa araşdırma metodları, xüsusi idrak təcrübəsi tələb edir". Bunu öyrənən isə empatiya metodudur.[1] Onu da əlavə edək ki, psixoterapiyada istifadə olunsa da, empatiya fenomenoloji metod olaraq qəbul edilir, çünki onunla şəxsin "fenomenoloji sahəsinə"[2] daxil olurlar. Sufi fenomenologiyada da empatiyanın məqsədi odur: obyektin eydedik quruluşuna nüfuz etmək üçün. Sadəcə söhbət hisslərdən, mənəviyyatdan deyil, ümumiyyətlə obyektin mahiyyətinin dərkindən gedir.

İdrak şüurun gedib haradansa, hansı isə obyektdən həqiqəti götürüb gəlməyi, yaxud gedib həmin həqiqətə qovuşub orada qalmağı deyil. Həqiqət ümumiyyətlə şey kimi ələ götürülən, məkan kimi məskən salınacaq bir obyekt kimi nəzərdən keçirilməməlidir. Həqiqət eydosun malik olduğu mahiyyət, yaranış zamanı yüklənən mənasıdır, yəni eydosun, həmin məna ətrafında formalaşam eydedik strukturun özüdür. Eydos və eydedik struktur yalnız forma deyil, həm də mahiyyətdir. İdrak həmin mahiyyəti qavramaq, yəni onu olduğu strukturun daxilində olaola öz eydedik zəncirinin bir halqasına çevirməkdir. Düzdür, müəyyən hallarda həmin eydosu olduğu strukturdan qoparırlar və başqa struktura daxil edirlər. Bunu həmin eydosu qavrayandan, yəni təbii quruluşunda tanıyandan sonra da edirlər, əksinə, öyrənmədən, elə qaranlıq halda saxlayaraq da. İkinci halda eydosun öz həqiqəti bağlı, açılmamış qalır və bu, yeni strukturun naqisliyinə dəlalət edir. Dediklərimiz belə bir müqayisə ilə izah edə bilər. Bir var çiçəyi olduğu kimi, öz saplağı üzərində, otların əhatəsində, hansı isə ağacın kölgəsində öyrənmək, toxumdan cücərməyindən tutmuş, bir gecə çiçək açmasına qədər inkişafının hər mərhələsini müşahidə eləmək, bir də var həmin çiçəyi artıq açandan sonra qoparıb öz herbarinə əlavə etmək və şəxsi kolleksiyanı zənginləşdirmək. Empatiya birinci halda tətbiq olunan metoddur. Sufi fenomeno-

---

[1] Ковальзон М.М. "Эмпатия как метод воссоздания душевного мира человека и социума". ФН- 5/2011 Психологическое измерение, с. 70.
https://www.phisci.info/jour/article/view/1889?locale=ru_RU
[2] Yenə orada, s. 73

loji reduksiya şeylərə qarşı empatik yanaşmadır – obyektin eydosuna daxil olub, onun strukturu ilə doğmalaşıb onu olduğu kimi tanımaq və dərk etmək. Bizim tez-tez işlətdiyimiz eydosa, eydedik struktura "nüfuz etmək" ifadəsi əslində məhz empatiyanı nəzərdə tutur.

Empatiya hər nə qədər obyekti olduğu kimi qavramaq olsa da, burada subyektivlik əhəmiyyətli rol oynayır. Belə ki, obyekt şəxsin şüurunun daxili radiusu çərçivəsinə düşməsə, onu qavraya bilməz. Husserlin tələbəsi və fenomenologiya çərçivəsində empatiyanı öyrənən Edith Stein yazırdı ki, "fenomenologiyanın məqsədi bütün biliklərin sonuncu təməlini aydınlaşdırmaq və bu yolla onu tapmaqdır".[1] Filosofun çıxış nöqtəsi və istinadı Mən-dir: "Biz "Mən"i ikinci mənada şüurun axını kimi götürə bilərik. Biz "Mən"lə bir aktiv təcrübənin subyekti kimi başlaya bilərik".[2] Başqa sözlə desək, filosof subyektiv mövqeyini qorumaqla qarşısındakı obyekti tanımaq istəyir və onu da vurğulayır ki, "atdığım hər addım mənə dünyanı bir az daha açır və ya mən köhnəni yeni bir tərəfdən görürəm. Bu zaman mən həmişə yaşayan bədənimlə bərabər oluram".[3] Burada bir neçə əhəmiyyətli məqam var. Əvvəla, hər nə qədər empatiya obyektin mahiyyətinə nüfuz etmək olsa da, Mən qorunmalıdır, çünki subyektivliyin təminidir. Əslində, həmin idrak prosesinin aparıcı qüvvəsi və unikallığının göstəricisi də Mən-dir. İkincisi, Steinin də dediyi kimi, bu, "şüurun axınıdır", daha dəqiq desək, daha güclü enerjinin zəifə doğru axması, onu zəbt etməsi və ümumi eydedik zəncirin axınına qoşmasıdır. Deməli, Mən kifayət qədər güclü olmaqla yanaşı, eydedik zənciri də düzgün məntiqlə qurmalıdır ki, obyektin eydosu o zəncirə uyğun gəlsin. Maraqlıdır ki, bunun əksi də ola bilir. Yəni empatiya zamanı Mən-in işığı obyektin işığından zəif olur və özü zəbt olunur. Bunun canlı nümunəsini Edith Stein öz həyatında görmək mümkündür. Özünün yazdığına görə, o, yaxın dostlarının ailəsində imanın itki, dərd və kədərdə necə böyük dəstək olduğunun, güc və iradə verdiyi-

---

[1] Stein Edith. *On the Problem of Empathy*. Trans. by Waltraut Stein. Springer-Science+Business, B.V., 1964, p. 3.
[2] Yenə orada, s. 38.
[3] Yenə orada, s. 43.

nin, ən vacibi isə, bütün bunların Yaradana sonsuz sevgidən qaynaqlandığının şahidi olur və bu da onda dinə, daha doğrusu, İsa Məsihə bir meyl yaradır. Edith Stein dərdin, bəlanın qarşısında məhz ilahi sevginin sabitliyini görür və çox təsirlənir. Əslində, tədqiqat mövzusu empatiya problemi olan və fenomenoloji bir metodla yanaşaraq hər şeyin özünə, mahiyyətinə nüfuz etməyə çalışan Steinin Yaradana, Mütləq Varlığa marağının yaranması zaman məsələsi idi, çünki şüuru buna hazır idi. Bir neçə il sonra o, təsadüfən Avilalı Teresanın kitabı ilə tanış olur: "Seçmədən, əlimə keçən ilk kitabı götürdüm. Bu, qalın bir cild idi, adı da "Avilalı Müqəddəs Teresanın həyatı" idi. Mən onu oxumağa başladım və onu bitirməyənə qədər ayrıla bilmədim. Onu örtəndə öz-özümə etiraf etməli oldum: həqiqət budur!"[1] Belə məlum olur ki, yaşadığı empatiya sayəsində Steinin öz şüuru dəyişir, ümumiyyətlə fərqli istiqamətə yönəlir.

Dediklərimiz empatiyanın hiss və emosiyalardan daha dərin müstəvidə tətbiq olunma imkanını vurğulayır. Məsələ burasındadır ki, hisslər yalnız müəyyən düşüncənin görünən, ifadə olunan tərəfidir. Sufi fenomenologiyanın psixoterapiyadan fərqi də burdadır: empatiya mənəvi yaşantıları deyil, mahiyyətin özünə yönəlməlidir ki, eydedik səviyyədə anlaşma baş verir. Empatiya sadəcə obyektin mənəvi dünyasını anlayan, onun yaşadığını olduğu kimi hiss etməkdən daha geniş anlayışdır. Hələ 1905-ci ildə xəstəyə tətbiq edilən təcrübənin düzgün təsir etməsini, xəstənin daxili bir tormozlanma yaşayıb-yaşamadığını öyrənmək üçün Freyd qeyd edir ki, "biz xəstənin psixi halını nəzərə alırıq, özümüzü onun yerinə qoyuruq və onu özümüzünkü ilə müqayisə edərək onu anlamağa çalısırıq".[2] Biz Freyddən fərqli olaraq xəstədən və yardım gözləyən bir şəxsdən danışmırıq. Empatiya yalnız psixi hala deyil, onun şüurunun da mövcud durumuna mahiyyətinə nüfuz etməkdir. İnsan qarşıdakının nə düşündüyünü bilə bilməz, ancaq onun eydedik zəncir vasi-

---

[1] Сикари Антонио. *"Портреты святых" – Эдит Штейн*, том 1, Милан, 1987. https://www.portal-credo.ru/site/?act=lib&id=42

[2] Фрейд З. Остроумие и его отношение к бессознательному, с. 103-104 https://drive.google.com/file/d/0B_-4jjQ3EHezb1g1VDJPS0VCSG8/view

təsilə həmin düşüncənin mühitini öyrənə bilər. Məhz onunla eyni dalğada olandan sonra həm onun düşüncələrinin qaynağını, istiqamətini tanıyar, həm də onun psixi halını olduğu kimi yaşaya bilər. Yəni burada, qeyd etdiyimiz kimi, psixi hal əslində ikinci dərəcəli və əsas addımdan alınan bir nəticədir. Daha vacibi isə, sufi fenomenologiyaya görə, empatiya cansız obyektin də mahiyyətinə nüfuz etməkdir.

Edith Steinin nümunəsindən də göründüyü kimi, empatiya çox ciddi addımdır, çünki bir şüurun axarında (bu şüur sənin özünün də ola bilər, qarşıdakının da) əsaslı dəyişikliyə səbəb ola bilər. Hər şeydən əvvəl, bu, enerjilərin təmasıdır. Bu səbəbdən, empatiya metodunu tətbiq etməyə hazırlaşan insan ilk növbədə özü kifayət qədər güclü olmalıdır. Söhbət yenə də şüurun özünüreduksiyasından gedir. Xatırladaq ki, hər hansı mistik təriqətdə lider, mürşid, başçı öz davamçılarını ilk növbədə mental olaraq zəbt edir. Obrazlı desək, öz işığı ilə qarşıdakının işığını "udur", əridir. Təsadüfi deyil ki, obyektlər adətən şüurunun daxili radiusu dar olan, bəlkə də heç öz nurundan xəbəri olmayan, özünü tam kəşf etməyən və bunun ehtiyacını yaşayan yeniyetmələr, gənclər arasından çıxır. Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, insan özünü tanımayana qədər istənilən daha güclü bir şüurun – işığın hökmünə düşmək təhlükəsi böyükdür. Təriqət, sekta, gizli təşkilat liderləri məhz empatiyadan istifadə etməklə, yəni gəncin halına yandığını, onun problemlərini onun kimi hiss etdiyini göstərməklə həmin gənci "zəbt" edir. Bu, nə hipnozdur, nə də tilsim, sadəcə empatiya vasitəsilə qarşıdakının şüurunu öz hökmü altına almaq, mental işğaldır.

Göründüyü kimi, sufi fenomenologiyaya görə, empatiya fenomenoloji reduksiyanın bir hissəsidir. Daha dəqiq desək, şüurun obyekti dərk etməsi üçün onun eydedik strukturuna nüfuz etmək metodudur və yalnız hisslərə deyil, ümumiyyətlə şüura tətbiq olunur. Bununla yanaşı, bu, həm fəlsəfi məsləhətləşmədə sufi fenomenologiyanın istifadə etdiyi bir metoddur. Təkrar edək ki, burada məqsəd qarşıdakı şəxsin problemini hisslər, emosiyalar, hətta xatirələr səviyyəsində təhlil etmək deyil, eydedik qatda öyrənilmək və eydoslarının enerji axınını bərpa etməkdir.

### § 87. Konkretlikdən mücərrədliyə keçid

Mücərrədləşmə şüurun imkanlarının müəyyənləşməsidir. Əhəmiyyətli olan onun reallıqdan uzaq olması deyil, onun konkretliyin çərçivəsindən çıxa bilməsindədir. Təsadüfi deyil ki, yaradıcılığın kökü də məhz mücərrədləşməyə bağlıdır. Bu, həm də insanın mental və ruhən böyüməsinin başlıca səbəblərindəndir.

Yaradılmışlar arasında yalnız insan fiziki inkişafı dayanandan sonra da böyüməyə davam edir. Başqa varlıqlar konkretdir və onların inkişafı həmin çərçivədən kənara çıxmır. İnsan isə ontik mövcudluğundan daha böyük miqyasa qədər böyüyə, yaxud daha aşağı səviyyəyə enə bilir. Fiziki göstəricilərinə görə insan müəyyən bir bioloji növə aid edilir, hətta təsnifatda heyvanlarla eyni sıraya qoyula bilirlər. Yəni konkret hüdudlar daxilində hər varlıq kimi, insan da bəlli keyfiyyətlərə malikdir və onunla tanınır – bu gün də, 1000 il əvvəl də. Ancaq insanın mahiyyəti – şüuru həmin sərhədlərdən daha genişdir. Məhz şüuruna görə hər insan unikal və təkrarolunmazdır.

Ümumilikdə götürəndə maddi dünya konkret və məhduddur. İnsan qismən bu dünyaya aiddir. Məhz bu aspektdən baxanda onu təbiətin bir hissəsi, təbii proseslərin bir halqası kimi dəyərləndirmək mümkündür. Lakin bu da həqiqətdir ki, bu konkret sərhədlər daxilində nə qədər inkişaf etsə də, insan konkretlikdən kənara çıxa bilmir və naqis qalır. İnsan həm də daha üst dünyaya aiddir və konkretlikdən həmin mücərrədliyə keçmək onun təbii quruluşunda, mahiyyətindədir. Varlığının bu xüsusiyyətinə görə, onun idrak prosesi maddi dünyadan başlayıb, ilahi qədər yüksələ, hər iki aləmə aid idrak metodlarından istifadə edə və hər ikisindən qavradığı həqiqətləri şüur sisteminə yerləşdirə bilir.

İnsanlar şüurlarına görə fərqlənsələr də, mücərrəd aləmə yüksələndən sonra onların Loqosda birləşmək, eyniləşmək imkanı var. Hegelin məlum fikirlərinə qayıtsaq xatırlayarıq ki, mütləq ruhun təzahürlərində bütün şüurları eyni həqiqət maraqlandırır. Yəni konkret insanların şüurları mücərrədləşdikcə təkə – Loqosa yaxınlaşırlar. Buradakı subyek-

tivlik obyektivlikdən daha çox hissəni aydınlandırmağa, mücərrəd İnsanın dünyagörüşünü genişləndirməyə xidmət edir. Qısa desək, subyektivlik fərqliliyin deyil, vahidin ayrı-ayrı hissələrinin ifadəçisinə çevrilir.

Maddi dünyada hər varlığın öz konkret məkanı, forması var. Onların böyüməsi bir-birinə mane olmur, əksinə bir-birini tamamlayır. Bir meşədə böyük ağaclarla bərabər kiçik kollar, çiçəklərin varlığı kimi. İnsan bu sistemə daxil olmadığına görə, onun böyüməyi fərqlidir. Məsələ burasındadır ki, insan başqa varlıqların məkanını zəbt eləməklə böyüyür. Və bu zəbt rasional şüur vasitəsilə baş verir. Bununla belə, yaradılmışlar vahid bir sistemə daxildirlər və öz müstəqil sistemlərinə malik olmaqla yanaşı, həm də həmin strukturun tərkib hissəsidirlər. Yəni hamısı öz aralarında mütləq şəkildə əlaqəlidirlər. Bu yaradılışın qanunauyğunluğudur. Bu qanunların kəşf olunub olunmaması – insanın onları dərki həmin sistemlərə heç nə vermir. Əksinə, insan müdaxilə edəndə, nəyi isə dağıdanda, zərər verə bilər. Bu qanunauyğunluqların kəşfi, sistemlərarası əlaqələrin öyrənilməsi insana lazımdır, insan üçündür. Deyilənlərdən belə məlum olur ki, insanın təbiət üzərində hakimiyyəti var və bunu ona verən şüurudur. Təbiət-obyekt passiv tərəfdir, insan isə aktiv. Düşüncəsinin səviyyəsinə müvafiq olaraq insanın ətraf aləmə iki cür münasibəti formalaşır. Birinci halda o, təbiəti düşüncəsinin, arzularının, məqsədinin plasdarmı olaraq görür və yer üzündə özünün mütləq hakimiyyətini qurmağa çalışır, özünü bir hissəsi bildiyi bu məkanda avtoritetini təsdiqləməyə çalışır. İkinci halda isə o, özünün kimliyini, mahiyyətini tanıdığına görə təbiəti həqiqətlərin bir mənbəyi, növbəti mərhələyə keçid kimi istifadə edir, maddi dünyanın fövqünə yüksəlməyi bacarır. Başqa sözlə desək, özünü təbiətin bir hissəsi kimi görən və özünün ondan yüksəkdə olduğunu dərk edən insanın təxəyyülü də fərqlidir.

İnsan subyektiv dünyasını qurmaqla yetməyib, həm də ona mane olmayan, onun inkişafına kömək edən ətraf yaradır. Bir növ ev tikməklə yanaşı onun ətrafında hasar da çəkir. Nəticədə obyektiv dünya vizual olaraq kiçilir, subyektiv dünyalardan ibarət olur. Məsələn, meqapolis hündür binalardan, asfalt küçələrdən, səs-küydən, çirkli havadan, mil-

yonlarla insanın həyatından ibarət bir sistemdir. Obyektiv təbiət pandemiya vaxtı özünü göstərdi: insansız küçələrə gələn heyvanlar, kanallara qayıdan balıqlar və s. Obyektiv dünyanın kiçilməsi insanın təxəyyülünün, şüurunun sərhədlərinin də daralmasıdır. İdrakı yalnız təbiət, konkret çərçivədə inkişaf edən şəxsin daha üst sistemə çıxışı yoxdur. Məsələn, bir insan çinarı odun, digəri tikinti materialı, üçüncü biri isə bağında əkib sadəcə yaşıllığı artırır. Deməli, insanın yaratdığı təbiət obyektiv təbiətin bir hissəsinin dəyişdirilmiş formasıdır.

Deyilənlərdə əhəmiyyətli bir məqam var. İnsan öz dünyasını özü qurmağa qadirdir. Bu dünya ya təbiətlə vəhdət yaşayır və bu zaman onun universal aləmə yolu açıqdır; ya da yaratdığı aləm yalnız maddi aləmlə çərçivələnir. Əslində, deyilə bilər ki, başqa canlılar da öz "dünyalarını" – şəraitlərini qurub yaşayırlar. Lakin onlar təbiətin qanunları çərçivəsində hərəkət edir və heç vaxt ondan kənara çıxmırlar. İnsan da təbiətin qanunlarını öyrənir, bəzi obyektiv qanunlara qeyri-şüuri tabe olur. Bununla yanaşı, o, öz qanunlarını diktə etməkdən də çəkinmir və ətrafını da onlara tabe olmağa məcbur edir. Bu fikir həm yaradıcı, həm də dağıdıcı insana aiddir. Məsələn, insan yer cazibəsi qanununu kəşf etdi, ancaq bu qanunu bilməsi ona neçə tonluq təyyarələr istehsal etməsinə mane olmadı, əksinə, müəyyən mənada hətta ondan yararlandı. Yaxud insan bilir ki, onun orqanizmi üçün oksigen vacibdir, lakin təbiətin oksigen bazasını – meşələri qırmaqdan çəkinmir. O, qurduğu dünya istənilən halda təbiətlə doğmalaşa bilmir və daim ona yad olur. Təbiət insanın daha yüksək həqiqətə çatması üçün vasitədir. Yaradıcı insan dərk etdiyi sistemin daxilinə nüfuz etməklə növbəti həqiqətə keçməyə nail olur. Nyuton mexanikası Eynşteynin nisbilik nəzəriyyəsinə, o da öz növbəsində kvant fizikasına yol açdı. Öz düşüncəsini və ona uyğun yaradıcılığını inkişaf etdirən insanın universal həqiqətə – Loqosa qədər yolu açılır. Dağıdıcı insan isə işığını artıra bilmir və deməli, qarşıdakı qaranlıqda aciz qalır. Xatırladaq ki, hər obyekt daha böyük sistemin tərkib hissəsidir. Deməli, onu dağıtmaqla insan özünün daha üst sistemə yolunu bağlamış olur. Meşələri qırması, sular çirklənməsi buna bariz nümunədir.

Şüurun mücərrədləşməsi özündə bir neçə xətti ehtiva edir. Əslində, kitab boyu onlar barədə məlumat vermişik, burada isə qısaca xatırladaq. Əvvəla, insan ruhunun varlığından xəbərdar olur və onun verdiyi imkanlardan istifadə edir. Məhz ruh vasitəsilə şüur sonsuz aləmə, yəni maddi dünyanın fövqünə qalxır və şeylərə dördölçülü məkanda təhlil verə bilir. Bu, irrasional biliyin qavranılmasıdır. Ruh həm də şüurun nurunu artıran bir qüvvədir. Onun sayəsində konkret çərçivənin kənarındakı qaranlığa doğru irəliləyir. İkincisi, məhz mücərrədləşmə şüura imkan verir ki, zamana yalnız üfüqi deyil, həm də şaquli xətt boyunca baxsın. Zamanın təyinedicisi insandır, daha da dəqiqləşdirsək, şüurdur. Deməli, şüurun mövqeyindən və səviyyəsindən asılı olaraq zamana baxış da dəyişir. Zamana belə bir baxış şüura imkan verir ki, istənilən nöqtədən inkişaf xətti başlaya bilsin, keçmiş və gələcək arasında gəzişsin, bir sözlə, zamanın hüdudlarından çıxıb azad olsun. Üçüncüsü, şüur böyük potensiala malik nöqtədir və açılmağa ehtiyacı var. Mücərrədliyə keçid də həmin potensialın tələbidir, çünki şüur böyüməyə meylli fenomendir və müəyyən bir səviyyədən sonra konkret çərçivə ona mane olmağa başlayır. Dördüncüsü, mücərrədləşmək olan şeylərə daha üst səviyyədən, vahid sistemin tərkib hissəsi kimi baxmaq deməkdir. Məsələn, bir fənn müəyyən çərçivədə olan bilikləri, qanunları öyrənsə də, bu çərçivə nisbi xarakterlidir. Varlıqların konkretliyi onların özləri, yaxud onları yalnız zahiri göstəricilərinə görə dəyərləndirənlər üçündür. Eydedik quruluş isə konkret sərhədlərin nisbi olduğunu, əslində daxildən daha sıx əlaqənin və bu əlaqənin həmin şeylərin mahiyyəti üçün daha böyük əhəmiyyət kəsb etdiyini göstərir. Onu da əlavə edək ki, dünyaya vahid sistem kimi yanaşma insanın dağıdıcılıq, eqo-mərkəzçi hissinin də qarşısını alır. Mücərrədliyin ehtiva etdiyi daha bir xüsusiyyət isə onun yaradıcılığının kökündə durmağıdır. Paraqrafın əvvəlində də, qeyd etdiyimiz kimi, mücərrədlik şüurun imkanlarının göstəricisidir. Əslində, təxəyyül məhz mücərrədliyin təzahürüdür. Deməli, şüurlar arasındakı hüdudlar da mücərrədlik sayəsində ortadan qalxır və şüur azad olur. Buraya insanın hər iki yaradıcılığı aiddir: həm şüurun mövcud struktur üzərində öz ideya-

nın strukturunu qurması, həm də özünün ilk ideyası üzərində yeni bir struktur qurması. Məsələ burasındadır ki, şüur mücərrədləşdirməyi bacarmasa, təbii quruluşda hər hansı keyfiyyəti, xüsusiyyəti mötərizəyə ala bilməz.

Beləliklə, mücərrədləşmə insanın özünün konkret çərçivəsini tanımasından sonra başlayır. Şüur insanın nüvəsidir və bu nüvənin tanınması, yəni özünüreduksiya mücərrədləşmə üzərində qurulur. İdrak nöqtənin dairəyə çevrilməsidir. Deməli, ilk növbədə həmin nöqtə dəqiqləşməli, başqa nöqtələrdən seçilməlidir. Bu mənada, mücərrədləşmə şüurun aktivləşməsi və müstəqil şəkildə daxili radiusunu genişləndirmək bacarığıdır. İnsan özünün *tode ti*-sindən çıxmağı öyrənir. Çünki məhz nüvənin mücərrədləşməsi ilə onun malik olduğu bacarıqlar, imkanlar aydınlanır.

### *§ 88. Fəlsəfi məsləhətləşmə və sufi fenomenologiya*

XX əsrin sonlarında təşəkkül fəlsəfi məsləhətləşmə artıq kifayət qədər tanınmaqda və yayılmaqdadır. Sufi fenomenologiyada ondan bir metod olaraq istifadə edilir: insanın mahiyyətini anlamaqda və öyrəndiklərini gündəlik həyatda tətbiq etməkdə. İstənilən problemin kökü şüura bağlı olduğuna görə, onu üzdən, yəni hisslər, emosiyalar səviyyəsində həll etmək məsələnin daha da dərinləşməsinə səbəb olur. Problemin həlli ilk növbədə düşüncəni qeyri-müəyyənlikdən qurtarmaqdır. Fəlsəfi məsləhətləşmə psixoloji metod deyil. Onun tanınmış nümayəndəsi Ran Lahav yazır: "Psixoterapiya və fəlsəfi məsləhətləşmə kəsişməyən və bir-birini tamamlayan sahələr kimi baxılmamalıdır. Onlardan hər biri həyatın fərqli aspektlərinə yönəlidir".[1] Ən vacibi isə, psixoterapiya insanın psixi halı, hissləri, inancları, gizli həyəcanları, uşaqlıq xatirələrinə istinad edir, fəlsəfi məsləhətləşmə isə insanın varlığı, müəyyən vəziyyəti

[1] Lahav Ran. Philosophical Counselling as a Quest For Wisdom. http://www.society-for-philosophy-in-practice.org/journal/pdf/4-1%2006%20Lahav%20-%20Quest%20for%20Wisdom.pdf.

ilə əlaqəli olan abstrakt ideyalara.[1] isə belə hesab edir, fəlsəfi məsləhətləşmə "keçmişə baxan ənənəvi psixoterapiyadan fərqli olaraq, gələcəyə baxır".[2] Belə məlum olur ki, hər ikisi problemin həllinə çalışsa da və bu, əsasən söhbət, məsləhətləşmə (psixoterapiyada həm də dərmanlar) vasitəsi ilə aparılsa da, məsələyə yanaşma kökündən fərqlənir. Bu fərqin nə qədər böyük olduğunu göstərmək üçün fəlsəfi məsləhətləşmənin başqa bir tanınmış nümayəndəsi Lou Marinoff özünün bu sahəyə aid ən böyük əsərini "Prozak yox, Platon! Əbədi Hikmətin gündəlik problemə tətbiqi" adlandırır.[3] Prozak antidepresan, propilamin əsaslı dərmandır. Məhz bunu nəzərdə tutan filosof öz müsahibəsində qeyd edir ki, "bizim müştərilərə təklif etmək üçün olduqca faydalı ideyalardan ibarət böyük bir dəstimiz var – 2500 illik yığılmış müdriklik".[4] Bəli, fəlsəfi məsləhətləşmənin ən böyük silahı da, ən faydalı metodu da, ən incə yanaşması da yalnız fəlsəfi ideyalar, hikmətlərdir. Məhz onlar vasitəsilə məsləhətçi-filosof qarşıdakını düşünməyə, mövcud biliklərini və potensialını aktivləşdirməyə və bu yolla öz probleminin həllini axtarmağı öyrədir.

Daha əvvəl də qeyd etdiyimiz kimi, düşünmə şüurun öz gücü miqyasında tədricən obyektlərin işıqlarını mənimsəməklə irəliləməsidir. Bəlli bir səviyyədə bu, eydedik zəncirin qurulmasıdır. Bəzən ya şüurun işığının gücü çatmayanda, ya idrak prosesinə uyğun obyekt seçilməyəndə, ya da şüur öz trayektoriyasından çıxanda, əyiləndə bir növ düyün yaranır və hərəkət dayanır. Şüur enerjiyə malikdir və xərclənməlidir. Düyün həmin enerjinin toplanması, daxildən şüuru incidir. Bu, problemin yaranma məqamdır. Türk musiqisinin ustadlarından olan Rəhmi Oruc Gü-

---

[1] Lahav Ran. The Efficacy Of Philosophical Counselling: A First Outcome Study // Practical Philosophy, Journal Of The Society For Philosophy In Practice, Volume 4, No. 2 August 2001 https://rossellapoiein.files.wordpress.com/2012/08/practical-philosophy.pdf s. 5.

[2] Marinoff Lou. Pla*to, Not Prozac!: Applying Eternal Wisdom to Everyday Problems*. Quill; Reprint edition 2000, p. 9.

[3] Yenə orada.

[4] Philosophical Counselling: an Interview with Lou Marinoff. http://www.loumarinoff.com/wp-content/uploads/2014/08/australia02.pdf. Psychotherapy in Australia. Vol 8 no 3 MAY 2002, p. 3.

vənin bildirdiyinə görə, insan orqanizmində hər hüceyrənin öz səsi var və yalnız bu səslər harmonik şəkildə səslənəndə inşanın həm bədəni, həm də düşüncəsi rahat və sağlam olur. Xəstəlik, yaxud problem hər hansı hüceyrənin həyəcanlanması və ümumi ahəngdən çıxmasıdır. Rəhmi Oruc Güvən öz sahibini narahat edən və ümumi ahəngi pozan hüceyrəni sakitləşdirmək üçün musiqi terapiyası təklif edir. Burada əhəmiyyətli məqam hüceyrənin təbii halına döndərilməsidir. Əslində, təəccüblü deyil, çünki hər təbii quruluşun ümumi bir enerjisi, həqiqəti var və o, həm də həmin strukturun daxili bərpa proqramıdır. Problemli insan – həyat xətti dolaşmış, düyünə düşmüş insandır. Necə ki, harmoniyası pozulmuş hüceyrə orqanizmi xəstələndirir, eləcə də, ipə düşmüş düyün həyatı mürəkkəbləşdirir. Əlbəttə, düyünlər fərqli olur: bir cəhddə açılan, ciddi əmək, düşüncə tələb edən. Bəzən Qordi düyününə çevrilib illərlə həllini gözləyən də olur. Ancaq Qordi düyünündən fərqli olaraq, həyat düyününü hər vaxt kəsmək olmur, onu məhz açmaq lazımdır. Yəni istənilən düyünün açılmasında İsgəndərin qılıncından çox, Aristotelin düşüncəsinə, məsləhətinə ehtiyac var. Aristotel təsadüfən demirdi ki, "növbəti uğur əvvəlki çətinliyi həll edəndən sonra mümkündür və düyünü öyrənmədən onu açmaq mümkün deyil".[1] Sufi fenomenologiya *indi*-dən çıxış edərək ilk düyünə qədər qayıtmaq bacarığıdır. Yəni burada artıq bir andan, *indi*-dən başlayıb, Loqosa doğru irəliləməkdən söhbət getmir, əksinə, geri qayıdıb, düyünün özünü araşdırmaqdır. Məsələn, iynəni saplayanda əgər düyün varsa, həmin məqama çatanda sap dayanır və həmin düyünü sapı qırmadan açmaq üçün ipin ucunu tapmaq lazımdır. Onu da qeyd etmək lazımdır ki, hər şüur səviyyəsinin düyünü də özünə müvafiq olur. Qurani-Kərimdə də deyildiyi kimi, (Quran 13/17) hər arx tutduğu qədər su qəbul edir. Bu, həm də hər problemin həllinin kökünün yenə də həmin şüurun özündə olmasına bir işarədir. Onu da əlavə etmək lazımdır ki, idrak prosesində yaranmış düyün obyekti tanımaqda maneə yaratdığı kimi, insanın özünütəhlilində də problem olur. Xatırladaq ki, bunlar tək prosesin qarşılıqlı şəkildə bir-birini tamamla-

---

[1] Aristotel. Metafizika, 2 994a 28

yan iki mərhələsidir. Bəzən bunu nəzərə almamaqla, problemin kökünü və təbii ki, həllini tapmaq da çətinləşir.

Sufi fenomenologiyanın metodları insana idrak prosesində daha dərinə nüfuz etməyə, eyni zamanda, bu prosesdə öz identikliyini qorumağa kömək edir. Fəlsəfi məsləhətləşməni bir növ bütün metodların kompleks tətbiqi də adlandırmaq olar. Məsələn, sufi fenomenologiyada empatiya yalnız obyektlə daxili bağ qurmaq deyil, həm də özündə ona kömək edəcək gücü tapmaqdır. Başqa sözlə desək, iki prosesi eyni vaxtda aparmağa imkan verir.

İnsana güclü təsir edən və onun nəinki idrak prosesinin istiqamətini, hətta Mən-ini də dəyişdirə bilən faktorlardan biri də informasiya bolluğudur. Hər nə qədər informasiyanın yaradıcısı, mənbəyi insan özü olsa da, yenə də onun hökmü altında, onun diktəsi ilə hərəkət etməli olur. Kant deyirdi ki, "Şəxsiyyətdə, doğrusu, yüksək heç nə yoxdur, çünki əxlaq qanununa tabedir, lakin onda ali bir şey də var, çünki bu qanunu onun özü qoyur, buna görə də ancaq ona tabe olur".[1] Əxlaq anlayışını informasiya ilə əvəz etsək, müasir dövrün aydın bir mənzərəsi yaranar – İnsan öz yaratdığı informasiyanın quluna çevrilib. Biliklər yalnız informasiya şəklində qəbul edilir və bu hal o dərəcədə geniş yayılıb ki, bütün sahələri idarə etməyə başlayıb, hətta fəlsəfəni də. Xatırladaq ki, şüurun sisteminə yerləşməyən, onun özünüreduksiyasında iştirak etməyən hər informasiya yükdür və şüurun fəaliyyətinə mane olur. Bu isə öz növbəsində düşüncənin və Mən-in formalaşmasında naqislik yaradır. Hələ XX əsrin ikinci yarısında Karl Yaspers yazırdı ki, "Çox vaxt fəlsəfə öz təbiətini düzgün anlamayaraq özünü müasir elmlə eyniləşdirirdi və ya bütün bu əsrlər ərzində "o da elm" kimi çıxış edirdi. Bu günün vəzifəsi onu özünə qaytarmaqdır".[2] Ancaq o vaxtdan texnika və texnologiyanın imkanları daha da genişlənib, nəticədə informasiyanın yayılma sürəti və bilavasitə şüuraltına təsir qüvvəsi artıb. Bütün bunlar insanın diqqətini

[1] Кант И. Основоположения метафизики нравов, с. 219.

[2] Ясперс К. "Философская автобиография. Западная философия. Итоги тысячелетия. Екатеринбург, Деловая книга, 1997, с. 133.

daha çox kənar aləmə, ətrafa fokuslanmağa məcbur edir və özünü də artıq bu kontekstdə görür. Başqa sözlə desək, insan özünü kamilləşdirərək ətrafa da o kamilliyin ötürülməsini düşünmək əvəzinə, özünü ətrafın ümumi mənzərəsinə köklənməyə, uyğunlaşdırmağa çalışır. İnsan bir növ öz ruhu, öz nüvəsi ətrafında toplaşmaq, sıxlaşmaq əvəzinə, dağılır, parçalanır və... ruhu yalqız qalır. Xatırladaq ki, hər insanın ruhu həmin bədən, həmin sistem üçün nəzərdə tutulub. Axı onun da müəyyən enerjisi var ki, idrak prosesində, yaradıcılıqda, adi gündəlik həyatda iştirak etməli və onu mütləq ötürməlidir. Şüur və ruh arasında əlaqə kəsiləndə yalnız şüur deyil ruh da problem yaşayır. Bir paralel aparsaq, görərik ki, bütün elmlərə ev sahibliyi edə-edə özü tənha qalan fəlsəfə kimi insan da yaratdığı texnologiyalar, informasiya xaosu, sosial şəbəkələr arasında tənhadır. Bu günün insanı nəinki öz ruhu ilə baş-başa qala, onu dinləyə bilmir, heç onu görməyə macal da tapmır, çünki diqqət başqa obyektlərə yayınıb. Deyilənlərin fonunda müasir insan portretinə baxaq... İnformasiya selində boğulan, yalqız olduğu üçün kimsədən kömək gözləyə bilməyən və hansı isə uzaq təşkilatlara, mücərrəd qüvvələrə üz tutub yardım gözləyən, hər addımda problemlər yaşayan və tapdığı həll yolu mütləq başqa problemin yaranmasına səbəb olan, bunları yaşamamaq və gündəlik informasiyaları vaxtında və lazımi qədər mənimsəmək üçün robotlaşma səviyyəsinə çatan sosial bioloji varlıq.

Burada əhəmiyyətli bir məqam da vurğulanmalıdır. Əslində, hər insanın mənəvi kamilləşməsi, özünüreduksiyası üçün təkliyə ehtiyacı var – öz ruhu ilə baş-başa qalıb, ruhu vasitəsi ilə ilahi aləmə yüksələ bilməsi, oradan bilik ala bilməsi, aldığı bilikləri Mən-inin formalaşması üçün istifadə etməsi üçün. Bu, şüur və ruh arasında əlaqənin qırılmasından və hər birinin təcrid olunmasından fərqli haldır. Əslində, yaradıcılıq, şüurun inkişafı və özünü tanıması məhz daxili prosesdir, ruhani təcrübənin bir hissəsidir. Heizenberqin Haydeggerlə müzakirəsinə qayıtsaq, təklik öz mahiyyətinin "obrazını" görmək və onu özündən kənarda, obyekt olaraq canlandırmaq imkanıdır.

Belə məlum olur ki, problem – insanın ya öz daxili aləminin, ya

da ətraf aləmlə harmoniyasının pozulmasıdır. Əslində, bunlar əlaqəlidir, çünki ruhunun və maddi orqanizminin arasında harmoniyası pozulan insan ətrafı qavramaqda da çətinlik yaşayır. Fəlsəfi məsləhətləşmə insanı məhz bu məqamlara yönəltmək üçün, Marinoffun dediyi kimi, filosoflarla "ünsiyyətə" cəlb edən və bununla öz ruhu ilə əlaqəsini bərpa edən, daxili potensialının üzə çıxmasını təmin edən bir metoddur. Axı, ünsiyyətlər fərqli olur. Bir var dəmir mülayim su, nəmlə "qol-boyun ola", bir də var sərt çəkic, od, zindanla çəkişə-bərkişə. Birinin sonunda ortada pas atmış, çürüməkdə olan lazımsız dəmir parçası qalır, digərinin sonunda qılınc! Hətta bir dəmirin də bir qılınca çevrilməsi üçün çəkic, od, zindanla "ünsiyyətdə olması" zəruridir. Sufi fenomenologiyanı metod olaraq fəlsəfi məsləhətləşməni öz şüurunun təftişi adlandırmaq olar, çünki məhz bu halda həm düyünlərin mahiyyəti aydın olur, həm də özünün ətrafla təmas nöqtələrini daha aydın sezir.

### *§ 89. Sufi fenomenologiya və başqa fənlər*

Əksər elmlərin öz mənbəyini fəlsəfədən götürməsi təəccüblü deyil. Fəlsəfənin öyrəndiyi Universal həqiqətlər, şeylərin mahiyyəti və aralarındakı qanunauyğunluqlar haqqında spesifik biliklərin artması ayrıca elmlərin formalaşıb, özünü təsdiq etməsinə səbəb olub. Eydedik strukturla müqayisə etsək, fəlsəfəni nüvəyə, digər elmləri isə mümkün eydoslara bənzətmək olar. Bu, həmin elmlərin əhəmiyyətin azaldılması deyil, universal sistemin varlığının ifadəsidir. Burada nüvənin mahiyyəti bütün eydoslara təsir etməklə və hamısının mənbəyi olmaqla bərabər, hər birinin özünün də ümumi strukturda öz yeri, əhəmiyyəti və təsir gücü olan ayrıca həqiqətə malikdir. Sufi fenomenologiya eydedik struktur haqqında fəlsəfədir, eydosologiyadır. Bu baxımdan, bizim olan, tez-tez başqa elmlərə müraciət etməyimiz əslində qanunauyğunluqdur. Bu, həm də o deməkdir ki, sufi fenomenologiya geniş bir spektri əhatə edir. Yaradılışın dili rəqəm, söz və səsdir. Bütöv eydedik sistemi təqdim etməyə iddialı olan sufi fenomenologiya isə hamısını ehtiva etməyə çalışır.

Yaradılışın dillərindən biri rəqəmlərdir. Əsasən dəqiq elmlərin is-

tifadə etdiyi bu "dil" atomların, hissəciklərin qarşılıqlı münasibətlərinin, quruluş qanunauyğunluqlarının hesablamasını əks etdirir. Bu elmlərdə həqiqətin təsdiq edilməsi eksperimentlərdən, elmi təcrübələrdən və mənti-qi mühakimələrin nəticəsindən asılıdır. Ciddi və dəqiq hesablamadan keçməyən həqiqət fərziyyə (hipotez) səviyyəsindən yuxarı qalxmır, elmi mühitdə ciddi qəbul edilmir. Burada əhəmiyyətli bir məqam var: bir var bu rəqəmlər elə hesablama kimi qalır, sanki yalnız həmin elm çərçivəsində aktuallığını qoruyur, bir də var həmin rəqəmlər mədəniyyətdə, dünyagörüşündə hansı isə sualın cavabını tapmaqda kömək edir. Fizik Plank öz din və təbiətşünaslığa həsr edilmiş mühazirəsində deyir: "Təbiətşünaslığın istifadə etdiyi dəqiq metodika illər ərzində özünü o qədər məhsuldar göstərdi ki, indi ... uğurla psixologiya, idrak nəzəriyyəsi, hətta ümumi dünyagörüşü məsələlərinə tətbiq edilib onları təbiətşünaslıq nöqteyi-nəzərindən tədqiq edir. Demək olar ki, hal-hazırda bəşər mədəniyyətinin təbiətşünaslıq problematikası ilə əlaqəli olmayan bir dənə olsun mücərrəd sualı yoxdur".[1] Sufi fenomenologiya prizmasından baxanda mövcud mənzərə daha aydın görünür. Öz sahəsində idrak prosesinin yalnız ilk iki pilləsində – həqiqətin bilinməsi və görülməsi ilə kifayətlənən şəxslər yaxşı mütəxəssis ola bilsə də, onun həqiqətinin mahiyyətinə çata bilmir. Yalnız üçüncü mərhələyə çatanda, Plank dediyi kimi, fənlər arasındakı hüdudlar ortadan qalxır və metodika ümumiləşir. Onu da xatırladaq ki, sufi fenomenologiya insanın təbiətin bir hissəsi olmaması fikrinin tərəfdarıdır və bu fakt təbiətə baxış bucağını kökündən dəyişir. Düzdür, insan təbiət qanunlarına tabedir, lakin ona mineral-bitki-heyvan zəncirinin növbəti bir halqası kimi baxmaq insanın əsl mahiyyətini kölgədə qoyur. İnsan daha güclü fenomendir və yaradılış prosesinin əks istiqaməti boyu yüksələrək həqiqətin ilkmənbəyinə çatan yeganə şüurlu varlıqdır. Təbiət – atomlardan tutmuş, kosmosa, kainata qədər şüurun xarici radiusunun çata biləcəyi məkandır.

Sufi fenomenologiyanın sıx əlaqədə olduğu sahələrdən biri də həndəsədir. Təhlillərimizdən də göründüyü kimi, insanın şüurunun trayektori-

---

[1] Планк М. Религия и естествознание

yasını riyaziyyatla, xüsusilə fiqurlarla ifadə etmək daha rahatdır, nəinki formullarla. Formullar universal qanunların rasionallaşmış və ümumiləşmiş formasıdır. Həndəsə isə məhz nöqtələrin düzülüşü olduğuna görə, şüurun hərəkətini olduğu kimi göstərə bilir. Husserl də bu analogiyadan çıxış edərək "fenomenologiyanı təəssüratların (hisslərin) həndəsəsi"[1] adlandırır. Məsələn, Həllac, yaxud Da Vinçi ideyalarının yanında bir sxem, həndəsi fiqur qoymaqla sanki ideyanın hərəkətini vizual olaraq da təqdim edir və bu, istənilən irrasional biliyin rasionallaşmasına kömək olur.

Sufi fenomenologiyanın bir fəlsəfi sistem olaraq ictimai və humanitar sahələrlə əlaqəsi daha sıxdır. Onu yaradıcı şəxslərin fəlsəfəsi də adlandırmaq olar. Bir var şeyə yalnız konkret çərçivədə baxıb, onun *indi*-si dəyərləndirilsin, ontik mövcudluğundan, yəni mümkün eydoslarından çıxış edərək nəticə çıxarılsın, bir də var daha dərinə nüfuz edilsin, mahiyyəti, potensialı nüvə əsasında öyrənilsin, onu eydedik zəncirinin bir halqasına çevirə bilsin. Əslində, bunun nümunəsini görmək çətin deyil. Hər sahədə, istər ədəbiyyat olsun, istər memarlıq, istər musiqi olsun, istər rəssamlıq, fərqi yoxdur, iki cür əsərlər yaranır: fərdi, öz ölkəsi miqyasında və ümumbəşəri əhəmiyyətə malik. Məsələn, Rembrant uzun illər, gəncliyindən yaşlı vaxtına qədər avtoportretlərini çəkib və öz nümunəsində insanın zahiri və mənəvi dəyişikliklərini, daha dəqiq desək, daxildə gedən proseslərin zahirdə necə əks olunduğunu təsvir etməyə çalışıb. Rəsmlərin unikallığı bundadır ki, orada konkret bir şəxsdən daha çox, insanın inkişaf mərhələlərini görmək mümkündür, çünki rəssam şəxsi çərçivədən çıxa bilib. Eyni həqiqət başqa sahələrə üçün də keçərlidir. Yəni öz düşüncəsinin fəlsəfi zirvəsinə qalxa bilmiş, obyektinin nüvəsinə çatmış şəxsin dünyagörüşü, şüurunun radiusunun ehtiva etdiyi həqiqətlər ümumbəşəri səviyyədə olur.

Hər subyektiv düşüncə obyektiv həqiqətin, gerçəkliyin bir hissəsini aydınlandırır və onlara səbəbə ümumi işıqlı sahə böyüyür. Burada istər-istəməz müəllifin milliyyəti və fəlsəfənin millilik məsələsi yada düşür. S.Xəlilov ideyaya doğru trayektoriyanı fərd-millət-ümumbəşərilik

[1] Гуссерль. Идеи...I, с. 214.

kimi mərhələlərə bölür.[1] Biz diqqəti başqa bir məsələyə yönəltmək istərdik. İdrak prosesi çevrə xarakterlidir və bir nöqtədən – fərdin şüurundan başlayan xətt Loqosdan geri, təkrar həmin nöqtəyə qayıtmalıdır. Yəni biz Xəlilovun trayektoriyasının sonuna yenə fərd yazardıq. İnsan Loqosdan aldığı həqiqəti yenə öz şüuru çərçivəsində təqdim edir, sadəcə, bu dəfə onun əhəmiyyəti ümumbəşəri olur. Hər insan bəlli bir çevrədə, bəlli bir potensial üzərində yetişir. Bəzən insan hər özünün potensialından xəbərsiz qaldığı halda, bir başqası bütün millətin potensialını mənimsəyə bilir. Məsələn, yaradıcılığının erkən vaxtlarında Nitsşe Vaqnerdən ilhamlanaraq belə hesab edirdi ki, miflər və əfsanələr millətin ruhunu ehtiva edir və ondan doğulan möhtəşəm alman musiqisi – "Baxdan Bethovenə, Bethovendən Vaqnerə gedən günəş qaçışı" elə həmin millətin ruhunu oyadacaq bir qüvvədir.[2] Xatırlatmaq lazımdır ki, bir milləti digər millətlərdən fərqləndirən, onun orijinallığını qoruyub saxlayan məhz milli təfəkkürdür və bu, özünü məhz xalq yaradıcılığında göstərir. Milli fəlsəfə həmin potensialın, yaradıcılığın ideya qatını kəşf etməkdir. Bu, insanın öz nüvəsini kəşf etməyin, özünüreduksiyanın əsasıdır. Məsələn, Azərbaycan bəstəkarı, Şərqdə ilk opera müəllifi Üzeyir Hacıbəyov yazır ki, "Şəxsən öz haqqımda bunu deyə bilərəm ki, mən xalq musiqisini əsaslı surətdə öyrənməyincə böyük əsərlər yazmağa tələsməmişəm. Öz işlərim məni bu qənaətə gətirmişdir ki, Azərbaycan xalq musiqisi bir sıra tarixi səbəblərə görə xüsusi bir sistemə malikdir və tamamilə formalaşmış müstəqil bir incəsənətdir".[3] Onu da vurğulayaq ki, keçən əsrin ortalarından bu günə kimi UNESCO-nun sanballı layihələrində yer verilən, NASA-nın kosmosa göndərdiyi "Yerin səsləri" [4] sırasına daxil edi-

---

[1] Xəlilov S.S. *Şərq və Qərb. Ümumbəşəri ideala doğru.* Fəlsəfi etüdlər. Bakı, "Azərbaycan Universiteti", 2004, s. 21.

[2] Ницше Ф. Рождение трагедии из духа музыки, с. 19. http://az.lib.ru/n/nicshe_f/text_0010.shtml

[3] Hacıbəyli Ü. "Musiqidə xəlqilik". *Seçilmiş əsərləri 2 cilddə.* II cild. Bakı, Şərq-Qərb, 2005, s. 402.

[4] UNESCO Musical Anthology of the Orient: Vol. 24, Azerbaijan I. By: Mark Slobin. Asian Music Vol. 2, No. 1 (1971), University of Texas Press, pp. 43-45. http://www.jstor.org/stable/833813?seq=1#page_scan_tab_contents

lən muğam universal səsin bir hissəsi kimi təqdim edilir. Zatən bu dünyada var olan bütün şeylər universal aləmlə əlaqəlidir. Sadəcə bəzilərində bu həqiqət payı daha çoxdur. Xalq yaradıcılığı da bu sıradandır. Deməli, onun strukturunda universal aləmə çıxış ola biləcək nöqtəni – keçidi tapmaq mümkündür. Düzdür, fəlsəfənin özünün milliyyəti yoxdur, ancaq filosofun var. Məhz öz milli irsinin, milli potensialının üzərində yetişən bir mütəfəkkir fəlsəfə tarixində orijinal səhifəsini yaratmaqla yanaşı, həm də təqlidçilikdən uzaq olar və Loqosa öz yolunu sala bilər. Meqaşüura yol şəxsi şüurdan başlayır. Özünüreduksiyanın genişliyi və zənginliyinin ilk təminatçısı isə milli fəlsəfədir. Məsələn, Hegelin fəlsəfəsi universal olsa da, özü almandır, onu bir şəxsiyyət kimi yetişdirən də həmin xalqın potensialıdır.

### *§ 90. Sufi fenomenologiya – metod olaraq*

Bütün elmlər rasionallaşmış biliklərin sistemidir. Lakin onlarla yanaşı, hətta onları tamamlayan irrasional biliklər də mövcuddur. Hər irrasional bilik rasionallaşa bilməsə də, sufi fenomenologiya hər ikisini ehtiva edir və hamısını yaradıcılıqda birləşdirir. Bu prizmadan yanaşanda, sufi fenomenologiya ciddi elmlə təxəyyülə istinad edən yaradıcılığın kompleksidir.

Təhlillərimizdən də göründüyü kimi, söhbət yalnız sufi fenomenologiyanın istifadə etdiyi metodlardan deyil, onun özünün də metod kimi istifadəsindən gedir. Bu, bir dünyagörüşü, düşüncə sistemi, inşanın nüvəsinə yönəlmiş idrak prosesinin ifadəsidir. Deməli, istənilən elm sahəsində idrak prosesinin ilk iki mərhələsindən sonrakı mərhələyə yüksəlmək istəyən sufi fenomenologiyaya müraciət edə bilər. Burada nə şüuraltına, keçmiş xatirələrə istinad edərək nəticə çıxarılmır, nə də gələcəyə aid təhlillər əsasında proqnozlaşdırma aparılmır. Ən vacibi isə, burada ön planda səbəb-nəticə zənciri yox, *indi* və *tode ti*-yə fərqli müstəvidən baxış durur. *İndi* qurulacaq eydedik zəncirin ilk halqası olur və yanaşmadan asılı olaraq idrak keçmişə də qayıda bilər, maddi dünyanın fövqünə də qalxar. Xüsusilə qeyd edək ki, eydedik zəncir səbəb-nəticə

prinsipindən daha geniş ehtivalıdır, bəzən hətta səbəblərdən biri mötərizəyə alınmaqla, tamamilə başqa bir istiqamətə yönəlmək mümkündür. Məsələn, heykəltəraşın mərmərdə obraz görməsi ilə mərmərin yaranma səbəbləri tamamilə fərqli proseslərdir. Birinci hal, yaradıcılıq, maddiyyatın fövqünə qalxan təxəyyülün trayektoriyasıdır. İkinci hal isə elmi münasibətdir və səbəb-nəticə ardıcıllığı maksimum onun atomar quruluşuna qədər irəliləyə bilir. Çünki səbəb-nəticə zənciri maddi dünyanın qanunauyğunluqlarından biridir, ondan kənara çıxa bilməz. Əlbəttə, heykəltəraş da mərmərlərin növlərini tanımalıdır ki, yonma ərəfəsində problem yaşamasın, ideyasını əslinə uyğun reallaşdıra bilsin. Lakin bu, obrazı görməyin tamamlayıcı detallarıdır, mümkün eydoslar kimi kömək edir. Eydedik zəncir biliklərin həm rasional, həm də irrasionala qatını öyrənir, səbəb-nəticə onun tərkib hissəsidir.

Eyni sözlər hisslər və ayrıca ideyaya, yəni daha mücərrəd fenomenlərə də aiddir. Nəzərə almaq lazımdır ki, onlar aysberqin görünən tərəfidir. Əsas diqqət daha dərində olan düşüncədə, mahiyyətdə gizlidir. Burada əhəmiyyətli bir məqama xüsusilə diqqət ayıraq. Hər nə qədər maddi dünya qapalı, konkret olsa da, eydedik strukturlar qapalı deyil, başqa varlıqlarla əlaqəlidir. İdeyanı prokrust yatağı kimi səbəb-nəticə zəncirinin prizmasında sıxışdıranda, hisslər, ideyalar yarımçıq, kəsik qalır. Şüurun konkret çərçivədə qalan enerjisi gərginləşir, düyünlənir və problemə çevrilir. Eydosların enerjisinin sıxılması, işığının mənbəyindən ayrı düşməsi bir fərddən tutmuş, cəmiyyətə, bütün dünya səviyyəsinə qədər qalxa bilir və problem artıq fərdi deyil, ümumbəşəri miqyas alır. Bu gün insanlar iman kimi şəxsi mövzudan tutmuş, torpaq iddiasına qədər bütün sahələrdə qarşılıqlı barışmazlıq nümayiş etdirir, qarşılıqlı anlayışı unudurlar. Çünki bütün insan sisteminin eydosları sıxılıb, boğulur. Sufi fenomenologiya məsələyə fərqli prizma təqdim etməklə həmin sıxlığı seyrəltməyi təklif edir. Bu, hisslərin qapalı mühitdən, boğulmaqdan və gərginlikdən qurtulmasıdır. Bu, bütün hisslərin, şeylərin, hadisələrin ilkmənbəyinə qədər getməkdən əlavə, hər strukturdan digərlərinə açılan əlavə yolları da göstərir. Obrazlı desək, qapısız divardan yol

göstərən sufi fenomenologiya ən çıxılmaz vəziyyətin də eydedik müstəvidə həll yollarının mümkünlüyü göstərir.

Sufi fenomenologiya imana da fərqli bir baxış bucağı təklif etməklə onu fanatizmin silahına çevirməyin qarşısını alır. İman yalnız dinə deyil, ümumiyyətlə insana xidmət etməlidir və yalnız dindarın deyil, hər kəsin istifadə etməli olduğu idrak yolu, Yaradanla ünsiyyət vasitəsidir. Məhz imanın əsl mahiyyətinin açılmamasına səbəb terrorist təşkilatlar onu gəncləri cəlb etmək, onların düşüncələrini təsir altına salmaq, öz maraqlarına xidmət etdirmək üçün istifadə edə bilirlər. Daha  əvvəl də qeyd etdiyimiz kimi, iman daxili təkana çevrilə biləcək ən böyük qüvvələrdən biridir, eyni zamanda, insanların daxildən işğalına imkan verən ən zəif yerdir. Sufi fenomenologiya imanı dinin bir vacib hissəsi kimi yox, şüurun ən daimi və sabit təkanı kimi təhlil etməklə insanın həm daxilən güclənməsini, həm də kənar təsirlərə qarşı dayanıqlı olmasını təmin edir.

Nəhayət, sufi fenomenologiyanın məqsədi insanın şüurunun yolunu açmaq və işıqlandırmaqdır. Və bu yol maddi dünyanın fövqünə qalxaraq metafizik aləmə qədər yüksələ bilir. Husserlin öz təbiri ilə desək, onun fenomenologiyası "ciddi elmdir", sufi fenomenologiya isə fəlsəfədir və maddi dünyadan metafizik aləmə kimi böyük bir spektri ehtiva edir.

# II bölmə. Özünüreduksiya

## § 91. Həqiqətin qradasiyası və eydosların düzülüşü

Universal sistem vahiddir və eydosları əlaqəli olması təbii quruluşda hər şeyin harmonik və aralarındakı keçidlərin tədrici xarakterli olmasını şərtləndirir. Gecə və gündüzün əvəz olunması, rənglərin qradasiyası və s. İdrak prosesi zamanı şüur eydosların mahiyyətindəki enerji vasitəsilə irəliləyəndə onun da hərəkəti harmonik və tədrici olur, çünki eydoslar bir-birini tamamlayır, şərtləndirir. Eyni zamanda, məhz eydedik səviyyədə şeylər bir-biri ilə əlaqəli olduğuna görə, bir sistemdən digərinə keçid mümkün olur və alt sistemi üstdəkinin tərkib hissəsi kimi öyrənə-öyrənə şüur özü də tədricən genişlənir və Loqosa yaxınlaşır. Yəni şeylər arasında kəskin sərhəd olmadığına görə, keçidlər də qəfil və kəskin deyil. Bəşəri yaradıcılıqda isə əksinə sərhədlər o dərəcədə qəti və konkretdir ki, birindən digərinə keçid ya yoxdur, ya da böyük enerji tələb olunur. Belə kəskin addımlar şüurun axarının da qırıq-qırıq irəliləməsinə səbəb olur. İnsan məhz təbii quruluşun eydedik strukturuna nüfuz edəndə həmin qırıqlıqdan qurtula bilir. Onu da əlavə edək ki, kəskin keçidlər sıçrayış xarakterli olduğuna gör, arada hansı isə eydoslar, əhəmiyyətli detallar unudula, nəzərdən qaça bilər. Tədrici keçid isə məhz eydoslar arasındakı harmoniya boyu, birinin digərini şərtləndirməsi xətti ilə irəliləmək və həqiqətin tədricən aydınlanmasıdır.

İlahi yaradılışda hər eydos müəyyən bir mahiyyətlə yüklüdür. Yalan, yaxud yanlışlıq həmin eydosun müəyyən idrak prosesinə uyğun gəlməməsidir. Məsələn, ot it üçün ona görə yanlışdır ki, onu yeyə bilmir. Deməli, hər eydos = 1, çünki artıq ilahi iradə ilə müəyyən həqiqətə malikdir. Bu, aksiomdur. İdrak şüurun öz ideyasını təsdiqləmək prosesidir. Bu, inşana xas prosesdir və onun hələ təsdiqlənməmiş (bəlkə də heç

vaxt təsdiqlənməyəcək) ilk ideyası = 0. Buna görə də biz deyirik ki, idrak prosesi 0 və 1 arasında irəliləmədir. Söhbət şüurun ümumi səviyyəsindən, malik olduğu mahiyyətdən deyil, məhz gedəcəyi obyektə nisbətdə olan halından gedir. Bu, onun həm də növbəti addıma nisbətdə tam qeyri-müəyyənliyinin və yalnız ona fokuslanmasının göstəricisidir. 0-dan tərpənən şüur xaosa, informasiya bolluğuna, çoxsaylı təsirlər çevrəsinə, qaranlığa düşür. Bu, Lütfi Zadənin qeyri-səlis məntiqinin vizual mənzərəsidir. Burada bir neçə əhəmiyyətli detalı vurğulayaq. Həmin idrak prosesinin əvvəlində şüur = 0 olsa da, onun intensiyası, daha vacibi isə, imanı var. Yəni bir tərəfdən, şüur öz ideyasının həqiqətinə, digər tərəfdən, yoxluğun olmamasına, hər qaranlıqda mütləq işığın varlığına inanır. Bunlar şüuru 0 mövqeyindən tərpədən qüvvələrdir. Bu, şüura qaranlıq və xaotik mühitdə öz xəttini tutmağa və tədricən irəliləməyə şərait yaradır. Əlbəttə, belə bir fikir təsdiqlənib ki, hər xaosun öz sistemi var və onu dərk eləmək lazımdır. Eyni zamanda xaos nəzəriyyəsində bu da qəbul edilir ki, başlanğıcda ən kiçik bir dəyişiklik gözlənilməz nəticələrə gətirə bilər. Təbii ki, belə bir nəticə alınır ki, xaosda çoxsaylı sistemlər var. Bizim fikrimizə görə, təbii yaradılışda xaos yoxdur, şüurun anlamadığı və ehtiva edə bilmədiyi həqiqətlər zənciri var. Digər tərəfdən, biz ilk təkan faktını qəbul edirik və belə düşünürük ki, şüurun ilk ideyası qeyri-müəyyən, tanınmayan mühitdə öz xəttini cızmaq potensialına malikdir. Təkrar edək ki, burada vacib olan şüuru 0 mövqeyindən tərpədən qüvvələrdir, əks halda, özünün də xəbəri olmadan xaosun tərkibinə çevrilər, yolunu itirər.

0 və 1 arasında şüur başqa eydoslar da təmasda olur. Məqsəd 1 olduğuna görə, ona çatana qədər həqiqət aydın, dəqiq görünmür. Onlar 1-ə tədrici keçidi təmin edir. Şüur ilk başdan öz xəttini kifayət qədər aydın və dəqiq təyin etsə, qarşısına çıxan həqiqətləri də qavraya bilər. Hər eydosdan alınan işıq şüurun intensiyasını artırır, nəticədə həm aydınlıq artır, həm xaosun dərəcəsi azalır, həm də şüurun özü idrak aktında irəliləmiş olur. İntensiyanın artması 1-in aydınlanmasında ən əhəmiyyətli aktdır. Əks halda xaos arasında 1 (bir) görünməz qalar. Əvvəl də qeyd

etdiyimiz kimi, mümkün eydosların əhəmiyyəti vacib eydosa yaxınlaşma dərəcəsinə görə dəyişir. 1 (bir) tam aydınlıq və vəhdət məqamıdır, növbəti obyekt yaranana kimi. Bu, əvvəlki paraqrafda da qeyd etdiyimiz kimi, eydedik zəncirin qurulması qanunauyğunluğudur. Belə məlum olur ki, eydedik zəncir 0-dan (şüur) 1-ə (obyekt) uzanan xətdir. 1-ə çatan 0 həmin strukturla doğmalaşır və onu dərk etməklə 0-lamış olur və yeni 1-ə doğru hərəkətə başlayır. Bu, daha əvvəl də qeyd etdiyimiz kimi, güclü enerjinin zəifə doğru axmasıdır. Eyni zamanda, Heizenberqin də dediyi kimi, çatılan hər hüdud yeni başlanğıca çevrilir. İdrak prosesinin zirvə nöqtəsi 1-in 0-lanması yox, şüurun özünün 1-ə çevrilməsidir: 1=1. Bundan sonra geri dönmə prosesi – yaradıcılıq başlanır və proses boyu qarşılanan hər sıfır həmin 1-lə doldurulur. İlk nöqtəyə – sıfıra gələnə kimi. Yaradıcılıq 1 ideyası ilə hər hansı sıfırı "canlandırılmasıdır".

Dediklərimizdə əhəmiyyətli bir məqamı təkrar vurğulayaq. Hər nə qədər idrakın başlanğıcında, ilk ideyasına görə şüurun mövqeyi = 0 olsa da, əslində, öz mahiyyətinə görə şüur = 1. Loqos 1(bir)lərin cəmidir, vəhdətidir. Bununla belə, Loqos özü də = 1. 0 və 1 arasında nə qədər əməliyyatlar olsa da, nəticə 1-dir. Yəni 2+2, 2x3, 5-4 və daha neçə əməllərin sonunda =1 yeganə tək həqiqətdir. 1-lərin toplanması, ardıcıllığı ilə çatılır, özü cəm olsa da, ancaq özü də 1-dir. 0-dan birə qədər nə qədər əməliyyatlar olsa da, 2+2, yaxud, 2x3 və s. hamısı son nəticədə yenə =1. Bu, həm vacib eydosun sayıdır, həm də Loqosun yalnız vəhdət deyil, həm də Vahid olmasının göstəricisidir.

0 və 1 arasında eydosların sayı sonsuzdur. Məsələn, əsl rənglər yeddi, bəzi iddialara görə isə üçdür. Digər rənglər onlar arasındakı qradasiya səviyyələrinin təzahürüdür. 0 və 1 arasında olan həqiqətlər gündəlik həyatımızı doldurur: onlar *indi*-lərimizdir. Onların hər biri ilə rastlaşanda düşünmürük ki, 0 və 1 arasında hansı sıradadırlar. Bunun bir əhəmiyyəti də yoxdur. Yalnız eydedik zəncir qurulan zaman onların mahiyyətini, əvvəlini, sonrasını düşünürük. Yaxud məlum olduğuna görə, təbiətdə 5 təmiz, bütöv not, səs var. Lakin hələ IX əsrdə Yaqub b. İshak Kindi musiqinin mənbəyini bir tərəfdən göy cisimləri ilə yanaşı, digər

tərəfdən də, musiqi alətlərinin özləri ilə əlaqələndirdi və özünün "Risalə fi Hubr Sına`ati`t-təlif" ("Musiqi Kompozisiyası təcrübəsi haqqında") əsərində musiqinin səsdüzümünü 12 yarım səsə qədər artırdı. Vacib məqam budur ki, istər təbiətdə olan ecazkar səslər, istərsə də insanın özünün bəstələdiyi əsərlər məhz bu az saylı səslərin düzülüşü və səslənməsi ilə mümkün olur. Eydoslar sonsuz saydadır və mürəkkəb strukturlar daxilində nizama düzülüblər. Yəni xaotik şəkildə gəzən və hər hansı struktura daxil olmayan eydos yoxdur. Şüurun kəşf etmədiyi eydoslar, hətta strukturlar var.

Nəhayət, onu da əlavə edək ki, bir şüurun 1 kimi dərk elədiyi eydoslar başqa birinin eydedik zəncirində 0 və 1 arasında olan sıradakı xaosda yer tutur. Bu o deməkdir ki, aradakı həqiqətlər məhz həmin idrak prosesindəki 0 və 1-ə nisbətdə qeyri-səlisdir. Başqa bir idrak prosesində bu nisbət dəyişə bilər. Bu, şüurların səviyyəsindən və məsələyə yanaşmasından asılıdır. Şüurun səviyyəsi nə qədər yüksək olursa, bir o qədər dərk elədiyi struktur və deməli aradakı qradasiyalar da çox olur.

### *§ 92. Refleksiya və özünüreduksiya*

Özünüdərk və özünütəhlilin bütün fəlsəfələr üçün etalon qəbul edilən bir qaydası yoxdur. Hər şüur öz səviyyəsinə, baxış bucağına uyğun metod təklif edir. Belə yanaşmaları müqayisə edən D.V.Vinnik onları özünü udan ilana və işıq mənbəyinə bənzətməklə iki istiqamətə ayırır. Alim yazır: "Özünü yeyən ilan kimi şüur müşahidə və təhlil obyekti olaraq özünü seçməyi bacarır. Axtarış aparan projektor kimi, o, reallığın alatoranlığından gah bu, gah da digər obyekti öz diqqətinin obyekti edə bilir. Təsvir edilən keyfiyyətlər arasında şüurun iki xarakterik xüsusiyyətini tanımaq çətin deyil: reflektivlik və intensionallıq".[1] Vinnik onu da əlavə edir ki, məsələyə daha kompleks şəkildə və dərindən baxanlardan

---

[1] Винник Д.В. Рефлексивные и интенциональные состояния сознания. Специфика и соотношение.
https://web.archive.org/web/20110808200251/http://www.philosophy.ru/library/vinnik/intent_reflect_vinnik.html#

biri də Husserldir. Filosofa görə refleksiyanın "şüuru modifikasiya etmək xarakteri vardır" və "refleksiya, belə demək olarsa, şüurun şüuru dərk etmək üçün istifadə etdiyi metoddur".[1] Qısa desək, refleksiya şüurun özünüdərk prosesidir. İlk baxışda özünüreduksiyaya bənzəyən refleksiya sufi fenomenologiyaya görə, onun bir mərhələsidir. Vinnikin simvolları ilə ifadə etsək, o zaman özünüreduksiyanı obyektlərin işığını udmaqla öz quyruğuna yönələn ilana bənzətmək olar. Yəni o, özündə həm reflektivliyi, həm də intensionallığı ehtiva edir. Daxili və xarici reduksiyalar bir-birini tamamlamasa, bu, qısa qapanmaya bənzəyər, bizim sxemdəki diaqonal boyu inkişaf olar. Hegelin fikrinə görə, "refleksiya edən ağıl hərtərəfli münasibətlərin axtarışı və izlənməsi ilə məşğul olur, ancaq son məqsəd haqqında sual cavabsız qalır, buna görə də ağlın anlayışları ilə dərk edənin ehtiyacı məntiqi ideya sonrakı inkişafı ilə bərabər çılpaq nisbilik baxış bucağının fövqünə çıxır".[2] Özünüreduksiya "son məqsəd haqqında sual"a cavab axtarmaqdır.

Sufi fenomenologiyaya görə, özünüreduksiya şüurun bütün mərtəbələrinin aktivləşməsi, Loqosa qədər yüksəlmək potensialının reallaşmasıdır. Xatırladaq ki, Husserl fenomenologiyanı ciddi elm adlandırır: "Mən qəti əminəm ki, məzmunlu riyazi fənlər (məsələn, həndəsə və kinematika) fizika üçün təməl fənn olduğu kimi, fenomenologiya da (yaxud eydedik psixologiya) psixologiya üçün metodoloji təməl elmdir".[3] Düzdür, özünün kitabının girişində qeyd etdiyi kimi, fenomenologiya dəqiq elm deyil: "saf, yaxud transsendental fenomenologiya öz əsasını faktlar haqqında elm kimi deyil, mahiyyətlər haqqında elm kimi ("eydedik" elm kimi) tapır, həm də, hər hansı faktları deyil, müstəsna şəkildə "mahiyyətin dərkini" təqdim etməyə niyyətlənən elm kimi".[4] İstənilən halda, fenomenologiyanı mahiyyətlər haqqında elm kimi təqdim etməklə, Husserl sanki fenomenologiyanı vahid yol, əsaslandırılmış prinsiplərə söykənən elm kimi təqdim etməyə çalışır. Ümumiləşmiş, artıq şab-

---

[1] Гуссерль. Идеи...I, c. 234.
[2] Гегель. Наука логики, c. 288.
[3] Гуссерль. Идеи...I, c. 250.
[4] Yenə orada, s. 20-21.

lonlaşmış biliklərə söykənən fəlsəfədə belə bir yolu – metodu təqdim etmək mümkündür. Sufi fenomenologiya rasional şüurla məhdudlaşmır və üstşüurun prosesə qoşulması onun vahid yol olmaq imkanını yox edir. Burada hər ruhun, həm şüurun öz daxili potensialı nəzərə alınır. Bu baxımdan, özünüreduksiya vahid bir mexanizmə malik deyil və hər insanın şüur səviyyəsindən, dünyagörüşündən bilavasitə asılıdır.

Refleksiya – şüurun modifikasiyasıdır. Şüurun artıq qəbul etdiyi hər hansı bir təəssüratın, hissin refleksiyası şüurun təkrar özünə tərəf yönəlməsi ilə mümkündür. Yəni bir var insan baş vermiş bir hadisəyə reaksiya verməyə, ona yönəlməyə və o, qavranılmadan ötüb keçə. Şüur onu qavrayandan sonra isə ona olan baxış bucağı, mövqeyi dəyişir. Refleksiya yeni hissi, biliyi şüurla bir növ sintez edir və bununla şüuru dəyişir. Özünüreduksiya şüurun öz mahiyyətinin kəşfi və bunun üçün kənarda alınan biliklərin istifadəsidir. Bu proses zamanı refleksiya nəticəsində dəyişmiş şüur öz mahiyyətinə uyğunlaşdırılır və zaman şüur olduğu kimi qala da bilər, təkrar dəyişə də. Refleksiya gün ərzində ani, yaxud düşünülmüş şəkildə baş verə bildiyi halda, özünüreduksiya iradə ilə, məqsədyönlü şəkildə aparılan davamlı prosesdir. Özünüreduksiya hər biliyi mexaniki almaq əvəzinə, onu şüurun mahiyyəti kontekstində araşdırır, öz daxilindəki vahid ideyaya uyğunluğunu dəyərləndirir və özünü inkişaf üçün istifadə edir. Bir daha vurğulayaq ki, söhbət bütün şüurlar üçün qəbul edilən ideyadan yox, fərdin öz ideyasından gedir. Hegel yazır: "Refleksiyanın azadlığı elə bir azadlıqdır ki, orada heç nə yaranmır, ancaq orada nə isə yaranmalı olduğuna görə, o, gümanla, hər hansı qanun və qayda olmadan hərəkət edir, yəni obyektiv heç nə yaratmır. Obyektiv olanın həqiqətən qəbul edilməsi üçün "mən" *ümumi* kimi təyin edilməli, özünü qorumalı və özü üçün yalnız ümumi kimi əhəmiyyətə malik olmalıdır".[1] Deməli, əgər refleksiya şüurun yalnız özündə nəyi isə dərk etməyidirsə, özünüreduksiya həmin dərkin davamı olaraq, həm insanın daxili harmoniyasını qoruyub saxlamaq, həm də daha üst sistemə keçid etmək, orada öz yerini tanımaq, öz ideyanın təsdiqini ax-

[1] Гегель. *Философия религии в двух томах*. Том 1. М., Мысль, 1976, с. 357.

tarmaqdır.

Husserlə görə, qavrayan refleksiya “immanent qavrayışdır”.[1] Qeyd etdiyimiz kimi, bəzi rəylərə görə, özünə doğru yönələn şüur öz quyruğunu udan ilandır – uroboros (*sxem 23*). Şüur özündə olanları, immanent olanları qavramağa cəhd edir və öz daxilində olanları təhlil etməyə başlayanda, həm də özünü öyrənmiş olur. Düzdür, Husserl belə bir şey demir, ancaq biz bunu həm də şüurun öz potensialının kəşfi adlandırırıq. Əslində, bu, bizim sxem 12-dən çox fərqlənmir: ilk nöqtədən çıxan xətt müəyyən çevrə cızandan sonra yenə həmin nöqtəyə qayıtmalıdır, çünki yeni idrak trayektoriyası yenə ondan və daha böyük radius boyu başlamalıdır. Şüur mürəkkəb fenomendir və özünü öyrənməlidir. Yalnız yaşantılar, duyğular, ayrı-ayrı hisslər səviyyəsində, yəni fraqmentar şəkildə deyil, müəyyən qanunauyğunluğun tərkibi olaraq. Şüur insan sisteminin vacib eydosudur. Onu qavramaqla həm özünün eydedik strukturunu dərk edər, potensialını düzgün dəyərləndirər və Loqosa/meqaşüura gedən yolunu kəşf edər. Şüur məhz özünü tanımaqla həmin başlanğıcı tapa və qavraya bilir. İnsanı daha üst sistemin tərkib hissəsi kimi gördüyünə görə, özünüreduksiya üstşüurla sıx əlaqəlidir, obrazlı desək, ilanın öz quyruğuna çatması bütöv bir çevrənin cızılmasıdır. Yəni özünüreduksiya prosesin özüdür, konkret bir akt deyil. Şüurun fərqli səviyyələrində, daxili radiusun hər genişlənməsində bu proses təkrarlanır, hər dəfə də daha böyük çevrə dərin mənanın dərkinə zəmin yaradır. Şüurun modifikasiyasına həm də intensiyanın – şüurun işığının artması daxildir: dərk edilən obyektlərin işığı, öz mahiyyətindəki işıq və əlaqə yaradılan ruhun işığı. Husserl yazır: “...saf Eqo tamamlanmış aktın növünə uyğun olaraq çox fərqli rejimlərdə daha çox Obyektlərlə əlaqəlidir. Müəyyən mənada, eyni bir şeyə istiqamətlənəndə Eqo həmişə azaddır, başqa bir tərəfdən, təzahürə “özünü istiqamətləndirməsinin” təsviri yalnız qeyri-mükəmməl istifadə oluna bilər. Əlbəttə,



*Sxem 23. Uroboros.*

[1] Гуссерль. Идеи...I, с. 238.

daha geniş mənada, Eqo özünü hər bir vəziyyətdə Obyektə istiqamətləndirir, amma daha xüsusi mənada Eqo-şüa saf Eqodan çıxan zaman Obyektə doğru yönəlir və əvvəl olduğu kimi, Obyektdən çıxan əks-şüalar yenə geri Eqoya qayıdır".[1] Burada bir neçə məqama diqqət salaq: Eqo obyektə öz istəyi, iradəsi ilə yönəlməlidir, kənar təsirlə deyil. Yalnız bu halda şüur onun işığını ala bilər. Nə qədər paradoksal səslənsə də, təqlidə üstünlük verən, məcburi şəkildə yönləndirilən şüur daha az işıq qazanır, nəinki ilk baxışda qaranlığa, qeyri-müəyyənliyə doğru irəliləyən. Daha əvvəl də, qeyd etdiyimiz kimi, bu yol yalnız kənardan qaranlıq görünür, əslində isə şüurun öz intensiyası ilə işıqlanır və onunla qarşılaşanda şüur işığının artmasına daxili bir ehtiyac hiss edir və daha artıq obyektlərin işığına can atır. Bundan əlavə, şüur daim özünə yönəlməlidir, çünki yalnız bu halda onun ilk ideyası tamamlana bilər.

Özünüreduksiyanın fərqli xüsusiyyətlərindən biri də iman kimi daxili bir təkana sahib olmasıdır. İnsanın idrak çevrəsi maddi dünyanın – ümumiləşmiş və işıqlı zonadan kənara da çıxa bilir. Eyni zamanda, bu prosesin əvvəlində şüurun daxilində doğulan kiçik bir nöqtənin çevrə olmaq niyyəti var. Bunlar üçün mövcud çərçivədən kənara çıxmaq istəməyən rasional bilik və rasional şüur azdır, bundan daha artığına qabil olduğuna iman lazımdır. Mütləq Yaradana, yoxsa insanın öz ağlına, fərqi yoxdur, iman şüurun ən güclü təkanıdır. Hətta Dekartın məşhur, "Düşünürəmsə, deməli, varam" ifadəsi də əslində insan təfəkkürünə imanın ifadəsidir. Burada əhəmiyyətli bir məqam var. Özünüreduksiya bir imanla başlayıb tamamilə başqa iman kəşf edə bilər. Məsələn, Edith Steinin həyatı buna gözəl nümunə ola bilər: dindar bir yəhudi ailəsində doğulub sonra ağla inanan və kənar bir müdaxilə (kimsə buna təsadüf deyir, biz isə Yaradanın müdaxiləsi olaraq qəbul edirik) ilə İsa Məsihə tərəf yönələ və xristianlığı qəbul edərək rahibə olan filosof. Bu mərhələlərdən hər birində, hər yeni yolun başlanğıcında Edith Steinin özünü təhlilində, şüurunun istiqamətlənməsində, dəyişən obyektlərin şüuruna təsir göstərməsində ona dəstək olan, yolunu işıqlandıran iman olub. Ey-

[1] Husserl. Ideas...II, p.104.

ni zamanda, insanı kənar təsirlə yolundan çıxmağa qoymayan yenə də şüurun öz ideyasına imanıdır. Lakin bu da unudulmamalıdır ki, bəzən məhz iman dediklərimizdə əks təsir göstərə bilir – düz yoldan çıxarır, məlum çərçivədən kənara çıxmağa imkan vermir və s. Yəni imanın özü də araşdırılmalıdır.

### *§ 93. Refleksiya və özünüreduksiya (davamı)*

Özünüreduksiya imanların təftişidir – hansı imanın işığı daha güclü və təmin etdiyi yol daha uzun və əmin-amandırsa, şüur ona doğru yönəlir. Şüur azad, eyni zamanda hökm sahibi olmaq üçün geniş bir müstəvi axtarır. Pyer de Şardenin fikrinə görə, "refleksiya insanı heyvandan ayıran şeydir və ona səbəb insan yalnız nə isə bildiyini yox, həm də bilməyini bilir". Deməli, insanın qazandığı biliklər, aldığı təhsil, olduğu mühit də çox əhəmiyyətli rol oynayır. Bunlar hamısı şüurun intensiyasının istiqamətlənməsini, yaddaşın formalaşmasını, maddi müstəvidə radiusun böyüməsini şərtləndirən amillərdir. İman bunların alt qatında, bəzən tamamilə görünməz qalan, ancaq kifayət qədər güclü əsasdır. İmanın tanınması ondan alınan gücün düzgün istifadəsi deməkdir. Maraqlıdır ki, Aristotel yazır: "Ağıl özü özünü yalnız ən üstün olduğu halda düşünür və onun düşüncəsi düşüncə haqqında düşüncədir".[1] Başqa sözlə desək, o, yalnız üstün ağlı düşünməyə, refleksiyaya qadir hesab edir. Halbuki, əksi də ola bilər. Məsələn, iman həm terrorçunun istinadgahıdır, həm də bir xeyriyyəçinin. Hər ikisi eyni obyektə – Tanrıya inanır və gördüyü işi haqlı bilir, buna görə canını fəda etməyə hazırdır. Refleksiya – öz düşüncəsi üzərində düşünmə elə bu zəmində davam edir. Özünüreduksiya – şüurun həddini, imanın obyektini dəqiqləşdirir və məlum olur ki, bu obyekt Mütləq Yaradandır, yoxsa müəyyən təşkilatın lideri; şüur öz iradəsi ilə hərəkət edir, yoxsa başqa marağa xidmət edir.

Refleksiyada həlledici yerlərdən biri də yaddaşa və altşüura – qaranlıq yaddaşa məxsusdur. Husserlin yazdığına görə, refleksiya zama-

---

[1] Аристотель. Метафизика, 12 1074b 33-35.

nı "modifikasiya kimi xarakterizə olunan istənilən yaşantıdan... biz məlum önyaşantıya, fenomenoloji mənada tamamilə ilk dəfə yaranan yaşantının "təəssüratına" qayıdırıq".[1] İnsan yeni öyrəndiklərini daha əvvəl bildikləri ilə müqayisə aparır, yaddaşına qayıdıb təhlil edir. Şəraitə uyğun olaraq qaranlıq yaddaş da müdaxilə edə bilir. Əslində, refleksiya zamanı təhlil edilən hər yaşantının məhz ilk anı açar rolu oynayır. Dərk edilməmiş ilk təəssürat canlı qalır və *indi* olaraq qalmaq istəyir, ətrafına yeni nəticələr yığır, yeni ifadə formaları tapır. Şüura güclü təsir göstərən, qaranlıq yaddaşa çöküb həllini gözləyən təəssürat refleksiya zamanı ortaya çıxır, diqqət tələb edir, başqa düşüncələri də yönləndirməyə başlayır. Daha əvvəl də qeyd etdiyimiz kimi, altşüurda qaranlıq bir məqam kimi çöküntü verən hislər, təəssüratlar şüurda ciddi modifikasiyaya səbəb olur. Refleksiya bir növ onların təsirini yumşaldır, yerinə görə açmaqla anilik effektini yox edir. Əslində şüurun korrelyatı olaraq yaddaş da müəyyən bir biliyin şüurun sisteminə yerləşdirilməsinə xidmət edir. Husserl yazır: "*Təkrar xatırlanan*ın əsasında və daxilində refleksiya bizə əvvəlki yaşantılarımız haqqında xəbər verir – "o vaxt" onlar indi idi, immanent qavrayış üçün əlçatan olsa da, immanent qavranmamışdı".[2] Deməli, zamanında immanent olaraq, yəni artıq şüurun daxilində özünə yer edən bir yaşantı, hal bir gün təkrar *indi*-yə çevrilir və israrla diqqət tələb edir. Bunun qaranlıq yaddaşdan fərqi yalnız ilk anda birinin rasional şüurda yerləşməsində, digərinin isə altşüura çökməsindədir. Birinci halda – yaddaşın istifadəsində insan düşünülmüş şəkildə onun zamanını gözləyir, yaxud məqamı gələndə istifadə edir, ikinci halda isə şüur qeyri-müəyyən bir hisslə, təəssüratla qarşılaşır, ona hazır olmadığına görə, hətta ciddi modifikasiyaya da uğraya, istiqamətini dəyişə bilər. Özünüreduksiya insanın öz bildikləri arasında vahid bir xətt tutmaqdır. Məqsədə aparan yolda "bilməyini bilmək" ilk addımdır, bunu bilməsə, mötərizəyə ala, özünün ilk ideyasına lazım olanları seçə bilməyəcək. Hegelin fikirlərinə qayıtsaq, özünüreduksiya bütün münasibətləri araşdırandan

[1] Гуссерль. Идеи…I, с. 236.
[2] Yenə orada, s. 230-231.

sonra "son suala cavab axtarmaqdır". Məsələn, otağın ortasında bir bağlı qutu var. Onun içində nə olduğunu yalnız onu ora qoyan bilir. Hər kəs keçib gedəndə ona ilişir, yıxılır, yaxud yolunu dəyişməli olur. Hərə bir fikir söyləyir, bir plan cızır, hətta elə ortada onu bəzəməyə çalışır. Kimsə gəlib yenə ona toxunur, əvvəl deyilənlər yenə yada düşür, hər şey yenidən başlayır. Nəhayət kimsə o qutunu açır, içindəkinin nə olduğunu öyrənir və onu yerinə qoyur, lazım gəlsə, qutusunu da atır. Həm yol açılır, həm də həmin əşya kimə isə mane olmur, öz yerində durub otağa bəzək verir. O qutunun – ilk təəssüratın ağzının açılması refleksiyadır, onun içindəkini evin bir əşyasına çevirmək isə özünüreduksiyadır.

Bəzən refleksiya zamanı şüur yaddaşa qayıtmaqla orada yaranan bir boşluğu doldurmağa çalışır. Yəni məqsəd hazırki hissin deyil, daha əvvəlkilərin dərki olur. Bu, ilk təəssüratla çox bənzərdir, sadəcə burada həmin hadisə, yaxud yaşantı qara qutu deyil, şəraitə, ola bilsin ki, şüurun zəifliyi, bəlkə də laqeydliyinə görə diqqətdən kənarda qalan, zamanında vaxt ayrılmayan bir hadisə, həyatın bir anıdır. İnsanın özü də hiss edir, bilir ki, həmin şeylə bağlı düşüncəsində, ümumiyyətlə həyatında ciddi bir boşluq var və daim onu narahat edir. Düzdür, həmin hadisəni təkrar yaşamaq, yol verilmiş səhvi, yaxud baş vermiş anlaşılmazlığı həll etmək olmur, ancaq onunla bağlı, ondan irəli gələn sonrakı əyilmələri, yaranmış düyün-problemləri çözmək mümkün olur. Yəni səbəbi biləndən sonra mümkün nəticələrin qarşısını almaq olur. Refleksiyadan fərqli olaraq, özünüreduksiya yaddaşın bütün qatlarını qaldırmağa qadir olsa da, həmin boşluğu doldurmaq məqsədi daşımır. Bir ideyanın izlənməsi ilə başlayan bu proses ideyanın eydedik strukturunun hazırlanması, təsdiqi üçün lazım olan xəttin seçilməsidir. Bu ideya subyektin öz yaradıcılığının məhsulu da ola bilər, obyektiv reallığın bir hissəsi də, psixoloji bir halın öyrənilməsi, ilk yaranma səbəblərini öyrənmək də. Belə məlum olur ki, refleksiya şüurun enerjisinin kənardan alınan hər hansı biliyin ətrafında cəmləşməsidir. Özünüreduksiya isə öz ideyası əsasında irəliləməsi və bütün biliklər arasında özünə lazım olanların seçilməsidir.

Nəhayət, refleksiya passivləşmiş bir enerjinin yaddaşda mənbəyi-

ni, şüurun diqqətdən yayınmış potensialını üzə çıxartmağa kömək edir. Məsələ bundadır ki, şüur müəyyən bir yola başlayanda və daxilində lazımi təkanı tapa bilməyəndə istər-istəməz axtarışa çıxır. Bir neçə dəfə israr etdiyimiz bir faktı təkrar vurğulayaq: şüurda doğulan ideyanın yolu yalnız onun daxili təkanı ilə irəliləyə bilər. Hətta ilk təklif kənardan olsa belə, şüur ona öz daxilində təkan tapmayana qədər yola başlaya bilməz. Əks halda onun başqa bir şüurun hökmü altına düşmə təhlükəsi yaranır. Yaddaşa müraciət həmin axtarışın nəticəsidir.

Refleksiya axtarışdır, onu tapmaq isə özünüreduksiya sayəsində mümkün olur. Çünki bu zaman ilk ideya ətrafında səfərbər olunan işıq fokuslanır və tək istiqamətə yönəlir. Biz təsadüfən refleksiyanı özünüreduksiyanın tərkib hissəsi adlandırmırıq. Qeyd etdiyimiz kimi, özünüreduksiya yalnız qavranılan biliklər arasında mümkündür. Refleksiya həmin qavranılma mərhələsidir. Belə olan halda, demək olar ki, bir özünüreduksiya prosesində bir neçə refleksiya hadisəsi zəruridir, yaxud həmin refleksiyalar vahid bir özünüreduksiya prosesi ilə əlaqələnir. Bu zaman özünüreduksiyanın tələbi ilə refleksiya yaddaşda da gedə bilər, təəssüratlar da cəlb oluna bilər, altşüurdakı hansı isə hiss, bilik də işıqlana bilər.

Nəhayət, onu da vurğulayaq ki, reduksiyadan fərqli olaraq özünüreduksiya başlanğıcı, kulminasiyası və sonu olan bitkin prosesdir. Bu zaman qurulan eydedik zəncir mütləq tamamlanmalıdır ki, sonda reallaşmış ideya ümumi biliklər sırasına qarışa bilsin. Refleksiyada belə bir tələb yoxdur, çünki özü hansı isə prosesin tərkib hissəsidir. Müəyyən mənada, refleksiyanı özünüreduksiyanın "xammal təminatçısı" da adlandırmaq olar. Leibniz şəxsiyyət sözünü "düşünən və refleksiyaya malik olanla", özünə kənardan baxa bilənlə eyniləşdirir.[1] Özünüreduksiya isə yaradıcı və mütəfəkkir şəxsiyyətə malik bir keyfiyyətdir. Necə ki, hər şəxsiyyətdə yaradıcılıq istedadı yoxdur, eləcə də, özünüreduksiyası olmayan bir şəxsin də refleksiyaları əlaqəsiz şəkildə parlayıb sönürlər. Bir daha xatırladaq ki, refleksiya düşünə bilən hər kəsə xas olsa da, özü-

[1] Лейбниц. Новые опыты…, с. 236.

nüreduksiya yalnız üstşüuru aktiv şəxsə mənsubdur.

## *§ 94. Özünüreduksiya və şüurun səviyyələri*

Özünüreduksiya idrak prosesinin əsas mərhələlərindən biridir. O, bir tərəfdən, şüurun hər mərtəbəsinin ayrılıqda tanınmasına, aktivləşməsinə xidmət edir, digər tərəfdən, onların arasındakı hüdudların götürülməsinə və ümumi, azad və işıqlı sahənin yaranmasına xidmət edir. Özünüreduksiyanı şüurun daxilinin işıqlanması və sistemləşməsi də adlandırmaq olar. Əvvəlki paraqrafda qeyd etdiyimiz kimi, özünüreduksiya özü də iki mərhələdən ibarətdir: refleksiya və reduksiya. Refleksiya şüurun işığının artması, reduksiya həmin işığın bir istiqamətdə fokuslanmasıdır. Refleksiya birinci mərhələdir və ikinci olmadan da mümkündür. Reduksiya isə refleksiyasız baş verə bilməz.

Özünüreduksiya ruhani və əqli fəaliyyəti özündə birləşdirən təcrübə formasıdır. Həm refleksiya, həm də reduksiya insandan yüksək bilik və bacarıq tələb edir. İdrak prosesinin vacib bir mərhələsi kimi özünüreduksiya qida mənbəyi, eyni zamanda istiqamətinin bələdçisi rolunu oynayır. Hər bilik bir növ orada təsdiqlənib, şüurun strukturuna əlavə edilir və o, növbəti addımını atır. Şüurun bir funksiyası kimi, o, tədricən həyat tərzinə, düşüncənin tərkib hissəsinə çevrilir, hətta mexanikləşir. Yəni bir dəfə cızılmış yol ikinci dəfə xüsusi bir mülahizə, düşüncə tələb etmir. Məsələn, gündəlik həyatımızda şüurumuz refleksiya və reduksiya ilə məşğul olurmu sualına çətin cavab verə bilək. Ancaq bu da maraqlı bir faktdır ki, şüur bəlli bir istiqamətdə məşğul olanda, ətrafında gördüyü hər şeyi ona uyğunlaşdırır, onun işığında nəzərdən keçirir. Bunu gündəlik getdiyimiz yolda lazımi döngəni artıq düşünmədən dönməyimizə, pilləkənləri düşünmədən qalxmağımıza, otağa girəndə qapını örtməyimizə bənzətmək olar. Düşünmürük, çünki şüur mexanikləşib. Amma o pillədən birini ortadan götürsələr, yaxud döngəni bağlasalar, qapı örtülməsə o zaman düşüncə zənciri qırılır. Necə ki, bu hadisələrdən biri baş verəndə sən məcburən geri dönüb, səbəbini axtarmalı, ona diqqət ayırmalı olursan, eləcə də bəzən düşüncənin gedişində, yaxud eydedik

zəncirin qurulmasında bir axsaqlıq, yaxud sıxlıq yarananda şüur təkrar həmin məqama qayıtmalı, təkrar təftiş aparıb eydedik zənciri bərpa etməli olursan. Biz bunu açıq qapı, yaxud sınmış pilləkənlə müqayisə etdik, ancaq bu, kifayət qədər gecikmiş addım da ola bilər. Özünüreduksiya həmin "qırıq halqanı" üzə çıxarandan sonra refleksiya keçmişə qayıdır və reduksiya yeni trayektoriya cızmalı olur. Bunu səhvən bir dalana dönməyə bənzətmək olar: mütləq yanlış məqama qədər geri dönüb səhvini düzəltmək və yeni yol seçmək zərurəti yaranır.

Özünüreduksiya şüurun hər üç mərtəbəsini bir prosesdə birləşdirsə də, hər birində spesifik xüsusiyyətlərə malikdir.

Şüurun rasional qatı doğulandan aktivdir və obyektiv aləmlə ilk təmasda o olur. Bununla belə, refleksiya düşüncəsi yalnız müəyyən səviyyəyə çatan insana xasdır. Bunun üçün şüurun daxili radiusu genişlənə və düşüncə, xüsusilə refleksiya üçün təməl yarana. Qavranılan bilik düşüncəyə ötürülür, şüurun ümumi imkanları daxilində təhlil edilir. Refleksiya şüur səviyyəsində də gedə bilir, düşüncə səviyyəsində də. Yəni bəzən bilik, informasiya o dərəcədə güclü təsirə malik olur ki, şüurda refleksiya gedir və ani qərar verilir. Bu, *indi*-yə, hətta həmin ana verilən reaksiyadır və şüur üçün heç bir fərqi olmur, o, nisbi həqiqətdir, yoxsa mütləq. Vacib olan həmin informasiyanın həmin ana hakim olmasıdır. Belə ani reaksiyalar əsasən gənclərə xas olur və nümunə olaraq qəhrəmanlığı, yaxud aşiq olmağı göstərmək olar. Məsələn, qəhrəmanlıq sadəcə bir neçə saniyəlik cürətdir. Süleyman Xeyri Bolay yazır: "Bu cür hərəkətlər (qəhrəmanlıq – *K.B.)* anlıq hərəkətlərdir və düşünüb qərar vermə fürsəti yoxdur. İman gücü yönləndirir və qəlb gözü də bir anda hədəfi göstərir".[1] Diqqət edin ki, Bolay məhz imanı önə çəkir. Gənc öz gücünə inandığına görə, tankın qarşısına əliyalın da çıxır, silahın önünə də atılır, yanar odun içinə də girir. Şüur qavradığını düşüncəyə ötürmədən refleksiya gedir. Burada vacib olan məqam odur ki, iman öncədən kifayət qədər güclənmiş olur və ani informasiya, biliklə aktivləşən refleksiyanın özünü də o, idarə edir. Bunu instinkt adlandırmaq da

[1] Bolay S.H. *Batı Aklına karşı Türkiye*. İstanbul, Ketebe, 2018, s. 91.

düz olmaz, çünki bu, refleksiyadır – insan şüurlu şəkildə atdığı bu addımın nəticəsini dərk edir. Deməli, qeyd etdiyimiz kimi, bəlli bir mənəvi səviyyəyə və biliyə malik şəxs buna qabildir. Sadəcə burada refleksiyanın episentri şüurun mahiyyətindən doğulmayan, anidən kənardan daxil olan bir informasiya olur.

Düşüncə səviyyəsində gedən refleksiya isə insanın malik olduğu bütün bilikləri ehtiva edir. Reduksiya yalnız bu halda mümkün olur. Biliyin düşüncəyə ötürülməsi bir tərəfdən onun şüurun daxili radiusunun genişlənməsinə xidmət edəcəyinə, digər tərəfdən də, rasionallaşıb ümumi biliklər sırasına qatılacağına, refleksiyadan sonra reduksiyada da istifadə ediləcəyinə dəlalət edir. Xüsusilə vurğulayaq ki, özünüreduksiya zamanı ilk ideya kimi məhz bu biliklər arasından biri seçilir. Onun hansı səviyyədə davam edəcəyi, hansı nəticə əldə edəcəyi də şüurun bu qatından asılıdır. Məsələ burasındadır ki, digər şüur qatlarından düşüncəyə ani müdaxilələri nəzərə almasaq, düşüncəyə ən böyük keçid məhz buradan keçir. Onu müəyyən mənada düşüncəyə keçən biliklərin əsas filtri də adlandırmaq olar. İstər altşüurun, istərsə də üstşüurun tərkibi buraya qatılanda şüurun daxili radiusu genişlənmiş sayılır. Rasional şüur həm də özünüreduksiyanın son nöqtəsidir, yəni Loqosda təsdiq olunmuş istənilən bilik məhz buraya qayıdır və bura istinadən reallaşmağa başlayır.

Daha əvvəl də qeyd etdiyimiz kimi, altşüur qaranlıq yaddaşdır. Yaddaş özünüreduksiyada hansı funksiyaya malikdirsə, altşüur da elədir. Sadəcə, burada anilik və qeyri-müəyyənlik şüurun ümumi funksiyasına daha güclü təsir göstərə bilir. Altşüurda da özünüreduksiyaya iki səviyyədə qarışa bilir. Birinci halda, şüurun refleksiyası başqa düşüncələr qarışmadan, yalnız bu qatda gedir. Bu, zahiri, sosial şəxsiyyətdə qətiyyən əks olunmayan bir təftişdir, bəzən insan özünə belə etiraf etmək istəmir, çünki həmin hissi, duyğunu öldürmək, yox eləmək istəyir. Məsələn, Maksim Qorkinin "Sergi ata"sında Stepan Kasatskinin daxili mübarizəsi kimi. Qeyd etmək lazımdır ki, bu, düşüncəsi inkişaf etmiş, öz şəxsiyyətini Mən-ini formalaşdırmış, hətta cəmiyyətdə müəyyən statusa malik şəxslərə məxsusdur. Bu, daxildəki hansı isə qaranlıq bir düşüncə

ilə mübarizədir, bir növ sakit-sakit içəridə boğuşma gedir. İnsan öz iradəsinə, artıq sabitləşmiş şəxsiyyətinə güvənir. Yəni insan müəyyən mənada öz altşüurundakı hisslərdən xəbərdardır, lakin onu tam tanımır və təbii ki, gücünü də bilmir. İnsan onu öz hüdudlarından çıxartmadan, başqa hisslərlə qarşılaşdırmadan, bir növ təcrid olunmuş şəkildə təftiş edir və buna görə də onun sıxılmış yay effekti aldığını, hansı şərtlərdə üzə çıxacağını da bilmir. Əslində, buna məhdud refleksiya desək daha düz olar.

Yeri gəlmişkən, onu da əlavə edək ki, məhz qeyri-müəyyənliyinə görə, altşüuru çox vaxt neqativlə əlaqələndirirlər. Məsələn, refleksiyanın hələ düşüncəyə ötürülmədən, şüur səviyyəsində getməsində və ani qərar verilməsində bəzən altşüurun da rolu olur. Əgər məsələyə məhz qəhrəmanlıq nümunəsində qiymət versək, o zaman altşüurun neqativliyi şübhə altına düşər. Qaranlıq yaddaşın neqativliyi onun geniş refleksiyaya cəlb olunmamasında, şüurun ümumi nəzarətindən kənarda qalmasındadır. Məsələn, bir terrorçu üçün gizli mərhəmət hissi neqativ sayıla bilər. Altşüurda toplanan hisslər refleksiya ediləndə, başqa ideyalarla, düşüncələrlə müqayisə ediləndə, başqa sözlə desək, işıqlananda məlum olur ki, onlar nəinki neqativ deyil, əksinə hansı isə başqa bir düşüncəni tamamlaya bilirmiş. Yəni neqativlik həmin hissin özündən çox, onun ümumi prinsiplərə mane olmasından irəli gələn rəydir.

Özünüreduksiya məqsədyönlü şəkildə altşüuru da düşüncələr sırasına qata bilir. Bəzən insanın özünütəhlili zəif olanda və daxilindəki hisslər ona ciddi zərər vurmağa başlayanda o, kənar köməyə, əsasən psixoloqa, yaxud etibar etdiyi kimə isə müraciət edir. Psixologiyanın "müalicə" üsulu gizlində olanı açığa çıxartmaqdır, ucadan söyləyib özünün də onu eşitməsidir. Altşüuru gün işığına çıxmaqdan qorxan mifik vampirlərə oxşatmaq olar. Eləcə də, insanı daxilən gəmirən həmin hisslər aşkara çıxarılanda tamamilə məhv olmasa da, zəifləyir. Onu da qeyd edək ki, hər nə qədər psixoloq yönəldici suallarla qaranlıq künc-bucağı işıqlandırmağa çalışsa da, cavabsız suallara az qala uşaqlıq xatirələrində cavablar axtarsa da, bunlar hisslər səviyyəsində gedir, daha dərin, şüur qa-

tında isə qaranlıq qalır. Bu, yalnız refleksiya – şüurun özünə yönəlməsi ilə mümkündür. Husserlin fikrinə görə, "Yaşantı – daimi şərt yalnız refleksiya vasitəsilə "bilinir" və vasitəsiz bilik kimi yalnız reflektiv, verən sezgi yolu ilə əsaslana bilər".[1] Burada əhəmiyyətli bir məqam da var. Az əvvəl qeyd etdiyimiz kimi, bu, daxili bir təftiş olanda, o, başqa düşüncələr sırasına qatıla bilmir. Ancaq refleksiyadan sonra bir də reduksiya gedirsə, altşüur rasional şüura qarışa bilir. Başqa sözlə desək, şüur gücü kənarda, məsələn, psixoloqda deyil, özündə tapmalıdır. Əlbəttə, söhbət sağlam düşüncəli insandan gedir, artıq halı psixiatrlıq, yaxud psixoterapevtlik olan birindən yox. Nəzərə almaq lazımdır ki, artıq şüurun tərkibindəki bir fikir, ideya kənarlaşdırıla bilməz, çünki artıq onun işığı ilə şüurun işığı qarışıb, bütövləşib. Onu yalnız düşüncə zəncirində mötərizəyə almaq, başqa bir strukturun mümkün eydosuna çevirmək mümkündür, qısa desək, onun istifadəsiz qalmış enerjisini xərcləmək lazımdır.

Üstşüur özünüreduksiyada xüsusi yer tutur. Çünki bu, əvvəla şüurun ümumiyyətlə yeni bir ölçüyə keçidi, yeni tip biliklərlə qarşılaşması və ruhla əlaqəsinin bərpasıdır. Bu səbəbdən onun təhlilinə ayrıca paraqraf ayrılıb. Burada isə, ümumi kontekstə uyğun olaraq, yalnız onu qeyd edək ki, üstşüurun postamenti rasional şüur olsa da, burada da özünüreduksiya iki səviyyədə gedir. Birinci halda refleksiyanın episentri iman olur və bütün düşüncələr onun ətrafında cəmləşir. Bu, daha əvvəl də təhlilini verdiyimiz ruhani təcrübədir. İnsan imanının obyekti ilə təkliyə çəkilir. Buna nümunə olaraq peyğəmbərləri, övliya şəxsləri göstərmək olar. Əlbəttə, burada həmin şəxsin dünyagörüşünün, yaddaşının da böyük rolu var və gedən proseslər məhz bu fon, bu müstəvi üzərində gedir. Bununla belə, rasional şüur, qeyd etdiyimiz kimi, yalnız postament rolunu oynayır, çünki ruhani təcrübədə də həmin biliklər zəruridir. Burada reduksiya zamanı eydedik zəncir qurulmur, bir ideyanın yaşanması baş verir. Deməli, özünüreduksiyanın sonunda qavranılan irrasional biliyin rasionallaşması da sual altında olur. Üstşüurda gedən özü-

[1] Гуссерль. Идеи…I, с. 245

nüreduksiyanın ikinci növü isə şüurun bütün potensialının aktivləşməsi sayəsində baş verir.

### *§ 95. Üstşüur – şüurun nüvəsi kimi*

Şüur vacib eydosdur, mahiyyətdir. İnsan sistemi onun üzərində qurulub, ona istinadən funksiya göstərir və bütün insanlıq missiyası orada ehtiva olunub. Vacib eydosun mahiyyətini açılmasına, reallaşdırılmasına mümkün eydoslar xidmət edir. Həm maddi bədən, həm də mənəviyyat eydoslardan ibarət olsa da, malik olduqları məna və eydedik strukturda tutduqları yer onları fərqləndirir. Nüvə və mümkün eydosundan başqa bütün varlıqların eydedik strukturuna daxil olmayan, ancaq onunla bərabər var olan ruh və zaman eydosları mövcuddur. Onların mahiyyətini tanıyan və bundan istifadə edən tək varlıq insandır. Yaradılış prosesi alidən aşağıda doğru istiqamətləndiyinə görə, idrak prosesi də aşağıdan aliyə doğru gedir. Bu qanunauyğunluq digər əhəmiyyətli məsələlərdə də özünü qoruyub saxlayır. Yəni idrak nüvəyə daha uzaq mümkün eydoslarından başlayaraq nüvəyə doğru irəliləyir və prosesdə şüurun işığı get-gedə artır. Nəticədə nüvəyə çatana qədər kifayət qədər işıq toplayır. Eyni proses həm obyektiv dünyanın dərki, həm də özünüdərk prosesində keçərlidir. Xatırladaq ki, insan ruhunu, öz şüurunun mahiyyətini özünüreduksiya nəticəsində tanıya bilir. Özünüdərk və obyektiv dünyanın tanınması bir-birini tənzimləyən proseslərdir: özünü mümkün eydoslar səviyyəsində tanıyan bir şəxs obyektin nüvəsinə çata bilməz və əksinə, öz nüvəsini dərk etmiş və onun işığından istifadə edə bilən bir şəxs heç vaxt obyektin mümkün eydosu ilə kifayətlənməz. Yəni hər nə qədər şüur özünü tanıyırsa, bir o qədər çox irəli gedə bilir. Şüur ruhunu da nəfs/can səviyyəsindən, yəni mümkün eydoslarındakı təzahüründən başlayıb öyrənir. Bunu təqribən məlum əfsanədə korların fillə ilk dəfə tanışlığına oxşatmaq olar. Şüur da özünü o cür hissə-hissə öyrənir və tam mənzərə əldə etməsi yalnız özündən asılıdır. Üstşüur tam mənzərəni görə bilən şüurdur. Sxem şəklində şüuru


*Sxem 24. Şüur.*

dairə kimi təsəvvür etmək olar (*sxem 24*). Bütöv dairədə – şüurda qaranlıq zolaqlar altşüurun, ağ hissə – rasional şüurun, mərkəzdəki kiçik dairə isə üstşüurun təsviridir. Sxemdən də göründüyü kimi, üstşüur, bir növ şüurun özünün nüvəsidir, çünki həm öz mahiyyəti orada ehtiva olunub, həm də məhz həmin məqamda – nüvənin özündə ruh nəfs/can deyil, ilahi aləmlə əlaqədir. Onu da əlavə edək ki, nüvənin kəşfi özünüreduksiya nəticəsində baş verir, bu isə rasional şüurun tamamilə aydınlanması, qaranlıq yaddaşın qalmaması deməkdir.

Üstşüur xüsusi bir istedad deyil, insanın şüurunun ruhla əlaqəli şəkildə fəaliyyətidir. İdrak şüurun malik olduğu nurdan asılıdır. Belə ki, işığın öz mahiyyətindən irəli gələn xüsusiyyətə görə, o, daim artmağa meyllidir, Sührəvərdinin fəlsəfəsinə uyğun desək, daha üst nura can atır. Eydoslardakı enerji, işıq daim başqa işığa meyllənir. Bu, termodinamikanın qanunudur. Enerji artdıqca, meyl və hərəkət də güclənir. Bu səbəbdən, ruhla birləşmiş və özünü tanıyan bir şüurun intensionallığının qarşısını xırda maneələr ala bilmir. Şüurun nuru, bir tərəfdən, qavranılan hər eydos vasitəsilə artır, digər tərəfdən, öz mahiyyətindəki işıq mənbəyini kəşf etməklə. Ən böyük nur isə, şübhəsiz, ruhla əlaqədən alır. Xüsusilə bir daha təkrar edək: ruh Nurlar nuruna çıxışdır. Nurun çoxluğu görmə-anlama radiusunun genişliyi deməkdir. Biz tez-tez belə bir vacib məqamı vurğulayırıq ki, üstşüur sonradan qazanılan keyfiyyət deyil, fitrətən olan keyfiyyətin aktivləşməsidir. İdrak prosesi şüur işığını artırır, intensiyasını gücləndirir, onun mahiyyətinə nə isə əlavə etmir, dəyişdirmir. Hətta obyektin eydedik strukturuna daxil olması da şüuru dəyişdirə bilməz, çünki eydosun yaranması, dəyişməsi, məhvi yalnız onun Yaradanına məxsusdur. Dəmirin keyfiyyətlərini dərk edən adamın şüuru dəmirləşmir, yaxud sakuranın hikmətini anlayan sakuraya çevrilmir, heç sakuranın rəngini də almır. Özünü aldadıb, hətta meditasiya edib özünü inandırar və elə təsəvvür edə bilər ki, sakuradır və başdan ayağa hikmət ağacıdır. Ancaq ilk insani, hətta heyvani instinkt baş qaldıran kimi, məlum olar ki, bu, aldanışdır. Onu da əlavə etmək lazımdır ki, üstşüur yaranışından insana mənsub olsa da, onun kəşfi sonradan qazanılan bacarıqla mümkündür. Məsələn, görmək üçün göz nə isə öyrənməli deyil,

ancaq danışmaq üçün insan mütləq öyrənməli, ən azından nitq eşitməlidir. Hər orqan öz funksiyası ilə doğulur və həmin funksiyanı yerinə yetirə bilməməsi onun əngəlli olması deməkdir. Görə bilməyən kor, eşidə bilməyən kar olduğu kimi, şüuru passiv olan da insan deyil. Körpə uşaq ilk olaraq qırmızı rəngə reaksiya verir və tədricən bütün rəngləri seçir və adlarını öyrənir. İlk olaraq anasının səsini tanıyır, sonra yavaş-yavaş digər səsləri də fərqləndirə bilir. Adi insanlardan daha çox rəng görə bilən rəssam da belədir, səssizliyi eşidə bilən bəstəkar da. Yalnız sonradan üzərində işləməklə, bacarıqlarını inkişaf etdirməklə həmin orqanın ən dərin potensialını üzə çıxartmaq mümkündür. Üstşüur da belədir – onun aktivləşməsi üçün insan müəyyən proseslərdən keçməli, öyrənməli, qavramalıdır. Şüurun ruhla əlaqəsinin aktivləşməsi, daha dəqiq desək, onun nəfs səviyyəsindən başlayaraq ruha çatması şüurun bacarığının tam potensialının kəşfidir.

Üstşüurun kəşfi, yaxud aktivləşməsi deyəndə biz bir neçə məsələni nəzərdə tuturuq. Əvvəla, qeyd etdiyimiz ki, insan öz mahiyyətini və ruhu ilə əlaqəsini tanımalıdır, sxemdəki kiçik dairəyə keçməyi bacarmalıdır. İkincisi, insan öz şüurunda sistemləşmə aparmalıdır. Gün ərzində insanın rasional şüuru məlumatlarla, gündəlik qayğılarla o dərəcədə yüklənir ki, üstşüura keçid qalmır. İnsan özünün üstşüur kimi bir bacarığından xəbərsiz qalır. Şüurun böyüməsi kompleks şəkildə olmalıdır. Məsələn, bir var suyun – $H_2O$-nun artması, bir də var onun hansı isə tərkibinin artması. Nəticədə ya var olan maddə – su parçalanır, ya da yeni maddə, məsələn – $H_2O_2$, $H_2O_3$ alına bilər. Elə bu şəkildə də bir insan bir terrorçuya, yaxud bir diktatora çevrilir. Diqqət yetirin! Yenə də insan kənarda öyrəndiyi bir şeyə çevrilmir, öz eydoslarının hərəkəti, yaxud, hərəkətsizliyi nəticəsində dəyişir. Başqa sözlə desək, üstşüurun kəşfi şüurun inkişafının məntiqli davamıdır, sadəcə şüur daxili radiusunu daim genişləndirməlidir.

Sxemdən də göründüyü kimi, şüur kürəşəkillidir, hər tərəfi ilə obyektin eydosları ilə təmas qura bilir və daim hərəkətdədir. Onun içi sistemləşdirilməmiş informasiya ilə dolanda, biliklər düşüncəyə ötürülməmiş qalanda, hərəkəti ağırlaşır, məhdudlaşır. Bunu mümkün eydosların süni şəkildə şişib vacib eydosu görünməz etməsinə də bənzətmək olar.

Şüurda bir tıxanma, sıxlaşma yaranır və həll olunmasa, düyünlər formalaşmağa başlayır və bu da öz növbəsində böhranlara, yaxud bütünlüklə başqa şüura itaət göstərməsinə səbəb olur. Nəticədə şüurun bütün potensialı, enerjisi ikinci, hətta düşüncə dərəcəli informasiyaya xərclənir, üstşüur isə ümumiyyətlə unudulur.

Dediklərimizdən sonra bəzi dini, mistik təlimlərdə şüurun aydın qalması, düşüncənin saflaşması üçün fiziki dünya ilə əlaqənin kəsilməsinin, meditasiyaya qapanıb ruh həyatı yaşamağın, yaxud nəfsin tamamilə itaətdə saxlanmasının vacibliyini anlamaq daha asan olur. Şüuru maddi dünyaya aid biliklərlə yükləməmək üçün bütünlüklə fiziki aləmdən təcrid olunmağın – zahidliyin vacibliyini vurğulayırlar. Sxem 12 ilə 23 arasında bir müqayisə aparsaq, çevrənin diaqonalı məhz mərkəzdən – üstşüurdan keçir. Lakin nəzərə almaq lazımdır ki, şüur yalnız mərkəzindəki dairədən ibarət deyil. Mütləq rasional şüur mərhələsi də inkişaf etməlidir ki, boşluq yaranmasın. Bəli, bu, danılmaz həqiqətdir ki, sistemləşməyən biliklər şüuru yükləyir və bu işdə ətraf aləm, gündəlik sosial qayğılar ən güclü generatordur. Şüurun intensiyası nə qədər dağılarsa, bir o qədər işığı zəifləmiş olar, deməli, bir o qədər başqa şüur tərəfindən işğal olunmağa açıq olar. Şüurun niyyəti, məqsədi nə qədər aydın olarsa, bir o qədər güclü olar. Nəzərə almaq lazımdır ki, üstşüurun açılması nur mənbəyinin açılmasıdır. Burada əhəmiyyətli bir məqama diqqət yetirək: üstşüurun aktivləşməsi insanın hansı isə keyfiyyətindən imtinasını tələb etmir. Məsələn, nəfs ruhun maddi bədənlə əlaqəli olan, onun instinktləri, istək və meylləri ilə üst-üstə düşən səviyyəsidir – heyvani, yaxud nəbati ruhdur. Nəfslə mübarizə aparmaq gözə görməyi, qulağa eşitməyi qadağan etməyə bənzəyir. Şüurun həmin səviyyədən yuxarı qalxması ondan imtina deyil, daha üst qatı da tanımaq, tətbiq etməkdir. Səviyyə qalxdıqca, həmin istəklər arxa plana keçir. Xüsusilə vurğulayaq: ləğv olunmur, yoxa çıxmır, ölmür, sadəcə arxa plana keçir. İnsan yenə yemək yeyir, nəsil artırır, ancaq bu, onun həyatının tək qayəsi, mövcudluğunun tək şərti deyil və şüurun bütün intensiyası ora yönəlməyib. Nikola Tesla yazır: “Mən ilk növbədə mütəfəkkirəm, yalnız bundan sonra

eksperimentçiyəm. Əvvəlcə düşünmək lazımdır, sonra sınaqdan keçirtmək – eksperiment keçirtmək, yoxsa elmi axtarış əvəzinə qaranlıqda dolaşmaq olacaq".[1] Deməli, üstşüurun varlığı da rasional şüurun varlığını nəinki inkar etmir, əksinə, ona ehtiyacı var. Ümumiləşmiş biliklərin çərçivəsinin fövqündə, qaranlığın başladığı sahədə hisslər, irrasional biliklər azdır, düşüncə kompleks şəkildə çalışmalıdır.

Fenomenoloji reduksiya şüurun baxış bucağını təmizləyən metoddur. Özünüreduksiya isə bilavasitə üstşüurun aktivləşməsinə və daha sonra ondan istifadəsinə yönələn prosesdir. Üstşüur aktivləşəndən sonra özü metod kimi istifadə olunur. Üstşüur yalnız şüurun işığının artmasının deyil, həm də onun daha dəqiq fokuslanmasının təminatçısıdır. Onun sayəsində, bir tərəfdən, şüurun baxış üfüqü və fəaliyyət hüdudları genişlənir, şeylərin eydedik strukturuna nüfuz etməklə daha böyük sistemə keçid edə bilir, digər tərəfdən, insan həm də öz eydedik strukturunu daha yaxşı dərk edir və bu, ona fitrətən malik olduğu istedad gücünü, yaradıcılıq qabiliyyətini daha aydın mənimsəməyə və reallaşdırmağa imkan verir. Tesla bunu "daxildən yandıran, düşünməyə, yaratmağa sövq edən atəş" adlandırır.[2] İnsan yaradıcıdır. Bunu ruhunun nəfs səviyyəsində edəndə, dağıdıcıya çevrilir, üstşüur səviyyəsində edəndə isə universal sistemin bir hissəsi kimi hərəkət edir. Başqa sözlə desək, rasional şüur nə qədər dərin biliklərə sahib olsa da, nə qədər əhəmiyyətli eksperimentlər aparsa da, Loqosa yol üstşüurdan keçir.

Beləliklə, üstşüur şüurun nüvəsidir. Özünüreduksiya – kənar ideyalardan, təsirlərdən təmizlənməsi nəticəsində kəşf edilməsi şüura bütövlükdə baxış spektrini genişləndirir və həm maddi dünyanı, həm də ilahi aləmi əhatə edir. Ən vacibi isə üstşüur şüurun tam azadlığıdır.

## *§ 96. Üstşüur maddi çərçivədən Loqosa çıxış kimi*

§45-də verdiyimiz məlumatdan da bəlli olduğu kimi, üstşüur nə

---

[1] Тесла. Дневники, с. 9.
[2] Yenə orada, s. 86.

isə yeni, sonradan formalaşan bir fenomen deyil. O, ruhla əlaqəsi bərpa olunan şüurun ən üst səviyyəsidir. Daha dəqiq desək, bu, şüur və ruhun sintezidir. Xüsusilə vurğulayaq ki, bu əlaqə insanın mahiyyətində yaranışdan var, sadəcə onu tanımaq və istifadə etməyi bacarmaq lazımdır. Bunun üçün isə şüur müəyyən səviyyəyə çatmalıdır. Bu isə o deməkdir ki, üstşüur intellekti və mənəvi dünyası inkişaf etmiş, eyni zamanda, özünüreduksiyası aktiv olan şəxsə məxsusdur. Xatırladaq ki, şüur aşağı səviyyələrdə də nəfs/can olaraq zatən ruhla əlaqəlidir. Burada isə maddi bədənin tələbləri ilə sinxron olan nəfsdən deyil, bir tərəfi sonsuzluğa açıq olan, ilahi aləmdə vasitəsiz bilik ala bilən ruhdan söz gedir. Ruhla əlaqə yeni bilik və bu da öz növbəsində yeni metod və yeni potensial tələb edir. İndiyə qədər maddi dünyanın tələbləri ilə şablonlaşmış şüur ruhun unikallığı və orijinallığı ilə dəyişməyə məcburdur. Əgər indiyə qədər kiminsə izi ilə getməklə onu təqlid edirdisə, indi tamamilə öz yolu ilə, öz şüurunun intensiyası ilə irəliləmə olur. Üstşüur ümumi biliklərlə irəliləmir, onlara istinad etmir. O, hər şəxsin öz Mən-inə uyğun formalaşır. Bununla belə, orada qavranılan biliklər sonradan ümumiləşə bilir, çünki obyektiv həqiqətin bir parçasıdır.

İnsan əldə etdiyi məlumatı təsdiqləmək, öyrəndiklərinin mahiyyətini, həqiqətini qavramaq üçün müxtəlif vasitələrlə onun mənbəyinə can atır və ona yaxınlaşdıqca həqiqətin daha dərin qatları açılır. Filosof və mütəfəkkirlərin fərqli dünyagörüşləri, tarix boyu təşəkkül tapıb müəyyən zaman kəsiyində inkişaf edib ya tənəzzülə uğrayan, ya da hələ də mövcudluğunu davam etdirən dini, fəlsəfi, mistik cərəyanlar və təlimlər, müxtəlif sahələri əhatə edən çoxsaylı elmlər həm mənbələrin çoxluğundan, həm də bu mənbələrə gedən yolların rəngarəngliyindən xəbər verir. Məlumdur ki, kiçik mənbələrin kəşfi daha böyük mənbəyə yol açır. Bu baxımdan, müasir dövrün qloballaşma ideyalarını, yaxud elmlər arasında yaxınlaşma, sintezləşmə hallarını kiçik ölçülərdən daha geniş sahələrə keçid adlandırmaq olar.

Bu da danılmaz faktdır ki, ifadə olunan hər fikir, hər ideya mənbənin həqiqətinin inikası olmur, hətta bəzən tamamilə əks məna daşıya

bilir. Xatırladaq ki, elmi təcrübələrin də təsdiqlədiyi kimi, eksperiment zamanı istər subyektin, istərsə də avadanlığın, məkanın son nəticəyə təsiri var. Sufi mütəfəkkir Mənsur Həllac yazır: "Küfr və iman isim baxımından fərqlidir, həqiqət baxımından isə onlar arasında fərq yoxdur".[1] Deməli, eyni mənbədən qaynaqlanan sözlər məhz onu söyləyənin dilində fərqli forma alır. Yanlışlığın mənbədə yox, ifadədə olduğunu anlayanlar həqiqəti öyrənmək üçün formaya deyil, onun məzmununa müraciət etməyə üstünlük verirlər. Əbu Yəzid Bistami deyir: "Suyun rəngi qabının rənginə görədir. Su ağ qabda olarsa rəngi ağ, qara qabda olarsa qara, sarı qabda olarsa – sarı, qırmızı qabda – qırmızı və s. olar…"[2] Birmənalı şəkildə, varlıqların və ya hadisələrin bilavasitə mənbəyə istinadən öyrənilən mahiyyəti həqiqətə daha yaxındır. Husserlin də bildirdiyi kimi, "Metod – nə isə daxil edilən, yaxud daxil edilməli olan bir şey deyil".[3] Fenomenoloji reduksiya zamanı eydedik zəncir quran şüur obyektin strukturuna öz metodu ilə girsə də, sonra struktura uyğun olan metodu da öyrənmiş olur. Yəni onu haradansa kənardan gətirib yamamır, onun daxili tələbatından irəli gələni öyrənir və istifadə edir. Burada əhəmiyyətli bir məqam var. Sufi fenomenologiyanın ilk iki mərhələsində daha çox öncədən tətbiq olunmuş, təsdiqlənmiş metodlar işə salınanda əvvəlki nəticələr də təkrarlanır. Əgər tədqiqatçı həmin hüdudlardan kənara çıxmağı düşünürsə, o zaman ya metodları dəyişməli, ya da diqqətini nəticələrdə fərqli göstəricilərə fokuslamalıdır. Məsələn, kosmik fəzanı öyrənən bir alim bəlli bir nöqtəyə qədər artıq öyrənilmiş, qəbul edilmiş düsturlardan, fərziyyələrdən istifadə edir və artıq həmin bəlli nöqtədə işıqlanmış "zona" bitir, qaranlıq başlayır. Burada şüurun intensiyası kifayət qədər işıqlı və güclü olmalıdır ki, həmin qaranlığın içinə girməyi və onu aydınlatmağı bacarsın. Bu gücü verən isə, daha əvvəl də qeyd etdiyimiz kimi, həm şüurun öz mahiyyətinin dərkidir, həm də ruhla əlaqəsinin qavranmasıdır. Bu, idrak prosesinin üçüncü mər-

[1] Əxbər əl-Həllac, s. 53.
[2] Tusi. Lümə, s. 57.
[3] Гуссерль. Идеи…I, с. 228.

hələsi – həqiqətin haqqının tanınması və üstşüurun aktivləşməsidir.

Qeyd etdiyimiz kimi, şüurun daxili və xarici radiusları bir-birini tənzimləyir və şərtləndirir. Xatırladaq ki, idrak prosesinin sxeminin ilk iki mərhələsində şüur ümumiləşmiş, artıq məlum biliklər əsasında inkişaf edir. Bu eyni təməl üzərində formalaşan fərdi şüurlar, mövqelər, baxış bucaqları fərqli olur. Bu, daxili radiusdan asılıdır. Universitetdə Nikola Tesla tələbə yoldaşları ilə eyni bilikləri alırdı, ancaq yalnız o, elmdə inqilab etməyi bacardı. Burada əhəmiyyətli bir məqam var. Ən geniş radius artıq elmdə, sənətdə, ədəbiyyatda, bir sözlə, insan fəaliyyətini ehtiva edən bütün sahələrdə artıq məlum biliklərin həddini göstərir. Deməli, bir inşanın üfüqi müstəvidə ən son məsafəsi kiminsə qət etdiyi həddir. Burada heç bir yenilik etmək, yeni söz demək mümkün deyil. Yeni çevrə cızmaq üçün ilk nöqtənin – şüurun potensialı artmalıdır, daxili radius böyüməlidir, şüurun mahiyyətindəki enerji, işıq və ruhla əlaqə yaranmalıdır. Məsələn, bir tələbə yalnız müəllimin mühazirələrini əzbərləyirsə, onun şüurunun xarici radiusu heç cür müəllimin şüurundan artıq ola bilməz. Digəri mövzu ilə bağlı başqa müəllifləri də oxuyursa, onun radiusu o sahədə ən görkəmli alimin həddi qədər olacaq. Üçüncü tələbə isə oxuduqlarını öz təhlilləri, nəticələri ilə tamamlayır, o sahədə oxuduqlarında müəyyən bir ideya xəttini tutub onu izləyirsə və şəxsi axtarışlarını aparırsa, üst müstəviyə qalxa biləcək. Burada Səlahəddin Xəlilovun yeni toplanma üsulu yada düşür: "...Burada cəm ancaq müxtəlif toplananların cəmidir; bir-birini təkrar edən, eyni keyfiyyətli toplananlardan ancaq biri – ən böyüyü götürülə bilər".[1] Deməli, bir var diqqət xarici radiusa fokuslana, bir də var daxili. Birinci halda limit ümumiləşmiş biliklər olur, ikinci halda şüurun öz imkanları. Belə şüur mütləq fərqlənir. Ola bilsin ki, onun şüurunun potensialı kifayət etməyəcək ki, mövcud çərçivəni yenisi ilə əvəz etsin, ancaq istənilən halda yeni və orijinal olacaq.

Deyiləndə maraqlı və əhəmiyyətli bir məqam da vurğulanmalıdır. Artıq məlum biliklər əsasında formalaşmış obyektiv çərçivə etalona

[1] Xəlilov. Elm haqqında elm, s. 43.

çevrilir, konkretləşir. Ona təsir yalnız subyektiv mövqedən, fərdi bir şüurdan gələn enerji ilə mümkündür. İdrak prosesinin ilk iki mərhələsində diqqət xaricə fokuslandığına görə, hər şeyi olduğu kimi qəbul edir və onu dəyişmək mümkün olmur. Üçüncü mərhələdə isə diqqət yönəlir daxili radiusa – subyektiv təhlillər, orijinal baxış bucaqları həmin həqiqəti fərqli prizmadan təqdim edir, təcrübədən asılı olaraq yeni xüsusiyyətlərini, funksiyalarını araşdırır. Başqa sözlə desək, üçüncü mərhələdə bir növ indiyə kimi keçirilən eksperiment yeni şərtlərdə və şəraitdə keçirilir. Təbii ki, bu, nəticədə öz əksini tapır. Burada xarici radiusa daxildən təkan verilməyə başlayır. Əslində, bu, çox ağır prosesdir, çünki ümumiləşmiş etalonun taleyi müzakirə obyektinə çevrilir, onun inkarı mövzusu aktuallaşır, ondan kənara çıxmaq, ondan fərqlənmək həmin həqiqətin inkarı deməkdir. Tədricən həmin həqiqət ümumiləşir, adiləşir və özü də çərçivəyə çevrilməyə başlayır. Nəzərə alsaq ki, həmin həqiqətə işıq salan, yeni çərçivəni yaradan şüur xüsusi və çox yüksək aləmlə əlaqəli olub, deməli, onun çərçivəsini keçmək istəyən şəxs də elə bir xüsusi şüura sahib olmalıdır həm özündən əvvəlkinin yolunu izləyə bilsin, həm də ondan bir addım sonraya keçə bilsin. Qravitasiya prinsipinin inkişaf yolu, yaxud neftin ilk dəfə tanınması ilə, bu gün ondan alınan məhsullar dediklərimizə nümunə ola bilər. Xüsusilə vurğulayaq ki, bu sonra gələnin daha ağıllı olması demək deyil. Birincisi, bu, məlum həqiqətin çərçivəsinə çatmaqla yanaşı, onun fövqünə keçmək bacarığıdır. Axı, həmin həddə çatmaq da hünər tələb edir. İkincisi, bu, eyni həqiqəti, bir daha təkrar edək, yeni şərtlərlə öyrənməkdir. Əvvəlcə bu, kitablardan, müəllimlərdən öyrənilən həqiqəti bilavasitə təcrübədə yaşayıb görmək, bilavasitə hiss etməkdir. Yəni idrak prosesinin ikinci – həqiqətin görülməsi prosesidir. Məsələn, bir var, Nikola Teslanın təcrübələrini kitabdan oxuyub heyran qalmaq, bir də var alimin düşüncə xəttini izləyərək eyni təcrübələri yaşamaq, eyni həqiqətə təkrar çatmaq. Buradakı subyektiv mövqe idrak xəttinin yeniliyini və unikallığını təmin edən faktordur.

Üstşüur konkretliyin, sabitləşmiş çərçivənin fövqünə qalxmaqdır.

Onun bəlli bir nümunəsi, şablonu yoxdur, çünki hər şüurun öz açdığı yol və öz dəyərləri var. Bu, hər şüurun əvvəlki mərhələlərdə qurmağa başladığı eydedik zəncirin davamı olmalıdır. Yəni, bir tərəfdən, hər nə qədər ilk iki mərhələ ümumiləşmiş sahədən keçsə də, qurulan eydedik zəncir fərdi, şəxsin subyektiv xüsusiyyətlərini özündə ehtiva etməlidir. Digər tərəfdən, xatırladaq ki, üst şüura keçid yalnız fenomenoloji reduksiya nəticəsində mümkündür. Yəni subyektiv ideya kənar hisslərdən, bilik və məlumatlardan kifayət qədər "təmizlənəndən" sonra şüurun enerjisi tək axında cəmlənir, güclənir və üstşüura keçə bilir. Bu həm də o deməkdir ki, üstşüur xaotik hərəkət etmir, başqasına mane olmur və başqası onun yolunu kəsə bilmir. Bir daha təkrar edək ki, yalnız özünü tam azad və hökm sahibi hiss edən şüur özünün üst mərhələsinə keçə bilir.

Əhəmiyyətli daha bir məqamı da vurğulayaq. İdrak prosesinin ilk iki mərhələsini son hesab edənlərin fikrinə görə, həmin çərçivədən sonra qaranlıq, heçlik, yoxluqdur. Üstşüur qaranlıqda işığı, heçlikdə varlığı görə bilməkdir. Bunu, bir tərəfdən, daxili təkan olan imanla, digər tərəfdən, bu qaranlığı dağıdan intensiya – işıqla bacarır. Yəni əslində üstşüur hər hansı qaranlıqla üz-üzə durmur və öz işığının ardı ilə gedir. Onu da əlavə edək ki, əgər konkret çərçivə daxilində şüur kənar təsirlərə məruz qala bilirsə, üstşüurda bu, istisna olunur, çünki, qeyd etdiyimiz kimi, o, öz yolu ilə gedir və orada yalnız Yaradan var.

Nəhayət, üstşüur vahid həqiqətə – Loqosa inam və ona doğru hərəkətdir. Bu, çərçivə, məhdudluq deyil, əksinə, həqiqətlərə fərqli bucaq altında təkrar baxışdır. Digər tərəfdən, bu, subyektiv ideyanın ali qatda təsdiq etmək, universal sistemdə yerini tutmaq imkanıdır. Bir daha təkrar edək ki, üstşüur azadlıqdır və onun dərk etdiyi həqiqət, sabitləşdirdiyi mövqe şüurun alt qatlarında dəyişdirilə bilməz. Üstşüurun qavradığı həqiqət şüurun sistemində yerləşəndən, yəni rasionallaşandan sonra heç bir çərçivə, etalon onun qarşısını ala bilmir. Uzağı bir müddət gecikdirə bilər, lakin əvvəl-axır mütləq sərt çərçivəni sındıracaq və yeni hüdudları təyin edəcək.

## *§ 97. Meditasiya (ruhani təcrübə) və özünüreduksiya. Özünüreduksiya – reallığın qəbulu.*

Digər canlılardan fərqli insan daim *tode ti*-dən sonrakı reallığı axtarmağa meyllidir. İdrak prosesi də əslində həmin "sonraların" düzülüşüdür. İnsanın həqiqət anlayışı onun idrak prosesinin istiqamətini müəyyənləşdirir. Bəziləri onu öz varlığında, bir başqası isə obyektiv aləmdə axtarır. Son məqsədin harada, nə olmasından asılı olmadan başlanğıc nöqtə şüurdur. Axtarış fokuslanmadır. Bu isə özünüreduksiyadır. Kimsə bunu yalnız ruhunun, bir başqası şüurunun, üçüncü biri isə hər ikisinin müstəvisində edir. Axtarışın üsul və obyektindən asılı olaraq bəzən onu meditasiya, bəzən elmi eksperiment və s. adlandırırlar.

Meditasiya yalnız ruh müstəvisində aparılan özünüreduksiyadır. Çevrənin diametrində iki uc nöqtələrdir. Burada ilk nöqtə – şüur da bəllidir, son nöqtə – Mütləq Varlıq da. Məqsəd iki nöqtə arasındakı yolu qət etməkdir. Həqiqət yolun özüdür. Yalnız obyektə – Mütləq Varlığa fokuslanan şüur bütün kənar hiss və bilikləri mötərizəyə alır. Burada refleksiya və reduksiya birləşir, tək proses kimi özünü göstərir. Burada vacib olan ilk və son nöqtələr arasındakı yaxınlığı, vasitəsizliyi dərk etməkdir. Bunun üçün ilk nöqtə yüksələcək, yoxsa son nöqtə maddiləşəcək – bu, ruhani təcrübənin mahiyyətindən asılıdır. Burada şüurun tək reallığı Mütləq Varlıq, əsas aparıcı qüvvə isə ona imandır. Əlbəttə, əvvəlki paraqrafda da vurğuladığımız kimi, rasional şüur təməldir, lakin özünüreduksiya zamanı onlar ilk növbədə mötərizəyə alınır. Bəzi təlimlərdə, məsələn, sufizmdə bunu cilalanmaq adlandırırlar: insan təmiz güzgüyə çevrilməlidir ki, Yaradan orada Özünü görə bilsin. Sufizm əsasında öz təlimini yaratmış Nəimi yazır:

*"O (insan) dünyanı əks etdirən güzgüdür,*
*Haqq onda böyüyüb inkişaf edir".*[1]

Eyni düşüncə xəttini xristian mistik mütəfəkkirlərdə, yaxud Uzaq

[1] Кулизаде. Хуруфизм..., с. 118

Şərq təlimlərində də rast gəlmək mümkündür: insan bütün kənar hiss və istəklərdən arınmalıdır ki, tək həqiqəti görə bilsin. Burada şüurun hər hansı öz ideyası izlənilmir, çünki tək Həqiqət zatən bəllidir və hər şey Ona nisbətdə kənarlaşdırılır. Burada əhəmiyyətli məqam – ucalmaq, yaxud təmizlənmək üçün insanın bütün keyfiyyətləri özündə, mahiyyətində tapmasıdır.

Dediklərimizdən belə məlum olur ki, meditasiya şüurun birbaşa nüvəsindən – üstşüurdan uzanan xətdir. Ona gedən yol isə rasional şüurdan keçir. Deməli, ümumi prosesin istiqamətini, xarakterini müəyyənləşdirən rasional şüurdur. Hər nə qədər sonra oradakılar mötərizəyə alınsa da, o, təməldir. Yeri gəlmişkən, burada bir məsələyə aydınlıq gətirək. Adətən meditasiya deyəndə müəyyən bir mərasim nəzərdə tutulur: tək həqiqətə köklənmək üçün psixoloji və mənəvi hazırlıq zəruridir. Biz isə mərasimi deyil, yalnız nəticəni nəzərdə tuturuq. Buna görə də, biz yalnız mistik təlimlərdən deyil, ümumiyyətlə tək həqiqətlə baş-başa qalmaq bacarığına malik şəxslərdən nümunə gətiririk. Məsələn, Nikola Tesla gündəliyində yazır: “Başqa suallara cavab mənə anidən gəlir. Mən düşünən kimi bütöv mənzərəni görürəm. ...İzah olunmaz bir şəkildə mən gələcəyə boylana və oradan öz suallarıma cavab ala bilirəm. Söhbət məntiqli yolla edilən kəşfdən getmir, hər hansı əqli iş aparmadan sualıma ətraflı cavabın təzahüründən gedir. Mən sanki zamanın içindən baxıram və hələ olmayan şeyi görürəm”.[1] Deməli, insan hansı fonla, təməllə ucalırsa, yəni üstşüuru vasitəsilə Loqosa çatırsa, yenə həmin təməlin üzərinə qayıdır. Fizik dərk etdiyi hikmət elə fizikaya, yəni axtarışlarına aid olacaq, filosof məhz onu düşündürən məsələyə uyğun hikmət qavrayacaq, musiqiçi musiqi eşidəcək və s. Loqosda insana şüuru öz kulminasiya anını yaşayır, ona məxsus hikməti dərk edir, təsdiqləyir. Burada müəyyən bir paradoks yaranır. Biz, bir tərəfdən, insanın özünüreduksiyanı tək həqiqətə uyğun apardığını deyirik və bunu meditasiyanın əsas xüsusiyyəti adlandırırıq, digər tərəfdən, yenə də Loqosda şüurun təsdiq olunduğunu iddia edirik.

---

[1] Тесла. Дневники, с. 9

Əvvəla, bir daha təkrar edək ki, meditasiyanın təməli mütləq rasional şüurdur. Başqa sözlə desək, Mütləq Varlığa yönələn hər meditasiya mütləq üstşüurdan başlamalıdır. Meditasiya müəyyən mənada özünü-reduksiya olduğuna görə, onun da rasional şüurda gedən refleksiya və reduksiyadan sonra üstşüura çatdığını iddia etmək olar. Sadəcə, bir var həmin nöqtə hələ kifayət qədər böyüməmiş ola, yəni refleksiyasının radiusu kiçik ola, bir də var artıq əsaslı bir hazırlıqdan keçmiş, dərin refleksiyaya malik bir nöqtə. Birinciyə nümunə olaraq Buddanı (Siddxartma Qautama) göstərmək olar: gördüyü hadisələrdən təsirlənən və düşüncəyə qapılan bir şəxs indiyə qədər gördüklərindən arınaraq yeni reallığı anlamağa çalışır. O, zatən müəyyən bir düşüncəyə malik idi ki, yeni reallığı da sezə bildi. İkinciyə nümunə olaraq isə öz ruhani təcrübəsi ilə əqli nəticələrini birləşdirə bilmiş hər şəxsiyyəti göstərmək olar. Əsər boyu onların fikirlərinə tez-tez müraciət edirik. Onu da əlavə edək ki, meditasiya zamanı dərk edilənlər əksər hallarda irrasional olur və nə qədər əvvəldən mövcud olan təməl rasional və sabit olarsa, bir o qədər qazanılan bilikləri də rasionallaşdırmaq mümkün olar.

Meditasiya iki nöqtəni birləşdirən xətdir. İlk nöqtə nə qədər zəif, kiçik olarsa, ondan başlanan xətt də bir o qədər zəif, Loqosdakı inikası da bir o qədər kiçik olar. Bununla belə, meditasiya həmin xətdən başqa bütün hisslərin, düşüncələrin, hətta bəzən orqanizmdəki funksiyalarında da sıfırlanmasıdır. Burada çox incə və olduqca əhəmiyyətli bir məqam var. Bir var, meditasiya zamanı öz varlığından imtina edən insan sonda özünün Tanrı olmaq iddiasını irəli sürə. Bu, son nöqtəni ilk nöqtəyə çevirmək cəhdidir. Buna nümunə kimi, hürufilik əsasında təşəkkül tapmış nöqtəviləri göstərmək olar. Belə ki, onların fikrinə görə, "Quran 28 hərfdən ibarətdir. Onların mənası əlifdədir, əlifinki isə nöqtədə. Nöqtə insanın başlanğıcıdır, insan isə bütün varlıqların başlanğıcıdır".[1] Bir də var son nöqtəyə çatan öz varlığının kiçikliyini qəbul edə. Bu, zəif enerjinin güclüyə doğru axması və ona qovuşmasıdır. Mənsur Həllac yazır: "Onu (Allahı) həqiqət olaraq tanıdım deyən öz varlığını tanıdığının

[1] Кулизаде. Хуруфизм..., с. 253.

varlığından daha böyük etmiş olur. Çünki kim bir şeyi həqiqətən tanıyarsa tanıdığından daha güclü olur”.[1] İnsan öz nurunun gücü çatdığı nurları zəbt edə bilir və bu, idrak, qavrama prosesidir. Eyni zamanda, özünüreduksiyadır. Məhz buna görə də, yalnız ikinci halda fenomenoloji epoxé-dən danışmaq mümkündür. Məsələn, Ekxarta görə hər şey Allahda baş verir, edən də, etdirən də Odur. İnsandan tələb olunan şey yalnız Allahın onun varlığında fəaliyyət göstərməsinə imkan yaratmaqdır, yəni nəfsani keyfiyyətlərindən uzaqlaşmasıdır, yəni söhbət insanın hər hansı bir yüksəliş və ya inkişafından deyil, məhz Allahın həmin məxluqa təsirindən gedir: “Allah öz yaratdıqlarını sevir, ancaq özü kimi. Günəş güzgüdə əks olunsa da yenə özü olaraq qalır. Allah da eləcə”.[2] Deyilənlərdə əhəmiyyətli bir məqama aydınlıq gətirək. Mistik mütəfəkkirlər tək həqiqət kimi Allahı götürdükləri görə, obyekt kimi də Onun adını çəkirlər. Əslində, idrak prosesi boyu insan öz (!) obyektinə yaxınlaşır və Allahın bunun fövqündə olduğunu dərk edir. Cüneyd Bağdadi yazır: “Onlar dərk etdiklərini Ondan Onunla dərk etdilər”.[3] Sufi fenomenologiyada bu, Loqosdur. İnsan öz şüurunun tutduğu qədər obyektiv reallıqdan nə isə qavraya bilir. Burada maraqlı bir keçid də seçilir. Meditasiya obyektiv reallıqdan uzaqlaşıb şüurunu sıfırlamaqdırsa, özünüreduksiya həmin sıfırdan təzədən hərəkətə gəlib 1-ə doğru irəliləməkdir. Təcrübədən belə məlum olur ki, meditasiyada bir dəfə $0 \to 1 = 1$ aktı baş verir. Özünüreduksiyada isə belə aktlar bir neçə dəfə təkrar oluna bilir: $0 \to 1 = 0 \to 1 = 0 \to 1$ və s.

Meditasiya Obyektin gücünü öz varlığında hiss etməkdir, özünüreduksiya bunun davamı olaraq refleksiya və reduksiyanı gücləndirməkdir, yəni öz reallığını, real gücünü anlamaqdır. Deməli, şüur öz mahiyyətinə üz tutmaqla, orada Mütləq varlığın gücünü – şüurdakı nuru və ruhla əlaqəni tanıyır və bu onun baxış gücünü artırır, aydınlandırır. Şüurun özü bulanıq olanda, gördüyü də aydın olmayacaq, qavradığı şey də

---

[1] Həllac. Təvasin, s. 74.
[2] Экхарт. Духовные проповеди..., с. 44-45.
[3] Rəsail əl-Cüneyd, s. 46.

xaosa çevriləcək və faydasız qalacaq. Məsələn, Leibniz öz monadları haqqında danışanda iddia edir ki, "Monadlar predmetdə deyil, predmetin dərk edilmə metodunda məhdudlaşır. Onlar hamısı bulanıq şəkildə sonsuzluğa, hər şeyə aiddirlər, ancaq onlar məhduddur və bir-birindən qavrayışda aydınlığına görə fərqlənir".[1] Deməli, məhdudiyyət şeyin özündə deyil, ona yönələn diqqətdədir və onun tətbiq etdiyi metoddadır. Təkrar edək ki, özünüreduksiya nə qədər dəqiq və diqqətli olarsa, bir o qədər intensiyası da güclü olar və düzgün fokuslanar. Burada əsas məqam şüurun öz ideyasını müəyyənləşdirməyi və potensialını dəqiqləşdirməyidir. Məsələ burasındadır ki, bəzən insanlar ətrafın təsiri ilə öz reallığını unuda bilir, ya ifrata varıb, özünü hədsiz güclü, ya da əksinə, özü haqqında bədgüman olub gücünü, savadını istifadə edə bilmir. Bir daha təkrar edək ki, meditasiya bütün kənar təsirləri mötərizəyə almaqla Obyektin gücünü öz varlığında hiss edir. Təbii ki, o, insanın öz potensialından daha artıq olur. Özünüreduksiya yalnız mötərizəyə almaqla kifayətlənmir, həm də özünün həqiqi potensialını və bacarığını dəyərləndirir.

Şüurun öz reallığı deyəndə yada düşən daha bir məsələ isə Platonun mağaradakı kölgələridir. Bu kölgələr bir şüurun reallığıdırsa, şüur ona istinadən hansı həqiqəti dərk edə bilər? Axı, insanın meditasiyanın obyekti heç də həmişə işıq olmur. Görülən şey əslində özü deyilsə, o, özünüreduksiyada hansı rol oynaya bilər. Husserlin yazdığına görə, "nə həndəsə, nə də fenomenologiya saf mahiyyət haqqında elm olaraq real mövcudluğa aid hər hansı qərara malik deyillər".[2] Mövcudluq mahiyyətdən fərqlənir, bu, bir həqiqətdir. Belə olan halda, şüurun dərk etdiyi hansı reallıqdır? Bir daha təkrar edirik ki, hər şüur ilk növbədə öz reallığını qavrayır. Şüurun səviyyəsindən asılı olaraq reallıq da dəyişir – kölgədən həqiqətə keçə bilir. Əhəmiyyətli məqam da məhz bundadır. Meditasiya yalnız müəyyən xətt boyu davam edir və ondan kənara çıxmır. Reallıq – həmin Obyektdir. Özünüreduksiya qurduğu eydedik zəncir sayəsində başqa strukturlara, obyektlərə keçməli olur, hətta onları son-

[1] Лейбниц. Монадология, с. 423.
[2] Гуссерль. Идеи...I, s. 241.

radan mötərizəyə alsa belə. Tədricən reallıq dəyişir, mümkün eydoslardan vacibə, yalandan həqiqətə, kölgədən işığa doğru irəliləyir. Bu proses məhz tədricən və içdən gələn təkanla getməlidir, çünki ani və kənardan olan təsir bitəndən sonra şüur yenə öz köhnə fikrinə qayıdacaq. Platonun əsərində mağaradakı insanlara gördüklərinin kölgə olduğunu söyləmişdilər, ancaq onlar yenə onları həqiqət kimi görməkdə davam edirdilər, çünki deyilənə öz şüurları vasitəsilə çatmırdılar və onlar öz "reallıqlarında" (!) qalırdılar.

Reallığı dəyişən şüurun dəyərləri, inancları da dəyişir. Özünüreduksiyanın Obyektə çatması yeni işıq, yeni enerji almaq deməkdir və bu, reallığa fərqli baxışın formalaşması deməkdir. Obyektə çatmaq fərqli nəticə verə bilir. Az əvvəl Həllacın dediklərini xatırlasaq, insan tanıdığından güclü olur, çünki onun işığını zəbt edir. Obyekt subyektdən güclü olanda isə vəziyyət dəyişir. Bir var subyekt öz Obyektində "yox ola", bütünlüklə öz varlığından, yəni öz iradəsindən, seçimindən imtina edə. Bir də var, subyekt öz varlığını saxlamaqla Obyektdən öz imkanları qədər həqiqət qavraya. Özünüreduksiya şüurun öz potensialını öyrənir, Obyektin deyil və öz imkanlarına görə həmin obyektiv həqiqətdən nə isə qavrayır, çünki onu olduğu qədər dərk etmək üçün nə işığı yetərlidir, nə enerjisi. Onu da əlavə edək ki, bəzən insanın şüurunun gücü obyekti də ehtiva etmək gücündə olanda, o, mütləq yeni obyekt axtarışına çıxır. Sufi fenomenologiyada Loqos son Obyektdir. O, ehtivasına görə şüurdan çox böyükdür və bütün şüurları özündə cəmləşdirə bilir. Mürəkkəbdir, ona görə də bura yüksələ bilən hər şüur öz ideyasını təsdiqləyə bilir. Başqa sözlə desək, şüur burada əriyib itmir, əksinə, sabitləşir.

## *§ 98. Özünüreduksiya və Mən*

İnsan doğulandan oxuduğu kitablar, təhsildən, gündəlik həyatdan aldığı məlumatlar, biliklər onun şüurunu inkişaf etdirir, böyüdür, yaddaş formalaşır, mənəvi dəyərlər, cəmiyyətin tələbləri haqqında ilkin təəssüratlar, ideallar sabitləşir. Ona müvafiq olaraq düşüncə və Mən də inkişaf edir. Uşaq yaşlarında bu proses valideynlərin, müəllimlərin nəzarətində

olur və tədricən refleksiya yarandıqca, özü nəzarət etməyə, balanslaşdırmağa başlayır. Başqa sözlə desək, şüur-düşüncə-mən üçlüyü bir-biri ilə sıx bağlı olan və bir-birini tənzimləyən fenomenlərdir. Sxem 9-u xatırlasaq, Mən həmin üçlüyün üst qatıdır və şəxsiyyətin formalaşmasında, sosial statusunun təyin edilməsində ilk növbədə ona müraciət edirlər, insan haqqında ilk təəssüratı yaradan da məhz odur. Refleksiya özünütəhlildir, reduksiya – özünüdəyərləndirmə. Hər ikisi bir yerdə, yəni özünüreduksiya şüur-düşüncə-Mən arasında balans yaradan prosesdir. Bu prosesdə yaranan istənilən yanlışlıq mütləq bütöv sistemi pozur, inkişaf dayanır. Yanlışlıq deyəndə biz, əsasən kənar təsir nəticəsində şüurun passivləşməsini, inkişafı daxildən idarə edə bilməməsini nəzərdə tuturuq. Məsələn, kənar təsirlərin düşüncəyə müdaxiləsi nəticəsində artıq informasiya ilə doldurulur, başqa bir şüurun maraqları üçün fəaliyyət göstərir, nəticədə düşüncə ifrat dərəcədə böyüsə də, şüur passivləşir (*Sxem 25*). Daxildən təkan almayan Mən inkişaf edə bilmir, bir növ kənar təsirin təzyiqi altında əzilir, düşüncənin çərçivəsindən fərqlənmir, deqradasiyaya uğrayır. Bəzən hətta düşüncənin də fəaliyyətinə izin vermədən yalnız Mən-in böyüməsinə şərait yaradırlar. Bu, xüsusilə uşaq yaşlarında, valideyn təsiri altında olan da baş verir (*sxem 26*): Mən süni şəkildə şişir, düşüncə də şüur kimi fəaliyyətsiz və kiçik qalır. Mən özü içəridən boş qalır, yalnız qabıqdan ibarət olur. Xüsusilə vurğulayaq ki, heç bir halda şüur və düşüncə itmir, çünki nüvədir. Özünüreduksiya mərkəzi şüurda olan bir prosesdir, ona görə də, bunu bacaran insan hər üçü arasında balansı qoruya bilir (*sxem 9*). Qeyd etdiyimiz kimi, şüur daim bilik alır və onlarla bərabər kənar təsirlərə məruz qalır. Əhəmiyyətli bir məqamdır ki, şüuru belə kənar təsirlərdən kənar bir qüvvə ala bilməz və onun özü də kənar təsir hesab ediləcək. Məsələn, valideyn övladını pis vərdişlərdən qorumaq üçün



*Sxem 25. Düşüncənin təhrifi.*



*Sxem 26. Mən-in şişməsi.*

ətrafından, yoldaşlarından təcrid edirsə, bu da onun şüuruna və düşüncəsinə mənfi təsir göstərəcək. Yeganə yol uşaqda, yeniyetmədə özünüreduksiya etməyi öyrətməkdir. Bunu təqribən cücənin böyüməsinə və yumurtanı içəridən sındırıb çıxmasına bənzətmək olar. Maraqlıdır ki, bəzən cücəyə kömək üçün onun yumurtasının qabığını sındıranda, cücə zəif olur və ölür. Bu, təbii inkişafın qanunauyğunluğudur – inkişaf daxili təkanla olmalıdır. Şüur da buna tabedir. Şüur nüvədir, daxili təkandır və böyüməsi məntiqli olaraq üst qabıqların da böyüməsinə səbəb olur və bütün sistem tədricən və bir-birinə uyğun şəkildə böyüyür. Özünüreduksiya isə bu inkişafın təminatıdır. Dediklərimizdən belə nəticə alınır ki, özünüreduksiya bir tərəfdən iradənin formalaşması və möhkəmlənməsi, digər tərəfdən, təhlil qabiliyyətidir. Daha vacibi isə, bu, daxili intensiyanı parçalanmadan qoruyan və vahid istiqamətə yönəldən qüvvədir.

Mən şüurun sosial qabığıdır. İnsanın hansı dəyərlərə sahib olduğu, nəyə xidmət etdiyi Mən-dən bəlli olur. Şüur nə qədər sabit və geniş radiuslu olarsa, bir o qədər Mən həm öz daxilində, həm də ətrafı ilə harmoniyada olmağı bacarır, cəmiyyətin əhəmiyyətli bir üzvünə çevrilə bilir. Bununla yanaşı, Mən həm də şüur və ətraf aləm, cəmiyyət arasında körpü rolunu oynayır. O, özünüreduksiyanı mücərrəd mövzulardan konkretliyə cəlb edən bir bələdçidir, çünki *tode ti*-lərlə və *indi*-lərlə daha çox o, təmasda olur. Eyni zamanda, Mən həm də cəmiyyət və şüur arasındakı balansın ifadəçidir. Yəni balans pozulanda, ilk növbədə Mən-də təzahür edir. Əvvəlki təhlilimizdə də qeyd etdiyimiz kimi, Mən ayrıca kənar təsirə məruz qala bilir və bu zaman alınan biliklər şüura ötürülməsə, refleksiya olunmasa, o, şişər və şüur passivləşər. Başqa sözlə desək, Mən qabıq olsa da, özünüreduksiyada böyük əhəmiyyətə malikdir. Bunlarla yanaşı, onu da əlavə edək ki, şüur və ətraf mühit, sosial tələblər arasındakı ziddiyyət də ilk növbədə Mən-də öz əksini tapır. Məsələn, insan özündə rəssamlığa güclü meyl və istedad hiss etdiyi halda, dövrün dəbinə uyğun olaraq hüquqşünas olur və rəssamlığa aid düşüncələri, bilikləri, hətta ilhamları mötərizəyə atır, israrla cəmiyyətin tələbinə uyğunlaşmağa çalışır. Burada iki nəticə mümkündür. Daxili təkan – rəs-

samlıq istəyi güclü olsa, mötərizəyə alınan hisslər, düşüncələr təqribən sıxılmış yay effekti yaradır. Əksinə, zəif olsa, şüur onu susdurub, intensiyasını cəmiyyətə uyğun istiqamətə yönəldər. Mən şüurun getdiyi istiqamətə uyğun şəkildə formalaşır, oradakı tərəddüdləri özündə əks etdirir, çünki şüurda baş verən ən kiçik funksiya da orada təzahür edir, özünüreduksiya zamanı şüurun ikiləşmiş intensiyası Mən-in sabitliyinə xələl gətirir. Belə nəticə çıxır ki, hər nə qədər Mən sosial qabıq olsa da, o şüurun reallığının, özünüreduksiyasının təzahürüdür. Həmin reallıq nə qədər sosial reallıqla zidd görünsə də, Mən şüurun reallığı ilə bütövlük, harmoniya hissini yaşayır. Belə ziddiyyəti yaradıcı şəxslərdə daha aydın müşahidə etmək mümkündür. Məsələn, Salvador Dalinin sürrealist, yəni reallığın fövqünə qalxan rəsmləri və İvan Şişkinin təbiət mənzərələri eyni dərəcədə realdır və Mən-i ifadə edir. Şişkinin rəsmləri bir-birini əvəz edən *indi*-lərdir; Dalinin hər rəsmi isə bir *indi*-dən başlayan çevrədir. Hətta bəzən bir *indi* bir neçə rəsmdə əks oluna bilir – o, tam ifadə olunana qədər.

İnkişafın müəyyən mərhələsində şüur düyünə düşəndə Mən refleksiyanı idarə edə bilir. Bununla o, bir növ "reabilitasiya" xidməti göstərir. Düşüncəyə nisbətdə Mən daha sabit qatdır, burada prosesin nəticələri toplanır, sistemləşir. Artıq formalaşmış Mən-i, hətta qüsurlu olsa belə, dəyişmək daha çətindir. Müəyyən mənada o, şüur üçün də qabığa çevrilə, insanın ətrafını öz zövqünə görə dəyişdirə bilir. Daha təhlükəli məqam, bir daha təkrar edək ki, məhz qüsurlu, şişmiş Mən-lə bağlı olur, çünki əslində daxildən dəyişməli olan Mən şüurun yollarını bağlayır. Buna görə də, Mən hələ tam formalaşmamış, sabitləşməmiş mərhələdə şüurun refleksiyası aktiv olmalı və qarşılıqlı tənzimləmə şəraitində inkişaf getməlidir.

Şüurun yaddaşın dərin qatlarına enməyinin səbəblərindən biri də Mən-dir. Söhbət bugünün, dünənin deyil, mənsub olduğu millətin ənənəsinə, tarixi yaddaşına qədər enməkdən gedir. Xatırladaq ki, miflər, əfsanələr məhz fəlsəfi təfəkkürü oyadan, ona düzgün istiqamət göstərən mənbələrdir. Burada maraqlı bir məqama diqqət yetirək: biz insanın özünün deyil, millətin yaddaşına müraciətini nəzərdə tuturuq. İnsanın öz

yaddaşı şüur vasitəsilə formalaşır, zənginləşir. Milli yaddaşa keçid Mən-lə olur, çünki bunun üçün müəyyən təməl yaranmalı, istiqamət müəy-yənləşməlidir.

Mən-in sabitləşməsi həm də şüurun iradəsinin, seçiminin dəqiq-ləşməsi, sərbəstləşməsidir. Təbii ki, bu, bilavasitə özünüreduksiyada özünü göstərir. Belə ki, Mən-in formalaşması həmin müstəvinin durul-ması, işıqlanması deməkdir. Eyni zamanda, bu, kənar təsirlərin də qarşı-sını alır. Bu, bir tərəfdən, ilk nöqtənin güclü olması, digər tərəfdən, on-dan başlanan idrak xətinin dəqiq və aydın olması deməkdir. Hər nə qə-dər özünüreduksiya mücərrədliyə, üstşüura, yaradıcılığa qədər yüksəlsə də, onu başlanğıc nöqtəsi konkret nöqtədən başlamalıdır. Bunun təmin edən isə konkret sərhədlərə sahib Mən-dir.

Beləliklə, özünüreduksiya Mən-in formalaşması, möhkəmlənmə-sidir. İlk baxışda, qabıq təsiri bağışlayan Mən əslində şüurun rahat inki-şaf üçün fərdi sahəsidir. Obrazlı şəkildə desək, özünüreduksiya bitəcək ağac üçün toxumun seçilməsi və düzgün əkilməsidir. Məsələ burasında-dır ki, hər nə qədər şərait əlverişli, qulluq mükəmməl olsa da, toxum içəridən çürük olsa, ondan heç nə bitməyəcək.

## *§ 99. Fenomenoloji zaman*

Fenomenoloji zaman – özünüreduksiyanın zamanıdır. Məsələyə duyğular, saf Mən kontekstində yanaşan Husserl belə hesab edir ki, "fe-nomenoloji zaman bütün duyğuların tək duyğu selində vahid forması-dır"[1] və "bu saf Mənin sahəsində" üç zaman ölçüsü götürür "əvvəl, son-ra və eyni zamanda", "başqa sözlə desək, bütöv, mahiyyətinə görə vahid və duyğuların zaman vahidlərinin sərt şəkildə özünə qapanmış axınını götürürük".[2] Deməli, Husserlə görə, zaman hisslərin, yaşantıların axını-dır, başlıcası isə biristiqamətlidir. Başqa sözlə desək, o, saf Mən, maddi dünya çərçivəsində və üçölçülü dünyada mövcuddur. Özünüreduksiya

[1] Yenə orada, s. 253.
[2] Yenə orada, s. 258.

yalnız maddi dünyanı deyil, onu fövqündə olanları da ehtiva etdiyinə görə, fenomenoloji zaman həm də ilahi zamanın eydosları daxildir. Yəni burada Minkovski fəzasını da daxil eləsək, beşölçülü bir mövcudluqdan söhbət gedə bilər. Eydosologiyada fenomenoloji zaman yalnız hisslərin axını deyil, ümumiyyətlə eydedik zəncirini müşayiət edən zamandır. Hər eydosun və hər eydedik strukturun öz zamanı var. Geniş miqyasda baxanda zaman – zaman xətlərinin xaosudur.

Bu o deməkdir ki, hər insanın öz zaman oxundan başqa obyektiv zaman da mövcuddur. Əslində, hər canlının öz zaman anlayışı var, lakin eydosları düzmək, onlardan sistem yaratmaq yalnız şüura xasdır. Məsələn, bir heyvan və insan üçün bir gün eyni mahiyyət kəsb eləmir. Bir gün yaşayan kəpənəyin ömrünün bir gün olduğunu insan təyin edib, həmin kəpənək üçün isə zaman fərqli axır və bu onun ömrüdür – doğuluşdan ölümə qədər davam edən bir ömür. Yaxud bir mirvari dənəsi balıqqulağının içində necə gün, neçə il qaldığını hesablamır, onun üçün sabah, gələn il yoxdur, bunu bilən insandır, təyin edən isə Yaradan. Maraqlı bir faktdır ki, şüuru tam formalaşmayan körpə uşaqlar üçün də zaman anlayışı olmur. Onlar rahatlıqla sabaha dünən, bir saat sonraya sabah deyir, bütün günü oyun oynasa da, bir dəqiqə kimi təsəvvür edir. Onun eydedik zənciri yoxdur və *indi*-lər heç yerə qoşulmur, elə xaotik vəziyyətdə, *indi* şəklində qalır. Kosmik zaman insanın qurduğu təqvim, yaxud icad etdiyi saatla ölçülmür. Qurani-Kərimdə ilahi zamanla bəşəri zamanın eyni olmadığını, eyni hesablanmadığını söyləmişdik. Bir inşanın orqanizmi inkişaf edir, müəyyən mərhələlərdən keçir. Ancaq bunu edən zaman deyil, zaman o orqanizmi dəyişmir. Dəyişən orqanizmdir, zaman onu müşayiət edir. Bir növ insan da bir balıqqulağının içində yetişir, amma o, öz zamanını hesablayır, onu təyin edən cədvəllər, mexanizmlər, qurğular icad etməklə öz həyatını da həmin mexanizmlərin çərçivəsinə salır.

Fenomenoloji zaman şüurun hərəkətidir və subyektivdir, obyektiv zaman içində öz zamanını izləməkdir. Saat və ya başqa mexanizm zamanın obyektivliyini saxlayır, hər kəs öz zamanını ona uyğunlaşdırır.

Fenomenoloji zaman yalnız şüurun hərəkətini müşayiət edir. Buna görə də o, uzun müddət bir *indi* çərçivəsində də qala bilər, ilahi zamana da keçə bilər və s. Kimin üçünsə çox tez keçən zaman, başqası üçün sonsuz qədər uzun görünə bilir. Bir yoqa öz zamanını dayandırdığını, imtahana hazırlaşan bir tələbə isə 24 saatın ona yetmədiyini iddia edir. İnsan *indi*-ləri gündəlik həyatına, planlarına uyğun düzür. Əslində bunu irəlilədiyi eydoslara uyğun olaraq şüuru edir. Onu da əlavə edək ki, insan gələcək üçün plan quranda da, keçmişi xatırlayanda da *indi*-ləri nəzərdə tutur. Bu səbəbdən fenomenoloji zamanın bir istiqaməti yoxdur, o istədiyi tərəfə gedə bilir. Başqa sözlə desək, fenomenoloji zaman təbii zamanın eydedik quruluşudur. Necə ki, eydedik zəncir bir-birinə uyğun, bir-birini şərtləndirən eydoslar arasında qurulur, eləcə də fenomenoloji zaman həmin istiqamətdə irəliləyir.

Fenomenoloji zamanı istiqamətləndirən şüurun intensiyasıdır. Burada əhəmiyyətli bir məqam vurğulanmalıdır. Xatırladaq ki, şüur iki prinsiplə irəliləyir: a) obyektin eydedik strukturunu kəşf etməklə, b) öz ideyasının strukturunu yaratmaqla. Təbii ki, fenomenoloji zaman da buna uyğunlaşır. Birinci halda, şüur əvvəlki eydedik strukturlarla yanaşı, onların zamanını da öyrənir, onun öz axarını öyrənməyə çalışır. Burada ön planda olan obyektiv zaman olur. Fenomenoloji zaman obyektiv *indi*-lərin işıqlanmasından ibarət olur. İkinci halda isə, şüur yeni struktur yaratmaqla həm də yeni zaman oxu yaradır. Düzdür, burada da obyektiv zaman nəzərə alınır, bununla belə, önə insanın yaratdığı yeni strukturun zamanı keçir. Təbii ki, burada da şüur obyektiv *indi*-ləri işıqlandırmaqla irəliləyir, sadəcə, onlar öz obyektiv strukturunda deyil, yeni struktura daxil edilirlər. Xatırladaq ki, hər eydosla yanaşı, eydedik strukturların da öz zamanı var. Zaman eydosları xaotik şəkildə olduqlarına görə, şüur onları özünə uyğun istiqamətləndirə bilir: istər düz xətt, istərsə də çevrə boyunca. Şüur yumrudur və zamanı ölçən mexanizmdən fərqli olaraq istənilən tərəfə istiqamətlənə, obyektiv zamanın içində rahat "gəzişə" və eydedik zəncirini qura bilir.

Nəhayət, onu da qeyd edək ki, sufi fenomenologiyaya görə, hər

yaradılmış şeyin obyektiv zamanı onun maddi dünyada mövcudluğu ilə ölçülmür, onun “ol” əmri ilə – yəni sabit mənbələrdən ölçülür. Fenomenoloji zaman isə, şüurun imkanları daxilində olduğuna görə, yalnız eydedik zənciri qurduğu çərçivədə – Loqosa qədər yüksələ bilir.

### *§ 100. Özünüreduksiya və fenomenoloji zaman*

İnsan prizmasından baxanda obyektiv zaman fərdi zamanlar xaosudur. Bu xaosda itməmək üçün insan iki üsul seçib: zamanı mexanizmə müəyyənləşdirir və şüuru ilə öz zaman xəttini qurur. Birinci halda mövcud obyektiv zaman kənarda qalır, təbiətdə gedən proseslərə (gecə-gündüz, fəsillərin dəyişməsi və s.) uyğun olaraq müəyyən bir cədvəl tərtib olunur və həm özünün, həm də başqa varlıqların zamanını ona uyğunlaşdırır. İkinci halda isə, obyektiv zamanın varlığını və transsendentliyini qəbul etməklə yanaşı, öz zaman xəttini qurur və digər varlıqları ona nisbətdə tanımağa cəhd edir. Söhbət həmin varlıqları öz zamanına uyğunlaşdırmaqdan deyil, onları öz zamanı işığında öyrənməkdən gedir. Bu, fenomenoloji zamanın qurulmasıdır. Özünüreduksiya ikinci hala məxsusdur. Xatırladaq ki, özünüreduksiya özündə xarici reduksiyanın nəticələrini də ehtiva edir. Fenomenoloji zaman fərdi olduğuna görə hər iki prosesi vahid hala gətirir: insanın nə isə dərk etməsi, yaxud nə isə yaratması bir tək fenomenoloji zamana daxildir. Bu səbəbdən, fenomenoloji zaman kontekstində özünüreduksiya deyəndə həm də xarici reduksiyadan danışmalı olacağıq.

Özünüreduksiyada qurulan eydedik zəncirdə zaman eydosları müəyyən əhəmiyyətə malik olur. Birincisi, özünüreduksiyanın məqsədi zaman eydosları arasında əlaqə yaratmaq olmasa da, qurulan zəncir *indi*ləri də əlaqələndirir. Bəzən indi mahiyyətin ifadəsində rolu böyük olur. Əlbəttə, bu, insan prizmasından baxanda belə görünür. Məsələn, ömrü bir gün olan kəpənəyin mahiyyətini bir gün təyin eləmir. Bununla belə, həmin kəpənəyin təsvirində, yaxud təhlilində o müddət mütləq xatırlanır. Əslində, mahiyyətin zamanla bağlı olması *indi*-nin öz mahiyyətinin açılmasını nəzərdə tutur: *indi*-də həmin mahiyyətin hansı tərəfi, nə

qədər ifadə olunur. İkincisi, xatırladaq ki, hər eydedik strukturun öz zamanı var və o, nüvənin zamanı ilə eynidir. Deməli, qurulan eydedik zəncirdə özünüreduksiya ayrıca eydosla yanaşı, mütləq bunu da nəzərdə tutmalıdır. Nəhayət, üçüncüsü, özünüreduksiya eydedik strukturla yanaşı onun zamanını da öyrənmiş olur, çünki eydoslar paraleldir, bir-birini şərtləndirir. Bu, sonralar süni şəkildə həmin zamanı yaratmağa kömək edir.

Özünüreduksiya ilahi zamanı da ehtiva edir və müvafiq olaraq fenomenoloji zaman da əvvəlcədən qurulmuş təqvimdən, saatdan kənara çıxır, mücərrədləşir. Lakin o da unudulmamalıdır ki, reduksiya yalnız nüvələri ehtiva etdiyi halda, üst sistemə keçid mümkündür. Üst sistemə keçə bilməyən şüurun fenomenoloji zamanı da məhdud qalacaq. İnsan özü eydos yaratmır, olanlar əsasında hərəkət edir. Bu isə o deməkdir ki, istənilən halda obyektiv zamanla ayaqlaşmalıdır. Bir daha təkrar edək ki, əgər məqsəd obyektiv zamanın bir hissəsini ehtiva etməkdirsə, onda şüur obyektin eydedik strukturu ilə yanaşı, onun zamanına da nüfuz etmiş olur və onun fenomenoloji zamanı obyektiv zamanın subyektiv təqdimindən ibarət olacaq. Əgər məqsəd öz ideyasına yeni struktur yaratmaqdırsa, hər nə qədər obyektiv zaman nəzərə alınsa da, oradan götürülən eydoslar yeni strukturun zamanına uyğunlaşdırılacaq, ora yerləşən eydoslar seçiləcək.

Zaman eydosun, şeyin mövcudluq şərtlərindən biridir. Şüurun subyektiv yanaşması ona fərqli prizmadan baxmağa imkan verir. Məsələn, fəlsəfənin hermenevtik metoduna hər şeyin, hər hadisənin öz zamanı böyük əhəmiyyətə malikdir və onun dərkində mütləq nəzərə alınmalıdır. Sufizmdə hər şey Mütləq Varlıq kontekstində qəbul edildiyinə görə, vacib olan əbədiyyət, əzəlidir. İnsan öz zamanı da buna nisbətən "hesablanır". Məsələn, sufi mütəfəkkirlərə görə, vaxtın sonsuzluğu "Allah Təala ilə arasında olan halının davamı boyunca dəyişməməsidir. Bu, vəcd sahibinin sifətinin deyil, sirrinin vəsfini bildirir, çünki sifətlər dəyişən varlıqlardır..." Bu barədə sufi mütəfəkkir Əbu Bəkr Şibli deyir: [1]

---

[1] Tusi. Lümə, s. 442

*"Vaxtım Səndə sonsuzlaşdı və o əbədidir.*
*Məni məndən aldın və mücərrədləşdirdin".*

Deməli, obyektiv zaman anlayışının özü də fərqli ola bilir – kimsə bunu maddi dünya ilə məhdudlaşdırır, kimsə ilahi zamanla. Təbii ki, bu münasibət fenomenoloji zamanın qurulmasında da öz əksini tapır və bu, özünüreduksiyaya təsir edir: o, ya ayrı-ayrı zaman kəsiklərindən ibarət olur, düz xətt boyunca hərəkət edir, ya da sonsuz bir zaman axınına qoşulur, beşölçülü fəzaya keçir. Yəni bir var, fenomenoloji zaman *indi*-lərdən, bir də var, o, bütöv xətdən ibarət olur. Onu da əlavə edək ki, birinci halda fenomenoloji zaman fərqli, orijinal *indi*-ləri – zaman eydoslarını birləşdirməklə yanaşı, eyni strukturda birləşdirir. İkinci halda, isə, subyektiv zaman obyektiv zamana qoşulur, onun strukturuna uyğunlaşır.

Şüurun hərəkəti biristiqamətli və yalnız irəli deyil. Onun işıqlandırdığı *indi*-lər aid olduğu sistemdən ayrılıb fenomenoloji zamana qatılır. Burada istər-istəməz sual yaranır: artıq bitmiş hadisənin *indi*-si də keçmişdə qalıbsa, o zaman bizim dediklərimiz özünü təkzib etmirmi: *indi* həmin keçmişin tərkib hissəsi, artıq dünən deyilmi? Deyil. Təkrar edək ki, dünən, sabah insan şüurunun qurduğu subyektiv cədvəldir. İnsan zamanda bir təsnifat aparmaq üçün onu keçmişə, gələcəyə ayırıb. Biz də, təbii ki, həmin təsnifata uyğun olaraq keçmiş hadisə, gələcəkdə yaranacaq şey deyirik. Əslində, bitən eydedik strukturların zamanıdır, eydosların zamanı isə davam edir. Fenomenoloji zaman eydosların zamanından ibarətdir, ona görə də burada yalnız indi var. Hər bir şey, hadisə bütövləşmiş, yaxud tamamlanmış haldadır. Biz onu keçmişdə hesab etsək də, o, öz sistemi ilə digər varlıqlar arasında mövcuddur. Müəyyən idrak prosesi zamanı həmin şeyin eydosları, o cümlədən *indi*-si yeni sistemin tərkibinə qatıla bilir. Bunu təqribən musiqi sintezlərinə bənzətmək olar: klassik musiqini müasir improvizədə təkrar təqdim edirlər. Yaxud postmodern mətnlərin yazılması kimi. Köhnə öz varlığını saxlamaqla yanaşı, həm də yeninin bir detalına çevrilir. Xatırladaq ki, eydosları yox eləmək və yaratmaq yalnız Yaradana məxsusdur. Artıq varlıq qazanmış eydoslar bir eydedik strukturun zamanı bitəndən sonra başqa

sistemlərə, formalara daxil olmaqla öz mövcudluqlarını davam etdirirlər. Fizika enerjinin saxlanma qanunu kimi. Belə olan halda, məsələn, miladdan əvvəl var olan eydoslar, o cümlədən *indi*-lər bu gün də varsa, o zaman ona necə keçmiş demək olar? Yaxud, məlum olduğu kimi, arxeoloqlar qazıntılar zamanı tapdıqları bir sümüyün DNK-sını öyrənməklə, onun tərkibində tapdıqları hər hansı cisimlər vasitəsilə o dövrün mənzərəsini yaradır, eyni zamanda, yeni bir nəzəriyyə qururlar. Maraqlı bir fakt kimi də əlavə edək ki, alimlər keçmiş adlandırılan şeyləri bu gün aktivləşdirməklə, onun *indi*-sini öyrənməklə onu bərpa edib, öyrənə bilirsə və özünün bugünkü sisteminə nə isə əlavə edirsə, bu nə dərəcədə keçmiş olur? Təkrar edək ki, insan obyektiv zamanı anlamaq üçün onu sistemləşdirib keçmişə, gələcəyə ayırsa da, fenomenoloji zamanda bu bölgü yoxdur.

Hər idrak prosesi fenomenoloji zamanla müşayiət olunmur. O, yalnız özünüreduksiya ilə əlaqəlidir. Qalan hallarda şüur zamanın ümumi qəbul olunmuş sistemi üzrə hərəkət edir, qərar çıxardır. Hətta refleksiya özü də keçmişin təhlili kimi gedir. Burada zaman birölçülüdür və bir istiqamətli xətt boyu davam edir. Buna zamanla ayaqlaşmaq, yaxud "zəmanə adamı" olmaq da demək olar. Fenomenoloji zamanın qurulması üçün şüur şeylərin eydedik qatına enməyi bacarmalıdır. Bu isə özünüreduksiya zamanı mümkündür. Məhz özünüreduksiyada şüur hər hansı daxili bir *indi*-sindən çevrə çəkməyə və fərqli ölçülərə keçməyə başlayır. Burada iki əhəmiyyətli məqam var. Birinci, şüur öz konkret çərçivəsindən kənara çıxır – özünü obyektiv zamandan ayıra bilir. İkinci, şüur ideyaları arasından birini fərqləndirir, seçir. Yəni öz *indi*-sində başqa bir eydosun *indi*-sini ehtiva edir. Şəxsi keyfiyyətlər, bacarıqlar, əldə olunan biliklər və təbii ki, şüurun malik olduğu işıq bir nöqtədə cəmlənir. Bu, yeni fenomenoloji zamanın başlanğıc məqamıdır. Zamanın noematik nüvəsi yoxdur, ancaq nüvənin zamanı var. Başlanğıc nöqtə yeni strukturun nüvəsi ola da bilər, olmaya da. Bu, asılıdır özünüreduksiyanın gedişindən və eydedik strukturdan. Xüsusilə vurğulayaq ki, yeni qurulacaq eydedik strukturun zaman insanın fenomenoloji zamanı ilə eyni deyil.

İnsanın fenomenoloji zamanı hamısını ehtiva edir və sonralar yeni struktur öz zamanını yaşamağa başlayır. Məsələn, "Pyeta" heykəlinin "ömrü" 1499-dan, hazır olduğu ildən hesablanır. Halbuki, onu hazırlayan Mikelancelonun fenomenoloji zamanı ondan çox əvvələ, hələ ideyasının yaranması vaxtına gedir və hazır olandan sonra bitir. Yəni "Pyeta" öz zamanını "yaşamağa" başlayanda heykəltəraşın fenomenoloji zamanından çıxıb. Necə ki, bir varlığın zamanı sabit mənbələrdə "ol" əmri ilə başlayır, eləcə də insanın fenomenoloji zamanı ideyanın – ilk nöqtənin fərqləndirilməsi ilə başlayır.

Obyektiv zaman ümumiyyətlə yaradılmışların zamanını ehtiva edir, ümumidir və daimidir. Fizikada enerjinin saxlanma qanunu kimi, burada da eydedik strukturların zamanı başlaya, bitə bildiyi halda, ümumi eydosların zamanı saxlanır. Onu da əlavə edək ki, obyektiv zaman sabit deyil, çünki yeni eydoslar yaranır, hansılar isə məhv olur və s. Ancaq bu proses Mütləq Yaradanın mülkündə və nəzarətindədir, insan yalnız maddi dünya çərçivəsində nəyin isə şahi olur. Fenomenoloji zaman isə təkdir və şüura görə dəyişə bilir. Hər nə qədər o, özündə ilahi zamanı ehtiva etsə də, şüurun konkret çərçivəsindən çıxıb sonsuzluğa qarışmaqla mücərrədləşsə də, o konkretdir: başlanğıcı və sonu olan zaman kəsiyidir. Bununla yanaşı, bir insan bir neçə fenomenoloji zamana sahib ola bilər, çünki hər özünüreduksiya prosesinin öz zamanı olur.

### *§ 101. İdeyanın zaman axınında formalaşması*

Bir ideyanın doğulması və reallaşmaq üçün inkişafa başlaması şüurun aktivliyinin və sərbəstliyinin göstəricisidir. O inkişaf xəttinin gələcəkdə hara qədər getməsi əhəmiyyət kəsb etmir. Əsas odur ki, şüurun a) seçim etmək bacarığı var, b) seçmək üçün bazası var, c) ideyalar arasından birini fərqləndirib onu irəli aparmaq üçün iradəsi var. Yeni bir eydosun yaranma məkanı sabit mənbələr olduğu kimi, insanın da yeni ideyası onun şüurunda doğulur. Şüura kənardan diktə edilən ideyanın öz sahibi və öz maraqları var. O, bu şüurda böyüyə bilməz. Ya şüur onu qəbul etməyəcək, ya da o, şüuru passivləşdirib öz sahibinin təsiri ilə bö-

yüməyə davam edəcək. Bu, şüura düşmüş parazitə oxşayır. Əlbəttə, kənar təsirlərin təsiri çox böyükdür və olmalıdır. Şüur heç də bütün biliklərə, yeniliklərə malik deyil və daim kənardan bilik toplamalı, yaddaş, təməl formalaşdırmalıdır. Alınan bütün biliklər şüurun öz sisteminə oturmalı, daxili radiusundan keçməlidir ki, refleksiya və sonradan reduksiya zamanı təhlil oluna bilsin. Bir daha təkrar edək: şüur ideyanı özü seçməlidir, təkan daxildən olmalıdır.

İdeyanı formalaşdıran üç şərtin həyata keçməsi üçün şüur, ilk növbədə, kifayət qədər güclü bilik bazasına malik olmalı və onlara kompleks halda baxmağı bacarmalıdır ki, aralarından yeni və aktual olanı seçə bilsin. Bəzən kiçik biliklər arasında yeni görünən bir ideya sonradan məlum olur ki, daha geniş və yüksək səviyyədə başqa bir alim tərəfindən artıq təqdim olunub. Qısa desək, ikitəkərli gediş vasitəsi icad etməzdən əvvəl insan, ən azından, velosiped və bənzər vasitələr haqqında geniş məlumata sahib olmalıdır. Digər tərəfdən, şüurun özünüreduksiyası (refleksiya+reduksiya) inkişaf etməlidir. Özünüreduksiya – öz potensialını və enerjini tanımaq və dəyərləndirmək bacarığıdır. Məhz özünüreduksiya sayəsində şüur öz intensiyasının istiqamətini təyin edə və onun ardınca gedə bilir, ancaq bunun üçün təməl, baza olmalıdır. Bethoven nə qədər dahi olsa da, fizika qanununu kəşf edəcək şəxs deyildi, eləcə də Nyuton ömründə simfoniya bəstələməyib. Hər halda tarixdə belə bir məlumata rast gəlməmişik. Deməli, məhz bəlli bir sahədə toplanan bilik, cilalanan bacarıq əsasında özünüreduksiya başlaya və hansı isə nəticə əldə bilər – ideya doğular və şüur həmin istiqamət üzrə irəliləyər.

İdeyanın doğulandan sonra irəli getməsi üçün daha bir vacib faktor da isə şüurun öz hökmünün və qərar vermək bacarığının olmasıdır. Şüur daim kənar təsir altındadır: bilik qazananda, təlim-tədris müddətində, üstəlik sosial həyatın şərtləri. Doğulandan kənar təsiri hiss edən və onunla böyüyən bir şüur üçün öz hökmünü yaratmaq, iradəsini möhkəmləndirmək asan deyil. Bunun üçün onun özünü yaxşı tanıması, dərk etməsi zəruri addımdır. Şüur öz potensialını bilməli və qabiliyyətini düzgün dəyərləndirməyi bacarmalıdır. Yeni ideyanın cücərməsi baş verə

bilər, ancaq özünə inamı olmayan, özünə güvənməyən, deməli, hökm qabiliyyəti olmayan şüur yeni addım atmaqdan çəkinəcək və hazır, aydın yolla getməyə üstünlük verəcək. Özünü tanımaq – refleksiya şüurun cilalanması, mahiyyətin sabitləşməsidir, malik olduğu biliklər arasında sistemləşdirmə aparmaqdır. Bir ideyanın cücərməsi üçün münbit “torpaq” – kifayət qədər biliyin olması işin yarısıdır, digər yarısı isə ona şərait yaratmaqdır – iradə göstərib, onu böyütməkdir.

İdeyanın inkişafı şüurdakı bir nöqtənin çevrəyə çevrilməsidir. Xüsusilə vurğulayaq ki, bu, iki nöqtə arasında diaqonal boyu xəttin çəkilməsi, yaxud yarım çevrə deyil, məhz bütöv çevrənin çəkilməsidir. Zaman haqqında təhlillərimizdə (§21) də qeyd etdiyimiz kimi, zaman tamamlanmalıdır. Hər ideyanın/eydosun zamanı da müəyyən həqiqəti ehtiva edir və idrak zamanı o da qavranılmalıdır. Deməli, özünüreduksiyanın ilk nöqtəsi potensiallı olarsa, bir o qədər çevrə böyük radiuslu alınar. Onu da xatırladaq ki, ilk nöqtədə yalnız öz zamanının eydosları var. Digər zaman eydosları proses boyu əlavə edilir. Burada əhəmiyyətli bir məqam var: idrak prosesinin fenomenoloji zamanı. Husserlə görə, “Yaşananlar mahiyyətcə nə qədər bir-birinə yad olsa da, onlar bütövlükdə tək zaman axını təqdim olunurlar, bir fenomenoloji zamanın halqaları kimi”.[1] Başqa sözlə desək, zaman eydosları yalnız müşayiətçidir və fərqli ideyalar bir idrak prosesində birləşdikləri kimi, onların zamanı da bir tək axın təşkil edirlər. Filosofla razılaşmaqla yanaşı, bəzi suallar üzərində da düşünməli oluruq. Eydedik strukturların öz məhdud zamanı var və yeni strukturların qurulmasında bu fakt mütləq nəzərə alınmalıdır. Buna nümunə kimi, transplantasiyanı göstərmək olar: bütün bioloji göstəricilər uyğun gəlsə də, orqanın “zamanı” bitibsə, onu nəql etmək olmur. Deməli, zaman da müəyyən informasiya daşıyıcısıdır və fenomenoloji zamanda bu, özünü göstərir. Husserlin iddia etdiyi kimi, məhz vahid axın olmalıdır və qurulan yeni sistemin strukturunda boşluq olmamalıdır. Digər tərəfdən, biz Husserlin düşüncələri yanına paralel bir xətt də əlavə etməli oluruq. Aktivləşmiş eydos iki məqsəddən birinə aparır:

---

[1] Гуссерль. Идеи...I, с. 370.

ya universal qanunun kəşfi, ya da şəxsin öz yaradıcılığının başlanğıcı. Hər ikisi bir ideyanın açılmasıdır. Lakin birinci halda, məhz Husserlin dediyi kimi, "heç bir konkret hiss tam mənada müstəqil mənaya malik ola bilməz. İstənilən hiss qarşılıqlı əlaqə baxımında "əlavə tamamlanma tələb edir" – növünə və formasına görə istənilən yox, əlaqəli olan".[1] Burada şüurun intensiyası qavradığı hər eydosda gedəcəyi növbəti eydosu da "kəşf edir" və beləliklə bir-birini şərtləndirən, "tamamlayan" eydoslarla irəliləyir, bir sistemdən digərinə – daha üst sistemə keçir. Onları birləşdirən şüurun öz daxili intensiyası kimi görünsə də, əslində, "verilmiş" həqiqətin apriori qanunauyğunluğudur. 2+2-nin 4 olduğunu sübut edənə qədər şüur reduksiyasını davam etdirməli, axtarmalıdır. İkinci halda vəziyyət fərqlidir. Burada aktivləşən şüurun öz daxili potensialından olan bir ideyadır. Bu, yaradıcılıqdır, yeni strukturun və yeni fenomenoloji zamanın qurulmasıdır. Bu xətdə də daxili qanunauyğunluq var, lakin burada qərar verən şüurdur və səhvlər, qırılmalar mümkündür. Onu da əlavə edək ki, birinci halda, qurulan fenomenoloji zaman obyektiv zamanın işıqlanmış bir hissəsidir. Məsələn, dünyanın cazibə qanununu hər hansı başqa bir fizikin kəşf edəcəyinə inanmaq olur, çünki bu qanun obyektiv şəkildə mövcud idi və kəşfini "gözləyirdi". İkinci halda isə yeni strukturla yanaşı yeni fenomenoloji zaman da qurulur. Bethovenin 9-cu simfoniyasını başqa kimsə yaza bilməzdi, "Pyeta"nı kimsə yarada bilməz. Burada 2+2-nin 5 olduğunu sübut etmək istəyən və edən şüurun iddiası ön plandadır. Hər iki halda proses ilk ideyanın təsdiqlənməsi və fenomenoloji zamanın tamamlanması ilə bitir.

İdeya haqqında mülahizələrimizdə qeyd etmişdik ki, bəzən proses müddətində yeni eydedik strukturun nüvəsi dəyişə bilir. Sual yaranır, bu, fenomenoloji zamanda da özünü göstərirmi? Əlbəttə. Eydedik strukturun zamanı onun nüvəsinin zamanı ilə eynidir. Lakin bu, strukturda olduğu kimi "yenidən təşkilatlanma" şəklində getmir və yalnız tamamlanmış strukturda bəlli olur, çünki zaman eydedik struktura daxil deyil, yalnız müşayiətçidir.

---

[1] Yenə orada, s. 260.

Dediklərimizdə əhəmiyyətli bir məqam da var. Məsələyə yaradılış prizmasından baxanda məntiqlə belə nəticə alınır ki, hər eydedik strukturun öz fenomenoloji zamanı var. Əgər insan idrakı prizmasından baxsaq, onda eydosun özü kimi, sabit mənbələrdən başlayıb Loqosda bitən bu zaman çevrə yaratmır. Çevrə yoxdursa, deməli, hərəkət kəsilir, harmoniya pozulur. Bu, isə ümumi prinsipimizə uyğun gəlmir. Əslində, yaradılış prizmasından yalnız obyektiv zaman var – eydosların öz zamanı, eydedik strukturların öz zamanı. Yəni onu fenomenoloji, kosmik, bioloji və s. növlərə ayıran insan şüurudur, obyektiv olaraq vahid zaman var. Fenomenoloji zaman insan şüurunun anladığı, ehtiva edə bildiyi zaman növüdür. Obyektiv olaraq bir ideya universal sistemdə mövcuddur, əvvəli də sonu da sabit mənbələrə aparır. Loqos insan şüurunun həddidir. Fenomenoloji zamanın başlanğıcı şüur, sonu da şüurdur və hər hansı qırılma baş vermir. Loqosda yalnız eydedik zəncirin – ideyanın inkişaf xətti deyil, həm də fenomenoloji zaman təsdiqlənir. Eyni zamanda onu da vurğulayaq ki, fenomenoloji zaman yalnız yaradıcılıq müddətində qurulur, onu nəticəsi reallaşandan, söz, səs, yaxud hərflə maddiləşəndən, yəni həmin şeyin öz zamanı işə düzəndə fenomenoloji zaman dayanır. Başqa sözlə desək, bu, yaradıcılığın zamanıdır.

Daha əvvəl də qeyd etdiyimiz kimi, ideya müəyyən fenomenoloji zaman daxilində "yetişir", reallaşır və biz diaqonal boyu irəliləyən şüurun fenomenoloji zamanından ümumiyyətlə danışmadıq. Məsələ burasındadır ki, ideya şüura təkrar dönüb, onun sisteminə daxil olub, rasionallaşandan sonra o, tamamlanmış sayılır. Bəli, diaqonal boyu yüksələn şüurun da fenomenoloji zamanı var, lakin o, tamamlanmır və buna görə də, heç cür öz zamanı ilə yaşaya bilməyən ideya öz sahibini rahat buraxmır. Bir növ ideyanın yarımçıq zamanı ilə insanın digər zamanı qarışır, yeni fenomenoloji zaman başlaya bilmir.

### *§ 102. İntensionallıq və özünüreduksiya*

İşıq yaradılışın özək xəttindədir və hər varlıq yaranışdan müəyyən işığa malikdir. İşığın hərəkəti enerji prinsipləri, termodinamikanın qa-

nunları ilə izah edilə bilər: işıq heç bir şəkildə itmir və güclü işıq zəifə doğru hərəkət edir. İntensionallıq insana məxsus işıqdır və Husserlin də dediyi kimi, şüurun özüdür. İnsanın onu dərk edib etməməyindən asılı olmadan onun işığı obyektiv təbiət qanunlarına uyğun olaraq hərəkət edir. Şüurun özünü tanıması ilə işığını ifadə etmək qabiliyyəti də qazanır. Bu, təbiət qanunlarına zidd olmur, sadəcə, istiqamətlənməsində, fokuslanmasında özünü göstərir. İntensionallıq dərk olunmuş işıqdır. Özünüreduksiya intensionallığın hərəkət trayektoriyasıdır.

İdrak, qeyd etdiyimiz kimi, şüurun işığının obyektin işığını mənimsəməsi, özünə qatmasıdır. Maneə olanda hər işıq fərdi mövcud olur, qavrama həmin maneəni ortada qaldırır. Bununla həmin varlıqla arasındakı daxili əlaqə yaranır. Bu, eydedik zəncirdən fərqlidir. Əgər eydedik zəncirdə bir eydos öz fərdiliyini qorumaqda davam edirsə, intensionallıq zəncir deyil, axındır. Məhz bunu nəzərdə tutaraq, şüurun irəliləməsini, Husserl kimi, biz də vahid axın adlandıra bilərik.

Varlıqlardan yalnız insan şüuru sayəsində öz işığını artıra bilir. Düzdür, heyvanlar da ətrafı öyrənmə, tanıma bacarıqlarına malikdir. Lakin onlar bunu şüurlu şəkildə deyil, instinktiv edir. Yəni onların işığı təbiət qanunları çərçivəsində hərəkət edir. İnsan isə həmin qanunlardan məqsədyönlü istifadə edə bilir. İntensionallıq özünüreduksiyanın kökündə durur, onun başlamasının əsas təkanıdır, eyni zamanda, proses onu dəyişə bilir. Şüur obyektin işığını tam da mənimsəyə bilir, qismən də, ümumiyyətlə ona gücü çatmaya da. Bu asılıdır, bir tərəfdən, onun gücündən, öz işığının həcmindən, digər tərəfdən, obyektin işığından. Mümkün eydosların işığının qavranması şeyin qismən dərkidir. Bir strukturun tam dərki onun nüvəsinin işığına çatmaqdır. Və yalnız bu halda üst sistemə yol açılır. Eydedik strukturun işığı vacib eydosun işığı ilə eynidir. Şüur insanın nüvəsidir və onun işığının artması bütövlükdə insanın nurlanması deməkdir. Müvafiq olaraq, mənbənin passivləşməsi bütöv strukturun işığının azalmasına səbəb ola bilir. Deməli, şüur bütöv insan sisteminin işığının mənbəyidir. Eyni zamanda, o, ümumiyyətlə bütün yaradılışın işıq mənbəyi ilə əlaqədir. Buna görə də, intensionallığı şüurun

daxili potensialının kəşfidir, idrakın daxili təkanının gücü adlandıra bilərik. İşığın mənbəyi ilə bilavasitə əlaqə bütün sistemin varlığına təsir edir. Heyvanlarda, yaxud başqa varlıqlarda işığın hərəkəti, mənbə ilə əlaqəsi, tənzimlənməsi də o cümlədən, təbiət qanunlarına uyğundur. İnsan iradə və müstəqil seçim sahibidir. Onun bilik qazanması, fəaliyyəti, kənar təsirlərə məruz qalması işığın mənbəyinin bulanmasına, hətta passivləşməyinə səbəb ola bilir. Əlbəttə, əgər insan da bir heyvan kimi yalnız təbiət qanunlarına uyğun yaşasa, hər hansı problem yaşamaz, lakin insan adını daşımaz. Deməli, həm şüurun öz işığının kəşfi, həm də onun Nurlar Nuru ilə əlaqəsini daim aktiv saxlamaq insanlığın ilk şərtidir.

Hər eydedik strukturun mövcudluq müddəti işığı ilə ölçülür. Təbii quruluşda bu işığın mənbəyi nüvədir. Məsələn, bir ağac torpaqdan qidalandığı qədər mövcuddur. Kökü qurusa, yaxud torpaqdan çıxarılsa bütün sistem məhv olur. Bu fakt insan yaradıcılığında iki cür özünü göstərir. Qeyd edək ki, bu yalnız şüurun öz ideyasını reallaşdırma halına aiddir. Yəni əgər şüurun intensionallığı təbii qanunauyğunluğun bir hissəsini ehtiva edirsə, bu zaman hər hansı mənbədən qopma halı baş vermir. Qravitasiyanın kəşfi təbiətdə heç bir strukturun məhvinə gətirmədi, sadəcə insanın idrak radiusu böyüdü. Şüur öz ideyasının strukturu isə təbii strukturların üzərində qurulur. Bu zaman təbii struktur qismən saxlanır, nəticədə onun işıq mənbəyi də dağılmır. Belə olan halda yeni yaranan strukturun ömrü uzun olur. Daha dəqiq desək, təbii strukturun ömrü qədər. Bunu təqribən bonsaya bənzətmək olar, yaxud qranitdən yaranan heykələ. Bununla yanaşı, bəzən təbii struktur dağılır və təbii ki, mənbə ilə hər hansı əlaqə qalmır. Məsələn, insan ağacı kəsir və ondan masa hazırlayır. Ağacın mənbəyi ilə əlaqə kəsildiyinə görə, yeni strukturun ömrü insanın təyin etdiyi nüvədən asılı olur: nə qədər güclü ideya olarsa, bir o qədər ümumi strukturun da ömrü uzun olar. Belə əsərlərin ideyası birmənalı olaraq obyektiv ruhla kəsişmə anından gəlir və özündə Mütləq ruhun təzahürünü ehtiva edir. Burada insanın şüuru bir növ həmin əsərin də işıq mənbəyinə çevrilir. Husserl yazır: "İntensionallıq – şüuru aydın şəkildə xarakterizə edən, yaşantının bütün axınını şüurun axını və

tək şüurun vəhdətinin xarakteristikası kimi təsdiqləyən şeydir”.[1] Öz ideyasının eydedik strukturunu quran insan mənimsədiyi hər işığı tək axına qata bilir, bir növ, özü “bir şeyin şüuru olmaq” halını yaşayır”.[2] Bu insan şüurunun gücünün yeni struktura keçməsidir. Maraqlıdır ki, həmin ideya “müstəqil həyatına” başlayandan, yəni mənbədən ayrılandan sonra da öz işığını saxlayır, çünki öz nüvəsinin işığı buna kifayət edir.

İntensionallıq şüurun hər səviyyəsində fərqlidir, ancaq ümumiləşdirsək, onu iki növə ayırmaq olar: pərakəndə və fokuslanmış. Qeyd etmək lazımdır ki, şüurun yeni formalaşdığı, yeni biliklər qazandığı vaxtda, hətta refleksiya başlayanda da buna intensionallıq demək olmur. Çünki intensionallıqda bir istiqamətlənmə, məqsəd olmalıdır. Şüur gah bir ideyaya, gah başqasına yönəlməklə, bir tərəfdən, öz işığını, intensiyasını parçalamış, zəiflətmiş olur, digər tərəfdən, mənzərəni görə bilmir. Bu, xüsusilə altşüurda özünü aydın göstərir. Bir arxiv, qaranlıq otaq olan altşüurdan yalnız müvafiq şərait yetişəndə ayrı-ayrı fraqmentlər özünü göstərir. Axtarış aparan projektorun işığında ara-sıra obyektlər görünüb yox olduğu kimi, bura yönələn intensiya da obyektləri, hissləri əlaqəsiz şəkildə işıqlandırıb uzaqlaşır. Həmin epizodik işıqlanan obyektlər ümumi sistemə daxil olmur, eyni zamanda onu işinə maneə olur. Bir növ işığın axarı maneələrlə qırılır, işıq və qaranlıq bir-birini əvəz edir. Özünüreduksiya işığın tək axına yönləndirilməsi və məqsədyönlü olmasıdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, şüurlar arasında maneələrin götürülməsi ilə, həm də işığın axınını maneəsiz edir və bu, işığın, intensionallığın gücünü artırır. Özünüreduksiya zamanı altşüura sistemli şəkildə müraciət edilir və işıqlandırılan biliklər arasından lazım olanlar götürülüb, digərləri isə mötərizəyə alınır. Xüsusilə vurğulayaq: mötərizəyə alınır, təkrar qaranlığa düşmür. Beləliklə, özünüreduksiyanın radiusu artdıqca, altşüurun qaranlıq məqamları da azalır.

İlk iki qatdan fərqli olaraq üstşüurda intensionallıq tək axına malikdir. Məsələ burasındadır ki, üstşüur səviyyəsinə çatmaq üçün şüurun

[1] Yenə orada, s. 262.
[2] Yenə orada.

işığı güclənir, kənar təsirlərdən, maneələrdən arınmağı öyrənir və artıq ora çatanda bütün bunlar şüurun təbii hərəkətinə çevrilir. Burada o, yaranmış işıq seli boyunca gedir. Təbii ki, burada da maneələr olur, ancaq intensionallığın gücünün yanında onlar zəif olur. Nə qədər paradoksal olsa da, burada ən təhlükəli maneə elə həmin işığın özü olur. Belə ki, bəzən insan bu işığın gücünə, ehtiva etdiyi hikmətə heyran qalır və yoluna davam etmək istəmir, elə bu işıqda qalmağa üstünlük verir. Lakin nəzərə almaq lazımdır ki, işıq mütləq müəyyən məqsədə çatmasa geri dönə bilməz. Deməli, ideya təsdiqlənməmiş və təcrübə səviyyəsində qalacaq.

Nəhayət, onu da bildirək ki, idrak yaradılış prosesinin geri istiqamətdə izlənməsidir. Yakin burada əhəmiyyətli bir məqam vurğulanmalıdır ki, yaradılış prosesində işıq daha böyük ehtivalıdır. İnsanın intensionallığı böyük bir müstəvidə kiçik bir axındır. Məsələn, yaradılmış səslər arasından insanın qulağı yalnız 16-20000 Hs həddində olan səsləri eşidir və onu yeddi nota bölüb. Bu notlar üzərində neçə əsrlərdir fərqli sənət əsərləri bəstələnir. Öz biliklərini həmin səslər vasitəsilə çatdırmağı bacarır. Məsələn, Vaqner o səslərlə Alman miflərini nəql edir, Üzeyir Hacıbəyov milli musiqinin dərinliyini çatdırır, Ştraus isə bütün səsləri vals halında eşidir. Bu tezlikdən yuxarı və aşağı səs dalğalarını – ultrasəs və infrasəsləri eşitmək üçün isə xüsusi cihazlar kəşf edib və onlardan da müəyyən sahələrdə istifadə edir. Yəni insan öz imkanlarını bilməklə yanaşı, onları genişləndirir və bunun son olmadığını bilir. İntensionallıq sonsuz işıq müstəvisində öz işıq axınını yaratmaqdır. Subyektiv axının başlanğıcı isə, təbii ki, fərdi şüur.

### *§ 103. Özünüreduksiya, ideya və materiya*

İnsanın şeyləri qavraması bir neçə səviyyədə baş verir: hisslərlə, ümumi biliklərlə, xüsusi biliklərlə, eydedik strukturla və s. Bunların hər birində şüur olsa da, onun dərəcədə aktiv olması ayrıca məsələdir. Bunu nəzərə alsaq, belə nəticə çıxır ki, şeylərin tanınmasında üç tərəf var: subyekt – insan özü, obyekt – şey və həmin şeyin təqdim edən ikinci

subyekt. Məhz subyekt deyirik, çünki o da əsasən özünün bildiyini öyrədir. Sonuncuya ümumi biliklərin müəllifi, kənar təsir də deyə bilərik. Maraqlıdır ki, hər iki tərəfdən ən aktual olanı məhz odur. Subyekt özü bilavasitə obyektlə çox gec təmasda olur və daha çox ikinci subyektin fikirləri ilə kifayətlənir. Məsələn, uşaq dünyanı anasının dedikləri ilə tanıyır. Düzdür, özü də görür, hətta daxildən gələn bir cəhdlər toxunmaq, dadmaq istəyir, ancaq onu tezliklə bu fikirdən çəkindirirlər – hər şeyə toxunmaq, hər şeyi dadmaq olmaz və o, verilən məlumatla kifayətlənməli olur. Daha sonra bu sıraya oxuduğu kitablar da əlavə olunur və getgedə ikinci subyektin rolu daha da çoxalır. Yəni subyekt hər zaman şeyləri vasitəli tanımalı olur. Subyektin obyektlə bilavasitə təması artıq müəyyən biliklər bazası formalaşandan sonra başlayır və buna görə də, bəzən artıq qəbul olunmuş rəydən – çərçivədən kənara çıxmaq çətin olur.

İnsan daha çox yaradılış prosesinin özü ilə deyil, onun nəticəsi ilə təmasda, ünsiyyətdə olur. Bir sakura ağacına baxan onun *tode ti* gözəlliyinə heyran olur və onun ilk ideyası, yaranışı sonra onu düşündürə də bilər, düşündürməyə də. Bu, asılıdır tamaşa edən insanın kimliyindən, ixtisasından, niyyətindən. Amma hər kəs ilk növbədə ikinci subyektin fikri vasitəsilə şeyi tanıyır, sonra hiss orqanları ilə onu görür, hiss edir, ilk təəssüratını qazanır. Hissi idrak, əgər hər hansı anomaliya yoxdursa, ikinci subyektin dediklərini təsdiq edir: alov yandırır, çiçəyin gözəl ətri var, halva şirindi və s. Nə qədər paradoksal səslənsə də, bir çox insan ömrü boyu ikinci subyektin dedikləri ilə kifayətlənir və nadir halda obyektlə birbaşa təmasda olur. Bu səviyyədə refleksiya ola bilər və o, mövcud çərçivədən kənara çıxmaya da bilər, əksinə onu şeylərlə birbaşa təmasa həvəsləndirə də. Bu, asılıdır şüurun daxili radiusundan və intensionallığından. Sual oluna bilər ki, eyni ümumi biliklər əsasında formalaşan şüurlar arasından birini o çərçivədən çıxmağa sövq edən nədir? Şüurun daxili radiusu. Daxili radiusun böyüməsi refleksiyanın da sahəsini böyütmüş olur və nəticədə şüurun öz mahiyyətinə, ruhla əlaqəsinə qədər gedə bilər.

İnsanın şeylə birbaşa təması ilk qazandığı bilikləri təsdiqləyə də

bilər, inkar edə də. Onu da əlavə edək ki, insanın şeylərə birbaşa təması yalnız bir, yaxud iki istiqamət üzrə mümkündür, digər sahələrdə isə biliyi yenə ikinci subyekt səviyyəsində qalır. Subyektiv mövqeyin formalaşması artıq mövcud biliklərin təftişini də aparır. Refleksiya tədricən reduksiyaya keçməyə başlayır. Özünüreduksiya ətraf aləmə də münasibəti dəqiqləşdirir və şüur konkretlikdən mücərrədə keçir. Onun obyektlə təması korrelyatları vasitəsilə baş verir və burada zahirdən batinə, mümkün eydoslardan nüvəyə doğru istiqamətlənən xətt boyu gedir. I cild §13-də gəldiyimiz nəticəyə görə, zahiri qabıq – formanın materiallaşması, konkretləşməsidir. Əsl mahiyyət – forma isə daxildədir və o, bu konkretlikdən – *tode ti*-dən daha genişdir. Husserl "İdeya..." əsərinin 85-ci paraqrafında bu məsələnin həllini sensual materiya (*hayulə*, *heyl* – ὕλη) və intensional forma (*morf* – μορφή) vasitəsilə izah edir və maraqlı bir nəticəyə gəlir ki, "əslində biz hər hansı aydın bir sezməni, yaxud bütün aydınlığı ilə həyata keçirdiyimiz bir dəyərləndirməni, iradəni, dadbilmə aktını və s.- aktuallaşdıran kimi, materiya və forma anlayışları özlərini əməlli-başlı bizə sırıyırlar".[1] Fenomenoloji aspektdən baxanda məntiqli bir iraddır. Maraqlıdır ki, bənzər nəticəyə fizik Verner Heizenberq də gəlir. Onun dediyinə görə, "Bizim müşahidə etdiyimiz təbiətin özü deyil, bizim sual vermək metodumuza məruz qalmış təbiətdir".[2] Əslində, bu, materiya və formanın inkarı deyil. Forma və mahiyyət kimi antik dövrdən bəri aktuallığını saxlayan mövzuya fərqli baxışdır. İdrak prosesində şeyin daxili strukturuna nüfuz edəndə onların bir əhəmiyyət kəsb etmədiyinə işarədir. Vacib olan subyektin metodu, intensionallığıdır.

Forma və materiya hər ikisi eydoslardan yaranıb. Sabit mənbələrdə "ol" əmri ilə yanaşı, eydoslara həm də müəyyən missiyaya və nur yüklənir. Yaxud belə demək mümkündürsə, "ol" əmri elə onları qazanmaqdır. Ağacın eydosu ağac üçün, musiqinin eydosu musiqi üçün yaradılır və sonradan onlar yerini heç vaxt dəyişə bilməz, yəni eydosun mahiyyəti dəyişməzdir: ağac dəmirə çevrilə bilməz, göz qulağın yerinə eşidə bilməz və s. Eydosun mahiyyəti və forması eynidir. Bir sistemin ya-

---

[1] Yenə orada, s. 268.

[2] Гейзенберг. Физика и философия, с.27.

radılış prosesində hər eydos öz mahiyyətinə uyğun yeri tutur. Burada xüsusilə təkrar edək ki, eydoslar sabit mənbələrdə mahiyyət və nur qazanır, proses boyu deyil. Burada bir əhəmiyyətli məqama aydınlıq gətirək. Sührəvərdinin işıqlar iyerarxiyasında belə bir təəssürat yaranır ki, yaranış boyu işıq azala-azala gedir, tamamilə yox olana qədər. Filosof yazır: "Vahidliyi baxımından Nurlar Nurundan çoxluğun alınması təsəvvür edilmir, qaranlıqdan zülmətin, yaxud formanın, yaxud iki nurun alınması da mümkün deyil. Ondan alınan ilk şey tək mücərrəd nurdur".[1] İyerarxiyada tutduğu mərtəbəyə müvafiq olaraq nurlanan hər bir varlığın mənbəyə – Nurlar Nuruna yaxınlığı onun mahiyyətini və vəzifəsini təyinləşdirir. Sührəvərdi yazır: "Ən yaxın nurdan [bir] bərzəx və [bir] mücərrəd nur hasil olur, bundan digər bir mücərrəd nur və bərzəx və beləliklə doqquz fələk (planet) və ünsürlər aləmi yaranır (hasil olur). Bil ki, nurlar mərtəbəsi sonu vacib olan silsilədir və artıq başqa bir mücərrəd nur alınmayan nurla bitir".[2] Deməli, başda ilk olmaqla, hər bir nur kamilliyinə görə növbəti nurun, naqisliyinə görə isə növbəti bərzəxin yaranışına səbəb olur və bu proses ən naqis nura qədər davam edir. Hər bir varlıq – bərzəx öz nur payını almaqla var olur. Eyni zamanda, başqa birinin var olmasına da səbəb olur. Yaradılış prosesinin sonunda minerallar, bitkilər və heyvanlar, yəni maddi dünya durur.[3] Deyilənlərdən belə məlum olur ki, ilk nurdan başlayan səbəb-nəticə zənciri maddi dünyada, yəni özü nura sahib olsa da, nur verə bilməyən varlıqlarda bitir. Belə məlum olur ki, Sührəvərdiyə görə də, alt varlığa nur verən üst varlıq deyil, o, sadəcə səbəbdir. İyerarxiyadakı düzülüş isə onların əvvəlcədə malik olduqları mahiyyətə uyğundur. Başqa sözlə desək, səbəb-nəticə zəncirinin – yaradılış prosesinin son ucunda duran, ən az nur sahibi hesab edilən bir mineral da "ol" əmrini Yaradandan alıb. Eyni şəkildə, bir varlığın mahiyyəti və formasındakı eydoslar əvvəldən öz missiyalarına, sistemdə tutacaqları yerə uyğun yaradılıb: hansı isə nüvə, hansı isə ona yaxın, bir başqası da uzaq mümkün eydos olaraq. İdrak zamanı insanın hə-

[1] Sührəvərdi, Hikmət əl-İşraq, s. 126.
[2] Yenə orada, s. 138-139.
[3] Yenə orada, s. 198.

rəkət verici qüvvəsi onun şüurundakı işıqdır və o, gücü çatdığı istiqamətdə: az nur ehtiva edən maddi formadan daha çox nuru olan batinə, konkret işıqdan işıqların birləşdiyi daha böyük sistemlərə – mücərrədliyə doğru. Beləliklə, şüurda fenomenoloji obrazı yaranır. Husserlin fikirlərinə dönsək, materiya və forma əhəmiyyətini itirir, şüurun qurduğu trayektoriyaya uyğun eydoslar və mənalar qalır. Konkretlik, maddi forma məhdud şüurun öz idrak xəttini başlaması üçün zəruridir. Maraqlıdır ki, yaddaşa həmin şeyin maddi formasının özü keçməsə də, onun hüdudunda təsəvvür edirik. Deməli, materiya şeylərin konkretləşməsi və rasionallaşması, yəni şüurun onu qavraya bilməsi üçün vacib şərtdir. Bir ideya hərf, rəqəm, səs vasitəsilə maddiləşməyənə qədər birincisi, o, ümumiləşə bilmir və xüsusi olaraq qalır, ikincisi isə, şüur onun fenomenoloji quruluşuna keçid edə bilmir.

Deyilənlərlə yanaşı onu da vurğulamalıyıq ki, həm ideyanın, həm də materiyanın eyni məkandan varlıq qazanması, onların müəyyən mənada eyni olması anlama gəlsə də, şüurda onlar arasında mütləq fərq qoyulur, qoyulmalıdır. Həllac küfr və imanın eyniliyi haqqında düşüncəsindən sonra bildirir ki, "Küfr və iman arasında fərq qoyan artıq kafirdir, kafir və mömini fərqləndirməyən də kafirdir".[1] Həllac məsələyə həm şeylərin öz daxili mahiyyətindən, həm də zahiri formasından yanaşır. Maraqlıdır ki, idrak prosesi məhz zahirdən başlayır – fərqlərin, konkretlərin müstəvisindən və sonra universal sistemə, hər şeyin tək mənbəyinə keçir. Fərqlilik, maddi formalarla mahiyyətin konkretləşdiyi aləm idrak prosesinin ilk iki mərhələsində öyrənilir. Xüsusilə qeyd edək ki, söhbət subyekt və obyekt arasında birbaşa təmasın yaranmasından sonra başlayan idrakdan gedir. Üçüncü mərhələdə – haqqın həqiqətinin qavranmasında mənzərə dəyişir. Husserl yazır: "Belə məlum olur ki, reduksiyanı həyata keçirəndən sonra, zahiri seyrin verdiyi müvafiq "hissi" məlumatlar mahiyyətcə öz aralarında eynidir və onların belə eyniyyətinə bütün cinsi mahiyyət, yaxud, başqa sözlə desək, fenomenologiyanın tə-

[1] Əxbər əl-Həllac, s. 74.

məl anlayışı cavab verir".[1] Husserl hissi deyəndə həm dar mənada – zahiri qavrayışları, həm də geniş mənada – emosiya, meyl, hətta hayule – materiyanın funksional anlayışını da nəzərdə tutur. Burada yenə də şüurun subyektivliyini və intensionallığı önə çəkmək istəyirik. Obyektiv baxımdan materiya və ideya eyni aləmə aid olsa da, özünüreduksiya subyektivdir və bu eyniyyətə öz fərqli baxışı ilə yanaşır və fərqləndirir. İntensionallığın fərqi yalnız cızılan idrak trayektoriyasında deyil, həm də mötərizəyə alınan biliklərdə özünü göstərir.

## *§ 104. Özünüreduksiya, ideya və materiya (davamı)*

Şüur eydosdur, deməli, mahiyyəti və forması eynidir. O, həm materiyanın, həm də mahiyyətin daxili strukturuna nüfuz edib onun işığını mənimsəyə, konkretdən – materiyadan mücərrədə – ideyaya keçid edə bilir. Husserlin ifadəsi ilə onu "formasız material və materialsız forma"[2] adlandıra bilərik. Bununla yanaşı, şüur mürəkkəb quruluşa malikdir və hər qatı şeyi fərqli qavrayır. Belə ki, altşüurda daha çox formasız material aktivdir və formaya nüfuz etmədən həmin material yaddaşda yer tutur. Onun şüurun ümumi sistemində yer tutması üçün mütləq forması da aydınlanmalıdır. Rasional şüurda fərqli səviyyələrdə olsa da, hər ikisi yer alır. Üstşüurda isə yalnız materialsız formalar qavranılır. Onların da sistemə yerləşməsi üçün rasionallaşması, konkretləşməsi lazımdır.

İnsan yaradıcıdır. Hər nə qədər burada şüur öz daxilində azad olsa da və işıq axını maneə görməsə də, proses daha çox mücərrəd qatda gedir, "materialsız formada". İdeya Loqos məqamında təsdiq olunandan sonra onun rasionallaşması mərhələsi başlayır. Proses hətta konkret bir forma üzərində başlasa da, o, mütləq mücərrəd müstəviyə keçir. Burada əhəmiyyətli bir məqam var. Tanrının yaratdığı forma və materiya bir-birini tamamlayır, uyğundur və mümkün eydoslar səbəb-nəticə prinsipi ilə vacib eydosun ətrafına yığılır, nəticədə mükəmməl və bitkin sistem çıxır ortaya. İnsanın yaratdıqları hər zaman belə olmur. Forma və materiya

[1] Гуссерль. Идеи...I, с. 269.
[2] Yenə orada, s. 268.

arasında uyğunsuzluq, lazımsız qalan eydoslar, qapanmış işıqlar qala bilir. Belə sistemlər uzunömürlü olmur və dağılır. Burada Teslanın iş prinsipi yada düşür: istənilən ideya düşüncə səviyyəsində mükəmməl hala gətiriləndən sonra maddiləşməlidir. Xatırladaq ki, düşüncə qatında mənzərə bütövdür və nöqsanlar daha aydın görünür. Onun rasionallaşması zamanı yaranan yanlışlıqlar yenə də ideya qatından gəlir. Deməli, şüurun istər daxili, istər xarici radiusu və müvafiq olaraq, özünüreduksiyası nə qədər geniş olarsa, bir o qədər ehtiva olunan eydoslar çox olar və yeni yaradılan struktur da bitkin olar. Əvvəlki paraqrafda da qeyd etdiyimiz kimi, yeni yaranan strukturda materiya və mahiyyətin eydosları arasında enerji, işıq axını maneəyə rast gəlməməlidir. İnsan eydos yaratmır, ancaq onları qavraya bilir, Həllacın təbiri ilə desək, onlardan daha güclü olur və öz sisteminə uyğun gələni seçə bilir.

Dediklərimizdən belə məlum olur ki, özünüreduksiya materiya və forma arasındakı hüdudların fövqünə qalxmaqdır. Burada bir tərəfdən obyektiv dünyanın özünün bütövlüyü, digər tərəfdən, insanın özünün bu bütövün bir hissəsi olması ortaya çıxır. Ən vacibi isə, insan bu obyektivlikdə öz subyektiv idrak xəttini çəkmək iqtidarında olur. Burada əhəmiyyətli bir məqam da vurğulanmalıdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, özünüreduksiya həm diaqonal, həm də çevrə boyunca mümkündür. Hər ikisində də insan konkret hüdudlardan mücərrəd aləmə keçir. Lakin birinci halda insan maddəni, konkret tanımadan ruhu vasitəsilə tanıdığı ilahi işığa təslim olur – onun şüuru deyil, onun öz işığı başqa işıq tərəfindən zəbt edilir. Buna görə də, o aləmdə qavranılan biliklərin də mahiyyəti deyil, yaşatdığı harmoniya, yüksək duyğular qalır. Çevrə boyu gedən proses konkretdən, maddidən başlayır. Şüur tədricən maddi və formanın eyni olduğu məqama yüksəlir. Bu mərhələdə idrak prosesinin obyekti şeyin forma və mahiyyəti deyil, eydoslar olur. Burada sıralanan da materiya və forma olmur, mümkün və vacib eydoslar olur. Özünüreduksiyanın gücündən və fokuslanmasından asılı olaraq intensiya ya mümkün eydoslara, yaxud vacib eydosa yönəlir. Xüsusilə vurğulayaq ki, konkretlikdən mücərrədliyə qalxanda şeylər haqqında ilkin bi-

liklər unudulmur, mötərizəyə alınır. Bu, Loqos qatında təsdiqlənmiş biliyin reallaşması mərhələsində özünü göstərir. Əslində, yaradıcılığın, kəşflərin unikallığı, rəngarəngliyi də məhz bundadır.

Bu mərhələdə həm də mümkün və vacib eydoslar tanınır. Məsələ burasındadır ki, maddi və formanın, mahiyyətin eyni eydoslara sahib olmasını deməyimiz onların mənasına aid olmur. Hər eydosun öz missiyası, öz yeri var. İstər obyektiv aləmin təbii quruluşunu öyrənən, istərsə də öz ideyasının strukturunu hazırlayan bir şəxs üçün bunun böyük əhəmiyyəti var. Çünki üst sistemlərə keçid və Loqosa qədər yüksəlmə yalnız vacib eydoslarla mümkündür.

# III bölmə. Sufi fenomenologiyada noema və noezis

## § 105. *Nous – Noema – Noezis (noeza)*

Kainatın mükəmməl sistemini düşünən onun yaradıcısını, idarəedicisini də təyin etməyə çalışır. Antik fəlsəfədə bu düşüncələr *Nous* (Nus) anlayışının yaranmasına səbəb olub. Anaksaqorun fikrinə görə, *Nous* (qədim yunanca – νοῦς – ağıl, zəka) “ilkin qarışıqda sükutda olan hər şeyi hərəkətə gətirən kənar faktordur”.[1] O, “sonsuzdur və mütləq hakimdir və heç nə ilə qarışmayıb, o, tək özü özünə vardır”.[2] Anaksaqorun düşüncələrində iki məsələ diqqət çəkir: Nous ilkin qarışıqdan kənardadır və bütün rəngarəngliyi, müxtəlifliyi birləşdirən mütləq qüvvədir. Filosofun tədqiqatçısı Rojanski belə nəticəyə gəlir ki, “Anaksaqora görə ağlın (*nous*) iki əsas funksiyası var: “1. Ağıl (*nous*) hərəkətin mənbəyi kimi. O, “ilk təkan” verməklə əvvəlcə sükunətdə olan şeyləri hərəkətə gətirir. 2. Ağıl kosmosun təşkilatçısı kimi. Kosmik çevrələri başlamaqla o, kosmosun sonrakı daha çox nizam və təşkilatlanma istiqamətində inkişafını təyin edir”.[3] Onun fikirlərinə tənqidi yanaşan Sokrat bildirir ki, “*Nous*un hər şeyə nizam verməsini bəyənsə də,[4] onun şeylərin hərəkətlərinin səbəbi olmaması, sadəcə daxilən hər şeyə şamil edilməsi onu məyus etdi.[5] Platona görə, kosmos özü isə “canlı varlıqdır, ruhu və ağlı var, həqiqətən ilahi təqdirin köməyi doğulub”.[6] Filosof onu da əlavə edir ki, hələ

[1] Рожанский. Анаксагор, с. 31.
[2] Yenə orada, s. 102.
[3] Yenə orada, s. 106
[4] *Платон*. “Федон”. *Диалоги Платона.* https://classics.nsu.ru/bibliotheca/plato01/fedon.htm, c. 97c.
[5] Yenə orada, 98c.
[6] Platon. Timey, 30b-c

zaman yaranmamış kosmosda canlı olmayanda Tanrı onu da əlavə etməyi düşünür və onu ilk surətə uyğun yaradır və burada ağıldan istifadə edir.[1] Deməli, Platona görə, nous (ağıl) kainatda canlı və rasional başlanğıcdır. Anaksaqor və Platonda fərqli olaraq, Aristotel vəhdətə yox, müxtəlifliyə can atır. Özündən əvvəlki filosofların nous haqqında düşüncələrini təhlil edən Aristotel Sokrat kimi, Anaksaqorun *nous*unu hər şeyi nizama salsa da, səbəb olmamasına tənqid edir.[2] Platonun düşüncələrində isə *nous*un – ilk başlanğıcın eydoslardan ibarət olmasını bəyənmir.[3] Aristotelin öz fikrinə görə, "bir tərəfdən elə ağıl var ki, hər şey olur, digər tərəfdən, elə ağıl var ki, işıq kimi, hər hansı xüsusiyyət kimi hər şeyi yaradır... Bu ağıl ayrıca mövcuddur və heç nəyin təsirində deyil, heç nə ilə qarışmır və öz mahiyyətinə görə fəaliyyətdir. ...Bu ağıl bəzən düşünüb, bəzən də düşünən deyil. Yalnız ayrıca mövcud olmaqla o, olduğu kimi var və yalnız bu, ölümsüz və əbədidir".[4] Aristotel Ağıl məfhumuna bir çox məna yükləyir və bununla sanki Ağlı həm hər şeyin fövqünə qaldırır, ən vacibi isə, *Nous* – ilk hərəkətverici qüvvədir.

Plotin ağıl-*nous* anlayışı üzərində daha dəqiq dayanır belə nəticəyə gəlir ki, *nous*[*] Yaradandan sonra ilk varlıqdır, ancaq o, ilk Vahiddən heç bir hərəkət olmadan doğulur: "İlk Vahiddən doğulan Nous ondan axan işığa bənzəyir və bu zaman mənbə özü heç cür dəyişmir və sükunətdə qalır".[5] Hərəkət, çoxluq tək olsa da, məhz Ağla məxsusdur: "Nous bütün real şeylərin potensiyasıdır". Ən vacibi isə, Plotinə görə ağıldan ruh yaranır, yaxud ruh ağlın surətidir, daha dəqiq isə, Ruh Ağlın "kənarda gerçəkləşmiş enerjisi, ondan axıb gələn və ondan sonra yeni substansiya yaradan həyatdır".[6] Belə məlum olur ki, *nous* tək olsa da, özündə çoxluğu ehtiva edir, daha dəqiq ifadə etsək isə, üç əsas şeyi ehtiva edir:

---

[1] Yenə orada, 39e

[2] Aristotel, Metafizika, 1 4 985a 20.

[3] Аристотель. О душе, 2, 404b 24-27.

[4] Yenə orada, 5 430a 13-15.

[*] Tərcümədə 'ağıl' sözü işlənsə də, hər hansı fikir dolaşıqlığının qarşısını almaq üçün biz daha çox *nous*-dan istifadə edirik.

[5] Плотин. Эннеады, V.1.6.

[6] Yenə orada, V.1.3.

"Ağıl eyni zamanda var olan, yaxud düşünəndir, həm düşünüləndir"... Digər tərəfdən, o, həm də bu ikisi arasındakı proses – düşünmədir.[1] Burada diqqəti çəkən *nous*-un çoxluğu ehtiva edən vahid olmasıdır. Məhz bu qədər genişehtivalı olmasına səbəb bəzən Sufizmin özünün də Plotin fəlsəfəsindən qidalandığını iddia edirlər.

Sufizm fəlsəfəsinə görə, hər şeyin yaradanı, iradə edəni Allahdır. O, mütləq iradə sahibidir, təkdir, canlıdır, özü də hərəkətdədir, hər şeyi hərəkətə gətirən də Odur. Onu varlığı və hikməti insan ağlının fövqündə olduğuna görə, ümumiyyətlə müzakirələrdən kənardır. Eyn əl-Qüzat Miyanəci yazır: "Allah əqlin gözündən günəşin hissi gözlərdən uzaq olmasından sonsuz dərəcədə uzaqdır. Onun ucalığı və nurlanmasının kamalı Onun dərkini ağıl üçün qeyri-mümkün edir. Ağıl gözünün Onun idrakına nisbəti yarasaların gün işığının dərkinə nisbəti kimidir, ariflərin Onun dərkinə nisbəti insanın günəş diskinin dərkinə nisbəti kimidir".[2] Sələfləri kimi, sufizmdə də yaradılış iyerarxikdir və onun zirvəsində Allahın zatı – əhəd durur. Ondan sonra gələn isə vəhdaniyyət aləmidir – Yaradanın sonsuz adları – çoxluğu ehtiva edən vahid. Bu, Təki tanıdan vasitələrdir. Nümunə olaraq insanı göstərmək olar: müəyyən keyfiyyətləri, qabiliyyətləri, istedadı onu tanıdır, haqqında təsəvvür yaradır və digərlərindən fərqləndirir. Onlardan bəziləri insanla zəruri olaraq əlaqəli və ayrılmazdır, onun bəşəriliyinin təyinidir, digərləri müəyyən şəraitlə bağlı yarana, dəyişə və itə bilər. Plotin fəlsəfəsi ilə müqayisə etsək, onu sufizmdə vəhdaniyyət aləmi ilə eyniləşdirmək olar. Burada onu da xüsusilə vurğulayaq ki, söhbət məhz ümumi mənada götürülmüş *nous*dan gedir. Ayrıca ağıl isə Allahın adlarından yalnız biridir. Miyanəci yazır: "Ey dost, əgər Onun zatı birdirsə, bu müxtəlif səkkiz sifət nədir? Bu bir sifəti görsən (vahidliyi – *K.B.)*, onunla səkkiz sifətə çata bilərsən və bu bir sifət o qədər keyfiyyətli və kamildir ki, səkkiz xüsusiyyət onda cəmləşmişdir. Deməli, bütün əlamətlər, onun barəsindəki düşüncələr və təsvir-

[1] Yenə orada, V.1.4.
[2] Miyanəci, Zubdətu`l-həqaiq, s. 91.

lər sifətlərə aiddir. Onun zatı haqqında kim nə deyə bilər?”[1] Onu da əlavə edək ki, diqqət mərkəzində Əhəd olduğuna görə, hər şey Ona nisbətdə tanınır – çoxluq vahidi tanıdan vasitədir. İbn Ərəbi yazır: “İlahi isimlər sonsuzdur, çünki o adlar onlardan vaqe olan şeylə tanınır və onlardan vaqe olan şeylər də sonsuzdur”.[2] Adların müxtəlif və zidd olması Zatın bölünə biləcəyi və ziddiyyətli olması demək deyil.

Sufizmə görə, yaradılış iyerarxiyasının üçüncü aləmi ayani-sabitə – sabit mənbələrdir. Məhz burada ideyalar varlıq qazanır, “ol” əmri alır. Bura məxluqlara «mahiyyətin», həqiqətin və ruhun verildiyi məkandır. Diqqət etsək, Plotində də üçüncü aləm ruhdur, *nous*dan alınır. Sufizm, islamdan gələn prinsipə görə, ruhu Yaradanın hökmündə olan fenomen kimi qəbul edir, o, Allahın adlarından biri deyil, çoxluğa daxil olmur.

Husserl öz fəlsəfəsində *nous* terminini daha açır və onun mahiyyətini fərqli terminlərlə ifadə edir: noema (yun. νόημα - “*məna*”) və noezis (yun. νόησις - *düşünmə*). O yazır: “Noeslər sözün ən geniş mənasında nusun spesifikasını təşkil edirlər, – *nus* bizi özünün bütün aktual həyati formaları ilə *cogitation*-lara (şüur aktlarına) qaytarır, sonra isə ümumiyyətlə intensional yaşantılara, bu zaman normanın ideyasına eydedik zəmin olmağa xidmət edən hər şeyi (mahiyyətcə yalnız bunu) ehtiva edir”.[3] Filosof noezis vasitəsilə məhz mahiyyətə, eydedik zəminə qədər getməyi nəzərdə tutur. Bu anlayışlar irəlidə daha geniş açılacaqdır.

Həqiqət təkdir, ona gedən yollar çoxdur və fərqlidir. Bunu əsas götürən sufi fenomenologiya bu məsələdə də özündə bir neçə yolu ehtiva edir. Əvvəla, xatırladaq ki, burada hər şey eydosdan ibarətdir və yaradılış zamanı onlar İlahi iradə ilə vahid işıq selindən müəyyən ideya ilə ayrılırlar. Bu, həm Anaksaqorun “ilkin qarışıq”, həm də Platonun *nous*-*un* eydoslardan ibarət olması ideyalarına yaxındır. Lakin, Platondan (Sokratdan) fərqli olaraq, biz də Anaksaqor kimi, belə düşünürük ki, “həmişə var olan nous, həqiqətən, indi də qalan hər şeyin olduğu yerdədir –

[1] Miyanəci, Təmhidat, s. 268-269
[2] İbn Ərəbi, Fusus əl-hikəm, s. 65.
[3] Гуссерль. Идеи...I, с. 270-271.

ətrafda, birləşən və ayrılan şeylərdə”[1] və ona hərəkət kənardan verilir. Biz kənar təkan kimi İlahi iradəni qəbul edirik. Bu məqam bizi həm də Plotindən fərqləndirir – o, doğulmur, işıq kimi süzülüb varlıq qazanmır, onu məqsədyönlü şəkildə Allah yaradıb. Sufi fenomenologiyaya məxsus tək-çoxluq-tək prinsipi *nous*la başlayır, yəni ilk yaranan özündə çoxluq – eydoslar ehtiva edən həmin təkdir. Onu da qeyd edək ki, Husserlin terminlərindən istifadə etsək də, sufi fenomenologiyada idrak prosesi yalnız Loqosa qədər gedə bilir, *nous* – ilk işıq seli onun fövqündə qalır. Yəni noema və noezis *nous*un eydoslarıdır, özü deyil. Beləliklə, sufi fenomenologiya kifayət qədər sufizmə və Husserl fenomenologiyasına yaxın olsa da, müəyyən məsələlərdə Anaksaqor, Platon və Plotin fəlsəfəsinə qədər uzanır. Burada Yaradan idrak prosesinin fövqündə qəbul edilməklə yanaşı, ayrı-ayrı şeylər Ona nisbətdə nəzərdən keçirilmir. Hər yaradılmış şey müəyyən həqiqət daşıyıcısıdır və idrakın zirvəsi özünə (!) yüklənmiş həmin həqiqəti qavramaqdır.

### *§ 106. Noema və şeylərin “ruhu”*

İnsanın yaranışı ilahi yaradılış sisteminin modelidir. Bu baxımdan, noema və noezisin təhlili paralel olaraq həm universama aid olacaq, həm də konkret bir insana. Əslində, burada iki prosesdən söz gedir: xarici aləmi öyrənməklə insan öz daxili aləmində də müəyyən həqiqətləri kəşf edir, bu isə öz növbəsində xarici aləmdə yeni bir mərhələyə yüksəlmək imkanı yaradır. Bütün yaradılış, Universum vahid sistemdir; hər şey, o cümlədən, insan onun bir hissəsidir; gedən hər proses onun daxilindədir.

Noema bütöv vahid eydedik sistemdir. Şüurun noemaya çatması sistemi tam qavramasıdır. Noezis şüurun eydoslar arasında hərəkətidir, irəliləməsidir. Şeylərin eydedik səviyyədə qavranması üçün şüur, bir tərəfdən, öz mahiyyətini, potensialını kəşf etməli, digər tərəfdən, ruhla əlaqəsini tanımalıdır. Bu, şüurun intensiyasını gücləndirməklə yanaşı,

[1] Рожанский. Анаксагор, с. 133.

həm də ruh vasitəsilə bilik qazanmaq imkanıdır. Plotinə görə, *nous*dan sonra gələn ruh onun "deyilmiş sözüdür".[1] Ruh – sözdür, bilikdir və bir şeyin noemasının qavranmasında yol ruhdan keçir. Xüsusilə xatırladaq ki, bir şeyin eydedik strukturunun, mahiyyətinin dərki onun maddi formasından və təbii quruluşunun tanınmasından başlayır. Daha əvvəl də qeyd etdiyimiz kimi, bütöv eydedik strukturun öz mahiyyəti, mənası olur. Hazırki kontekstdən çıxış eləsək, deyə bilərik ki, hər eydedik strukturun öz ruhu var və onu qavramaq üçün şüur mütləq ruhla hərəkət etməlidir. Bütöv sistemə verilən ruh canlı orqanizmlərdə, xüsusilə insanda, ruh özünü başqa cür ifadə edir, cansızlarda başqa. Onlarda bu, bir daha təkrar edək, eydedik sistemin mənası, ideyasıdır. Və belə nəticə alınır ki, Universumun da öz ideyası – ruhu var.

Eydedik səviyyədə tək-ümumi-tək prinsipi noema və onun eydosları arasında gedir: əvvəlcə eydoslar vasitəsilə noema, daha sonra isə bütöv sistemin işığında onun həqiqəti qavranılır. Fenomenoloji reduksiya bu həqiqətin dərkindən sonra aparılır. Əvvəlki təhlillərimizdə şüurun irəliləməsini 0 və 1 arasında məsafənin qət edilməsinə bənzətmişdik. Burada 1 – noemadır. Noezis prosesin özüdür. Dəqiqləşdirək ki, bütöv sistemin dərki onun nüvəsinin qavranılmasıdır, çünki bütöv sistemin mahiyyəti nüvədə ehtiva olunur. Bununla yanaşı, növbəti, üst sistemə keçid yalnız nüvədən mümkündür. Plotin yazır: "Ruhun hər qüvvəsi özü öz funksiyasını yerinə yetirir, onlar yalnız aralarında olan əlaqə yaranında qavranılır. Buna görə də, əgər kimə bir şeyin nə olması, içində nəyin baş verməsi haqqında aydın təsəvvür qazanmaq istəyirsə, o, öz baxışlarını, diqqətini ora yönəltməlidi".[2] Bəli, sadəcə bir eydosun, hətta o, vacib eydos olsa belə qavranılması hələ noema deyil. Noema bitkin bir sistemdir. Məhz bütöv eydedik struktur, yəni eydoslar arasındakı əlaqə və bu vəsilə ilə bütöv struktur get-gedə aydınlandıqca, noema məlum olur, yəni 0-dan başlayan qeyri-müəyyən, qeydi-səlis yolda 1-in tamamlanması noemadır. Plotinin də dediyi kimi, noemanın mənası özü

---

[1] Плотин. Эннеады, V.1.3.
[2] Yenə orada, V.1.12.

də bələdçi rolu oynaya bilir, düzgün qavranılan eydos növbəti eydosa apardığı kimi, bir noema da digəri üçün keçid ola bilir. Burada əsas şərt şüurun intensiyasının vahid istiqamətdə cəmlənməsi və obyektin işığını mənimsəməsidir. Hər eydosun, müvafiq olaraq hər noemanın işığı, bir tərəfdən, subyektin – şüurun işığını artırır, digər tərəfdən, eydoslararası və noemalararası əlaqəni işıqlandırır.

Əvvəl də qeyd etdiyimiz kimi, idrak prosesi ümumi – başqa subyektin təqdimatında olan biliklərin öyrənilməsi ilə başlayır. Biliklər nə qədər dərin olsa da, şeylərlə bilavasitə təmas hissi idrakla başlayır – həqiqətin bilinməsi ilə. Ümumi biliklərdən xüsusi səviyyəyə keçid refleksiya ilə mümkündür. Husserl yazır: "Bir şeyin qavranılması" nə isə öz özünə anlaşılan bir şeydir, eyni zamanda nə isə ali mənada anlaşılmayan bir şeydir. Refleksiyanın ilk cəhdləri bizi yanlış yolların labirintinə aparır və bu, rahatlıqla bütün bu narahat problemlər sferasının varlığını inkar edən həmin skepsisi inkar etməyə meyllidir".[1] Hissi idrak şeyin nə eydedik strukturuna nüfuz etmək, nə onun "ruhunu" görmək, nə də bu vasitə ilə noemaya çatmaqdır. Bu, başlanğıcdır və növbəti addımın düz, yaxud yanılma olacağı ondan asılıdır. Əlbəttə, burada təməl biliklər, intensionallıq böyük əhəmiyyət kəsb edir. Çünki ümumi biliklərdən xüsusiyə keçid artıq müəyyən bir ideyanın doğulması ilə əlaqəlidir. Məsələn, meşədəki palıd ağacının sadəcə zahirinə baxan dülgər bir masa, coğrafiyaçı şimal və cənubun təyinatı üçün vasitə, fitoterapevt onun qabığının və yarpaqlarının tibbi əhəmiyyətini düşünür. Bir nöqtədən fərqli istiqamətlər şaxələnir – palıd ağacı ilə birbaşa təmas yaranır. Düzdür, bunlardan heç də hamısı eydedik struktura aparmır, bununla belə, ona gedən yol da buradan başlayır.

İnsan ruhu digər yaradılmışların ruhundan fərqlənir və bu fərq şüurdan qaynaqlanır. Onun sayəsində ruh həm də idrak prosesinin aparıcı qüvvələrindən birinə çevrilir. Ruh eydedik səviyyədə tanınsa da, o, bütün varlığı – maddi formadan nüvəsinə qədər – ehtiva edir. Hissi idrakla başlayan şüurun intensiyası kifayət qədər güclənməli və cilalanmalıdır

[1] Гуссерль. Идеи...I, c. 279.

ki, "maddi qabıq"dan, hissi mərhələdən daxilə, eydedik quruluşa keçə bilsin. Şüurun intensiyası maddi qabıq olmadan həmin şeyin bütövlüyünü qoruyan daxili qanunauyğunluğu qavrayır. Noema maddi qabıqsız bütöv sistemdir. Yəni burada konkretlik və mücərrədlik arasında sərhədi şüurun intensiyası çəkir.

Deyilənlərdən bir neçə əhəmiyyətli məqama diqqət çəkək. Birincisi, noemaya gedən yol şüurun öz daxilində başlamalıdır. Yəni bu, özünüreduksiyanın nəticəsidir. Şüur mürəkkəb sistemdir və hər yeni idrak prosesindən əvvəl o, mütləq təkrar özünə qayıdıb, özünü tanımalı olur. İkincisi, bu proses ruhla əlaqə nəticəsində mümkündür. Şüur öz sisteminin mahiyyətini, intensionallığını bilməlidir. Söhbət sadəcə ilahi aləmlə əlaqə yaradan ruhdan deyil, həm də bütün sistemin "ruhundan" – ideyasından gedir. Üçüncüsü, noema da mürəkkəb sistemdir və onun tanınması da tədrici prosesdir. O, xarici reduksiyanın nəticəsi olsa da, özünüreduksiya ilə sıx əlaqəlidir və bir-birini tənzimləyirlər. Bunu inşanın bir şeyi görməyi ilə müqayisə edə bilərik. Şeyi görmək üçün şüurun işığın obyektin işığı ilə təmas yaradır. Göz obyektdən gələn işıqlanmanı qəbul edir və öz bülluru vasitəsilə şeyin obrazını öz daxilində – tor qişasında yaradır. Gözün daxilində təsdiqlənən obraz beyinə ötürülür. Eyni şəkildə, eydosun da işığı şüurda əks olunur, özünüreduksiya ilə təsdiqlənir və növbəti mərhələ üçün yeni intensiya – işıq şüası istiqamətlənir. Məsələn, məlumata görə insan gözü spektrin yalnız üç rəngini görür: qırmızı, yaşıl və göy. Digərləri isə bu rənglərin kombinasiyasıdır. Bu proses o qədər sürətlə gedir ki, sarı rəngin necə yarandığını heç düşünmürük. Eydosların bir noema şəklində toplanması və şüurda əks olunması da belə bir sürətlə baş verir. Baxılan obyektin son obrazı beyində formalaşdığı kimi, noema da şüurda tam hala gəlir.

Diqqəti cəlb edən məsələlərdən biri də, noema və zamandır. Plotin yazır: "Ağıl/*Nous* özündə hər şeyi dəyişməz bənzərlikdə ehtiva edir. O, olur, hər zaman ancaq var. Onun üçün ancaq indiki zaman var, nə gələcək var, çünki gələcək gələnə qədər onda artıq hər şey vardır, nə keçmiş var, çünki onun eydosları zamanın anları kimi keçmir, yalnız əbədi də-

yişməz indidə mövcuddur – dəyişməz, eyni, mahiyyət olduqlarına görə özünə yetər şəkildə, həm də onlardan hər biri həm düşünüləndir, həm mahiyyətdir, onların hamısı isə tək universal Ağlı və tək universal varlığı təşkil edir”.[1] Əvvəlcə, bir məqama aydınlıq gətirək. Sufi fenomenologiya məsələlərə idrak prosesi aspektindən baxışdır, Plotin isə yaradılış prosesini izah edir. *Nous*dan fərqli olaraq, noema insan şüurunun ehtiva edə biləcəyi bir sistemdir. Belə olan halda, onun “ruhu” da Plotinin təqdimatından fərqlənir. Biz burada ruh deyəndə konkret sistemin malik olduğu ideyanı nəzərdə tuturuq. Bununla belə, Plotinin sözləri bilavasitə noemalara da aiddir və belə deyə bilərik ki, noema – *nous*un (sonsuzluğun) *indi*-sidir. Sadəcə bu, beşölçülü bir koordinatda təyin edilmiş zamanın *indi*-sidir.

Plotinin dediyinə görə, ruh *nous*un “deyilmiş sözüdür”, deməli, ruhun tanınması *nous*un qavranmasına gətirir. Eyni zamanda, *nous*un mürəkkəbliyini nəzərə alsaq, onun bir neçə “sözü” ola bilər və bu zaman özü dəyişməz qalar. Noemanın da öz sözü var və onun qavranması həmin sözü dərk etməkdir. Əgər subyektin obyektiv reallığı qavraması zamanı ona təsiri faktını xatırlasaq, o zaman deyə bilərik ki, idrak trayektoriyasından asılı olaraq noema dəyişə bilər. Söhbət yaradıcılıqdan gedirsə, deməli, noemaya münasibət də iki cür ola bilər: ya obyektiv gerçəkliyin dərk edilməsi prosesinin bir halqası olaraq, ya da insanın öz ideyasının qurulması zamanı ondan istifadə etməklə. Bunlarla yanaşı, daha vacib bir mərhələ sonda əldə edilən nəticənin özünün də noema olmasıdır. Bu ifadədə iki məqsəd var: a) nəticə bitkin bir sistem olmalıdır – idrak çevrəsi tamamlanmalı, konkretləşmiş strukturun nüvə və mümkün eydosları bəlli olmalıdır; b) nəticənin öz müstəqil ideyası olmalıdır. Fərqi yoxdur, obyektiv gerçəkliyin bir hissəsidir, yoxsa, yeni bir strukturdur – öz ideyası, ümumiləşəcək həqiqəti olmalıdır. Bunun üçün qavranılan irrasional biliklər rasionallaşmalı, şüur Loqosda ilk ideyanı təsdiqləməli, yarımçıq fikirlər tamamlanmalıdır. Yalnız bu halda insanın yaratdığı noemadan danışmaq olar.

---

[1] Плотин. Эннеады, V.1.4.

Noema eydedik struktur səviyyəsində formalaşmış sistemdir. O, Loqosda şüurun təsdiqlənmiş ideyasının bitkin halıdır. Bu, çevrənin tam yarısının cızılmasıdır. Digər yarısı isə noemanın "ruhunun" – ideyasının çatdırılmasıdır. Hər insan bunu malik olduğu bacarıqlar və imkanlar daxilində edir: söz, səs və rəqəmlər vasitəsilə. Burada Plotinin sxeminin modelini izləmək mümkün olur – *nous*dan (noemadan) süzülən ruh müəyyən bir vasitə ilə maddiləşir. Noema nə qədər dəqiq və bitkin olarsa, onun ruhu da bir o qədər anlaşılan olar və nəticədə ümumiləşə bilər. Burada əhəmiyyətli məqam isə maddi formanın da həmin ruhu ifadə etməsi, ona uyğun olmasıdır. Bu, çevrənin son nöqtəsinin onun ilk nöqtəsinə qayıdışıdır.

### *§ 107. Noematik nüvə – varlığın qnoseoloji nüvəsi olaraq. Noema və vəhdət.*

Noema eydoslar sistemidir. Eydosların bir sistemdə toplanması tədrici və mərhələli prosesdir və hər mərhələ bir noemanın tamamlanmasıdır (*sxem 27*). Bunu ana bətnində uşağın formalaşması ilə müqayisə etmək olar: hər orqan öz zamanında və müəyyən ardıcıllıqla yaranmalıdır. Birinin varlığı və tamamlanması digərinin yaranmasını şərtləndirir. Hər noemanın öz nüvəsi və mümkün eydosları var. Bu o deməkdir ki, bir varlıq çox sayda noemadan ibarət olur. Elmdə noemanı hüceyrəyə bənzətmək olar. Noemaları bir-biri ilə əlaqələndirən eydoslardır. Təqdim etdiyimiz sxemdə eydosların sayı və quruluşu şərtidir: *n*-nüvəyə (vacib eydosa), *e*-mümkün eydoslara işarə edir. Nüvə həm də noemanın varlığına işarədir. Hər varlığın nüvəsi olan eydos eyni zamanda noemanın da nüvəsidir. Biz şüuru nüvə adlandırmaqla yanaşı, tez-tez mürəkkəb olduğunu da vurğulayırıq. Bu o deməkdir ki, şüur əslində noemadır.



*Sxem 27. Noema.*

Vacib eydosun ətrafında yaranan noema həmin şeyin noematik nüvəsi hesab olunur və bu aspektdən yanaşanda, şeylərin həm də noematik strukturundan danışmaq mümkündür. Eydedik strukturda olduğu kimi, burada da noematik nüvəyə yaxın və uzaq digər noemalar onların bütöv orqanizmdə daşıdıqları funksiyaya uyğundur: daha uzaqdakılar dəyişkən və nisbi həqiqət daşıyıcıları olur. Vacib eydosun xüsusiyyətləri əvvəlcə noematik nüvədə, daha sonra bütün noematik strukturda təzahür edir. Dediklərimizi, müəyyən mənada, Husserlin noematik nüvə haqqında düşüncələrinin sufi fenomenoloji şərhi də adlandırmaq olar. Lakin burada fərqli məqamlar var. Birincisi, burada daha detallı bir təhlilə keçərək noemanın məhz eydoslardan ibarət olması; noematik nüvənin əslində vacib eydos, onun keyfiyyətlərinin isə mümkün eydos olması dəqiqləşdirilir. Bununla həm də sabit mənbələr və ilk enerji selinə qədər çıxışı izah etmiş oluruq. İkincisi, burada ilahi yaradılış və səbəb-nəticə zəncirini əlaqələndirmiş oluruq. Maraqlıdır ki, burada bir tərəfdən sufizmin əsas prinsipi olan vəhdət əl-vücudun sxemini görmək mümkündür, digər tərəfdən, səbəb-nəticə zəncirini. Yəni sufizmdən fərqli olaraq, sufi fenomenologiyada məsələyə yalnız vəhdət prizmasından baxılmır. Məsələn, İbn Ərəbi deyir ki, "Gözün gördüyü elə bir məxluq yoxdur ki, onun «ayn» (mənbəyi) və «zatı» Haqq olmasın".[1] İlk baxışda panteist mövqeyə yaxın olan fikri ümumiyyətlə İbn Ərəbinin və sufi mütəfəkkirlərin dünyagörüşü kontekstində araşdıranda məlum olur ki, zat hər şeyin fövqündədir, heç nəyə qarışmır, səbəb deyil, mənbə isə yaradılış iyerarxiyasının bir mərhələsidir, yaradılmışdır.

Universum kontekstində baxanda insan bir noemadır. Sufi fenomenologiyaya görə, onun özünün noematik nüvəsi şüurdur. Lakin burada əhəmiyyəti bir məqam dəqiqləşməlidir: özünüreduksiya nəticəsində şüur özünü noematik nüvə kimi "kəşf eləməlidir" ki, başqa noemalara, ən vacibi isə Universuma yol açılsın. Edith Stein yazır: "Rəbb insan canlarını Özü üçün yaradıb. O, onları Özü ilə birləşdirmək və onlara sonsuz bütövlük və Özünün İlahi həyatının əlçatmaz qüdsiyyətini elə in-

[1] İbn Ərəbi, Fusus əl-hikəm, 107.

di, yer həyatında bəxş eləmək istəyir".[1] Təbii ki, söhbət ruhun bədənlə əlaqəli olan və onun tələblərinə itaət edən mərtəbəsindən deyil, onun özündən gedir. Qurani-Kərimin ayələrindən birində insanın Allaha yaxınlaşma dərəcəsi "iki yay məsafəsi, yaxud ondan da yaxın" (Quran 53/ 9). Bu dərəcəyə qalxan isə könüldür: "Könül gördüyündə yanılmadı. Onun gördüyü şey haqqında mübahisəmi edirsiniz?" (Quran 53/11-12). Əvvəlki təhlillərimizdən çıxış etsək, belə nəticəyə gəlmək olar ki, könül – şüur və ruhun vəhdətidir. Yalnız ruh olsa, o zaman ilahi vəhyi dərk edə bilməz. Yalnız şüur da o səviyyəyə qalxmaq iqtidarında deyil, məhduddur. Könül şüur, ruh kimi ilahi yaranış zamanı insan sisteminə yerləşdirilmiş eydos, noema deyil. O, insanın özünüreduksiyası nəticəsində şüurun çatdığı vəhdət halıdır. Şüur və ruh bütün insanlarda olduğu halda, eyni şeyi könül haqqında demək mümkün deyil. Sufi fenomenoloji baxımdan desək, könül ilahi mənbədən aldığı nura yolu açılmış, iman, ümid və sevgi mərhələlərində kənar hiss və düşüncələrdən təmizlənmiş şüurun epoxé-sidir.

Dediklərimizdən maraqlı bir nəticə almaq olur: bir var müəyyən sistemin bütün mahiyyətini özündə ehtiva edən noematik nüvəsi – bütün varlıqlarda var və yaradılış prosesi onun ətrafında, əsasında gedir; bir də var həmin nüvənin aktivləşməsi və yeni şərtlərlə formalaşması – yalnız insanda var. Belə ki, sonsuz yaradılmışlardan biri olaraq insanın noematik nüvəsi şüurdur, Yaradanın yer üzündə xəlifəsi, yeganə şüurlu varlıq olaraq isə noematik nüvəsi – könüldür.

Husserlin dediyinə görə, "noematik tərkibdə mərkəz nüvə önə çıxır və üstünlüyünə görə ön plana keçir".[2] Nüvənin – vacib eydosun reallaşması üçün digər eydoslar onun ətrafında birləşir. Nüvənin mənası üstün olduğuna görə, ona birləşən mümkün varlıqlar öz mənasını deyil, ümumi strukturun mənasını ifadə etməyə məsul olur, onların öz mənaları isə strukturun keyfiyyəti kimi tanınır. Husserlin də dediyi kimi, "daim noematik mənaya tutunub qalan xarakteristika az deyil... Beləliklə, fun-

[1] Штайн. Наука Креста, с. 48.
[2] Гуссерль. Идеи...I, с. 298.

damental müxtəlif növlər yaranır, necə deyərlər, xarakteristikanın fundamental şəkildə fərqlənən ölçüləri”.[1] Burada əhəmiyyəti bir məqama diqqət yönəldək: konkret varlıqları tanıdan, fərqləndirən ilk növbədə mümkün eydoslar, nüvənin zahiri keyfiyyətləridir. Ümumi biliklər səviyyəsində araşdırmalar, axtarışlar məhz bu müxtəlifliyə əsaslanır, onları öyrənir. Onu da əlavə edək ki, bu, vacib eydosların eyni olması anlamına gəlmir. Eyniyyət yalnız vahid nur selində var. Eydoslar isə həmin eyniyyətin fərqli təzahürləridir, daha əvvəl də qeyd etdiyimiz kimi, “eyni suyun rəngli qablarıdır”. Eydedik və noematik struktur rəngarəngliyin, müxtəlifliyin tədricən ortadan qalxdığı, şeylərin daxili əlaqəsini öyrənən səviyyədir. Noemalar arasında düşüncənin irəliləməsi noezisdir. Noezis – intensionallığın fokuslanması və noemaların ardıcıllığının şüurda qurulmasıdır. Başqa sözlə desək, yaradılış prizmasından baxanda o, nəticə-səbəb, idrak prizmasından baxanda isə səbəb-nəticə zənciri boyu irəliləyir. Şeylərin, o cümlədən, insanın daxili işığının mənbəyi vahid işıq seli olsa da və ilk təkan oradan gəlsə də, insan öz işığını idarə edə bilir. Daha əvvəl də qeyd etdiyimiz kimi, onun iradəsi insanın iradəsi və seçim qabiliyyətidir. Noemanı vahid strukturdur və onu qavramaq üçün şüur özü fokuslanmağı, daxili əlaqəni seçməyi bacarmalıdır.

Şeylərə hərəkəti onun işığı verir. O, nə qədər güclü olarsa, hərəkət də bir o qədər sürətli və dəqiq olar. İşıq şeylərin eydedik strukturundadır, ona görə də onu daxili təkan adlandırmaq daha düzgündür. Eydedik səviyyədə şeyləri qavrayan insan, bir tərəfdən, onun işıqla təyin edilmiş strukturunu, digər tərəfdən, şeylər arasındakı əlaqəni öyrənə bilir. Noema işıqla təyin edilmiş strukturdur. Noeza həmin işıqla irəliləməkdir. Buna görə də, biz deyirik ki, hər nə qədər eydedik strukturlar obyektiv mövcud olsalar da, noema şüur hadisəsidir. Yalnız şüur ayrı-ayrı strukturları qavramaqla yanaşı, həm də onların arasındakı əlaqələri, bir neçə noemanı birləşdirən daha böyük noemaları tanıya və öyrənə bilir.

İnsanın intensionallığı onun yaradıcılıq gücüdür, çünki onun sayəsində həm obyektiv noemaları görə, qavraya bilir, həm də özü yenilərini

[1] Yenə orada, s. 326.

yaradır. Daha əvvəl də qeyd etdiyimiz kimi, şüurun hərəkəti boyu o kənar təsirlərə məruz qalır və o, düzgün istiqamətindən çıxa bilir. Noemalar bir-biri ilə sıx əlaqəlidir və yüngül bir yanılma nəticədə böyük səhvə gətirə bilir. İstənilən halda, şüur başlanğıc nöqtədə kifayət qədər güclü işığa malik olmalıdır ki, öz istiqamətindən çıxmasın. Xatırladaq ki, proses boyu noemalar bir-birini şərtləndirir və bununla da şüurun işığı artır. Burada maraqlı bir detalı da qeyd edək ki, şüur ilk ideyası boyu irəliləyəndə və noemaları da ona uyğun qavrayanda işıq artan xətt üzrə gedir, bir növ hər növbəti noema əvvəlkini tamamlayır. İstiqamət pozulanda isə işıq artmır, ilkin işıq bəs eləmir, nəticədə şüur noematik nüvəyə qədər çatmır və onun hansı isə xüsusiyyətləri ilə kifayətlənməli olur. Deməli, məqsəd noemaya çatmaq deyil, onun nüvəsini qavramaqdır. Zatən, onun nüvəsi qavranmayana qədər, noematik struktur tam şəkildə məlum olmur. Şüurun bu irəliləməsi – obyektiv həqiqətin öyrənilməsi, yuxarıda da qeyd etdiyimiz kimi, yaradılışı xəttinin izlənməsidir və nəticədən səbəbə doğru gedilir. Bu, şüurun öz daxili potensialından istifadə edərək ideyasını qavradığı obyektin noemasını məntiqlə "tamamlamasıdır". Burada iki əhəmiyyətli məqam var. Əvvəla, həmin noema şüurun imkanları xaricində ola bilər. Məsələn, üç ayaqlı masanı görüb onun dördüncü ayağını təsəvvür edən insan sonra yaxına gedəndə masanın ümumiyyətlə üç ayaqlı olmasının şahidi ola bilər, yaxud onun ümumiyyətlə masa deyil, royal olduğunu görər. Fenomenoloji reduksiyanı müəyyən mərhələdə yarımçıq kəsmək, onun noematik nüvəsinə çatmamaq, deməli, həmin şeyin əsl mənasını qavramamaq deməkdir. İkincisi, hətta şüurun qavradığı struktur həqiqətə yaxın olsa belə, oradan daha üst struktura qalxan əlaqə telini görmək mümkün olmur. Yenə də şüur qapalı bir çevrəyə düşmüş olur. Noezis dayanır.

Yaradıcılığın ikinci növündə – insanın öz ideyasının strukturunu hazırlayanda isə proses səbəb-nəticə zənciri üzrə irəliləyir. Burada səbəbi yaradan insan özü olur və yaradıcılıq noematik nüvədən başlayıb xüsusiyyətlərinə doğru uzanır. Məsələ burasındadır ki, yaradıcılığın bu növündə insan öz noematik nüvəsindən – könüldən başlayır və müvafiq

olaraq quracağı noemanın da ilk növbədə nüvəsini “hazırlayır”. Yəni əgər birinci halda, xüsusiyyətlər öyrənilməklə onun nüvəsinə gedilirdisə, burada əksinə. İnsan əvvəlcə nüvəni yaradır, sonra ona uyğun xüsusiyyətləri müəyyənləşdirir. Lakin burada əhəmiyyətli bir məqam var. Bir daha təkrar edək ki, noema işıq vasitəsilə qurulan strukturdur və şüur hadisəsidir. Burada təxəyyülün rolu xüsusi qeyd edilməlidir. Birinci yaradıcılıq növündə şüur irrasional biliklər qazananda onu rasionallaşdırmağa məcburdur, əks halda onlar istifadəsiz qalır. Həmin irrasional biliklər də obyektivdir, sadəcə subyektivləşə bilmir. İkinci halda, isə yaradılan noemalar elə xəyal səviyyəsində qalır, maddiləşə bilmir. Şüur noematik nüvəni təyin edir, hətta onun yaxın xüsusiyyətlərini də təyin edir, ancaq onu tanıdacaq, maddi formada tanıdacaq keyfiyyətlərini “unudur”, yaxud tapa bilmir. Sanki insan bir heykəlin ideyasını düşünür, ancaq onu nədən, hansı ölçülərdə hazırlayacağını bilmir. Hər noema şüurda tamamlanmalıdır ki, gerçəkləşə bilsin. Bunu təqribən səhrada ilğıma bənzətmək olar: şüur yeni bir işığa çatmadan yalnız öz işığı ilə kifayətlənir. Nəticədə heç bir noezis baş vermir, şüur öz daxilində, qapalı çevrə boyu hərəkət edir və real noema qurulmur, uydurulmuş obrazla kifayətlənir.

Dediklərimizdən belə məlum olur ki, istər noemanın qavranması, istərsə də qurulması prosesində noema tamamlanmalıdır ki, həm daxili strukturda işığın “sirkulyasiyası” getsin, həm noezis davam etsin, həm də ideyanın və onun maddi forması arasında uyğunluq yaransın. Xüsusilə vurğulayaq ki, insan yaradıcılığın nəticəsinin universal sistemə daxil olması da, məhz hazırlanan noemanın kamilliyindən asılı olur. Burada müşahidə edilən daha bir qanunauyğunluq isə ruhdan – ideyadan noemaya keçiddir. Ruh-ideya deyəndə həm noemanın mənası, noema deyəndə isə həmin ideyanın eydoslarının daxili işığı vasitəsilə yaranan struktur, sistem nəzərdə tutulur. Onu da mütləq əlavə edək ki, noemanın nüvəsi nə qədər vacibdirsə, onun xüsusiyyətləri də bir o qədər vacibdir. Birincisi, onlar nüvənin gerçəkləşməsinə xidmət edir, ikincisi, bir noemanı digəri ilə əlaqələndirirlər. Şeylərin maddi forması da noemanın

xüsusiyyətidir. Təsadüfi deyil ki, idrak prosesi məhz hissi idrakla – şeyin maddi formasının tanınması ilə başlayır.

Nəhayət, belə bir detalı da dəqiqləşdirək. Noemalar öz aralarında eydoslar vasitəsilə əlaqəlidir, iki noema ortaq xüsusiyyətə malik ola bilir və onun vasitəsilə birindən digərinə keçid etmək mümkün olur. Alt noemadan üst noemaya keçid isə yalnız nüvədən mümkündür. Burada hər hansı ortaq eydos olmur, alt strukturun nüvəsi üst noemanın xüsusiyyəti olur. Bu, şüurun dördüncü və ya beşinci ölçüyə keçididir. Deməli, şüur noemalar üzrə həm üfüqi, həm də şaquli xətt üzrə hərəkət edə bilir.

### *§ 108. Fəlsəfi məsləhətləşmə aspektində noematik struktur. Psevdo-noema.*

Fəlsəfi məsləhətləşmədə sufi fenomenologiyanın istifadəsinin məqsədi şüurun enerjisinin maneəsiz axınını təmin etməkdir. Noematik strukturla tanışlıq məsələyə baxış bucağını daha da dəqiqləşdirir. Husserl yazır: "Fenomenoloji reduksiya psixoloq üçün xeyirli metodik funksiya qazandıra bilər, daha dəqiq desək, noematik mənanı əşyanın özündən kəskin aralamaqla təyin edəndə, reallıq kimi qəbul edilən intensional yaşantının təmiz psixoloji mahiyyətinə mənsub olan ayrılmaz şeyləri dərk etməyə imkan verir".[1] Fenomenoloji reduksiya şeyləri kənar hisslərdən, təsirlərdən təmizləməyə imkan verir, özünüreduksiya isə öz noematik nüvəsini səfərbər edir.

Daha əvvəl də qeyd etdiyimiz kimi, problem ilk növbədə düşüncədə yaranmış düyün, qeyd etdiyimiz kimi, enerji axınının dayanmasıdır. Düyünün xarakterindən və yaranma səbəblərindən asılı olaraq, o, bir tərəfdən, şüurun irəliləməsinin qarşısını almaqla, onda passivlik, durğunlaşma yaradır, digər tərəfdən, şüurun fəaliyyət məkanını daraldır, bu isə öz növbəsində qaranlıq sahənin artmasına səbəb olur. Düyünün yaranmasının iki səbəbi ola bilər: a) noemanın öz daxili strukturunda və b) noemalar arasında. Düyün dediyimiz, əslində, müəyyən şərtlər nəticə-

[1] Гуссерль. Идеи...I, s. 285-286.

sində kənar psevdo-noemanın yaranmasıdır. Necə ki, orqanizmdə müəyyən səbəbdən (şüalanma, zədə, çirklənmə və s.) bir hüceyrənin anormal şəkildə böyüyərək şişə çevrilir və bütün orqanizmin funksiyasını pozur, eləcə də, müəyyən bir ideya anormal şəkildə durğunlaşır və nüvəyə çevrilərək ətrafına başqa ideyaları da toplamağa başlayır. Nəticədə süni, yalançı bir struktur – psevdo-noema yaranır. Onun süni, psevdo olmasının nəticəsidir ki, başqa noemalara çıxış olmur, eyni zamanda, daxili strukturunda da harmoniya olmur, mənbə ilə əlaqəsi kəsilən eydosların işığı zəifləyir. Bir növ kosmik qara dəlik effekti ilə başqa ideyaları da özünə cəlb edir. Düyünün açılması onun nüvəsindən başlanır, çünki ona yeganə yol oradandır – ilk əlaqə ora ilədir. Buna görə də, həmin noemanın qavranması geri qayıtmaqdan – başlanğıc məqamın təkrar təhlilindən keçməlidir. Yalnız nüvənin özündən çıxış etməklə onun xüsusiyyətlərini öyrənmək mümkün olur. Maraqlıdır ki, burada daxili strukturda işıq selinin bərpası, yaxud aydınlıq yaratmaq cəhdləri mümkün olmur, çünki yoxdur. Həmin əlaqəsiz mühitə girən təfəkkürün məntiqli olaraq kənarla ünsiyyəti zəifləyir, mənəvi, düşüncə durğunluğu yaranır. Bir daha təkrar edək ki, burada yalnız başlanğıc nöqtəsi işıqlıdır, ona görə də, şüur həmin nöqtədən noemanın daxilinə nüfuz edə bilər.

Dediklərimizdə əhəmiyyətli bir məqam var: psevdo-noema hər hansı kənar təsirlə yaransa da, yol şüurun özündədir. Kənardan müdaxilə yalnız Makedoniyalı İsgəndər kimi, düyünün kəsilməsi ilə həll edə bilər. Bu isə yeni düyündür. Fəlsəfi məsləhətləşmə zamanı problemi olan şəxsin zəifləmiş, durğunlaşmış şüurunun işığını artırmaq olar, düyünü isə şəxsin özü sezməli və çözməlidir. Deməli, həmin psevdo-noemanı məhz düyün yaranmış təfəkkürün sahibinin özü sezməlidir. Ola bilsin ki, fəlsəfi məsləhətçi daha geniş baxış bucağına malik olur və kənardan vəziyyəti daha düzgün dəyərləndirir, lakin o, başqasının şüurun daxilindəki "anomal toxumaya" müdaxilə edə bilməz.

Məsələnin daha bir vacib tərəfi isə, həmin yeganə əlaqəni görmək bacarığıdır. Yaranmış problem bəzən düyün deyil, noemalar arasında kəsilmiş əlaqənin fəsadıdır. Xatırladaq ki, daxili strukturundan gələn bir

qanunauyğunluqla hər noema özünübərpa proqramına malikdir. Yəni kənar təsir, onu pozan qüvvə davamlı olmasa, struktur təbii halına qayıda bilir. Lakin burada bir incəlik var. İnsanın müdaxiləsi ilə özünübərpa prosesi üst-üstə düşə də bilər, əksinə, bir-birini poza da. İnsan özünü nə qədər yaxşı tanıyarsa, bir o qədər həmin təbii proseslə ayaqlaşmağı, yaxud onun istiqamətində prosesi tezləşdirməyi, gücləndirməyi bacarır. Maraqlı faktdır ki, bəzən müəyyən çətinliyə düşmüş insan öz vəziyyətini düzgün dəyərləndirəndə, düşüncəsində yaranmış psevdo-noemaları qavrayanda özündə yeni bacarıq və imkan kəşf edə bilir. Cübran Xəlilin yazır: "Mənim əqidəmə görə, xaos həmişə xeyir gətirir, çünki o, sərxoş yuxu ayılma ilə, hissiyyatsızlıq fəaliyyətlə əvəz olunanda millətin gizli imkanlarını aşkarlayır. Ağacları şiddətlə silkələyən tufan kimi – onları kökündən çıxartmır, yalnız qurumuş budaqları sındırır və sarı yarpaqları tökür. Hər dəfə hələ təbii təməlini qoruyub saxlamış milləti xaos bürüyəndə, bu, onun fərdlərində yaradıcılıq gücünün, cəmiyyətində isə hazırlığın əlamətinə çevrilir. Dumanlılıq – həyat kitabında ilk, lakin son olmayan sözdür, dumanlılıq isə xaos halında həyatdır".[1] Düşüncələrdə yaranan düyünlər, noemalar arasında əlaqələrin pozulması, ideyaların sistemsiz halda psevdo-noemalar yaratması – insanın daxili xaosudur.

Nəhayət onu da bildirək ki, ətrafına hər ideyanı cəlb etməklə psevdo-noemalar get-gedə güclənmək xüsusiyyətinə malikdir. Bunu bir növ ağacın gövdəsində yaranmış göbələyə də bənzətmək olar – öz strukturu, tələbləri, şərtləri, inkişaf xətti olan yeni bir orqanizm, sistem. Öz idrak xəttini nəzarətdə saxlaya bilməyən insan öz düşüncəsində belə göbələklərin yaranmasına, onu üzdən məhv etməklə fərqli yerlədə də metastaz verməsinə şərait yaratmış olur. Yeni struktur böyüdükcə tələbləri də artır və tədricən digər ideya xətlərini də öz təsiri altına alır: insan öz düşüncə sisteminə əvvəlcə bir yadlaşma yaşayır. Təəssüf ki, bəzən həll yolu tapmayanda, onun tələblərinə uyğunlaşmağa çalışır. Fəlsəfi məsləhətləşmə psevdo-noemanı sezmək, onun eydedik strukturunun daxildən

---

[1] Cübran Xəlil Cübran. *Sükutun poeziyası*. Ərəb, ingilis və rus dillərindən seçilmiş tərcümələr. Bakı, 2008, s. 277-278.

bərpa edilməsinə, "göbələyin" qida borusunun kəsilməyinə kömək etməkdir.

### *§ 109. Noema və intensionallıq*

Noema əslində intensionallığın obyektidir. Hər noema şüurun Loqosa gedən yolunda bir "dayanacaqdı". Daha dəqiq ifadə etsək, bir təkan nöqtəsidir. Şüur həmin nöqtədən geri, özünə qayıtmalıdır ki, yeni qüvvə ilə növbəti mərhələyə başlaya bilsin. Dönməsə, şüur öz mənbəyindən aralı qalmış olur və get-gedə tükənir. Yalnız noemanın nüvəsinə çatmış intensiya əks olunur və şüura qayıdır. Bu, vacib şərtdir, çünki şüur yalnız öz mənbəyindən qidalana bilər, kənar mənbədən deyil və yalnız noemanın nüvəsinə çatdığı halda intensiya öz mənbəyinə qayıdır. Əks halda, qeyri-müəyyənlikdə yox olur. Əlbəttə, şüur mümkün eydoslardan, yəni noemanın hansı isə xüsusiyyətindən də qayıtmaq halları olur. Şüanın sınma bucağından asılı olaraq onun uzunluğu və rəngi dəyişdiyi kimi, şüurun da nüvədən, yoxsa mümkün eydosdan keçməsi onun nəticəsində özünü göstərir.

Şüura kənar təsir normal haldır. Bir tərəfdən, insan ilahi varlıqdır, deməli, ilahi iradəni hiss edəcək, ona uyğunlaşmalı olacaq. Digər tərəfdən, sosial varlıqdır və düşüncəsinə, həyat tərzinə, seçiminə müxtəlif dərəcədə müdaxilə edən sosial tələblərlə hesablaşmalı olacaq. İnsanın şüur səviyyəsində asılı olaraq o, ya bu təsirləri öz düşüncə sisteminə salır, təhlil edir və öz qərarını verir, ya da bütünlüklə onun təsiri altına düşüb öz varlığını unudur. Yəni şüurun intensionallığı kənar təsirin nəticəsində güclənə də bilər, əksinə, zəifləyə, hətta sönə də. Bununla belə, xatırladaq ki, istər noemadan noemaya, istərsə də üst noemaya keçid mütləq şüurun özündən, yəni insanın öz noematik nüvəsindən olmalıdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, idrak prosesi zamanı şüurun intensiyası ilə obyektin işığı qarşılaşanda, hansı güclüdürsə digərini zəbt edir. Obyektin noeması şüurun intensionallığının gücü sayəsində sezilir. Bu o deməkdir ki, a) noemanı görən yüksək səviyyəli, güclü şüurdur; b) noema şüurun məqsədyönlü hərəkəti zamanı sezilir.

Sosial mühitin tələbləri ilə ilahi iradə fərqlidir. Birinci halda təsir güclü olanda və şüur başqa bir qüvvənin təsiri altında hərəkət etməyə başlayanda isə nə özünə qayıdış mümkündür, nə intensiyanın güclənməsi, nə də noemaya çatmaq. Şüurun yalnız başqa bir qüvvə üçün xammal rolunu oynayır. İkinci halda isə ilahi iradə bilavasitə insanın ruhu və şüuru vasitəsilə təsir göstərdiyinə görə, o, şüurun daxili təkanı da hesab olunur. Onu da əlavə edək ki, kənar təsir heç də həmişə mənfi rol oynamır, əksinə, yanlış istiqamətli şüuru doğru da yönəldə bilir. Yəni şüur müəyyən təsirlə hər hansı noemanın strukturuna gəlib və onun bir xüsusiyyəti vasitəsilə onun nüvəsinə doğru yönələ bilər.

Obyektiv noemanın sezilməsi şüurun öz noematik nüvəsini qavramasının məntiqli davamıdır. Qeyd etdiyimiz kimi, yalnız özünün nüvəsindən çıxış etməklə, obyektiv nüvəni görmək mümkündür. Başqa sözlə desək, öz daxili sistemini tamamlamış şüur obyektiv noematik sistemi ehtiva etmək gücündə olur. Hər noema bütöv bir həqiqətə malik olduğuna görə, növbəti mərhələdə böyük rol oynayır. Noemaları şüurun ilk ideyasının tədrici, mərhələli reallaşması da adlandıra bilərik. Xatırladaq ki, hər qazanılan bilik özünüreduksiya prosesinə qarışır, şüurun daxili radiusunun genişlənməsinə xidmət edir. Şüur daim özünü kəşf etməyə, anlamağa cəhd edir və bu, insanın maddi tələbatları ilə üst-üstə düşməyə bilir. O, məhz çatdığı noemanın təsiri, daha dəqiq desək, ondan aldığı işıqla və biliklər güclənəndən sonra öz daxilində yeni bir qatı dərk edir və artıq yeni təkanında bu fakt da nəzərə alınır: istiqamət dəyişə də bilir, hətta yeni təkanla başqa bir proses də başlayar. Deməli, hər noema şüurun imkanlarının, potensialının açılması deməkdir və yalnız özünüreduksiya zamanı onun çatdığı noemanın son hədd, yoxsa böyük zəncirin növbəti halqası olduğu məlum olur. Başqa sözlə desək, çatılan hər noema özlüyündə bitkin sistem olsa da, şüurun daxilində məlum olur ki, o bitkindir, yoxsa bütövün bir hissəsi. İnsan mürəkkəb varlıqdır və universal sistemin bir hissəsidir, bu baxımdan, idrak prosesinin hər mərhələsində, hər yeni noemadan şüurun özündə yeni həqiqətin qavranılması təəccüblü deyil.

İstər şüur obyektiv həqiqəti anlayanda, istərsə də öz ideyasının strukturunu quranda hər noema 1-dir, ona çatana qədər şüur qeyri-müəyyən halda, alaqaranlıqda olur. Məhz belə məqamlarda şüur daha çox yanıla və getdiyi istiqaməti itirə bilir. Noematik nüvəyə çatmaqla sistem bütövləşir və öz həqiqəti məlum olur. Mümkün eydoslar – noemanın xüsusiyyətləri də müəyyən işığa malik olduğuna görə, bəzən şüur onlardan hansını isə əsl həqiqət zənn edib dayana bilir. Vacib eydosa yaxınlaşdıqca aydınlıq da artır, yəni şüur nüvənin xüsusiyyətindən onun nüvəsinə doğru irəlilədikcə aydınlıq, bilik yükü artır. Nüvənin qavranılması bütöv strukturun məlum olması deməkdir. Təkrar şüura qayıdan idrak xətti 0-lanır və növbəti noemaya – 1-ə keçmək üçün şüur yenə aydınlıqdan qeyri-müəyyənliyə doğru keçməli olur. Xatırladaq ki, bunu insan etmir. Çatdığı həqiqəti az qala mütləq nöqtə zənn edən insan növbəti addımı atmaq, öz təsəvvüründə mütləq aydınlıq hesab etdiyi mərhələdən təkrar qeyri-müəyyənliyə keçmək istəmir. Ola bilsin ki, bu səbəbdən əksər hallarda hər alimin fəaliyyətində böyük kəşflər çox az olur. Bu addımı atan yalnız ilk ideyasının hələ tamamlanmadığını anlayan və intensionallığının gücü yetən şüur edir.

Qeyd etdiyimiz kimi, hər noemanın öz ruhu – ideyası var. Eyni zamanda, onun kənar noemalarla da əlaqəsi var. Buna görə də, onun kəşf edilən işığı – həqiqəti dörd tərəfinə də aydınlıq gətirir, bəzi qaranlıq məqamlara ip ucu verə bilir. Elmi nöqteyi-nəzərdən hər noema bir kəşfdir və tamamlanmış çevrədir. Təsadüfi deyil ki, bəzən bir eksperimentin ayrı-ayrı hissələri sonradan fərqli alimlər tərəfindən istifadə edilməklə başqa kəşflərə də yol açır. Məsələn, maqnit sahəsi haqqında əldə edilən hər nailiyyət, hər nəzəriyyə özlüyündə bütöv olub, həmin məqamı işıqlandırmaqla yanaşı, həm də fərqli istiqamətlərdə yeni ideyalara başlanğıc ola bilib. Belə məlum olur ki, noematik nüvədən bir neçə başqa noemaya çıxış var – həm üfüqi istiqamətdə, həm də şaquli. Bu baxımdan hər noemanın – hər nəzəriyyənin, hər həqiqətin öz yeri və öz əhəmiyyəti var. Zəncirdə hər halqanın öz yeri olduğu kimi.

İstər insanın daxili, istərsə də təbiətə məxsus olan noemalar

obyektiv sistemdir. Onu işıqlandıran və strukturunu bəlli edən subyektiv intensionallıq olsa da, noemalar təbii quruluşun, universal sistemin bir hissəsidir. Hətta insanın yaradıcılıq prosesi boyu formalaşdırdığı noemalar da sonradan bu obyektivliyə daxil olur, maddiləşməklə bir növ daxili, subyektiv çərçivədən çıxıb obyektivləşir. Noema subyektiv ruhla obyektiv ruhun kəsişdiyi, vəhdət məqamdır. Vəhdət subyektiv və obyektiv hədlərin yox olub ortaq həqiqətin ortaya çıxmasıdır. Hər şüur bir ideya ilə irəliləməyə başlayır və proses boyu ehtiva etdiyi hər noema həmin ideyanın universal sistemdə obyektiv təsdiqidir. Malik olduğu həqiqətə müvafiq olaraq noema Loqosda da ola bilər, ona gedən yolda da. Geniş mənada götürəndə, Loqosun özünü də böyük həcmli, özündə sonsuz sayda noema ehtiva edən universal noemaya bənzətmək olar.

### *§ 110. Noemaların konkretliyi və mücərrədliyi*

Hər nə qədər noema mürəkkəb olsa da, çoxsaylı eydoslardan ibarət olsa da, o, onların hamısını konkret bir məna-ideya ətrafında birləşdirən vəhdətdir. Husserl yazır: "Tezliklə belə məlum olacaq ki, tam noema noematik anların bütöv kompleksində ehtiva olunur, mənanın spesifik anı bu kompleksdə yalnız özünəməxsus *zəruri nüvə* yaxud *mərkəz* yaradır ki, burada da mahiyyətcə başqa anlar toplanır – məhz elə buna görə də biz onları sözün geniş mənasında məna anları adlandıra bilərik".[1] Noemanın mənasının reallaşması üçün mümkün eydoslar zəruridir, çünki vacib eydosun üzərində qat-qat cəmləşməklə onun mənasını ifadə edirlər. Suya düşən daşın ətrafında yaranan dalğalar kimi onlar da get-gedə zəifləyir, həmin ideyanı daha az çatdırır. Necə ki, yaradılış iyerarxiyasında Nurlar Nuruna daha yaxın olan varlıq daha nurlu olur, uzaqlaşdıqca nur da azalır, eləcə də noemanın daxilində nüvədən kənarları doğru istiqamətləndikcə mənanın da təsiri tədricən zəifləyir.

Hər noemanın bitkin sistem olmaqla yanaşı, noemalar öz arasında eydoslar vasitəsilə əlaqəlidir. Bu, mümkün eydoslar da ola bilər, nüvə

[1] Гуссерль. Идеи...I, s. 286-287.

də. Noemalar öz növbəsində daha böyük noema yaradır. Məsələn, insan orqanizmi sonsuz sayda noemalardan ibarətdir. Hər noemanın öz nüvəsi olmaqla yanaşı, sxem 27-də də göstərdiyimiz kimi, hamısı bir noematik nüvəyə tabedir. Yaradılmışların maddi forması onun noeması ilə eynidir. Bununla belə, onun məhz noematik strukturunu nəzərdən keçirəndə onun başqa noemalarla əlaqələri, daha böyük sistemin tərkib hissəsi olduğu görünür. Burada maraqlı bir fakt çıxır ortaya. Kvant fizikasının da iddia etdiyi kimi, istənilən eksperimentə insanın müdaxiləsi onun nəticəsinə, obyektivliyinə təsir edir. Eyni həqiqət burada da keçərlidir. İnsan müəyyən bir ilk ideyadan başlayaraq şeyləri öyrənir. Məsələn, maddi dünyada bir ağacın mahiyyəti də, missiyası da elə ağac olmaqdır. Onun noemasının hüdudları da, belə güman etmək olar ki, ağacdır. Nə üçün güman etmək? Çünki insan qarışanda təbii və eydedik quruluşlar arasında fərq yaranmağa başlayır. Özü özlüyündə bir bütöv sistemdir, noeması və təbii quruluşu uyğun olan ağacı görən, qavramaq istəyən insan, bir tərəfdən, öz hisslərinin təsiri ilə, digər tərəfdən öz maddi maraqlarının tələbi ilə, nəhayət öz yaradıcılığının gücü ilə həmin ağacı öz təbii quruluşundan da tamamilə fərqli görməyə başlayır. Məhz subyektiv bir nöqtədən çıxış edərək həmin ağacı mənalandırır. Noematik qatda da insan öz ideyasından təkan alır və gedəcəyi istiqamətdə yaranan eydedik zəncirdə ağacın noemasının necə əks olunacağı həmin ilk ideyadan asılı olur. Burada maraqlı, eyni zamanda, əhəmiyyətli məqam yaranır. İnsanın ideya xətti şeylərin ayrı-ayrı noemaların keçməklə bir növ yeni noema yaradır. Xüsusilə vurğulayaq ki, söhbət şüurun öz ideyasının strukturunu yaratmasından deyil, məhz obyektiv gerçəkliyin müəyyən hissəsini ehtiva etməsindən gedir. Şüur müəyyən bir mümkün eydosun öz mənasını qabardır və onu öz plana keçirdir, sanki öz noemasının tərkibindən çıxardır. Əvvəlki noemanın hüdudları dağılır, yeni bir hədd formalaşmağa başlayır. Onu da qeyd edək ki, bu proses olmasa, o zaman köhnə çərçivələrdən çıxıb yenisini yaratmaq mümkün olmazdı. Maraqlıdır ki, eyni prosesi təbii quruluşda da izləmək mümkündür. Məsələn, balıqqulağının içində inci dənəsinin, yaxud kəhrəbanın yaranması buna gözəl nümunədir – kənar bir təsirin nəticəsində əvvəlki noema da-

ğılır və yenisi formalaşır. Bu, ilahi iradə ilə baş verir, ancaq təbii qanunauyğunluğun bir zənciri olaraq. Yəni 10 balıqqulağından hamısı belə bir potensiala malik olsa da, ancaq ikisində belə bir hal baş verir. Burada Aristotelin ilk hərəkət verici qüvvə haqqında düşüncələri yada düşür: "Hər dəyişiklikdə nə isə nəyə görə isə nəyə isə dəyişir. Dəyişikliyi edən – ilk hərəkət vericidir, dəyişən materiyadır, dəyişdiyi şey formadır".[1] Aristotel hərəkətvericinin hansı hallarda işə düşdüyünü dəqiqləşdirmir. Onun fikrinə görə, bu, elə bir şeydir ki, əbədi kəsilməz şəkildə və dairəvi hərəkət edir və bu, mühakimələr nəticəsində yox, birinci səmadan məlum olur. Çünki onun özünü də hərəkətə gətirən bir şey var.[2] Bu hərəkətvericinin nə məqsədi, nə də azad iradəsindən söhbət getmir. Sufi fenomenologiyada ümumi enerjini hərəkətə gətirən ilahi iradə hər eydosa müəyyən məna yükləməklə yanaşı, həm də onların daxil olduğu strukturu – noemanı dəqiqləşdirir. Təkrar Anaksaqora qayıdaq və hərəkətverici qüvvənin *nous* olduğunu xatırlayaq. Müasir elmi prizma kimi isə termodinamikanın prinsiplərini götürək: hər eydos malik olduğu enerjiyə, işığa uyğun olaraq hərəkət edir. Xüsusilə vurğulayaq ki, hərəkət işıqdan gəlir, eydosdan deyil. Deməli, noemalar əsasında yeni bir noemanın yaranması da bir işığın digərini zəbt eləməsidir. Bu, noemanın özünübərpa proqramı da ola bilər, tamamilə yeni bir nüvənin yaranması da. Digər tərəfdən, Aristotel vəhdətdən deyil, ayrılardan danışır və onun dəyişən şeyi materiya adlandırması təəccüblü deyil. XX əsrdə isə fiziklər məhdud materiyanı, "potensiyanı" enerji ilə eyniləşdirməklə şeylərin tərkibinin heç də materiyadan ibarət olmaması fikrini irəli sürdülər və vəhdəti təkrar aktuallaşdırdılar. Enerji dalğasından danışan Heizenberq onu belə izah edir: "Dalğa Bora, Kramersə və Sleyterə görə, nə isə daha böyük şeydir. O, nə isə hadisələrin müəyyən axınına cəhdə bənzəyir. O, Aristotel fəlsəfəsinin köhnə "potensiya" anlayışının kəmiyyət ifadəsidir".[3] Onun fikrini davam etdirsək, enerji dalğası immanent olaraq bütün eydoslara xas enerjidir ki, həm onları hərəkətə gətirir, həm də

---

[1] Aristotel. Metafizika, 12, 1070a 3.
[2] Yenə orada, 12, 1072a 24.
[3] Гейзенберг. Физика и философия, с. 16.

universal sistemdə vəhdət şəklində saxlayır.

Dediklərimiz təbii quruluşda ilahi iradənin təyin etdiyi qanunauyğunluğun işləməsidir. İnsanın müdaxiləsi fərqlidir. Bir var insan həmin təbii quruluşa müdaxilə edə və harmoniyanı içdən öyrənməyə cəhd edə. Lakin o, noemanın mümkün eydosuna çevrilə bilməz – mümkün eydos nüvəni öyrənmək qüdrətində deyil. Deməli, özü noemalardan biri ola bilər – digərləri ilə əlaqəli olan, öz noematik nüvəsi ilə onların nüvəsi arasında əlaqə yaradan bir noema. Bunu təqribən öz bədənindən dəyişən cərəyanı keçirən Teslaya bənzətmək olar. İnsan-noema öz ideyası ilə irəliləyib Loqosa çatmağı bacarır: öz şüurunun enerjisindən istifadə etməklə başqa noemaları bir noema ətrafında cəmləyir. Nəticədə ortaya çıxan ideya sanki mövcud obyektiv quruluşun müəyyən bir hissəsinin şüur vasitəsilə dairəyə alınmasına bənzəyir – həm öz yerindədir, həm də fərdiləşib, ayrıca noemaya çevrilib. Şüur öz ideyasının strukturunu hazırlayanda noemalar arasında əlaqələri öz yaradacağı noemaya nisbətdə öyrənir. Onun konkret bir noematik nüvəsi təqribən hazırdır. Əlbəttə, proses boyu qismən və ya kökündən dəyişə bilər, bununla belə, proses müəyyən bir noematik nüvə ətrafında cərəyan edir. Sadə bir nümunə ilə izah etsək. Birinci halda, insan balıqqulağında incinin yaranmasını müşahidə edir, dənizin dibində onun şəraitini, böyümə müddətini öyrənir və s. İkinci halda isə, insan zinət əşyası hazırlamaq istəyir və o, balıqqulağının digər hissələrini "mötərizəyə alıb" incini götürür. Hər iki halda da belə məlum olur ki, a) noematik strukturun konkret hüdudları olsa da, mücərrəddir, çünki universal sistemin bir hissəsidir; b) kənar müdaxilədən asılı olaraq noemalar arasında yeni bir noema da yarana bilir. Bu, təbii quruluş tərkibində də baş verə bilər, insanın müdaxiləsi ilə ümumi harmoniyadan ayrıla da. Öz növbəsində insanın yaratdığı yeni noema ümumi sistemə daxil ola da bilər, ətrafdan təcrid olunan ayrıca bir maddi varlıq da.

Deyilənlərlə yanaşı, belə bir sual təkrar ortaya çıxır: noemanın konkret həddi varmı və o, şeyin maddi forması ilə nə dərəcədə üst-üstə düşür? Əvvəla, biz qərar verməliyik ki, şüur noemanın hüdudlarını axtarır, yoxsa həqiqətin. Məsələ burasındadır ki, hər noemanın öz həqiqəti

olsa da, o, axtarılan həqiqətin bir hissəsi ola bilər. Noema məhduddur, həqiqət isə yox. Əlbəttə, müəyyən nisbi həqiqətlər, elə həmin noemanın öz həqiqəti var ki, o da konkretdir. Bununla belə, ön planda həqiqətdirsə, onun hüdudları arasına bir çox noema daxil olur. Xatırladaq ki, yaradılışdan fərqli olaraq, idrak nəticə-səbəb istiqamətində irəliləyir. Plotinin sxemini xatırlasaq, bu, *nous*dan ruha deyil, əksinə, ruhdan *nous*a doğru yüksəlməkdir. Deməli, istənilən halda, insan ideyadan, daha dəqiq desək, öz ideyasından yola çıxmalıdır. Bu, həm də başlanğıc hərəkətverici qüvvənin – şüurun potensialının, məqsədinin, malik olduğu bilik bazasının, daxili radiusun və özünüreduksiyanın təyinidir. İlk ideya olmadan obyektiv noemaların həddinin müəyyən edilməsini isə sonsuzluqda nöqtələri xətlərlə birləşdirməyə bənzətmək olar. Onu da təkrar vurğulayaq ki, noemanı təyin edən şüurun intensionallığıdır. Yəni burada da subyektivlik aparıcı faktora çevrilir. Deməli, əgər şeylər haqqında noema səviyyəsində danışırıqsa, konkretlik nisbi xarakter daşıyır, çünki ideyaya uyğun olaraq həmin konkretlik pozula və yenisi yarana bilər.

Situasiyanın yaratdığı müvəqqəti noemalar da var. Hər hansı nüvə, yəni tək ideya olmadan fərqli noemalardan olan eydoslar müəyyən şərtlərin tələbi ilə eklektik şəkildə toplanmasını biz *noematik duman* adlandırırıq. Nüvənin yoxluğunu sabit strukturun olmaması, eydosların tez-tez yer dəyişməsi ilə izah etmək mümkündür. Bu, yalnız keçid məqamlarında, daxili və kənar təsir arasında toqquşma baş verəndə, hər iki tərəfin gücünün eyni olduğu zamanda yaranır. Onu da əlavə edək ki, noematik dumanla 0 və 1 arasındakı qeyri-müəyyənlik ilk baxışda bənzər səslənsə də, əslində fərqli anlayışlardır. Noematik duman qeyd etdiyimiz kimi, məhz müəyyən güclü situasiyanın diktəsi ilə yaranır, müvəqqətidir və zamanla yox olur. Qeyri-müəyyənlik isə sabit strukturun tərkibinə aiddir və şüurun idrak prosesinin bir mərhələsidir. Onu düyündən də fərqli anlayışdır, çünki yaranma səbəbləri də aşkardır, tərkibi də, işləmə mexanizmi də. Əgər onu yaradan səbəbdən sonra o yox olmursa, onda düyünə çevrilə bilir. Noematik dumanı müharibə şəraitində müvəqqəti "dəyərlərin" – şərtlərin yaranmasına, bəzi mənəvi xüsusiyyət-

lərin ümumiyyətlə arxa plana keçib, unudulmuş şeylərin isə aparıcı yer tutmasına bənzətmək olar. Həmin "dəyərlər" müharibə bitəndən sonra yox olacaq. Təsadüfi deyil ki, bəzən hərbi qulluqçular, müharibə travması görmüş şəxslər sülh şəraitində də həmin "dəyərlərlə" yaşamağa davam edir. Onların normal şərtlərə qayıtması üçün ciddi psixoloji müdaxilə lazım olur, əks halda, onlar cəmiyyətdə öz yerini nəinki tapa bilmir, hətta təhlükəyə, qeyd etdiyimiz kimi, düyünə çevrilir.

Noematik dumanın nüvəsi olmasa da, mənası var – şəraitin tələbi ilə önə keçən eydosun mənası. Burada kənar noemalarla əlaqə kəsilməsə də, eydedik strukturun tez-tez dəyişməsi həmin əlaqəyə ciddi təsir göstərir. Xüsusilə vurğulamaq lazımdır ki, belə noematik dumanlar, yəni situasiyanın yaratdığı müvəqqəti noemalar gerçək noemalardan daha çoxdur və şüur daxili gücünü aktivləşdirməsə uzun müddət bu dumanı həqiqət zənn edib onun içində qala bilər. Deməli, bütün məsuliyyət düşür şüurun üzərinə, çünki məhz onun gücü sayəsində duman çəkilir, sabit struktur görünür, digər noemalarla əlaqə bərpa olunur. Yaxud əksinə, şüur öz zəifliyini anlayır, geri qayıdır. Məsələn, tələbəlik illərinin, turistik gəzintinin, uzunmüddətli ağır xəstəliyin və s. kimi situasiyaların müvəqqəti noemaları yaranır. Nəzərə almaq lazımdır ki, onu yaradan şərait ortadan qalxanda həmin noema da yox olur. Bu o deməkdir ki, şüurun inandığı, hətta arxalandığı bir məna anidən yox olur və şüur boşluqda qalır.

Noematik dumanı *tode ti* ilə də fərqləndirmək lazımdır. *Tode ti* real və konkretdir. Noematik duman real olsa da, konkret deyil və situativdir. İndi var olsa da, yox olub, bir daha təkrar olunmaya bilər. *Tode ti*-dən başlanğıc götürüb yeni mərhələyə keçmək, irrasional təfəkkür vasitəsilə onun üst qatına qalxmaq mümkündür. Noematik dumanı isə həqiqətin önündə pərdəyə, yaxud eydosların xaotik şəkildə qarışmasına bənzətmək olar.

### *§ 111. Noema və diqqətin yayınması*

Noema obyektiv sabit struktura malik olsa da, onun qavranılması

subyektivdir və bu, nəticələrin fərqli və hətta zidd olmasına gətirə bilir. Səbəb noemanın xüsusiyyətlərinin – mümkün eydosların çoxluğu və müxtəlifliyidir. Fərqlilik nüvəyə qədərdir, ora çatandan sonra ümumi razılıq əldə edilir, bütün rəylər toplanıb vahid mənzərə yaradır. Həqiqətin tək olub, ona gedən yolların fərqli olması faktı da bunun təzahürüdür. Xüsusilə vurğulayaq ki, bəzən nüvəyə çatan şəxs müxtəlifliyi qəbul etdiyi halda, hələ xüsusiyyətlər səviyyəsində olan biri heç cür digərləri ilə razılaşa bilmir. Bu, normal haldır. Hər kəs öz düşüncəsinin işığı, öz bacarıqlarının və bilik bazasının verdiyi imkanlar çərçivəsində nə isə qavrayır. Bununla yanaşı, bir də var insanın öz şüurunun fərqli səviyyələri işığında eyni noemanı təkrar-təkrar öyrənməsi, "kəşf eləməsi". Burada da nəticələr eyni olmaya bilir, nüvə qavranana qədər. Öz şüurunun imkanlarını və noemanın strukturunu tanıyan şəxs müxtəliflikdən keçib vəhdətə can atır. Daha əvvəl də qeyd etdiyimiz kimi, noemanın, hətta onun xüsusiyyətlərinin də qavranılması yalnız şüur və obyektin vasitəsiz təması zamanı mümkündür. Deməli, burada ilk növbədə şüurun bütün diqqətinin ümumi biliklərdən xüsusi biliklər səviyyəsinə keçməyi tələb edilir. Noemanı təyin edən şüurdur. Məntiqli olaraq, hər şüur səviyyəsində noemanın fərqli tərəfləri, xüsusiyyətləri tanınır. Noematik nüvə – noemanın tam həqiqəti isə şüurun üst səviyyəsində, məhz şüurun bütün potensialı tam səfərbər olunanda qavranılır.

Noemanın tanınmasının ilk əsas şərti intensiyanın davamlılığıdır. Bunu təmin edən özünüreduksiyadır. Şüurun öz daxilində enerji axını nə qədər maneəsiz olarsa, onun xarici reduksiyası da bir o qədər güclü və tək istiqamətə yönəlmiş olar. Noemanın strukturundan belə nəticə alınır ki, onun qavranılması konkret konturların, yəni kənar xüsusiyyətlərinin tanınması ilə başlayır. Bunu edən hissi idrakdır. Bununla yanaşı, onu da nəzərə almaq lazımdır ki, bu səviyyədə öyrənilənlər dəyişkəndir, şəraitə görə fərqli mənalar kəsb edir və sonrakı mərhələlərdə təkzib edilə bilər. Əslində, burada insanın subyektiv düşüncələri üstünlük təşkil edir və obyektiv gerçəkliklə üzləşəndə zidd məqamlar yaranır. Husserl belə məqamlarda şüurun intensiyanın istiqamətini tez-tez dəyişməsini *diqqətin*

*yerdəyişməsi* (*attensional yerdəyişmə*) adlandırır və onu da əlavə edir ki, bu yerdəyişmə "istisnasız olaraq aydın şəkildə bizim tərəfimizdən təyin edilmiş hadisələrdir".[1] Bu termini filosof belə izah edir: "Anidən biz çoxçeşidli şəkildə parçalanmış olsaq da, bütöv olan kontinuumda bizə dayanmadan gerçək dünyanı çatdıran qavramanın noezisinin ardınca getmək yerinə "baxışlarımızı" qəfildən "ağlımıza gələn" xatirələrimizin obyektinə yönəldirik. Bizim "baxışlarımız" noezis vasitəsilə xatirələr dünyasına keçir, oralarda gəzişir, ya da başqa mərtəbələrin xatirələrinə, tamamilə fantastik dünyalara və s. adlayır".[2] Belə görünür ki, diqqətin yerdəyişməsi şüurun öz daxilindən gələn bir təsirlə obyektdən yayınmadır. Az əvvəl qeyd etdiyimiz kimi, özünüreduksiyanın zəif olması mütləq xarici reduksiyada özünü göstərir. Şüur öz intensiyasını idarə edə bilməyəndə, yaddaşdakı hansı isə xatirə, detal önə keçəndə istiqamət tamamilə itə bilər. Husserldən fərqli olaraq, biz buraya həm də qaranlıq yaddaşın müdaxiləsini də əlavə edirik. Bunu da nəzərə almaq lazımdır ki, həmin xatirə elə-belə, təsadüfən yada düşmür, mütləq onu oyadan bir şərt, qıcıqlandırıcı olur. Onu da əlavə edək ki, bu mütləq deyil ki, oyanan və şüurun bütün yolunu dəyişməyə məcbur etməyə qadir həmin xatirə güclü olsun. Bunu təqribən aikidoda müşahidə etmək mümkündür: sürətlə gələn bir gücü yüngül bir toxunuş nəinki dəyişə, hətta öz əleyhinə çevirə bilir. Eyni zamanda, bu, şüurun öz sistemində olan boşluqdur ki, ilk şəraitdə özünü göstərir. Şüurun intensiyası vahid, tək bir sel deyil, eydoslardan ibarətdir. Diqqətin yayınması həmin selin parçalanması, ümumi axardan çıxması və zəifləməsidir. Bu, noezisin heç cür formalaşa bilməməsidir. Bunun gözəl nümunəsini yaradıcılıq havasında olan, "ilham pərisi gəlmiş" bir sənətkarın bütün düşüncələrinin kiçik bir sözlə darmadağın olmasında, hətta bəzən bərpa edilməyəcək şəkildə unudulmasında görmək mümkündür. Eyni proses əks istiqamətdə də gedə bilər. Məsələn, mətbəxdə ciddi cəhdlə yemək hazırlayan bir şəxs anidən bir səs, bir söz eşidir, yaxud əlindəki bir şey ona nəyi isə xatır-

[1] Гуссерль. Идеи...I, с. 293.
[2] Yenə orada.

ladır və bütün diqqət yönəlir o istiqamətə, mətbəx də unudulur, yemək də. İlk baxışda belə düşünmək olar ki, intensiyanı dağıdan kənar təsir oldu. Lakin nəzərə almaq lazımdır ki, kənar təsir, qıcıqlandırıcı hər hansı bilik, informasiya daşıyıcısı olmur. Ən azından onun mahiyyəti həmin proses üçün heç bir əhəmiyyət kəsb eləmir. O, xatirədə nəyi isə oyadır, şüurun daxilindən nəyi isə prosesə qoşur. Onu müəyyən mənada tibdə mikroorqanizmlərə bənzətmək olar.

Deyilənlərdə bir neçə əhəmiyyətli faktı vurğulayaq. Birincisi, diqqətin yayınması onun xüsusiyyətlər qatında daha çox rast gəlinir. Nüvəyə yaxınlaşdıqca, özünüreduksiya şüurun daxilində enerji axınının vahidliyini təmin etdikcə, konsentrasiya da artır və yayınma halları azalır. Tam yox olmur, çünki insan mürəkkəb varlıqdır. Üstəlik burada ilahi iradənin müdaxiləsini də unutmaq olmaz. Başqa sözlə desək, şüur nüvəyə yaxınlaşdıqca, diqqəti yayındıran faktorun da güclü olması lazım gəlir. Əgər xüsusiyyətlər qatında kiçik bir xatırə kifayət edirsə, nüvəyə daha yaxın qatlarda bu, yalnız ilahi iradə ilə mümkün olur. İkincisi, nəzərə almaq lazımdır ki, müəyyən noemaya daxil olmuş, onun strukturuna uyğunlaşmağa çalışan insan başqa bir işlə məşğul olanda belə diqqəti oradan yayınaraq təkrar noemaya qayıtmağa meylli olacaq. Yəni o, əslində, başqa bir noemanın daxilindədir, noeza artıq müəyyən bir istiqamət seçib və məşğul olduğu hər iş onun diqqətinin yayınması kimi görünür. Yaxud gördüyü hər hadisəni öz düşüncə selinə uyğunlaşdırmağa çalışır. Diqqətin yayınması, əslində, şüurun mərtəbələri arasında yerdəyişmədir. Biz təsadüfən özünüreduksiyanın, şüurun daxili tarazlığının vacibliyini önə çəkmirik. Məsələ burasındadır ki, şüurun mərtəbələri arasında hədd nə qədər qalın olarsa, bir o qədər diqqətin yayınması tez-tez baş verər və şüur hətta noematik dumana da düşər.

Noemanın qavranılması mərhələli prosesdir və şüurun səviyyələrinin korrelyatları ilə tənzimlənir. Onlardan hər biri intensiyanı öz gücü və bacarığı qədər irəli aparır. Təbii ki, rasional şüur və üstşüurun qavradıqları eyni bucaqdan olmur, altşüura çökən informasiya ümumiyyətlə qaranlıqdadır və aydınlanmağa ehtiyacı var. Buna görə də, onların qav-

radıqları uyğun gəlməyə, hətta bir-birini inkar edə bilər. Özünüreduksiya fərqli üsullarla daxil olan bilikləri, informasiyaları, hətta işarələri şüurun daxili sisteminə yerləşdirməli, aralarında uyğun məqamları araşdırır və bütöv mənzərəni qurmağa çalışır. Xatırladaq ki, noema şüurun obyektlə yalnız vasitəsiz əlaqəsinin nəticəsində qavranıla bilər. Təəccüblü deyil ki, ilk mərhələlərdə şüur yollar axtarır, bəzən sınaq-səhv üsulundan istifadə edir. Məqsəd ilk nöqtədən çıxmaqdır və təkan şüurun istənilən qatından gələ bilər. Belə məlum olur ki, noemanın qavranılması şüurun daxili tarazlığının yaranması, aydınlanması ilə paralel gedən bir prosesdir.

Altşüur qaranlıq yaddaş olsa da, özündə noemanın əhəmiyyətli xüsusiyyətlərini ehtiva edə bilir. Daha çox rasional dəlillərə istinad edən şüur alt qatın diktəsini eşitmək istəmir, yaxud onu ciddiyə qəbul etmir. Maraqlıdır ki, hətta arada həmin biliklər anidən diqqəti özünə çəksə də, şüurun sisteminə oturmadıqlarına görə, kənarda qalmalı olurlar. Noemanın ümumi mənzərəsi nisbətən aydınlanandan, özünüreduksiya kifayət qədər irəliləyəndən sonra onlar üzə çıxır. Eyni hal üstşüurla da baş verə bilər. Məsələ burasındadır ki, ümumi biliklərin toplanması zamanı şüur ayrı-ayrı obyektlərlə bilavasitə təmasda olur və informasiya altşüura çökür. Yaxud üstşüur vasitəsilə irrasional bilik alınır, lakin rasionallaşmadığına görə həmin bilik ümumi sistemə daxil edilmir və kənarda, istifadəsiz qalır. Düzdür, ilahi iradənin təsiri də üstşüur səviyyəsində qəbul edilir və kifayət qədər güclüdür, diqqətdən kənarda qala bilməz. Onu, xüsusilə, ruhani təcrübə zamanı müşahidə etmək mümkündür. Bununla belə, daha əvvəl də qeyd etdiyimiz kimi, şüur irrasional səviyyədə aldığı bilikləri rasionallaşdıracaq səviyyədə olmalıdır ki, həmin biliklər şüurun sisteminə oturub, idrak prosesində istifadə edilə bilsin. Deməli, səbəb, bir daha vurğulayaq ki, şüurun sisteminin onu qəbul etməyə hazır olmamasıdır və bu hazırlıq zaman tələb edir. Bir növ tikiləcək evin materialları hazır olur, ancaq planı olmadığına görə, gözləyir. Burada əhəmiyyətli bir nüans var: hər şüur ilk ideyasının irəli getməsi üçün daxilən hazırlaşır və ona uyğun bilikləri istifadə edir. Məsələn, bir şeyə insan da

baxır, heyvan da. Eyni obyektə baxsalar da, gözün qəbuledicilik qabiliyyəti fərqli olduğuna görə, onlar həmin şeyi eyni şəkildə, eyni rəngdə görmürlər. Hipotetik olaraq heyvanla insanın yalnız gözlərinin yerini dəyişsək və yenə eyni şeyə baxsalar, yenə fərqli görəcəklər, yəni insan heyvanın, heyvan isə insanın gördüklərini görəcək. Lakin heyvan gördüyünü insan kimi qavraya bilməyəcək, yalnız instinktiv olaraq özünə lazım olan şeyi görəcək, qalan informasiyalar isə lazımsız qalacaq. İnsan da gördüyü informasiyaları düşüncəyə ötürməklə, aldığı yeni məlumatı əvvəlki bilikləri ilə tamamlayacaq, yaddaşının köməkliyi ilə obyektin əvvəlki obrazını beynində canlandıracaq və s. Görmək bu sonuncu mərhələdir. Noema da şüurun intensiyasının cızdığı obrazdır. Bilik çox ola bilər, ancaq yalnız şüurun ehtiva etdikləri sistemə daxil olur.

Daha bir incə məqam görülən bütöv obrazda yaddaş və şüurun bir-birini tamamlamasıdır. Məsələn, saralmış yarpağa baxan göz o yarpağın yaşıl halını da "görür", yaxud budağı qırılmış ağaca, suyu qurumuş çaya baxan göz onun təbii quruluşunu da "görə bilir", çünki yaddaşında həmin biliklər artıq var və yenilər onlarla bərabər yeni mənzərə yaradır. Noemanın qavranması prosesində də şüur ayrı-ayrı detallardan vahid mənzərə yaratmağa çalışır, sadəcə burada müəyyən bir hədd var – ilk ideya. Yalnız ona uyğun gələn biliklər götürülür, qalanları isə mötərizəyə alınır. Burada istər istəməz sufizmdə və əksər mistik təlimlərdə mövcud olan bəsirət gözü yada düşür. I cild §28-də təhlil etdiyimiz bəsirət gözü, yaxud sezgi üstşüurun korrelyatıdır. Dediklərimizdən belə məlum olur ki, bəsirət insanın öz noematik nüvəsindən şeylərə baxması, onları qavramasıdır. Əbu Hamid Qəzali nuru ülvi və aşağı aləmin nurlarına bölərək deyir: "Göylər və yer nurun iki təbiəti ilə doludur, yəni gözə və bəsirətə, yəni hiss və ağla"[1] aid olan. O, hər birinin rolunu belə izah edir: "İnsani nurla (maddi işıqla, gözün görməsi ilə – *K.B.)* aşağı aləmin nizamı görünür. Mələki nurla (ilahi nur – *K.B.)* ülvi aləmin nizamı görünür".[2] İnsanın noematik nüvəsində onun bütün bacarıqları,

[1] Qəzali. Mişkət əl-ənvar, s.116.
[2] Yenə orada, s. 116-117.

mahiyyəti cəmlənib – ruhla əlaqəsi, ilahi nurun mənbəyinə açılmış yol, şüurun hazırlığı. Burada söhbət maddi formanın fövqündə olan noemadan – intensiyanın "gördüyü" obrazdan gedir. Qurani-Kərimdə Haqqı qavramayan qəlblər, görməyən gözlər, eşitməyən qulaqlar ayrıca vurğulanır (Quran 7/179). Yaradıcılığın bütün növlərini xatırlasaq, bəsirətin hərfi mənası görmək olsa da, bu kontekstdə o, həm də eşitməyi, görməyi, anlamağı da ehtiva edir.

### *§ 112. Loqos, noema və yaradıcılıq*

Yaradan özü noema deyil, ola bilməz, çünki noema yaradılmış, strukturlaşmış sistemdir. İlk enerji seli də noema deyil, çünki orda sistem yoxdur, yalnız vəhdət var. Yaradanın ilk yaratdığı, ilk noema sabit mənbələrdir. Bütün noemalar ilk noemanın xüsusiyyətləri, tərkib hissəsidir. Loqos da sabit mənbələrin tərkibinə daxildir və insan şüurunun çata bildiyi ən üst noemadır. Onun xüsusiyyətləri sonsuz sayda noemalar şəklində mövcuddur. Şüur Loqosu bütöv şəkildə ehtiva edə bilmir, çünki məhduddur və yalnız ayrı-ayrı noemalarla kifayətlənməli olur. Şüurlar arasındakı fərq onların dərk etdikləri, tanıdıqları noemalarla ölçülür. Bəzilərinin qüdrəti bir neçə noemaya çatdığı halda, bir başqası yalnız birini öyrənə bilir. Ümumiyyətlə Loqosa çatmadan ona gedən yolda qalan şüurlar da olur. Loqosdakı hər noema bir dəfə tanınır və ümumiləşmiş biliyə çevriləndən sonra ikinci dəfə "kəşf edilməyə" ehtiyacı qalmır. Loqosun hər tanınan xüsusiyyəti – noema həm şüurun imkanlarının artması, daxili radiusunun genişlənməsi, həm də ümumi biliklərin çərçivəsinin genişlənməsi deməkdir. Hər üst noema özündə bir neçə noema ehtiva etdiyinə görə, həmin səviyyəyə qalxmış şüur altdakı noemaları da tanımış olur. Əlbəttə, vurğulamaq lazımdır ki, şüur yalnız öz ideyasının imkan verdiyi xətt üzərindəki noemaları öyrənir. Başqa ideyanın xəttinin cızılması üçün şüurdan yeni başlanğıc götürülməlidir. Burada iki əhəmiyyətli məqam var: 1) hər üst noema heç də bütün alt noemaları deyil, yalnız ilk ideyanın xətti çərçivəsində olanları tanıdır; 2) nə qədər vacib bilik ehtiva etsə də, alt noema yalnız üstdəkinin xüsusiyyəti olaraq

tanınır və gələcəkdə mötərizəyə alınır. Vacib deyəndə biz həm onun özünün bir noema kimi əhəmiyyətini, həm də başqa bir ideya üçün çıxış ola biləcəyini nəzərdə tuturuq. Bu o deməkdir ki, üst noemanı öyrənən alt noemanı yalnız xüsusiyyət olaraq tanıyır. Belə olan halda, bir noemanın müəyyən keyfiyyətlərə malik nüvəsi üst noemanın xüsusiyyəti olaraq görünməz qala bilər. Məsələn, insan gözü müəyyən spektrdə olan rəngləri tanımaq qüdrətindədir və həmin rənglər hüdudlarında əsrarəngiz şedevr əsərlər yaratmışdır. Bununla yanaşı, gözlə görünməyən rənglər – ultrabənövşəyi, infraqırmızı rənglər də vardır ki, müəyyən cihazlarda, elmi eksperimentlərdə istifadəsi böyük əhəmiyyət kəsb edir. Deməli, bir daha təkrar edək ki, hər şey asılıdır şüurun ilk ideyasından və məqsəddən. Yəni müəyyən eydosun noematik struktura məna verən nüvə olaraq və başqa bir noemanın nüvəsinə yaxın, yaxud uzaq olan bir xüsusiyyət kimi öyrənilməsi nəticə etibarı ilə ayrı-ayrıdır. Təbii ki, müəyyən ortaq keyfiyyətlər müşahidə ediləcək, bununla belə, böyük fərqlər də olacaq. Məsələn, bir var, palıd ağacı bir şeyin tərkib hissəsidir, bir var, şey bütünlüklə həmin ağacdan ibarətdir, nəhayət, bir də var palıd kəsilməyib və meşədə bitir, üzərində quşlar, kökündə həşəratlar yuva salıb. Eyni olan yalnız hər birində həmin ağacın olmasıdır. Onların arasındakı fərq ehtiva etdikləri alt noemaların sayındadır: ən böyük noema meşədə bitən, ilkmənbəyi ilə əlaqəsi kəsilməyən, təbii quruluşun bir hissəsi olaraq qalan, insan tərəfindən dəyişməyən palıddır. İlahi aləmdən maddi dünyaya endikcə noemaların xüsusiyyətləri və tərkibi də azalır.

Daha əvvəl də qeyd etdiyimiz kimi, üfüqi istiqamətdə noemaları ortaq eydoslar birləşdirir, şaquli istiqamətdə isə alt noemanın nüvəsi. Loqosa da yol yalnız nüvədən keçir. Şüur öz irəliləməsi boyu daim işıq qazanmalıdır, çünki hərəkətverici qüvvə şüurun daxili intensiyasıdır. Hər eydos müəyyən işığa malik olsa da, nüvə həm də həmin strukturun İlkmənbə ilə əlaqəsidir. Buna görə də nüvəyə çatan şüur daha güclü işıq qazanır. Bununla yanaşı, hər nüvədə, eyni zamanda, iki işıq mənbəyi birləşir: insan şüurunun və obyektiv noematik nüvənin işığı. Yaradıcılıq bu iki işığın vəhdətinin inikasıdır. Şüurun idrak prosesi boyu tanıdıqları

və dərk etdikləri onun fəaliyyət radiusunu təyin edir və insan məhz həmin hüdudlarda yaratmağa qadir olur. Şüurun noemasının nüvəsinə çatması, yoxsa onun müəyyən bir xüsusiyyətindən geri dönməyi onun yaradıcılığında əks olunur. Obyektiv həqiqət nə qədər böyük olsa da, şüur subyektiv çərçivədən kənara çıxa bilməz. Yaradıcılığın hər iki növündə, yəni istər ilk ideya obyektiv qanunauyğunluğun öyrənilməsi olsun, istərsə də, şüurun özünün ilk ideyasının gerçəkləşdirilməsi olsun, şüur obyektiv noemadan intensiyasının imkan verdiyi qədər ehtiva edir. Hətta təxəyyül gücü qarışsa belə, əvvəla, onun da nəticəsi subyektiv imkanlar daxilində təsdiqlənməli olur, ikincisi, onun gerçəkləşməsi üçün insanın bacarıqları, bilikləri kifayət etməlidir. Yəni şüur həmin obyektiv həqiqətin işığına çatmayana və onu mənimsəməyənə qədər yaradıcılıq ilk ideyanı əks etdirməyəcək. Başqa sözlə desək, insanın yaradıcılığı onun çatdığı noemalara uyğun olaraq formalaşır. Noematik nüvələr vasitəsilə irəliləyən şüurun yaradıcılığı müvafiq olaraq daha universal olur. Loqosa yüksəlmiş bir şüurun yaradıcılığının nəticəsi ümumbəşəri olub zaman-məkan çərçivəsinin fövqünə qalxmaqla yanaşı, həm də təbii quruluşun tərkibinə qatıla bilir. Bunun nəticəsində isə hətta zamanın axarına da təsir edə, düşüncələrin gedişini də dəyişə bilir. Beləliklə, noemanın tanınması şüurun obyektlə, təbii quruluşla bilavasitə təmasıdır. Bu, həmin noemanın həqiqətinin xüsusi olmasına dəlalət edir. Onun gələcəkdə ümumiləşməsi bəşəriyyətin düşüncə üfüqünün genişlənməsi deməkdir.

Yaradıcılıq şüurun ehtiva etdiyi noemaların təzahürüdür. Bu, təbii quruluşun tərkibindəki noemalar da ola bilər, insanın özünün yaratdığı da. Bununla yanaşı, bir əhəmiyyətli məqama da diqqət çəkək. Bir tərəfdən, insan yeni eydos yarada bilməsə də, yeni noema yarada bilir. Eyni zamanda, obyektiv gerçəklikdən də məhz öz ideyasına uyğun noemaları idrak xəttinin çərçivəsinə ala bilir. Digər tərəfdən, insan yalnız maddi dünya çərçivəsində – səs, söz, rəqəm vasitəsilə yarada bilir. Belə olan halda, yaradıcılığın fərqli bir sxemi çıxır qarşımıza. Biz təsadüfən tez-tez vurğulamırıq ki, hər bilik mütləq rasionallaşmalı, ümumiləşməlidir, yoxsa o, istifadəsiz qalacaq. İnsanın yaratdığı noemalar yalnız maddi

dünya çərçivəsində ola bilir, mahiyyəti nə qədər mücərrəd olsa da, özü konkret qalır. Əgər koordinat oxunu xatırlasaq, belə qənaətə gəlmək olur ki, şaquli istiqamətdə yalnız şüur yüksələ bilir, yaradıcılıq prosesinin özü isə maddi çərçivə daxilində qalır. Məsələn, qravitasiya qanunu yalnız Yerdə qüvvədədir, heç Yerə ən yaxın olan Ayda da yoxdur. Yaxud Mikelancelonun "Pyeta"sının təbii quruluşu yenə mərmərdir, Bethovenin əsərləri mövcud səslərin düzülüşüdür və s. Yeri gəlmişkən, onu da qeyd edək ki, bəzən yaradıcı şəxslərə məxsus şəxsiyyət ikiliyinin səbəbi də bu olur: mücərrəd aləmə yüksəlmiş şüur maddi dünyanın çərçivəsinə yerləşə bilmir. Lakin nə qədər paradoksal olsa da, bu bir həqiqətdir ki, şüur nə qədər çox üst noemaya yüksələ bilirsə, Loqosa çatırsa, bir o qədər yaratdığı maddi şeylərin mahiyyəti də yüksək olur. Noema zatən şüur hadisəsidir. Bəli, təbii quruluşa insan yaradıcılığının nəticəsi yalnız ideya, noema olaraq daxil ola bilir, maddi olaraq deyil.

### *§ 113. Noematik məqam (noes)*

Husserl fenomenologiyasını müəyyən mənada şüurun təcrübəsi də adlandırmaq olar, sufizm isə ruhun təcrübəsidir. Sufi fenomenologiyanın mərkəzində noematik nüvə – könül durur: şüur və ruhun vəhdəti. Özünüreduksiya həmin nüvənin yaranması və inkişafı prosesidir. Onun hər mərhələsi bir noemanın tanınmasıdır və nəticədə şüur qazandığı biliyi öz sisteminə əlavə edir, daxili intensiyasını gücləndirir. Yalnız bu halda hər yeni mərhələ yeni qüvvə və enerji ilə başlaya bilir. İdrak düzxətli proses deyil və uzun məsafələri görə bilmir. Bu səbəbdən davamlı şəkildə irəliləməsi mümkün olmur. Şüur məhdud olduğuna görə, intensiyası bir dəfəyə yalnız ayrı-ayrı məqamları, fraqmentar şəkildə işıqlandırmağa gücü çatır. Biz də burada Husserlin "noematik məqam", yaxud "*noes*" ifadəsindən istifadə edəcəyik. Yeri gəlmişkən, qeyd edək ki, filosofun özünün də etiraf etdiyinə görə, o, mümkün ekvivokasiyalardan (fikir haçalanmasından) qurtulmaq üçün bu ifadələri işlədir. Bundan sonra idrak trayektoriyası geri dönməyə məcbur olur. Noematik məqamlar özlərində həm noemanın müəyyən zaman və məkan üçün xarakterik

olan hissəsini, xüsusiyyətini ehtiva edir, həm də həmin an üçün şüurun öz səviyyəsini. Yəni işıqlanan ayrı-ayrı fraqmentlər şüurun qarşısına boşluq kimi çıxmır, əksinə, öz mənası, hətta missiyası ilə. Əhəmiyyətli olan budur ki, həmin fraqmentlərin işıqlanması ardıcıl olmaya da bilir. Buna gözəl nümunə kimi fil və fil haqqında təsəvvürü olmayan korları göstərmək olar: filin böyük və nazik qulaqları, kiçik quyruğu, böyük sütunları xatırladan ayaqları arasında ilk baxışda əlaqə yaratmaq çətindir. Bununla belə, hər birinin öz mənası var. Ardıcıllıq şüurun özündə olur. Şüur ilk ideyanın xətti, əvvəldən qazanılmış biliklər, yaddaş həmin fraqmentlər arasında daxili əlaqə yaradır. Husserl deyir: "Məhz noeslər sözün geniş mənasında nusun spesifikasını təşkil edirlər – nus bizi bütün aktual həyati formaları ilə bir yerdə *cogitation*-a və daha sonra ümumiyyətlə intensional yaşantılara qaytarır və bununla da hər şeyi ehtiva edir və bu, normanın ideyası üçün eydedik zəmin olaraq çıxış edir".[1] Noematik məqam – noes müəyyən noemalar sistemidir və ayrı-ayrı eydoslardan, noemalardan daha böyük həqiqət ehtiva edir. İntensiya noemalardan keçəndən sonra onlar arasında əlaqə yaradıb noesləri formalaşdırır. Noes məhz şüurun müvəqqəti olaraq yaratdığı formalaşdığı, əlaqələndirdiyi məqamdır. Sonra həmin məqama başqaları da əlavə edilir, son böyük noema tamamlanana qədər.

Qüdsi hədisdə deyildiyinə görə, Xaliq bütün yaradılmışları Özünü tanımaq, Özünə kənardan baxmaq üçün yaradıb. Hələ ilk insanı yaradanda mələklərin etirazına "Sizə demədimmi ki, Mən göylərin və yerin qeybini, eləcə də sizin gizlətdiklərinizi və aşkar etdiklərinizi bilirəm?!" (Quran 2/33) – cavabından belə məlum olur ki, Yaradan bildikləri üzərindən hərəkət edir və yeni, qeyri-adi bir şey gözlənilməməlidir. Bununla belə, iki fakt daha vardır: a) insan iradə sahibidir və b) o, var olanlar üzərində təkrar yaratmaq qabiliyyətinə malikdir. Deməli, Yaradan üçün insanın nəyə qadir olması maraqlıdır. O, insana bütün bilik imkanlarını açır, lazımi qabiliyyət və istedad verir. Əhəmiyyətli məqam ondadır ki, insan doğulanda sıfır mövqeyində olur və onun 1-ə doğru irəliləməyi

---

[1] Гуссерль. Идеи...I, s. 270-271.

onun öz bilik və bacarığından asılı olur. Yaradanın verdiklərini fərqli formalarda sistemləşdirmək, başqa istiqamətdə inkişaf etdirmək yaradılmışlar arasında yalnız insana məxsusdur. Bir daha diqqət çəkək: verdiklərini fərqli formalarda sistemləşdirmək, var olana öz düşüncəsi vasitəsilə müdaxilə edib onu dəyişdirmək, yenisini yaratmaq. Buraya həm təbii quruluşu öz düşüncəsinin verdiyi imkanlar daxilində hissə-hissə təqdim etmək, həm də olanları dəyişdirmək bacarığı daxildir. Bütün bunları isə ona görə bacarır ki, yaradılışın eydedik qatına nüfuz edə bilir. Məsələn, toxucu adlı quşların qurduqları yuva qeyri-adiliyi ilə hər kəsi heyrətə gətirir. Uzunluğu 3 metr, genişliyi 4.5 metrlik çox bölümlü yuvalarda təqribən 200 cütlük qala bilir. Kiçik bir quşun otlardan yuva hörməsi bir möcüzədir əlbəttə, ancaq o quş yalnız o cür yuva qurur, yaxud tısbağa yalnız qumu qazıb yumurta qoya bilir. Olan şeydən yeni bir variant təqdim edə bilmir, çünki beyin, hətta daha doğru desək, instinkt buna proqramlaşıb. İnsan isə bir tək kartofdan 5 cür yemək hazırlaya, bir parçadan 10 cür paltar tikə bilir. Yəni şüur eyni şeyə fərqli rakurslardan baxmağı, sistemləşdirməyi, istənilən bir məqamda istiqaməti dəyişdirməyi və bir nəticə almağı bacarır. Məhz şüur əlində olan bilikləri həm ayrı-ayrılıqda, həm də sistemli şəkildə dəyərləndirə bilir və dəyərləndirməlidir. Əks halda, toxucu quş kimi, nə qədər bacarıqla öz işini görsə də, yalnız eyni çevrə boyunca hərlənib qalacaq. Burada əhəmiyyətli bir məqam var. Leibnizin Klarka dördüncü məktubunda yazdığına görə, "Bir var möcüzələr aşağı səviyyəli olur, onları mələklər yerinə yetirə bilir; o, məsələn, elə edə bilər ki, insan batmadan suyun üzəri ilə yeriyə bilər. Başqa möcüzələr isə Allaha aiddir və bütün təbii qüvvələrin fövqündədir, buna isə yaradılış və məhv etmək aiddir".[1] Diqqət yetirək: insanların diqqətini daha çox çəkən şeylər – qeyri-adi hallar məhz aşağı səviyyəli möcüzəyə aiddir. Bunlar bir dəfə və müəyyən bir effekt yaratmaq üçün adi haldan kənara çıxmaqdır: böyük bir hadisənin kiçik epizodlarıdır. Bu rakursdan baxanda, belə nəticə çıxartmaq olar ki, alimlərin kəşfləri və ümumiyyətlə Loqosdan alınan istənilən bilik möcüzədir. Daha böyük

---

[1] Лейбниц. Переписка с Кларком... s. 455.

və yüksək səviyyəli möcüzələri gündəlik həyatımızda yaşayır və artıq xüsusi diqqət yetirmirik: yaradılış və məhv olma. Bunlar yalnız Yaradana aid edilsə də, insan ən azından onların varlığından xəbərdardır və nə qədər qəribə də səslənsə, onu kiçik miqyasda təkrarlamağa qadirdir. Məhz xəbərdardır deyə onu təkrarlamağa, daha dərindən öyrənməyə, sirrini açmağa çalışır. Buna nümunə kimi Nəsirəddin Tusinin Hulaku xanı rəsədxana tikməyə razı salmaq üçün atdığı addımı göstərmək olar: bilmədiyimiz şeyləri möcüzə hesab edir və ondan qorxuruq. Onu da vurğulayaq ki, insan bu möcüzələri öyrənməyə, eyni zamanda, özü də həmin möcüzənin bir iştirakçısı olmağa fitrətən meyllidir. Sadəcə, nəzərə almaq lazımdır ki, Yaradandan fərqli olaraq, insan şüuru məhduddur və olanları olduğu həcmdə və mahiyyətdə qavramaq qüdrətində deyil, ona görə də onu mərhələ-mərhələ, noema və noeslər vasitəsilə öyrənə bilir. Böyük miqyasda baxanda kiçik möcüzələrin adi bir hadisə olduğu meydana çıxır.

Noematik məqam ideyanın yaratdığı vəhdətdir və subyektivdir. Onun noematik nüvəsi yoxdur, ayrı-ayrı noemalardan ibarətdir və daha böyük noemanın tərkibinə daxildir. Bəzən noematik məqama hər hansı noema yarımçıq şəkildə də daxil olur. Özünüreduksiyadan asılı olaraq belə məqamlar sonuncu noema təsdiqlənənə qədər böyüyə də bilər, elə həmin fraqmentar səviyyədə qala da. Noematik məqamın formalaşmasının ana xətti noemaları birləşdirən ortaq eydosları tanımaqdır. Müəyyən mənada noematik məqamları noemaların ümumisi də adlandırmaq olar, çünki hər tək noemaya yol ondan keçir.

Dediklərimizdə əhəmiyyətli bir fakta diqqət çəkək. Həm noemalar, həm də onları əlaqələndirən eydoslar sonsuz saydadır. Bu sonsuzluq arasında bir xətti seçən şüurdur və onun məqsədidir. Şüurların inkişafını, gəldikləri nəticələri fərqləndirən onların seçdikləri "birləşmə" variantları – noematik məqamlardır. Xüsusilə vurğulayaq ki, noemaların dağılması, yaxud yenisinin yaranması da noeslərdən gələn tələbdən asılıdır. Eydoslar kiçik olsa da, özündə ehtiva elədiyi həqiqət həm əlaqələndiricidir, həm də başlanğıc. Onun yanlış və ya doğru seçilməsi qar-

topu effekti yaradır. Məsələ burasındadır ki, məhz yalnız əlaqələndirici sayəsində noematik duman yaranır, yaxud şüur ümumiyyətlə düyünə düşə bilir. Və bəzən buraxılan həmin səhvi düzəltmək əlaqələndirici eydosa qədər geri qayıtmağı tələb edir. Burada təkrar diqqət özünüreduksiyaya yönəlir, çünki həmin əlaqələndirici eydosun seçilməsi bu prosesdən asılı olur.

İdrak prosesinin hərəkətverici qüvvəsi intensionallıqdır – şüurun daxili potensialını düzgün dəyərləndirən və düzgün istiqamətə fokuslayan daxili işıq. Aristotel deyir ki, "hərəkətə gətirən cəhd və ağıldır, bir də təxəyyül, əgər onu da düşüncə kimi qəbul etsək".[1] Əslində, düzgün nəticədir, lakin ağıl və cəhdin özünün də kökünə getsək və xatırlasaq ki, eydosun özündə hərəkət yoxdur, o zaman hərəkətverici qüvvənin daxili enerji olduğunu təsdiq edərik. Lakin burada daha bir fakt da unudulmamalıdır. Enerjinin hərəkəti güclüdən zəifədir və prosesi şüurun iradəsi, seçimi idarə etməsə hər hansı nəticəyə gətirməz. Həmin idarəni təmin edən özünüreduksiyadır.

Özünüreduksiya sadəcə özünütəhlil deyil, həm də noematik məqamların yaranma prosesidir. Hər idrak xəttində şüurun noemaları fərqli şəkildə strukturlaşır və həmin xətt ona müvafiq irəliləyir. Bu asılıdır insanın bilik səviyyəsindən, ilk ideyanın mahiyyətindən və təbii ki, özünüreduksiyanın miqyasından. Miqyas böyüdükcə, noemanın həcmi də böyüyür. Noematik məqamların yaranması insanın şüurunda başlayır. Məsələn, bu əsərin ideya kimi yaranmasından kitab halına düşməsinə qədər fərqli kiçik noemalar qavranıb: həm öz şüurumuzda, həm də obyektiv aləmdə. Daha sonra təhlillər nəticəsində ayrı-ayrı araşdırmalar arasında əlaqələr tapılıb və vahid xətt formalaşdırılıb. Təhlil zamanı qavranılan heç bir noema kənarda qalmır və hər biri öz müvafiq yerinə oturdulur: noezis fərqli istiqamətlərdə irəliləyir, bir tərəfdən ayrı-ayrı noemalar tamamlanır, mahiyyəti qavranılır, digər tərəfdən, onların arasında əlaqələr yaradılır. Noeslər həmin təhlil məqamlarıdır.

Noematik məqamlar həm də şüurun ilk ideyasının modelləri, sxe-

---

[1] Аристотель. О душе, 3 433a 10

mi rolunu oynayır. Qeyd etdiyimiz kimi, yanlış əlaqələndirici eydos düyünə, yaxud noematik dumana da səbəb ola bilir. Onlardan fərqli olaraq, noematik məqamın çıxışları, əlaqələndiriciləri olur. Nə qədər qəribə də səslənsə, ancaq həm noematik duman, həm də düyün sanki bitkin, konkret bir fenomendir. Noes isə əksinə yarımçıqdır, əlavə olunmağı, tamamlanmağı gözləyir. Bəzən bu, yarımçıq noemanın, bəzən də ilk ideyanın tamamlanması olur. Burada əhəmiyyətli faktlardan biri də budur ki, noematik məqamın varlığı şüurun aktivliyinin göstəricisidir. Xatırladaq ki, şüur obyektin eydedik quruluşu ilə doğmalaşmayana qədər, onun nüvəsini, bütöv sisteminin mahiyyətini dərk edə bilməz, yəni o, qavradığı noemanın sisteminə daxil olmalıdır. Məsələn, empatiya belə bir "doğmalaşmanın" nəticəsidir – insan həmsöhbətinin vəziyyətinə tam daxil olaraq onun hisslərini yaşayır. Onu da vurğulamaq lazımdır ki, bəzən obyektin işığı daha güclü olanda şüuru zəbt edir. Belə hallarda insan yad təsirin altında öz məqsədini, hətta öz kimliyini unudur və başqa bir noemanın "xüsusiyyətinə" çevrilir. Noematik məqamlar subyektivdir və noezisin üzərində yaranması zəruridir. Başqa bir şüurun təsirində olan və ideyaları hazır, işlənmiş şəkildə alan insana isə xas deyil. Hər ideyanın öz irəliləmə sxemi var və noematik məqamlar həmin ideyanın sahibinə aid olur.

Nəhayət, onu da qeyd edək ki, noematik məqamların hansı həcmdə, prosesin hansı mərhələsində olmasından asılı olmadan, İlkmənbə ilə əlaqə heç vaxt itmir. Noema, o cümlədən, noeza intensiyanın cızdığı sxemdir və İlkmənbə ilə əlaqənin kəsilməsi şüurun tədricən ya qaranlığa düşməsi, ya da başqa bir şüurun enerjisi tərəfindən zəbt olunması ilə nəticələnir. Düyün, yaxud noematik dumandan fərqli olaraq, burada proses şüurun daxili işığının gücü ilə idarə olunur və mövcud durum – noes onun sayəsində formallaşır. İşıq zəiflədikcə noesin də konturları zəifləyir və itir.

### *§ 114. İlahi iradə və insan iradəsi işığında noema*

§10-da iradə haqqında ilk tanışlıq zamanı şüurun başlanğıc təkanı üçün müəyyən şərhlər verilmişdi. Qazanılan hər yeni bilik şüura təkrar

qayıtmağı zəruri etdiyinə görə, biz də noemalar haqqında təhlildən sonra iradə fenomeninə qayıtmalı oluruq.

Şüurun intensiyasının bir xətt və niyyət üzrə hərəkət etməsi iradə sayəsində mümkün olur. Eyni zamanda, iradə eydosları bəlli bir strukturun tərkibində, vahid bir ideyanın daşıyıcısı olaraq birləşdirən qüvvədir. Başqa sözlə desək, iradə ayrı-ayrı eydosları eklektik şəkildə, təsadüfən deyil, məhz bir mahiyyət üzrə sistemləşdirir. Noema yalnız iradə sayəsində formalaşa bilir. Strukturun möhkəmliyi onu mahiyyətindən və eydosların bir-birini tamamlaya bilməsindən asılıdır. İradə sayəsində hansı eydosun nüvə, hansının xüsusiyyət, mümkün olacağı təyin edilir. Yəni noema və noezis həm də onu yaradanın iradəsinin təzahürüdür. Burada söhbət həm noemanın sabitliyindən, həm də ehtiva etdiyi mahiyyətdən gedir. Onu da əlavə edək ki, iradə ilk ideyanı gerçəkləşdirən bir qüvvədir. Bununla belə, ilk ideyanın güclü və aydın olması, başqa ideyalara qarışmamasının özü də məhz iradənin sayəsində mümkündür. Bu, ilahi yaradılışda da belədir, bəşəri yaradılışda da.

Xatırladaq ki, yaranışına görə, noema iki cürdür: ilahi iradənin və bəşəri iradının yaratdığı. Birinci halda söhbət ilahi yaranışdan, şeylərin təbii quruluşundan, ikinci halda isə insanın idrak prosesindən və yaradıcılığından gedir. Birində noemalar ilkmənbədən – enerji selindən götürülmüş eydoslardan, ikincidə isə hazır eydoslar və noemalardan təkrar strukturlaşma nəticəsində yaranır. Əlbəttə, ilahi və bəşəri yaradıcılıq haqqında bütün mülahizələr bura da aiddir. Bununla yanaşı, bəzi spesifik məsələlərə ayrıca da toxunaq.

İlahi iradə eydoslar arasından birinə "ol" deməklə onu artıq müəyyən bir noemanın nüvəsi kimi "təsdiq edir". Həmin nüvədə onun gələcək strukturu da, mahiyyəti də ehtiva olunur. Yaradılışın növbəti mərhələlərində həmin nüvəyə və məlum struktura uyğun mümkün eydoslar – xüsusiyyətlər əlavə edilir və noema formalaşır. Xüsusilə vurğulayaq ki, noemanın strukturu və mahiyyəti bir-birinə uyğun olur. Təsadüfi deyil ki, ilahi yaranışda hər şey öz ideyasını tam ehtiva edir, ən kiçik xüsusiyyət belə mahiyyətlə əlaqəli olub, müəyyən bir funksiyanın daşıyıcısı

olur. İlahi iradə mütləqdir və insan dərkinin fövqündədir. Maddi dünya çərçivəsində insan öz idrakı sayəsində yaradılış prosesini qavramaq qabiliyyətinə malikdir. İdrak prosesi zamanı yaradılış prosesi əks istiqamətdə öyrənilsə də, əsas prinsip qorunur – şeylər noema şəklində qavranır. Başqa sözlə desək, obyektiv noemalar subyektiv düşüncənin imkanları və çərçivəsi daxilində qavranılır, yenidən strukturlaşır.

Obyektiv noemaların öyrənilәsi, qavranılması onların strukturuna müdaxilədir və bu, mütləq öz təsirini göstərir. Burada əhəmiyyətli bir məqamı vurğulayaq: insan eydoslara təsir edə, onlara fərqli mahiyyət verə bilmir, o, yalnız noemalar səviyyəsində eydosların yerini dəyişdirmək, yaxud onu tamamilə dağıtmaq qüdrətinə malikdir. Təkrar edək, bu zaman eydosların mahiyyəti, ilkin ideyası dəyişmir. Bununla yanaşı, insan ilahi yaradılış prosesinin özünə də noema səviyyəsində müdaxilə edə bilir və bunu yalnız maddi dünya çərçivəsində – insan iradəsinin qüvvədə olduğu yerdə bacarır. Və əgər insan müdaxiləsi zamanı noemanın nüvəsi saxlanırsa, özü qismən dəyişikliyə uğrayırsa, o zaman strukturun da mahiyyətini dəyişmədən qalır. Məsələn, ana stress keçirirsə və bundan doğulacaq körpənin orqanizmində, hətta zahiri görkəmində ciddi fəsad yaranırsa, o, insan olmaqdan çıxmır. Bir daha təkrar edək ki, istər nüvə, istərsə də, xüsusiyyətlər – eydosdur və ilahi iradədən aldığı ideyanın daşıyıcısıdır, dəyişə bilməz. Dəyişən strukturdur, çünki eydoslar arasındakı əlaqə daxili qanunauyğunluğa tabedir və yerlərini dəyişməklə missiyalarını itirirlər. Məsələn, yanmış ağac sağlam ağacın funksiyasını yerinə yetirə bilməz, bəlkə kömürdür, bəlkə də küldür, ancaq artıq ağac deyil. Bununla belə, onun dərki, tanınması prosesində mütləq ilkin ideyasına müraciət olunur.

İnsan yalnız hakim olduğu məkanda və şüurunun çərçivəsində noema yarada bilir və yaratdıqlarında əvvəlki noemalar bu və ya digər dərəcədə ya struktur olaraq, ya da eydedik səviyyədə öz mahiyyətini saxlayır, hətta bəzən güclü olanda üzə çıxır. Heizenberq yazır: "Canlı orqanizmdə müşahidə etdiyimiz stabillik öz təbiətinə görə atomun və ya kristalın stabilliyindən fərqlidir. Biologiyada söhbət daha çox prosesin

və ya funksiyanın stabilliyindən gedir, nəinki formanın stabilliyindən. Şübhəsiz ki, kvant mexanikası qanunları bioloji proseslərdən çox əhəmiyyətli rol oynayır".[1] Strukturun funksiyasını dağıtmaqla onun strukturunu dəyişdirmiş oluruq. Bu, insanın təcrübə, yaradıcılıq meydanıdır. Maraqlıdır ki, Nils Bor bu məkanı daha da daraldır və iddia edir ki, biologiyada biz yalnız təbiətin özümüz aid olduğumuz hissəsində imkanlarımızı gerçəkləşdirə bilərik.[2] Deməli, insan dəyişdiyi, yaxud öyrəndiyi noema yalnız təmasda olduğudur, daha geniş miqyasda isə yenə də ilahi yaradılış qorunub saxlanır. İnsanın yaratdığı sabit təməl üzərində olmur, ona görə də tamamilə dağıla və ideyasına qədər məhv ola bilir. Deyilənlər bir daha təsdiq edir ki, insan obyektiv noemalardan yalnız öz idrak xəttinin çərçivəsində nə isə öyrənə və yarada bilər, ondan kənarda isə yenə də obyektiv qanunlar öz qüvvəsini qoruyub saxlayır.

İlahi iradə şeyin varlıq qazanması üçün bir dəfə "ol" deyir və bununla həm onun son nəticəsi nəzərdə tutulur, həm də onun var olması üçün şərtlər təmin, səbəblər təmin edilir. İnsan da ideyaları arasından birinə "ol" deyir və onun reallaşması üçün fəaliyyət göstərməyə başlayır. Lakin burada bir sıra vacib məqamlar var. Əvvəla, insanların maraqları, iradələri toqquşur və nəticədə həmin ideya yarımçıq qalar, ümumiyyətlə reallaşmağa imkan tapmaz. İkincisi, proses boyu həmin qərar dəyişə bilər. Noema özünüreduksiya nəticəsində, yəni insanın özünü təhlili, bilik və imkanlarına əsaslanır. Söhbət sadəcə iradənin möhkəmliyindən deyil, həm də həmin ideyanın özünün nə dərəcədə kamil olmasından gedir. Üstəlik, nəzərə almaq lazımdır ki, özünüreduksiya daim yenilənən bir prosesdir, deməli orada yaranan noema daim dəyişə bilər, hətta dəyişməlidir, çünki şüur daim yenilənir, böyüyür, yeni baxış bucaqları, yeni biliklər qazanır və bütün bunlar həm iradənin özünün formalaşmasında, həm də onun yaratdığı noemada öz əksini tapır. Təsadüfi deyil ki, insan şüurunun fərqli səviyyələrində eyni ideya, onun üzərində qurulacaq noema haqqında fərqli düşünür.

---

[1] Гейзенберг. Физика и философия, с. 94.
[2] Yenə orada.

İlahi iradə həm ilahi aləmi, həm də maddi dünyanı ehtiva edir. Zatən müqəddəs mətnlər də məhz bu iradənin mütləqliyini vurğulayır. Məsələn, Qurani-Kərimdə deyildiyinə görə, "göydə də, yerdə də ilah Odur. O, hikmət sahibidir, hər şeyi biləndir" (Quran 43/84). Yaradılmış hər şey Onun iradəsinin nəticəsidirsə, deməli, bu iradə Onun mülkündə hər şeyi əhatə edir. Ondan fərqli olaraq, insanın iradəsi yalnız maddi dünya hüdudlarında müəyyən hökmə sahibdir. Bununla yanaşı, xatırladaq ki, insan Loqosa qədər yüksəlmək qüdrətinə malikdir. Bu səbəbdən insan iradəsini iki növə ayırmaq olar: yalnız maddi dünya çərçivəsində öz hökmünü yeridə bilən və yaradılışın noema qatına keçməklə maddi çərçivənin fövqünə qalxmağı bacaran. Heizenberq yazır: "Biz hələ ki, materiyanın quruluşunun təhlilini bir istiqamətdə – atomdan daha mürəkkəb, atomlardan ibarət strukturlara: atom fizikasından bərk cisimlər fizikasına, kimyaya və nəhayət, biologiyaya. İndi biz əks istiqamətə dönməliyik və atomun zahiri sahələrindən daxili sahələrinə, atomun nüvəsinə, nəhayət elementar hissəciklərə yönələn tədqiqatlar sırasını izləməliyik. Yalnız bu ikinci xətt biz, ola bilsin ki, materiyanın vəhdəti anlayışına gətirsin".[1] Fizikin sözlərini öz düşüncələrimiz kontekstində təhlil etsək, belə məlum olur ki, o da bizim kimi, belə qənaətdədir ki, məhz yaradılış prosesinin əks istiqamətini izləsək və noema qatına nüfuz edə bilsək universal vəhdətə çata bilərik. Bununla yanaşı, həm də belə nəticə çıxartmaq olur ki, noema qatında şeylərin nüvəsi, əsl mahiyyəti konkret maddi varlıqların çərçivəsindən kənardadır, buna görə də bu dar hüdudlarda universal həqiqətlərə çatmaq mümkün deyil. Məsələn, bir hökmdarın iradəsi ilə dövlətin siyasi quruluşu da dəyişər, ideologiya da dəyişər, tiran olub əhalinin yarısını edam etdirə də bilər, ancaq bir filosofun ideyasını dağıda bilməz. Həmin hökmdar heç bir noema qurucusu deyil, yalnız maddi dünyanın müəyyən şərtlərində diktə etmək imkanı qazanıb. Halbuki, heç bir hökm sahibi olmayan filosof, şair noema və onun üzərində bütöv struktur yaratmağa qadirdir. Yeri gəlmişkən, onu da bir daha dəqiqləşdirək ki, noema qatına ümumi biliklərlə, başqa-

[1] Yenə orada, s. 94-95.

sının vasitəsilə keçmək mümkün deyil, yalnız insanın öz iradəsi və şüurun obyektlə vasitəsiz təması nəticəsində keçmək mümkündür. Dediklərimizdə, digər maraqlı bir incəlik də budur ki, şeyləri noema səviyyəsində öyrənmək elə noema yaratmaqdır, çünki insan istənilən obyektiv noemanı yalnız öz şüurunun həcminin imkanları qədər qavrayır və qavradığını struktur olaraq formalaşdırır.

İlahi iradə noemaları bildiyi ideya əsasında yaradır və yaratdığını təkrar öyrənməyə ehtiyac hiss etmir. İnsan yalnız ilk ideyasını bilir, lakin yaradıcılıq boyu o da dəyişə bilir. İnsan iradəsi mütləq deyil və eydosların, noemaların mahiyyətindən xəbərsizdir. Buna görə də, ilahi iradədən fərqli olaraq bəşəri iradə idrak prosesi ilə paralel gedir, daim onunla tamamlanır, istiqamətlənir, sabitləşir. Çünki qarşılaşdığı noemalar haqqında idrak olmadan verdiyi qərarlar yanlış, hətta təhlükəli ola bilər. İnsan iradəsinin müəyyən mərtəbəyə çatması, noema yaratmaq qüdrətini dərk etməsi üçün mütləq öyrənməli, şüurunu kamilləşdirməlidir.

Noema mürəkkəbdir və fərqli eydoslardan ibarətdir. Bu həm də o deməkdir ki, onda bir neçə keyfiyyət ehtiva olunur. Əlbəttə, o, tək mahiyyətə sahibdir. Bununla belə, şəraitdən, idrak xəttinə daxil edilən eydosdan asılı olaraq, həmin mahiyyətin fərqi tərəfləri özünü büruzə verir. Buna görə də, eyni fakta müraciət edən ayrı-ayrı alimlər onun fərqli tərəflərini, xüsusiyyətlərini kəşf edir, yaxud fərqli istiqamətdə irəliləyib yeni bir həqiqət işıqlandırır. Ruhani təcrübə zamanı isə mütəfəkkirlər tamamilə başqa xüsusiyyətləri qavrayırlar. Başqa sözlə desək, bir noema ona yönələn idrak trayektoriyalarından asılı olaraq, fərqli həqiqətlərlə tanına bilir.

Ondan fərqli olaraq, insanın yaratdığı noemaların nüvəsi daha sadə olur. İnsanın məhdud iradəsi daha çox eydosu ehtiva etmək qüdrətində deyil və bu, onun yaratdığında öz əksini tapır. Bu səbəbdən ona yönələn idrak prosesləri 1-2 həqiqət qavraya bilir. Ancaq bu da danılmaz həqiqətdir ki, əvvəla, şüurun həcmi nə qədər böyük olursa, onun yaratdığı da bir o qədər mürəkkəb olur. İkincisi isə, unutmaq olmaz ki, insan iradəsinin yaratdığı noema daha üst sistemə üçün keçid rolunu oynayır. Məsələn, əsrlər keçməsinə baxmayaraq, Leonardo da Vinçinin

əsərlərində hələ də yeni sirlər, dini, hətta elmi kəşflər də tapırlar.

### *§ 115. Vəhdət əl-vücud və noema*

Noemada eydoslar arasında əlaqə noezisdır. Buna görə də, o, sistemli struktur olmaqla yanaşı, eyni zamanda, idrak üçün açıqdır. Noema vahid struktur olsa da, eydoslar kimi, noezalar da çoxdur və hər birindən kənara çıxış var. Bu, istənilən tərəfdən – hər hansı bir xüsusiyyətdən həmin noemaya nüfuz etmək, onu qavramaq imkanı verir. Hər eydos noemada əhəmiyyətlidir və nüvə ilə əlaqəlidir. Bu, həm həmin eydosun mənbədən qidalanmasını, həm də özünün nüvəyə aparan bir vasitə olmasını təmin edir. Əvvəlki təhlillərimizdən də məlum olduğu kimi, noematik nüvəyə yol mərhələlidir və şüur hər hansı xüsusiyyətdə, noematik dumanda, yaxud noesdə dayana bilər. Lakin bütün bunlarda vacib olan daxili əlaqənin – noezislərin itməməsidir. Nəzərə alsaq ki, bütün kainat böyük bir noemadır, o zaman onun daxilində noezisin mövcudluğu məntiqli görünər. Bu isə üstşüura məxsus bir idrak yoludur.

Bütün varlıqların vəhdətini axtarmaq yeni bir meyl deyil, insan hər zaman buna meyl edib və qənaətlərini əsaslandırıb. Sufizmdə bu, vəhdət əl-vücuddur. Hələ ilk sufi mütəfəkkirlərin (Mənsur Həllacın, Əbu Yəzid Bistaminin) görüşlərində əks olunan, 12-ci əsrdə Eyn əl-Qüzat Miyanəcinin, sonralar isə Mühyiddin İbn Ərəbinin əsərlərində geniş və sistemli şəkildə şərh edilən bu prinsip ilk inkişaf dövrlərində ayn əl-cəm, yaxud cəmlər cəmi kimi məlum olmuş və bir termin kimi elmi ədəbiyyata sonralar İbn Ərəbinin tələbələri tərəfindən daxil edilmişdir. Sərrac Tusi yazır:[1] "Cəm xəlq və kainat olmadan Haqqa işarə edən kəlmədir. Kainat və xəlq iki öz-özlərinə var ola bilməyən varlıqdır, çünki, onlar yoxluğun iki tərəfidir (onların yoxdan yaranmalarına işarə edilir). Ayrıca da xəlq və kainata işarə edən kəlmədir. Bunlar (cəm və ayrı) biri o biri üçün zəruridir. Cəmə ayrıcasız işarə edən Qadirin qüdrətini inkar edər, ayrıcaya cəmsiz işarə edən Yaradanı inkar edər. Hər ikisini (həm

[1] Tusi. Lümə, s. 316.

Allahı, həm Onun sifətlərini, iradəsini, qüdrətini və s.) qəbul edən tövhiddə olar". Cəmin daxili əlaqəsi mütləqdir, əks halda vəhdət olmaz, eyni zamanda, ayrıcalar müstəqildir, yoxsa inkişaf və rəngarənglik olmaz. Ən vacibi isə, istər cəm bütövlükdə, istərsə də ayrıcalar Yaradanla əlaqəlidir, bu isə bir tərəfdən, hər şüur səviyyəsinin öz inkişaf yolunu tutub ali məqama qədər yüksəlmək imkanı verir, digər tərəfdən, xaosun qarşısını alıb, yolların vahid nöqtəyə getməsini şərtləndirir. İbn Ərəbi deyir:

*"Sən O deyilsən, amma sən Osan.*
*Onu əmrlərin mənbəyində mütləq*
*və hər şeydən uzaq görərsən".*[1]

Cəm noemadır – maddi yaradılmışların fövqündədir. O, özündə bir neçə obyekti cəm etməklə yanaşı, onun Yaradanı haqqında işarəni, məlumatı da ehtiva edir. Həmin obyektlər bir noemanın xüsusiyyəti hesab edilir. Hər noema kiçik cəmdir və iyerarxik şəkildə yüksələrək idrak prosesinin ən böyük noemasına – Loqosa qədər gedir. Loqos özü isə cəmlər cəminin bir noeması – xüsusiyyətidir. Vəhdət əl-vücud bu məqamın ifadəsidir.

Həqiqətin tanınıb, görülüb və dərk edilməsi prosesi noezisdir. O, şüurun səviyyəsinə uyğun seçilir. Noema kimi, noezislər də obyektivdir. Bununla belə, xatırladaq ki, keçilən yol subyektiv olur və özünüreduksiyasının səviyyəsindən asılıdır. Noezisin başlanğıcı da şüurdur, onun istiqamətini seçən də. Plotin yazırdı ki, "İlkvəhdəti görmək üçün öz ruhunun ən dərinliyinə baş vurmaq lazımdır, məbədin daxili müqəddəs yeri kimi. Tam bir sakitlik içində hər şeydən ayrılmaqla, hər şeyin fövqünə qalxmaqla əvvəlcə sanki zahiri və əks olunmuş obrazların sezgisi, yəni Can (ruh) və Ağıl (nous), onların ardınca isə daxili, əzəli, ilk müqəddəs – İlkvəhdətin obrazının yaranmağını sakitcə gözləyirsən".[2] Belə məlum olur ki, noezis insanın daxili potensialının və intensionallığının təftişinin xarici reduksiyada məntiqli davamıdır. Noema tam tanınana və ehtiva olunana qədər idrakın daxili və xarici radiuslar boyu hərəkətləri

[1] İbn Ərəbi. Fusus əl-hikəm, s. 70
[2] Плотин. Эннеады, V.1.6.

bir-birini tamamlayır və tənzimləyir. Noemanı qavramaq obyektiv strukturun içinə nüfuz etmək və onunla bütövləşmək, eyniləşməkdir. Bu proses noematik nüvəyə çatanda tamamlanır. Başqa sözlə desək, noematik nüvənin qavranılması idrak prosesinin sonuncu – həqiqətin haqqı mərhələsidir.

Həqiqətin bilinməsi və görülməsi noemanın xüsusiyyətlərinin tanınması və qavranılmasıdır. Burada iki əhəmiyyətli məqamı vurğulayaq. Birincisi, şüurdan daxili təkan daim olmalıdır, əks halda, proses yarıda dayanar və hansı isə xüsusiyyətlə kifayətlənməli olar. Özünüreduksiya yalnız irəliləmək üçün daxili təkan deyil, həm də qazanılan hər yeni biliyin sistemləşdirilməsidir. Xüsusiyyət və nüvənin fərqləndirilməsi məhz bu zaman mümkün olur. İkincisi, xatırladaq ki, idrak prosesinin hər üç mərhələsi əlaqəlidir və hər ideyanın öz mərhələləri olmalıdır. Bu o deməkdir ki, hər şəxsin öz idrak yolu olduğu kimi, hər ideyanın da öz tanınma metodu var. Sonda qavranılan noematik nüvə eyni olsa da, onu fərqləndirən məhz yolun, metodun və intensionallığın subyektivliyi olur. Onu da əlavə edək ki, proses boyu ilahi iradənin müdaxiləsi obyektdə deyil, şüurda özünü göstərir. Təbii quruluş ilkin bir mahiyyətlə yaranır və onda olan hər dəyişiklik həmin mahiyyət çərçivəsindədir. İnsan isə həm öz mahiyyətində kəşf etdiyi yeni xüsusiyyətlər, həm də dəyərləndirə bildiyi ilahi iradə vasitəsilə dəyişməyə, böyüməyə, dərk etməyə, olduğu çərçivənin fövqünə qalxmağa qadirdir. Əlbəttə, deyilə bilər ki, bunlar da insanın mahiyyətində var, deməli, o da onun əsasında hərəkət edir. Düzdür. Sadəcə, nəzərə almaq lazımdır ki, inkişaf, yaxud hər hansı həqiqətin dərki dediyimiz mahiyyətin dəyişməyi deyil, onun gerçəkləşməsi üçün üfüqlərinin genişlənməsidir.

İdrak prosesi şüurun öz ideyasının noemasının qurulmasıdır. Ən son mərhələ – həqiqətin haqqı həmin noemanın təsdiqi və tamamlanmasıdır. Bəli, idrak boyu şüur bütün digər informasiyalardan, hisslərdən arınmaqla öz noeması üçün “tikinti materialı” toplayır. Düzgün gedən prosesdə şüur hər dəfə daha üst məqama aid biliklər qazanır və bununla öz noemasının həcmini böyüdür, daha geniş radiusu ehtiva edir. Miyanəci yazır: “Bil ki, hədlər çoxdur… Haqq üçün vacibdir ki, xəlqdən biri,

hələ bu dünyada ikən öz qəlibinin pərdəsindən ayrılmayan (maddi bədəndə olan – *K.B.)* biri ağlın fövqündəki hədlərə çatsın. Onun çatdığı şey nə bu dünyada, nə axirətdə bir başqasına təsvir edilməz. Bu, haqdır, doğrudur və ariflərin bəziləri ilə müşahidə etdikləridir".[1] Bununla belə, unutmaq olmaz ki, istər təbii qanunauyğunluğun öyrənilməsi olsun, istərsə də, öz ideyasının strukturunun hazırlanması, hər iki halda insanın qurduğu noema subyektivdir və bu, onun həqiqətinin haqqıdır. Hansı həcmdə, hansı radiusda olmağından asılı olmadan idrak çevrəsinin ilk və son nöqtəsi şüur olduğu kimi, onun yaratdığı noemanın nüvəsinə mahiyyət verən də odur. Belə olmasa, əsrlər boyu təbii quruluşlar, qanunauyğunluqlar haqqında fərqli mövqelər formalaşmaz, uzun müzakirələr aparılmazdı. Maraqlıdır ki, burada nümunə kimi, Həllacın "Ənə'l-Həqq" nidasını da gətirə bilərik, yerin quruluşu haqqında alimlər arasındakı fikir ayrılığını da, Nyuton mexanikasının Eynşteynin nisbilik nəzəriyyəsi ilə əvəz edilməsini də. Bu, öz noemasını yaratmış və Loqosda – ən ali məqamda onu təsdiqi eləmiş şüurun qənaətidir, həqiqətinin ifadəsidir. İstənilən noema ali noemanın bir hissəsidir. Loqos həmin vəhdətin yaşanmasıdır. Burada ikinci bir həqiqət, ideya xətti yoxdur. Yəni şüur öz noemasını tamamlamaqla həm də universal vəhdətin şahidi, hətta onun bir hissəsinə çevrilmiş olur. İbn Ərəbi deyir:

*"İkilikdən danışan müşrik olar,*
*Təklikdən danışan muvahhid (tövhid tərəfdarı).*
*İkilikdən danışırsansa təşbihdən uzaq ol.*
*Tövhiddən danışırsansa, tənzihdən* uzaq ol".*[2]

Burada əhəmiyyətli bir məqam var: insan öz yaratdığı noema ilə yeni bir həqiqət dərk edir, öz şüur çərçivəsindən bir addım kənara çıxır, bir anlıq da olsa, sonsuzluğun, eyni zamanda universal vur vəhdətin zərrəsi olduğunu hiss edir. Həllac deyir: "Ey mən olan O və O olan mən, mənim mənliyimlə (ənəniyyə) Sənin mənliyin (huviyyən) arasında fərq

---

[1] Miyanəci, Zubdətu`l-həqaiq, s. 97.
* Tənzih – Allahı varlıqlardan uzaqlaşdırmaq, təcrid etmək.
[2] İbn Ərəbi. Fusus əl-hikəm, s. 70.

ancaq yaradılmışlıq və əzəlilikdədir".[1] Eyni zamanda, noema şüurun həmin məqam üçün bütün potensialını ehtiva edir. Başqa ideyada başqa xüsusiyyətlər üzə çıxacaq, burada isə haqq olan son nöqtə budur. Konəvinin də bildirdiyi kimi, "Haqq zatı, bütün sifətləri, isimləri və ibrətləri ilə… Kamil İnsanda təzahür edir".[2] Başqa sözlə desək, kamil insan noema yaratmaq vəhdətin bir hissəsi olmağı bacaran, şüuru ilə mahiyyətini Loqosa – ali noemaya qədər yüksələ bilən şəxsdir.

Deyilənlərdən belə qənaətə gəlmək olur ki, noema *indi*-dən başlayıb onun radiusun böyüdülməsi, onu zamanın başlanğıcı etməkdir. Yəni hər noemanın öz zaman ölçüsü var. İlahi yaradılışın zamanı insan şüurunun fövqündədir. Qurani-Kərimdə deyildiyinə görə, "Allaha məxsusuq və Ona qayıdacağıq!" (Quran 2/156) İnsanın yaratdığı noema da insandan gəlir və ona qayıdır. İnsan ilahi yaradılışın geri istiqamətdə idrakını gerçəkləşdirən tək varlıqdır. Eyni zamanda, onun da idrak prosesinin geri dönüş məqamı ilahi vəhdət – Loqosdur. Buna görə də deyirik ki, insan yaradan noema *indi*-dən başlayıb sonsuzluqdan bir hissə ehtiva edən subyektiv strukturdur.

Noema *tode ti* də deyil, ondan başlayıb mücərrəd vəhdətə qədər böyüyən fenomendir. Bəli, noema hər hansı *tode ti* üzərində qurulur, lakin nəzərə almaq lazımdır ki, birincisi, o, fenomenoloji reduksiya zamanı mötərizə daxilində qalar və ümumiyyətlə noemanın strukturuna daxil olmaz. İkincisi, o, ilk təəssüratdan sonra idrak prosesi boyu dəyişə, tamamilə fərqli bir məna ilə ortaya çıxa bilər. Son nəticədə noema *tode ti* olaraq təqdim olunur və ümumi biliklər sırasına daxil olur. Bununla belə, xatırladaq ki, insanın yaratdığı struktur ilk ideyasını tam ehtiva etmir. Yəni konkret təzahür nə qədər mükəmməl olsa da, noemanın tam inikası olmur. Buna səbəb isə noemanın sonsuzluğun bir hissəsi, insan bacarıqlarının isə məhdud olmasıdır.

---

[1] Əxbər əl-Həllac, s. 21.

[2] Konevi S. *Vahdet-i Vücud ve esasları. En-Nusus fi tahkiki tavri'l-mahsus*. Terc.: E.Demirli. İstanbul: İz yayıncılıq, 2002,

# IV bölmə. Noematik strukturda işıq

## *§ 116. Noema, noeza və işıq*

İşıq, nurlanma, işıqlanma anlayışının kökləri miflərə, qədim dövrlərə qədər gedir və istər filosoflar, istərsə də teoloqlar tərəfindən fərqli səviyyələrdə və rakurslardan araşdırılıb, mülahizələr irəli sürülüb və XII əsrdə Azərbaycan filosofu Şihabəddin Sührəvərdi tərəfindən sistemli bir fəlsəfə kimi təqdim edilib. Biz də problemin orta əsr Şərq və Qərb filosoflarının görüşləri əsasında müqayisəli təhlilinə və ayrıca Sührəvərdinin İşraq fəlsəfəsinin araşdırılmasına “Şərq və Qərb...” kitabımızda xüsusi bir paraqraf həsr etmişdik. Hazırki tədqiqatımızda da ona geniş yer verilir, istinadlar edilir. Daha dəqiq desək, sufi fenomenologiya işıq fəlsəfəsi deyil, ancaq ana xətti, təməl prinsiplərindən biri nur, işıqdır. İlk yaranışda eydosu əhatə edən ilk qabıq – struktur işıqdır (*sxem 28*). Yəni eydosun özü işıq deyil, sonradan onu alır. Ondan sonra zaman əlavə olunur və obyektin noeması yaranma prosesi başlayır. Noemalar daxilində eydosları vəhdətdə saxlayan onların işığıdır. Nəticədə hər noema daxilində eydosların işıqları özləri də müəyyən bir noema yaratmış olur.




*Sxem 28. Nur və evdos.*

İşıq sadə noemadır, yəni onun strukturuna başqa noemalar daxil olmur və yalnız işıqdan ibarətdir. Burada iki məsələyə diqqət yönəldək. Birincisi, işıq yaradılmışdır, Yaradan deyil. Daha əvvəl də qeyd etdiyimiz kimi, bu məsələdə Sührəvərdinin görüşlərindən fərqlənirik. Nurlar nuru vahid enerji selidir. Oradan götürülmüş eydoslara məna verilməklə onlar fərdiləşir. Yəni əslində bütün eydoslar işıq zərrəsidir, onları fərq-

ləndirən mahiyyətdir. Bizim araşdırma obyektimiz olan işıq isə hər eydosa uyğun noemalaşdırılan strukturdur. İkincisi, o, mürəkkəb struktura malikdir, fiziki göstəriciləri, atomar hissəcikləri olduğu kimi, yəni təbii quruluşla yanaşı, həm də eydedik quruluşa malikdir. Onun zahiri də, eydedik qatı da eyni eydoslardan ibarətdir. Bu baxımdan, nur şüuru şeylərin zahirindən batininə aparan vasitələrdən biri hesab edilir. Əslində, bizim dediyimiz kvant fizikasında təsdiq edilmiş ümumi həqiqətdir: “Beləliklə, işıq ya elektromaqnit dalğalarının yayılması kimi – Maksvelin işlərinin və Hersin təcrübələrinin əsası kimi götürülən fakt olaraq – ya ayrıca “işıq kvantlarından” ibarət olan nə isə olaraq, ya da məkanda yüksək sürətlə hərəkət edən “energetik paketlər” olaraq izah edilə bilər”.[1] Deyilən keyfiyyətlər işığa imkan verir ki, həm asanlıqla parçalansın, həm ayrı-ayrı şeylərin işıqları ilə birləşsin, həm də daxil olduğu strukturun hərəkətini (inkişafını) təmin eləsin.

İşığın təbii quruluşu fizikanın obyektidir, eydedik quruluşu isə fenomenologiyanın. İşıq maddi dünya hüdudlarında hissəcik, yaxud dalğa şəklində tanınır, öyrənilir, eydedik şəkildə isə noema və noezis şəklində qavranılır. Məhz eydedik prizmadan baxanda, işığın bütün varlıqlarda olması məntiqli görünür. Sührəvərdidən fərqli olaraq, bizim fikrimizə görə, hətta ən bəsit orqanizm belə işıqdan məhrum ola bilməz, çünki o, onun mövcudluğunun təminatıdır. Bizim təqdimatımızda olan işıq Dekartın ideya-işığından da fərqlidir. Belə ki, onun fikrinə görə, bir var işıq bizim təxəyyülümüzdə gözümüz vasitəsilə yaranır, bir də var şeylərdəki işıq, məsələn, Günəşdə.[2] Bizim təqdimatımızda olan işıq məhz gözlə deyil, hətta ən son elmi təcrübə ilə müşahidə edilən aparatla da deyil, üstşüurla sezilir. Xüsusilə vurğulayaq ki, işığın/nurun eydedik quruluşu ilə onun təbii quruluşu heç də həmişə adekvat olmur.

Elmi sübuta görə, atomun 99.999999999999%-i boşluqdan ibarətdir. Nəzərə alsaq ki, maddi dünyadakı varlıqların hamısının varlığı məhz atomlardan ibarətdir, belə nəticə alınır ki, dünyanın təqribən 99%-i

[1] Гейзенберг. Физика и философия, с. 11.
[2] Декарт Р. Рассуждение о методе, с. 180.

boşluqdan ibarətdir. Kvant fizikasının gəldiyi qənaətə görə, atomun elektronu tək xətt üzrə hərəkət etmir və bütün məkanda bulud kimi yayılır. Atomun sərhədləri həmin hərəkətin sıxlığına görə ölçülür. Hər iki qənaətdən belə nəticə çıxır ki, şərti olaraq qəbul edilən həmin 99% yerdə qalan 1%-in varlığın təminatçısıdır. Təqribən yumurtanın ağı və sarısı kimi. Yenə də kvant fizikasına görə, bütün dünya enerji okeanında mövcuddur və hər şey ondan yaranıb, ona da qayıdır. O varlığın təminatçısıdır. Biz məhz varlıq deyirik, çünki məhv olub ona qayıdan, əslində itmir, öz varlığını başqa şəkildə davam etdirir. Enerjinin saxlanma qanunu bunun maddi dünyadakı təzahürüdür. Vahid enerji okeanında var olmaq həm də bütün varlıqların daxili əlaqəsinin sübutudur. Nəzərə alsaq ki, hər eydosun öz işığı var və bütün işıqlar öz aralarında əlaqəlidir, o zaman "boşluğun" nədən ibarət olması aydın olar. Nur həmin enerji okeanının başqa adıdır və şeylərin varlığında onların mövcudluğunun təminatçısıdır. Bir daha vurğulayaq ki, təbii quruluş yalnız maddi dünya üçün keçərlidir. Üst aləmdə isə biz yalnız eydedik quruluşdan danışa bilərik. Bunu təqribən Bibliyanın bu ayəsi ilə də izah edə bilərik: "O gördü ki, tikan kolu yanır, ancaq kol alovlanmır" (Bibliya. Çıxış 3/2), yaxud Qurani-Kərimdə müqayisə olaraq Yaradan belə təsvir edilir: "Allah göylərin və yerin nurudur! Onun nuru, içində çıraq olan bir çıraqdana bənzəyir. O çıraq bir qəndilin içindədir. Qəndil isə, sanki parlaq bir ulduzdur ki, nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından (çıxan yağdan) yandırılır. Onun yağı alov toxunmasa belə az qalır ki, işıq saçsın. O, nur üstünə nurdur". (Quran 24/35). Eydedik mənada işıq deyəndə, Yaradan deyil, alovlanan, ancaq yanmayan, işıqlandıran alov – şüurun qavradığı nur, şeylərin mahiyyətindəki həqiqət nəzərdə tutulur.

Bütün varlıqların nuru öz arasında əlaqəli olduğuna görə işığı nüvəsi sabit mənbələrdə olan böyük bir noema kimi qəbul edirik. Hər noemada kiçik noemalar, arada isə onları əlaqələndirən noezalar var. Yəni istənilən varlıqdakı işıqdan başlayaraq digər noemalara və nüvəsinə doğru irəliləmək mümkündür. Noezalar işığı və enerjinin axınını təmin

edən yollardır və bir istiqamətli deyil. Struktur daxilində ümumi balansın – harmoniyanın qorunması işığın maneəsiz axması ilə ölçülür. Yaradılışın mərtəbələri arasındakı əlaqə də noezalardır və onlara səbəb şüur Loqosa qədər irəliləyə bilir. Başqa sözlə desək, işıq vasitəsilə həm şeyin özü haqqında məlumat almaq mümkündür, həm də onun vasitəsilə daha böyük işıq normasına keçmək. Yeri gəlmişkən, onu da əlavə edək ki, işıq eydoslarla bərabər mövcud olduğuna görə, fenomenoloji reduksiya zamanı, onu eydosdan ayırıb mötərizəyə almaq mümkün deyil.

İşıq fəlsəfəsinin banisi Şihabəddin Sührəvərdinin yazdığına görə, yaradılış iyerarxiyasında tutduğu mərtəbəyə müvafiq olaraq nurlanan hər bir varlığın mənbəyə – Nurlar Nuruna yaxınlığı onun mahiyyətini və vəzifəsini təyinləşdirir: "Bil ki, nurlar mərtəbəsi sonu vacib olan silsilədir və artıq başqa bir mücərrəd nur alınmayan nurla bitir". Deməli, ilk nurdan başlayan səbəb-nəticə zənciri maddi dünyada, yəni özü nura sahib olsa da, nur verə bilməyən varlıqlarda bitir – mineral və daşlarda. Sührəvərdi onu da yazır ki, "Artıq özündən sonra varlıq yaradacaq nura sahib olmayan minerallardan bəziləri "nurlu bərzəxə" (yaqut, qızıl və s.) malikdirlər ki, "adi bərzəxlərə və onların nurlarına bənzəyir və insanları xoşbəxt edirlər".[1] Sufi fenomenologiyada da nüvəyə yaxın eydoslarla kənardakıların mahiyyəti eyni deyil. Eyni məntiq işığa da aiddir. Bununla belə, Sührəvərdidən fərqli olaraq, burada, birincisi, hər eydosun işığı özü ilə bərabər yaranır və ümumi işıq noemasına sonradan qoşulur. İkincisi, işığın aid olduğu eydosa uyğunlaşır, zərrə, yaxud dalğa, mücərrəd, yaxud konkret olur. İnsanın nurunu digərlərindən fərqləndirən də onun şüurudur. Qavramaq, dərk etmək, öyrənmək – başqa varlıqların nurunu görmək, mənimsəməkdir. İnsanın bu bacarığı sayəsində məlum olur ki, hətta ilk baxışda bütün işıqdan məhrum görünən daşın da nuru varmış.

Beləliklə, kvant fizikasının prizmasından sufi fenomenologiyaya baxanda belə qənaətə gəlmək olur ki, ayrı-ayrı şeylərdə işıq zərrə şəklində, aralarındakı əlaqələr isə dalğa şəklindədir. Əslində, şəraitə və idrak prosesində oynadığı rola görə, noema və noezalar həm zərrə, həm də

[1] Sührəvərdi. Hikmət əl-işraq, s. 199.

dalğa şəklində ola bilir. Hər ikisi eyni reallığın fərqli təzahürüdür və bu, şüura hərəkət etməyə imkan yaradır. Obyektiv şəkildə var olan işıq şüurun qarışması ilə həm də onun işığı ilə qarışmış olur. Buna görə də, istənilən elmi eksperimentlərdə, təcrübələrdə, yaxud ruhani təcrübədə subyektiv faktor mütləq özünü göstərir, hətta işığın axınına təsir göstərir. Bu baxımdan, noeza və noemanın bir birindən fərqlənə bilər. Maraqlı bir fakt kimi onu da əlavə edək ki, noeza şüurun axtarış məqamıdır və burada şüurdan gələn bir təsirlə işıq bulanıq, qeyri-müəyyən görünür. Belə demək mümkündürsə, bu, 0 və 1 arasındakı mərhələdir. Noema isə konkret bir mahiyyət daşıyıcısıdır və şüur xüsusiyyətləri qavradıqca noemanın işığı da güclü görünməyə başlayır. Xüsusilə təkrar edək ki, bu, şüurdan qaynaqlanan subyektiv effektdir, obyektiv olaraq, noema və noezanın işığında fərq yoxdur və ümumi harmoniya var.

### *§ 117. İlahi yaranışda və idrak prosesində işığın qradasiyası*

Sufi fenomenologiyada işıq/nur iki aspektdən nəzərdən keçirilir: ilahi yaranışda və idrak prosesində. Hər şeyin mahiyyətində işığın olması onun həm də yaradılış prosesində əhəmiyyətli yer tutmasını təsdiq edir. Bununla yanaşı, nəzərə alsaq ki, idrak yaradılış prosesinin əks istiqamətdə qavranılmasıdır, o zaman işığın aparıcı rol oynaması təəccüblü görünməz.

Plotin yaranış prosesini belə təsvir edirdi: "Vahiddən yaranan Ağıl, ondan sanki işıq kimi süzülüb gəlir, bu zaman O dəyişmir və sükutda qalır, sanki günəş ətrafa öz işığını yayır və bu zaman nəinki hərəkət etmir, əksinə, işıq onun ətrafında hərlənir".[1] Sührəvərdinin İşraq fəlsəfəsində də eyni təsiri müşahidə etmək mümkündür: yaranış ilahi iradə ilə deyil, işığın süzülməsi ilə baş verir və nəticədə planetlər, aradakı bərzəxlər, ünsürlər və maddi dünya yaranır.[2] Onlardan fərqli olaraq, sufi

[1] Плотин. Эннеады, V.1.6.
[2] Sührəvərdi. Hikmət əl-İşraq, s. 138-139.

fenomenologiyada işıq, o cümlədən Nurlar Nuru – vahid enerji seli Yaradanın iradəsilə, “ol” əmri ilə yaranır. Yəni işıq özü də eydosdur və müəyyən bir mahiyyətlə sonsuzluqdan seçilib. İşıq özü yaratmır, ancaq yaranışın zəruri hissəsidir, çünki özü eydos olmaqla yanaşı, həm də yaranan hər eydosa bir növ onun mövcudluğunu təmin edən mühit – noema kimi əlavə edilir. İşıq hər eydosu bürüyən və onun mahiyyətinə ən yaxın olan ilk qabıq, örtükdür.

Plotin özünün yaradılış iyerarxiyasında belə bir müqayisədən istifadə gətirir: “Xeyri işığa, Ağlı – günəşə, Ruhu – günəşdən işıq alan aya bənzətmək olar: Ruh öz zəkasını Ağıldan alır, o da onu nurlandırmaqla, rəngarəng etməklə onu intellektual edir, Ağıl, əksinə, özünün işığına malikdir və yalnız işıqlanmaq yox, həm də bütünlüklə mahiyyətinə görə nurlanıb və işığın daşıyıcısıdır; nəhayət, Ağla işıq verən başlanğıc özlüyündə işıq olmaqdan başqa bir şey deyil – mütləq saf və sadə, Ağla da olduğu kimi olmağa imkan verən”.[1] Yaranış ilk nurdan heç nə əskiltmir. Sonralar işraqilikdə də Nurlar Nurundan işığın süzülməsi, planetlərin və s. yaranması tədricən, işığın şüalanmasının nəticəsi kimi təqdim edilir. İlkmənbənin işığı azalmır, ancaq iyerarxiyanın hər mərtəbəsində işıq get-gedə azalır, çünki arada bərzəxlərin yaranması həmin işığın bir hissəsini udur. Nəticədə Nurlar nurundan ən uzaq olan varlıqlar – minerallar həmin işıqdan tamamilə məhrum qalırlar və başqasına işıq ötürə bilmirlər.

Sufi fenomenologiyada hər eydos özünə, yəni mahiyyətinə, missiyasına uyğun nur alır. Gələcəkdə həmin eydosun noemada hansı yer tutacağı, nüvə, yaxın, yoxsa uzaq xüsusiyyət olması onun işığına da təsir edir. Bu baxımdan, ilahi aləmdə və maddi dünyada var olan nurları fərqləndirən onların öz mahiyyəti deyil, aid olduqları eydosları və noemalarıdır. Müqayisə üçün deyək, məsələn, bir daşın və günəşin işığındakı fərq onların noemasından qaynaqlanır. Varlıqların müxtəlifliyi onların işığında da əks olunur. İşıq yaradan deyil və birindən digərinə axması, hətta bu zaman nəyin isə yaranmasına, inkişafına səbəb olması işığın

[1] Плотин. Эннеады, V.6.4

funksiyasına aid deyil, o yalnız daşıyıcı, yaxud qoruyucudur. Sufi fenomenologiyada hər eydos öz nuruna malik olmaqla yanaşı, həm də noemada nüvədən gələn nurla işıqlanırlar. Yəni qradasiya noemanın daxilində baş verir. Bununla belə, əgər prosesə daha böyük miqyasda baxanda Sührəvərdinin nəzəriyyəsi öz təsdiqini tapır: hər eydos öz noemasının nüvəsindən, o, öz növbəsində daha üst noemadan və s.-dən nur alır. Nəticədə yenə də kənar xüsusiyyətlər daha az nur almış olur.

Yaranış zamanı əvvəlcə noemanın nüvəsi, daha sonra xüsusiyyətləri təyin edilir. İşığı noematik nüvəsi sabit mənbələrdə – ayani-sabitədədir. Sonra yaradılan hər noema onun tərkibinə daxil olur və onunla noezalar vasitəsilə birləşir. Daha əvvəl də qeyd etdiyimiz kimi, noezalar noemalarda olan eydosların işıqlarının süzülüb kənara çıxmasıdır. Buna eydosun şüalanması da demək olar. Hər eydos öz imkanı daxilində belə şüalanmaya malikdir. Daha əvvəl də qeyd etdiyimiz kimi, noemanın işığı noezalara nisbətdə daha çox və daha aydındır. Onlar yalnız hazır noemalar arasında mümkündür.

Noema özündə çoxluq ehtiva edir. İlk işıq noemasının da tərkibindəki eydoslar sonsuz sayda noemaların yaranışının başlanğıcı deməkdir. Burada kiçik bir faktı da dəqiqləşdirək. Sufi fenomenologiyaya xas tək-ümumi-tək prinsipi burada da qüvvədədir. Belə ki, tək enerji selindən yaranan çoxsaylı eydoslar sonra yenə təkdə – ilk işıq noemasında birləşir. Yəni, əslində, sələfləri kimi, sufi fenomenologiyada da ilk yaranan təkdir, lakin onlardan fərqli olaraq burada səbəb-nəticə zənciri yoxdur və hər eydosun işığı Yaradan tərəfindən verilir. Onu da vurğulamalıyıq ki, sufizmdə yaranan ilk nur haqqında təsəvvür fərqlidir.

Hədislərdən birində deyildiyinə görə, Məhəmməd peyğəmbər (s.) "Allahın ilk yaratdığı mənim nurumdur" – demişdir. Əlbəttə, hədisin nə dərəcədə səhih olub-olmaması çox əhəmiyyətli məsələdir və ayrıca bir mübahisənin mövzusudur. Bununla belə, nəzərə almaq lazımdır ki, sufizmdə məhz ilk yaradılana Məhəmməd nuru və ya Məhəmməd həqiqəti deyilmişdir. Şihabəddin Sührəvərdinin ilk nur haqqında dediklərini təkrar xatırlayaq. Belə ki, onun dediyinə görə, Nurlar Nurundan yaranan ilk

mücərrəd nur "özlüyündə kasıbdır"[1] və "Nurlar Nurundan yalnız kamilliyə görə fərqlənir",[2] yəni Nurlar Nurunun zatı kamil, ilk nurun zatı isə Ona nisbətdə naqisdir, çünki yaradılmışdır, mahiyyəti başqasından asılıdır. O, Nurlar Nurundan vasitəsiz nurlandığına görə Onun bütün keyfiyyətlərini özündə ehtiva edir, "ilk olduğuna görə zəngin"dir, Nurlar Nuruna ən yaxın və nurlar arasında "ən böyük nur"dur. Sührəvərdi ilk nurun yaradılışını belə təsvir edir: "Bu, Ondan ayrılmaq (çıxarılmaq) deyil", "ayrılma və birləşmə günahın xüsusiyyətlərindəndir (belə demək günahdır – *K.B.)*". Uca Nurlar Nuru bundan yüksəkdir. Ondan bir şey ayrılmaz", "günəşin şüası yalnız onunla (günəşlə) mövcuddur",[3] yəni şüa günəşdən müstəqil bir varlıq kimi ayrıla bilməz və varoluşuna görə ona möhtacdır. Biz §27-də İlkmənbə haqqında təhlil verəndə bu məsələyə toxunmuşduq, indi isə bu rakursdan baxaq.

Sührəvərdinin özünün də iddia etdiyi kimi, insan nuru digərlərindən fərqlənir. Sufi fenomenologiyada da insan şüuru sayəsində maddi dünyada hakim, yaradıcı ola bilir, ən vacibi isə, Yaradana "iki yay məsafəsi qədər" yaxınlaşa bilir. Bunu isə həm mahiyyətində olan nurunu tanımaq, həm başqa varlıqların nurunu zəbt eləmək bacarığı, həm də şeylərin təbii quruluşuna, yəni işığın böyük noemasına nüfuz edə bilməsi ilə nail olur. İnsanın nuru da onun nüvəsinə uyğundur, sadəcə, şüurun böyümə imkanı, qabiliyyəti onun işığına da təsir edir. Yəni insan idrakının sayəsində həm başqa noemaları qavramaqla, həm də Nurlar Nuruna yaxınlaşmaqla öz işığını artıra bilir. İnsan həm də mücərrəd varlıqdır və ilahi aləmə açıqdır. Bu, onun daha böyük noemadan nurlanma imkanını artırır. Burada əhəmiyyətli məqam ondan ibarətdir ki, nur daxildən böyüyən eydosun, noemanın sayəsində böyüyür. Zahiri təsirlə artan işıq, əksinə, şüuru passivləşdirir və o, kənar təsirdən asılı vəziyyətə düşür. Başqa sözlə desək, Məhəmməd nuru öz şüurunun potensialından maksimum istifadə edə bilmiş insanın nurudur. Məhəmməd

[1] Sührəverdi. Hikmət əl-İşraq, s. 128.
[2] Yenə orada, s. 127.
[3] Yenə orada, s. 128-129.

(s.) peyğəmbərin adı həmin insanın obrazını ifadə edir.

Bütün eydoslar kimi, insanın da nuru onun özünə uyğundur. Sührəvərdinin də yazdığına görə, "bu nur bədəndən əvvəl mövcud olmur", çünki belə olarsa "nəfslər yaradılmamış və sonsuz olardı".[1] Bu isə düzgün deyil, insani nur bədənə müvafiq şəkildə üflənir.[2] Belə məlum olur ki, filosof nurla ruhu eyniləşdirir. Sufi fenomenologiyada ruh da böyük nura malikdir və onun tanınması şüura böyük imkanlar verir. Ruh tək eydosdur və heç bir noemaya daxil deyil, ona görə də nuru safdır, sadədir və güclüdür. Yəni Plotindən fərqli olaraq o, nurunu ağılda (*nous*dan) almır, özü işığa malikdir və onu Yaradandan alır. Eyni zamanda, ruh və nur eyni deyil, fərqli fenomenlərdir və qarışdırılmamlıdır. İşıq hər eydosda var, ruhlu və ya ruhsuz. Ruh isə noemaya, sistemə verilir. Xatırladaq ki, ana bətnində uşağın ürəyi 3.5-4 ayında döyünməyə başlayır və dini nöqteyi-nəzərdən bu, məhz embriona ruh üflənməsi ilə əlaqəlidir.

Belə məlum olur ki, ilahi yaranışda işığın qradasiyası yoxdur. Bu, insan idrakına məxsus bir keyfiyyətdir. Yaradan eydoslarını da tanıyır, onlara təyin etdiyi işığı da. İnsan isə onları öyrənməlidir və bu proses xüsusiyyətdən nüvəyə – işığın azdan çoxa, mənbəyinə doğru irəliləməsidir. Noezaya çatan üstşüurdur, bu isə öz növbəsində özünüreduksiya ilə mümkün olur. Burada əhəmiyyətli bir məqam var: qradasiya obyektiv deyil, məhz subyektiv hadisədir. İnsan nə qədər öz mahiyyətindəki işığı çox tanıyırsa, bir o qədər təbii quruluşun işığına, ilkmənbəyə yaxın olur və bu, onun idrakındakı dumanı azaldır. Başqa sözlə desək, işığın qradasiyası insanın idrak qabiliyyətinin göstəricisidir.

### *§ 118. İşıq və şüurun intensiyası*

Eydedik mənada nur həm mövcudluğun təminatı, həm də ona aparan, yaxud ondan çıxan yoldur. Yaradılış işıq noemalarının formalaşması və öz aralarında əlaqələnməsidir. İdrak bu əlaqələr boyu irəliləyib

[1] Yenə orada, s. 203.
[2] Yenə orada, s. 201.

həmin noemaları tanımaqdır. Şüur insanın nüvəsidir və işıq noeması ilə birbaşa əlaqəli olan odur. Buna görə də, o, idrakın başlanğıc nöqtəsi və intensiyanın mənbəyi hesab edilir. Digər varlıqlardan fərqli olaraq, insan öz nurunu idarə edə bilir və onu öz iradəsi ilə yönləndirir. Bu, intensiyadır. Nurun zərrə və dalğa şəklində olması məsələyə daha bir baxış bucağı açır. Əvvəlki paraqrafda da noemanı işığın zərrələrinə, noezanı isə dalğa halına bənzətmişdik. Çünki şüurun diqqəti məhz noemaya yönəlir. Lakin yenə də işığın xüsusiyyətinə istinadən demək olar ki, bunlar şərti bənzətmədir və istənilən anda yerlərini dəyişə bilər. Onu dəyişən isə intensiyadır. Yəni obyektiv halda onların hamısı dalğa vəziyyətindədir və məhz şüurun müdaxiləsi nəticəsində zərrələr halında görünür.

İntensiya sadə yönəlmə deyil, obyektin işığını öz işığına qatmaq, onu zəbt etmək cəhdidir. Bu, iki işığın qarşılaşmasıdır və daha üstün tərəf digərini "udur". Şüur öz mahiyyətinə uyğun tərəfdən, yəni obyektin işığına yaxınlaşır və qazandığı həmin işığın ehtiva etdiyi olur. Onu da qeyd etmək lazımdır ki, şüurun daxili radiusunun hələ ümumi biliklər səviyyəsində genişləndiyi bir vaxtda da bu qanunauyğunluq mövcuddur. Necə ki, göz baxanda necə gördüyünü düşünmür, eləcə də şüur ümumi biliklər səviyyəsində bilikləri necə qazandığının fərqində olmur. Buna görə də həmin mərhələdə şüurun intensiyası tez-tez dağılır, yaxud başqa şüurların təsiri altına düşür. Onu da vurğulayaq ki, şüurun potensialı və mahiyyəti, ən vacibi isə ilk ideyası məhz onun intensiyasında ifadə olunur. Başqa sözlə desək, intensiya şüurun gücünün konsentrasiya olunmuş halıdır.

Qeyd etdiyimiz kimi, təbii quruluşda işıq dalğa şəklindədir. Kvant fizikasına görə, güc də məhz reallığın dalğa formasındadır. Burada iki əhəmiyyətli məqama diqqət yönəldək: 1) məntiqlə hər şeyin təbii halında işıq dalğa halındadır. Buna görə də, şüur obyektin təbii quruluşuna nüfuz edəndə, onun bir hissəsinə çevriləndə həqiqəti daha dərindən dərk edə bilir; 2) insan şüurunun da işığı dalğa şəklindədir, ancaq intensiya o zərrə halına düşür, çünki şüurun nəzarəti altında olur. Buna görə də, idrak prosesində işıq qradasiyalıdır, tədricən aydınlanır. Yeri gəlmişkən,

onu da əlavə edək ki, intensiya hər insana xas deyil. İşıq güclüdür və yayılır, onu toplayıb, tək istiqamətə yönəltmək iradə və təbii ki, məqsəd tələb edir.

İnsan doğulanda hər nə qədər fitrən müəyyən biliklərə sahib olsa da, şüurun həcmi, daxili radiusu kiçik olur. Heyvanlar ətrafını öyrənib, təcrübədə instinktlərini oyandırdığı kimi, insan da yaddaşını, şüurunu və onun vasitəsilə düşüncəsini formalaşdırır. Yəni bu, kənar nurlar – həqiqətlər vasitəsilə mümkün olur. Yalnız müəyyən səviyyəyə çatandan sonra insan öz şüurunun mahiyyətini, öz nurunu tanımağı bacarır. Bundan sonra o, həm də ali qatdan olan kənar təsiri – ilahi iradənin də müdaxiləsini, işarəsini anlaya bilir. Xatırladaq ki, başqa kənar təsirlərdən fərqli olaraq, ilahi iradə şüuru passivləşdirmir, çünki daxildən ona təkan verir. Şüurun daxili radiusu nə qədər geniş olarsa, onun intensiyası bir o qədər güclü olar, bu isə öz növbəsində obyektin tanınma dərəcəsini təyin edir. Kvant fizikasının məlum ehtimal nəzəriyyəsi dediyimizin eksperimental sübutudur: "Ölçmə məqamında eksperimental vəziyyəti təsvir edən ehtimal funksiyası ölçmələrin mümkün qeyri-dəqiqliklərini nəzərə almaqla yazılır. Bu ehtimal funksiyası özlüyündə iki fərqli elementin birləşməsidir: bir tərəfdən faktın, digər tərəfdən bizim faktı bilmək səviyyəsindən".[1] İdrak obyektiv həqiqətin subyektiv tutumudur. Deməli, nə qədər şüur hazırlıqlı olarsa, bir o qədər ehtiva edəcəyi işıq və bilik də artar. İntensiya noezadır və insanın şüurundan obyektin noemasına istiqamətlənir. Termodinamikanın ikinci prinsipinə istinad etsək, mütləq birbaşa təmas olmalıdır ki, həmin noeza da mümkün olsun. Bu, artıq mövcud, obyektiv əlaqənin kəşfi, qavranılması da ola bilər, insan tərəfindən yeni yaradılmış əlaqə də. Məsələn, günəşin şüasının tərkibini və onun hansı sürətlə Yerə çatıb, haranı necə işıqlandırmasını insan təyin etməyib. Bu, mövcud olan noeza üzrə irəliləyib müəyyən həqiqəti dərk etməkdir. Bu mənada noeza Universal aləmin obyektiv görünən və görünməz əlaqələrinin aydınlanmış hissələridir. Heizenberq yazır: "Yeri gəlmişkən xatırlayaq ki, təbiət elmlərində Universum bütünlükdə, biz də

[1] Гейзенберг. Физика и философия, с. 19.

daxil olmaqla bizi maraqlandırmır, yalnız onun bir hissəsi ki, biz də onu bizim araşdırmamızın obyekti edirik. Atom fizikasında adətən bu, çox kiçik obyektdir, məhz atom hissəcikləri yaxud belə hissəciklərin qrupu. Ancaq iş ölçüdə deyil; vacib olan budur ki, Universumun böyük hissəsi, biz də daxil olmaqla, müşahidə predmeti deyil".[1] Düzdür alim təbiət elmlərini nəzərdə tutur, ancaq kontekstimizdən də belə məlum olur mi, eyni fikri bütün sahələrə aid etmək olar. Hətta Loqosa çatmış bir şüur da yalnız öz həcmi boyda məqamı ehtiva edir. Digər tərəfdən, qeyd etdiyimiz kimi, insan özü də noeza yarada bilir. Məsələn, rentgen şüaları vasitəsilə obyektin daxili strukturunu öyrənən cihazın yaradılması, yaxud almazı cilalayıb qiymətli daşa çevirmək insanın yaratdığı noezalarla mümkün olub. Burada söhbət şüurun mövcud həqiqəti öz məqsədi üçün istifadədən gedir.

Kvant fizikası (və bəzi təbiət elmləri) vahid dünyanın varlığını ehtimal edir və onu sübut etməyə çalışır. Müəyyən fəlsəfi məktəblər, o cümlədən, ilahi mətnlər də bu vəhdətin varlığına inanır və bundan çıxış edirlər. Bu vəhdətin təsdiqində, izahında işıq/nur bütün mövqelərin müraciət etdiyi bir fenomendir. Deyilənlərdə vacib məqamlardan biri də budur ki, vəhdət görünən konkret müxtəlifliyin fövqündədir və onu qavramaq üçün şüur hissi, hətta əqli imkanlarının üstünə qalxmağı bacarmalıdır. Yaradılış iyerarxiyasını təsvir edən Plotin bildirir ki, bu zaman İlkvəhdət, Tək sakit və hərəkətsizdir. Əvəzində Ondan yaranan Ağıl üzünü Tək tutub Onu sezmək imkanına malikdir və məhz bu qabiliyyətinə görə Ağıl adlanır. Ağıl bütün var olanların matrisasıdır: "Ağılda olan mahiyyətlərin heç biri İlkdə yoxdur. O yalnız onlar üçün ilk başlanğıcdır, çünki onlar Ondan müəyyənlik və forma alır, belə ki, həqiqi var olan nə isə qeyri-müəyyən, tərəddüdlü təsəvvür edilə bilməz..."[2] Hərəkət, istiqamətlənmə, bölünmə, bir sözlə hərəkət yalnız ikinci mərhələyə – Ağla (*Nous*a) mənsubdur. Bununla belə, başlanğıc və güc məhz İlkə aiddir. Maraqlıdır ki, Plotinin dediyinə görə, ağıl yaradılmayıb, o,

---

[1] Yenə orada, s. 24.
[2] Плотин. Эннеады, V.1.7.

Xeyrin, Təkin işığı, enerjisi kimi mövcuddur, ayrı deyil, amma Onun tam Özü də deyil. Burada diqqət çəkən daha bir məqam isə, Təkin məhz öz daxilindən dərk olunmasıdır. 1944-cü ildə İtaliyada mühazirələrinin birində Maks Plank deyir: "Ömrünü ən aydın elmə materiyanın öyrənilməsinə həsr etmiş bir insan kimi atomların tədqiqatlarının nəticəsində deyə bilərəm ki, materiya deyə bir şey yoxdur. Hər materiya yalnız atom hissəciyini vibrasiya etdirən və atomun ən kiçik günəş sistemini bir yerdə saxlayan Qüvvəyə səbəb yaranır və mövcuddur. Biz güman edə bilərik bu qüvvənin arxasında şüurlu və düşüncəli ağıl durur. Bu ağıl – bütün materiyanın matrisasıdır".[1] Fərqli sahələrdə və böyük zaman intervalı ilə ayrılmış iki mütəfəkkir eyni həqiqəti fərqli yollarla ifadə edirlər. Vəhdət obyektivdir, onu dərk etsələr də mövcuddur, etməsələr də və onu nur vasitəsilə anlamaq mümkündür, çünki onunla insan arasında təbii əlaqə də nurdan ibarətdir.

Dediklərimizdən belə məlum olur ki, intensiya a) şüuru universal vəhdətə aparan imkandır; b) obyektiv həqiqətdə subyektiv hissənin işıqlanmasıdır; c) şüurun hissi və əqli idrakının üst qatını açan qabiliyyətdir; d) şüurun daxili potensialının nurunda inikasıdır.

### *§ 119. Mənbə və işıq, sükut və hərəkət*

Əvvəlki paraqraflarda da qeyd etdiyimiz kimi, işıq həm elmin, həm fəlsəfənin, həm də dinin tez-tez müraciət etdiyi fenomendir. Hərəsi öz rakursundan yanaşır. Bizim yanaşmamızda hər üç mövqeni ehtiva etməyə çalışırıq. Bununla metafizikanın həqiqətən də fizikanın üst qatda davamı olduğuna və idrak prosesinin zahirdən başlayıb batini dünyada yekunlaşmasına inanırıq. Heizenberq yazır: "İnsanın idrak bacarığı müəyyən mənada sərhədsizdir. Lakin mövcud elmi anlayışlar reallığın yalnız çox məhdud bir sahəsinə uyğun gəlir, halbuki hələ dərk olunmamış başqa bir sahə hələ də sonsuz olaraq qalır. İstənilən halda, biz dərk olunmuşdan olunmamışa keçəndə, nə isə dərk eləməyə ümid edirik, eyni

---

[1] Планк М. Религия и естествознание.

zamanda, yəqin ki, bu zaman "anlamaq" sözünün yeni mənasını da qeyd eləmək lazımdır. ...Ola bilsin ki, bununla müasir fizika insan ruhu və reallıq arasındakı münasibətlərə yeni və daha geniş baxış üçün qapı açıb".[1]

Hərəkət nəyə isə istiqamətlənmədir. Hətta hədəf tez-tez dəyişsə belə, hərəkət iki nöqtə arasında irəliləmədir. Bu, məkan dəyişməsi də ola bilər, strukturun öz daxilində baş verən dəyişikliklər də. Vahid enerji aləmi – nous neytraldır, bütövdür və sükutdadır. İlahi iradə ilə oradan götürülən hər hansı eydos "ol" əmri ilə hərəkətə gətirilir. Əvvəllər də qeyd etdiyimiz kimi, eydos özlüyündə hərəkətə qadir deyil, onun sükut halından çıxması üçün mütləq kənardan təsir göstərilməlidir. Yaradılış prosesində bu, ilahi iradə olur. Buna ilk təkan da demək olar. Daha sonra onun hərəkətini eydosa verilmiş işıq, enerji təmin edir. Burada əhəmiyyətli və incə bir məqamı vurğulayaq ki, mümkün hərəkət mexanizmləri eydosun mahiyyətinə verilsə də, bu funksiya işığa aiddir. Eydosu yalnız Mütləq Varlıq yaradıb, yaxud məhv edə bilər. Deməli, onun malik olduğu hər hansı hərəkət formalarını da təyin edən Odur və O dəyişə bilər. Buraya təbiətdə baş verən böyük hadisələrdən, məsələn, Günəş sistemində gedən proseslərdən tutmuş, elmi eksperimentlərdə α hissəciyin atomdan elektronu vurub çıxartması kimi mikroskopik hadisələrə qədər, ağacların necə çiçəkləməsindən tutmuş, rənglərin dəyişməsinə qədər aid etmək olar. Bu, məntiqlidir, çünki onları yaradan və funksiyaları verən Odur. Zəburun 138-ci məzmurunda Allahın hər şeydən xəbəri olması tərənnüm edilir: "Hələ mənim dilimdə elə söz yoxdur ki, ya Rəbbim, sən onu mükəmməl şəkildə bilməyəsən" (Bibliya. Zəbur 138/4). Qurani-Kərimdə də deyilir ki, hər şeyi olduğu kimi bilən yalnız Allahdır: "Qeybin açarları Allahın yanındadır. Ondan başqası onları bilə bilməz. O, quruda və dənizdə nə varsa, hamısını bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, Allah onu bilməsin. Yerin qaranlıqları içindəki toxum və yaş-quru nə varsa, hamısı açıq-aydın bir kitabdadır" (Quran 6/59). Deyilənlərdən belə bir həqiqəti bir daha təsdiq edir ki, obyektiv təbii quruluşun insanın onu bilib-bilməməyindən asılı olmayan qanunauyğunlu-

[1] Гейзенберг. Физика и философия, с.127.

ğu var. İnsanın özü də bu sistemin bir hissəsidir və ona tabedir. Bu, insanın fəaliyyətində, hətta düşüncələrinə ilahi iradənin ona müdaxiləsini daha aydın izah edir.

İnsanın malik olduğu nur hərəkətverici olmaqla yanaşı, həm də idarəedicidir. Yəni o, başqa varlıqlardan fərqli olaraq obyektə təsir göstərə, onu idarə edə, onun işığını mənimsəyə bilir. Başqa sözlə desək, o da sükutda olan şeyləri hərəkətə gətirə, yaxud onun trayektoriyasını dəyişmək qabiliyyətinə malikdir. Bu, Yaradanın ona verdiyi seçim və iradə sayəsində mümkündür. Zəburda Davud peyğəmbər Allahın hər şeydən xəbərdar olduğunu deyəndən sonra dua edir ki, "Məni sına, İlahi, mənim ürəyimi öyrən; məni sına və düşüncələrimi öyrən; bax gör, təhlükəli yolda deyiləm ki və məni düz yola yönəlt" (Bibliya. Zəbur 138/23-24). Yaxud Qurani-Kərimdə də insanın öz seçdiyi yolla getməsi, bu yolda, yanlış və düz addım atmaqları barədə ayələr çoxdur. Burada əhəmiyyətli bir məqamı vurğulayaq ki, insan hər şeyi bilmir, buna onun şüurunun məhdudluğu imkan vermir. Lakin onun müdaxilə etdiyi, hərəkətlərinin trayektoriyasını dəyişdiyi şey böyük bir sistemin hissəsidir və nəticədə insanın kiçik bildiyi addım böyük nəticələrə gətirib çıxara bilir. Məsələn, bir həşəratın, heyvanın məhv edilməsi, hətta kiçik bir gölün qurudulması həmin məkanda flora və faunanın tamamilə dəyişməyinə, hətta məhv olmasına gətirir və qarşısı alınmaz proses başlanır. Bunu Nyuton beşiyinə də bənzətmək olar (*sxem 29*).



*Sxem 29. Nyutonun beşiyi.*

Təbii quruluşda olan harmoniya onda olan hərəkəti bəzən görünməz edir və onun sükutda olduğu güman edilir. Nəzərə alsaq ki, noemalarda daim işığın axını var, o zaman sükutun olmadığını iddia etmək olar. İnsan bunu yalnız nəzəri bilir, çünki onun istənilən müdaxiləsi balansın pozulmasına və nəticədə hərəkətin görünən səviyyəyə gəlməsinə səbəb olur. Deməli, insan təbii quruluşun bir hissəsi olmaqla həmin harmoniyanı yaşaya bilər, lakin bu, hər zaman mümkün olmur, çünki o,

öyrənməyə, tanımağa meylli varlıqdır və istər-istəməz ümumi sistemdən çıxıb öz sistemini qurmağa, öz hərəkət trayektoriyasını cızmağa çalışır. Bu, həm onun özünün, həm də ətrafının hərəkətlərinə təsir edir. İlk təkan şüurdan gəlir. Daha sonra ondan başlanan dalğa yayılmağa başlayır və bu dalğanın radiusu ilk təkanın gücündən asılı olur. Şüurun səviyyəsi yüksəldikcə, ilk ideya aydınlaşıb, öz seçimi və iradəsi sabitləşdikcə, təsir dairəsi noema qatına qədər çatır.

İlk təkan şüurun işığının fokuslanması, 0 halından çıxıb 1-ə yönəlməsidir. Eydosu, yəni onun malik olduğu ideyanı hərəkətə gətirən və onu irəli aparan işıqdır. Əgər həmin ideya olmasa, işıq tək gedir və itir. İdeya sayəsində o, həm müəyyən iradəyə tabe olur, həm də konkret hədəfini tanıyır və bunların nəticəsində müəyyən mərhələlərdən bir geri – şüura qayıdır. Öz ideyasının olması özünüreduksiya prosesinin olması, mənbədən qidalanmağı deməkdir. Məsələ burasındadır ki, mənbədən ayrı düşən işıq ətalət üzrə uzun məsafə gedə bilmir və əlavə işıq axtarır. Öz ideyası olmayanda, yaxud zəif olanda, onu başqa şüur verir. Belə olan halda, təbii ki, şüurun yollarını, çatacağı son məntəqəni də həmin başqa şüur təyin edir. Əslində, belə vəziyyətdə olan şüur passiv hesab olunur, çünki başqa marağa xidmət edir. Onun aktivləşməsi üçün öz iradəsi mütləq müdaxilə etməli, öz şüuru ilə işığı arasında balansı bərpa etməlidir. Burada əhəmiyyətli bir məqamı təkrar vurğulayaq: başqa şüur tərəfindən mənimsənilən şüurun məqsədsiz, ideyasız işığı, enerjisidir. Nəticədə bir növ insan enerjidən məhrum qalır. İşığın intensiya olması üçün işıq və ideya birləşməlidir. Yalnız bu halda şüur noeza axtara bilir. Obyektiv noezalar təbii halda öz təbii quruluşuna uyğun istiqamətdə hərəkətdədir və müəyyən mənada sükutdadır. İnsanın intensiyası onu aktivləşdir. İlk ideyadan asılı olaraq intensiya onu öz istədiyi tərəfə də yönəldə bilər, təbii quruluşun istiqaməti ilə irəliləyə də.

Noeza iki noema arasında mümkündür. Eyni zamanda, iki noema arasında sonsuz sayda noeza mövcuddur. Şüur da noemadır və digər bir noema ilə yalnız noeza vasitəsilə əlaqə yaradır. Onun öz intensiyasının olmaması noezaları sezmək imkanını itirməsi deməkdir. Belə təsəvvür

etmək olar ki, ətraf doludur yol işarələri ilə, ancaq sənin öz işığın yoxdur deyə, onları görə bilmirsən. Nəzərə almaq lazımdır ki, birincisi, şüur yalnız öz seçdiyi istiqamət boyu irəliləyə bilər və həmin seçimin ilk təkanı özündən olmalıdır. İkincisi, şüur yalnız öz bilik səviyyəsinə uyğun işarələri işıqlandırır. Hər noemanın öz noezaları var və bəzən şüurun seçimi ilə son məqsəd uyğun gəlmir. Bir növ ideya təbii quruluşa daxil olmaqla insanın iradəsindən kənar hərəkət edir, başqa istiqamətə yönəlir və sahibi bunu yalnız son nəticədə anlayır. Deyilənə görə, Maks Plank öz kəşfinə özü də uzun müddət inana bilməyib.[1] Onun şüurunun noezalar xaosunun hansı kəsişməsində yolunu dəyişdiyini böyük fizik özü də bilməyib və nəticə özünü belə heyrətə gətirib. Əlbəttə, burada ideya faktoru ilə yanaşı, yanaşma tərzi, metod da böyük rol oynayır. Eynşteyn yazır: "Elmi metod bizə yalnız onu öyrədir ki, faktlar bir-birilə necə əlaqəlidir, bir-birini şərtləndirir. Həmin obyektiv biliyə doğru can atmaq insanın qadir olduğu ən ali şeydir və çətin ki, kimsə məndən şübhələnsin ki, mən insanın bu sahədəki qəhrəman nailiyyətlərini azaltmaq istəyirəm. Ancaq bu da aydındır ki, *mövcud olanın* bilinməsi *olmalı olan*a qapı açmır".[2] Xatırladaq ki, hər obyekt özünə uyğun metod tələb edir. Hər nə qədər idrak yolu subyektiv olsa da, obyektiv həqiqətin də öz tələbləri var, insan öz fenomenoloji idrak xəttini yalnız noemanı tam tanıyandan sonra cıza bilər, əks halda, lazımi biliklər ya mötərizəyə düşər, ya da ümumiyyətlə işıqlanmamış qalar.

Dediklərimizdən belə məlum olur ki, idrak şüurun işığının obyektiv işıqla birləşməsi və tamamlanmasıdır. Burada bir neçə əhəmiyyətli məqam vurğulanmalıdır. Birincisi, intensiya mənbədən ayrı düşməyən işıq əsasında formalaşır. Bu o deməkdir ki, onun təkanı şüurun olmalı və özündə ilk ideyanı ehtiva etməlidir. Ən vacibi isə, intensiya özünüreduksiya ilə əlaqəli olmalıdır. İkincisi, intensiya subyektiv xəttin cızılması olsa da, onu obyektiv həqiqəti tanıyandan, çoxsaylı noezalar arasından məhz özünə lazım olanı seçəndən sonra etməlidir. İntensiya şüurun nöqtə

---

[1] Yenə orada, s.10.
[2] Эйнштейн. Наука и религия.

halında olan ideyasının xəttə çevrilməsidir. Yəni insan sükut halında olan ideyalarının arasından birini seçib malik olduğu işığı onun işığına qatır. Bir ideyanın hüdudlarına sığmayan işıq kənara çıxır və davamını axtarır.

Kvant fizikasına görə, şəraitdən asılı olaraq işıq ya korpuskullar, ya da dalğa halında olur. İşığın dalğa yaxud hissəciklər halı fizikada uzun müzakirələr mövzusudur. Məsələn, Nils Borun atom üzərində apardığı təcrübələrdən çıxış edən Heizenberq belə qənaətə gəlir ki, "dalğa həqiqətə daha uyğundur, nəinki korpuskulyar mənzərə. Ona görə də Bor onların ikisini də tətbiq etməyi təklif edir. Onları bir-birini tamamlayan adlandırır". Eyni zamanda, Heizenberq korpuskulları "kiçik həcmdə məhdudlaşan substansiya", dalğanı isə "böyük həcmdə yayılan sahə" adlandırır.[1] Bizim kontekstdən çıxış edəndə, belə nəticəyə gəlmək olur ki, aktivləşmiş, yaxud həyəcanlanmış işıq korpuskul halındadır. Obrazlı desək, korpuskul məhz nöqtə halında olduğuna görə, məhdud şüur onları öyrənə bilir. Təbii, sakit halında isə o, dalğadır və şüurun hüdudlarını aşır. İşığın zərrə halından təkrar dalğa olması üçün onun təbii axarını, halını bərpa etmək lazımdır. Bu, yalnız şeylərin obyektiv halına deyil, insanın öz ideyasına da aiddir. Qeyd etdiyimiz kimi, idrak obyektiv noemalar əsasında subyektiv noemanın formalaşmasıdır. İşıq həmin noemanın daxili təsdiqidir. Daha aydın izah etmək üçün belə bir sxem təsəvvür edək. İnsanın dalğa halında (şərti olaraq sükutda) olan nur sahəsi şüur tərəfindən həyəcanlanır və zərrə halına düşən zərrəciklərdən biri seçilir. Aktivləşmiş həmin fotonu tamamlamaq üçün başqa fotonlar cəlb olunur və bu obyektin sükut halında olan nuru sayəsində baş verir. Son nəticənin – noemanın öz işıq strukturu hazırlanır və təbii ki, hazır şəkildə bu işığın maneəsiz axını təmin olunmalıdır və zamanla həmin fotonlar sakitləşməli, yəni dalğa halına düşməlidir. Əks halda, həyəcanlı fotonlar şüurun diqqətini daim çəkəcək, tamamlanmaq istəyəcəklər. Bunu tamamlanmış bir sənət əsəri, nəzəriyyə ilə yarımçıq, əlavə eksperimentlərə ehtiyacı olan fərziyyələrə bənzətmək olar. Yeri gəlmişkən, hər noemadan üst noemaya çıxışın olması onun yarımçıq olması və işıq dalğa-

[1] Гейзенберг. Физика и философия, с. 22.

larının heç cür sakitləşməməsi anlamına gəlmir. Tamamlanmış ideya təkrar şüura geri dönən və çevrəsi bütövləşmiş ideyadır. Yalnız bu halda şüurun ilk həyəcanlanmış fotonu ümumi işıq sahəsinə qayıdır və təkrar dalğa şəklini alır.

### *§ 120. Vahid nur və nurların vəhdəti*

İnsanın universal vəhdət axtarışı və onun varlığından əminliyi bir neçə səbəblə izah edilə bilər: a) sonsuz kainatın müəyyən bir qanunauyğunluqla idarə edildiyini müşahidə edir; b) bütün hadisələrin, qanunların, hətta təsadüflərin belə daxili əlaqəsini sezir; c) özünün bu sonsuzluqda itib-qatması hissi onu qorxudur və əslində mövcud bir sistemin hissəsi olmağa üstünlük verir. Bunu düşünən hər kəs vəhdəti öz şüurunun imkanları çərçivəsində, öz fəaliyyət sahəsində qazandığı biliklərlə izah edir. Maraqlıdır ki, bəzən öz sahəsinin imkanlarının kifayət etmədiyini və həqiqətin daha böyük olduğunu dərk edən mütəfəkkirlər başqa sahəyə də keçirlər: fiziklər fəlsəfəyə, filosoflar kosmologiyaya, şairlər riyaziyyata və s. Bu cəhdlər sahələrarası fənlərin, təhlillərin yaranmasına səbəb olur. Lakin hansı sahəyə keçməklərinə baxmayaraq yenə də öz baxış bucaqlarından təhlil edirlər, yəni məsələn, riyaziyyata müraciət edən şair riyaziyyatçı olmur, rəqəmlərin poeziyasından yazır. Mütləq ruhun təzahürlərini – fəlsəfə, sənət və din – xatırlasaq, belə qənaətə gəlmək olur ki, vəhdət haqqında düşünənlər bu üç sahədən birinə müraciət etməli olurlar. Məsələn, Heizenberq "Fizika və fəlsəfə" adı altında toplanmış mühazirələrində yazır ki, o, həddindən artıq kiçik bir zərrəciyi görmək üçün lazım olan avadanlığın hələ kəşf olunmadığını, lakin irəlidə olunacağını və bununla da Falesdən başlayan vahid təməl məsələsinə bir aydınlıq gətirəcəyinə inanır. Hegel öz isə vəhdət axtarışında sufi poeziyanı öyrənməyi tövsiyə edir. Məqsəd universal vəhdəti dərk etmək, öz əminliyini təsdiq etməkdir və bu zaman başqa sahələrdən də özünə şahid, dəstək axtarması, tapması məntiqlidir. Sufi fenomenologiya universal vəhdəti nur vasitəsilə izah edir. Hələ irrasional idrakı araşdıranda Sührəvərdinin İşraq fəlsəfəsini "vəhdət əl-vücudun nur vasitəsilə ifadə-

si" vəhdət ən-nur, yaxud nurların vəhdəti adlandırmışdıq.[1] Noemaların tədqiqi bizi təkrar eyni terminə qaytarmağa məcbur edir.

Noemalar haqqında mülahizələrimizdən belə çıxır ki, dünyanın vəhdətini, vahid sxemini məhz nur vasitəsilə çəkmək mümkündür. Sual yarana bilər ki, eydoslar da eyni mənbədən yarandıqları halda, nə üçün məhz vəhdəti nur şəklində görürük? Eydoslar eyni mənbədən olsalar da, onların yükləndiyi məna, noemada tutduqları yer və malik olduqları funksiya onları fərqləndirir. Bəli, materiya da eydosdur, ruh da, lakin onlardan alınan bilik, yaxud onların idrak prosesində əhəmiyyəti o dərəcədə fərqlidir ki, eyni mənbədən olduqları ciddi sual yaradır. Hətta bir sistemin özündə də eydosları onların mənaları fərqləndirir. İşıq/nur isə bütün yaradılmışlarda mövcuddur və malik olduqları fərq öz mahiyyətində yox, aid olduqları eydosdadır. Məhz bu eyniyyət sayəsində varlıqlar arasında əlaqə yarana bilir. İki fərqli varlığın eydosları uyğun gəlməsələr də, onlar eyni sistemə aid olmasalar da, onların arasında enerji axını mümkün olur. Bunu bütün varlıqlara fərq qoymadan onları isidən günəşin nümunəsində görmək olar. Bundan əlavə, nurun daim hərəkətdə olmasını nəzərə alaraq demək olur ki, bu, hərəkətdə olan bir vəhdətdir. Hətta sükut halında olan bir şeyin də daxilində işığın hərəkəti var və o, digər varlıqlarla əlaqə yarada bilir. Mənsur Həllacın rəsmlərindən birində tövhid dairələr şəklində təsvir olunur (*sxem 30*): böyük dairə – Allahın imkanları, ikinci dairə – yaratdıqları, kiçik, "üçüncü isə tövhidin mənası, mahiyyətidir".[2] Bu rəsmi sxem 28-lə müqayisə etsək, tövhid dairəsinin özündə nur ehtiva etdiyi məlum olar. Vəhdət hamısı əhatə edən bir şey deyil, nüvə kimi daxildədir. Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi, maddi dünyada vahid işıq ayrı-ayrı varlıqlar şəklində vasitəsilə parçalanıb, fraqmentləşib. Lakin kvant fizikasının eksperimentlərinin nəticəsinə görə, hər varlıq yalnız öz maddi forması ilə məhdudlaşmır. Başqa sözlə desək, fraq-



*Sxem 30. Tövhid*

---

[1] Bünyadzadə. Şərq və Qərb..., s. 190.
[2] Həllac, Təvasin, s. 63.

mentlər yalnız zahirdədir, noematik qatda isə vəhdət qorunub saxlanır.

İlk nurla ondan uzaqda olan ən son eydosdakı nur arasında neçə aləmin olmasından asılı olmayaraq bir həqiqət var: universal aləmdə bütöv bir nur axını var. Bəzən sükut halında dalğa, bəzən həyəcanlı halında zərrə olması, noema kimi sistemləşib, yaxud noeza kimi onları birləşdirməsindən asılı olmadan, bu axın daimidir, çünki daxili qanunauyğunluqla hərəkət edir, sabitdir. Hər eydos aid olan nur zərrələrinin ümumi sistemi eydedik sistemə uyğundur – hər alt noemanın nüvəsi üstdəkinin xüsusiyyətidir. Nəticədə eydoslar özlərinin malik olduğu nurdan əlavə həm də nüvədən nurlanırlar və bu, onların İlkmənbə ilə əlaqəsidir. Müəyyən bir varlıq ilkmənbədən ayrı düşsə belə, onun nuru məhv olmur, çünki eydosu yaradan və məhv edən Mütləq İradə sahibidir. Sührəvərdi yazır: "Hər üstdəki mərtəbə özündən aşağıdakına nur saçır, hər aşağıdakı mərtəbə Nurlar Nurunun şüasını özündən üstdəkinin vasitəsilə rütbərütbə alır".[1] Sührəvərdidən fərqli olaraq, bizim fikrimizə görə, hər eydos özü də ayrıca nura sahibdir. İyerarxik mərtəbələr isə özündə daha kiçik noemaları ehtiva edən böyük noemalardır. Sufi fenomenologiyaya görə, naqis nur yoxdur, nüvədən uzaq olan eydosların nuru var. Yalnız ən son noemanın sonuncu xüsusiyyəti hansı isə alt noemanın nüvəsi deyil, yəni başqa eydoslara nur paylamır. Keyfiyyətinə görə bütün nurlar eynidir, çünki vahid axına tabedirlər. Əslində, Sührəvərdi də eyni fikirdədir: "hər nur özlüyündə həqiqətinə görə deyil, yalnız kamal və naqisliyə və zahiri işinə görə fərqlənir".[2] Maraqlıdır, deməli, naqislik həqiqətində deyil, çünki Yaradan verib onu. Təhlildən belə məlum olur ki, naqislik işığın azlığından irəli gələn bir xüsusiyyətdir. Nüvənin işığı köməkçi eydosun işığından artıqdır. Monadların kamilliyinə izah verən Leibniz yazır: "Yaradılmış digərindən daha kamil olur, çünki onda digər yaradılmışda baş verənləri apriori olaraq izah edən şey var, ona görə də deyirlər ki, o, digər yaradılmışa təsir edir".[3] Təsir etmək gücünə malik işıq daha güclü, daha kamil hesab olunur. Yəni bir şeyin kamilliyi onun tər-

---

[1] Sührəvərdi. Hikmət əl-İşraq, s. 140.
[2] Yenə orada, s. 119.
[3] Лейбниц. Монадология, с. 421

kibindəki işıqla ölçülür. İnsan bu baxımdan kamilləşə bilir və onun biliyinin artırmaq istəyi əslində işığının həcmini və radiusunu artırmaqdır. Bu, emanasiya deyil, sadəcə bütün eydosların (noemaların) nurları arasında əlaqənin varlığıdır.

Noema eydoslar sistemidir, məntiqlə həm də nur sistemidir. Müvafiq olaraq noematik nüvə aparıcı, mahiyyəti edən, köməkçi eydoslara isə onun reallaşmasına kömək edən xüsusiyyətlərdir. Sührəvərdinin terminləri ilə desək, işıq iyerarxiyasında üst işıqlar hakim, alt işıqlar isə ona qarşı sevgi hiss edib ona meyllənən işıqlardır. Sührəvərdinin yazdığına görə, qahir nurlar "bütünlüklə mücərrəddirlər, müdəbbir nurdan daha şərəfli və zülmətlərlə əlaqədən daha uzaqdırlar, onlar şərəflidir".[1] İdrak prosesi hissi idrakdan – maddi aləmdən başlayır, yəni idrak konkretdən mücərrədə doğru gedir. Noema qatı məhz həmin mücərrəd qatdır. Sufi fenomenologiyaya görə, insan istənilən, hətta köməkçi nurdan da başlayaraq öz idrak trayektoriyasını cıza bilər, çünki daxili vəhdət buna imkan verir. Eyni zamanda, öz yaradıcılığında hər hansı bir noemanın xüsusiyyətini nüvə kimi istifadə edərək, yeni bir struktur formalaşdıra bilər. Burada əsas şərt ümumi nur ahəngini qorumaqdır ki, son nəticədə nur zərrələri yenə dalğa halına qayıda bilsin.

İnsan nur iyerarxiyasında ən aşağı – maddi dünyada yerləşən bir noemadır. Lakin maddi dünyanın noemasının tərkib hissəsi, xüsusiyyəti deyil, ondan ayrıdır və daha üst noemaya tabedir. Nurunun iradə edici və aydınlandırıcı mahiyyəti onu digər noemalardan fərqləndirir. Əvvəla, o, öz universal qanunauyğunluq içərisində öz sistemini, öz iyerarxiyasını qura bilir. İkincisi, iradəsi ilə həm öz nurunu, həm də digər noemaların nurunu istiqamətləndirir, noemanın daxili strukturunu dəyişdirir. Üçüncüsü, o, başqa nurları zəbt etməklə öz nurunu artıra bilir. Bu xüsusiyyəti ona iyerarxiyanın üst qatlarına da yüksəlmək, onların həqiqətini qavramaq qabiliyyəti və hər hansı noema üzərində öz ideyasının noemasını yaratmaq qüdrəti verir.

İlahi iradə ilə yaradılmış dünya vahid nur sisteminə malikdir.

---

[1] Sührəvərdi. Hikmət əl-işraq, s. 154.

Yaradandan fərqli olaraq, insan bu sistemin yalnız özü daxil olduğu və şüurunun çatdığı, müdaxilə edə bildiyi qədər tanıyır və həmin radiusda öz iyerarxiyasını qurur. Burada iki maraqlı fərqli trayektoriya izləmək mümkündür. Birinci halda, insan noema qatına enmədən təbii quruluşa müdaxilə edir və nə isə yaratmağa cəhd edir. Bu zaman vahid nur axınını pozur, bəzilərini ümumiyyətlə mənbədən ayrı salır. İlahi iradə insan iradəsində güclü olduğuna görə, ona tabe olan vahid nur axını da müəyyən müddət ərzində özünü bərpa edə bilir, yəni insanın yaratdığı məhv olur. Təbii quruluş ilk halına dönməsə də, ayrı düşmüş noemalar təkrar ümumi sistemə qoşulur və enerji axını bərpa olunur. İkinci halda isə, insan noema qatına nüfuz edərək öz noemasını yaratmağa çalışır. Biz xüsusi olaraq noeması deyirik, çünki yalnız ümumi qanunauyğunluqla doğmalaşa bilən noemanı sonradan reallaşdırırlar. Bu yaradıcılıq zamanı o, hər nə qədər müəyyən noemaları dağıtsa da, bəzi nurları öz iradəsi ilə həyəcanlandırıb istiqamətini dəyişsə də, işin nəticəsi vahid nur axınının bir hissəsinə çevrilir, ona görə də tədricən nur zərrəcikləri sakitləşib ümumi nur dalğasına qoşulur. Bu səbəbdən belə kəşflər, sənət əsərləri zaman-məkan fövqünə qalxa bilir, ümumbəşəri mahiyyət qazanır.

### *§ 121. Noemaların formalaşması – işığın təcəllisi*

Sührəvərdinin İşraq fəlsəfəsində Nurlar Nurunun hər təcəllisi, hər mərtəbəsi böyük diqqətlə təsvir və təhlil edilir və belə məlum olur ki, burada Yaradan, ilahi iradə yoxdur. Onun fəlsəfəsində Plotinin, məşşai filosofların təsirini nəzərə alsaq, bu, təəccüblü görünməməlidir. Lakin bu da danılmaz bir həqiqətdir ki, Sührəvərdinin görüşlərində məhz sufizm aparıcı mövqe tutur. İşığın fəlsəfi mahiyyətini öyrənəndən sonra belə qənaətə gəlmək olur ki, filosof adi bir yaradılış prosesinin deyil, onun mahiyyətində duran nurun təcəlli sistemini qurub. Sührəvərdi işığın hərəkətverici, ideya daşıyıcılıq funksiyasının və bütün yaradılmışların mahiyyətində var olmaq məntiqinin fəlsəfəsini yazıb. Sufi fenomenologiyada İşraq fəlsəfəsindən geniş istifadə edilsə də, proseslər əks istiqamətdə nəzərdən keçirilir və hər hansı ideyanın əsaslandırılması

üçün həm Plotinə, həm də müəyyən dərəcədə elmi mülahizələrə, xüsusilə kvant fizikasına müraciət etməli oluruq.

Plotinə görə yaratma aktı Ağla/Nousa aiddir və o, bunu sezməklə həyata keçirir: "Orda, fövqəlhissi (ilahi) aləmdə iki və istənilən hər rəqəm mahiyyətcə Ağıl və onun eydoslarıdır. Həm də qeyri-müəyyən ikilik substrat yaxud materiya kimi qəbul edilə bilər... Əslində, Ağıl bu formaları qismən İlkvəhdətdən asılı olaraq, qismən də, müşahidə aktında nəzərlərin sezməsi kimi özü yaradır, çünki düşüncə sezən nəzərdən başqa bir şey deyil, həm də sezgini həyata keçirən vasitəni də sezən nəzər".[1] Burada iki məqama diqqət yetirək: 1) İlkvəhdət təkdir, sükutdadır, yaradan deyil; 2) Ondan süzülərək yaranmış Ağıl Onu sezməklə və bununla da İlkvəhdətin sükutunu pozmaqla bütün eydosları, yəni çoxluğu yaradır. Deməli, yaradan üst, daha qüdrətli varlıq yox, onu sezən, müşahidə edəndir. Əsrlər sonra bu ideya kvant fizikasında eksperimentlə qismən öz təsdiqini tapdı. Belə ki, Heizenberqin də dediyinə görə, "mümkündən gerçəkliyə keçid müşahidə prosesində baş verir".[2] Sufi fenomenologiyada əvvəlki təcrübələrə əsaslanaraq belə qənaətə gəlmişik ki, ilahi iradə ilə həyəcanlanan vahid enerji selindən eydoslar və noemalar yaranır, insan iradəsi və müşahidəsi ilə idrak prosesi baş verir və yenə də noemalar yaranır. Əvvəlki paraqrafımızda da dediyimiz kimi, korpuskullar həyəcanlanmış dalğadır. Özlüyündə neytral və sakit sahəni həyəcanlandıran isə xarici təsirdir. Yaradanın Nuru – sonsuz işıq elə onun Öz müşahidəsi ilə bir gerçəklikdən başqa formaya keçir. Bu, Təkin elə Onun öz hüdudlarında, mülkündə çoxalmasıdır. Burada əsas hikmət müşahidənin vahid selinin aktivləşib zərrələrə – nöqtələrə ayırmasındadır. Başlanğıc nöqtədir.

Yaradılış, yaxud təcəlli çoxmərtəbəlidir. Plotində üç, sufizmdə və işraqilikdə beş, yaxud yeddi və s. mərtəbə var. Onların sayından asılı olmadan, hamısı potensial şəkildə ilk varlıqda mövcuddur, kənardan gəlmir. Bununla yanaşı, təkdən çoxluğa gedən yaranış, iyerarxik quruluş,

[1] Плотин. Эннеады, 5.1.5
[2] Гейзенберг В. Физика и философия. с.25

bir tərəfdən, ümumi, vahid bir noematik strukturun, daxili əlaqənin varlığını, digər tərəfdən, istənilən nöqtədən insan idrakının başlanğıc götürüb ucalmaq, öz "mülkünü" qurmaq imkanını təsdiqləyir. Məhz noematik struktur sayəsində insan çoxluqdan vahidə, müxtəliflikdən sadəyə doğru yaxınlaşa bilir. Buradan belə məlum olur ki, a) insan digər yaradılmışlarla – planetlər, mələklər, ruhlar və s.lə eyni strukturun tərkibindədir və b) insanın bu iyerarxiyanın harasında olmasından asılı olmada, onun idrakı hər tərəfə uzana bilir – özündən üst aləmlərə də, aşağıdakılara da. Bibliyada deyilir: "Tanrı dedi: Bizim surətimizdə və Bizə bənzər insan xəlq edək, dənizdə balıqlara, səmada quşlara, heyvanlara, bütün yer üzünə, sürünən ilan-çayana hökmranlıq eləsin. (Bibliya. Varlıq 1/26). Qurani-Kərimdə də insanın idrakının həddini təyin edən yalnız Yaradan özüdür və bu hədd çox yüksəkdədir. Sufi fenomenologiyaya görə, maddi varlığından asılı olmadan, şüuruna görə insan Yaradandan başlayan yaradılış zəncirinin son ucudur. Xüsusilə vurğulayaq ki, biz vahid enerji selini, yaxud sabit mənbələri deyil, məhz Allahın Özünü qeyd etdik. Düzdür, insan şüuru yalnız Loqosa qədər yüksəlməyi bacarır, lakin o ümumi vəhdəti, universal strukturu və onun bir Yaradanı olduğunu da dərk edir. Məsələn, fizikada daha xırda zərrəcikləri görmək üçün lazımi gücdə olan mikroskop yoxdur, lakin bu, həmin zərrəciklərin olmaması anlamına gəlmir. Alimlər məhz həmin mikroskopu yaratmaq üçün çalışır, həmin zərrəciklərin yoxluğunu sübut edəcək dəlillər axtarmır.

İnsanın idrakı və yaradıcılığı bir-birini tamamlayan, tənzimləyən qabiliyyətlərdir. Onun yaratdığı şüurunun imkanları çərçivəsindədir. Məsələn, müqəddəs mətnlərə görə, Musa peyğəmbər Mütləq varlıqla yalnız yanan ağac vasitəsilə danışa bilir – sonsuz nurun insan düşüncəsinə sığa bilən təcəllisi ilə. Hətta onda belə, vahimədən baxa bilmir. Qurani-Kərimdə deyilir: "Təyin etdiyimiz vaxtda Musa gəlib Rəbbi onunla danışdığı zaman o dedi: "Ey Rəbbim! Özünü mənə göstər ki, Sənə baxım!" Allah dedi: "Sən Məni əsla görə bilməzsən. Lakin bu dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görəcəksən". Rəbbi dağa təcəlla etdiyi zaman onu parça-parça etdi. Musa da bayılıb yerə yıxıldı.

Ayıldığı zaman: "Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!" – dedi (Quran 7/143). Təbiətdə də oxşar prosesə rast gəlmək mümkündür. Məlum olduğu kimi, günəş şüaları digər qaz təbəqələri olmasa, Yer üzünə birbaşa düşsə Yerdə bütün canlılar məhv olar. Halbuki, məhz maneələrlə, digər qazlar vasitəsilə zəifləmiş şəkildə yerə çatan Günəş şüası həyat mənbəyi hesab edilir. Kvant fizikasından tez-tez nümunə gətirdiyimiz işığın dalğa və korpuskul formalarına bir də bu aspektdən yanaşanda belə qənaətə gəlmək olur ki, insan böyük və güclü dalğadan düşüncəsinin tuta bildiyi qədər – zərrələri müşahidə edib, öyrənə bilir. Bəli, şübhəsiz ki, konkret varlıqlardan ibarət maddi dünya öz tutumuna görə məhduddur və buna görə də, iyerarxiyanın ən sonunda, sanki ilk noemanın ən uzaq xüsusiyyəti kimi yaradılıb. İnsanın da düşüncəsi məhduddur, lakin, daha əvvəl də qeyd etdiyimiz kimi, onun şüurunun ilahi aləmlə birbaşa əlaqəsinin mövcudluğu və böyümək potensialına malik olması onun imkanlarını, sərhədlərini genişləndirir. Fiziki baxımdan məhdud qalsa da, şüuru sayəsində sonsuzluğa çıxa bilir. Tanrı məhz Musaya – insana təcəlli etdi və o, çətinliklə olsa da, onu gördü, tanıdı, dağa təcəlli edəndə isə o, parça-parça oldu. Qurani-Kərimdə deyildiyi kimi, "Biz əmanəti göylərə, yerə və dağlara verdik, onlar onu daşımaq istəmədilər, ondan qorxdular. İnsan onu götürdü (yükləndi), o, zalım və cahil idi)" (Quran 33/72). Məsələ burasındadır ki, aldığı bilikləri sistemləşdirir, başqa şəkildə strukturlaşdırır. Yəni, belə düşünmək olar ki, biliklər toplu halda onun üzərində çöksə, o da dağlar kimi parça-parça olardı. Belə halları informasiya selindən əziyyət çəkən, təzyiq altında yaşayan insanlarda görmək mümkündür. İnsan aldıqlarını qaytarıb mövcud struktura yerləşdirir. Nils Borun dediyi kimi, "Əgər həyatda harmoniya axtarırlarsa, heç vaxt unutmaq olmaz ki, bu oyunda biz eyni zamanda həm tamaşaçı, həm də iştirakçıyıq".[1] İnsan özü də noemadır, eyni zamanda, özündən uzanan noezaları da görə bilən bir



*Sxem 31. Optik prizma.*

[1] Yenə orada, s. 27.

şüura malikdir. Əhəmiyyətli məqam da ondan ibarətdir ki, insan məhz işığın təcəllilərinin xəttini tutub getməklə digər noemaları qavramaq, üst aləmə ucalıb Loqos səviyyəsinə ucalmaq, mövcud strukturda öz strukturunu qura bilir. Qısa desək, insan işığı udmur, optik prizma kimi onu qəbul edir və fərqli şəkillərdə, rənglərdə ötürür (*sxem 31).*

### *§ 122. İntensiya və biliyin fraqmentarlığı*

Eydoslar fərqli mahiyyətlə, funksiyalarla yaradılır. Onların malik olduğu işıq eydosları daxil olduqları mahiyyətə uyğun olsa da, bir-birindən fərqlənmirlər. Bu, həm işıq axınının maneəsiz axınını, həm də vahid strukturun bütövlüyünü təmin edir. İnsan da məhz intensiyasına – nuruna səbəb digər varlıqların strukturuna nüfuz edir, onların əsasında yeni struktur formalaşdırır. Qeyd etdiyimiz kimi, insan istənilən bir nöqtədən öz idrak xəttini başlaya bilir. Bütün bu başlanğıcları, §26-da biliyin mənbələrini təhlil edəndə, üç kitab – səmavi kitab (ilahi vəhy), təbiət və insan kimi təqdim etmişdik. Əslində, kitab ideyası genişdir. Məsələn, Taha Cabir Əlvani yazır: "İki kitab (səmavi kitab və təbiət – *K.B.)* hökmən uzlaşdırılmalıdır, zira onlar bir-birini tamamlamayanda gerçəkliyin həqiqi dərki itirilmiş olur".[1] Məhəmməd İqbal isə sufizmə istinadən insanın mənəvi aləminin oxunmasını çox vacib hesab edir və digər ikisini (tarix və təbiəti) onun «əlavə vəsaiti» kimi götürür: "Qurani-Kərimin üç idrak (bilik) mənbəyindən biri kimi bəyan etdiyi (Quran 41/53; 51/20-21) daxili təcrübənin vəhdətinin mənasını başa düşməyə çalışan ancaq sufizm olmuşdur. Digər iki bilik mənbəyi isə Tarix və Təbiətdir"[2] və "Məhz bu iki bilik mənbəyi tədqiq edilərsə, İslamın ruhu və canlılığı meydana çıxar".[3] Belə məlum olur ki, insan ruhu, batini təcrübə deyəndə, filosof burada həm də ilahi vəhyi nəzərdə tutur, daha doğrusu, insa-

---

[1] al-Alwani Taha Cabir. *Issues in Contemporary Islamic Thought*. London-Washington. 2005, p. 32-33.

[2] İqbal Məhəmməd. "İnsan "mən"i, onun azadlığı və əbədiliyi". Fəlsəfə və sosial-siyasi elmlər, № 3, 2009, s. 193.

[3] İqbal Məhəmməd. "İslam mədəniyyətinin ruhu". Fəlsəfə və sosial-siyasi elmlər, № 1, 2009, s. 176.

nın özünü ilahi kitab kontekstində götürür. Səlahəddin Xəlilov sonuncu mənbəni daha geniş götürür, yəni insanın yalnız ruhunu, mənəvi təcrübəsini deyil, həm də ideya dünyasını nəzərə alır. Onun fikrinə görə, insan özündə yalnız ilahi aləmin deyil, həm də maddi aləmin ideyasını ehtiva edir: "İdeyanın canlanması zamanı insan subyekt kimi çıxış edir. Lakin insan başqa bir ideyaya qatılarkən… əslində ideyanın obyektinə … çevrilə bilər… və insan özü canlandırdığı ideyanın strukturuna daxil olur. Həm tam, həm hissə… Bir struktur səviyyəsində tam, başqa struktur səviyyəsində hissə!"[1] Öz düşüncələrində Platona istinad etsə də, onu da iddia edir ki, hər üç kitab eyni həqiqətləri fərqli şəkildə əks etdiriblər: "Platon yeganə həqiqət kimi mütləq ideyaları və deməli yeganə həqiqi kitab kimi də ideyalar dünyasını götürmüşdür. Sadəcə olaraq, Platon maddi dünyada, təbiətdə olan həqiqətləri ancaq insana bəlli olan rəylər kimi qəbul etmiş, amma insanın ardıcıl surətdə yaxınlaşdığı, araşdırmalarının və idrakın məqsədi olan mütləq həqiqətlərin təbiətdə də mövcud olduğunu qəbul etməmişdir".[2] Əvvəlki təhlillərimizdə də vurğuladığımız kimi, hər kitabın öz yanaşma metodunun olması zəruridir. Düzgün metod kitabın nuruna çatdırır və bu zaman onun daxili struktur açılar. Yalnız bu zaman bəlli olur ki, hər üç kitab vahid strukturun həm fərqli dildə, həm də onun fərqli tərəflərinin ifadəsidir. Bizim fikrimizə görə, insanın əhəmiyyəti onun kitab olmaqla yanaşı, həm "oxucu", həm də "yazan" olmasındadır. Onun bu keyfiyyətləri bir kitab kimi məzmununda mütləq əks olunur. Eyni zamanda məhz bir oxucu olaraq insan gah təbiət, gah da ilahi vəhyin əhəmiyyətini önə çəkir. Bu, subyektiv yanaşmadır. Məsələn, təbiət elmlərinin sürətli inkişafı, xüsusilə Qalileyin kəşfləri ilə kilsə siyasətinin münasibətlərini təhlil edən Heizenberq ilk başda kilsənin nəinki elmin əleyhinə çıxmadığını hətta ona dəstək vermək istədiyini yazır: "Əksinə, [kilsə] ilahi vəhyin iki növündən danışır. Biri Bibliyada, digəri isə təbiətin kitabında yazılıb. İlahi mətn insanlar

---

[1] Xəlilov S. "Fəlsəfi etüdlər". Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, 3-4, 2006, s. 125.

[2] *S.Xəlilov.* İslam fəlsəfəsi nə vaxtdan başlayır, Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, 1, 2010, s. 25-26.

tərəfindən yazılıb və bu səbəbdən insan yanılmalarının təsirinə məruz qalmışdır. Təbiət ilahi iradənin bilavasitə ifadəsidir.[1] Heizenberqin sözlərindən belə məlum olur ki, insan özü bir kitab kimi obyektiv olsa da, başqa "kitabları" oxuyanda da, yazanda da subyektivdir. Çünki əvvəlki paraqrafda da qeyd etdiyimiz kimi, insan aldığı bilikləri öz prizmasından keçirir, öz sisteminə daxil edir, ən vacibi isə, o obyektiv həqiqətdən öz şüurunun imkanı qədər qavradıqlarını çatdırır və biz digər bütün kitabları məhz bu subyektiv prizmadan tanımalı oluruq. Başqa sözlə desək, biz insanın qurduğu noemalarla obyektiv həqiqəti öyrənirik.

Şüuru məhdud, onun qavradıqlarını obyektiv dünyanın yalnız bir hissəsi adlandırsaq da, xatırladaq ki, bu, kifayət qədər böyük həcmdə böyümək imkanına malikdir; bir dəfə işıqlanan bilik ümumiləşir və bütün insanların şüurunun xarici radiusunu genişləndirmiş olur. Eyni zamanda, məhz şüurun qurduğu noemalarda hər üç kitab arasındakı fərqlər ortadan qalxır, vahid struktur qurulur. Əlbəttə, biliklərin mənbələrini kitablar şəklində təsnifləşdirən insan olsa da, bu, obyektiv həqiqətdir. Bu da məlum faktdır ki, bəzən insanın qavradığı həqiqət oxuduğu kitab çərçivəsində olur. Bununla belə, məhz obyektiv həqiqət axtaran və bunun üçün noemalar həddinə qalxan insan üçün mənbələr arasında fərq qalmır.

Noema səviyyəsində bilik əldə etmək bacarığı şüurun başlıca üstünlüyüdür. Xatırladaq ki, Tesla da istənilən ideyanı əvvəlcə ideya olaraq təhlil etməyi və bundan sonra eksperimentə keçməyi təklif edirdi, çünki şüurun imkanları daha genişdir. Məsələn, kvant fizikasının bir çox eksperimentlərini keçirtmək üçün hələ lazımi avadanlıq kəşf edilmədiyinə görə kvarkların, yaxud fotonların hərəkətini, hallarını müşahidə etmək mümkün deyil. Yaxud kosmosdakı qara dəlik hər hansı cihazla əyani şəkildə qeydə alınmayıb. Ən nəhayət Yaradanın varlığı bütün düşüncələr, ideyalar fövqündədir və mövcudluğunu sübut edəcək hər hansı formul, nəzəriyyə yoxdur. Bunlar şüurun noema qatında gəldiyi qənaətlər, qavradığı və əmin olduğu həqiqətlərdir. İncildə yazılır: "Siz nə vaxtsa qaranlıq idiniz, ancaq indi Rəbbinizdə olanda siz işıq oldunuz.

---

[1] Гейзенберг. Физика и философия, с. 123.

İşığın bəhrəsi isə bütün xeyirxahlıq, doğruluq və həqiqətdir" (Bibliya. Efeslilərə 5/8-9). Yəni insan öz işığı ilə ümumi işıqlar strukturuna çatmaqla onları dərk edir, tanıyır.

Maddi dünya yaradılış iyerarxiyasının sonundadır və varlıqlarının müxtəlifliyi, konkretliyi və çoxsaylı qanunauyğunluqları ilə fərqlənir: fizika qanunları, cəmiyyət qanunları, bioloji həyat, ruhani həyat və s. Məsələn, kimya və fizika qanunları heç də həmişə biologiya üçün keçərli olmur. Yaxud Yer kürəsində hakim olan təbiət qanunları qalaktikanın başqa planetlərində, hətta Ayda da işləmir. Hətta bir neçə əsr əvvəl kəşf olunmuş qanunlar müasir elmlə inkar edilə, yeniləri diktə oluna bilir. Yəni ilk baxışda hər hansı vəhdətdən söz gedə bilməz. İlk baxışda belə təəssürat yaranır ki, işıq zərrəcikləri səpələnmiş, ilk baxışda hətta bir-birindən təcrid olunmuş şəkildədir. Burada bir neçə əhəmiyyətli məqama diqqət yetirək. Birincisi, maddi formanın fövqündə noematik struktur var. Həllac yazır: "Onları ad, şəkil və əlamətlərlə pərdələyənə sübhan olsun! O, onları deyim və halla, kamal və camalla əzəli və əbədi olandan pərdələyib. Ürək daxili orqandır, mərifət orada yerləşə bilməz, çünki o, rəbbanidir".[1] Mütəfəkkirin də dediyi kimi, maddi forma məhz pərdədir. Maddi dünyanın müxtəlifliyi hər şüur səviyyəsində olan insanlar üçündür, noematik struktur, vəhdət isə yüksək şüurlu – öz mahiyyətini tanıya bilən insanlar üçün. İkincisi, xatırladaq ki, maddi dünyada insan öz mülkünü qurur və onun düşündükləri nə qədər universal qatı ehtiva etsə də, yaratdıqları maddidir və bu, əvvəlki strukturu dağıtmaqla, yaxud dəyişməklə mümkündür. Maraqlı bir mənzərə alınır: daxildə vahid struktura malik bir nur sisteminin üst qabığını insan istədiyi kimi dağıdır, dəyişdirir. Məsələn, məlum olduğu kimi, insan yer qabığının üst münbit hissəsində nə isə əkib, becərir. Yer kürəsini və onun varlıqlarını da torpağa bənzətmək olar. Bu, ümumi biliklər sahəsidir və insan onu öz xeyrinə də dəyişdirə bilir, ziyanına da.

Noematik qat vəhdətin şahidi olmaqdır. Kiminsə onu öz ideyasının strukturu üçün dəyişəcəyi, bir başqasının isə obyektiv bir qanunauy-

[1] Həllac. Təvasin, s. 73.

ğunluğu kəşf edəcəyi artıq şüur sahibinin intensionallığından asılıdır. Bu vəhdəti tanıyan şəxsin üst qabığa da münasibəti dəyişir. İbn Ərəbi bunu belə ifadə edir: "Haqq zahirdirsə, xəlq Onda pərdəlidir. Əgər xəlq zahir olarsa, Haqq xəlqdə pərdəli olur və batini olur və Haqq xəlqin eşitməsi, görməsi, əli, ayağı və bütün qüvvəsi olur. Hədisdə deyildiyi kimi: "Mən sevdiyim qulumun eşidən qulağı, görən gözü… oluram".[1]

Deyilənlər belə bir sualın yaranmasına səbəb oldu: müxtəliflik dolu dünyada yaşayan və ilk həqiqətləri də onların sayəsində alan insan biliyi hansı şəkildə alır: kəsintili, yoxsa davamlı? Bu sual kvant fizikasında da müzakirə obyekti olub və "kvant sıçrayışları" anlayışı daxil edilib: "Biliklərimiz müşahidənin təsiri ilə kəsintili şəkildə dəyişir, ona görə də "kvant sıçrayışları" deyirik".[2] Sufi fenomenologiyada mənzərə nisbətən fərqlidir. Hələ §56-da biz fenomenoloji reduksiyanın sıçrayışlarla irəliləmədiyini qeyd eləmişdik. Daha sonra belə bir qənaətə də gəlmişdik ki, şüur öz imkanlarına görə işıqları dalğa deyil, məhz zərrələr şəklində alır. Noes, yaxud noemalar zərrəciklərin müvəqqəti, yaxud daimi strukturlaşmış formasıdır və şüur onları qavrayandan sonra özündə təhlil etməli, özünüreduksiyadan keçirməlidir ki, növbəti mərhələyə başlaya bilsin. Əks halda bilik qavranılsa da, təkan olmayacaq və şüur inkişaf edə bilməyəcək. Müəyyən ziddiyyət görünsə də, məsələyə aydınlıq gətirək. Obyektiv şəkildə nur dalğa şəklindədir və kəsilmir. Onu kəsən idrak prosesi – insanın nurudur. Lakin insanın öz şüurunun axını sıçrayışlarla irəliləmir və kəsintili halda qəbul elədiyi biliklər şüurunun axarına düşür.

### *§ 123. Noezaların ümumiliyi və xüsusiliyi*

Obyektiv halda yaradılmış varlıqlar noema və noezalardan ibarətdir. Ümumiləşmiş biliklərdə bu sistemləşmə əhəmiyyətini itirir və ortada yalnız ayrı-ayrı konkret həqiqətlər, biliklər qalır. Obyektiv halda noema və noezaların işıqları dalğa şəklində olduğuna görə, onlar fərqlənmir

[1] İbn Ərəbi, Fusus əl- hikəm, s.81.
[2] Гейзенберг. Физика и философия, с. 25.

və vahid bir strukturu kimi mövcuddur. İdrak prosesində və şüurun bilavasitə obyektlə təması zamanı həyəcanlanmış zərrəcikləri sayəsində noemalar və noezalar müşahidə edilir. Bu baxımdan, artıq ümumiləşmiş həqiqətlərin də təkrar öyrənilməsi artıq sakitləşmiş strukturu həyəcanlandıra bilir. Bu, subyektiv hadisədir. Məsələn, Tesla elmdə müəyyən səviyyəyə gəlib öz ixtiralarını etmək üçün özündən əvvəlki fizika qanunlarını öyrənməli, təhlil etməli olmuşdur, sadəcə öz ideyasının işığında. Dediyimizdən belə nəticə çıxır ki, hər yeni ideyanın təsiri ilə işıqlanan noezalar xüsusi olur. Noema əvvəldən öyrənilmiş və ümumiləşmiş həqiqət kimi məlum olsa da, məhz yeni noeza ona yeni baxış bucağı açır. Bu baxımdan, noeza xüsusi olur. Belə məlum olur ki, istənilən ümumiləşmiş sahədə xüsusi biliklər mövcuddur, bunun üçün yalnız baxış bucağını dəyişmək, fərqli noezalar tapmaq lazımdır. Noezalar yalnız ilk dəfə xüsusi olur, bir yol yalnız bir dəfə işıqlanır, sonrakı cəhdlərdə artıq buna ehtiyac qalmır, həmin yol artıq işıqlanmış sahənin tərkibinə qarışır və ümumi sahəni böyüdür.

İdrakın başlanğıc nöqtəsi insanın öz noeması – şüurdur. Deməli, ilk ideyaya uyğun olaraq artıq məlum ideyalar arasından xüsusi bir noeza seçilməlidir. Bu, məhz şüurun öz noezasıdır və subyektiv dünyanın obyektlə yeni təmas nöqtəsinin axtarışıdır. Eyni zamanda, şüurun öz imkan və potensialının təftişidir. Özünüreduksiya nə qədər geniş və dərindən aparılarsa, bir o qədər noezaların da sayı çox və dəqiq olar. Xüsusilə qeyd edək ki, ümumiləşmiş sahədə yalnız noezalar xüsusidir, noemalar deyil. Buna görə də fenomenoloji reduksiya daha sürətli gedir. Məsələn, müasir insanın təbiət haqqında bilikləri, təsəvvürü daha geniş, daha çoxdur, nəinki qədim insanın. Bu da elmin inkişafının hər dəfə sıfırdan başlamayıb, əvvəlkinin davamı olmaq imkanı verir. Gələcək də həmin sahə təkrar sakit hala qayıdanda xüsusi noezalar onun içində əriyib yox olacaq, yalnız son nəticə qalacaq.

Hər nə qədər noezanın seçilməsi subyektiv olsa da, obyektiv noezaların da əhəmiyyəti böyükdür. Az əvvəl qeyd etdiyimiz kimi, şüur təmas nöqtəsi axtarır. Obyektiv noeza məhz həmin nöqtədədir. Xüsusi noe-

za mütləq ümumi sahədən kənara çıxmaq və mövcud işıqlı sahəni genişləndirmək imkanı verir. Bu o deməkdir ki, müəyyən mərhələdən sonra şüur işıqlandırılmış, ümumi sahədən kənara, qaranlıq sahəyə keçməli olacaq. Buna görə də biz vurğulayırıq ki, xüsusi noezanın seçilməsində həm şüurun intensiyasının gücü, həm də ilk ideyanın mahiyyəti böyük rolu var. Edilən hər elmi ixtira, yeni kəşf məhz bu yolu keçir və həyəcanlanmış zərrəciklər ümumi sahəyə qoşulmaqla, dalğa halını almaqla nəticələnir.

Noezaların subyektivliyini tez-tez vurğulamaqla biz, bir tərəfdən, onların çoxluğunu və rəngarəngliyini ön plana çəkmək istəyirik, digər tərəfdən, onların nisbiliyini və keçiciliyini. Elm tarixində belə məlumatlar var ki, dünyanın ayrı-ayrı məkanlarında fəaliyyət göstərən iki alim qısa müddət fərqi ilə eyni elmi nəticəyə gəliblər. Məsələn, diferensial və inteqral hesablamaların formalaşmasını İsaak Nyuton və Qottfrid Leibniz tapıb, qeyri-evklid həndəsəni Rusiyada Lobaçevski və Macarıstanda Yanoş Boyyai, Almaniyada Karl Qauss ixtira edib və s. Bu, bir noemaya gedən noezaların çoxlu və fərdi, subyektiv olmasını təsdiq edir. Bəli, noema təkdir və ona çatandan sonra eyni nəticənin əldə edilməsi, hətta müəyyən hesablamaların, düşüncələrin eyni trayektoriya boyu irəliləməsi məntiqlidir. Noeza isə həqiqətlərə baxış bucağı, onları əlaqələndirmək yoludur və hər şüur bunu öz bacardığı kimi, imkanları daxilində başlayır və irəlilədir.

Noeza qapalı bir yol deyil, zərrəciklər xaosu arasından keçən xətdir. Yeri gəlmişkən, xatırladaq ki, xaos dediyimiz əslində bizə məlum olmayan obyektiv noezalar, hətta ola bilsin hansı isə noemanın hissələridir. Öz ideyasına uyğun yolun seçilməsi başqa zərrələrlə təmasda olmaq, başqa şüurların noezaları ilə kəsişmək, noematik dumana, hətta düyünə düşmək deməkdir. Burada şüurun bəlli xətt boyunca irəliləməsinin, dolaşıq məqamlardan çıxmasının tək təminatı onun intensiyasıdır. Onu xüsusi edən də məhz bu keyfiyyətidir. Maraqlıdır ki, bəzən alimin özü təhlil yolunu təkrar keçməklə yeni detallar, incəliklər, nəzərdən qaçırdığı məqamları görə bilir. Yaxud eyni yolu getməyə çalışan bir baş-

qası sonda tamamilə yeni bir nəticəyə gəlir. Məsələn, orta məktəbdə, universitetlərdə eyni bilikləri mənimsəyən tələbələrin heç də hamısı noeza axtarışında olmur, olanlar da eyni yolla getmir. Şüurun intensiyası yalnız öz yolunu işıqlandıra bilir, kənardan görünmür, izah edilsə belə. Kənardan görünməsi üçün onun fərdilikdən, xüsusilikdən çıxıb ümumiləşməsi lazımdır, yəni həm müəyyən nəticə əldə edilməli, həm də şüurun sistemində yerləşib, rasionallaşmalıdır.

Noeza xüsusidir olmaqla yanaşı, həm də təkə aparan ümumidir. Noema isə xüsusidir və təkdir. Şüurdan və yanaşmadan asılı olaraq noeza dəyişir, genişlənir, daralır, mümkün variantlar sınanır. Noema isə təkdir və dəyişə bilməz. Düzdür, fərqli insanlar onun ayrı-ayrı hissələrini dərk edir və nəticədə sanki təklikdən çıxır. Lakin nəzərə almaq lazımdır ki, onlar bir vahidin tərkib hissələridir və sonda həmin hissələrin toplusu tək həqiqəti təqdim edəcək. Noezalar isə çoxdur və istənilən anda, kəsişmə məqamlarının birində başqa yerə istiqamətlənə, qavradığı yeni bilik əvvəlki rəyini tamamilə dəyişə bilər. Obyektiv noema dəyişmir. Şüur onu tam qavrayana qədər subyektiv formalaşdırdığı noemalar, noeslər dəyişəcək və bunlar noezalar vasitəsilə baş verəcək.

Qeyd etdiyimiz kimi, noeza şüurun özündən başladığına görə, intensiya nə qədər güclü olarsa, bir o qədər noeza da aydın və dəqiq olar. Şüurun üfüqünü genişləndirən və aydınladan özünüreduksiyadır. Nikola Tesla "Gündəliy"ində özü ilə Edisonun metodlarını müqayisə edərək yazır: "Mən bir neçə dəfə demişəm, indi yenə təkrar edirəm ki, Edisonla mənim metodlarımız fərqlidir. Mən – mütəfəkkirəm. Mən əvvəlcə problemi hər tərəfli düşünürəm, sonra eksperimentlərə başlayıram. Mənim hər eksperimentim hələ başlamamış, ciddi-cəhdlə hər tərəfli sadəliyinə, çəldliyinə və dəqiqliyinə görə düşünülür".[1] Düşünmək – özünüreduksiyadır və özünüdəyərləndirmədir. Tesla məhz bu metoddan istifadə etdiyinə görə, həm öz eksperimentlərindən, həm də onun nəticələrindən əmindir, çünki aparıcı qüvvə şüurun intensiyasıdır. Bununla yanaşı, kənar müdaxiləni də unutma olmaz. Məsələn, uşaq öz kiçik planlarını atası

[1] Тесла. Дневники, с. 15.

ilə paylaşır, ondan məsləhət alır. Daha təcrübəli ata övladın diqqətini gizli və əhəmiyyətli cəhətlərə yönəldir. Bu, uşağın yerinə qərar vermək deyil, onun baxış bucağını genişləndirməkdir, şüurun çalışması üçün yeni biliklərin verilməsidir.

Şüur nə qədər yüksək səviyyəyə çatırsa, bir o qədər kənar müdaxilənin də gücü və səviyyəsi qalxır. Təsadüfi deyil ki, üstşüuru aktiv şəxsə belə təsiri ilahi iradə göstərir. Daha əvvəl də qeyd etdiyimiz kimi, bəzən ruhani təcrübə zamanı şüur məhz onun müdaxiləsi ilə hər hansı biliyi qavrayır. Bu, noeza da ola bilər, hətta noematik nüvənin özü də. Həmin həqiqət özünüreduksiyadan keçməyənə qədər şüur bunu bilməyəcək. Tesla deyir: "Mənim elmi metodum iki hissədən ibarətdir – ali qatdan mənə nazil olan nurlanma və mənim zehni işlərimin nəticəsi".[1] Yalnız özünüreduksiya zamanı şüur özünə lazım olan və öz səviyyəsinə uyğun olan yolu tam görür, hər hansı biliyin yetərsizliyini, yaxud yanıldıcı məlumatları seçə bilir.

İdrak prosesi üzərindəki yeni noemanın (bu, obyektiv noema da ola bilər, subyektiv də) enerji axını sabitləşməyənə və yeni bilik ümumiləşməyənə qədər noezanın zərrələri də sakitləşib dalğa halına düşmür. Bu, həmin ideya çevrəsinin tamamlanması, ilk və son nöqtənin birləşməsi və şüurunun özünün də sakitləşməsi deməkdir. Burada əhəmiyyətli bir məqamı vurğulayaq. Qeyd etdiyimiz kimi, özünüreduksiya zamanı şüurun belə çevrəsi bir neçə dəfə olur, hər yeni bilik təhlil edilir, ümumi sistemə salınır və s. Noemanı və daha sonra noezisin sakitləşməsi yalnız sonuncu, digərlərini də özündə ehtiva edən çevrənin tamamlanmasından sonra mümkün olur.

Artıq dərk edilmiş hər noema öz noezaları bir yerdə ümumiləşir. Burada diqqəti ona yönəldək ki, söhbət artıq işıqlanmış noezalardan gedir. Ümumiləşəndən sonra noezalar həm də bir növ əhəmiyyətini itirir. Məsələn, Nyutonun ümumdünya cazibə qüvvəsini kəşf etməsi ən müxtəlif versiyalarda nəql edilir. Lakin elm aləmi üçün maraqlı olan hazırda qanunun özüdür, kəşf yolları deyil. Yalnız hər hansı yeni bir ideya yeni

---

[1] Yenə orada, s. 10.

xüsusi noezaya ehtiyac hiss edər. Nəzərə almaq lazımdır ki, yeni ideya, yaxud idrakın növbəti mərhələsi yalnız noemadan başlanğıc götürə bilər, noezadan deyil, çünki noeza fərdidir, məhduddur və iki noema arasında mövcuddur. Noema isə başqa bir noemanın tərkib hissəsi olduğuna görə özündən sonrakı idrak mərhələsi üçün əhəmiyyətlidir. İşıqlanmış sahə məhz həmin qavranılan noemalar sayəsində böyüyür, noezalar deyil və noezaları təkrar dalğaya çevirən də noemaların qavranılmasıdır.

Nəhayət, onu da qeyd edək ki, hər noemanın dərki ümumi sahənin bir addım daha genişlənməsi, şüurların üfüqlərinin genişlənməsidir. Bu isə öz növbəsində noezalara təsir edir. İlk baxışda tamamilə ayrı görünən sahələr də bundan yaralana bilir. Məsələn, kvant fizikasının kəşfi bütün elmlərdə yeni bir baxış bucağı açdı. Əhəmiyyətli bir məqam kimi onu da vurğulayaq ki, hər kəşf, hər yeni ideya, sahəsindən asılı olmadan ümumiləşmiş sahədən sonrakı mərhələ olur, əlaqəsiz şəkildə, qaranlıqda bir ada kimi işıqlanmır. Həmin əlaqəni təmin edən noezalardır.

### *§ 124. Varlıq və yoxluq (§62-nin davamı)*

İnsan hansı fitri qabiliyyətlərlə, biliklərlə doğulsa da, şüuru inkişaf edənə qədər o, təbiət zəncirinin bir halqası olaraq mövcud olur və şeyləri müəyyən zaman və məkan çərçivəsində qavrayır. Onun varlıq və yoxluq haqqında təsəvvürləri və düşüncələri də ilk növbədə bu miqyasda dəyərləndirilir. Şüurun özünü tanıması və ruhu ilə əlaqə yaratması onun yaradılış iyerarxiyasında yerini dəyişir və o, təbiət zəncirinin halqası deyil, universal vəhdətin bir hissəsi olduğunu qavrayır. Bu, onun baxış bucağını da təsir edir. Zahirən heç nə dəyişməsə də, mənən hər şey dəyişir.

Birincisi, noematik strukturun bir zərrəsi olmaqla, o, universal səviyyədə enerji/nur axınına qoşulur. İnsan özü də universal vəhdətin bir üzvü olur. İkincisi, onun özünün də ətrafa, başqa şeylərə münasibəti fərqli müstəviyə keçir. İnsan maddi çərçivədən – ümumi bilik sahəsindən kənara çıxmaqla yanaşı, onu genişləndirmək imkanına və qüdrətinə malik olur. Deyilənlər, təbii ki, onun varlıq və yoxluq haq-

qında düşüncələrinə də təsir edir.

Universal vəhdət anlayışından danışırıqsa, hər hansı boşluq, yoxluq anlayışı əhəmiyyətini itirir. Məsələyə noematik struktur, nur prizmasından baxanda fərqli bir mənzərə alınır. Nurun iki halını – dalğa və korpuskulları xatırlasaq belə qənaətə gəlmək olur ki, dalğa halı yoxluq, onun zərrə halı isə varlıq kimi qəbul edilir. İlahi iradənin "yoxluqdan yaratma"sı həmin dalğanı həyəcanlandırmaqla onu zərrə halına gətirməsidir.

Sufi mütəfəkkir İbn Ərəbi yazır: "Allah Təala bizi yoxluq zülmətindən vücud nuruna çıxartdı, biz nur olduq" və "Allah bütün mövcudatlarda yayılan Nurdur ki, buna vücud nuru adı verilir".[1] Müəyyən mənada, əgər insan öz düşüncəsindən çıxış edirsə, o zaman sükutda və vahid halda olan dalğanın yoxluğa, zülmətə bərabər tutulması məntiqli görünür. Oradan "götürülmüş" hər hansı eydos varlıq qazanandan, daha dəqiq desək, müəyyən məna ilə digərlərindən seçiləndən sonra müəyyən noemanın tərkibinə qatılır, sonrakı mərhələlərdə şüur tərəfindən qavranıla bilir – var olur. Eyni proses insan yaradıcılığında gedir: o, öz daxilindəki "yoxluqdan" – potensialından bir ideyanı seçir və onu reallaşdırır. Bununla belə, unutmaq olmaq ki, zərrə və dalğa eyni şeyin fərqli halıdır. Onları fərqləndirən ideya ilahi yaradılış zamanı Mütləq varlığa aid olur, insanın yaradılışı zamanı isə onun öz bilik potensialından, yaddaşından, yəni onun varlığından doğulur. İdeyanı da sükutda olan dalğanın müəyyən bir şərtlə həyəcanlanmış zərrəciyi ilə müqayisə etmək olar. Yəni söhbət bir şeyin iki fərqli halından gedir.

Maddi dünya yaradılış iyerarxiyasının sonu – ən geniş hissəsidir. Bura, eyni zamanda, insanın mövcud olduğu və onun idrakının başladığı məkandır. Məhz onun idrakına və şüuruna uyğun olaraq, burada şeylər konkret varlığa – *tode ti*-yə malikdirlər, zaman isə indi olaraq tanınır. Başqa sözlə desək, burada nur sahəsi kiçik formalarda daha çox ifadə olunub deyə, onları həyəcanlandırmaq və zərrə halında müşahidə etmək

---

[1] Konuk A.A. Fususu'l-hikem, tercüme ve şerhi: 4 cilddə, III c., İstanbul: İFAV yayınları, 2000, s. 39.

daha asandır. Bununla yanaşı, həmin zərrələrdən kənar sahə insan təsəvvüründə məhz yoxluq kimi qalır.

Məsələyə 0 və 1 kontekstində baxanda, istər yaradılış prosesində, istərsə də, insan idrakında 0 – nurun sakit və dalğa halıdır. Bu, başlanğıcda hələ həyəcanlanmadan əvvəlki dalğa halı da ola bilər, proses arası – mövcud biliklərin sistemləşdirilməsi də, sonda – artıq formalaşması tamamlanmış varlığın vəziyyəti də. Birinci halda bütün yük şüurun öz üzərinə düşür, çünki bu, məlum ümumi sahədə yeni bir xətt cızmaq, artıq sabit sükut halında olan sahəni həyəcanlandırmaq iddiasıdır və bütünlüklə özünüreduksiyanın gücündən asılıdır. İkinci hal qavranılan bilikləri öz bilik sisteminə əlavə etmək və daxili nur axınını bərpa etməkdir. Bu, fenomenoloji reduksiyanın nəticəsidir və bir tərəfdən, kənar, yeni elmi özününküləşdirmək, digər tərəfdən, özünün kənar bir sistemlə doğmalaşmasıdır. Nəhayət, sonuncu hal prosesin sonudur, ilk ideyanın reallaşması və daxili işıq axınının maneəsiz hərəkət etməsi, həyəcanlı zərrəciklərin təkrar dalğa halına düşməsidir.

Bir isə prosesin özüdür, biliyin qavranılmasıdır – fenomenoloji reduksiyadır. Bu proses zamanı bir çox noemanın sükut halı pozulur. Cüneyd Bağdadi deyir: "Onların bildikləri özlərindən deyil, Onun (Allahın) bildirdiyini bildilər. Onlar qüvvətin yoxluğuna (fənaya) daxil oldular, yolun həqiqətlərini əldə etdilər və var olmaqlarının həqiqətlərinə yüksəldilər".[1] Hər bilik artıq var olanların qavranılmasıdır. Loqos inan şüurunu çata bildiyi ən böyük nur sahəsidir və dalğa halındadır. Bu mənada idrak prosesini və yaradıcılığı insanın öz yoxluğundan çıxıb ilahi "yoxluqda" əriməsi adlandırmaq olar.

Dediklərimizdən belə məlum olur ki, varlıq və yoxluq idrakın varlığı qavrama səviyyələridir: şüur işıqlandırdığı bilikləri, həqiqətləri var, qaranlıqda qalanları isə yox sayır. İnsanın ilk ideyası subyektivdir və onun reallaşması obyektiv quruluşla maksimum "doğmalaşmasıdır". Daha əvvəl də vurğuladığımız kimi, ilk ideya tam reallaşmayana qədər nur dalğa formasına keçmir, axına olan maneələr zərrələri də həyəcanlı

[1] Rəsail əl-Cüneyd, s. 46.

saxlayır. Tesla yazır: "Məndən başqa kim daha yaxşı bilər ki, həll olunmamış problem necə əzabverici olur! O, beyinə batmış tikan kimi, adama rahatlıq vermir. Tamamilə başqa şey haqqında düşünürsən, ancaq düşüncələr daim yolundan çıxır".[1] Əlbəttə, o da qeyd edilməlidir ki, söhbət şeylərin ontik deyil, məhz ontoloji varlığından gedir. Çünki noematik qatda ontik varlığın hüdudları ontoloji strukturda yox olur, bir çox hallarda, mənası, funksiyası dəyişir. Məsələ burasındadır ki, son nəticənin bəzən dalğa halına keçməməsinin səbəbi ilk ideya ilə obyektiv həqiqət arasındakı fərqdir. Başqa sözlə desək, subyektiv baxış bucağı, özünüreduksiya nə qədər güclü olsa da, insanın hər hansı şeyə şamil elədiyi "varlıq" forması noematik qatda öz həqiqi mahiyyəti ilə görünür və qavranılır. Uyğunsuzluq nur axınına maneə yaradır.

## *§ 125. Varlıq, nur və zaman*

Sxem 28-dən belə məlum olur ki, zaman eydosu və onun işığını ehtiva edir. Buradan gələn məntiqlə işıq həm eydosun, həm də zamanın hərəkətverici qüvvəsi olur. Zaman da öz növbəsində işığın hərəkətinin ölçüsüdür və ilahi və bəşəri zaman arasındakı fərq də buradan irəli gəlir.

İşığın müşahidəsi və öyrənilməsi onun halının dəyişməsinə səbəb olur: dalğadan zərrəyə, passivlikdən aktivliyə keçir və əksinə. Hər iki hal eyni olduğuna görə, bu, obyektiv zamanın gedişinə təsir etmir, onu sürətləndirə, yaxud ləngidə bilmir. Bunun üçün həmin şeyin bilavasitə təbii quruluşuna müdaxilə etmək lazımdır. Digər tərəfdən, bu, insanın obyektiv zamandan yalnız müəyyən bir hissəsinin, idrak çərçivəsinə sığdığı qədər ölçə bildiyinə dəlalət edir. onu tam, olduğu kimi tanıması üçün noematik strukturun özü bütövlükdə öyrənilməlidir. Buna görə də bəzən idrak prosesi zamanı, insan keçmiş və gələcəyi də indi də cəmləməyə çalışır. Burada iki cür münasibət var: bir var, keçmişi keçmiş olaraq, gələcəyi də gələcək olaraq *indi*-yə daxil etmək, bir də var, diqqəti noematik struktura verməklə onlar arasında fərq qoymamaq. Məsələn,

[1] Тесла Н. Дневники, s. 9.

zaman anlayışını şərh edərkən Husserl retensiya və protensiya terminlərindən istifadə edir: "İstənilən təcrübə özlüyündə var olma axınıdır; o, retensiya və protensiyanın sürəkli axınıdır ki, bunlar həm də ilkinliyin cari fazası ilə növbələşirlər ki, burada təcrübənin canlı "indisi" "əvvəl" və "sonra" ilə kontrastına görə anlaşılır".[1] Aydınlıq üçün əlavə edək ki, retensiya daha əvvəl olanın əvvəldə "buraxılmaması", *indi*-yə daxil edilməsidir. Bir növ yaddaşın iştirakı, ön addımın da prosesə qaytarılmasıdır. "Biz bilavasitə axanın anlaşılmasına retensiya formasında, yaxud retrospektiv xatirə formasında malik oluruq".[2] Protensiya isə, əksinə, sonra-nın *indi*-yə daxil edilməsidir. Bizim baxış bucağımızda məsələ nisbətən fərqlidir. Əlbəttə, noematik strukturda da eydosların ardıcıllığı var, lakin bu, noemanın məhz yaradılış prosesinə aiddir. Artıq noema var olandan sonra başqa bir zaman – noemanın, yaxud varlığın öz zamanı başlayır. Məsələn, insanın ana bətnində formalaşma müddəti başqa, ömrünün hesablanması isə başqadır. Noematik qatda zamanın nəinki keçmiş və gələcəyi, həm də ilahi zaman bölgüsü də *indi*-də cəmlənir. Xatırladaq ki, idrak və qavrama prosesi, xüsusilə fenomenoloji reduksiya yaradılış prosesinin əks istiqamətdə izlənməsidir. Bu mənada, yaradılış və idrak baxış bucağından "əvvəl" və "sonra" yerlərini dəyişir, yalnız indi eyni qalır. Buna görə də, obyektiv zamanı təyin edəndə başlanğıc nöqtə kimi məhz *indi*-ni götürürük. Keçmiş və gələcək – retensiya və protensiya şüurun konkret maddi varlıqların çərçivəsindən mücərrədliyə keçməsi ilə anlayış kimi əhəmiyyətini itirir, onların ehtiva etdiyi həqiqət isə noematik strukturun müəyyən hissəsi kimi qavranılır. Onların fenomenoloji reduksiya zamanı mötərizəyə alınacağı, yoxsa qurulan yeni noemanın bir hissəsinə çevriləcəyi isə ilk ideyadan asılı olur.

Daha əvvəl də qeyd etdiyimiz kimi, insan maddi dünyanın zamanını öz subyektiv zamanına (bunu obyektiv hadisələrə əsaslanaraq etsə də) nisbətdə təyin edir. Məsələn, tarixi məlumatlara görə, bir sutkanın saatlara bölünməsi e.ə. 2100-cü ildə Qədim Misirdə edilib və bir saat

---

[1] Гуссерль, Идеи...I, с. 235-236.
[2] Yenə orada, s. 135.

sübh, on saat günorta, bir saat axşam, on iki saat gecədən ibarət olub. Bizim eranın 2-ci əsrində isə Ptolemey rəsmi olaraq sutkanı on iki gecə, on iki gündüz saatlarına bölüb. Maraqlıdır ki, saat sözünün özü e.ə. 4-cü əsrdə yunan dilində yaranıb. Yaxud Romada bir saat 45 dəqiqədən ibarət olması məlumatı da var. Yəni bizim bu dediklərimiz də, bölgü özü də nisbi olub və hələ də elədir. Bir daha təkrar edək ki, şüur obyektiv həqiqətdən qavraya bildiyi çərçivədə öz noemasını qurur. Baxmayaraq ki, istər canlı – heyvan, yaxud bitki, istərsə də, cansız varlıqlar öz zamanlarına görə mövcud olurlar, ancaq insan onları özünün təyin etdiyi əsr, il, ay, gün, saat, dəqiqə, saniyə çərçivəsinə salmağa çalışır. Düzdür, burada əsas olaraq Yerin Günəş ətrafına və Ayın Yer ətrafına hərlənməsi, fəsillərin dəyişməsi götürülür, lakin bu da həqiqətdir ki, bu bölgü məhz insan üçün hər hansı əhəmiyyət kəsb edir. Beləcə, bəzi kəpənək növlərinin həyatı 1 həftə, tısbağanı həyatı isə 200-300 il hesablanır. Xüsusilə vurğulayaq, bu, insanın ölçdüyü dövrdür, halbuki, onlar özləri öz həyatlarını tam yaşayırlar, əks halda, ömrü 1 gündən də az olan gündəcə (Ephemeroptera) adlı qanadlı həşərat paleozoy dövründən bu günə gəlib çatmazdı, 1600 qədər növü yaranmazdı. Burada incə bir məqama diqqət yetirək. İnsan zamanı müstəqil bir ölçü vahidi, etalon kimi təyin edib və varlıqları ona uyğunlaşdırır. Hər nə qədər buna bütün proseslərdən, şeylərdən asılı olmadan bir istiqamətli şəkildə irəliləyən bir fenomen olduğunu qəbul etsə də, əslində, bu, obyektiv olmur. Prokrust yatağı kimi bir ölçü olur.

Eydosların varlıq qazanması ilə başlayan zaman yalnız o məhv olanda dayanır. Eydoslar məhv olmur, sadəcə bir formadan digərinə keçir, bu səbəbdən zaman da daim var. Sadəcə işığın hərəkətinin dəyişməsinə uyğun olaraq zamanın da sürəti dəyişir. Qeyd etdiyimiz kimi, varlığın zamanı onun noematik nüvəsinin, noemanın zamanı isə onun eydedik nüvəsinin zamanına nisbətdə hesablanır. Məsələn, ağacdan və dəmirdən hazırlanmış masanın ömrü materialından asılıdır. Hər nə qədər onun hazırlanmasında başqa daha möhkəm şeylər olsa da, onların zamanı əsas zamanın gedişinə təsir göstərmir. Taxtadan hazırlanmış masa çürüyəndə onun hazırlanmasında istifadə olunan dəmir materialların heç

bir rolu olmur. Eləcə də maddi dünyada insanın zamanı hakim olsa da, bu zaman başqa varlıqların zamanına təsir edə bilmir, çünki insan maddi dünyanın, kainatın noematik nüvəsi deyil. Onlar insan zamanından xəbərsiz öz zamanlarında yaşayırlar. Bununla belə, insan təmasda olduğu, bilavasitə təbii quruluşuna müdaxilə edə bildiyi şeylərin zamanına təsir edə, onların zamanını dayandıra, uzada, nüvənin yerini dəyişməklə zamanı da dəyişdirə bilir. Xüsusilə, vurğulayaq ki, söhbət varlıqlardan gedir, eydoslardan deyil. Məsələn, yeraltı sərvət kimi torpaqdan tapdığı qızıldan, brilyantdan bəzək əşyası düzəldir, yaxud neçə yüz illik yaşı olan bir çinarı kəsib ya odun kimi yandırır, ya da bir musiqi aləti düzəldir. Onların mövcudluq formasını dəyişməklə, yeni bir zaman təyin edir. Burada belə bir fikir yarana bilər ki, insanın qəfil sancıb öldürən bir həşərat da onun zamanını dəyişir. Əslində, fərqli şeylərdir. Həşərat bunu şüursuz edir və sancdığının kimliyi heç bir əhəmiyyət kəsb etmir. İnsan isə şeyin təbii quruluşunu təhlil edir, ona uyğun metod seçir, onun varlıq formasını dəyişdirir, öz yaradıcılığı ilə ona yeni bir zaman təyin edir. Belə məlum olur ki, əgər eydos varsa, zaman da var, hərəkət də. Sükut yoxdur. Daha əvvəl də belə qənaətə gəlmişdik ki, sükut işığın/nurun dalğa halıdır, sadəcə aktivləşməyi, zərrə halına keçməyi gözləyir.

Dediklərimizdən belə nəticə alınır ki, məntiqli olaraq bir sual yaranır: biz vəhdətdən danışırıqsa, niyə vahid zaman anlayışını qəbul etmirik, əksinə hər varlığın öz obyektiv zamanından danışmaqla bir növ zamanlar xaosu yaradırıq? Burada maraqlı və paradoksal məqamlar var. Birincisi, biz universal harmoniyadan, tək noemadan danışırıqsa, deməli, obyektiv vahid zamanı da qəbul edirik. Bütün varlıqların zamanı onun tərkibindədir və ona uyğundur. İnsan həmin universal noemaya nüfuz edə bildiyi qədər həmin zamanı tanımaq qüdrətindədir. İkincisi, insan obyektiv zamanı tanımaq iqtidarındadır. Zaman eydosunun xüsusiyyətlərini nəzərə alaraq, şüur bunu intensiyası vasitəsilə eydosun, noemanın nur axınına qoşulmaqla edə bilir. Üçüncüsü, bu obyektiv və universal zamanın içində insan öz ölçü vahidini tətbiq edir. Düzdür, o, hətta öz zamanını da idarə edə bilmir, çünki o, daha üst sistemin zamanına tabedir. Bununla belə, nəzərə almaq lazımdır ki, insan bunu iradəsinin və

seçiminin hakim olduğu məkanda edir və təqribi bir oriyentir, hesablama vasitəsi rolunu oynayır. Xatırladaq ki, insanın təyin etdiyi məhz mövcudluğun (ontik) zamanıdır. Şeylərin varlığının (ontoloji) zamanı isə noematik qat və işıq səviyyəsində təyin edilir. Burada məhz obyektiv zaman hakimdir. Peyğəmbərlərə vəhy, sənətkarlara ilham, alimlərə kəşf məhz həmin zaman müstəvisində verilir. Orada qavranılan həqiqət də şeylərin noematik mahiyyətinə, hətta bilavasitə noematik nüvəyə aid olur.

### *§ 126. Nur və ruh*

Elektromaqnit dalğalarının görünən spektri, optik şüalanma, yəni spektrin görünməyən şüaları, ümumiyyətlə fizikada öyrənilən işıq eydedik nurun maddi formasıdır. Nur eydosun əsas varlıq şərtlərindən biri, hərəkət və enerji mənbəyidir. Yaradılmış hər bir şeyin nuru var. Noemanın nurunu qavramaq onun enerji mənbəyi ilə əlaqə yaratmaq və onun gücündən istifadə deməkdir. Nurla yanaşı, biz ruhu da varlığın enerji mənbəyi adlandırmışdıq. Xatırladaq ki, bir çox filosof məhz ruhu həm hərəkətin, həm də enerjinin mənbəyi hesab edir. Əslində, müəyyən təhlildən sonra belə məlum olur ki, bizim dediklərimiz arasında böyük ziddiyyət yoxdur.

Qeyd etdiyimiz kimi, ruh sadə eydosdur və heç bir noemaya daxil olmur. Bununla yanaşı, bütün eydoslar kimi ruh eydosunun da öz zamanı və nuru var. Ruhla əlaqə deyəndə, məhz onun nuru ilə əlaqə nəzərdə tutulur. Sükut halında dalğa şəklində olan ruh şüurun onunla əlaqəsi nəticəsində zərrə halını ala bilir. Nurdan fərqli olaraq, ruh eydosa deyil, hazır sistemə verilir, dini mətnlərin dediyi kimi, üfürülür və o, nuru vasitəsilə ilə həmin sistemin noemaları, hətta eydosları ilə də əlaqədə olur. Noematik nüvənin nuru daha güclü və idarəedici olduğuna görə, ruhla daha sıx əlaqəni o yaradır. Öz mahiyyətini tanıyan və bunu ifadə edə bilən tək varlıq insan olduğuna görə, biz yalnız onun ruha sahib olduğunu düşünürük. Bu səbəbdən digər varlıqların ruhunun varlığı daim müzakirə mövzusu olub. Bizim nəzəriyyəyə görə, bitki və heyvanların da ruhu vardır. Onların şüuru olmadığına görə, o, insanın nəfsi səviyyəsində fəa-

liyyət göstərir. İnsanın şüurunun özünün ayrıca nuru var və Sührəvərdinin fəlsəfəsində dediyi isfəhbud – başçı nur ruha deyil, şüura məxsus nurdur.

Şüurun öz mahiyyətini tanıması və ruhu ilə əlaqə yaratması bir-birini tamamlayan proseslərdir, lakin bəzən insan yalnız biri, əsasən şüuru ilə də kifayətlənir. Bu, təbii ki, onun idrak qabiliyyətində, inkişaf səviyyəsində, qavradığı həqiqət də özünü göstərir. Şüurun üst səviyyəsi yalnız ruhla əlaqə nəticəsində inkişaf edir və Loqosa yüksəlmək imkanı da yalnız bu halda mümkündür. Məsələ burasındadır ki, ruh bilavasitə ilahi aləmlə əlaqəli olan fenomendir. Ruh özü noemalar qarışmasa da, onun nuru həm üst aləmin biliklərinin qavranılmasında kömək edir, həm də şüurun nuruna qatılmaqla ona gücünü – enerjisini artırır. Ruhun eydosunu deyil, yalnız nurunu tanımaq mümkündür, çünki bütün nurların mahiyyəti eynidir və bu eyniyyət nurun maneəsiz axınını təmin edir. Ruh da bu axına qoşulur. Yeri gəlmişkən, onu da əlavə edək ki, ölüm – insan sisteminin zamanının dayanması, noemasının dağılması və işıq axınının dayanmasıdır. Bu axının dayanması həm də ruhla əlaqənin kəsilməsidir. Nəticədə ruh bədəndən ayrılır. Ruh bu sistemin bir noeması olmadığına görə, zamanı da onunla bərabər dayanmır. Burada maraqlı bir faktı vurğulayaq. İnsan orqanlarından hər hansı biri transplantasiya ilə başqa sistemə köçürülə və başqa zamana daxil ola bilir. Ruhla bu mümkün deyil, çünki əvvəla o, noema deyil və insan bilavasitə onunla fiziki təmas qura bilmir, eydosu buna imkan vermir, ikincisi, onun idarəsi, Qurani-Kərimdə də deyildiyinə görə, yalnız Yaradana məxsusdur. Dediklərimizdə diqqətə layiq daha bir məsələ var: insanın işıq axınının təminatçısı şüurdur, ruh deyil. Eyni zamanda, varlığın əsas təminatı onun təbii quruluşu deyil, eydedik və noematik quruluşudur. Buna bariz nümunə kimi, doğuluşdan, yaxud sonradan fiziki qüsurlu insanları göstərmək olar. Şüurun varlığı enerjinin, onun varlığı da öz növbəsində ruhun varlığını şərtləndirir. Əlbəttə, sual yaranır ki, ruhsuz insan artıq cəsəd hesab olunur, ancaq şüursuz insan mövcudluğunu davam etdirir. Bu, mübahisəlidir. Çünki şüursuz dediyimiz, sadəcə başqa bir şüur səviyyəsində öz varlı-

ğını davam etdirir. Hətta Çingiz Aytmatovun şüursuzluq simvolu hesab edilən "manqurtu" da müəyyən yaddaşa, hisslərə, biliyə, hətta təhlilə malikdir.

Yeri gəlmişkən, onu da əlavə edək ki, heyvan və bitkilərin ruhu nəfs səviyyəsində mövcuddur, orqanizmlə əlaqəsi isə insanda olduğu kimidir. Onların şüuru yoxdur, lakin instinktləri, refleksləri, hətta yaddaşı da var. Onların noematik nüvəsi məhz bütün bunlara cavab verən, digər varlıqlar arasında fərqləndirən. Bununla yanaşı, onlar, o cümlədən də cansız varlıqlar təbiətin noemasıdır və onun qanunauyğunluğuna tabedirlər. Burada Leibnizin monadları ilə müqayisə yada düşür. Filosof yazır: "Belə məlum olur ki, hər canlı bədənin hakim entelexiyası var, heyvanda bu, candır; ancaq bu canlı bədənin üzvləri başqa canlı bədənlərlə, bitki, heyvanla doludur və onlardan hər birinin yenə də öz entelexiyası, yaxud hakim canı var".[1] İlk baxışda noemanın strukturunda başqa kiçik noemalar var fikrimiz buna bənzəsə də, burada kiçik, amma əhəmiyyətli bir incəlik var. Sufi fenomenologiyaya görə, hər eydedik strukturda ruh, yaxud can hakim deyil. Hakim olan nüvənin mahiyyəti və enerjisidir. Ruh isə tamamlanmış, özündə digər noemaları da ehtiva edən son noemaya verilir.

Ruh yalnız insanın ilahi aləmlə əlaqəsi yox, eyni zamanda ilahi iradənin insana təsir vasitəsidir. Müvafiq olaraq, nuru dalğa halından zərrəciyə çevirən ilahi iradə də ola bilər, insan şüuru, yəni onun öz iradəsi də. Nuru zərrə halına gəlmiş ruh başqa eydoslarla təmasda ola bilir. İlahi iradə də müəyyən biliklə, işarə ilə ruhu həyəcanlandırır. Xüsusilə vurğulayaq ki, məhz təmasda olur, qavramır, çünki o, şüurun funksiyasıdır. Bununla belə, təmasda olduğu biliyin enerjisi ruha qarışır. Bu, irrasional bilikdir. O, şüur tərəfindən öz sisteminə salınmayana, rasional hala gətirilməyənə qədər, ruhu narahat edəcək. Həmin biliyi qavramadan, yalnız ruhun həyəcanını yaşamaq ruhani təcrübədir. Bu yalnız ruha məxsus bir yüksəlmədir və qazanılan biliklər, hisslər də onun çərçivəsində qalır, şüura keçmir. Daha dəqiq desək, şüur qazanılan bilikləri ra-

---

[1] Лейбниц. Монадология, с. 425.

sionallaşdırmaqda və gerçəkləşdirməkdə aciz olur, çünki mövcud rasional qat ona müvafiq olmur. Bununla belə, məhz həmin təkanın təsiri ilə şüur həmin irrasional işarəni anlamaq üçün özünü daha təkmilləşdirməyə, lazımi biliklər toplaya bilir. Bu, bizim öz təhlillərimizdə tez-tez xatırlatdığımız ilahi iradənin daxili təkan olmağıdır.

İnsanın öz ruhunu həyəcanlandırması, onu sükut halından çıxartması isə şüurdan başlayan və daha uzun prosesdir. Məsələ burasındadır ki, ruh şüurla nur vasitəsilə, yəni noematik qatda əlaqəlidir. Deməli, öz ruhunu tanıması üçün insanın əvvəlcə öz şüurunun mahiyyətini öyrənməsi, onun nurunu aktivləşdirməsi lazımdır. Xatırladaq ki, enerji yalnız təmas zamanı ötürülə bilir. Şüur da ruhla yalnız yaxından təmas qurmaqla həm onu müşahidə edə bilər, həm də onun enerjisindən faydalanar. Əslində, ruh insanla ilahi aləm arasında hər zaman mövcuddur. Sadəcə, aktivləşəndən sonra onun enerjisindən, ilahi aləmdən bilik qazanmasından istifadə etmək mümkündür. Sakit halda isə o, digər canlılarda olduğu funksiyanı yerinə yetirir.

Dediklərimizə onu da əlavə edək ki, şüur və ruh arasında əlaqə yaranması idrak prosesində intensiyanın güclənməsində xüsusi əhəmiyyətə malikdir. Bununla yanaşı, yeni ideyanın gerçəkləşməsində, onun noematik strukturunun hazırlanmasında da artıq ruhun enerjisi nəzərə alınır: ümumi nur axınında ruhun da həmin harmoniyaya qoşulması vacib şərt olur. Əslində, bu, daxili bir zərurət kimi gerçəkləşir və şüurun ayrıca nəzarətinə ehtiyac qalmır. Çünki zatən həmin ideyanın irəliləməsində də, strukturlaşmasında da ruhun nuru iştirak edib. Maraqlı bir fakt kimi, onu da qeyd edək ki, məhz bu səviyyədə gerçəkləşmiş bir ideya sonra ümumbəşəri səviyyəli ola bilər. İstər sənət əsəri olsun, istərsə də elmi kəşf. Çünki nur qatında struktur bütövdür, maneə yoxdur. Universal nur axınına qoşula bilmiş bir əsərin də hər kəs tərəfindən qəbul edilməsi məntiqlidir.

### *§ 127. Noemanın sabitliyi, dəyişkənliyi və nur*

Noema maddi dünyada var olan şeylərin eydedik müstəvidə varlığıdır. Bəzən maddi formaya, təbii quruluşa müdaxilə olduğuna, yaxud

şəraitin təsirinə görə onun müəyyən xüsusiyyətləri dəyişə, təhrif oluna bilir. Yaranan fərq böyük olanda və idrak yalnız zahiri xüsusiyyətlərlə kifayətlənəndə, yanlış nəticələrə də gəlmək olur. Zahiri forma noemanın nüvəyə ən uzaq hissələridir, buna görə də həm daha asan dəyişir, həm də bu zaman nüvəyə ciddi təsir olmur. Məsələn, bir bitki, yaxud heyvan növünün fərqli iqlimlərdə rəngi, həyat tərzi, müəyyən xüsusiyyətləri dəyişir. Ayılar buna gözəl nümunə ola bilər. Yaxud 6 aylıq doğulmuş körpə, bir sumo döyüşçüsü, fiziki göstəriciləri tamamilə iflic olmuş bir şəxs – hamısı insandır. Nüvəyə daha yaxın eydos və kiçik noemalar daha sabitdir və onlara müdaxilə bütöv noemanın dəyişməyinə səbəb olur. Noemanın sabitliyini qoruyan ümumi mahiyyət və onları birləşdirən işıqdır. Daxili strukturda vahid işıq axını qorunana qədər o, sabit qalacaq.

Zahiri formasına, təbii quruluşuna görə varlıqlar arasında təsnifat aparılır, onlar növlərdə, siniflərdə qruplaşdırılır. Noema qatında isə hər varlıq unikaldır, çünki ilahi yaradıcılıq kütləvi deyil, fərdidir. Məhz fərqli olduqlarına görə, noemaların ümumi strukturu şüurun irəliləməsinə səbəb ola bilir. Kütləvilik bəşəri yaradıcılığa xasdır və yalnız noematik qatda insan yaradıcılığı da təkrarsız olur. Çünki hər eydos və müvafiq olaraq noematik nüvə təkdir və öz mahiyyəti var. Məsələn, Da Vinçinin "Mona Liza"sının sonsuz sayda surətləri var – bacarıqlı rəssamlar tərəfindən çəkilən, fotosu, rəqəmsal reproduksiyaları və s. Ancaq yalnız orijinalın üzərində tədqiqat aparmaqla Da Vinçinin düşüncələrində nə isə yeni bir detal kəşf eləmək, rəssamlıq sənətində yeni bir ustalıq öyrənmək mümkündür. Belə olan halda sual çıxır: surət nədir? Surət yalnız zahiri xüsusiyyətlərin təkrar edilməsidir və burada bir neçə əhəmiyyətli məqam var. Birincisi, bu yaradıcılıq noematik qatda getmədiyinə daxili strukturu yoxdur və noemaların eklektik birləşməsidir. Bu səbəbdən onlar sabit deyil. İkincisi, surətlər orijinal strukturdan yalnız bir xüsusiyyəti əsas götürür və onu çoxaldır. Burada noematik nüvə yoxdur, xüsusiyyət var və təbii ki, mahiyyəti də həmin xüsusiyyət səviyyəsində olur. Buna görə də, surət heç vaxt orijinaldan daha geniş mənaya malik ola bilmir. Belə demək mümkündürsə, əgər fenomenoloji reduksiya zamanı surət bütünlüklə mötərizəyə alınmalı olar və bu sə-

bəbdən kopiya vasitəsilə növbəti noemaya keçid mümkün deyil. Nəhayət, üçüncüsü, surətlər vahid nur strukturuna da malik deyil. Xatırladaq ki, noematik qatda insan öz şüurunun işığı ilə irəliləyir və yaratdığı yeni noema həmin işığın müəyyən bir ideya ətrafında cəmlənməsidir. Yalnız daxili işığa malik noemaların ömrü uzun olur. Əlbəttə, istifadə olunan noemalar (detallar) öz nuruna malikdir, lakin onlar arasında əlaqə yaranmır, deməli, vahid işıq axını da müzakirə mövzusu ola bilməz. Səbəb isə bundadır ki, yaradıcılığın noematik qatda getmir, əsas işıq mənbəyi ilə əlaqə kəsilir və tərkibdəki noemaların işığı get-gedə zəifləyir.

Yaradıcılıq işıq axınının müəyyən bir noemada inikasıdır. Məhz işığın vurğulanmasında səbəb eydosdan fərqli olaraq onun eydoslarının eyni olmasıdır. Onları fərqləndirən aid olduqları eydosların mahiyyətidir. Eydos məhv olmur, sadəcə bir formadan başqasına keçir. Lakin yaranış zamanı eydoslar arasında uyğunluq, təmas olmasa enerji mübadiləsi, işıq axını da baş verməz, daxili struktur formalaşmaz. Eydoslar həm də dəyişmir və yalnız bir dəfə aldıqları mahiyyətlə mövcud olurlar. Buna görə də, müəyyən bir nüvə ilə yaradılmış eydedik struktur dəyişmir. Təbii quruluşda vəziyyət nisbətən fərqlidir. Əvvəllər yayılmış rəyin əksinə olaraq, fizika və kimyada aparılan eksperimentlərdən belə məlum oldu ki, bəzi elementlərin nüvəsini dəyişməklə başqa element almaq mümkündür. Məsələn, hidrogeni heliuma çevirmək kimi. Maraqlıdır ki, bu üsulla alınan yeni elementlərin sayı kifayət qədərdir və Mendeleyev cədvəli bunun sayəsində çox zənginləşib. Əslində, belə termonüvə reaksiyalar ulduzlarda baş verir və insan sadəcə həmin reaksiyanı öz laboratoriyasında da təkrarlayıb. Yəni təbiətin özündə də təbii quruluşun, o cümlədən, eydedik strukturun kökündən dəyişməsi prosesləri var. Deyilənlər müəyyən mənada bizim eydosların dəyişməzliyi iddiamıza zidd görünür. Lakin birincisi, daha əvvəl də vurğuladığımız kimi, kvant fizikası bizim ideyaların, fikirlərin eynisi deyil. Sufi fenomenologiya kvant fizikasının fəlsəfəsini deyil. Lakin kvant fizikası şeylərin daxili quruluşunda daha dərinə gedə bildiyinə görə, bizim düşüncələrimizdə də ona istinad etməyimiz normaldır. Heizenberqin də vurğuladığı kimi, başqa

elmlərdə də olduğu kimi, burada da kvant fizikası yalnız fikirlərimiz daha aydın izahı üçün əyani və maddi dəlildir. İkincisi, daha əvvəl də qeyd etdiyimiz kimi, eydedik strukturun nüvəsi dəyişməklə bütöv struktur dəyişib, fərqli mahiyyət qazana bilər. Onu da xatırladaq ki, strukturun gücü onun nüvəsinin mahiyyətindən və nurundan asılıdır. Çünki vəhdəti qoruyan bu ikisidir. Təsadüfi deyil ki, atom nüvələrinin bir-birinə çevrilməsi məhz yaxın elementlər arasında baş verir. Hidrogen, litium, helium. Düzdür, dəyişən eydos deyil, onların strukturdakı yeridir. Eyni zamanda bu, həm də nüvənin dəyişməsidir və bunu köməkçi eydoslardan birinin gücünün süni şəkildə artıraraq nüvənin yerini tutmasına şərait yaratmaqla mümkün olur. Üçüncü deyəcəyim arqument öz iddiamızda davamlı olmağımıza yardım edir. Kvant fizikasında ən kiçik zərrəcik kvarkdır, yəni həmin dəyişən protonlar özləri də kvarkdan ibarətdir. Əlbəttə, elm hələ o dərəcədə inkişaf etməyib ki, kvarkın da tərkibini öyrənsin, ancaq alimlər özləri də əmindir ki, kvark son deyil. Bizim fikrimizə görə, kvark özü də eydos deyil, noemadır (*sxem 22*). Bundan əlavə, simlər nəzəriyyəsini qəbul etsək, o zaman, dediyimiz təsdiqlənər. Noemanın ən kiçik zərrəciyi eydosdur, müasir elmə məlum dillə desək, düşüncənin simləridir. Ancaq o, bölünmür, sadədir. Onlardan daha kiçik zərrəcik kəşf olunmadığına görə, eydosu ona bənzədirik. Nəhayət, onu da əlavə edək ki, elementlərdə atom nüvələri güclü cərəyan vasitəsilə – enerji ilə dəyişmək mümkündür. Bu, bizi təkrar şeylərin nur strukturuna qayıtmağa məcbur edir. Eydedik strukturda işıq axınını sükut halından çıxartmaq üçün daha güclü kənar təsir olmalıdır. Yəni artıq harmoniyada halında olan bir strukturun daxilində dəyişiklik etmək üçün onun işıq axınına müdaxilə etmək lazımdır və bu zaman eydos deyil, onun strukturdakı yeri dəyişir.

Beləliklə, dediklərimizdən belə məlum olur ki, noemanın sabitliyi və möhkəmliyi nüvənin gücündən və strukturun nur axınından asılıdır. Bu, həm ilahi, həm də bəşəri yaradıcılığa aiddir. Şüur qatındakı nurun dərəcəsini ölçmək mümkün olmasa da, fiziki aləmlə müqayisə müəyyən təsəvvür yarada bilər. Məsələn, litiumun atom nüvəsinin heliuma çev-

rilməsi üçün təqribən milyonlarla volt gərginlik lazımdır.[1] Yaxud hidrogenin heliuma çevrilməsi reaksiyası gedən günəşdə enerjinin kəmiyyətindən nüvənin hansı gücə malik olduğu və onu dəyişməyin hansı enerji tələb etdiyini görmək mümkündür: Günəş səthinin temperaturu Selsi üzrə 1mln-dan 10 mln-a civarında dəyişir. Eyni qanunauyğunluq eydedik qatda da mövcuddur. İnsan artıq hazır noemalar əsasında nə isə yarada bilir və burada onun şüuru elə bir intensiyaya malik olmalıdır ki, həm əvvəlki eydedik strukturu dağıda bilsin, həm də yenisi, yəni yeni nüvəli sabit bir struktur yarada bilsin.

### *§ 128. İman və nur*

Sufi fenomenologiyada tez-tez müraciət edilən və nurla ən çox assosiasiya yaradan anlayışlardan biri də imandır. Əvvəlki müvafiq mövzular üzrə apardığımız təhlillərdən məlum olduğu kimi, şüurla ruhun vəhdəti, eyni zamanda Mütləq ruhun təzahürlərində biri adlandırılan iman haqqında iki qəti qənaətə gəlmək mümkündür: a) yalnız insana məxsusdur; b) şeyin zahiri xüsusiyyətlərindən daha çox, onun daxili strukturu, hətta nüvəsi ilə əlaqəlidir. Bundan isə öz növbəsində belə nəticə alınır ki, iman idrak prosesi ilə əlaqəlidir və daha sabitdir. Onu da əlavə edək ki, məsələyə belə yanaşma onun daha çox fəlsəfi müstəvidə açıqlanmasına imkan verir.

Şeylərin daxili strukturunda işığın hansı istiqamətdə və necə hərəkət etməyi təbii quruluşdan asılıdır və təbiət qanunlarına tabedir. İşıq dalğasının həyəcanlanması ona kənardan həm də istiqamət verir. Əks halda xaos yaranar və sistemin ahəngi pozular, nəticədə dağıla bilər. Bu, şüura da aiddir. Belə ki, şüurun sükutunu pozan bir ideya özündə istiqaməti – obyekti də təyin etmiş olur. Həmin ideya şüurun öz daxili potensialından, yoxsa kənardan olmasının fərqi yoxdur. Şüur onu öz sisteminə salmalıdır, yəni onun işığını öz işığına qatmalıdır ki, istiqamət də vahid olsun, bir-birinə zidd gəlməsin. Dediklərimiz iki mühüm addımı eh-

[1] Гейзенберг. Физика и философия, s. 95.

tiva edir: a) şüurda özünüreduksiya prosesi olmalıdır, yəni o, öz potensialını kifayət qədər yaxşı tanımalıdır ki daxil olan yeni bilikləri sistemləşdirib, lazım olanda rasionallaşdıra bilsin və buna əsaslanaraq öz intensiyasının istiqamətini təyin etsin; b) şüur ruha əlaqə yaratmalıdır ki, bir tərəfdən intensiyası güclənsin, digər tərəfdən, inamı dəqiqləşsin.

İman ruhun halıdır. Deməli, ruha məxsus bir çox xüsusiyyətlər ona da aiddir. Buraya ilk növbədə imanın həm də güclü nur olmasıdır. Nə qədər qəribə də səslənsə, burada termodinamikanın ikinci prinsipindən irəli gələn qüvvədə olur: güclü enerji zəifə doğru axır. Eyni prinsip İşraq fəlsəfəsində də var. Lakin bu da bir faktdır ki, bu enerji axını yalnız təmasda olan obyektlər arasında mümkündür. İnsan adətən özündən daha güclü obyektə inanır, bir növ ondan enerji alır. Sührəvərdi bunu, alt işığın üstdəkinə eşqi adlandırır. Obyektin düzgün seçilməsi məhz imanın gücünün artmasına və irəliləyə bilməsinə səbəb olur. Noemanın nurunun mənbəyi onun Yaradanıdır. Deməli, iman Yaradana olanda irəliləmə güclənməyə səbəb olur. Burada sual yarana bilər ki, belə olan halda, yalnız Allah deyib meditasiya ilə, ruhani təcrübə ilə ali həqiqətlərə çatmaq istəyən bir şəxslə, elmi eksperimentlərlə, hesablamalarla məşğul olan bir alim arasında fərq qalmır? Əvvəla, iman ruh hadisəsidir və elmi kəşfə nəinki mane olmur, əksinə, kömək edir. İkincisi, elmi kəşflər üst noemanın, universal sistemin hansısa bir hissəsinin qavranması deməkdir. Bu, isə öz növbəsində yenə də daha güclü işığın tanınması deməkdir. Yəni istənilən halda düzgün iman yalnız işığın güclənməsinə səbəb olmalıdır. Onu da xatırladaq ki, şüurun ilk təkanı öz potensialında olan işıqdır. Ruh və onun təzahürü olan iman sayəsində şüur öz obyekti ilə "təmas" yarada və ondan işıq ala bilir. İman nə qədər güclü olarsa, obyekt də bir o qədər dəqiq olar və şüur ona doğru irəliləyər. Zəif təkan şüurun "kor qalmasıdır".

İman və nur bir-biri ilə o dərəcədə əlaqəlidir ki, bəzən hətta eyni anlayış kimi qəbul edilir, ruh və nur kimi. Lakin onlar mahiyyətcə fərqli anlayışlardır. Aralarında paralel aparaq.

İşıq bütün varlıqlarda mövcuddur, iman yalnız insanda. Əminliyi-

mizə səbəb onun şüurla əlaqəli olmasıdır. İşığın hərəkəti sükut halında təbii quruluşun qanunauyğunluğuna tabedir, həyəcanlı halda isə kənar təsirin. İman həmin kənar təsirlərdən, yəni onu həyəcanlandıran amillərdən biridir. O, ruh hadisəsi olduğuna görə, ruhun nuru həm də ona məxsusdur. Bu mənada, intensiyaya qoşulmaqla o, həm onu gücləndirmiş, həm də istiqamət vermiş olur. İşıq bütün strukturda cərəyan edən, eydosları və noemaları əlaqələndirən, onun vəhdətini qoruyan axındır, maneə yarananda pozulan və ahənginin bərpasına qədər məxsus olduğu sistemi həyəcanlı saxlayan bir fenomendir. İman isə şüur və obyekti arasında mümkündür. Bu obyekt zamanla dəyişə də bilər, ancaq əlaqə daim iki tərəf arasında yaranır. O, şüura tabe olduğuna görə, obyektin seçimi də şüura aiddir və yanlışlıqlar imana təsir etmir. Yəni nə qədər qəribə də olsa, Allaha, elmə və bütə inanan insanın imanı eyni olur, onları fərqləndirən yalnız şüurdur. Belə nəticə çıxır ki, imanın obyektləri fərqli olur, işıq isə hər eydos və noemanın özünə məxsusdur və dəyişmir. İşıq yaranışdan mövcuddur və varlığın təminatıdır, şüurun daxili potensialıdır. İman isə sonradan qazanılır, yaxud ümumiyyətlə, ruh kimi, ondan xəbərsiz də qalmaq mümkündür. Nəhayət, intensiya hər nə qədər subyektiv olsa da, işıq özü obyektivdir. İman isə subyektivdir.

İşıq özünüreduksiya ilə, yəni şüurla güclənir. Söhbət qazanılan bilikdən, şüurun inkişaf səviyyəsindən, öz mahiyyətinin tanınmasından və ruhla əlaqənin qurulmasından gedir. Özünüreduksiya, yəni intensiyanın dəqiqləşməsi və öz obyektinə fokuslanması həm də imanı yaradır. Burada əhəmiyyətli bir məqamı vurğulayaq. Qeyd etdiyimiz kimi, işıq daxili potensial kimi kəşf olunur və sonradan qazanılanlar onun üzərinə əlavə edilir. İman ruh hadisəsi olsa da, enerjinin, işığının xarici obyektdən alınmasıdır. Buna görə də, imanın obyekti düzgün seçilməyəndə, həmin işıq artmaq əvəzinə azalır, nəticədə şüur da tükənməyə başlayır, çünki enerjisi yanlış yerə sərf edilir. Nəticədə iman vasitəsilə şüur özü də həmin obyektin təsirinə düşür və passivləşir. Obyektin düzgün seçimi isə iman vasitəsilə şüuru bir növ qidalandırır. Bir daha təkrar edək ki, iman obyektinin Yaradan, Allah olmasının fərqi yoxdur, əsas olan üst sistemdə olan ideyaya inanmaqdır ki, çünki o, son nəticədə məhz onun Yara-

danına gətirir. Buna maraqlı nümunə kimi Nikola Teslanın həyatını göstərmək olar. Özünün gündəliyində yazdığına görə, o, həyatının müəyyən hissəsində Allaha inanmasa da, Allahın prinsiplərinə – ədalətə, insanlığa, mərhəmətə inanıb və onun özünüreduksiyası məhz bu istiqamətdə gedib. Belə olan halda, təəccüblü deyil ki, o, özünün də yazdığı kimi, sadəcə yuxudan oyanıb və anlayıb ki, topladığı biliklərin tacı olan kəşfləri ona Allah yollayır: "Nurlanmalarım tamamilə mənim bu fikrimi təsdiq etdi ki, elm bütünlüklə insanlığa xidmət etməlidir, patent verənlərə yox. Allah mənə sualların cavablarını ona görə vermir ki, mən növbəti patentimi alım. Bilmədiyim səbəblərə görə O, məni Özü ilə insanlar arasında vasitəçi seçib. Mənim də borcum yuxarıdan aldıqlarımı insanlara ötürməkdir. Mən həmişə belə hesab etmişəm ki, insanlar üçün yaşayıb işləyirəm. Hətta imanım olmayanda da belə hesab etmişəm. Bizdə deyirlər ki, "Yaxşı at, qaranlıqda da azmaz". Yəqin mən yaxşı at olmuşam ki, hətta canımda imanım olmayanda da, kor-koranə lazımi istiqamətdə getmişəm".[1] Əslində, Tesla kor-koranə deyil, daxilindəki işığın istiqaməti ilə gedib, başqa yad işıqların təsirinə düşməyib və lazımi nöqtəyə çata bilib. Onun bir gün, Allaha imanını kəşf etməsi sadəcə zaman məsələsi olub.

Daha bir nümunə kimi isə biliyinin, düşüncəsinin inkişafına baxmayaraq tək Yaradanın varlığına inanmayan Stiven Houkinqi gətirmək olar. Onun məşhur sitatlarının birində deyilir: "Yəqin ki, mən Allaha inanıram, əgər Allah deyəndə siz Kainatı idarə edən qüvvələrin cəmini nəzərdə tutursunuzsa".[2] Alim dini müstəvidə qəbul edilən, "dünyanı yeddi gündə yoxdan yaradan" mütləq varlığa deyil, öz hesablamalarına və üst sistemdən qavranılan biliklərinə inanır. Maraqlıdır ki, o, biliklərinin tam olmadığını anlayır və belə demək mümkündürsə, onun qurduğu noemanın işığı heç cür sakitləşmir, çünki özünün də etiraf etdiyi kimi "Elm Kainatın necə yaranması məsələsini həll edə bilsə də, Kainatın

[1] Тесла. Дневники, с. 10.

[2] Мироздание Стивена Хокинга: пожалуй, я верю в Бога. https://md.sputniknews.ru/20180314/mirozdanie-stivena-xokinga-pozhaluj-ya-veryu-v-boga-17842712.html.

hansı səbəbə yarandığını sualına cavab verə bilmir".[1] İman obyekti tanımaq üçün subyektin ona doğru can atması, bu yolda bilik toplayıb, özünü, şüurunu onun üçün hazırlaması, ən vacibi isə, ondan enerji və işıq almasıdır. Həm Tesla, həm də Houkinqin görüşlərində vacib olan məqam budur ki, öz şüurlarının işığını böyüdüb obyektlərinə olan imanları ilə hərəkət ediblər, buna fərqli adlar qoyub, mahiyyət yükləsələr də.

Nur obyektiv olsa da, daxili potensial hesabına tanınır və şüurun daxili təkanı hesab edilir. İman subyektivdir, lakin onun formalaşmasında xarici amillərin təsiri çoxdur. Bir neçə dəfə təkrar etdiyimiz kimi, iman ruh hadisəsidir və bilavasitə insanın mahiyyəti ilə əlaqəlidir. Lakin nəzərə alaraq ki, mahiyyətin özü şüurdur və ruhun tanınması şüurdan keçir, biz imanı həm də ruh və şüurun vəhdəti adlandırırıq. Təbii ki, bu, həmişə belə olmur və buna görə də, imanı üç növə ayırmaq mümkündür: ya şüuru, ya ruhun zəif olub, ya da kənarda qalması ilə formalaşan və hər ikisi bir-birini tamamlayan iman. Xatırladaq ki, biz insanın noematik nüvəsi olan könülü də ruh və şüurun vəhdəti adlandırmışdıq və bu, təsadüf deyil. Biz bir neçə dəfə təkrar etmişik ki, iman insanın mahiyyətinə təsir etmək üçün ən güclü silahdır. Yəni istər ruh, istərsə də şüur vasitəsilə olsun, onun əlaqəsi məhz bilavasitə noematik nüvə ilədir və onun naqis olması burada öz əksini tapır. Sual yarana bilər ki, şüursuz insan olmursa, onun imanı necə ola bilər? Eyni sualı ruhla da əlaqəli vermək mümkündür. İman nur vasitəsilə ruhda yaranan haldır. Bilik şəklində olan bu nur şüur tərəfindən mənimsəniləndə özünüreduksiyadan keçir və daxili potensiala, nura qarışır. Bu zaman həm də şüur və ruh arasında əlaqə yaranır. Əksinə, bu bilik təzyiq və şüuru kənardan idarə etmək alətinə çevriləndə, şüur passivləşir. Bu zaman daha çox ruhani təcrübədən istifadə olunur və kənardan təlqin edilən obyektə iman formalaşdırılır. Xüsusilə vurğulayaq ki, burada ruhani təcrübə insanın daxili potensialının başqası tərəfindən istismarına xidmət edir. Fanatlıq buna gözəl nümunədir.

İkinci halda isə əksinə, rasional şüurun biliyi – nuru kifayət qədər

---

[1] Yenə orada.

olsa da, özünüreduksiya, özünü tanıma prosesi getmir. Nəticədə rasional şüur nə qədər inkişaf etsə də, üstşüura keçmir, çünki ruhla əlaqə yaranmır. Burada imanın obyekti çox güclü olur və insanın bütün potensialı ona yönəlir. Təbii ki, burada noemaların tanınmasından, irrasional biliklərdən söhbət gedə bilməz. Əlbəttə, burada da şüur üçün geniş üfüqlər var, lakin mülahizələr, axtarışlar noematik qata enmir, çünki imanın obyekti fərqli müstəvidədir. Bununla həm də onu təsdiqləmiş oluruq ki, iman şüurun axtarış hüdudlarını müəyyənləşdirəndir. Kimin üçünsə bu, ilahi aləmə qədər yüksəlir, kimin üçünsə maddi dünya ilə kifayətlənir, bir başqası üçünsə, müəyyən bir şəxsiyyət, yaxud ideya da bəs edir. Onun bilik axtarışları da, özünü inkişafı da, hətta təxəyyülü də məhz həmin çərçivə daxilində olur.

Dediklərimizdən belə məlum olur ki, iman və nurun hərəkət trayektoriyaları eynidir. Daha dəqiq desək, şüur imanın təyin etdiyi istiqamətdə və radiusda irəliləyir. Bu, obyektin nurunun imkanlarını, qüdrətini qəbul etmək və ona tabe olmaqdır. Məhz şüurun intensiyası ilə obyektin nurunun ilk qarşılaşması, təması imanın obyektini müəyyənləşdirir. Obyektin nuru daha güclü olanda şüur, Sührəvərdinin fəlsəfəsinə istinadən desək, onun nuru insanın nurunu zəbt edir və o da öz növbəsində ona meyllənir. Burada iki cür proses gedə bilər: ya şüur ondan aldığı enerji ilə güclənir, ya da özü onun tərkibinə qatılır, özü qazanılan "biliyə" çevrilir, öz iradəsini, seçimini itirir. Bununla yanaşı, qazandığı biliklər sayəsində və apardığı özünüreduksiya nəticəsində şüurun nuru arta və iman obyektinin işığını üstələyə bilər. Bu zaman təbii ki, iman obyekti dəyişməklə yanaşı, şüurun daxili radiusu da genişlənir. Məsələn, Qurani-Kərimdə İbrahim peyğəmbər tək Allahı tanıyana qədər aya, ulduza, günəşə sitayiş obyekt kimi baxıb və hər dəfə daha ali olana ehtiyac hiss edib. Burada əhəmiyyətli bir məqam var: şüurun daxili işığı kifayət qədər güclü olanda o özünün iman obyektinə çevrilir. Bu iman sabitləşəndən, hətta kultlaşandan sonra, özündən daha güclü obyekt görsə belə, onu qəbul etmir, təmasda olmur, buna ehtiyac hiss etmir.

Hər nə qədər şüurun radiusunu iman təyin etsə də, imanın obyektini seçən yenə də şüur olur və o, bunu məhz ümumi, işıqlanmış sahədən

seçir. Bu o deməkdir ki, insanın imanının obyekti onun aldığı tərbiyədən, təhsildən, hətta altşüurundan da asılıdır. Bunlar insanın ümumi bilik səviyyəsini – daxili radiusunu və işığını artırmaqla yanaşı, həm də şüurun işığını istiqamətləndirir – o, daha güclü işığa doğru meyllənir. İnsanın iradə və seçim qabiliyyəti formalaşana qədər onun şüuru valideynləri və müəllimləri tərəfindən idarə olunur və bu zaman uşaq onların özünün də sitayiş obyektini mənimsəmiş olur. Məhz buna görə də, öz iradəsi formalaşana qədər uşağın bilik bazası, özünütəhlil qabiliyyəti elə səviyyəyə çatdırılmalıdır ki, düzgün seçim edə bilsin. Bir daha vurğulayaq ki, iman obyektini şüur özü seçir. Hətta bunu uşaq yaşlarında böyüklər onun əvəsinə etsə də, şüur inkişaf edəndə onu təkrar öz baxış prizmasından keçirəcək və bu zaman suallar da yaranır, seçim də dəyişir, daxili və aşkar ziddiyyət də çıxır. Başqa sözlə desək, şüurun həm mahiyyətinin nuru üzə çıxmalı, həm də ruhla əlaqəsi güclənməlidir ki, iman obyekti də o ikisinin bərabər seçimi olsun.

İman şüurla obyekt arasında daimi əlaqədir və bu, idrak prosesi boyu stimul, təkan rolu oynayır: şüur öz obyektini tanımaq, dərk eləmək istəyir. Daha əvvəl də bildirdiyimiz kimi, başlanğıcda yalnız daxili təkan və işığı ilə irəliləyən şüur qeyri-müəyyən hallara, düyünə düşür. Leibnizin monadalar haqqında dediyi həqiqət eydos üçün də keçərlidir – hər eydos yalnız öz noemasının tərkibində aydın və anlaşılandır. Onun, daha sonra da noemanın tanınması müddətində imanın obyekti bir növ mayak rolunu oynayır – şüuru durğunlaşmaqdan, yanlış yola keçməkdən, ən vacibi isə, onun daxili güvənini qoruyur. Yeri gəlmişkən onu da əlavə edək ki, imanın obyekti nə qədər üst sistemdə olarsa, bir o qədər şüurun ondan enerji almaq və inkişaf etmək meyli çox olar, xarici radiusunun böyümək imkanları artar. Belə ki, birincisi, insanın şüuru böyümək potensialına malikdir və kiçik obyektlər onu sıxıb, inkişafına mane olar. Bu isə öz növbəsində şüurun eyni çevrə boyunca hərlənməsinə və passivləşməsinə səbəb olar. İkincisi, imanın obyekti bir deyil, bir neçə ideyanı ehtiva etməlidir ki, şüur inkişaf edə bilsin.

İmanla assosiasiya yaradan daha iki anlayış var: ateistlik və imansızlıq. Əvvəla, qeyd edək ki, hər ikisi şüurlu seçimdir. Yəni şüur müəy-

yən bir səviyyəyə çatandan və iradəsi formalaşandan sonra o, imanı haqqında qərar verir. Ateizm də inamdır – Yaradanın yoxluğuna inam. İnsan məhz bu istiqamətdə bilik toplayır, güclənir, yəni burada da bəlli bir məqsəd və istiqamət mövcuddur. İmansızlıq isə şüurlu şəkildə bu istiqamətlərdən imtina edib xaosda yaşamaqdır. Hansısa obyektə yönəlmək enerjinin daxili qanunudur və insan həmin enerjini hisslərin obyektlərinə yönəldir, şüurun qabiliyyətlərini hiss səviyyəsində "xərcləyir". İkincisi, ateistlik ən yüksək iman obyektinə – Allaha alternativlikdir, satanizmə, yaxud hansı isə bütpərəstliyə qarşı deyil. Yəni əslində onun da obyekti Mütləq varlıqdır, sadəcə, çalışır ki, Ona nisbətdə öz şüurunun işığının daha güclü olduğunu sübut etsin. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, ateistlərin bu xüsusiyyəti – şüurunun gücünü artırmaq niyyətləri onların savadlı alim, mütəfəkkir kimi yetişməsinə səbəb olur. İmansızlığın güclü obyekti olmadığına və hissi idrak səviyyəsində qaldıqlarına görə, onların şüurunun işığı, yəni bilik səviyyələri, özünütəhlil qabiliyyətləri zəif olur.

### *§ 129. Qaranlıq, yanılma və küfr*

İşıq/nurun təhlili qaranlıq anlayışını da aktuallaşdırır. Sührəvərdinin fikrinə görə, "Şeylər nəfsində həqiqətən nur və işıq olana və nəfsində həqiqətən nur və işıq olmayana bölünür. Nur və işıq deyəndə eyni şey nəzərdə tutulur. Öz növbəsində nur başqası üçün forma olana – bu, aksident nurdur – və başqası üçün forma olmayana – bu, mücərrəd və əsl (saf) nurdur – bölünür... Nəfsində nur olmayanlar da bölünür: məkana ehtiyacı olmayan – bu, qaranlıq substansiyadır – və başqası üçün forma olana – bu, qaranlıq formadır".[1] Belə məlum olur ki, işıqdan məhrum yaradılmışlar da var. Sührəvərdinin fəlsəfəsinə istinad edən Səlahəddin Xəlilov isə deyir ki, "Ancaq İşıq var. Qaranlıq işığın yoxluğudur".[2] Hər iki fikir qaranlığın varlığını təsdiq edir. Yoxluğu qəbul etmə-

---

[1] Sührəvərdi. Hikmət əl-işraq, s. 107.
[2] Xəlilov. Şərq və Qərb..., s. 111.

yən sufi fenomenologiyaya görə isə, qaranlıq yoxdur. Yaradılış prosesində hər eydos mahiyyətlə bərabər işıq da alırsa, bu, kökündən qaranlıq məfhumunu inkar edir, çünki bu, Yaradanın hansı isə varlıqdan xəbərsizliyi deməkdir. Varlıq iyerarxiya nur sistemidirsə, qaranlığa yer qalmır. Qaranlıq yoxdur, işığın görünməməyi var. Məsələyə, yaradılış və idrak prosesi aspektindən baxaq.

Qaranlığı əsasən işığın fraqmentar göründüyü maddi dünyaya aid edirlər. Elmi məlumata görə, canlıların, insan da o sıradadır, görmək qabiliyyəti fərqlidir. İnsanın gördüyü rəngləri heyvan görmür və əksinə, bəzi heyvanlar, həşəratlar qaranlıqda daha yaxşı görür. Məsələn, aparılan təcrübələrə görə, insanın gözünün görməsi, ən azı nə isə hiss etməsi üçün onun gözünə minimum 100 foton düşməlidir. Amerika tarakanının gözü isə bir fotona reaksiya verir. Saniyədə bir fotondan da az işıq almaqla bu həşəratlar qaranlıqda sürətlə hərəkət edir, qidalanır və s. Belə nümunələri çoxaltmaq olar, lakin biz diqqəti başqa şeyə yönəltmək istəyirik: bizim qaranlıq zənn etdiyimiz yerdə də işıq fotonlar var. Deməli, qaranlıq işığı görməməkdi. Əlbəttə, əgər söhbət fiziki görməkdən gedirsə, o zaman işığı tənzimləyənin günəş olması faktını, onun işığının varlığının və yoxluğunun qalaktikada öz rolu və əhəmiyyətini olduğunu qəbul etməliyik. Lakin onu da nəzərə almaq lazımdır ki, işıq zərrəciyi hesab edilən foton (kvant) günəş zərrəsi deyil, şeyin atomunun elementar hissəciyidir. Deməli, məsələyə ümumiyyətlə varlıq aspektindən baxanda, qeyd etdiyimiz kimi, nur həm bütün yaradılmışların mahiyyətindədir və onların hərəkətini, mövcudluğunu təmin edir, həm də universal vəhdətin daxili sistemidir. Onsuz vəhdət pozular. Eyni zamanda, işıq olmasa, idrak prosesi – şüurun irəliləmə prosesi də mümkün olmaz. Lakin insan prizmasından məsələ nisbətən fərqlidir.

Qeyd etdiyimiz kimi, fiziki baxımdan insanın gözü yalnız müəyyən ölçüdə olan işığı görməyə qabildir, onu görmədiyi yeri isə qaranlıq adlandırır. Yəni görməməyi, orada işığın olmaması demək deyil. Şüur həqiqəti və işığı fraqmentar qəbul edir, çünki müşahidədən həyəcanlanan dalğa zərrə halına keçir. Bundan əlavə, şüurun intensiyası yalnız bir

istiqamətdə fokuslanır, oranı işıqlandırır və oranın işığını qəbul edir, kənarda qeyri-müəyyən qalan isə qaranlıq hesab edilir. Mayster Ekxart yazır: "Əsl bilməməzlik – cahillik deyil, ona ən ali biliklərlə gəlirlər, çünki Allahın Kəlamı bilməməzlikdə səslənir".[1] Başqa sözlə desək, qaranlıqda müəyyən həqiqət var və onu öyrənmək mümkündür. İnsan bildiyi şeyin işığını qəbul edir, bilmədiyi, xəbərsiz qaldığını ya başqalarının dediklərinə inanır, ya da yaddaşındakılardan, öyrəndiklərindən nəticə çıxardır. Nəticədə "işıqlı dünyası" genişlənir. Bu mənada cəhalətin qaranlıqla müqayisəsi tam yerinə düşən bir müqayisədir. Bir şəxsin təbiət qanunlarını bilməməsi və hər şeyi xurafata bağlaması həmin qanunların olmaması anlamına gəlmir, sadəcə həmin şəxs görmür. Dediklərimizdən də məlum olduğu kimi, biz gözlə görməkdən deyil, şüurun həqiqəti qavramağından, onun noemasını – nur sistemini görməkdən danışırıq. Şüur məhduddur və onun ehtiva edə bildiyi işıqdan kənarda qaranlığın – işığı hələ kəşf olunmamış sahənin mövcudluğu sual yaratmamalıdır.

Şüur müəyyən bir ideyasını təsdiq edəndən və yaratdığı yeni noemada işıq dalğa halını alandan sonra insan öz həqiqətini az qala mütləq həqiqət, etalon zənn edir. Qeyd edək ki, bu, az biliyin nəticəsi deyil və kifayət qədər geniş dünyagörüşlü şəxsə də mənsub bir hissdir. Məsələn, Şərq filosoflarının əsərlərində bəzən "Bu, sonuncu filosofun fikridir" kimi yekuna rast gəlmək mümkündür. Yaxud məlum olduğu kimi, Eynşteyn bütün açıq arqumentlərə baxmayaraq kvant fizikasını qəbul etməyib, onu cəfəngiyat adlandırıb.[2] Əlbəttə, həmin zaman kəsiyi üçün bu, danılmaz həqiqətdir. Lakin obyektiv həqiqətin insan şüurunun çərçivəsindən daha böyük olduğunu, işıqlanmış sahədən kənarda qaranlıq – transsendent sahənin varlığını nəzərə alsaq, geniş mənada bu iddianın yanlış olduğu anlayarıq. Zatən, düşüncə tarixi də bunu sübut edir.

İşıq haqqında təhlilimizdən alınan nəticəyə görə, onun dalğa halı sükutdur. Elmi məlumata görə foton – işığın elementar hissəciyi sükut halında kütləyə və elektrik gərginliyə malik deyil. Başqa sözlə desək,

---

[1] Экхарт. Духовные проповеди, с. 85.
[2] Гейзенберг. Физика и философия, с. 191.

sükut halında işıq qaranlığa bənzəyir. Onun "işığa" çevrilməsi üçün zərrəciyə çevrilməsi lazımdır. Buna görə də, biz deyirik ki, noema şüur onu kəşf etdiyi andan bəlli olur, qalan hallarda isə qaranlıq zənn edilir. Yanılma noematik dumanda baş verir – şüur başqa bir işığın cazibəsi, yaxud biliyin azlığı nəticəsində istiqamətini dəyişdirir. Məqsədinə – noemaya çatmadığı halda fikir yürütməyə, qərar verməyə iddialananda isə, təbii ki, səhvə yol verir. Xüsusilə vurğulayaq ki, bu, şüurun intensiyasının zəifliyi halında baş verir. Yanılma hələ elmi kəşfini gözləyən həqiqətlərə də aiddir. Zaman-zaman bir-birini əvəz edən nəzəriyyələr, elmi faktlar belə yanılmaların korrektəsidir. Məsələn, Yer və Günəş sistemi, insanın bioloji, fizioloji quruluşları haqqında deyilən, hətta uzun müddət mütləq olaraq qəbul edilən həqiqətlər bu sıradandır. Yanılmaları obyektiv həqiqətin hissəsi ilə səhv salmaq olmaz. Məsələn, Nyuton mexanikası 200 ildən sonra Eynşteyn nəzəriyyəsi ilə təkzib edildi, lakin bu, Nyuton mexanikasının nə yalan, nə tamamilə ortadan qaldırılması deyildi. Hətta təkzib də deyildi, reallığın başqa bir tərəfinin göstərilməsidir. Yaxud əvvəlcə atomun ən kiçik zərrəcik hesab edilib, daha sonra lazımi avadanlıqlar vasitəsilə atomun özünün belə zərrəciklərdən ibarət olması yanlışın düzəldilməsindən daha çox, həqiqətin növbəti mərhələsinin kəşfidir. Məqsədə gedən yolda idrak çox mərhələlərdən keçir və bu zaman yanılma halları çox olur. Onlardan biri də noematik məqamlardır. Onları Leibnizin "Monadologiya"sında rast gəlinən təsadüfi həqiqətlərə də bənzətmək olar. Leibniz yazır: "Elə təsadüfi varlıqlar mövcuddur ki, onların son, yaxud tam əsası yalnız zəruri varlıqdadır və onun da əsası elə özündədir".[1] Burada bir incəliyə diqqət yetirək. Bir var şüur son məqsədə – Həqiqətə doğru irəliləyir və yolda rast gəldiyi "təsadüfi varlıqlar" növbəti mərhələ üçün keçid, əlavə "vəsait" hesab edilir. Bu, yaradıcılıq, kəşfdir. Bir də var şüur axtarış aparır və müəyyən şərtlərə, idrakın səviyyəsinə uyğun olaraq müvəqqəti toplanmış biliklər – noematik məqamı son qəbul edə və növbəti axtarışlarını artıq onun ətrafında qura. Xatırladaq ki, noeslərin əsası noemanın özündədir, nüvəsi yoxdur

[1] Лейбниц. Монадология, с. 421.

və onun ətrafında noema qurmaq olmur. Bu, yanılmadır. Dəqiqləşdirək: hətta həqiqətə gedən yolun bir mərhələsində də qavranılan bilik yanılma ola bilər, çünki son nəticə bəlli olmadan, fenomenoloji reduksiya tamamlanmadan ilk ideya aydınlana bilməz. Son məqsəd aydın olmadan müvəqqəti bir məqamdan çıxış edərək fikir yürütmək yanılmaya səbəb olur. Məsələn, Aristotelin də yazdığı kimi, Fales maqnitin dəmiri çəkməsini birincinin ruhu olması ilə izah edirmiş, yaxud səhərlər daşın üzərinə düşən şehi onun içindən gəldiyini zənn edərək daşın da ilk başlanğıcının su olduğunu zənn edirmiş. Yanılmanın qarşısını yalnız biliyin artması ala bilər. Bunu yarı yolda yanacağı bitmiş bir maşına bənzətmək olar. İrəliləmək üçün hansı istiqamətə, necə gedəcəyi bəlli olmadan yamacdan onu itələyirlər, yaxud rastgələ başqa bir maşının yedəyinə bağlayırlar. Təbii ki, belə halda son hədəf kənarda qalır. Halbuki, yanacaq əlavə etməklə öz istiqamətilə düzgün getmək daha məqsədəuyğundur. Yanılma şüurun intensiyasının daha güclü bir işığın cazibəsi səbəb olur. Deməli, onun düzəlməsi də yenə şüurun öz intensiyasının güclənməsi vasitəsilə mümkündür.

Müqəddəs mətnlərə görə, kafir Mütləq Həqiqəti – Allahı qəbul etməyəndir. Məsələ burasındadır ki, qalan həqiqətlər haqqında subyektiv rəylər ola bildiyi halda, Yaradan belə müzakirələrin fövqündədir. Paraqraflardan birində (§94) ideyaların tək mənbəyi haqqında danışanda Həllacın sözlərinə istinad edərək küfr və imanı fərqləndirməmişdik. Xüsusilə vurğulayaq ki, söhbət məhz kafir və mömindən deyil, yəni subyektiv rəyin sahibindən deyil, həqiqətdən gedir. Bununla yanaşı, küfr ilkmənbədə olan həqiqət deyil, kafirin ifadə etdiyi fikir olanda isə mənzərə dəyişir. Həllacdan fərqli olaraq, əksər hallarda, küfr məhz ikinci mənada işlənir, ona görə də küfr və imanın eyniyyəti fikri birmənalı qarşılanmır. Daha əvvəl birinci məna geniş təhlil edildiyinə görə, burada ikincinin araşdırılmasına yer ayıraq.

Eyni mənbədən gələn həqiqət onu ifadə edənin şüuruna uyğun olaraq səslənir və tanınır. İman kimi, küfr də şüurla əlaqəlidir. Deməli, küfr də yalnız insana məxsusdur. Lakin imandan fərqli olaraq ruh hadisəsi deyil. Bu o deməkdir ki, şüurun intensiyası ruhun işığı ilə dəstək-

lənmir və zəif olur. Bu, onun düşüncələrində qaranlıq məqamların daha çox olmasına da dəlalət edir. İnsan obyektiv həqiqəti deyil, yalnız özünün potensialından çıxış edir. Onu da əlavə edək ki, küfr sahibinin rasional şüur kifayət qədər inkişaf etsə də, ruhla əlaqəsinin olmaması onun işıqlı dünyasının kifayət qədər dar olmasına dəlalət edir. Əgər yanılma həqiqət axtarışında şüurun fərqli istiqamətlərə getməsi, axtarmağıdırsa, küfr durğunluqdur. Buna görə də küfr yanılmanın ifrat forması hesab etmək olar. Onun üçün səslənən hər həqiqət onun düşüncəsinin qaranlıq sahəsinə aiddir və o, bunun qətiyyətlə rədd edir. Belə məlum olur ki, küfrün də, imanın da mənbəyi subyektin öz şüurudur, daha dəqiq desək, onun işıqlı və qaranlıq sahələrinin nisbətidir. Qurani-Kərimdə belə dar görüşlü insanlar qəlbi, gözü, qulağı "möhürlü" şəxs kimi təqdim edilir. Onu da vurğulayaq ki, noema halında bütün həqiqətlər eyni sistemin tərkib hissəsidir. Xüsusilə təkrar edək ki, bu qatda yalnız həqiqət var. Deməli, bu səviyyəyə qalxa bilən bir şüur hətta onu öz çərçivəsinə alsa da küfrə düşməz. Yanılma mümkündür, ancaq bu qədər geniş radiuslu bir şüur qaranlığa istinadən qərar verməz.

Belə məlum olur ki, küfr çərçivə və sondur. Şüurun mahiyyətində var olan işıq hər ikisini qəbul etmir. Həllacın "Təvasin" əsərinin ilk bolumündə – "Çıraq ta-sini"ndə Məhəmməd peyğəmbərlə (s.) İblis arasındakı müqayisəsinə bu kontekstdə baxanda belə bir maraqlı nəticəyə gəlmək olur: şüur sahibi insanın inkişaf və kamilləşmə yolu Yaradana qədər yüksəlmək imkanına malikdir, öz düşüncəsindən başqasını qəbul etməyən, öz mövqeyini hakim bilən İblis isə olduğu məqamda dayanır, yalnız öz çərçivəsini işıq bilir. Hətta bununla da kifayətlənməyib qarşıdakını da öz "çərçivəsinə" salacağına söz verir.

Nəhayət, onu da qeyd edək ki, qaranlıq yalnız işıqlanmamış ərazi deyil. Bərk səth üzərinə düşən işıq şüasını udduğu kimi, qaranlıq da məqsədsiz irəliləyən şüurun intensiyasını "udur". Nəticəsiz qalan şüur qaranlığı güc zənn edir və üzərinə getmir. Halbuki, məqsədli və düzgün fokuslanan intensiya işıqlı sahədən tanıdığın həqiqətin davamını orada aydınlada bilər.

## § 130. Noemanın mənalandırılmasında işıq

İlahi yaranışdakı harmoniya hər məqamda mövcuddur, o cümlədən, idrak prosesində. Şüurun məhdudluğu və dərk edilən işığın fraqmentarlığı kimi. Noema mürəkkəb strukturdur və şüur onu yalnız mərhələli şəkildə qavramağa qadirdir. Xatırladaq ki, nə təbii quruluşda, nə də eydedik strukturda sıçrayış xarakterli inkişaf yoxdur. Lakin bu, onu istisna etmir. Sadəcə sıçrayış zamanı əvvəla, arada qaranlıq məqamlar toxunulmadan qala bilər, yaxud qismən işıqlanar və o, son nəticədə özünü düyün kimi özünü göstərə bilər. İkincisi, sıçrayışlı irəliləyişdə özünüreduksiyada yeni biliyin sistemlə uyğunlaşmasında problem yaranır, bir növ iki çarx arasındakı uzlaşma pozulur. Nəhayət üçüncüsü, bu, ayrı-ayrı həqiqətləri ortaya çıxartsa da, ümumi qanunauyğunluğu açmaya da bilər. Onu da mütləq qeyd edək ki, şüurun obyektiv həqiqəti fraqmentar şəkildə aydınlandırması ilə sıçrayışlı irəliləmə eyni anlayış deyil. Birinci halda, şüur məqsədyönlü şəkildə noemanın ayrı-ayrı xüsusiyyətlərini öyrənməklə, vahid mənzərəni yaratmağa çalışır. İkinci halda isə hər hansı bir informasiya – altşüurdan, yaxud kənar təsir nəticəsində ümumi prosesə müdaxilə edir və ani parıltı digər bilikləri görünməz edir. Məsələn, peyğəmbərlərə verilən vəhy kimi. Bu, şüurun ilk təkanından daha güclü olduğuna görə, onun intensiyasını – işığının axarını həyəcanlandırır, hətta istiqamətini dəyişə bilir. Bu, indiyə qədər olan idrak prosesinin davamı da ola bilər, tamamilə yeni bir prosesin başlanğıcı da. Dediklərimizdə bir həqiqəti vurğulamağa çalışırıq: istər ayrı-ayrı fraqmentlər şəklində, istərsə də sıçrayışlarla işıqlansın, fərq eləmir, şüur öz intensiyasının imkanları çərçivəsində noemanı qavrayır. Şüur yalnız potensialının yetdiyi qədər irəliləyir, işıqlandırır. Bu, bir noemanın ayrı-ayrı xüsusiyyətləri qədər də ola bilər, noematik nüvənin özü də, hətta birini tamamlayıb başqaya noemaya keçidə də çatar. Onu da xatırladaq ki, işıqlanan hər fraqment nəticədə şüura qatılmış yeni bir işıqdır və nə qədər nüvəyə yaxınlaşarsa, bir o qədər mənimsənilən işıq da güclü olar.

Noemanın işıqlanan hər xüsusiyyəti onun mənasına aiddir. Əlbət-

tə, nüvəyə yaxın və uzaqlığına görə xüsusiyyətlərin də əhəmiyyəti dəyişir. Bundan əlavə, həmin xüsusiyyətlərə baxış bucağı da onların mənasına təsir edə bilir. Bu, özünüreduksiyadan asılıdır. İntensiya subyektiv prizmadır, xüsusiyyət ayrı-ayrı şəraitlərdə fərqli mənalarla tanınır. Bu mənalar məhdud olsa da, insanın subyektiv yanaşması da onlara yeni bir funksiya yükləyə bilir. Burada əhəmiyyətli bir məqamı vurğulayaq: noema obyektivdir və tək mənaya həqiqətə malikdir. Lakin onun mənası 1) şüur onu işıqlandırdığı qədər bilinir, 2) şüur onu parçalayaraq öz qurduğu noemada fərqli məna verə bilər. İşıqlanmayan hissə qaranlıq və istifadəsiz qalır. Hətta hər kəsin gözü qarşısında belə, qaranlıqdadır. Unutmaq olmaz ki, hər eydosa yaranış zamanı tək ideya yüklənsə də, bir neçə mənanın, funksiyanın daşıyıcısı olur – mənsub olduğu noemanın nüvəsinin verdiyi, ondan üst sistemin verdiyi funksiyalar və s. Buna görə də fərqli baxış bucaqları onların ayrı-ayrı funksiyalarını işıqlandırır. Nəhayət qeyd edək ki, xüsusiyyətlər nə qədər ciddi öyrənilsə də, məhz nüvənin qavranılması onların yaradılış zamanı aldıqları ideyanı və funksiyanı işıqlandır bilir.

Noemalar köməkçi eydoslar vasitəsilə əlaqəlidir. Üst noemaya, Loqosa aparan yol isə yalnız noematik nüvədən mümkündür, çünki noematik nüvə üst noemanın xüsusiyyətidir. Buna görə də, eyni müstəvidə olan noemalar arasında şüur eyni potensialla hərəkət edə bildiyi halda, üst sistemə qalxmaq üçün daxili nurunu artırmalı və intensiyasını daha da dəqiqləşdirməlidir.

Heç bir noema yalnız, tək deyil. O, ya hansı isə başqa bir noemanın strukturundadır, ya da başqa bir noemaya keçid funksiyası daşıyır. Deməli, birinə olan yanlış yanaşma artıq digərinin yanlış qavranılmasının əsasını qoyur. 0 və 1 arasında bilik yetməzliyi, işıq azlığı səbəbindən yanlış yerə istiqamətlənən şüurun son nəticədə səhvi çox böyük olur. Özünüreduksiya belə yanlışlığın qarşısını alan ilk aktdır. Məhz bu zaman biliyin, malik olduğu işığın səviyyəsi təftiş edilir, qaranlıq məqamlar ön plana çəkilir. Məsələ burasındadır ki, istənilən yanılma mütləq hansı isə qaranlıq məqamın nəticəsidir. Bunu incə bir sapa düşmüş

kiçik düyünə, yaxud düz xəttin üstündə kiçik bir əyriliyə bənzətmək olar. Həmin sap iynənin gözündən keçmir, vaxtında açılmasa sonda sapın qırılmasına səbəb olur. Düz xəttin bir dərəcə belə əyilməsi sonda hədəfdən yayınmaq deməkdir. Xüsusi vurğulayaq ki, yanlışlıq obyektiv noemada deyil, ona yanaşmadadır. Özünüreduksiya həmin işığın əyri fokuslanmasının səbəbi olduğu kimi, onu düzəltməyə də qadir olan tək qüvvədir. Təsadüfi deyil ki, belə yanılmalar zamanı şüur zəruri addım kimi təkrar başlanğıca qayıtmağa üstünlük verir.

### *§ 131. Noeza və intensiyanın qarşılıqlı təsiri*

İntensiya subyektivdirsə və noemanın mənası ona münasibətdə dəyişə bilirsə, deməli, noezanın rolu böyükdür. Daha dəqiq desək, noezadan asılı olaraq noemanın fərqli tərəfləri açılır. Noeza iki noema arasında əlaqədir, eydosun işığının şüalanması və qarşı tərəfin şüalanması ilə rastlaşması, qovuşmasıdır. Nəzərə alsaq ki, noemanın nüvəsinə, çoxsaylı xüsusiyyətlərindən hər birinə ayrıca noeza uzanır, eyni zamanda, şüur potensialından istifadə edərək öz noezalarını yarada bilir, o zaman idrak prosesi zamanı noezaların çoxluğunu, müxtəlifliyini təsəvvür etmək çətin olmaz.

Şüurun bazası, özünüreduksiyası nə qədər güclü olursa, intensiyası da bir o qədər dəqiq və aydın olur. İlk ideya özündə son nəticənin müəyyən bir nəticəsini, obrazını da ehtiva edir. Həmin obraz nə qədər çox aydınlıq olursa, bir o qədər də ona gedən yolların detalları dəqiqləşir və bu, intensiyanın gücünü artırır. İnsan bir şey etmək istəyəndə, xüsusilə yaradıcılıq zamanı, hətta lövhədə bir dördbucaq çəkmək istəyəndə də, əvvəlcə, bir neçə an öncə şüurunda onun obrazı yaranır, daha sonra əl onu təcəssüm etdirir. Çəkilən dördbucaqlıdan onu təsəvvür edən insanın şüuru bəlli olur. Noezalar hesablamalar, təxəyyül, elmi eksperimentlər və s. şəklində qurulur və bu zaman şüurun bütün korrelyatları səfərbər olunur. Bir növ şüurun bütün varlığı həyəcanlanır, aktivləşir və noemaya – obyektə yol axtarır. Məqsəd onun da işıq dalğasını həyəcanlandırıb öz noezasına nə dərəcədə uyğun olduğunu görməkdir. Noema sabit sistem-

dir və onun işıq dalğasını, ən azından xüsusiyyəti səviyyəsində, sükutdan çıxartmaq üçün ondan daha güclü bir işıq şüası tələb olunur. Bəzən nəticə gözlənilən olur, hesablamalar düzgün çıxır və şüur yoluna davam edə bilir. Bəzən isə əksinə. Birinci halda, noema noezanın məntiqli davamı olur, şüur ona müdaxilə edə, təmas qura bilir və yeni noezalar yaranır. İkinci halda isə, şüur qaranlıqla qarşılaşır: şüası ya udulur, ya da başqa bir noemanın xüsusiyyətləri ilə qarşılaşır. Bu, özünüreduksiyada buraxılan bir səhvdən, bilik yetərsizliyindən doğulan yanılmadır. Yəni noezanın şüurdan yanlış istiqamətlənməsinin nəticəsidir. Belə olanda, şüur ya geri – ilkin məqama qayıdır, ya da malik olduğu biliklərdən ən yaxşı halda noes, ən pis halda isə psevdo-noema yaradır. Dediyimiz həm də onu təsdiq edir ki, noema obyektivdir və şüur bu obyektivlikdən hansı isə bir hissəni qavramalıdır, yaxud öz noemasını quranda onunla hesablaşmalıdır.

Noeza noema kimi mürəkkəb struktura malik deyil. O, şüurdakı bir nöqtədən başlayan və yalnız bir nöqtə-eydosla birləşən düz xətdir. Bu, köməkçi eydos da ola bilər, nüvə də. Lakin noezalar saysızdır və tez-tez kəsişir. Daha əvvəl də qeyd etdiyimiz kimi, noemalar qaraşındakı qeyri-müəyyənlik, bulanıq vəziyyət məhz noezaların xaosudur. Zəif intensiya onların kəsişmə məqamında yolunu itirib, yanlış yerə istiqamətləndiyi kimi, əksinə, yanlış yoldan doğru dəyişə də bilər, hətta noematik dumanda böhrana düşə də.

Noeza özü ayrıca eydos deyil, onun işığının şüalanmasıdır. Hər noemanın öz noezaları var və onlar noematik nüvəyə tabedir. Daha əvvəl sükut halında fotonların hər hansı elektrik gərginliyə sahib olmadığını vurğulamışdıq. Eyni şəkildə, sükut halında olan noemadan da hər hansı noeza uzanmır, dalğa halında işıq şüalanmır. Bunun üçün o həyəcanlanmalıdır. Bu isə, dediyimiz kimi, daha güclü işıq şüası ilə mümkündür. Xatırladaq ki, eydos özü hər hansı hərəkətə malik deyil. İdrak məhz insan intensiyasının gücü sayəsində irəliləyir, obyekt ona nə isə diktə etmir, edə də bilməz. İntensiya yalnız həyəcanlandırmağa gücü çatdığı noemaya müdaxilə edə, onun nüvəsinə çata bilər.

## § 132. Ruh və noezaları

Ruh təkeydoslu varlıq olmaqla bərabər, həm də şüurun ən güclü nur mənbəyidir. Bu səbəbdən onun bu kontekstdə təkrar təhlil edilməsi mövzunun tam açılması üçün zəruri addımdır. Belə ki, əgər əvvəllər biz birmənalı şəkildə onun dərkolunmazlığını vurğulayırdıqsa, onun malik olduğu çoxeydoslu nuru mənzərəni nisbətən dəyişmiş olur. Başqa sözlə desək, o, idrakın fövqündə dursa da, onun aparıcı qüvvələrindən biridir; özü heç bir noemanın tərkibinə daxil olmasa da, nurunun noezaları vasitəsilə əlaqə yarada bilir.

Ruh haqqında müqəddəs mətnlərdə çox az yazılmışdır, bununla belə, aydın şəkildə ruh və can anlayışları fərqləndirilib. Bibliyada ruhun Allaha qayıdacağı bildirilir: "Toz torpağa qayıdacaq, olduğu yerə; ruh, onu verən Allaha qayıdacaq" (Bibliya. Vaiz 12/7). Can isə bədənlə bərabər öləcək: "Can günah edəndir, o öləcək; oğul atanın günahını çəkməyəcək, mömininin həqiqəti özü ilə, qanundan kənar olanın qanunsuzluğu da özü ilə qalacaq" (Bibliya. Yezekil 18/20). Qurani-Kərimdə də onlar fərqləndirilir, eyni zamanda, onun haradan alındığı da göstərilir. Buradan belə məlum olur ki, əvvəla, ruh bilavasitə Allahdan verilir və haqqında bilik çox azdır (Quran 17/85). Ancaq burada onun haqqında bilik toplamayın kimi qadağa da qoyulmur. İkincisi, belə məlum olur ki, ruh artıq forma qazanmış bədənə verilir, yəni şüur verilmiş, "Ol" əmri ilə artıq müəyyən mahiyyətə sahib struktura – insana verilir: "Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz dərhal ona səcdə edin (təzim göstərin)!" (Quran 15/29). Üçüncüsü, həm xristianlıqda, həm də İslamda Allahdan xəbər gətirən qüvvə – mələk Cəbrail/Qavriil Müqəddəs Ruh adlanır. Onun müqəddəsliyi gətirdiyi xəbərlərdədir. Xüsusilə vurğulayaq ki, hər mələk ruh deyil, Cəbrail isə ilahi vəhyin – biliyin daşıyıcısı olduğuna görə, Ruhdur. Xatırladaq ki, istər Müqəddəs Məryəmə, istərsə də Məhəmməd peyğəmbərə (s.) ilahi kəlamı gətirən məhz Müqəddəs Ruh olub. Nəhayət dördüncüsü, nəfs/can bilavasitə insana həyat verən bir fenomendir və onun alınması ölümdür: "O, bəndələri üzərində

tam hakimiyyət sahibidir. O sizə gözətçi mələklər göndərir. Nəhayət, birinizin ölümü çatdığı zaman mələklərimiz onun canını alar. Onlar (öz işlərində) heç bir nöqsana yol verməzlər" (Quran 6/61).

Deyilənlərdə bir məsələni xüsusi vurğulayaq. Belə məlum olur ki, ruh – ilahi aləmdən hikmət gətirəndir, yəni ruh ilahi iradə tərəfindən idarə olunan və insanla Allah arasında əlaqədir. Onun tanınması həm də ilahi hikmətə qapı açır. O, hazır noemaya verilir, yəni artıq mahiyyəti, funksiyası bəlli bir sistemin hərəkətə gəlməsi üçün ruh vasitəsilə kənardan təkan verilir. Ruh noemanın tərkibinə daxil olmur, noezaları ilə artıq hazır nur sistemi ilə əlaqə yaradır və onunla bu şəkildə "əməkdaşlıq" edir. Hələ 6-da §2-də göstərmişdik ki, ruhun məhz bədənlə əlaqəli olan, yəni bilavasitə noemanın funksiyalarında iştirak edən, onun nuruna uyğun hərəkət edən hissəsi can adlanır. Canlılarda bu əlaqənin varlığı hisslər, instinktlər səviyyəsində özünü göstərir. İnsan isə şüurunun sayəsində bu səviyyənin üst qatına – candan ruha keçə bilir. Əgər digər canlılarda ruh yalnız ilahi iradənin tabeliyindədirsə, çünki onun nur axınına müdaxilə edə bilən yalnız O-dur, insan da öz şüurunun intensiyası ilə ruhla əlaqə yaradıb, ona təsir göstərə, onun verdiyi imkandan istifadə edə bilir. Platon "Timey"də yazır: "Ağıl var olanlardan yalnız cana/ ruha çata bilir, ancaq ruh görünmür, od, su, torpaq və hava isə görünən cisimlərdir".[1] Aristotel canı ümumiyyətlə "zəruri olaraq həyat imkanı olan təbii cismin forması mənasında olan mahiyyət" adlandırır. Lakin bu, sadə bir mahiyyət deyil, "entelexiyadır, deməli, can cismin entelexiyasıdır. Entelexiyanın isə iki mənası var: ya bilik kimi, ya da sezmə fəaliyyəti kimi; tamamilə aydındır ki, can bilik mənasında olan entelexiyadır".[2] Belə məlum olur ki, Aristotel ruhu bilik kimi qəbul etsə də, onun idrak prosesində fəaliyyətini qəbul etmir. Burada incə bir məqama diqqət çəkək: cisimlə ilə əlaqəli olan nur, deməli, müəyyən bir hikmət daşıyıcısıdır. Onun həm də idrak prosesinə qoşulması üçün şüurla əlaqəsi yaranmalıdır. Yəni sufi fenomenologiyaya görə, digər canlılardan

[1] Платон. Тимей.
[2] Аристотель. О душе, 2. 412a 23-24.

fərqli olaraq, ruh insanda entelexiyanın hər iki mənasında var: bilik və sezmə fəaliyyəti olaraq.

Belə məlum olur ki, ruh ilahi aləmlə əlaqə olsa da, təcrid olunmuş bir fenomen deyil. Məhz noezalarına səbəb o, mənsub olduğu noemanın ümumi nur axınına qoşulur, onun fəaliyyətində mövcud olur. İki məsələyə diqqət çəkək. Təbii quruluşda nur axını dalğa halındadır və təbiətin qanunlarına tabedir. Burada cismin öz tələbləri – instinktlər, reflekslər, təbii ehtiyaclar – nəzərdə tutulur və əlbəttə, nurun/enerjinin prinsipləri aparıcı yer tutur. Yəni can bədənə tabedir. Lakin o da nəzərə alınmalıdır ki, can özü də nura sahibdir və onun həyəcanlanması mütləq bədəndə təzahür edir. Buna görə də, canla eyniləşdirilən nəfs daha çox maddi istəklərə meyl kimi qəbul edilir. Əslində, bu, nəfsin təbii halıdır: bədənin funksiyasına tabe olub onu gücləndirmək. Şüur bir növ ruh və bədənin əlaqəsinə müdaxilə edir, onu yalnız bədənə deyil, həm də özünə xidmət etməyə sövq edir. Ruh bir noema çərçivəsindən daha böyükdür, daha doğrusu, o ilahi aləmlə həmin noemanı əlaqələndirən bütöv bir eydosdur. Belə demək mümkündürsə, ruh yalnız bir nur axınıdır, müəyyən bir mahiyyətə malikdir ki, onu dərk etmək mümkün deyil, öz şüuru, iradəsi, seçimi yoxdur. Onunla hansı səviyyədə əlaqə yaranırsa, o qədər də yararlanmaq mümkündür. Maddi bədən və şüur da o cümlədən. Məhz noezalarının varlığına görə, şüur onu öz korrelyatına çevirə bilir.

Ruhla əlaqə özünüreduksiya zamanı başlayır. Əgər bədəndə ruh ilahi iradə ilə “məskunlaşırdısa”, şüur onunla əlaqəni sonradan, öz nuru vasitəsilə, yəni noezalarla yaradır. Xüsusilə vurğulayaq ki, bu, bir nurun digərini zəbt etməsi, yaxud birinin digərinə aşıq olması deyil, çünki müəyyən noemaya üfürülmüş ruh ona uyğundur, nə ondan güclüdür, nə də zəif. Əlbəttə, istisna hal kimi ilahi iradə vasitəsilə güclənən ruhun dominantlığı ələ almağını qəbul edirik. Qalan hallarda isə, ruhla əlaqə yaradan şüur onun nurundan korrelyat, əlavə “köməkçi nur” olaraq istifadə edir: onun vasitəsilə özünün üst səviyyəsini tanıyır, obyektlərin noema qatına müdaxilə edir, ruhani təcrübədən istifadə edir, ilahi, irrasional bilik qazanır, intensiyası güclənir. Yəni istənilən obyektə şüurun fərqli

səviyyəsində münasibət məhz ruha səbəb dəyişir.

İlahi aləmlə, sonsuzluqla əlaqəli olduğu halda bir bədənlə məhdudlaşdığına görə bəzən filosoflar, yazıçılar bədəni ruhun həbsxanası adlandırır, ondan xilas olmağı ruhun yenə öz "Vətəninə" qayıtmasına bənzədirlər. Daha dəqiq desək, bunu ruhun öz mənbəyinə meyli, həsrəti adlandırırlar. §27-də İlkmənbə haqqında danışanda buna geniş təhlil vermişdik. Məsələyə bir də fərqli baxış bucağından baxaq.

Vətən, İlkmənbə haqqında düşünən və onun həsrətini çəkən şüurdur, çünki ruh zatən yenə ora ilə əlaqəlidir. Bəli, müəyyən bir bədənə tabedir. Lakin başqa mövqedən baxanda, məhz müəyyən bədənə üflənmiş ruhun konkret missiyası yaranır, qalan halda isə o, ümumi aləmdə fərdiliyi olmayan bir eydosdur. Əlbəttə, ruhunun varlığı və yoxluğunun fərqinə varmayan, "xidmətindən" istifadə etməyən bir bədən həqiqətən də onun üçün həbsxanadır. Bir yaradıcı insanın ruhu isə ideyalar aləmi ilə şüur arasında bir vasitəçidir. Dini mətnlərdəki Müqəddəs Ruh kimi. Hələ ana bətnində şüura verilmiş ilk köməkçi məhz ruhdur – ilahi aləmlə əlaqə, bədəninə can, daha sonra isə idrak prosesində bələdçi olaraq. Məhz bu qədər yaxın əlaqəsinə görə, ruhu mahiyyət də hesab edirlər, düşüncə də, bədənin hərəkətverici qüvvəsi də.

Ruh və şüur arasında əlaqə yaranan kimi, ruh yalnız can səviyyəsində reaksiya verir, həyəcanlanır, yəni bədən çərçivəsindən kənara çıxmır. Bu zaman şüur nə qədər ciddi işlə məşğul olsa da, hətta yaradıcı şəxs də olsa, ruh kənarda qalır, "susur" və dalğa halında olan nuru heç bir informasiya, hikmət daşımır. Şüur onu tanımadan onun həyəcanlanması, qeyd etdiyimiz kimi, ilahi iradə ilə mümkündür. Xatırladaq ki, ruhun öz iradəsi, seçimi yoxdur. Daxildən şüurun mahiyyətinə müdaxilə edən, onun işığını aktivləşdirən ruh vasitəsilə ilahi iradə olur. Belə müdaxilələr, yəni ruhun işığının aktivliyinin şüurdan daha çox olub onu özünə tabe etməsi idrak prosesi boyu da müşahidə edilən hadisədir. Məhz belə hallarda ruh və şüur arasında enerjinin balansı pozulur, ruh güclənir və şüurun nurunu istiqamətləndirir. Belə hallar həm də ruhani təcrübə zamanı baş verir: ilahi iradənin təsirində olan ruhun nuru öz no-

ezaları ilə üst aləmdə noemalara müdaxilə edir, biliklər alır, lakin bunu şüur olmadan etdiyinə görə, qazanılan biliklər irrasional səviyyədə qalır. Bu zaman ruhun aktivliyi şüuru da həyəcanlandırır, ancaq aralarında harmoniya olmadığına, ruhun qazandıqlarını şüur qəbul edə bilmədiyinə görə, ümumi nur axını heç cür yaranmır. Belə olan halda şəxsin daxili tarazlığı, mənəvi rahatlığı pozulur.

Ruh, əslində, obyektiv varlıqdır, lakin şüura səbəb subyektiv çərçivədə fəaliyyət göstərməli olur və buna görə də ruhu da subyektiv adlandırırıq. Hər nə qədər ilahi aləmlə bilavasitə əlaqəli olub tam müstəqil hərəkət etmək imkanına malik olsa da, o, məhz aid olduğu bədənə və əlaqəli olduğu şüura uyğunlaşır. Məsələn, bir rəssamın ruhu da rəssamdır, o, riyaziyyatçı, yaxud fizik ola bilməz. Bunu təqribən bulaqdan gələn suyun bir qaba tökülməsinə bənzətmək olar. Su keyfiyyətini, xassələri öz mənbəyindən alır. Lakin o, həmin qabın formasını alır, onun rəngində görünür, hətta qabda bir təsir gücü varsa, o da onun keyfiyyətinə qarışır. Ruhun subyektivliyi həm də onda özünü göstərir ki, o yalnız həmin şüura xidmət edir. Daha əvvəl də qeyd etdiyimiz kimi, bütün hesablamalar, biliklər, bacarıqlar bir şəxsdən başqasına ötürülə bildiyi halda, ruhun verdikləri ilə bunu etmək mümkün deyil. Eyni zamanda, şüur da ruhun imkanlarını artırır və o, idrak prosesinin aparıcı qüvvələrindən birinə çevrilir. Başqa sözlə desək, şüur və ruhun nuru eyniləşəndə aralarında əlaqə yaranır və onlar bir-birini tamamlaya bilir.

### *§ 133. Loqos və Nurlar nuru*

Loqos insan şüurunun çata biləcəyi ən yüksək noema və üst sistemdir. Antik dövrdə Heraklitdən başlayaraq Loqos hər zaman bütün yaradılmışların əsası kimi götürülüb, istər söz olaraq, istərsə də "ideyalar ideyası" olaraq. Müəyyən zamanlarda, xüsusilə monoteist dinlərdə müqəddəs mətnlərə istinad edən fəlsəfələrdə Loqos ana xətdir. Bibliyanın "Əzəldə Söz var idi. Söz Tanrının idi və Söz Tanrı idi" (Bibliya. Yəhya 1/1) ayəsinə əsaslanan filosoflardan bəziləri Loqosu elə Mütləq Varlığın özü, bir başqası isə yalnız Onun sözü olduğunu iddia etmişdir.

Məsələn, İsgəndəriyyəli Filon özünün Loqos haqqında təlimində onu gah “Tanrının yaratdığı, gah da emanasiyası” kimi təqdim edir. Osipov belə nəticəyə gəlir ki, Filona görə, “Loqos Allahla dünya arasında vasitədir. Loqos – Ağıldır, ideyalardır və Allahın gücüdür. O – ideyalar ideyası, əzəli, Tanrının Böyük oğlu (kiçik oğul dünyadır), ikinci tanrı, kainatın ilk obrazıdır”.[1] Əslində, Osipovdan fərqli olaraq, bizim fikrimizə görə, İsgəndəriyyəli Filon Bibliya ayəsindən kənara çıxmır və Sözü elə İsa Məsih kimi təqdim edir. Qurani-Kərimdə də dönə-dönə vurğulanır ki, İsa Məsih Allahın Kəlamıdır: “O zaman mələklər dedilər: “Həqiqətən, Məsih İsa Məryəm oğlu Allahın rəsulu, Onun Məryəmə çatdırdığı kəlamıdır. (Quran 4/171)”. Dediklərimizdə əhəmiyyətli bir məqamın üzərində xüsusi dayanaq. Loqos Yaradana məxsusdur, lakin o, insanlar üçün nəzərdə tutulan, onların görüb, anlayıb, əməl etməli olduğu Kəlamdır. Allahın yaratdıqları, sözləri sonsuzdur və insan onların hamısını nəinki dərk etməyə gücü və zamanı çatmaz, çoxundan heç xəbəri yoxdur. Loqos isə məhz insanlar üçün deyilmiş Kəlamdır. Məhz buna görə də, biz deyirik ki, Loqos noemadır. Yenə Bibliyaya istinad etsək, o zaman Loqosun söz, səs və rəqəmlə ifadə edildiyini də əlavə edə bilərik. Yəni birincisi, Loqos yaradılmışdır, ikincisi, o, Filonun da dediyi kimi, ümumiyyətlə Yaradanın ideyaları, niyyəti, yəni insana hər cür müraciəti, Onun varlığını və iradəsini ehtiva edən hər şeydir. Daha əvvəl də haqqında danışdığımız hər üç kitab məhz Allahın kəlamı – Loqosdur. Bizim kontekstə qayıtsaq, o zaman Loqosun həm də Nur olduğunu iddia edə bilərik.

Loqosun noema olması və onun məhz insanlar üçün nəzərdə tutulması o deməkdir ki, ona doğru sonsuz sayda noezalar da var. Xatırladaq ki, Qurani-Kərimdə insanın İlahi aləmə iki yay məsafəsi qədər yaxınlaşmaq imkanının olduğu deyilir. Loqos həmin obyektiv məkan, noezalar ora aparan yollardır. Buna görə də, biz Loqosun da insan şüurunun görə biləcəyi ən üst noema adlandırırıq. Burada sual yaranır: Loqos və Nurlar

---

[1] Осипов А. И. Филон Александрийский https://alexey-osipov.ru/books-and-publications/uchebnoe-posobie-po-apologetike/filon-aleksandriyskiy/

nuru eyni anlayışdırmı? Xeyr.

Yaradılış iyerarxiyasının başında Nurlar nuru durur, yəni işığın zərrə forması alıb müəyyən aləmlərin, maddi dünyada isə ayrı-ayrı maddi varlıqların yaranması prosesi məhz ondan başlayır. Onun özü də nurlar vəhdətinə və vahid nur selinə daxildir. Ən kiçik zərrəcikdən tutmuş, kainatlara qədər hər şeyin hərəkətin kökündə onun durduğunu nəzərə alsaq, deyə bilərik ki, Nurlar nuru bu mütləq noemanın noematik nüvəsidir və bütün nur axınının, deməli, hər şeyin hərəkətverici mənbəyi də odur. Heizenberq yazır: "Biz burada materiyanın vəhdəti haqqında faktiki olaraq son sübutumuzu əldə edirik. Bütün elementar hissəciklər eyni substansiyadan, eyni materialdan "düzəldilib" ki, biz də onu enerji və ya universal materiya adlandırırıq; onlar yalnız materiyanın təzahür edə biləcəyi fərqli formalarıdır".[1] Düzdür, Heizenberq materiya sözü işlədir, lakin daha sonra vurğulayır ki, "Aristotelin əsasən "potensiya", yəni imkan olan materiyasını bizim enerji anlayışı ilə müqayisə etmək lazımdır".[2] Bizim kontekstdən çıxış etsək, Nurlar nuru, Aristotelin ifadəsi ilə desək, materiyadır, kvant fizikası termini ilə enerjidir, sufi termini ilə Vəhdət aləmidir, sufi fenomenologiyaya görə isə, vahid nur selidir. Bütün göstəriciləri ilə Loqos Nurlar nuruna uyğun gəlsə də, nəzərə almaq lazımdır ki, o, insan şüurunun işıqlandıra biləcəyi bir məqamdır, Kəlamdır. Yəni, daha əvvəl də qeyd etdiyimiz kimi, bir var Yaradılış iyerarxiyası, bir də var insan şüurunun işıqlandıra bildiyi mərhələlər. İşıqlar İşığı bütünlükdə şüurun fövqündədir. Loqos özü də Nurlar Nurunun noemalarından biridir. Biz Şüur deyəndə bəşəriyyətin tarixi boyu var olan bütün yaradıcı şüurların cəmini – meqaşüuru nəzərdə tuturuq. Təsadüfi deyil ki, Loqos sufi fenomenologiyada məhz meqaşüurdur. Plotin fəlsəfəni xatırlasaq, İlkdən ağıl və ondan ruh yaranır. İşıqlar İşığı ağıl deyil, İlkdir, enerji sahəsidir, Loqos isə məhz Ağıl, Söz, Mənadır. Onu da xüsusi ilə vurğulayaq ki, Loqos noema olsa da, insan onun nüvəsinə heç cür çata bilmir, çünki böyükdür, sonsuzdur. Bu səbəbdən insan

[1] Гейзенберг В. Физика и философия. с. 98
[2] Yenə orada.

biliyi də daim genişlənir. Bəlkə də bəşəriyyət öz inkişafının hansı isə səviyyəsində Loqosun noematik nüvəsinə çatmağa nail olacaq və bununla da üst sistemə keçə biləcək. Lakin hal-hazırki səviyyəsində o, Loqosun xüsusiyyətlərini kəşf etməklə məşğuldur.

Burada diqqət yetirilməli olan əhəmiyyəti bir məqam isə Söz və Ruhun ardıcıllığıdır. Hansı ilkindi? Bibliyaya görə, "Əzəldə Söz var idi" və O, Tanrını ifadə edirdi, buna görə də "Söz Tanrı idi". Sonra, qüdsi hədisdə olduğu kimi, Tanrı tanınmaq istədi və yaratdı – söz dedi: dünyanı, İnsanı və Özü ilə yaradılmış arasında hikməti çatdıran şəxsləri. Buna görə də, İsa Məsih də sözdür, həm insan, həm də vasitəçi olaraq. Yaradılmış dünyada hərəkətverici qüvvə nurdur, deməli, Tanrının sözü elə nurun özüdür. Söz Allahın özü deyil, ancaq Onun özü ilə bərabər mövcuddur, çünki Yaradan dilsiz, ideyasız varlıq deyil. Söz insandan əvvəl var olub. Peyğəmbərlərə verilən ilahi Kəlam – Vəhy əksər hallarda Müqəddəs Ruh – Cəbrayıl vasitəsilə verilir. Hətta İsa Məsih də Cəbrayıl vasitəsilə Müqəddəs Məryəmə Kəlam olaraq gətirilir. Deməli, Söz Ruhdan da əzəlidir. Lakin Ruhun özü də Sözdür, sadəcə, ona verilən məna onu ruh edib. Söz şüura ünvanlıdır, ruha yox, onu gətirən Ruh olsa da. Sözü anlamaq, qavramaq və daha sonra əməl edilmək üçündür. Burada əməl deyəndə biz həm də insanın öz yaradıcılığını nəzərdə tuturuq. İnsan qavradığı söz rasionallaşmayana, maddiləşməyənə qədər o, yalnız bir fərdin şüurunda həbsdə qalır. Söz mütləq təzahür etməlidir, yoxsa nur axınını sakitləşməyə qoymayacaq. Yəni insanın sayəsində söz ikinci dəfə "doğulur". Beləliklə, Nurlar Nuru – ideyalar aləmi olaraq öz Sahibi – Yaradanı ilə bərabər mövcud olsa da, yaradılmışdır, yəni Ondan sonra gəlir. Loqos Nurlar Nurunun bir hissəsi olsa da, ondan sonra gəlmir, məhz İnsandan sonra gəlir, çünki insan şüuru olmasa, Loqosun varlığı da qeyri-müəyyən qalar.

# IV Fəsil
# SUFİ FENOMENOLOGİYADA AĞIL

## I bölmə. Ağlın fenomenologiyası

### *§ 134. İdrak sistemində ağlın yeri*

Sufi fenomenologiyada şüur və ağıl ayrı-ayrı anlayışlardır. Hər nə qədər mahiyyətcə, funksiyalarına görə bir-birinə çox yaxın olsalar da, bəzi fəlsəfi sistemlərdə bir terminlə hər ikisini ehtiva etsələr də, bizim fəlsəfədə onların hərəsinin öz bəlli sahəsi və funksiyası var. Tədqiqatımızın ilk bölmələrində hər nə qədər müəyyən ontoloji məsələlərə toxunsaq da, əslində biz məhz idrak nəzəriyyəsinin mənzərəsini tamamlamağa çalışırıq. Bu sistemin bütün detallarının yerini tutması üçün sonuncu detal – ağıl təhlil edilməlidir və bunun üçün ilk növbədə onun yeri və əhəmiyyəti müəyyən edilməlidir.

İnsanın eydedik nüvəsi şüurdur. Bir canlı olaraq onun əksər bacarıqları və xüsusiyyətləri digər varlıqlarda da mövcuddur, hətta daha güclü və üstün şəkildə. Bir toxum daşın altında cücərib o daşı sındıraraq bitə bilir, yaxud kiçik bir quş öz balasını ilandan qorumaq üçün onun üstünə şığıyır, hətta qorxudur, itin, pişiyin iybilmə, görmə qabiliyyəti insandan qat-qat güclüdür, deməli, hiss səviyyəsində obyekt haqqında daha müfəssəl məlumat almaq qabiliyyətinə malikdirlər. Lakin bunu ya instinkt səviyyəsində, yəni mahiyyətini anlamadan edir, ya da təbiətin

ümumi qanunauyğunluğuna tabe olaraq, yenə də təhlil etmədən. Bu əməllərin heç birində şüur olmur, çünki şüur yalnız insana məxsusdur.

Şüur nüvədirsə, ağıl onun ətrafında yaranmış ilk qabıqdır. Bunu atom və nüvəsinə bənzətmək olar. Elmi məlumata görə, "atom nüvəsi atomun bütün məkanının mərkəzində müstəsna şəkildə balaca bir payı tutur, – nüvənin radiusu bütün atomun radiusundan təqribən 100 min dəfə kiçikdir; bununla belə atomun bütün kütləsini təşkil edir".[1] Yəni insanın bütün varlığı onun nüvəsi – şüuru ilə dəyərləndirilir. Burada əhəmiyyətli bir məsələyə təkrar aydınlıq gətirək ki, şüurun nüvə olması, onun hər hansı bəlli bir yerdə mövcud olması demək deyil. Belə olan halda, ağıl da bədənin hər hansı bir yerində sabit dayanıb öz funksiyasını yerinə yetirən orqan deyil. Bunu təqribən atomun quruluşu ilə müqayisədə izah etmək mümkündür: atomun strukturunda nüvə və onun ətrafına hərlənən elektronun konkret yeri yoxdur və o, bir növ, hər yerdədir, bütün orqanizmdə mövcuddur. Əslində, şüur noematik qatda mövcuddur və maddi təzahürü yalnız korrelyatlarında və insanın fəaliyyətində, xüsusilə idrak prosesində, yaradıcılıqda özünü göstərir. Onların enerjisi, istiqamətverici qüvvəsi kimi.

Ağıl şüur kimi doğuluşdan mövcud deyil və instinktlər kimi, təcrübə ilə öz-özünə formalaşa bilməz. O, məhz şüurun fəaliyyəti ilə yaranır və böyüyür. Daha dəqiq desək, şüurun ilk özünüreduksiyası aktı ağlın doğulması ilə yekunlaşır. Bu prosesi təqribən belə təsvir etmək mümkündür: şüur (nüvə) aktivləşərək hərəkətə gəlir və obyektə doğru istiqamətlənir, ondan aldığı informasiya (işıq) ilə təkrar özünə doğru qayıdır. Yeni informasiya ilə şüurda özünütəhlillə başlayır. Tamamlanan ilk idrak çevrəsi ağlın ilk çərçivəsini – həcmini təyin edir. Burada yenə də nüvə – əsas mahiyyət və ağırlıq şüura, qalan yer isə qazanılan nura – biliyə aid olur. Növbəti mərhələdə idrak prosesi yenə şüurdan – nüvədən başlayır, lakin bu dəfə artıq nüvə tək olmur və həcmi daha böyük olur. Qısa şəkildə bildirsək, idrak prosesinin hər yeni mərhələsi şüurun çevrəsinin böyüməsi, yəni ağlın böyüməsi ilə nəticələnir. Bir daha tək-

[1] Yenə orada, s. 92.

rar edək, əgər özünütəhlil baş veribsə və ağıl doğulubsa. Əks halda, bu, sadəcə eklektik şəkildə toplanan biliklərin cəmi olur. Sxem 10-u xatırlasaq, ağıl onların hər üçünü ehtiva edən bir çevrədir (*sxem 32*).

Ağlın formalaşması ilə biliklərin toplanmasında müəyyən bir çərçivə, sabit istiqamət müəyyənləşdirir və şüur fokuslanmağı öyrənir. Məsələn, ilk dəfə top görən və ona uyğun bilikləri mənimsəməyə başlayan iki uşaq fərqli hərəkət edə bilər. Biri bütün diqqətini ona verib onu öyrənməyə başlayır, onunla oynayır və bu zaman topun yanındakı kitab, yaxud cib fənəri diqqətdən kənarda qalır. Diqqət məhz topa yönəlib, hətta atılan top gedib bir çiçəyi qırsa belə diqqət çiçəyə yönəlmir, onun hansı çiçək olduğunu, necə ətrə sahib olduğu maraq kəsb etmir – yalnız topu düşünür, onun haqqında biliklərlə maraqlanır. Digər uşaq, əksinə, topun yanında qırmızı maşın oyuncağını gördü, diqqət ona yayındı, daha sonra konfet və s. Diqqətini müəyyən bir obyekt cəlb edənə qədər o yayınmağına davam edəcək və ağıl heç cür formalaşmağa başlamır.



*Sxem 32. Ağıl.*

Şüurun mahiyyətini, korrelyatlarını nəzərə alsaq, deyə bilərik ki, ağıl boş bir məkana yeni biliklərin toplanması deyil. Burada nəzərə alınmalı olan bir neçə əhəmiyyətli fakt var. Birincisi, qeyd etdiyimiz kimi, biliklər bəlli bir nüvənin – şüurun ətrafında toplanır və onun tələblərinə uyğun sistemləşir. Eyni biliyin fərqli qəbulu, təhlili, tətbiqi də buradan qaynaqlanır. İkincisi, ağlın formalaşması ilə empirik biliklər, apriori biliklər də oraya cəlb olunmağa başlayır. Deməli, burada yeni və əvvəlki biliklər arasında doğmalaşma, uzlaşma prosesi getməlidir. Ağlın formalaşması yeni bir işıq sisteminin yaranmasıdır və ilk növbədə öz daxili ahəngi qaydasına düşməlidir. Məsələn, daha əvvəl də qeyd etdiyimiz kimi, sistemləşməyən biliklər şüurda "tıxac" yaradır və yavaş-yavaş onu passivləşdirə, yaxud başqa bir şüurun xammalına çevirə bilir. Daxili işıq axını ağlın öz gücünün göstəricisidir. Bu güc özünü sonradan qəbul edilən biliklərin təhlilində də, onların tətbiqində də, hətta başqa ağıllara

təsirində də özünü göstərir.

Biliklərin şüur ətrafında müəyyən qanunauyğunluqla toplanması, ağlın formalaşması düşüncə prosesidir. Ağlın formalaşmasını müəyyən mənada insanın ilk "yaradıcılıq" məhsulu adlandırmaq olar: nüvəsi Allah tərəfindən verilmiş bir sistemin insan tərəfindən tamamlanmasıdır. §59-da biliyin əzəliliyi haqqında danışanda da qeyd etdiyimiz kimi, hər eydos, o cümlədən, şüur yaranışından müəyyən informasiyaya, mahiyyətə malikdir. Platonun haqqında danışdığı xatırlanmalı olan biliklər, yaxud Qurani-Kərimdə deyildiyi kimi, Yaradanın yalnız insana öyrətdiyi adlar məhz həmin mahiyyətdə ehtiva olunanlardır. Vacib eydosun – nüvənin ətrafına köməkçi eydosların gəlməsi, sistemin yaranması onun mahiyyətinin reallaşmasına imkan yaratmaqdır, deməli, həm də həmin biliklərin "xatırlanması", sistemdə öz yerini tutmasıdır.

Burada məntiqli bir sual ortaya çıxır: insanın müəyyən instinktlər də nüvənin mahiyyətinə aiddir, ya yox? Aiddir, lakin əhəmiyyətli bir düzəlişlə. Xatırlatdığımız kimi, hər eydosun öz funksiyası, mənası var. Son, bütöv sistemin mahiyyətində nüvə aparıcı mövqedə dursa da, köməkçi eydosların mahiyyətinin də öz yeri var və onlar yerinə, şəraitinə görə özünü göstərir. Köməkçi eydoslar üzdə olduğuna görə, ətraf mühitin təsirinə birinci onlar reaksiya verir. Başqa sözlə desək, instinktlər köməkçi eydosların üzə çıxan mənalarıdır. Burada insan və digər canlılar arasında oxşarlığın olması anlaşılandır. Heyvan da insan kimi bir dəfə zərbə aldığı yerdən qorxur və reflektiv olaraq qorunur, heyvan da insan kimi ağzına aldığı yeməyi çeynəyir, halbuki bunu kimsə ona öyrətmir, hətta heyvan da insan kimi ağrı hiss edəndə ağlaya bilir və s. Bunlar şüurlu yox, məhz instinktiv hərəkətlərdir. Onlardan bəziləri sonradan biliyə çevrilə də bilər, elə həmin səviyyədə qala da. Bilik kimi formalaşması və şüura yerləşməsi insana xas xüsusiyyətdir. Digər canlılarda o hissi təcrübə, instinkt səviyyəsində qalır. Məsələn, uşağın çiçəkdən xoş ətir alması bilikdir, ancaq instinktiv olaraq yemək çeynəməsi deyil, yaxud yerimək öyrənməsi bilik deyil, ancaq yıxılanda ağrı hiss etməsi bilikdir.

İnsan doğulandan, yəni müstəqil bir orqanizm kimi mövcud olma-

ğa başlayandan öyrənməyə başlayır. Maraqlıdır ki, hələ qədimdən, onun əslində hələ ana bətnində ikən hansısa bilikləri mənimsədiyi təsdiq olunub. Məsələn, gələcək ananın hansı musiqi dinləməyinin, hansı kitablar oxumağının, söhbətlərdə iştirak etməsinin, hansı mühitdə yaşamasının onun uşağının şəxsiyyətində əks olunacağı fikri hələ Platon dövründən məlumdur və həqiqət payı çoxdur. Burada isə biz onun bilavasitə özünün qazandığı biliklərdən danışırıq. Əvvəlcə bu, instinktiv səviyyədə olur, daha sonra məqsədyönlü şəkildə valideynlər, müəllimlər öyrədir. Bu müddət ərzində o, həm də şüuraltı olaraq nələrsə qazanır, öyrəndiklərini müqayisə edir. Ağıl formalaşandan sonra proseslərdə bir ikiləşmə halı mümkündür. Qeyd etdiyimiz kimi, idrak prosesi yalnız ilk mərhələdə şüurdan təkan alır və düşüncə prosesi başlayandan, ağıl formalaşandan sonra təkan artıq bütün hamısını özündə ehtiva edən ağıldan gəlir. Lakin nəzərə almaq lazımdır ki, biliklər fərqli olur və əgər hiss səviyyəsində qazanılan, ümumi biliklər sistemə çox tez yerləşirsə, mürəkkəb, tanış olmayan biliklər daha ciddi təhlil tələb edir. Bu zaman ağıl "çeviklik" göstərib dövrün tələblərinə uyğun addım ata bilər, əksinə, bütün biliklərin təhlil olunmasını da gözləyər. Birinci halda şüur passiv qalır və ağıl az qala mexanikləşmiş şəkildə fəaliyyət göstərir. Belə halda, ağlı orqanizmdəki qana bənzətmək olar: müəyyən orqanlar – mədə-bağırsaq, tənəffüs sistemləri onu ayrı-ayrılıqda qidalandırır, o da öz növbəsində aldıqlarını bütün orqanlara paylayır. Bu proses orqanizmdə doğuluşdan tənzimlənib və beyin, məsələn, həll etmir ki, əvvəl ayaqlara qida getsin, sonra qulaqlara. Bunu orqanizm özü müəyyənləşdirir. Məlum məsələdir ki, beyin çalışmadan belə, müvafiq aparatlar vasitəsilə qan dövranı öz işini davam etdirə bilir və orqanizm ya özünü bərpa edir, ya da ölür. Eyni şəkildə, ağıl da şüur olmadan bilikləri, informasiyaları alır və lazımi yerlərə ötürür. Yəni, şüur olmadan da "ağıllı insan" olmaq mümkündür. Buna nümunə çoxdur və belə şəxsləri "ağıllı icraçı" adlandırsaq daha dəqiq olar. Belə məqamlarda şüurun qoşulması prosesə əks təsir də göstərə bilər, onu dayandırıb, yaxud fərqli yerə istiqamətləndirə bilər.

Dediklərimizdən nəticə çıxararaq ağlın mahiyyəti ilə bağlı bir ne-

çə konkret fikir bildirək. Ağıl yalnız təhlil olunmuş biliklər əsasında fəaliyyət göstərir. Yəni burada şüuraltına çökmüş, unudulmuş, şüurun intensiyasından kənarda – qaranlıqda qalanlar elə cəlb olunmur. Bu təhlil özünüreduksiyanın yalnız birinci mərhələsi ilə kifayətlənə bilər, hər ikisini ehtiva edə də. Yəni ağıl şeylərin noematik qatına enmədən də fəaliyyət göstərə bilir, noematik nüvə səviyyəsində də. Xüsusilə təkrar edək ki, özünüreduksiya ağıl deyil, onun təməlidir. Burada maraqlı bir məqam ortaya çıxır: ağıl həcminə və imkanlarına görə şüurun daxilində gedən özünüreduksiyadan daha böyükdür, çünki şüur iştirak etmədən də, yəni daxili təkan almadan da böyümək imkanına malikdir. Ağıl şüurun bilavasitə maddi dünya ilə təmas nöqtəsidir. Şüurun potensialı böyük ola da bilər, olmaya da, vacib olan onun məhz ağıl qatında üzə çıxanlarıdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, rasionallaşmayan və ümumi sistemə yerləşməyən biliklər əhəmiyyətindən asılı olmadan ağlın "alətinə" çevrilə bilmir. Başqa sözlə desək, ağıl ilk növbədə məhz rasional şüura istinad edir və şüurun digər iki qatı ömrü boyu passiv qalsalar belə, ağıl onunla kifayətlənə bilir. Onu da əlavə edək ki, ağıl kifayət qədər inkişaf edəndə şüurun özünə də təsir göstərir. Bu zaman şüurun intensiyasını idarə edən ağıl olur.

Beləliklə, ağıl biliklərin sistemləşməsi və gerçəkləşdirilməsi prosesidir. Bəli, ağıl biliyi məhz maddiləşdirir, aktivləşdirir, maddi dünyada "yerləşdirir". İdrak subyektiv qərarın obyektiv həqiqətlə uyğunlaşdırılmasıdır. Ağıl hər ikisinin arasındakı inci xətdir. Daxili təkan – şüurun özünüreduksiyası güclü olanda ağıl ona tabe olaraq hərəkət edir və bu zaman idrakın nəticəsində subyektiv çevrə həlledici rol oynayır. Ağıl məhz şüurun qazandıqlarını reallaşdırmaqla məşğul olur. Yeri gəlmişkən qeyd edək ki, böyük kəşflər, möhtəşəm əsərlər belə ağılların məhsuludur. Xarici təkan – obyektiv gerçəkliyin təsiri güclü olanda ağıl daha çox ümumi biliklərdən, şüurun rasional qatının təhlillərindən çıxış edir. Bu zaman idrakın nəticəsində obyektiv gerçəkliyin, cəmiyyətin mövcud çərçivəsi həmin ağlın hərəkət trayektoriyasının maksimum həddidir. Şüur deyil, ətraf mühit diktə edir.

### *§ 135. Ağlın noematik strukturu*

Ağıl noemadır, lakin eydoslar deyil, kiçik noemalardan ibarətdir. İstər onun nüvəsi – şüur, istərsə də, sonradan əlavə edilə biliklər eydedik səviyyədə deyil, məhz noemadır. Bundan əlavə, nəzərə alsaq ki, ağıl özünüreduksiyaya, yəni müəyyən bir prosesə əsaslanır, o zaman belə demək olar ki, ağıl şüura nisbətdə daha çevik, daha hərəkətlidir. Bu, həm də onun özünütəhlil səviyyəsində də fəaliyyət göstərməsi, bilavasitə maddi dünya ilə təmasda olub, reaksiya verməsi ilə şərtlənir. Bununla belə, ağıl da müəyyən bir nur ahənginə malikdir və onun fəaliyyəti məhz həmin nur axınından bilavasitə asılıdır.

Əvvəlki təhlillərimizdə də qeyd etdiyimiz kimi, idrak prosesi bir ideyanın aktivləşməsi və sakit halda olan nur axınını həyəcanlandırması ilə başlayır. Həyəcanlanan məhz ağlın nur dalğası olur. Bunu təqribən dənizdə girdaba, suda burulğana bənzətmək olar (*sxem 33*). Suda yaranan tərs hərəkət və axınların qarşılaşması nəticəsində yaranan çuxurun radiusu açıq okeanda bir neçə kilometrə qədər böyüyə bilir. Yəni mərkəz nə qədər güclü olursa, mərkəzəqaçma təcil də bir o qədər sürətli olur və daha uzaq ətrafını da cəlb edə bilir. İdeya nə dərəcədə dəqiq və intensiya nə qədər güclü olarsa, bir o qədər ətrafda bütün başqa ideyaları, bilikləri özünə cəlb edər. Sxemdə mərkəzdə şüur yerləşir. Onun qəbul etdiyi hər ideya ilə həm öz gücü artır, həm də ümumi prosesin gücü. Burada iki proses gedir – bir tərəfdən xarici radius genişlənir, digər tərəfdən, özünüreduksiya – daxili radius. Burada əhəmiyyətli məqamlardan biri də budur ki, ağlın çərçivəsi nə qədər böyük olarsa, bir o qədər prosesin miqyasının böyüməsi imkanı var. Yəni bu, kiçik bir hadisə zamanı ağlın yalnız müəyyən hissəsi prosesə qoşular, daha böyük ideya isə ağlın bütün həcmini ehtiva edə bilər. Burada hər şey qarşılıqlı əlaqəli və zəncirvari şəkildə bir-birini şərtləndirən məqamlardır.



*Sxem 33. Ağlın hərəkət forması.*

Deyilənlərdə əhəmiyyətli və prinsipial bir məqama təkrar diqqət

çəkək. Ağıl bilavasitə şüurun öz yaratdığı noemadır, lakin o, sabit bir struktura malik deyil, daim dəyişir. Onu dəyişən isə qavranılan biliklərdir. Bununla belə, ağlın sabit həcmi də var və onu müəyyən edən özünüreduksiyanın radiusudur. Düzdür, qeyd etdiyimiz kimi, bəzən daxil olan biliklərdən asılı olaraq, ağlın həcmi arta da bilər, azala da. Lakin xüsusilə vurğulayaq ki, özünüreduksiya ağlın məhz sabit həcmidir. Bu, həm də ağlın dəyişməz hissəsidir. Biz burada məqsədli şəkildə özünütəhlil deyil, özünüreduksiya yazırıq və bununla həm də onu bildirmək istəyirik ki, yalnız özünüreduksiyaya malik şüurların ətrafında sabit ağıl formalaşa bilər. Bu isə öz növbəsində, sabit mərkəz – şüur deməkdir. Məsələ burasındadır ki, daim yenilənən biliklər əhəmiyyətinə görə fərqli olur və istənilən vaxt ağlın nur axınını dəyişdirə bildiyi kimi, mərkəzi də dəyişər. Əvvəlcə biliklər haqqında bir neçə söz.

Təhlillərimizdən də məlum olduğu kimi, ağıl yalnız rasionallaşmış biliklərə əsaslanır. Belə bilikləri üç növə ayırmaq olar: 1) fitrən malik olduğu və yalnız zaman və şəraitlə xatırladığı apriori biliklər. Əlavə edək ki, onlar özünüreduksiya zamanı da işıqlana bilirlər; 2) həyat təcrübəsi zamanı hiss orqanlarının vasitəsilə və tədris-təlim nəticəsində öyrəndiyi aposterori biliklər. Bunlar həm də rasional şüurun və yaddaşın əksər həcmini təşkil etdiklərinə görə, ağıl da ilk növbədə onların əsasında formalaşır; 3) ruhani təcrübə zamanı qazanılmış və artıq rasionallaşmış biliklər. Rasionallaşmamış bilikləri ağıl qəbul etmir, hətta onun zonasına daxil olsa belə, həmin biliklər istifadəsiz qalır. Bunlarla yanaşı, ağla daxil ola biləcək daha iki növ biliyi də əlavə etmək istərdik: 1) rasionallaşmayan və buna baxmayaraq rasional həqiqət kimi qəbul edilən biliklər. Bunlar əsasən ruhani təcrübə sahibləri tərəfindən edilən cəhdlərdir; 2) kənar təsirlə ağla yeridilən biliklər. Ağıl bilavasitə ətraf aləmlə təmasda olduğuna görə, mühitin təsirinə tez düşə, hansı isə biliyi qəbul edə bilər. Biliklərin birinci bölgüsünə bilavasitə şüurun təhlilindən, hətta reduksiyasından keçmiş biliklər aiddir. İkinci bölgüdəki biliklər isə fərqli səbəblərdən şüurdan yayınanlardır. Dediklərimizə bir faktı vurğulamağa çalışırıq – ağlın mərkəzi heç də həmişə insanın öz şü-

uru olmur.

Birinci növ biliklərin bilavasitə şüurdan və özünüreduksiyadan sonra daxil olması ağlın sabit çevrəsinin böyüməsinə dəlalət edir. Burada əhəmiyyətli bir məqama diqqət çəkək. Bir var insanın məqsədi şeylərin mahiyyətinə nüfuz etmək, noema qatına enmək olur. Bu zaman xarici radiusla yanaşı, daxili radiusun da genişlənməsi və ağlın mərkəzinin şüur olması əhəmiyyətli şərtdir. Çünki şüurun üst qatına və daha sonra universal həqiqətə yol da şüurun özündən başlamalıdır. Bu, ağlın nüvəsindən başlanan bir inkişafdır. Bir də var insanın idrak yolu yalnız maddi dünyada irəliləyir, o, cəmiyyətdə özünü təsdiq etməyə çalışır və bu zaman kənardan qəbul etdiyi biliklərlə ayaqlaşmağa çalışır. Bu, ağlın sanki üst qatında, ətraf mühitlə təmas məqamlarında gedən proseslərdir. Burada hər hansı fenomenoloji reduksiya söhbətin mövzusu ola bilməz və ağıl başqa bir şüurun (buna cəmiyyətin tələbləri də demək olar) qoyduğu çərçivədən kənara çıxa bilmir. Yəni onun inkişaf həddini şüuru deyil, kənar qüvvə təyin edir. Bu zaman şüurun daxili potensialı hətta həmin çərçivədən böyük olsa da, onu keçə bilmir.

Ağıl noemadır, öz işıq axını var və şüurun iştirakı olmadan da ora daxil olan biliklər noemanın hissəsinə çevrilə bilir. Hətta bu, nüvədən tam uzaqda qalan xüsusiyyət olsa belə. Şüurun iştirakı olmadan ağla daxil olan biliklər yarımçıq, qaranlıq, hətta əsas hissə ilə müəyyən təmas məqamları olsa da, əksər yerlərdə qeyri-müəyyən qalan informasiyalar, işarələrdir. Əlbəttə, onlarda əhəmiyyətli həqiqətlər var, sadəcə hələ açılmayıb. Bu, həm də o deməkdir ki, onların daxili nuru noemanın işıq axınına, xüsusilə şüura qatılmayıb. Bunu təqribən dəniz dibindən çıxarılmış mirvari incisi olan balıqqulağına bənzətmək olar: inci ilə yanaşı qəvvas balıqqulağının qabıqlarını, yosunlar da götürməli olur. Biliyin yarımçıq, yaxud tamamlanmamış şəkildə ağla daxil olması, onun formalaşmasına əhəmiyyətli təsir göstərir. Əvvəla, natamam biliklər sistemləşdirilə bilmir və nəticədə xaosa səbəb olur. Ağıldakı xaos həm bütün potensialdan tam istifadə etməməsi, həm diqqətin bir neçə istiqamətə parçalanması və qaranlıq məqamlara səbəb tez-tez qırılması, həm də özünüreduksiyanın

gücündən faydalana bilməməsi, o gücün davamı olaraq irəliləməyin mümkün olmaması deməkdir. İkincisi, gücü parçalanan ağıl zəifləmiş olur. Ona görə də, deyə bilərik ki, qaranlıq məqamı nə qədər çox olarsa, ağıl da bir o qədər gücünü itirər. Üçüncüsü, özünüreduksiya ilə ağıl arasında əlaqənin itməyi idrak prosesinin növbəti çevrəsinə təsir göstərir. Qeyd etdiyimiz kimi, nə daxili, nə də xarici radius genişlənir. Nəhayət, nəzərə alma lazımdır ki, yeni biliyin qaranlıq, qeyri-müəyyən qalması ağlın daxili harmoniyasının sakitləşməməsi deməkdir.

Hər nə qədər biz rasionallaşmamış və ya şüurdan kənar biliklərin ağla daxil olmasından danışsaq da, bir həqiqəti də danmaq olmaz ki, onlar həmin sistemə yaddır. Daha əvvəl də qeyd etdiyimiz kimi, belə biliklərin mənbəyi fərqli olur. O, şüuraltından, yaddaşdan, ilahi mənbədən (ilham, vəcd vasitəsilə) olduğu kimi, başqa bir ağıl/insan tərəfindən də verilə bilər. Ağla bilik haradan daxil olursa, işıq dalğası haradan həyəcanlanırsa, mərkəzi də ora olur və digər biliklər də ora cəmlənir. Barmağa tikan batanda bütün bədən hiss edib, diqqət ora yönəldiyi kimi, yeni bilik də ağılda eyni effekti yaradır. Burada iki proses izləmək mümkündür. Özünüreduksiya güclü olanda, heç bir maneəyə baxmadan, həmin biliyi təhlil etmək üçün ümumi prosesə qoşacaq, onun mənəviyyatda, bütöv düşüncə sistemində yerini müəyyənləşdirməyə çalışacaq. Girdab kimi "udacaq" onu. Həmin bilik işıqlanmayana qədər də, təbii ki, digər proseslər ləngiyəcək. Əksinə, yeni qəbul edilən bilik özünüreduksiyadan güclü olanda, bir növ yeni bir "girdab" – psevdomərkəz yaranır (*sxem 34*). Onu da mütləq əlavə etmək lazımdır ki, bəzən yeni biliyin daha güclü olması şərt deyil, çünki onun qaranlıq, bəzən anidən daxil olması da mərkəzin yerdəyişməsinə səbəb ola bilir. Burada az əvvəl qeyd etdiyimiz məqam özünü göstərir: bir var, yeni bilik şüurun özündən gələ, fərqi yoxdur, altşüur və üstşüurdan, bir də var, kənardan. Birinci hal, əslində, şüurun inkişafına xidmət edən və onu daha üst qata yüksəldən biliklərdir. Sanki ağılda "inqilab" baş verir, normal axarından çıxır, şüur



*Sxem 34. Psevdomərkəz.*

üçün yeni bir üfüq açılır. Yaradıcı şəxslərdə belə hallara çox rast gəlmək mümkündür. Yəni insan sakit və sabit inkişaf yolundan bir anlıq çıxır və növbəti üst qata meyllənir. Bu zaman ikinci kiçik girdab tədricən əvvəlkinin axarına qarışır, sadəcə bu dəfə daha böyük radiusda davam edir. Onları birləşdirən eyni mərkəz – şüur olur. İkinci halda, yeni mərkəzə çevrilən bilik adətən məqsədyönlü şəkildə, qarşıdakının ağlını "işğal etmək" üçün başqa bir ağıl tərəfindən ötürülür və onun tərəfindən gücləndirilir. Həmin informasiyanın mənbəyi başqa olduğuna görə, əvvəlki ilə birləşmək imkanı yoxdur, əksinə, gücləndikcə, radiusu tədricən genişləndikcə digər informasiyalar artıq onun ətrafında hərlənib, ondan təkan almağa başlayır və ilk mərkəz zəifləməyə başlayır. Ağlı yeni yaranmış belə girdablardan xilas etmək çox mürəkkəb məsələdir. Buna nümunə kimi dərin depressiyalı, terrorist, yaxud sektant qruplaşmaların təsirində qalan şəxsləri göstərmək olar. Onlarda kənardan "müncər" edilmiş ideyanın girdabı istənilən biliyi, arqumenti, hətta açıq faktları da "udub" öz hərəkətinə uyğunlaşdırır. Burada əhəmiyyətli bir məqamı da vurğulayaq ki, ağlın noematik nüvəsi şüurdur, sadəcə, indi şüur və ağıl arasında bir növ "əyri" güzgü yerləşir və qarşılıqlı anlaşma təhrif olunur, aradakı vasitənin filtrindən keçir.

Deyilənlərdən belə məlum olur ki, ağlın noematik strukturu digər şeylərdən, hətta şüurdan da fərqlidir. Ümumiyyətlə, burada hər hansı sabit bir strukturdan danışmaq mümkün deyil. Düzdür, özünüreduksiya sabit bir özək, çərçivə yaradır, lakin, göründüyü kimi, o, zəif olanda, hər hansı bir güclü təsir onu dəyişdirə, mərkəzini sürüşdürə bilir. Digər bir tərəfdən, bu noemada nüvə və onun xüsusiyyətləri arasında əlaqənin pozulması halları baş verir. Ağıl həmin nüvə ətrafında var olsa da, kənar bir təsirlə də hərəkət edə bilir. Nəticədə daxili vəhdət pozulur, daxili anlaşmazlıq, hətta ziddiyyət yaranır.

Ağlın noema kimi daha bir spesifikliyi isə onun insan tərəfindən yaradılmasından irəli gəlir. Əvvəlki paraqraflarımızdan birində qeyd etmişdik ki, insan yaratdığı şeyin ideyası tam maddiləşəndən sonra o, müstəqil, öz zamanı olan bir varlığa çevrilir, insandan asılılığı bitir. Ağıl

elə deyil. O, hər hansı ideya əsasında yaranmadığına görə, onun tam bitməsi də mümkün deyil. Yəni onun formalaşması davamlı bir prosesdir. Üstəlik, o, insanın noematik nüvəsinin bir hissəsinin – rasional şüurun əsasında yaranan noema olduğuna görə, noematik nüvəyə daxil deyil. Bu, həm də onun ilahi aləmlə əlaqəsinin vasitəli, yəni rasional şüurla olmasını izah edir. Buna görə də, şüurun qəbul etdiyi həqiqətlər ağıl üçün qəbul edilməz ola bilir. Hətta insanın noematik nüvəsinə daxil olan ruh, yaxud üstşüurun qavradığı irrasional biliklər də ağıl üçün "yad bilik" hesab edilir və yalnız rasional şüurun "filtrindən" sonra onu anlayır. Nəhayət, ağlın spesifikliyi həm də onun şüurla – öz nüvəsi ilə ziddiyyətdə ola bilməsidir. Belə bir müqayisə ilə mənzərəni tam canlandırmaq olar: necə ki, insan onu Yaradanla ziddiyyətdə olur, Onun varlığını sual altında qoyub, Onun verdiklərinə şübhə ilə yanaşır, təhrif edir, eləcə də, ağıl şüura bənzər münasibət bəsləyə bilir.

### *§ 136. Ağıl – noema, yoxsa noes? Dəyişməyən mahiyyətin dəyişən xüsusiyyətləri.*

Ağlın dəyişkən struktura malik olması zidd nəticələrin və bir sıra sualların çıxmasına səbəb oldu. Əgər o, tez-tez dəyişir və daxili vəhdəti pozulursa, o zaman onu noema adlandırmaq nə dərəcədə düzdür? Belə halda onun noes olmasını iddia etməyimiz daha məntiqli olmazmı? Digər tərəfdən, ağıl noemadırsa, onun özünü öyrənmək mümkündürmü? Bu, özünüdərkdirsə, onun özünüreduksiyadan fərqi varmı? Və bütün bu iddialar idrak prosesini süni şəkildə mürəkkəbləşdirmək cəhdi deyilmi?

Əvvəla, qeyd etdiyimiz kimi, ağıl müəyyən bir nüvənin – şüurun ətrafında qazanılan biliklərin sistemləşməsidir. Onun öz nur sistemi, hüdudları mövcuddur. Biliklər davamlı şəkildə, şüurun iştirakı ilə yaxud onsuz, daxil olur. Bu o deməkdir ki, ağlın nur sistemi həmişə həyəcanlı şəkildədir. Məhz onun bu halı dəyişkənliyə səbəb olur. Dəyişkənlik nüvədən uzaq xüsusiyyətlərdə baş verdiyi kimi, daha dərində də ola bilər. Lakin burada nüvə, onun mahiyyəti deyil, noemanın digər tərəflərində daha bir mərkəzləşləşmə halı baş verir. Belə dəyişkənliyin səbəbi həm

şüur özü olur, həm də kənar qüvvə. İstənilən halda, o, ağılda izsiz ötüşmür. Birinci halda şüur inkişaf edir, öz daxili radiusunu genişləndirir, ikincidə isə yalnız başqa bir ağla xidmət edir və hər hansı inkişafdan söz gedə bilməz, çünki bəlli çərçivədən çıxmaq imkanı olmur. Yaranmış psevdomərkəzləri noes adlandırmaq da düz deyil, çünki noes müvəqqətidir, keçid mərhələsidir, noemanın öz daxili potensialı əsasında yaranır, psevdomərkəzlər isə yad bir bilik, ideya nəticəsində yaranır və daha uzunömürlü olur. Dediklərimizdən belə məlum olur ki, ağlın tək nüvəsi olsa da, strukturunda bir növ "törəmə" baş verə bilir və ikinci, hətta üçüncü mərkəz də formalaşa bilir. Bu, nüvəni görünməz etsə də, onu ləğv etmir, sadəcə onun intensiyalarını sanki təhrif edir. Onu da əlavə edək ki, necə ki, gözəl bir imarət də, yarıuçuq köhnə bir daxma da tikili hesab edilir, eləcə də tək mərkəzli, yaxud çoxmərkəzli olmasından asılı olmadan ağıl noemadır.

Ağıl insan sistemində ən hərəkətli, ən çevik noemadır. Bu səbəbdən onu suda girdaba bənzədirik. Məsələ burasındadır ki, onun hərəkətinin yavaş olması, mərkəzin zəif olmasının göstəricisidir və bu, psevdomərkəzlərin yaranması üçün əlverişli şəraitdir. Yalnız güclü mərkəzdə xaos ehtimalı azalır, hər hansı kənar ideyanın da tezliklə nüvəyə tabe olacağı gözlənilir. Tək mərkəzli ağıl məqsədyönlü, sağlam düşüncə qabiliyyəti olan, hadisələri və aldığı bilikləri müəyyən məntiq və ardıcıllıqla təhlil etməyi bacaran şəxsə mənsubdur. Xatırladaq ki, ağlın nüvəsində (*sxem 32*) şüurdan başqa həm də Mən var. Buna görə də, deyirik ki, belə ağıl həm də güclü şəxsiyyətin göstəricisidir. Ağlın funksiyasını təqribən belə bir sxemlə izah etmək mümkündür: şüur – obyekt – şüur – özünü təhlil/özünüreduksiya – ağıl – özünü təhlil/özünüreduksiya – şüur – obyekt – və s. Bu sxemdə vacib olan məqam şüur və ağlın arasında özünüreduksiya yaxud özünü təhlil mərhələsinin olmasıdır. Özünü təhlil daha zəif, şüurun tam mahiyyətinə nüfuz etməyən bir proses olduğuna görə, ağıl da nisbətən zəif, psevdomərkəzlərin yaranma imkanları daha çoxdur. Özünüreduksiya isə şüurun fəaliyyətinin, aktivliyinin, bu isə öz növbəsində ağıllı və mənəviyyatlı insanın varlığını şərtləndirir. Biz

mənəviyyatı bura təsadüfən əlavə etmirik. Təbii ki, ağıllı olmaq hələ mənəviyyatlı olmaq demək deyil. Qeyd etdiyimiz kimi, ağıl rasional şüur ətrafında formalaşır, bununla belə, sxemdən də göründüyü kimi, fəaliyyətində özünüreduksiyanın nəticəsini əks etdirir, yəni burada artıq söhbət insanın noematik nüvəsinin inikasından gedir.

Ağıl noemalardan ibarətdir. Özünütəhlil və özünüreduksiya nə qədər zəif olarsa, bir o qədər ağlın səviyyəsi tərkibindəki noemalardan asılı olar. Necə ki, insan, məsələn, masa hazırlayanda onun hissələrinə diqqətlə yanaşmayanda – taxtasını yaxşı rəndələməyib, boyasını gözəl çəkməməklə keyfiyyətsiz bir məhsul düzəldir, eləcə də, formalaşmasında qaranlıq, tam anlamadığı biliklərdən istifadə etməklə nəticədə zəif ağla sahib olur. Bu asılılığa görə, insanın ağlı onun bilik qavramasına nisbətdə dəyişir. Məsələn, hər nə qədər insanı uşaqlığında yaxşı tanısan da, böyüyəndə eyni münasibətlə onu tanımaq cəhdi boş olacaq. Hətta qısa müddət ərzində də insanın ağlında kardinal dəyişiklik baş verə bilər. Burada xüsusilə əlavə edək ki, ondan fərqli olaraq şüur dəyişmir. Bəli, illər ərzində onun da fərqli səviyyələri işıqlanır, özünüreduksiya sayəsində radiusu genişlənir. Lakin bu, olanın işıqlanmasıdır, yeni qazanılan deyil, çünki şüurun mahiyyəti yaradılışdan müəyyən edilir. O, Allahın yaratdığı nüvədir. Ağıl isə insanın yaratdığıdır. Onun da nüvəsi dəyişmir, ancaq köməkçi noemalar o dərəcədə dəyişir ki, şüurun ilk mahiyyəti fərqli işıqda görünə bilir. Bununla belə onu da vurğulamalıyıq ki, nə qədər qəribə də olsa, ağıl insan adlı sabit sistemin ən qeyri-sabit noemasıdır. Bütöv sistemin inkişaf istiqamətini dəyişdirə biləcək qədər vacib, bu sistemi insani səviyyədən heyvani səviyyəyə endirəcək qədər qeyri-sabit. Bu səbəbdən, ağlı həm də insan adlı noemalar zəncirinin ən zəif bəndi hesab etmək olar, çünki onun zəifləməsi, yaxud möhkəmlənməsi bütün sistemdə özünü göstərir.

Ağıl və şüurun özünüdərki fərqli proseslərdir. Şüurun özünüdərki özünüreduksiyanın tərkib hissəsidir və bu zaman insanın əsas mahiyyəti, ilahi aləmlə əlaqəsi qavranılır, şüurun üst səviyyəsi açılır. Şüur ilahi aləmlə əlaqəli olduğuna görə, onun öyrənilməsi və dərki sonsuz bir pro-

sesdir, Loqosa qədər yüksələ bilir. İnsanın nüvəsi olmaqla, o, həm inşanın bütün fitri istedadını, həm də potensial imkanlarını açır. Ağlın özünüdərkini iki növə ayırmaq olar. Birincisi, bu, şüurun özünüreduksiyasının növbəti çevrəsi ola bilər. Başqa sözlə desək, özünüreduksiya o dərəcədə güclü olur ki, onun radiusu ağlın həcmini tam tutur və istənilən qaranlıq, yaxud yad bilik həmin prosesdən keçir. Ağıl daxildən aydınlanır, bir tərəfdən, sabit çevrəsi müəyyən edilir, digər tərəfdən, ağlın potensialı dəyərləndirilir. Burada ağıl kənar obyekt kimi təftiş edilə bilir, şüurun ətraf aləmlə təmas qatı kimi də, əsas odur ki, baxış batindən zahirədir. Bir növ sabit təməlin radiusunun genişlənməsi perspektivləri öyrənilir.

İkincisi, ağıl cəmiyyətin nisbətində özü tərəfindən dəyərləndirilir və təftiş edilir. Burada baxış bucağı zahirdən daxilədir. Bu zaman ağıl yalnız obyekt və cəmiyyətin tərkib hissəsi olaraq öyrənilir. Belə olan halda, təbii ki, şüurun mahiyyəti deyil, ağlın nə dərəcədə reallığı əks etdirməsi əhəmiyyət kəsb edir. Xüsusilə qeyd edək ki, belə təftişlər psevdomərkəzlərin yaranmasına imkan verdiyi kimi, onları ləğv edə də bilər.

Ağlın noema olması onun həm də noezislərinin olması deməkdir. Belə nəticə çıxartmaq olar ki, nüvəsinə – şüura səbəb ağıl özü də müəyyən bilikləri qavraya bilir. Lakin nəzərə almaq lazımdır ki, o bunu yalnız a) noema qatında enmiş şüura səbəb edə bilər, b) özünüreduksiya kifayət qədər güclü olur və ağıl hər hansı psevdomərkəzlə zəifləmir, intensiyanı təhrif etmir.

Ağlın noezisləri onun özünü də başqa bir şüur, yaxud ağıl üçün obyekt edir. Burada bir neçə əhəmiyyətli məqam var. Əvvəla, noematik qatda qavrama nurun bir obyektdən digərinə axması, mənimsənilməsidir. Hansı tərəfin gücü daha çox olarsa, onun enerjisi də hakim olar. Deməli, bir ağlın qavranılması deyəndə də ilk növbədə onun başqası tərəfindən “işğalı” nəzərdə tutulur. Bunun baş verməməsi üçün ya güclü olmalı, yaxud da təmas qurmamalıdır. İkinci nəzərə alınmalı məsələ özünüreduksiyanın gücü məsələsidir. Məhz “zəif mərkəzli” ağıllarda məqsədyönlü şəkildə yad ideya ilə psevdomərkəz yaratmaq mümkündür. Dərk edən tərəf təftiş apardığı ağılların zəif məqamını anlamaqla ora öz

ideyasını yerləşdirə və qidalandıra bilir. Biz təsadüfən ağlı insanın ən zəif bəndi adlandırmırıq. Ağıl şüur mərkəzli noemadır və onun vasitəsilə insanın mahiyyətinə, mənəviyyatına nüfuz etmək mümkündür. Onu da əlavə edək ki, güclü və ya zəif şüur yoxdur, özünüreduksiyası güclü və zəif olan şüur, müvafiq olaraq onun üzərində formalaşmış ağıl var. Başqa sözlə desək, ağıl biliklərin artması ilə, fərqli sahələrdə informasiyalı olmaqla deyil, şüurla arasındakı əlaqənin vasitəsiz, təhrifsiz olması, tək mərkəzli olmağı ilə ölçülür.

Sxem 32-dən də xatırladığımız kimi, noezis, düşüncə ağıl şüurun arasındakı mərhələ, daha dəqiq desək, iki çarxın dişləridir. Onların arasında əlaqə nə qədər sıx olarsa, çarxların dişləri də bir o qədər sıx olar. Ağıl daim hərəkətdə, həm öz nüvəsi, həm də gerçəkliklə kəsilməz əlaqədə olan bir sistemdir.

### *§ 137. Ağlın mahiyyəti və təzahürü*

Ağıl haqqında təhlillərimizdə ön planda daha çox onun dəyişkənliyi çıxdığına görə, mahiyyəti sanki qaranlıq qaldı. Əslində, onun haqqında deyilənləri cəmləsək, ziddiyyətli nəticələr almaq olur: vacib və dəyişkən, insanın nüvəsinə ən yaxın və ətraf aləmlə təmasda olan noema, yalnız rasional şüurla əlaqəli olan və bütün korrelyatların qavradıqlarını ehtiva edən və s. Məsələyə aydınlıq gətirmək üçün daha geniş təhlilə ehtiyac var.

Ağıl insanın yaratdığı noema olaraq ona aid kateqoriyaların hamısını ehtiva edir: a) hazır noemalar əsasında formalaşır, b) onun tərkibinə daxil olan noemalar öz əvvəlki keyfiyyətlərini qoruyub saxladığına görə, tam öyrənilməyəndə və uyğunlaşdırılmayanda, dağılmağa məhkumdur, c) noemaları yaradan ilahi iradə ilə onlardan ağlı formalaşdıran bəşəri iradə arasında toqquşma olur, d) tərkibinə daxil olan noemalar başqa şüurların idrak trayektoriyası üzərində ola bilir, e) məhduddur. Hər birinə ayrılıqda şərh verək.

Ağlın formalaşması ayrıca bir şüur aktı deyil, onun özünü təhlili nəticəsində formalaşan üst qatıdır. Söhbət hansısa dərin təhlildən deyil,

sadəcə qavranılan biliyin üzərindəki düşüncədən getdiyinə görə, burada hər hansı noematik qatdan danışmaq yersizdir. Hətta şüurun ən aşağı səviyyəsində və bəsit biliklər əsasında da ağıl formalaşa bilir. Başqa sözlə desək, şüurun daxili radiusunun genişləndiyi ilk məqamda ağlın da konturları cızılmağa başlayır. Şüurun inkişaf trayektoriyasına uyğun olaraq, ağıl da dəyişir. Maraqlıdır ki, bəzən fərqli situasiyalarda eyni bilik fərqli mənalarla görünəndə, ağıl da tərəddüd edir, dəyişir. Məsələn, gözəl bir çəmənliyə baxan şəxs uşaqlığından hansı isə hadisəni xatırlayıb, hadisəyə fərqli bucaq altında baxa, o vaxt yanıldığını anlayıb indi yeni bir nəticəyə gələ bilər. Səbəb illər ərzində toplanmış təcrübə, ağlın yenilənmiş strukturu, şüurun çatdığı yeni səviyyədir. Burada bir neçə korrelyat paralel çalışır: hiss orqanları, yaddaş, təxəyyül, təəssürat, hətta qaranlıq yaddaş.

Ağıl hazır biliklərin istifadəsidir. Düşüncə həmin biliklərin sistemləşməsidir, bir növ şüur və ağıl arasında filtr rolunu oynayır. Özünütəhlil yalnız həmin biliklərin qavranması və hazırkı məqamda əhəmiyyətinin düşünülməsidirsə, özünüdərk həmin bilik vasitəsilə bütövlükdə şüurun özünün öyrənilməsidir. Yəni özünü təhlil zamanı *tode ti* və *indi* daha çox əhəmiyyət kəsb edir və başqa biliklər də bu müstəvidə nəzərdən keçirilir. Buna görə də onun üzərində formalaşan ağıl dəyişkən olur. Düşüncə filtr kimi hər zaman öz işinin öhdəsindən gəlmir və biliklər özünüreduksiyadan keçmədən, "xammal" şəklində ağla düşür. Onu da əlavə etmək lazımdır ki, biliklərin bu şəkildə ağla ötürülməsi, hətta bəzən istifadə edilməsi şüurun inkişafına mane olur. Çünki əvvəla, həmin biliyin mahiyyəti öyrənilmir, deməli, işığı şüura qatılmır. İkincisi, digər tərəfdən ağılda zəif nöqtə yaratmaq, şüurun diqqətini başqa istiqamətə yönəltmiş olur. Üçüncüsü, ağılda xaos yaranır, ağıl və şüur arasında əlaqə pozulur, şüurun potensialının gerçəkləşməsinə mane olur və nəticədə, ağıl elə bu xaosdan çıxış etməyə başlayır. Bir növ ağıl bilikləri deyil, biliklər ağlı və onun vasitəsilə də şüuru idarə edir.

Hər varlıq yaranışdan müəyyən mahiyyətlə yüklənir və bu, dəyişməz olaraq qalır. Xatırladaq ki, insan var olanların strukturunu öz ideyasına uyğun istifadə edərək yeni noema yaradır. Bu, köhnənin məhvi,

yaxud dəyişdirilməsi deyil, onların fərqli tətbiqidir. Əvvəlki mahiyyətlərinin insan yaradıcılığında özünü nə dərəcədə büruzə verməsi həmin noemanın öyrənilməsindən, yeni ideyaya uyğunluğunun təhlil edilməsindən asılıdır. Ağılda da eyni proses gedir: ora daxil olan biliklər nə qədər düşünülmüş, dərindən təhlil edilmiş olarsa, bir o qədər də gələcəkdə az dəyişikliyə uğrayan, xaosun yaranma ehtimalı azalır. Axı, xaos – hər biliyin öz mahiyyəti ilə üzə çıxıb, öz tətbiqini "tələb etməsidir". Bu, ağlın qeyri-sabitliyinin göstəricisidir. Belə dəyişkənlik insanın fəaliyyətində, cəmiyyətdə də özünü göstərəndə, münasibətlər normal axarından çıxır, aşınır, qanunlara riayət olunmur, mənəviyyat tənəzzülə gedir, xaos, anarxiya qanunauyğunluq, hətta azadlıq kimi qələmə verilir.

Ağlın sabit mahiyyəti yalnız tam öyrənilmiş, nuru mənimsənilmiş biliklərin əsasında formalaşır. Hər qaranlıq məqam ağlın zəifliyinin faizini artırır. Bu isə özünüreduksiya zamanı mümkündür. Əgər ağıl şüurun daxili radiusu həcmindədirsə, onun sabit mahiyyəti özünüreduksiyanın radiusu ilə ölçülür. Məhz özünüreduksiyadan keçmiş biliklər tədricən dəyərə çevrilir və ağlın sabit mahiyyətini təşkil edir. Yeri gəlmişkən, maraqlı bir keçid də edək. Cəmiyyət ümumiləşmiş biliklər əsasında mövcuddur. Onlar isə təsdiqlənmiş, təcrübədən keçmiş ideyalardır. Yəni onlar da əvvəlcə müəyyən ağlın məhsulu olmuş, sonra ümumiləşiblər. Cəmiyyətin təməl prinsipləri, dəyərləri sabit mahiyyətdən doğulan ideyalardır. Dövrün tələbləri ilə bərabər dəyişən, hətta bəzən mahiyyətinə də zidd çıxan biliklər isə öyrənilməmiş, qaranlıq məqamları tam işıqlanmamış, təbii ki, ümumiləşməmiş olanlardır. Onları psevdomərkəzlər də adlandırmaq olar. Burada əsas məsuliyyət düşür mahiyyətin üzərinə – nə qədər güclü, stabil olarsa, bir o qədər belə dəyişkən məqamların öhdəsindən gələ bilər. Məsələn, yaponlar öz cavanlarının bəzən Qərb dəyərlərinə meylinə, qərbləşmək həvəslərinə rahat reaksiya verirlər. Çünki haqlı olaraq düşünürlər ki, şintonun prinsipləri o dərəcədə möhkəm və sabitdir və o dərəcədə yaponların qanına hopub ki, onlar gec-tez mütləq öz köklərinə qayıdacaqlar, yəni başlanğıc, təməl düzgün qoyulduğuna görə, nəticədən əmindirlər. Deməli, möhkəm təməl nəinki möhkəm divar deməkdir, həm də yenilikləri, əyrini-düzü obyektiv şəkildə dəyərlən-

dirmək imkanı və bacarığı deməkdir. Bu, milli dəyərlərin formalaşma mexanizmidir: şüurun özünüreduksiyası vasitəsilə bir ağlın sabit mahiyyətindən çıxaraq ümumiləşən, digər şüurların da düzgün istiqamətdə inkişafı üçün bələdçi olan biliklərin bir şəxsin miqyasından çıxaraq bir cəmiyyətin, bir millətin sabit mahiyyətinə, sağlam nüvəsinə, identikliyinin göstəricilərindən birinə çevrilməsi. Onu da əlavə edək ki, ağlın sabit mahiyyəti yeni daxil olan biliklərdən daha aktiv, daha möhkəm olmalıdır ki, psevdomərkəzlərin qarşısını da ala bilsin, mümkün qaranlıq məqamlara işıq da salsın, gerçəkliyə uyğun reaksiya da versin. Nəhayət, onu da xüsusilə vurğulayaq ki, cəmiyyətin illərlə, əsrlərlə formalaşmış nüvəsindən fərqli olaraq, hər insanın ağlının sabit mahiyyəti onun özü tərəfindən formalaşdırılmalıdır.

Şüurun ətraf aləmlə təması ağıl vasitəsilə olur. Belə olan halda, səs, söz və rəqəmi əslində ağlın ifadə formaları adlandırmaq olar. Ağlın nüvəsi nə qədər sabit və böyük olursa, onun ifadə etdiyi də, bir o qədər yüksək, universal miqyaslı olur. Əhəmiyyətli bir fakt kimi vurğulayaq ki, məhz sabit mahiyyəti böyük olan ağıl sahiblərinin ideyaları sonradan ümumiləşib milli-mənəvi dəyərə çevrilir, yaxud universal həqiqət kimi qəbul edilir. Xatırladaq ki, Haydegger düşüncə sahiblərini və şairləri varlığın evinin – dilin qoruyucusu adlandırır.[1] Ərəb dilinin gələcəyindən narahat olan Cübran da belə hesab edir ki, bu dili "diriltməyin yeganə üsulu şairin ürəyində, dilindədir. Şair xalqın yaradıcı gücünün ifadəçisi, ruh aləmində baş verənləri əql dünyasına ötürən, bilik dünyasında baş verənləri bilik xəzinəsinə toplayan bir bələdçidir".[2] Bəli, şairlər dili zənginləşdirən, onun saflığını qoruyanlardır. Eyni sözlər düşüncə sahiblərinə də aiddir. Təsadüfi deyil ki, məhz ayrı-ayrı filosoflara səbəb onun xalqının, millətinin kimliyi formalaşır.

Ağlın dəyişkən qatı fərqli əhəmiyyətə malik biliklərdən ibarət olur: şüurun hər üç qatından da daxil olan, ruhani təcrübədən də və s. Onlardan bəziləri sabit mahiyyətinin potensialı ola bilər, bir başqası isə,

---

[1] Хайдеггер М. Время и бытие, с. 192.

[2] Cübran Xəlil Cübran. "Ərəb dilinin gələcəyi". *Sükutun poeziyası*. Ərəb, ingilis və rus dillərindən seçilmiş tərcümələr. Bakı, "Şərq-Qərb", 2009, s. 194.

əksinə, onun inkişafına mane olar. Yəni məqsəd ağlı daha çox informasiya ilə yükləməkdən daha çox, qazanılanların da tam öyrənilməsi olmalıdır. Belə ki, özünüreduksiya güclü olarsa, o zaman gec-tez həmin biliklər təhlil olunacaq, dəyərləndiriləcək və uyğun gələrsə, mahiyyətə çökəcək, gəlməyəcəksə, kənarlaşdırılacaq. Psevdomərkəzlər güclü olanda isə, həm şüurun ümumi fəaliyyəti zəifləyir, həm də ağılda xaos yaranır və o, başqa şüurların təsiri altına düşür. Burada vacib bir məqam var. Noemanın ilk mahiyyəti ilə yeni tərkibdəki mənasını nəzərə alsaq, onda ağlı, eyni zamanda fərli maraqların, iradələrin qarşılaşdığı məkan adlandırmaq olar. Buraya ayrı-ayrı rəyləri də aid etmək olar, ilahi iradə ilə bəşəri iradəni də.

Müəyyən bilik rakursdan, kontekstdən asılı olaraq fərqli mənada görünə bilir. Buraya ən kiçik mübahisələrdən tutmuş, qlobal suallara qədər aid etmək olar. Təsadüfən demirlər ki, həqiqət mübahisədən doğular. Məsələn, dünyanın heliosentrik, yoxsa geosentrik sistemdə olması haqqında Ptolomeydən başlayan, Nyutona, Leibnizə qədər uzanan müzakirə, yaxud Tesla və Edison arasındakı dəyişən və dəyişməyən cərəyanın faydalılığı haqqında mübahisələr və s. mövcud həqiqətə fərqli baxış bucaqlarıdır. Əslində, burada güclü ağıllar qarşılaşıb və hər biri öz həqiqətini sübut etməyə çalışıb. Diqqəti nisbətən zəif, hələ tam sabitləşməmiş ağıllara – gənc tədqiqatçılara yönəltsək, yalnız təsəvvür edə bilərik ki, belə ideyalar onların ağlında necə "fırtınalar" qoparıb, əvvəl inandıqlarını necə dağıdıb.

Qeyd etdiyimiz kimi, insan iradəsi həm də ilahi iradə ilə qarşılaşa bilir. Xüsusilə vurğulayaq ki, ilahi iradə yalnız insanın öz şüurundan, ruhundan müdaxilə edir. Buna görə də o, irrasional halda olur və ağıl üçün yad bilik hesab edilir. Daha bir vacib məqam isə, həmin şəxsin ağlının artıq müəyyən bir mərkəzə sahib olmasıdır. Xatırladaq ki, biz tez-tez ruhani təcrübə zamanı insanın qazandığı biliklərin rasionallaşmasa, istifadəsiz qaldığını vurğulayırdıq. Həmin biliklərin əhəmiyyətindən asılı olaraq ilahi iradə özünü göstərir. Daha dəqiq desək, həmin ideya ağılda ikinci bir "ocaq" yaradır. Belə biliklər ilk məqamda yanlış, yad

görünür, çünki tədricən onun inkişafı, bütünlüklə ağlı əhatə edib insanın hətta həyat yolunu, düşüncə tərzini dəyişdirir. Belə məlum olur ki, indiyə qədər insan yanlışlıq içindəymiş və bu yeni mərkəz onu düz istiqamətə qaytarır və öz mahiyyətinə yönləndirir. Belə hadisələrə daha çox müdrik şəxslərin həyatında rast gəlmək olur. Məsələn, şahzadəlikdən bir anda imtina edib özünü ruhani təcrübəyə təslim edən Budda, yaxud sufi mütəfəkkir İbrahim b. Ədhəm, məmləkətində hörmətli fəqih kimi tanınmağına baxmayaraq Şəms Təbrizi ilə ilk söhbətin nəticəsində hər şeydən imtina edərək sufi olmağa qərar verər Cəlaləddin Ruminin, yaxud heç vaxt Allahı qəbul etməyən və bunu özünün ən yüksək keyfiyyətlərindən biri hesab edən görkəmli fizik Nikola Teslanın bir anda Allahın varlığını tanıması məhz ağlın psevdomərkəzdən əsl nüvəyə dönməsi adlandırmaq olar.

Ağıl insanın özünü eyni vaxtda həm subyekt, həm də obyekt olaraq dəyərləndirmək və təsdiqləmək bacarığıdır. Belə ki, burada bir tərəfdən, şüurun özünüreduksiyası, daxili potensialı əks olunur, digər tərəfdən, ətraf mühit, cəmiyyət arasında yeri, rolu, malik olduğu imkanları, bacarıqları, nailiyyətləri. Əslində, ağılda yaranan xaos, psevdomərkəzlər də məhz bunların qarşılaşmasının, müqayisəsinin nəticəsidir. Bu səbəbdən biz ağlı bacarıq adlandırdıq. Bəli, birmənalı şəkildə ağıl ilk təhlillə yaranır. Tədricən insan öz mahiyyətini anlamağa cəhd göstərir, eyni zamanda, bir şəxsiyyət kimi formalaşmağa, cəmiyyətdə öz yolunu axtarır. Nəticədə ağıl bir sistem kimi formalaşmağa başlayır. Metaforik dillə təsvir etsək, bilikləri daşlara, şüuru bənnaya, ağlı isə onlardan hazırlanan tikiliyə bənzətmək olar. Kimsə o daşları üst-üstə qoyub oturur, kimsə ondan balaca, ancaq özü yerləşə biləcək bir daxma, bir başqası isə əlavə tikinti materialları da tapıb o daşlardan bir imarət tikir. Hazır bina ustanın bacarığının inikasıdır. İnsanı başqalarından fərqləndirən də, onu ayrıca bir fərd kimi tanıdan da məhz həmin sonda yaranan struktur – binadır. Nüvə zatən hər kəsdə doğuluşundan var və təkan nöqtəsidir. O, hələ ağıl hesab edilmir. Ağıl onun açılışı, irəliləməsi, gerçəkliklə uzlaşmasıdır. Eyni zamanda, ağıl şüurlar arasında ilk fərqin, sərhədin

yaranmasıdır. Məsələn, körpələr cinsindən, irqindən asılı olmadan nəinki bir-birindən fərqlənmir, hətta bir-birini gözəl "anlayır", oyuncaqlara eyni maraq göstərirlər, eyni şeyə sevinir. Burada xırda, ancaq vacib bir əlavə də edək. Böyüklər, valideynlər bəzən körpələrinə bilik verməklə, onun dünyagörüşünü genişləndirməklə kifayətlənməyib, həm də öz ağılları ilə onları idarə edir, müəyyən hərəkətlər etməyə, söz deməyə məcbur edir və bunu onun öz ağlının məhsulu olduğuna inandırılar. Ancaq nəzərə almırlar ki, bu, hələ formalaşmaqda olan, hələ bərkiməmiş ağılda böyük bir psevdomərkəzin yaradılmasıdır və o, indidən təbii strukturun yaranmasını təhrif edəcək, deməli, uşağın şəxsiyyət kimi yetişməsini əngəlləyib, hətta kökündən məhv edəcək. Bunu süni şəkildə böyüdülən broyler toyuğuna da bənzətmək olar: tez böyüyəcək, daha çox bəslənmiş olacaq, hətta alıcısı da çox olacaq.

### *§ 138. Şüur səviyyələri və ağıl. Daxili səs və ya vicdan.*

Şüur ağlın nüvəsi olduğuna görə, onun səviyyələri də bilavasitə orada əks olunur. Əslində, məhz şüurun inkişafına müvafiq olaraq ağlın mahiyyəti möhkəmlənir və genişlənir. Əvvəlki sxemimizdə də qeyd etdiyimiz kimi, ağıl bilavasitə şüurun özünə deyil, özünütəhlilin, yaxud özünüreduksiyanın inikasıdır. Bu o deməkdir ki, hər nə qədər şüur nüvə olsa da, onun həcmi ağıldan daha böyükdür, ehtiva etdiyi biliklər daha çoxdur. Eyni zamanda, şüurun bilavasitə ilahi aləmlə əlaqəsi də var və bu, onun həm inkişafına təsir göstərir, ağıl isə yalnız şüurla, hətta onun rasional səviyyəsi ilə əlaqəlidir. Qalan hissə isə potensial olaraq qalır və istifadə olunmur. Düşüncə tarixinə baxanda belə nəticəyə gəlmək olur ki, çox nadir şəxslər şüurunun bütün imkanlarından yararlana bilib.

Ağılla əlaqəli olan yeganə səviyyə rasional şüurdur. Xatırladaq ki, ilk ağıl qatı məhz onun üzərində yaranır və digər şüur səviyyələri də yalnız orada əks olunduğu qədər ağılda hər hansı rol oynaya bilir. Malikdir. Rasional şüur insan doğulandan sürətlə biliklə zənginləşməyə, böyüməyə başlayır: instinktlərlə, hisslərlə, altşüurla. Bunla hamısı inşanı olduğu mühitə uyğunlaşdırır, eyni ritmə salır. Hər hansı təhlil olma-

yana qədər insanın bilik qazanması və ondan istifadəsi başqa bir canlıdan fərqlənmir. Ağlın formalaşmasının hər hansı yaş göstəricisi yoxdur. Bu, çox erkən yaşlarda da mümkündür, əksinə, gənc yaşa qədər "ağılsız" da qalanlar da var. Bu, asılıdır insanın aldığı təhsildən, yaşadığı mühitdən, valideynlərdə. Proses nə qədər tez başlasa, bir o qədər ağıl da tez inkişaf edər, sabit mahiyyəti formalaşar və daxil olan biliklər artıq şəxsiyyətin formalaşmasına da xidmət etməyə başlayar. Ağıl özünütəhlilin nəticəsidir, bu isə artıq şüurun aktivləşməsi, özünə doğru yönəlməyi deməkdir.

Rasional şüurun hüdudları kifayət qədər genişdir və insanın yalnız bu şüura istinad etməklə kifayət qədər yüksək təhsil, savad almaq, hətta düşüncə tarixinə adını da yazdırmaq mümkündür. Onun inkişafı zamanla altşüuru da ehtiva edə bilir. Məsələ burasındadır ki, qaranlıq yaddaşa çökmüş informasiyalar əslində elə maddi dünyanın ümumiləşmiş həqiqətləridir. Uşaq yaşda bunlar anlaşılmayan, qaranlıq görünsə də, rasional şüurun inkişafı onlara işıq salır və bununla da qaranlıq yaddaşın "sıxılmış məkanını" nisbətən genişləndirir. Xatırladaq ki, şüuraltında çökmüş məlumatların üzə çıxması xüsusi bir şəraitdən asılıdır. İnsan özünütəhlillə öz qaranlıq yaddaşına bələd olanda həmin anı, gözlənilməz müdaxiləni gözləmir, əvvəlcədən rasional həll yolları axtarır. Burada maraqlı bir incəliyi də qeyd edək ki, qaranlıq yaddaşda insanın gerçək şəxsiyyətinə, sosial kimliyinə yad informasiyalar toplanır və bəzən onların ağla sızması onun ahəngini kökündən dəyişə bilir. Daha əvvəl də dediyimiz kimi, qaranlıq yaddaşın gücü onun aniliyindədir. Buna görə də, rasional şüur tədricən onu da özünütəhlilin çevrəsinə almağa çalışır. Əlbəttə, sual yaranar ki, altşüurda olanlar düşüncədən yayınaraq ağla necə daxil ola bilər? Məsələ burasındadır ki, biliklərin daxil olması davamlı bir prosesdir və bəzən özünütəhlil zəif olanda, yaxud informasiya bolluğu olanda bəziləri tam işıqlanmadan ağla ötürülür, rasional şüurun sadəcə gücü çatmır. Belə olan halda, onların arasında qaranlıq yaddaşa məxsus informasiyanın da nəinki ağla sızması, həm də orada ayrıca bir girdab yaratması təəccüblü görünməməlidir. Maraqlıdır ki, öz

gücünə inanan və qaranlıq yaddaşa ümumiyyətlə diqqət ayırmayan rasional şüurlar məhz bu əminliyə arxayın olduqlarına görə, daha çox altşüurun əlində aciz qalırlar. Daha əvvəl bu barədə geniş təhlil vermişik, burada isə yalnız xatırladaq ki, əslində, altşüurdakı informasiyaların ümumiyyətlə ləğvi, yaxud idarə olunması çətindir, çünki məqam yetişməyənə qədər hər hansı qarşılıqlı addım atmaq mümkün deyil. Sadəcə onu əlavə edək ki, istənilən informasiya, hətta bu, qaranlıq yaddaşdan olsa belə, işıq zərrəsidir. Müvafiq məqamın yetişməsi məhz ona uyğun işıq selinin yaranmasıdır. Yəni əslində, həmin informasiya üçün bir minimühit yaranır və o, öz yerinə oturur. Deməli, tək işıq zərrəsi bir anda bütöv bir işıq selinə çevrilir. Təbii ki, qarşısını almaq üçün həmin seldən daha güclü bir sel olmalıdır ki, ya psevdomərkəzin yaranmasının qarşısını alsın, ya da artıq yaranıbsa, onu əsas mərkəzin axınına qata bilsin.

Şüurüstü ilə vəziyyət nisbətən fərqlidir. Məlum olduğu kimi, hər insan öz şüurüstünü aktivləşdirə və onun vasitəsilə bilik qazana bilmir. Bu, daha çox yaradıcı və xüsusi şəxslərin malik olduğu qabiliyyətdir. Eyni zamanda, bu, artıq özünüreduksiyanın mövcudluğuna və şüylərin noema qatına nüfuz imkanına dəlalət edir. Başqa sözlə desək, ağılda nüvənin mərkəzi kifayət qədər güclü olur və hər hansı başqa mərkəzin yaranma təhlükəsi cüzi olur. Bununla belə, Budda, yaxud, İbrahim b. Ədhəmlə bağlı xatırlatdığımız kimi, özünüreduksiyanın ilk başlanğıcında belə bir ikiləşmə mümkündür. Şüurüstündə qavranılan biliklərlə vəziyyət iki cürdür. Birinci halda, idrak prosesi noematik qatda da qavradıqlarını digər biliklər kimi ağla ötürür. Bu zaman şüurun daxili radiusu, ağlın isə sabit mahiyyəti böyüyür, ətrafa münasibəti, reaksiyası dəyişir. Yəni ağıl yenə də rasional bilik alır, sadəcə, indi bunlar şeylərin mahiyyəti haqqında daha dərin və universal miqyaslı həqiqətlər olur. İkinci halda, insan rasional şüurdan kənar ruhani təcrübəsi, meditasiya ilə ilahi aləmdən irrasional biliklər qavrayır. Rasional şüur onları nəinki anlamaqda, hətta idarə etməkdə də aciz qalır və onlar bir başa ağla keçir. Təbii ki, orada mərkəzi rasional şüur olmaqla bir mərkəz var, ancaq bu ikinci ondan daha güclü olur və onu da özünə qatır. Rasional şüur de-

mək olar ki, kənarlaşdırılır. Lakin burada yenə də iki yol müşahidə etmək mümkündür. Üstşüur zatən nüvəyə aiddir, yəni yaranmış mərkəz əslində özünüreduksiyanın gücüdür, əgər qavranılan biliklər dərk edilib, rasionallaşarsa. Rasional şüuru müəyyən səviyyədə olan şəxslər məhz buna çalışır. Əksinə olanda, yəni insan yalnız ruhani təcrübə ilə kifayətlənmək istəyəndə, o zaman belə şəxslərin cəmiyyətdəki yeri birmənalı olmur, onlar zahid, dərviş həyatı keçirib, ilahi aləmdən qavradıqları da yalnız özləri üçün olur. Onu da əlavə edək ki, belə ağılda sabit mənbə olsa da, böyümür, elə rasional şüurun gücü çatdığı qədər var. Çünki burada nə özünüreduksiyadan danışa bilərik, nə də rasional şüurun cəmiyyətə reaksiyasından. Burada sadəcə qavranılan bir-iki irrasional həqiqətin hökmranlığı var. Üstşüur haqqında dediklərimiz təsdiq edir ki, hər nə qədər şüur ağılla bilavasitə əlaqəli olsa da, onların inkişaf yolları və səviyyələri paralel deyil. Ağılda şüurun ehtiva etdiklərindən yalnız az qismi yer ala bilir. Buna görə də, üstşüurun hansı səviyyəsində olmasından asılı olmadan, ağıl yalnız rasional ağlın imkanları qədər mahiyyətə sahib olacaq.

Şüur səviyyələri ilə ağıl arasında paradoksal hallardan biri də onların dəyərlərinin bəzən üst-üstə düşməməsidir. Belə ki, daha çox cəmiyyətin, reallığın tələblərindən çıxış edən ağıl şüurun mahiyyətini kənarda saxlaya bilir. Əlbəttə, burada şüurun gücü, kölgədə saxlanılan ideyanın özünün dəyəri böyük rol oynayır. Bununla belə, ağıl ilk növbədə öz meyarlarını önə çəkir. Məsələn, rəssamlıq istedadı olan biri daha yüksək məvacibə görə bizneslə məşğul olur və bu sahədə biliklər, bacarıq qazanır. Əslində bu, daha əvvəl də qeyd etdiyimiz ağılda yaranan ikinci mərkəzin daha çox aktivliyindən irəli gəlir. Əlbəttə, daxili təkanın, şüurun mahiyyətinin gücü böyükdür, lakin nəzərə almaq lazımdır ki, əksər hallarda ağlın böyük hissəsini gündəlik informasiyalar, insanı sosial varlıq kimi təsdiqləyən biliklər tutur və onların hamısı məhz psevdomərkəzin gücünü artırır.

Üstəlik, xatırladaq ki, psevdomərkəzli ağlın qərarları heç də həmişə şüurun dedikləri ilə uyğun gəlmir. Yeri gəlmişkən, qeyd edək ki,

bəzən ağılda yaranan belə ikimərkəzlilik güclü olanda və biri digərinə üstün gələ bilməyəndə, bir növ daxili nəzarət yaranır, daha kəskin şəkildə isə psixi xəstəlik olan şəxsiyyətin ikiləşməsinə (dissosiativ pozuntu) qədər gətirib çıxara bilir. Məsələn, Sokratın daimonionu ağıldakı ikimərkəzliliyə gözəl nümunədir. Hər nə qədər ağıl daha çevik, cəmiyyətin tələblərini daha yaxşı qavrasa da, şüur – mahiyyət tam kənarda qala bilmir və bəzən müdaxilələr edir, nə isə düzəltməyə, nəyin isə qarşısını almağa, yaxud fərqli baxış bucağı açmağa çalışır. Burada bir neçə əhəmiyyətli məqamın üzərində xüsusi dayanaq.

Birinci dəfə hər hansı qərar verilərkən narazılıq yarananda daxili səs hiss olunur, yəni həmin qərar insanın mahiyyətinə uyğun gəlməyəndə, hətta onu təhrif edəndə. Kantın dediyinə görə, insan etməli olduğunu, yəni fitrətən malik olduğu keyfiyyəti göstərməlidir. Ağıl öz strukturundan, dəyərlərindən çıxış edərək müəyyən qərar verir və bu qərarda, təbii ki, onun mərkəzi, yaxud psevdomərkəzi prinsipial rol oynayır. Bu zaman ikinci mərkəz də öz qərarını səsləndirir. Burada hansının haqlı olduğunu güclü olan tərəf həll edir. Yəni hətta qərarın kökündə şüurun mahiyyəti dursa belə, əgər o, zəifdirsə, digər mərkəzin qərarın qəbul ediləcək. İkinci dəfə belə fikir ayrılığı ideya reallaşandan sonra ortaya çıxır: nəticənin ilk ideyaya uyğunluğu, nəticənin praktikliyi və müasir dövrlə səsləşdiyi və s. Yəni nə qədər ki, həmin ideya daxilən təhlil edilir, qərar haqqında tərəddüdlər mövcuddur, daxili səs hiss olunmur, çünki digər səslərə qarışır. Qərar veriləndən, hətta nəticəsi göz önündə olanda sonra isə münasibətlər də aydınlaşır. Qeyd etmək lazımdır ki, əksər hallarda, münasibətlər narazı və bir-birinə qarşı olur, çünki baxış bucaqları, dəyərlər fərqlidir. Maraqlıdır ki, bəzi şəxslər daxili səslə çox ciddi hesablaşıblar. Məsələn, Sokrat hələ ideya qatında onu fərqləndirir, ona ayrıca daimonion adı verib və qərarlarına şərtsiz riayət edib. Kant isə onun dediklərini əxlaqın maksiması hesab edib. Nəhayət onu da əlavə edək ki, ağılda doğulan ikinci mərkəzin – daxili səsin vicdanla əlaqələndirmək fikrini də müəyyən mənada qəbul edirik. Məsələn, Frankl

vicdanı "dəyərlər haqqında əxlaqaqədərki təsəvvür" hesab edir.[1] Onun fikrinə görə, vicdan irrasionaldır və təhlil edilə bilməz, çünki o, özünün bilavasitə reallaşmasında heç vaxt tam rasionallaşmır; o, həmişə retrospektiv "ikinci rasionallaşma" ilə açılır: vicdanın araşdırmaları yalnız retrospektiv kimi düşünülə bilər. Vicdanın səsi də araşdırıla bilməz".[2] Maraqlıdır ki, Frankl vicdanı şüurdan fərqləndirir və bildirir ki, "şüura mahiyyət açılır, vicdana isə, daha çox mövcud olan yox, mövcud olmalı olan. Bu, gerçək deyil, yalnız həyata keçməli olan, mümkün ola (söhbət ondan gedir ki, bu mümkün olan sözün yüksək mənasında zərurət təşkil edir".[3] Böyük psixoloqla əksər məsələlərdə razılaşmaqla yanaşı, onu da əlavə etmək istərdik ki, biz onun kimi vicdanı "şüursuzluğun modeli" olan fenomen kimi qəbul etmirik. Əksinə, vicdan ağılda yaranan bir mərkəzdirsə (biz onu psevdo adlandırmırıq, çünki o, mahiyyətin səsi də ola bilir) və digər mərkəzin qərarına müdaxilə edə bilirsə, deməli, müəyyən rasional kökü var. Hər nə qədər onu səsi son qərardan sonra eşidilsə də, əslində, onun səsi həmişə müdaxilə edir. Sokratın nümunəsində bunu görmək olur. Frankl öz təhlillərini yekunlaşdıraraq bildirir ki, "ruhani "Mən" şüursuzluğa öz təməli kimi baş vuranda, biz orada şüurdan, sevgidən və ya sənətdən danışa bilərik. Əksinə, psixofiziki "O" şüura nüfuz edəndə, biz, patogenezindən asılı olaraq, nevrozdan və ya psixozdan danışırıq..."[4] Belə məlum olur ki, Franklın vicdan anlayışı ilə bizim özünüreduksiya üzərində bərqərar olan mərkəz eynidir. Digər hallarda isə, bu, dissosiativ pozuntuya səbəb ola bilər.

## *§ 139. Ağlın səviyyələri və hüdudları*

Hər nə qədər şüur və ağıl paralel inkişaf etməsə də, hətta bəzən aralarında ciddi ziddiyyət yaransa da, ağıl birmənalı olaraq şüurun sə-

---

[1] *Франкл Виктор. Подсознательный бог. Психотерапия и религия*. М.: Альпина нон-фикшн, 2022, s. 60. http://flibusta.site/b/704460/read

[2] Yenə orada.

[3] Yenə orada.

[4] Yenə orada.

viyyələrinin inikasıdır. Çünki danılmaz həqiqətdir ki, şüur ağlın nüvəsi, onun sabit mahiyyətinin təyinedicisi, bilik mənbəyidir (hətta bilik şüurun filtrindən kənar ağla daxil olsa da, o, məhz şüurun qavradığı bilikdir). Ağlın da öz inkişaf səviyyələri var. Nəzərə alsaq ki, ağıl yalnız rasional şüur üzərində formalaşır, onun səviyyələri də məhz rasional şüur çərçivəsindədir.

Ağlın səviyyələri, imkanları haqqında fəlsəfi düşüncələr, iddialar çoxdur və onların hər birində həqiqət payı çoxdur. Kantın fəlsəfəsi bütünlüklə ağıl üzərində qurulub. Ümumiləşdirilmiş fikir olaraq onu bildirək ki, hər müəllifin gəldiyi qənaət onun düşüncəsinin təməl prinsiplərinə əsaslanır, onu ifadə edir. Məsələn, Leibniz ağlın 4 pilləsinin olduğunu vurğulayır: "1) sübutun kəşfi; 2) onların əlaqəsini göstərmək üçün sıra ilə düzülməsi; 3) deduksiyanın hər hissəsinin əlaqəsinin anlaşılması; 4) nəticənin çıxarılması".[1] Diqqət yetirilsə, Leibniz əsasən hazır riyazi biliklərdən çıxış edir. Fərqli fikirlərin mövcudluğunu nəzərə alsaq, belə nəticə çıxır ki, bütün ağıllar üçün vahid bir standart, etalon yoxdur və hər biri öz potensialının ifadəçisidir. Sufi fenomenologiyada təklif edilən bölgü isə ümumidir və inkişaf prosesinin əsas mərhələlərini və mahiyyətini ehtiva edir.

Hər şeydən əvvəl xatırladaq ki, ağlın hüdudları şüurun daxili radiusu ilə üst-üstə düşür. İlk və geniş yayılmış ağıl səviyyəsini standart adlandırmaq olar. Gündəlik bilik əsasında hələ uşaq yaşlarından formalaşmağa başlayan ağıl sonradan da eyni müstəvidə inkişaf etməyə davam edir. İnsanların böyük əksəriyyəti məhz bu ağıl səviyyəsində olduğuna görə, standart kimi qəbul edilir. Məsələn, uşağın inkişaf səviyyəsini yoxlayanda əsasən onun göstəricilərindən çıxış edirlər: gündəlik hadisələrə reaksiyası, hisslərin təyini, anlayışları uzlaşdırmaq bacarığı və s. Amma onun qeyri-adi bir istedadı, yaxud marağı standartdan kənar hesab edildiyinə görə, bəzən "düzəlişə" ehtiyac olduğunu düşünürlər. Ümumiləşmiş biliklər əsasında formalaşan belə standart ağıllar əsasən tək mərkəzli olur və bunun şüur olması şərt deyil. Buraya əsasən dövrün

[1] Лейбниц. Новые опыты…, с. 489.

aktual məsələlərinə aid informasiyalar, gündəlik qarşılaşdığı biliklər, bədii və elmi kitablar, baxılan bədii və sənədli filmlər aiddir. Belə ağılların sabit mahiyyəti eyni olur: eyni dəyərlər, eyni problemlər, eyni həll yolları və s. Bir daha təkrar edək ki, cəmiyyətin yazılmamış qanunları çox vaxt məhz standart ağılların təyin elədiyi meyarlar olur.

Standart ağıl səviyyə bütün digər səviyyələrin təməlidir. Hər kəs öz təhsilinin, dünyagörüşünün, mühitinin verdiyi imkanlar daxilində bu səviyyəni qazanır. Bunu başlanğıc səviyyə də adlandırmaq olar. Sonralar kimsə elə bu səviyyədə qalıb, onu mükəmməlləşdirir, bir başqası isə tək istiqaməti seçir, qalan hissələr isə elə standart, sadə səviyyədə qalır. Standart ağıl sahiblərinin inkişaf həddi gündəlik biliklərdir. Qeyd etmək lazımdır ki, bu, kifayət qədər böyük və zəngin bir çevrədir. Onu da əlavə edək ki, bəzi şəxslər hətta ixtisaslaşalar belə, ağıl bu səviyyədə qalır. Bu səbəbdən biz cəmiyyətin əksəriyyətinin onlardan ibarət olduğunu vurğulamışdıq.

İnsan nə qədər çox bilik alırsa, şüurun daxili radiusu böyüyür və müvafiq olaraq ağıl da genişlənir, inkişaf edir. Müəyyən yaş həddindən sonra, əsasən gənclikdə biliklər ixtisaslaşmağa başlayır və ağılda konkret istiqamət üstünlük qazanır və bu, bu, artıq ikinci səviyyədir: ixtisaslaşmış ağıl. Bu ağıl sahiblərinin inkişafının son həddi ümumiləşmiş biliklərin sərhədidir. Ancaq əksər hallarda heç oraya qədər də çatmadan, öz potensiallarının son həddindən sonra eyni çevrə boyu hərlənib dururlar. Standart ağılda olan mütəxəssislərdən fərqli olaraq belə şəxslər arasından da yaradıcılar, öz sahələrində yeni addım ada bilənlər yetişir. Bunlar mövcud ümumi biliklər çərçivəsindən kənara çıxmır, ümumbəşəri əhəmiyyətə malik olmur və yalnız öz dövrünün, cəmiyyətinin fonunda fərqlənə bilir. İxtisaslaşmış ağıl sahiblərini mövcud biliklərin yüksək səviyyəli istehlakçısı adlandırmaq olar. Onlar bu çərçivəni (öz istiqamətləri üzrə!) o dərəcədə gözəl bilirlər ki, ondan kənarda hansı isə biliyin ola biləcəyini qətiyyən qəbul etmirlər. Məsələn, bəstəkar konservatoriyada öyrəndiyi qamma və solfejio qanunlarına riayət edərək simfoniya yazır, hətta uğur qazanır, populyarlıq qazanır və o, heç cür qəbul etmək istəmir ki, ilahi aləmdən də səslər duymaq mümkündür və

bunun üçün qamma birinci dərəcəli şərt deyil. Yaxud fizik mükəmməl bildiyi formulların fövqündə qanunların qaldığına inanmır, ruh vasitəsilə bilik qazanmağı ümumiyyətlə elmə zidd görür.

İxtisaslaşmış ağıllarda psevdomərkəzlərin yaranma faktları mümkündür, çünki bəzən seçilən ixtisasla daxili mahiyyət üst-üstə düşmür və düşüncələr parçalanır. Eyni zamanda, bir istiqamət üzrə inkişaf digər sahələrdəki qaranlıq məqamların yaranmasına səbəb olur. Şeylərin daxili bir vəhdətinin varlığından xəbərsiz olan və təsadüflərə inanan bir şəxs həmin qaranlıq məqamların əhəmiyyətini qəbul etmir.

Yeri gəlmişkən, öz idrak prosesində yalnız ruhani təcrübəyə istinad edən və məntiqi, rasional təfəkkürə istinad edənləri ixtisaslaşmış ağıl sahiblərinə aid etmirik. Əvvəla, bu, ixtisaslaşma deyil, hər hansı idrak metoduna üstünlük verməkdir, yaxud həyat tərzidir. İkincisi, qeyd etdiyimiz kimi, ağıl rasional şüur üzərində formalaşmalıdır. Deməli, ruhani təcrübəsindən asılı olmadan, şəxsin ağlının səviyyəsi ilə onun rasional səviyyəsi ilə ölçüləcək. Əslində, nəzərə alsaq ki, belə şəxslərin qavradığı irrasional biliklər onun ağlında, şəxsiyyətində necə bir xaos yaradır, o zaman ümumiyyətlə, onları bu bölgüyə aid etməməyi daha doğru hesab edirik.

Üçüncü səviyyədə olan ali ağıldır. Şüurun potensialından maksimum istifadə edən, ümumi biliklərin hüdudundan kənara çıxa bilən belə ağılların bir neçə spesifik xüsusiyyətləri var. Birincisi, belə ağıllar üçün psevdomərkəzlərin yaranması idrak prosesinin tərkib hissəsi kimi bir aktdır. Məhz güclü özünüreduksiya sayəsində hər dəfə onlar ümumi axına qatılır. Onu da əlavə edək ki, ümumi biliklər çərçivəsindən çıxmaq imlanı da məhz belə psevdomərkəzlər vasitəsilə olur. Burada maraqlı və incə bir məqama diqqət yetirək: belə şəxslərin ağlında psevdomərkəz yaradan biliklər onun rasional şüuruna sığmayıb ağla sızan irrasional bilikləri olur və məhz onlar sayəsində o, yeni bir noemaya keçid edə bilir. Gündəlik həyata, məişətə aid hər hansı bilik isə belə ağılları həyəcanlandırmaq, axarını zəiflətmək gücünə sahib deyil.

İkinci spesifik xüsusiyyəti isə öz şüurunu kifayət qədər yaxşı tanı-

ması, yəni şüur və ağıl arasındakı əlaqənin çox yaxın, özünüreduksiyanın çox güclü olmasıdır. Bu, bir tərəfdən, şüurdakı ilk ideyanın təhrif olunmaması, digər tərəfdən, ağlın şüurun imkanlarından, potensialından maksimum istifadə edə bilməsi deməkdir. İrrasional biliklərin bəzən ağla ötürülməsi ağlı nəinki zəiflədir, yaxud xaos yaradır, əksinə, rasional şüurun daha da inkişaf etməsinə təkan verir.

Üçüncüsü isə, ağlın həm üstşüur, həm ruh, həm də ilahi aləm fenomenlərini qəbul etməsidir. Əslində, bunlar tam rasionallaşmamış biliklərdir, bununla belə, ağıl onları şüurun mahiyyətindən açılan imkan kimi qəbul edir və bununla bir növ öz imkanlarını da genişləndirmiş olur. Bundan əlavə ağıl həm də növ ruha məxsus ümid, iman, sevgi hallarını da mənimsəyir. Əhəmiyyətli bir məqam kimi vurğulayaq ki, fenomenoloji reduksiya və fenomenoloji epoxé bu zaman ağıl səviyyəsində baş verir.

Dediklərimizdən belə, məlum olur ki, şüur həm də ağlın hüdudlarını təyin edir. Dəqiqləşdirək ki, söhbət ağlın sabit mahiyyətindən gedir.

Şüurun hərəkət trayektoriyası çevrə xarakterlidir. İdeyanın ilk təkanından başlayaraq son mərhələdə geri qayıdan xəttin özü şüurun intensiyası, onun içində qalan isə qavranılan biliklərdir. Ağıl onların hamısını ehtiva edən son nöqtədir. Başqa sözlə desək, ağıl həmin trayektoriyanı şüurla bərabər keçmir, heç ortada qalan biliklərin hamısını da ehtiva etmir. Ağıl nöqtənin özündədir və ondan kənara çıxa bilmir, məhduddur, lakin o, qavranılan və bitən hər çevrənin sonunda böyüyür və möhkəmlənir. Məhz nöqtənin tərkibində olduğuna görə, son nəticədə, reallaşmış ideyanın nur axının sakitləşməsində ağıl da var. Çevrənin tamamlanması hər hansı psevdomərkəzlərin, qaranlıq məqamların varlığını istisna edir. Bunu bir qozla müqayisədə göstərmək olar. Ağacın aldığı qida nəticəsində qoz dənəsi yaranır və ləpəsi böyüməyə başlayır. Onunla bir yerdə qabığı da. Ləpənin yetişməsi dayananda üzərindəki qabıq möhkəmlənir. Şüur ləpədir, ağıl – qabıq. Nə qədər ki, şüur inkişafdadır, ağıl da onunla bərabər böyüyür. Şüur əlaqəli olduğu bütün vasitələrlə böyüyür, ağlın ölçüsünü təyin edən isə şüur olur. Ağıl şüurun verdiyi imkan qədər böyüyə bilir. Şüur onun nüvəsi və mahiyyəti olmaqla

yanaşı, onun zahiri hüdudlarını da təyin edir. Bu, zəncirvari proses olmaqla yanaşı, həm də qarşılıqlı şəkildə bir-birini tənzimləyir.

İnsan Mütləq Yaradanın hökmü və mülkü daxilində yaradıcıdır və "aləti" şüurdur. Məhz şüuruna səbəb insan var olanın üzərində yeni bir şey yarada, mövcud noemalar əsasında yeni noema formalaşdıra bilir. Bu xüsusiyyətinə görə, insan digər varlıqlardan seçilir, çünki Allahın yer üzündə xəlifəsidir. İnsanın şüurunun ilk yaratdığı və "xəlifəsi" isə ağlıdır.

Bəli, ağıl insanın bütün digər imkanlarının yanında zəifdir, həssasdır, daim diqqət tələb edir, çox tez zədələnir və s. Bununla belə, insanın taleyini həll edən, onu şəxsiyyət kimi tanıdan qərarları məhz ağıl verir; şüurun yaradıcı ideyalarını həyata keçirən də ağıldır, şüurun hansı səviyyədə olduğu, hansı bacarıq və imkanlara sahib olduğu da ağıldan bəlli olur. Şüur çox şey görüb, çox yerə nüfuz edə, Loqosdan çox həqiqət qavraya bilir. Lakin bu həqiqətlərin həm insanın özü, həm də cəmiyyət üçün hansı əhəmiyyət kəsb etməsini ağıl təyin edir. Allahı tanıdan Onun bütün yaratdıqları olsa da, məhz insan bunu ən kamil şəkildə edir. Eləcə də insanın insan olduğunu onun bir çox keyfiyyəti ilə təsdiq etmək olar, ancaq ağıl bu keyfiyyətlərin ən ali göstəricisidir. Biz şüur deyil, ağıl deyirik. Çünki şüur daxili fenomendir, ağıl isə onun zahiri təzahürüdür.

### *§ 140. Tək, ümumi və xüsusi ağıl*

Mahiyyətlər haqqında danışanda (§7) biz insanları da xüsusi, tək və ümumilərə ayırmışdıq. Eyni problemə ağıl kontekstində təkrar qayıtmaqla məsələyə tam aydınlıq gətirək.

İstər maddi və konkret, istərsə də, mücərrəd bir şeyin ümumiliyini və ya xüsusiliyini təyin edən onun tutduğu ümumi sistemdəki yeridir. Əgər bu mahiyyətinə, yaxud ehtiva etdiyi həqiqətə görə olsaydı, xüsusi bilik tanınandan sonra ümumiləşməzdi. Deməli, əvvəlcə bütöv sistem haqqında təsəvvür olmalıdır ki, orada nəyin tək, nəyin xüsusi, nəyin də ümumi olduğunu anlamaq mümkün olsun. Yaradılış iyerarxiyasında hər şeyin öz yeri, öz əhəmiyyəti var. Bu keyfiyyətinə onlar arasında bölgü aparmaq insana xasdır. Deməli, burada obyektiv həqiqətlə yanaşı, müt-

ləq subyektivlik də müəyyən rol oynayır. Sual yaranır: belə olan halda, bir insan üçün ümumi olan, başqası üçün xüsusi ola bilərmi? Yoxsa burada hər hansı bir obyektiv meyar var? Bundan başqa, nəzərə alsaq ki, ağıl insanın yaratdığı fenomendir və hər hansı vahid etalon yoxdur, onda onlar arasındakı bölgü nə dərəcədə obyektiv ola bilər?

Ağıl insanın yaratdığı olsa da, burada iki fakt nəzərə alınmalıdır. Birincisi, insan onu şüurlu şəkildə, məqsədyönlü şəkildə yaratmır. Bu, insan sisteminin daxili qanunauyğunluğunun nəticəsidir: onun qan dövranı, görmə xüsusiyyəti, tənəffüs sistemi kimi. Yalnız insan şüurlu şəkildə ağlın sistemləşməsinə, formalaşmasına müdaxilə edəndən sonra oradakı subyektivlikdən danışmaq olar. İkincisi, ağıl Allahın yaratdığı nüvə üzərində formalaşan bir noemadır və onun təzahürüdür. Bölgü də mahiyyətə deyil, onun təzahürünə aid olacaq. Lakin söhbət məhz obyektiv həqiqəti necə ifadə etməkdən gedir. Məsələn, §7-də qeyd etdiyimiz kimi, insanlar imanlarına, daha dəqiq desək, sufizmdə insanları imanına görə fərqləndirəndə onları 3 mərtəbəyə ayırırlar: ümumilər, seçilmişlər – möminlər, seçilmişin seçilmişi – ariflər. Onları fərqləndirən imanları deyil, onu – Allahın verdiyi imkanı necə anlayıb dərk etmələrinə görə ayrılırlar. Eləcə də, ağıl insanın Allahdan aldığı mahiyyətin təzahürüdür və bölgü də məhz buna əsasən aparılır. Onu da əlavə edək ki, bölgü məhz ağlın sabit mənbəyinə müvafiq aparılır, onun bütövlükdə varlığına, daxilində gedən proseslərə görə deyil.

Dediklərimizdən aydın olur ki, insan sisteminin qanunauyğunluğuna görə formalaşan ağıllar ümumi kateqoriyaya aiddir. Əvvəlki təhlilimizdə də dediyimiz kimi, belə ağılların sabit mahiyyəti eyni "tərkiblidir". Xüsusilə qeyd edək ki, bütün standart ağıllar ümumidir demək həqiqəti təhrif edər. Çünki standart ağıl başlanğıc mərhələdir və proses hər kəsdə, istisnaları (xüsusi istedadlı uşaqları) nəzərə almaqla, eynidir. Yəni sonrakı mərhələdə təklər, xüsusilər də standart ağıllar arasından çıxır. Ümumi kateqoriyaya öz inkişafını məhz standart mərhələ ilə bitirən ağıllar aiddir.

Ümumi ağıllar eyni sabit mahiyyətə sahib olmaqla yanaşı, güclü

mərkəzə sahib də deyillər. Buna görə də, xarici təsirə tez məruz qalır, informasiyalarla idarə oluna bilirlər. Burada əhəmiyyətli bir məqam var. İnsan ilk biliklərini başqasının – müəllim və valideynlərin nəzarəti ilə qazanır. Əgər onlar özünütəhlili və ağlın sistemləşməsində öz iradəsinin, seçiminin formalaşması da ona öyrətməsələr, o zaman ağıl hər zaman başqasının təsirində qalacaq. Maraqlı fakt kimi onu da əlavə edək ki, cəmiyyətdə ümumi ağıl sahibləri çoxluq təşkil etdiyinə görə, məqsədli şəkildə onlardan kütlə qüvvəsi kimi istifadə etmək, yaxud istiqamətləndirmək asandır. Ümumi ağıllarda sabit mənbədən kənar hissə xaotik bir mühiti, hətta qaranlığı xatırladır – çoxsaylı informasiyalar, sürətlə bir-birini əvəz edən hadisələr. Buna görə də, onlar məhz sabit mahiyyətin çərçivəsini böyük diqqət və ehtiyatla qoruyurlar. Məsələnin ən təəssüfedici tərəfi isə say çoxluğuna, cəmiyyətdə hakim olduğuna görə, bu sabit mənbənin bəzən milli mentalitet, ənənə kimi təqdim edilib və bu vasitə ilə bütövlükdə milli-mənəvi dəyərləri gözdən salmaqdır. Müəyyən mənada ümumi ağlı cəmiyyətin siması kimi düşünmək mümkün olsa da, əslində belə deyil. Çünki nəzərə almaq lazımdır ki, bir daha təkrar edək, məqsədyönlü şəkildə idarə olunan yalnız bir təbəqədir və istənilən vaxt onu dəyişmək mümkündür. Cəmiyyətin siması isə milli-mənəvi dəyərlərdə ehtiva olunur.

İnsan ümumi arasından seçilməklə təkə çevrilir. Bu, əsasən ixtisaslaşma ilə başlayır, yəni məktəb illərindən. Bu, müəllimlərin vasitəsilə də baş verə bilər, öz istəyi, seçimi ilə də. Yəni əslində bu istək əksər yeniyetmədə, gəncdə olur, ancaq həqiqətən təkə çevrilən az olur. Az əvvəl də qeyd etdiyimiz kimi, bəzən ixtisas seçilsə də, hətta bu yolda müəyyən addımlar atılsa da (ali məktəbə daxil olmaq, işləmək), düşüncə standart səviyyədən yuxarı qalxmır, elə ümumi ağıl sırasında qalır. Tək ağıl standart mərhələdə yığılan potensialın tək istiqamətə yönləndirilməsidir. Bu yaşda ağılda yaranan psevdomərkəzlər labüddür, xaos o qədər çox ola bilər ki, hətta psixologiyanı korlaya bilər. Buna görə də, gəncin özünü təhlil qabiliyyəti inkişaf etməlidir ki, həm öz mahiyyətini və gücünü dəyərləndirə bilsin, həm də kənardan verilən məsləhətləri, fikirləri düz-

gün anlaya bilsin. Kor-koranə itaət onu ümumi ağıl kimi saxlayır. Xatırladaq ki, standart ağıl səviyyəsində insan hələ də kənardan öyrədilənləri ətalətlə, ciddi təhlilsiz qəbul edir. Buna görə də, yeniyetmə, gənc yaşlarında təsir altına düşmək ehtimalları çoxdur. Məhz buna görə, dönə-dönə təkrar edirik ki, biliklə bərabər uşağa həm də özünütəhlil, öz mahiyyətini tanımaq həvəsi yaratmaq lazımdır.

Tək ağıl ümumi kimi kütləvi deyil və cəmiyyətin simasında əhəmiyyətli rol oynayan şəxslərdir. Onu da əlavə edək ki, tək ağıllar ixtisaslaşmış ağıl səviyyəsinə aid olsa da, şərt deyil. Yəni onu tək edən ixtisası və o istiqamətdə dərinləşən biliyi deyil. Belə olsaydı, biz bəzi ixtisas sahiblərini ümumi ağıl səviyyəsinə aid etməzdik. Tək ağıl məhz ümumi səviyyədən fərqlənən, bir boy yuxarı qalxan kimsələrə məxsusdur. Burada əhəmiyyət rol oynayan onun özünütəhlil qabiliyyəti, öz şəxsiyyətini tanımaqla yanaşı, başqaları üçün də nümunə ola bilmək bacarığıdır.

Tək ağıl sahiblərində tək güclü mərkəz olur və yaranan mümkün psevdo-lar onun gücünə tabe olur. Lakin maraqlı bir əlavə də edək ki, həmin tək mərkəz heç də həmişə özünüreduksiya əsasında olmur. Yəni hər hansı psevdomərkəz də kifayət qədər güclü ola bilir. Məsələ burasındadır ki, bəzən müasir dövrün tələbləri, xüsusilə siyasi hadisələrin aktuallığı daha cəlbedici olur və bəzi şəxslərin bilik səviyyəsi yüksək, təhlil qabiliyyəti güclü olan şəxslər öz mahiyyətinin deyil, dövrün səsi olmağa üstünlük verirlər. Beləcə, şair siyasətçiyə, iqtisadçı bəstəkara, müəllim biznesmenə və s. çevrilir.

Xüsusi ağıllar tək ağıllar arasından çıxır. Ağıl növlərini sxemlə göstərsək, bu, bir iyerarxiya şəklində olar (*sxem 35*). Bu, həm də sadə bir həqiqəti təsdiqləyir: tək ağıl sahibləri də, xüsusi istedadlar da eyni təməl üzərində yetişir. Söhbət təhsildən, mühitdən, cəmiyyətdən, fərdi münasibətlərdən gedir. Ağlın formalaşma prosesi bütün xalqlarda, millətlərdə eyni prosesdən keçir. Bu prosesin içində nəyin və necə tədris olunması isə cəmiyyətin, dövlə-



*Sxem 35. Ağlın qatları.*

tin öz seçimidir. Standart ağıl nə qədər möhkəm olarsa, onun üzərində növbəti mərhələni qurmaq da bir o qədər rahat olar.

Əgər tək ağıllar ümumilər arasından seçilir deyiriksə, xüsusilər haqqında eyni şeyi demək olmur. Daha dəqiq desək, əksər hallarda belə olmur. Xüsusi ağıllar əksər hallarda mahiyyəti fərqli bir missiya ilə yüklənmiş şəxslərdir. Yəni oxumaqla dahi olmaq mümkün deyil, ancaq dahi də oxumalı və həmin mərhələləri keçməlidir. Və əgər ilk proseslər zəif olarsa, dahinin – xüsusi ağıl sahibinin də təməli zəif qurular və o, əldə edə biləcəklərindən daha azına nail olar. Və əksinə, qabiliyyəti daha zəif biri güclü təhsil almaqla yüksək nəticələr qazana bilər. Onu da əlavə edək ki, güclü təməl həm də psevdomərkəzlərin öhdəsindən gəlmə bacarığını da artırır. Yeri gəlmişkən, onu da vurğulayaq ki, tək ağlın hüdudları ümumiləşmiş biliklər qədərdir.

Xüsusi ağıl erkən yaşda tək istiqamətə fokuslanma qabiliyyətidir. Söhbət vunderkindlərdən – möcüzə uşaqlardan getmir. Bəli, vunderkind də xüsusi ağıl sahibidir, ancaq burada nəzərə almaq lazımdır ki, vunderkindlər, birincisi, ümumiyyətlə standart ağıl səviyyəsindən keçmirlər, ikincisi, əksər hallarda, valideynlər onların əvəzinə həll edir. Belə güman etmək olar ki, məhz buna görə, əksər hallarda, istedadlarına baxmayaraq, belə uşaqların ağlındakı psevdomərkəzlər onların psixikasına mənfi təsir göstərə biləcək qədər güclü olur. Xüsusi ağıl sahibləri isə bütün mərhələləri keçdiklərinə görə, həm təməl biliklərini möhkəmləndirir, həm öz baxış bucaqlarını müstəqil şəkildə cilalayır və arxasında durmağı öyrənir, həm də ağıllarındakı mümkün psevdomərkəzlərlə özləri mübarizə aparmağı bacarır. Bir daha təkrar edək ki, xüsusi ağlın seçdiyi tək istiqamət nə qədər güclü özünütəhlilə istinad edirsə, bir o qədər şüurun bütün intensiyasına sahib olur. Məsələn, Eynşteyn fizik olduğu kimi, gözəl də skripka ifa edib. Onun seçimi fizika olub, çünki özünüreduksiyası buna gətirib. Yaxud Teslanın atası onun bir keşiş olmasını istəsə də, o israrla öz istəyinin arxası ilə gedib, hətta təhsildə gördüyü çətinlik də onu yolundan çəkindirməyib. Bu, məhz şüurun mahiyyətinin reallaşması – ilahi iradə ilə insan iradəsinin bir-birini tamamlamasıdır. Xüsusi ağıl sahibləri əsasən yüksək səviyyəli ağıllar arasından çıxır, an-

caq bu, mütləq deyil, istisnalar da var. Məsələ burasındadır ki, xüsusi ağıl sahibləri üstşüurun, ruhun varlığını qəbul etmədən də onlardan istifadə edə bilib. Varlığını qəbul etməmək, onların yoxluğu, idrak prosesi zamanı iştirak etməməsi demək deyil. Bu, özünüreduksiyanın spesifikliyidir.

Digər ağıl növlərindən fərqli olaraq, xüsusi ağıl öz çərçivəsini özü təyin edir – onun ideyasının sərhədi. Deməli, o, ümumiləşmiş biliklərin də çərçivəsini təyin edir. Bu, bir iradənin və seçimin davamlı irəliləməsi nəticəsində əvvəlki çərçivəni dağıtmaqdır. Əhəmiyyətli bir məqam kimi vurğulayaq ki, insanın bütün iradəsi, diqqəti sanki həmin istiqamətdə konsentrasiya olunur və qalan hissələrə qalmır. Buna görə də, öz sahəsindən kənarda, xüsusilə məişətdə belə insanlar diqqətsizlikləri, zəif iradələri ilə məşhur olurlar.

Növbəti diqqətçəkici məqam, xüsusi ağlın daha geniş spektrli olmasıdır. Sxemdən də göründüyü kimi, xüsusi ağıl sahibləri ən yüksək səviyyədə olanlardır. Nəzərə alsaq ki, belə şəxslər şeylərin məhz noematik qatına nüfuz edir və universal vəhdətin kontekstində şeylərə, hadisələrə təhlil verirlər, o zaman, onların sahələr arasında əlaqələrdən çıxış etmələri təəccüblü görünməməlidir. Əgər tək ağıl yalnız öz sahəsi üzrə bilik toplaya və o sahədə özünü inkişaf etdirə bilirsə, xüsusi ağıl sahibi fərqli bilikləri tək ideya ətrafında səfərbər edə bilirlər. Bunun nümunələrini əvvəlki təhlillərimizdə göstərmişdik. Eyni zamanda, məhz daxili vəhdəti, universal harmoniyanın əhəmiyyətini dərk etdiklərinə görə, belə şəxslərin ideyaları da, yaratdıqları da həmin harmoniyanın bir hissəsinə çevriləcək səviyyədə olur.

Beləliklə, iki mühüm fikrin altından xətt çəkək: a) ağlın hüdudlarını təyin edən şüurdur. Bu, ağlın səviyyəsinin göstəricisidir. b) Ağıl mövcud biliklərin strukturlaşmasıdır. Bu, ağlın növlərinin göstəricidir. Məsələ burasındadır ki, bir var, strukturlaşma zamanı fenomenoloji reduksiyadan istifadə oluna və bütöv bir sistem hazırlana ki, sonradan həm daxili enerji axını sabitləşə, həm də daha böyük noemanın tərkibinə qatıla bilə. Bir də var, mövcud biliklər dövrün tələbinə uyğun qruplaşdırılır və bu zaman, mümkün ki, vacib, amma tələblərlə səsləşməyən bi-

liklər kənarda qala bilir. Belə olan halda, struktur sabit olmur, tələb dəyişən kimi, o da əhəmiyyətini itirir.

Özünüreduksiya ağlın strukturlaşmasında ən əhəmiyyətli faktordur və onun səviyyəsindən asılı olaraq struktur da dəyişə bilir. Əvvəla, şüurun potensialını ağla ötürən bu prosesdir. Deməli, nə qədər geniş və dəqiq olarsa, bir o qədər şüur daha çox ehtiva olunar. İkincisi, strukturun mahiyyətə uyğunluğu da özünüreduksiyadan asılıdır. Eyni molekullardan ibarət almaz və qrafiti fərqləndirən onların strukturudur (*sxem 1*). Otuz bir yaşında aldığı ilahi vəhy Blez Paskalın ağlının bütün strukturunu yeniləndi. Yaxud Nikola Tesla Allahın varlığını dərk edəndə bütün həyatı, düşüncəsi dəyişdi. Belə nümunələri çox gətirmək olar. Başqa sözlə desək, onların malik olduğu biliklər, təhsil yox olmadı, istedadları başqa mahiyyət də kəsb eləmədi. Sadəcə ağlın mövcud strukturu şüurun müdaxiləsi ilə yeniləndi və dəyişdi: qrafit almaza çevrildi.

Elmi məlumata görə, qrafitin belə dəyişməsi üçün struktur saatlarla və günlərlə 50-60 min atmosfer təzyiqi və 1400-1500 Selsi dərəcədə saxlanılmalıdır. Eyni zamanda, §125-də yaradıcı şəxsin şüurunun enerji gücünü günəşlə müqayisə edəndə onun milyonlarla ölçülən bir istilik dərəcəsi olduğunu vurğulamışdıq. Belə bir təzyiqə və dərəcəyə davam gətirən yalnız xüsusi ağıl olur. Məhz buna görə də, biz tez-tez təkrar edirik ki, bu, bir insanın gücü xaricindədir və yalnız ilahi iradənin müdaxiləsi ilə bunun öhdəsindən gəlmək mümkündür.

### *§ 141. Ağıl və bədən*

İnsan nüvəsi şüur, kənar xüsusiyyətləri isə bədən kimi tanınan mürəkkəb noemadır. Sistemdə bir tərəfdən, təbii quruluşun daxili qanunauyğunluğu hakimdir: vacib eydosun mahiyyəti bütün köməkçi eydoslarda mövcuddur, köməkçi eydoslar isə nüvənin mahiyyətinin reallaşmasına xidmət edir. Bədən də, hər nə qədər ayrıca orqanizm kimi tanınıb öyrənilsə də, əslində, daha böyük sistemin bir hissəsidir. Barmağın, dilin ucundakı reseptorların funksiyasından tutmuş, ən böyük hərəkətlərə, hansısa bir xatirənin düşünülməsindən tutmuş, böyük ideyanın təhli-

linə qədər hamısı bütöv sistemin fəaliyyətinə aiddir. Bu o dərəcədə dəqiq qurulmuş bir mexanizmdir ki, hər hərəkət üçün, kiçik olsa belə, mütləq bir eydos, hətta noema cavabdehdir. Məsələn, insanın baxması və görməsi bir-birini əvəz edən çoxsaylı aktlardan ibarətdir. Və bütün bunlar o qədər sürətlə baş verir ki, bir şeyə baxanda həmin aktları deyil, yalnız nəticəni görürük. Buna görə də, insanın yalnız bədəndən və onun funksiyalarından ibarət bir varlıq kimi təsəvvür etmək, onun bütün mahiyyətini kölgədə saxlamaqdır.

Bütün noemalar kimi, insan da daxilən işıq strukturuna malikdir. Bu, sistemin vahidliyinin göstəricisidir. Kvant fizikasına istinad etsək, daha əvvəl də qeyd etdiyimiz kimi, hər maddi formanın onun noema strukturunun eyni olmamasını iddia edə bilərik. Başqa sözlə desək, insan konkret bir bədəndə mücərrəd bir sistemin mövcudluğudur.

Bədənə aid orqanlar yalnız öz konkret missiyasını həyata keçirir: göz görmək üçündür, nə gördüyü artıq beyinin funksiyasına aiddir, yaxud ciyər ancaq qana oksigen verir, onun hansı orqanlara və necə dağıdılması isə ürəkdə təyin edilir və s. Hər orqan sanki nisbi bir azadlığa, hətta həyata malikdir. Məsələn, göz bir şeyə baxa, əl tamam başqa işlə məşğul ola, ayaq da mexaniki olaraq gedə bilər eyni vaxtda. Ölmüş bir bədənin orqanını başqa bədənə köçürtməklə ömrünü uzatmaq mümkündür və s. Bununla belə, onların funksiyası maddi dünya ilə məhdudlaşır. Göz yalnız bəlli spektrdə olan rəngləri və işıqları görə bilir, o çərçivədən kənar üçün əlavə cihaza ehtiyac olur. Hal-hazırkı elmi inkişafdan çıxış etsək, insan yalnız kvant səviyyəsinə qədər maddi dünyanı öyrənə bilib. Yəni bədən imkanı, gücü daxili hissələri öyrənmək üçün uyğunlaşdırılmayıb. İnsanı yalnız maddi varlıq kimi qəbul edənlər onun ağlının, ruhunun da maddi formasını, bədəndə yerini axtarırlar: ağıl beyində, ruhu ürəkdə təsəvvür edirlər. Bunlar noema qatına aid fenomen olduğuna görə, adi gözün onu görməsi mümkün deyil, uyğun cihaz isə hələ ki kəşf edilməyib. Burada iki məsələyə təkrar aydınlıq gətirək: 1) noema qatında orqanlar yox, işıq strukturu var; 2) yalnız o qata məxsus fenomenlərin maddi xüsusiyyətlər arasında, yəni bədəndə yeri yoxdur. O bütöv sistemə aiddir və konkret formaya malik deyil.

Bütün bədən hərəkətlərinin impulsları beyindən verilib, alınan cavablar da ora qayıtdığına görə, bəzən onu ağılla verilir. Yəni bədən beyinlə idarə olunur və bunun da dəqiq mexanizmi məlumdur və o, bütün canlılarda eynidir. Alınan impulslar bilik, informasiya deyil, təbii quruluşun işləmə mexanizmidir. Amöblərdən tutmuş delfinlərə, o cümlədən insana qədər bütün canlı orqanizmlərdə bu mexanizm var. Bəli, həmin impuls müəyyən bilik ehtiva edir, çünki işıq zərrəsidir – eydosdur, lakin onu anlayan beyin deyil. Toxunanda insanla amöb eyni reaksiya verir, ancaq insan o toxunuşun mahiyyətini düşünə bilir. Yaxud beşikdəki körpənin də gözünə işıq salanda gözlərini qıyır, yumur. Bu, beyinin reaksiyasıdır, çünki uşaq hələ işığın nə olduğunu nə anlayır, nə də tanıyır. İnsan maddi dünyanı kvant səviyyəsinə qədər öyrənsə də düşüncənin hərəkətini görə, izləyə bilmir, yalnız analogiya apararaq hansı isə mühakimə yürüdə bilir. Necə ki, biz düşüncənin işıq dalğasından ibarət olmasından nəticə çıxararaq, onun hərəkətini işığın hərəkəti ilə izah etməyə çalışırıq. İnsan müxtəlif elmlər tərəfindən dəqiq öyrənilib, araşdırılıb, ən inanılmaz kəşflər edilib və maddi varlıq olaraq başqa canlılarla paralellər tapılıb. Şüurlu, düşünən bir varlıq kimi isə hər hansı bənzəri yoxdur.

Ağıl bu sistemin nüvəsi üzərində yaranan ilk noemadır, maddi orqan deyil və ona görə də onun hərəkəti, nüfuz etmə çərçivəsi daha böyükdür. Şüurdan fərqli olaraq, o, insan doğulandan, bilik almağa başlayandan sonra formalaşır. Ağlın səviyyəsindən asılı olaraq o, yalnız maddi dünya qatında da qala bilər (standart ağıl), noema qatına nüfuz edə də (yüksək ağıl). Xüsusilə vurğulayaq ki, o, şüur kimi bilavasitə noema qatında bilik qazanmır, yalnız rasionallaşmış bilikləri qəbul edə bilir. Bununla belə, şüurun verdiyi biliklər sayəsində ağlın da həmin qatdan xəbəri var və vasitəli olaraq ora ilə əlaqəlidir.

Hər eydosun, yaxud noemanın strukturuna uzanan noezalar – düşüncə prosesi maddi dünyaya aid deyil. Necə ki, gözün gördüyü son nəticə beyində canlanır, eləcə də, maddi dünyanın da öyrənilməsi noema qatında şüurdan keçərək ağla daxil olur. Qeyd etdiyimiz kimi, hər orqan yalnız öz funksiyasını yerinə yetirir və bunun fərqində deyil. Məsələn,

əl, ürək, hətta beyin özünün varlığını, malik olduğu işığı tanıma qabiliyyətinə malik deyil. Ürək beyin yerinə, beyin əl yerinə iş görə bilməz. Onlar öz təyinatını dəyişə bilməz, çünki özünün nəyə qadir olduğunu, nə etdiyini də anlamır. Ağıl isə bütün orqanizmdə var və hər orqanın funksiyasını bilir, onlardan bilik qəbul edir. Beş zahiri hiss orqanları buna nümunə ola bilər. Bununla belə, bir daha təkrar edək ki, ağıl şüur nüvəli bir noemadır və instinktlər, hətta hisslər səviyyəsi ilə məhdudlaşmır.

İnsan idrak qabiliyyəti o, maddi dünyaya gələndən – doğulandan sonra başlayır və öz iyerarxiyasını da yalnız bundan sonra qura bilir. Hər nə qədər ruhu, şüuru ilə ilahi aləmlə əlaqəli olsa, o, bu bədəndə mövcuddur. Ruh məhz bu bədənə üfürülüb, şüur məhz bu orqanizmin nüvəsidir. Bədən onun konkretliyi ilə yanaşı, həm də məhdudluğudur. Buna görə də, bəzən sufi mütəfəkkirlər bədəni kobud qabıq, ruhun qəfəsi adlandırıblar. Lakin məsələyə fərqli rakursdan baxanda, belə nəticəyə gəlmək olur ki, bədən həmin ruh və eydos – şüur üçün bir reallaşmaq, qazandığı mahiyyəti təsdiq eləmək üçün bir vasitə imkandır. Bədən yalnız son məqsəd kimi nəzərdən keçiriləndə, ruh da, şüur da elə bu çərçivədə qalır. Zatən o, həm öz daxilində, həm də zahirdə təbiətlə bir harmoniyaya malikdir. Yəni insan balaca dünyasında – maddi aləmində var olmaqla kifayətlənə bilir. Ağıl ruhu, daxili nuru qəbul etmədiyinə görə, özünü də insanın əsl mahiyyəti və gücü hesab eşdir. Şüurun tanınması, ruhla əlaqə mənzərəni kökündən dəyişir. Bir tərəfdən, insan universal aləmdə kiçik bir zərrəyə, ağıl məhdud bir fenomenə çevrilir, digər tərəfdən, məhdud çərçivənin – bədəndən şüur və ruh vasitəsilə sonsuzluğa yol açılır, insanın mental gücü qat-qat artır və o, Loqosa qədər yüksələ bilir. Və bütün bunlar məhz bədənə sahib olduğuna görə mümkün olur. Bədən orqanların – noemaların bəlli bir strukturda birləşməsidir. Ruh onlar arasındakı əlaqənin təbii canlılığıdır. Şüur həmin strukturun mahiyyəti və mövcud əlaqənin məqsədli hərəkətidir. Əgər məhz bu prizmadan baxanda, insanın artıq konkret və məhdud bir yaradılmış deyil, ilahi iyerarxiyanın daxili, nur strukturu ilə hərəkət edən, hətta bəzi noemaların nur istiqamətini idarə edə bilən varlıq olduğu təsdiqlənir.

# II bölmə. Ağıl və gerçəklik

## § 142. Obyektiv və subyektiv gerçəklik

Fəlsəfi termin kimi, gerçəklik deyəndə, ilk növbədə, təbii qanunauyğunluğun hakim olduğu obyektiv reallıq, bütün yaradılmışlar, hətta insanın özü də nəzərdə tutulur. Bununla belə, hazırki kontekstdən çıxış edərək gerçəkliyə tərif verməli olsaq, onu fərqli ağılların hökm sürdüyü, mühakimələrinin və qərarlarının kəsişdiyi məkan adlandıra bilərik. Bununla paradoksal bir fikir irəli sürmüş oluruq: gerçəklik subyektiv mövqelərdən yaranmış obyektivlikdik. Məsələ burasındadır ki, onu bir tərəfdən, ağıllar formalaşdırır: mühit, cəmiyyət, dövlət, digər tərəfdən, insan bunun üçün yeni bir məkandan, həqiqətdən deyil, var olanlardan istifadə edir. Yəni bir növ mövcud strukturu öz ağlına, mövqeyinə görə dəyişdirir. Hətta onu həqiqətən dəyişməsə belə, onun haqqında verdiyi informasiya öz mövqeyinə uyğun olur. Məsələn, Yer həqiqətən tısbağanın üstündə durmasa da, uzun illər onun haqqında yaradılan gerçəklik bu olub.

Səviyyəsindən asılı olmadan, hər ağıl öz gerçəkliyini formalaşdırır. Sadəcə, bəzilərinin gerçəkliyi yalnız özünə aid olur və istənilən anda kəsişdiyi başqa bir ağıl tərəfindən dağıdılır, bəzilərininki isə nəinki öz cəmiyyəti, hətta beynəlxalq ictimai fikri də idarə edir. Bu, gerçəkliyin obyektiv bir təməl üzərində qurulsa da, sabit və uzunömürlü bir anlayış olmaması fikrini yaratsa da, güclü ağılların formalaşdırdığı gerçəklik daha uzunömürlü olması faktını da qəbul etməliyik.

Başqa prizmadan baxanda isə gerçəklik informasiya məkanıdır. Xüsusilə vurğulayaq ki, həqiqət deyil, məhz informasiya, yəni hər hansı ağlın məhsulu. Hər ağıl öz səviyyəsinə, marağına uyğun olanı işıqlandırır və həmin ağlın cəmiyyətdə tutduğu yer həm də gerçəkliyi təyin eləmiş olur. Gerçəklik ağıllara bilavasitə təsir edən faktor olduğuna görə,

onu məqsədli şəkildə (KİV-lər, sosial şəbəkələr və s.lə) idarə edirlər. Buna görə, bəzən çox vacib bir informasiya unudulub, kölgədə qaldığı halda, bir fərd səviyyəsində olan məlumat günlərlə ağılları məşğul edə bilir. Söhbət ağılları zəbt edən, onlarda yeni bir mərkəz, ocaq, hətta xaos yaradan informasiyalardan gedir. Əslində, bunlar daha əsaslı və məqsədyönlü siyasətin, əməllərin təzahürüdür. Gerçəklik haqqında təhlillər məsələyə nisbətən işıq salar.

İnformasiyalardan çıxış edərək gerçəkliyin bir neçə qatını fərqləndirmək olar: a) üst, aktual, müasir qat; b) üst qatın mahiyyətini təşkil edən əsl ideyalar; c) bilərəkdən kölgəyə atılan və diqqətdən yayındırılan vacib məlumatlar; d) obyektiv həqiqət. Sxem olaraq təqdim etməli olsaq, bu, tərsinə çevrilmiş üçbucaq, iyerarxiya olar (*sxem 36*). Bəzən müxtəlif vasitələrlə yalnız üst qatı aktuallaşdırıb onu gerçəklik kimi təqdim edib və bütün ağları ona fokuslasalar da, nəzərə almaq ki, gerçəklik və aktuallıq eyni anlayış deyil. Gerçəklik bütün qatların kompleksidir. Onların sabitlik dərəcəsi isə aşağıdan yuxarıya – müasirliyə doğrudur. Bu, həm də gerçəkliyin obyektiv qatından subyektiv qatına keçmək trayektoriyasıdır. Məsələn, möhtəşəm bir binaya baxan nadir halda onun kərpiclərini, təməlini düşünür, yalnız zahiri gözəlliyinə baxır. Gerçəklik əslində o binanın təməl qarışıq hər şeyidir, hətta onu tikən fəhlə də.



*Sxem 36. Gerçəklik.*

Obyektiv həqiqət barədə təhlillər vermişik və burada yalnız onu əlavə edək ki, o, idrak prosesinin nəticəsində tanınan, qavranılan həqiqətdir. Kifayət qədər dərində yerləşən bu faktlar dar bir çərçivədə, mütəxəssislər arasında məlum olur və çox vaxt gerçəkliyin üst qatlarına keçmir. Məsələn, 2022-ci ildə elm aləmində nüfuzlu Nobel mükafatı kimya sahəsində amerikalı Caroline Bertozzi və Barry Sharpless, həmçinin danimarkalı Morten Meldala verilib: onlar *klik kimya* (*click chemistry*) – yan təsir olmadan sadə və sürətli kimyəvi reaksiya aparmaq metodu kəşf ediblər. Molekulların müəyyən fraqmentlərini öz aralarında birləşdirməklə mürəkkəb birləşmələrin yaradılmasına imkan verən bu metod, ola

bilsin ki, gələcəkdə tibdə, biologiyada və ya başqa elmlərdə daha çox tanınacaq, tətbiq ediləcək. Ancaq fakt budur ki, bu gün Rusiya-Ukrayna müharibəsi ondan daha aktualdır.

Gerçəkliyin üçüncü qatı, yəni bilərəkdən kölgəyə atılan və diqqətdən yayındırılan vacib məlumatlar obyektiv həqiqətlər əsasında formalaşır, iyerarxiyadan çıxış etsək, oradakı hər hansı bir ideyanın üzərində qurulur. Burada söhbət daha çox obyektiv həqiqətlərin tətbiqindən gedir. Məsələn, atom bombasının kökündə Eynşteynin nəzəriyyəsi durur, yaxud Teslanın kəşfləri əsasında hansı isə güclü silahın yaradılması ideyası olub. Yəni müəyyən ağıl sahibləri mövcud həqiqəti öz nüfuz dairəsini, hakimiyyətini genişləndirmək, yəni öz gerçəkliyini yaradıb və onu sabitləşdirmək məqsədi ilə istifadə edir. Onu da əlavə edək ki, bu qatın əhəmiyyəti kifayət qədər böyükdür və obyektiv həqiqətin öyrənilməsinə də stimul verir. Məsələn, yeni dövrdə elmin inkişafının əsas stimullarından biri silah kəşfləri olub. Biz insanın maddi dünyada öz iyerarxiyasını qurmaq qüdrətindən danışmışıq. Bu, həmin prosesin təməllərindən biridir. Düzdür, subyektivlik obyektiv həqiqətin kəşfindən başlayır. Bununla belə, ağılların iyerarxiyasının qurulması və qarşılaşması məhz üçüncü qata aiddir. Gerçəkliyin fərqli anlaşılması da bu qatda başlayır. Məlum olduğu kimi, 1953-cü ildə yapon filosofu Seyyey Sinoxara Eynşteynə göndərdiyi məktubda onu belə bir silah kəşf etməyinə görə günahlandırır.[1] Cavabında fizik bombanın sivilizasiyaya xeyir gətirəcəyinə, qorxu qarşısında beynəlxalq təhlükəsizliyin yaranacağına inandığını yazıb. Həm Sinoxara, həm də Eynşteyn kifayət qədər geniş dünyagörüşünə, dərin təfəkkürə sahib şəxsiyyətlərdir, bununla belə hər biri mövcud gerçəkliyi öz prizmasından dəyərləndirir və bu zaman qalan hissə kənarda qalır. Bu dəyərləndirməni aparan ağıl nə qədər dar düşüncəli olursa, bir o qədər çox obyektiv həqiqət kölgədə qalır.

Ağılların qurduğu iyerarxiyanın reallaşması gerçəkliyin ikinci qatına üst qatın mahiyyətini təşkil edən əsl ideyalar aiddir. Nəzəriyyədən praktikaya keçid olan bu mərhələ əvvəlkilərə əsaslanmaqla yanaşı, ide-

[1] 60 лет ядерному терроризму. https://www.agharta.net/Chernobyl4.html

yaların uğurlu təbliği, daha geniş radiusda yayılması, daha çox mənfəət gətirməsi kimi suallar və onların həllini ehtiva edir. Bu, bir ideyanın gerçəkliyə, reallığa çevrilmə prosesidir. Göründüyü kimi, bu mərhələdə hazırlanan ideyalar gerçəklikdə təzahür etsə də, onların əsl mahiyyəti, məqsədi üst qata keçmir və yalnız həmin ideyanın müəlliflərinə tam aydın olur. Məsələn, SSRİ-nin dağılması ilə bağlı bir çox versiyalar var, hansının gerçək olduğunu hələ də axtarırlar, ancaq fakt öldür ki, Sovet İmperiyası məhz müəyyən bir strategiya ilə məhv edildi. Yaxud 2013-cü ildə terrorçu təşkilatın yaratdığı və 2019-cu süqut edən İraq Şam İslam Dövləti əslində bir ideyanın gerçəkləşməsi idi. Həmin ideyanın müəllifi, əsl məqsədi hələ də müzakirə edilir və bunların sırasında ABŞ və müttəfiqlərinin İraqa hücumundan tutmuş, demoqrafiyaya, işsizliyə qədər bir sıra səbəblər sadalanır. Gerçəklikdə isə bir neçə il ərzində İslam dininin terrorda və qəddarlığı haqqında təbliğatlar səsləndi, anti-islam siyasət aparıldı.

Nəhayət, gerçəkliyin üst qatı – müasirliyin göstəricisidir. O, ikinci qatın artıq reallaşmış ideyalarıdır. Burada bir neçə əhəmiyyətli məqam var. Əvvəla, belə məlum olur ki, o, ayrı-ayrı ağıllar tərəfindən idarə olunur və müasirliyə uyğunlaşmaq məhz həmin idarəçiliyə tabe olmaq deməkdir. Buraya dəb, sosial şəbəkələrdə yayılan sensasiyalar, reklamlar və s. aiddir. Yəni buraya ilk növbədə standart ağıllarda xaos yaradıb, onları idarə edən ideyalar aiddir. Məsələn, Əbu Turxanın dediyinə görə, "müasirlik mənəviyyatın zamana uyğunlaşmış, amma hələ zamanın sınağından çıxmamış üst qatıdır".[1] Təsadüfi deyil ki, bu gün müasir deyəndə, daha çox Qərb dəyərləri nəzərdə tutulur, çünki bu, məqsədyönlü şəkildə yaradılan gerçəklik budur. Elmi inkişafına, təhsilinə görə Qərbdən nəinki arxada qalmayan, hətta onu arxada qoyan bir sıra Şərq ölkələrinin (Yaponiya, Cənubi Koreya) adı isə bu gerçəklikdə çəkilmir. İkinci əhəmiyyətli məqam üst qatın fəallarının əksər hallarda alt qatdan xəbərsiz olmaqlarıdır. Onlar sadəcə işçi qüvvədir. Günün aktuallığı – gerçəklik dəyişdikcə həmin qüvvələr də ya dəyişir, ya da başqaları ilə əvəz

[1] Xəlilov S. *Mənəviyyat fəlsəfəsi*. Bakı, «Azərbaycan Universiteti», 2007, s. 236.

edilir. Şahmatda qambit debütü kimi: müəyyən fiqur qurban verilir ki, üstünlük əldə edilsin, az əvvəl piyada olan vəzir, özünü əhəmiyyətli bilən biri isə qurbana çevrilir. Maraqlıdır ki, bu zaman qurban verilən fiqur şahdan başqa istənilən biri ola bilir. Onu da əlavə edək ki, ilk baxışda gerçəklik sürətlə dəyişir, lakin onu da nəzərə almaq lazımdır ki, bu, bəzən alt qatdakı ideyanın dəyişməyən mahiyyətinin fərqli təzahürləri olur. Nəhayət, üçüncü əhəmiyyətli məqam üst qatın güclü olmasıdır. Çünki bir tərəfdən, alt qatdan düşünülmüş bir sxem üzrə inkişaf edir, digər tərəfdən, yayılma arealı standart ağıllar – cəmiyyətin əksər hissəsidir.

Ağıl səviyyəsi qalxdıqca, onun gerçəkliyin təsirinə düşməmək gücü də artır. Belə ağıllar öz gerçəkliyini, mühitini qurmağa çalışır. Onların gerçəkliyi böyük radiusda yayılmasa da, hətta birmənalı qarşılanmasa da, öz sahibini xaosda əriməkdən qoruyur. Nəticədə ziddiyyət yaranır. Bir şəxsin gerçəkliyi ümumi gerçəkliyə təhlükə yaradanda, onunla mübarizə aparırlar, ümumi standarta, çərçivəyə salmağa çalışırlar. Düşüncə tarixinə baxanda, belə məlum olur ki, o da öz başlanğıcını obyektiv həqiqətdən götürmüş bir ideyadan doğulan gerçəklikdir. Mövcud gerçəklikdən zəif görünsə də, onun çərçivəsindən kənara çıxır. Yəni hər hansı elmi kəşf, nə qədər qeyri-adi olsa da, məhz mövcud gerçəklikdən doğulur, hər ixtira məhz öz zamanında baş verir. Sual yarana bilər ki, öz dövründə, cəmiyyətində təqibə məruz qalan, edam edilən bəzi alimlərin, filosofların ideyaları, elmi kəşfləri hansı gerçəkliyin inikası idi? Birmənalı şəkildə, öz gerçəkliklərinin. Məsələn, Nikola Teslanın gündəliyindən belə məlum olur ki, universitetdə, sonralar isə cəmiyyətdə heç cür gerçəkliklə ayaqlaşa bilməyən alim öz dünyasını yaradıb və ömrünün sonuna qədər belə yaşayıb. Biz məqsədli şəkildə cəmiyyət sözünü az işlədirik və gerçəklik sözü üzərində dayanırıq. Çünki bəzən cəmiyyət özü də gerçəkliyin yalnız üst qatı ilə kifayətlənməli olur.

Beləliklə, daha əvvəl dediyimiz bir həqiqət təkrar təsdiqləndi: ağıl şüurun gerçəkliklə təmas məqamıdır, ona görə də, daxildən şüurun, xaricdən ətraf mühit, gerçəkliyin təsiri altında olur. Hansı tərəf daha güclü olursa, ağıl da onun idarəsində olur.

### *§ 143. Ağıl və təcrübə formaları*

Şüurun gerçəkliklə hər təması təcrübədir. Şüurun səviyyəsindən asılı olaraq təcrübə də fərqli olur: həyat təcrübəsi/gündəlik həyat, elmi təcrübə/eksperimentlər, ruhani təcrübə/meditasiyalar. Müvafiq olaraq, qazanılan biliklər də müxtəlif olur. Onlardan hansının rasionallaşıb ağla ötürülməsi, hansının isə qaranlıq yaddaşa çökməsi, yaxud təhlil sırasını gözləməsi hər şeydən əvvəl şüurun səviyyəsindən asılı olsa da, ağlın da burada rolu böyükdür. Bəzən bu rol o qədər əhəmiyyətli olur ki, təcrübəni də ağlın yaşaması kimi qəbul edirlər. Təcrübələr müəyyən mənada həm ağlın səviyyələri, həm növləri ilə əlaqəlidir. Düşüncə tarixindən belə məlum olur ki, bir insan hər üçünü də yaşaya bilər, ikisini, yaxud birini də. Bu asılıdır şüurun intensionallığının gücündən və ilk ideyasının mahiyyətindən. Sufi təriqətində bilik qazanmaq maddi dünyadan başlayan və tədricən batini dünyaya keçir: təcrübələr bir-birini əvəz edir və insan şüuru buna hazırlanır. Dekart isə ağlın yalnız müəyyən mərhələyə qədər irəliləyə biləcəyini inanır və bildirir ki, insan "hər dəfə ağlını hər hansı bir şeyin dərkinə yönəldəndə o, ya bütünlüklə həmin idrakı əldə edir, ya da qəti şəkildə öyrənir ki, o, onun hökmündə olmayan hər hansı bir təcrübədən asılıdır, ona görə də ağlını günahlandırmayacaq, bu mərhələdə dayanmalı olsa belə. Yaxud nəhayət sübut edəcək ki, axtarılan şey insan ağlının bütün bacarıqları fövqündədir və beləliklə, sonradan özünü biliksiz hesab etməyəcək, çünki bunu bilməyin özü də başqa bir şeyi bilməkdən heç də az olmadan bilik hesab edilir".[1] Dekartın sözlərində bir neçə əhəmiyyətli məqama sufi fenomenoloji prizmadan baxaq. Əvvəla, belə məlum olur ki, müəyyən bir şeyin dərki zamanı ağıl aciz qalır və fərqli yanaşmaya ehtiyac yaranır. Onun növbəti mərhələyə – təcrübəyə başlaması üçün bir tərəfdən, oradan sonra da həqiqətin varlığına inanması, digər tərəfdən, ona uyğun metoda sahib olması lazımdır. İkincisi, Dekart insanın öz ağlını yönəltməyindən yazsa da, bunu

---

[1] Декарт. Рассуждение о методе, с. 105.

necə etdiyini tam izah etmir: yönəldilən nədir? Yönəltmə aktı necə baş verir? Sufi fenomenologiyada yönəldilən işıqdır, intensiyadır. Yönəldən iradədir, yəni həmin işığa göstərilən təkan. Bütün bu proseslərin, aktların mənbəyi və ya məkanı isə şüurdur. Düzdür, növbəti qaydaların birində Dekart bildirir ki, "bizim şeyləri dərk etmək üçün istifadə etdiyimiz güc saf ruhani (mənəvi)dir və qan sümükdən, yaxud əl gözdən olduğu kimi, o da bədəndən bütünlüklə fərqlənir".[1] Filosofun bildirdiyinə görə, hisslərə, yaddaşa, təxəyyülə bilik ötürən də məhz həmin qüvvədir. Bu qüvvə həm də "görmə", "lamisə" və s.-lə eynidir. O, funksiyasına müvafiq olaraq "ya saf ağıl, ya təxəyyül, ya yaddaş və s. adlanır".[2] Başqa sözlə desək, Dekart vəziyyətə, idrak anına uyğun olaraq dəyişə bilən və hər vasitə ilə bilik ala bilən qüvvənin varlığını qəbul edir, onun maddi bədəndən fərqləndiyini də qeyd edir, lakin onun ilahi aləmə keçid edə biləcəyini bildirmir. Çünki yalnız bədənə malik şeylər idrak oluna bilər.[3] Əslində, filosof özü də etiraf edir ki, "insan ağlının fövqündə olan biliklər" onun "hökmündə olmayan bir təcrübə" ilə qazanıla bilər. Nəhayət, Dekart müəyyən bir mərhələdən sonra təcrübəyə ehtiyac yarandığını qeyd edir. Eyni münasibət sufizmdə də var. Xüsusilə vurğulayaq ki, söhbət hər hansı metoddan deyil, məhz təcrübədən gedir. Sufi fenomenologiyaya görə, şüurun obyektə yönəldiyi ilk an təcrübənin başlanğıcıdır. Bunun hansı təcrübə olması isə insanın bilik və mövqeyindən asılıdır. Qeyd etdiyimiz kimi üç təcrübə növü var.

Həyat təcrübəsi hər insanın doğulandan ölənə kimi mütləq keçdiyi, şüurun ən çox yaşadığı və davamlı şəkildə bilik qazandığı təcrübədir. Yaddaş, şüuraltı əsasən bu təcrübə zamanı biliklə dolur. Ağlın ümumi növü və standart səviyyəsi bu zaman formalaşır. Üstəlik nəzərə almaq lazımdır ki, məhz həyat təcrübəsi gerçəkliyə daha yaxın və adekvatdır. Heizenberq yazır: "Müasir fizikanın inkişafı və təhlili ona gətirir ki, gündəlik təcrübənin anlayışları, nə qədər dəqiq olmasalar da, görünür,

---

[1] Yenə orada, s. 116.
[2] Yenə orada, s. 116-117.
[3] Yenə orada, s. 119.

bizim biliklərimizin genişləndirilməsində çox məhdud bir hadisələr qrupunun ideallaşdırılması kimi yaranan elmi dilin dəqiq anlayışlarından daha sabitdirlər".[1] Gerçəkliyə münasibətindən, yaşından, savadından asılı olmadan insan bu təcrübəni yaşayır və bilik qazanır. Çox vaxt gündəlik rutin həyat adlandırdığımız həyat təcrübəsi əsasən gerçəkliyin üst qatını öyrənir, çünki daha dərin qata enmək artıq başqa təcrübə və başqa ağıl səviyyəsi tələb edir. Bununla belə, həyat təcrübəsi çox sürətlə dəyişən, eyni zamanda, rəngarəng olan gerçəklikdə öz yerini tapmağa kömək edir. Bu, müasir dövrlə, cəmiyyətlə ayaqlaşmaqdır. Həyat təcrübəsində qavranılan ümumi biliklər insana sıradan bir vətəndaş, hər kəsdən biri olmağı öyrədir. Bu səbəbdən həyat təcrübəsinə həm də tədris prosesinin bütün mərhələlərini əlavə etmək lazımdır. Ağlın sabit mahiyyəti məhz bu zaman formalaşmağa başlayır: milli və mənəvi dəyərləri tanıyır, cəmiyyətin əsas tələblərini və prioritetlərini mənimsəyir, ən vacibi isə gələcək inkişaf yolunu müəyyənləşdirir. Başqa sözlə desək həyat təcrübəsi insanın və şəxsiyyətin formalaşmasında ən əhəmiyyətli mərhələlərindən biri və qaçılmazıdır. Əlbəttə, həyatın sonrakı mərhələlərində bu təcrübədə qazanılanlara ciddi əlavələr, düzəlişlər edilir, bununla belə, həm şüurun daxili radiusunun müəyyən edilməsində, həm də ağlın formalaşmasında çox ciddi rola və təsirə malikdir. Maraqlıdır ki, həyat təcrübəsi digər təcrübələrlə qarşılaşdırılanda hər nə qədər zəif, əsaslandırılmamış görünsə də, onlardan daha güclü, daha uzunömürlüdür. Alim mövqeyindən çıxış edərək Heizenberq bildirir ki, "...Müasir fizikanın kəşfləri əsasında etiraf etmək lazımdır ki, bizim tanrı, insan ruhu, həyat kimi anlayışlar haqqında mövqeyimiz XIX əsrin mövqeyindən fərqlənməlidir, çünki bu anlayışlar məhz təbii dilə aiddirlər və buna görə də bilavasitə reallıqla əlaqəlidirlər... Hər halda biz bu anlayışları olduğu kimi, təhlil etmədən və sərt tərif vermədən götürməliyik. Biz bilirik ki, onlar reallığa aiddirlər.[2] Bununla fizik iki prinsipial məsələni vurğulamış olur: a) reallığın, həqiqətin dərkində digər təcrübələr həyat təcrübəsi

[1] Гейзенберг. Физика и философия, с. 126.
[2] Yenə orada.

ilə həm təftiş edilə, həm də tamamlana bilər; b) həqiqətin yalnız dar çərçivədə qalmayıb ümumi həqiqətə çevrilməsi üçün o, həyat təcrübəsinə ötürülməli, yaxud onun çərçivəsinə salınmalıdır. Nəzərə alsaq ki, digər təcrübələr də onun üzərində üzərindən başlayır, deməli, təsdiqlənməsi üçün də ora qayıtmalıdır.

Dediklərimizdə bir neçə məqama xüsusi diqqət yetirək. Əvvəla, həyat təcrübəsi rasionalı şüurun formalaşması mərhələsidir və o, nə qədər zəngin olarsa, bir o qədər digər təcrübələrdə qazanılanlar tez sistemləşdirilər, rasionallaşar, ağılda psevdomərkəzlərin sayı azalar. İkincisi, həyat təcrübəsi növbəti təcrübəni müəyyənləşdirən bir mərhələdir. Qısa desək, şəxsin bir dərviş, yoxsa alim olacağı onun həyat təcrübəsindən asılıdır. Nəhayət, həyat təcrübəsi öz dövrü və cəmiyyəti haqqında biliyin qavranmasıdır. Hər nə qədər şəxs tədqiqatlarında obyektiv həqiqəti öyrənsə də, onun həyat təcrübəsi mütləq orada əks olunur.

Həyat təcrübəsindən fərqli olaraq elmi təcrübələr, eksperimentlər ixtisaslaşmış tək ağılların yaşadığı təcrübədir. Kitabxanalarda aparılan elmi araşdırmalardan tutmuş laboratoriyalarda, təcrübə sahələrində aparılan ən müxtəlif miqyaslı eksperimentlərə qədər hamısı, bir tərəfdən, şəxsin öz gerçəkliyini yaratmaq cəhdidir, digər tərəfdən, öz ideyasının obyektiv aləmdə təsdiqini axtarmasıdır. Elmi eksperiment noematik qatda gedən təcrübədir və mövcud insan öz noemasını hazırlamaq üçün öyrəndiyi, nüfuz etdiyi noemalardan öz noemasını hazırlayır. Şüurun irəliləmə prosesi fərziyyələrin, nəzəriyyələrin hazırlanması, müzakirəsi mərhələsidir. Həyat təcrübəsi kimi, burada da ayrı-ayrı ağılların yolları kəsişir. Hansı isə elə fərziyyə mərhələsində yox olur, yaxud dəyişir, digər biri isə davam edir. Heizenberq bunu hər hansı elmi eksperimenti keçirməzdən əvvəl onun effektliyini yoxlamaq üçün alimlər arasında keçirilən "əqli eksperiment" – həqiqəti üzə çıxaran dialoq adlandırır.[1] Bunu intensiyalarını birləşərək obyektiv reallıqdakı işıqlı sahəni böyütmək cəhdi də adlandırmaq olar. Sxem 36-nı xatırlasaq, bu, gerçəkliyin ən dibindəki nöqtədir – obyektiv həqiqətdir. Din və təbiət elmlərini müqa-

[1] Yenə orada, s. 13.

yisə edən Plank öz mühasirəsində deyir: "...Hətta fərqli metodlar istifadə etsələr də (elm əsasən ağıldan, din – imandan), işlərin mənası və inkişafın istiqaməti tamamilə üst-üstə düşür... Din və təbiətşünaslığın bərabər apardığı mübarizənin məqsədyönlü şüarı həmişə belə olub və olacaq – Allaha doğru!"[1] Deyilənlərlə biz bir həqiqəti təsdiqləməyə çalışırıq. Həyat təcrübəsi gerçəkliyin yalnız üst qatında qalıb çoxluq arasında itib-batmaqdır. Elmi eksperiment üst qatdan kökünə doğru hərəkətdir. Onun hansı qata qədər irəliləyə bilməsi isə şüurdan asılıdır.

Ruhani təcrübə haqqında hələ §95-də ayrıca təhlil vermişdik. Adından da göründüyü kimi, yalnız ruha aid olsa da, biz məqsədyönlü şəkildə onu da ağlın təcrübələri sırasına əlavə etmişik. Xatırladaq ki, sufi fenomenologiyanın spesifik cəhətlərindən biri ruhani və əqli təcrübələrinin nəticələri birləşdirməkdir.

Ruhani təcrübə ilk ikisindən fərqlənir və yalnız xüsusi ağıl sahiblərinə məxsusdur. Əvvələ, o, təcrübə həyat təcrübəsi üzərindən başlasa da, yalnız şüurunu ruhu ilə birləşdirməyi bacaran şəxslərə məxsusdur. Necə ki, elmi təcrübəyə müəyyən elmi hazırlıq tələb olunur, eləcə də, ruhani təcrübədə müəyyən mənəvi hazırlıq lazımdır. Bu hazırlığın kökündə təbii ki, iman durur. Yalnız ruhunun ilahi aləmlə əlaqəsinə inanan şəxs onun təcrübəsinə də başlaya bilər. İkincisi, ruhani və elmi eksperimentlər bir-birindən ayrı da ola bilərlər, əksinə, bir-birini tamamlamağı da bacarırlar. Məsələn, düşüncə tarixində belə şəxslər az olmayıb, Plankın da vurğuladığı kimi, "bizim mədəni epoxamızın əvvəlində təbiət elmləri və din eyni əllərdə olub".[2] Yuxarıda da qeyd etdiyimiz kimi, əgər gerçəkliyin məhz obyektiv həqiqət qatından çıxış etsələr, onlar bir-birini yalnız tamamlaya bilər.

Daha əvvəl də qeyd etdiyimiz kimi, ruhani təcrübə zamanı qazanılan irrasional biliklər, əgər rasionallaşmırsa, ya ümumiyyətlə ağla daxil ola bilmir, daxil olduğu halda isə, orada mütləq kənar bir mərkəz yaradır və ağıl normal axarından çıxır. Ortaya məntiqli bir sual çıxır: ru-

[1] Планк М. Религия и естествознание.
[2] Yenə orada.

hani təcrübə zamanı qavranılan biliklər nə dərəcədə gerçəkliklə əlaqəlidir? Qeyd etdiyimiz kimi, hər təcrübə yalnız gerçəkliyə istinad edə bilər, hətta bu, ruhani olsa belə. Buna görə də, ayrı-ayrı əsrlərdə yaşayan sufi mütəfəkkirlərin düşüncələri fərqlidir, yaxud uzaq Şərqdə yaşamış kahinlə xristian mistiki filosofunun görüşləri qətiyyən oxşamır. Onlar eyni həqiqətdən, lakin öz dövrlərinin və şəxsiyyətlərinin spesifikliyini əlavə etməklə yazıblar. Ruhani təcrübə digər təcrübələrdən fərqli olaraq ruhun çatdığı obyektiv həqiqətdən hansısa biliyi qavrayır. Həqiqət təkdir, yol – ruh fərqli. O da gerçəklikdir, sadəcə, şəxsin ilahi aləmdə açılan gerçəklik. Təcrübələri birləşdirə bilən şəxslərin əsərlərində gerçəkliyin həm maddi, həm də ruhani tərəfləri əks olunur. Məsələn, Mikelancelonun əsərlərində həm Mütləq ruhun varlığı hiss olunur, həm də dövrün sənət məktəbinin izlərini. Xüsusilə təkrar edək, söhbət obyektin ruhunu öyrənmək deyil, öz ruhunun çatdığı gerçəklikdən gedir.

### *§ 144. Yaddaş və gerçəklik*

Şüurun ən güclü korrelyatı olan yaddaş gerçəkliklə ilk təmasdan qavranılan biliklərin arxividir. Qaranlıq yaddaş altşüur, normal yaddaş isə rasional şüur vasitəsilə təcrübələr əsasında zənginləşir. Ağlın formalaşması, yəni şüurun ilk özünütəhlilində yaddaşın da rolu böyükdür, çünki bilik toplanmasa, axıb getsə, ondan istifadə də mümkün olmaz. Bu, həm də yaddaşın daim inkişafda olması, təzələnməsi, dəyişməsi deməkdir. Şüurun, ağlın inkişafı ilə qavranılan biliklərin mahiyyəti də dəyişir və bu, öz növbəsində yaddaşda "rekonstruksiya" işləri aparır.

Yaddaş müəyyən mənada subyektiv gerçəklikdir. Onun nə dərəcədə obyektiv gerçəkliklə üst-üstə düşməsindən asılı olmadan, şüur və ağıl ilk növbədə bu gerçəkliyə istinad etməli olur. Şüurun inkişafı ilə onun da obyektiv gerçəkliyə yaxınlığı artır və bu, ağlın fəaliyyətində əks olunur.

Ağlın formalaşması ilə yaddaşın funksiyası da dəyişir. Əgər əvvəlcə yalnız bilik toplanan bir arxiv idisə, indi həm də həmin biliklərin ilk təhlil, təftiş məkanı, eyni zamanda, özünüifadə üçün bir plasdarma çevrilir: yaddaş nə qədər zəngin olursa, özünüifadə bir o qədər rahat və

aydın olur. Yəni şüurun korrelyatı olaraq o, həm də ağla xidmət edir. Bu mənada yaddaşı ağlın fəaliyyət sahəsinin sərhəddi də hesab etmək olar. Xüsusilə dəqiqləşdirək ki, yaddaş ağlın göstəricisi deyil, yalnız onun sərhədidir. Nəzərə alsaq ki, bəzi ağıllar gerçəkliyə təsir göstərə, hətta onun formalaşmasında rol oynaya bilirlər, o zaman həmin gerçəkliyin də hansı isə bir subyektiv yaddaş çərçivəsində olduğunu təsəvvür etmək çətin deyil. Yeni biliklərlə zənginləşməyən yaddaş tədricən möhkəmlənir və idollaşır. §29-da idollar haqqında geniş məlumat vermişik. Burada isə onu əlavə edək ki, idollar hansı isə bir subyektiv gerçəkliyin çərçivəsidir ki, başqalarına da onu obyektiv reallıq kimi qəbul etdirirlər. Bu, standart ağıllar arasında keçərli olsa da, ixtisaslaşmış, yaxud xüsusi ağıllar üçün ciddi maneədir. Məhz geniş yayıldığına görə, bəzən belə idollaşmış yaddaşların qərarlarını cəmiyyətə milli mentalitet, adət-ənənə kimi qələmə verirlər.

Gerçəklik dəyişkəndir. Bir tərəfdən, şüur inkişaf etdikcə, insanın dünyaya baxışı, dəyərləri, digər tərəfdən, obyektiv dünya özlüyündə dəyişir. Bu baxımdan, yenilik, gerçəkliyə yeni baxış deyəndə, heç də həmişə yeni elmi kəşflər, ixtiraları nəzərdə tutmuruq. Bu, məhz hərfi mənada obyektiv gerçəkliyin – başqa ağılların da var olduğu dünyanın görülməsi, tanınması və öz dünyanla müqayisə etmək imkanıdır. Bu, şüurun, daha sonra isə ağlın normal inkişafı və çalışmasıdır. Burada əhəmiyyətli bir məqam var: idol – məhdudiyyətdir. Onu standart səviyyədən qalxmaq istəməyən, bunu son hədd hesab edən ağıl özü də yarada bilər və bu zaman şüurun qavradığı digər həqiqətləri ümumiyyətlə qəbul etməz. Eyni zamanda, bu məhdudiyyət daha nüfuzlu bir ağıl tərəfindən cəmiyyətə tətbiq edilə bilər. Bu zaman ayrı-ayrı şüurlar inkişaf etməyə davam edir, onu açıq ifadə etməsə də.

Ağıl və yaddaşın təsiri qarşılıqlıdır. Təcrübədən asılı olaraq qavranılan biliklərin xarakteri dəyişdikcə, yaddaş da o istiqamətdə inkişaf etməyə, formalaşmağa başlayır. Bəzən bu, ağılda yaranan yeni bir mərkəzlə də əlaqəli ola bilir, ağlın bir növdən başqasına keçməsi ilə də. Məsələn, bir həkim fərqli xalqların mədəniyyətlərinə maraq göstərir, onları

əvvəlcə bir hobbi olaraq öyrənməklə məşğul olur, yeni məlumatlar toplayır, səyahətlər edir. Onun yeni bilikləri əvvəlki ixtisasına heç bir təsir etmir, yaddaş təzələnsə də, həmin xətt durğun qalır, əvəzində tamamilə yeni bir xətt inkişaf edir. Onu da dəqiqləşdirmək lazımdır ki, yeni biliklər xaotik, pərakəndə olarsa, heç bir yeni inkişafdan söz gedə bilməz. Ağıl yenə standart səviyyədə qalacaq. İnkişaf bir sahə üzrə davamlı biliklərin qazanılması və sistemləşdirilməsidir. Sistemləşmə üçün isə yaddaşın formalaşması əsas şərtdir. Yaddaşda hansı biliklər üstünlük təşkil edirsə, ağılda da həmin istiqamət ağırlıq təşkil edir. Bu, artıq yaddaşın təsiridir. Nəticədə dünən həkim olan, bu gün artıq mədəniyyətşünas, tarixçi, bloqqer, jurnalist və s. kimi özünü ifadə etməyə başlayacaq, hətta mütəxəssis olmaq üçün təhsil almaq istəyəcək. Belə məlum olur ki, yaddaş ağılda psevdomərkəz yarada, böyüməsinə imkan yarada da bilər, əksinə, onun yox olmasına, əsas mərkəzə qarışmasına da kömək edər.

Yaddaş qlobal mənada götürüləndə ümumiləşmiş biliklərin fondudur. Başqa sözlə desək, gerçəkliyin bütün qatları haqqında bilikləri özündə ehtiva edir. Bu mənada yazılan kitablar, yaradılan əsərlər, hətta hələ təsdiq olunmamış bir fərziyyə də yaddaşda yerləşir. Necə ki, insan öz fəaliyyəti, düşüncələri zamanı öz yaddaşına müraciət edir, eləcə də gerçəkliyi öyrənmək istəyən şəxs ümumiləşmiş biliklərə – yaddaşa üz tutur. Öz ağlının səviyyəsinə görə, kimsə yaddaşın tez-tez dəyişən üst qatından nə isə anlamaqla kifayətlənir, bir başqası isə onun dərin qatlarına nüfuz etməyə can atır. Yəni qlobal yaddaş hər insanın şüur və ağlı üçün korrelyatdır, eyni zamanda, bəzi insanlar həmin yaddaşı zənginləşdirməyi bacarırlar.

Tarix yaddaşa çökmüş keçmiş gerçəklikdir. Hər insan, hər şəxs öz gerçəkliyinin inikasıdır. Bu səbəbdən təhlil, araşdırma zamanı onun gerçəkliyini öyrənmək xüsusilə əhəmiyyətlidir. Yaddaşa müraciət hazırkı gerçəkliyin təsdiqi, yaxud onun qurulması üçün əsas rol oynayır. Əlbəttə, mütləq vurğulanmalıdır ki, müraciətin kökündə ilk növbədə hazırkı gerçəklik durur və ondan çıxış edərək yaddaşda təsdiq, dəstək axtarılır. Məsələn, Fromm yazır: “Qərbin birinci dünya müharibəsindən

başlayan, Hitler və Stalindən, Koventri və Xirosimadan keçib, hazırkı ümumi məhvə hazırlığa gətirən mənəvi iflası təsir göstərdi ki, insan yenidən güclü şəkildə eybəcərə meylləndi”.[1] Fromm bu eybəcərliklər sırasında inşanın şər törətməyə meylli olmasına və inamlı insanların gülüş hədəfinə çevrilməsini, onların düşüncələrinin bilərəkdən təhrif olunmasına diqqət yönəldir. Nəzərə almaq lazımdır ki, gerçəklik bütün qatları ilə yaddaşa çökür – ziddiyyətləri, dəyişkənlikləri, obyektiv həqiqətləri və s.lə. Buna görə də, orada eybəcərliyin, yaxud gözəlliyin axtarılması yenə bugünün gerçəkliyindən irəli gələn tələbdir. Məsələn, Frommun dediyi həmin keçmişdə gözəlliklər, yüksək hisslər tərənnüm edən şairlər, filosoflar da olub axı. Amerikan şairi Ezra Paund 1913-cü ildə Nobel mükafatı alan Rabindranath Taqora məhz “Qərb həyatının xaosu içərisində unudulan müdrik həqiqətləri bir daha xatırlatdığına görə” xüsusilə böyük dəyər verir. İstər fərdi, istərsə də bəşəri yaddaş sadəcə bilik arxividir, hər kəs öz gerçəkliyinə uyğun oradan nə isə tapır, anlayır, xatırlayır.

Bir var qlobal, ümumbəşəri yaddaş, bir var onun bir hissəsi olan millətin, xalqın yaddaşı, bir də var onun bir zərrəsi olan fərdin yaddaşı. Maraqlıdır ki, hər millət qlobal yaddaşda yer ala bilmir. Tədqiqatçıların fikrinə görə, hər xalqın eposu olmur. Qəhrəmanların şəninə nəğmələr qoşulsa da, nağıllar, dastanlar söylənsə də, bu, hər zaman epos səviyyəsinə qədər qalxmağı, daha dəqiq desək, ümumbəşəri yaddaşa çökə bilməyib. Məsələn, Boura belə hesab edir ki, qədim çinlilərin və qədim yəhudilərin eposu olmayıb.[2] Əvəzində, elə xalqlar var ki, eposları ümumbəşəri irs hesab olunur. Məsələn, məlumata görə, 1977-ci ildə NASA Voyager 1 (20 Avqust) və 2 (5 Sentyabr) peykləri ilə “Yerin səsləri” (Music from Earth) adlı 90 dəqiqəlik bu topluda 55 fərqli dildə salamlama, 118 fotoşəkil və dünyanın 27 ən gözəl musiqi parçaları kosmosa yollanır – bəşəriyyətin hazırkı gerçəkliyinin göstəriciləri olaraq. Bu

---

[1] Фромм Э. *Душа человека*, М., Республика, 1992 s. 18.

[2] Боура С.М. *Героическая поэзия*. Пер. с анг. Н.П. Гринцева, И.В. Ершовой. М., Новое лит. обозрение, 2002, с. 22.

sırada Bethovenin, Motsartın, Stravinskinin əsərləri, Yapon, Çin, Avstraliya, Azərbaycan xalqlarının musiqiləri və neçə orijinal melodiyalar olur.[1] Bu, həm hələ tanınmayan yadplanetlilərə bir məlumat vermək idi, həm də gələcək nəsillərə. Ümumbəşəri yaddaş hər gerçəkliyin müraciət edə biləcəyi obyektiv həqiqət qatındadır.

Hər xalqın öz gerçəkliyi olduğu kimi, yaddaşı da yalnız özü tərəfindən formalaşdırıla bilər. Başqasının yaddaşı ilə hərəkət edən ağıl necə iradəsini, orijinallığını itirirsə, eləcə də xalq yox ola bilər. Bir daha xatırladaq ki, yaddaşa müraciət bugünkü gerçəkliyi təsdiqləmək üçündür. Əgər təsdiqləməyə bu gün yoxdursa, dünəndə nə isə axtarmağın xeyri yoxdur, deməli, sabaha da saxlamağa bir şey olmayacaq. Burada Səlahəddin Xəlilovun kəsilməz tarix prinsipi yada düşür: "Cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir". Məsələn, uzun illər ingilislərin istismarında olan Hindistanın ziyalıları, mütəfəkkirləri məhz xalqın öz yaddaşından məhrum olacağından qorxurdu. Rabindranath Taqor yazır: "Britaniya təhsil idarələrinin rəsmi kanalları ilə bizim uşaqların başına ingilis ədəbiyyatı deyil, onun tör-töküntüsü yeridildi, bu da onlarda öz mədəniyyətlərinə olan məhəbbəti məhv elədi".[2] Gerçəklik çoxqatlıdır və yanlış addım atmaq, öz yaddaşını qoyub, başqasının rəngarəng yaddaşına meyllənmək özünüməhvdir. Buna görə də, Mahatma Gandhi ehtiyat edir ki, "Qərbdən bizim ölkəmizə insan zəifliklərini xoş görən viruslara tutulmuş ədəbiyyat seli gəlib. O bizə çox cazibəli şəkildə təqdim olunur, ona görə də bizim gənclik heç vaxt olmadığı qədər ehtiyatlı olmalıdır. Bizim əsrimiz dəyişən ideallar və ağır sınaqlar əsridir".[3] Beləliklə, yaddaş və gerçəklik bir inkişaf yolunun iki fərqli mərhələsidir – dünəni və bugünü. Bunlar arasında əlaqəni yaradan isə ağıldır.

---

[1] Music From Earth // http://voyager.jpl.nasa.gov/spacecraft/music.html

[2] Тагор Рабиндранат. "Открытое письмо в редакцию "Калькутта мьюнисипал газетт"" *Открытие Индии. Философские и эстетические воззрения в Индии XX в.*; М., Худож. Лит., 1987, с. 336.

[3] Ганди Махатма. "Все люди – братья". *Открытие Индии. Философские и эстетические воззрения в Индии XX в.*; М., Худож. Лит., 1987, s. 258.

## § 145. *Ehtimal və yəqinlik*

Qavradığı bilik tam olmayanda şüur onu yaddaşdan aldığı məlumatlarla tamamlamağa cəhd edir. Həmin şey nə qədər çox məlumdursa, bir o qədər sürətlə tamamlanır. Əksinə, məlum olmayan bir şeydirsə, fərqli variantlar çıxır, təhlillər gedir, ehtimallar yaranır. Başqa sözlə desək, ehtimal obyektin şüurda yaranan ilk mənzərəsinin çatışmayan hissələrinin tamamlamaq arzusudur və bu, həm məqsədyönlü şəkildə baş verir, həm də mexaniki olaraq. İnsan gün ərzində çox şeylə qarşılaşır və çox informasiya alır, ancaq bu hiss həmişə yaranmır. Yanından keçən avtobusu görür, ancaq onun neçə sərnişinlər tutmasını, hazırda içəridə neçə nəfər oturduğunu düşünmür. O, avtobusu görür və diqqətini başqa şeyə, məsələn, yol kənarındakı gülə ötürür. Bir neçə saniyə ərzində o gülün ətri, növü, gözəlliyi, başqa harada gözəl görünməsi, hətta hansısa yarpağının saralmasının səbəbi haqqında düşüncələr bir-birini əvəz edir. Ehtimal məhz diqqətin dayanması, çatmayan detalları "görməsidir" və əlavə etmək cəhdidir. Yeri gəlmişkən, onu da əlavə edək ki, məhz yaddaşa istinad etdiyinə görə, şüur yanıla da bilir. Məsələn, otağın bir tərəfində masanın üç ayağını görüb onun dördüncü ayağının olduğunu ehtimal etsə də, o masa ümumiyyətlə üçayaqlı da ola bilər. Avtobus, masa, yol kənarındakı gül gündəlik həyat təcrübəsindən nümunələrdir. Deməli, ehtimal yalnız diqqətin fokuslandığı obyektlə bağlı yaranır. Bu obyekt gündəlik həyatda da rast oluna bilər, digər təcrübələrdə də və hər təcrübə özünə uyğun biliklərdən istifadə etməklə obyekti tamamlamağa cəhd edir.

Təcrübədən asılı olaraq ehtimallar da fərqli olur və təbii ki, hər biri öz metodundan istifadə edir. Müvafiq olaraq, diqqətin fokuslandığı obyekt gündəlik həyatdan da ola bilir, şeylərin noematik qatından da. Yaddaş ehtimalın ilk həddidir. Oradakı biliklər kifayət etməyəndə şüur yaddaşdan kənara – yeni biliklərə müraciət etməli olur. Nümunə kimi, almanın düşməyini görən Nyutonu və insan əzabını, ölümünü görən Buddanı göstərmək olar. Əvvəlki təhlillərimizə istinadən desək, ehtimal

aktivləşmiş ilk ideyanın tamamlanması üçün şüurun axtardığı yollardır. Ehtimal subyektiv hissdir və eyni obyekt fərqli peşə sahiblərində fərqli assosiasiya yarada bilər. Məsələn, kağız üzərindəki qara nöqtə dilçidə, rəssamda, fizikdə və mistikdə tamamilə başqa-başqa ehtimalların yaranmasına səbəb olar. Biri onun cümlənin sonunda qoyulan durğu işarəsi, o biri hansı isə rəsmin detalı, üçüncü onun qara dəlik, sonuncu isə ümumiyyətlə özündə makrokosmu ehtiva edən mikrokosm olduğunu təsəvvür edib onu tamamlamaq üçün ehtimallar irəli sürər. Bəsit bilik resursu nadir halda ehtimala imkan yaradır. Eyni zamanda, obyekt nə qədər az tanınırsa, ehtimallar bir o qədər çox olur. Maraqlı bir paradoks yaranır: kifayət qədər güclü şüur obyekti tam işıqlandıra bilmədiyinə görə, öz potensialından istifadə edərək onu tamamlamağa, qəti qərar verməyə çalışır. Bunun üçün o, bütün bildiklərini, bilmək imkanlarını, bacarıqlarını səfərbər edir, uyğun vasitələri sınayır və bu ehtimal qəti qənaətlə əvəzlənənə qədər davam edir. Yəni ehtimal artıq müəyyən hazırlıqlı şüura xasdır. Lakin burada fərqli bir mənzərə çıxır ortaya: subyektiv yanaşma ilə obyektiv həqiqətin uyğunluğu. Məsələn, məşhur Miloslu Venera heykəlinin qolları haqqında bir çox ehtimallar irəli sürülüb, hətta bəzisi reallaşıb, ancaq heykəlin özünə uyğun gəlmədiyinə görə, təkrar götürülüb. Ehtimal da belədir: şüur mövcud şeyin təbii quruluşuna kifayət qədər nüfuz etməyi bacarmalıdır ki, onun çatmayan hissələrini bərpa edə bilsin. Yəni son qərar şüurda deyil, obyektiv reallığın özündədir. Məhz buna görə də, heç də bütün ehtimallar qənaətlə, yəqinliklə nəticələnmir. Bəzən bir ehtimaldan başqa ehtimallar doğulur və illərlə davam edə bilir. Obyektiv həqiqət nə qədər mürəkkəb olursa, bir o qədər ehtimalların da sayı çox olur. Xüsusilə qeyd edək ki, noematik qatda bu ehtimalların sayı daha da artır. Buna nümunə kimi kvant fizikasını, yaxud qalaktikalar haqqında nəzəriyyələri göstərmək olar. Burada yalnız ayrı-ayrı mərhələlər qənaətlər, müəyyən teoremlər, fərziyyələrlə nəticələnir. Elə ehtimallar var ki, bir nəfərin deyil, bir nəsil alimin prioritet məsələsinə çevrilir, qüvvələr – intensiyalar birləşdirilir. Biliyin fraqmentarlığını xatırlasaq, belə qənaətə gələ bilərik ki, ehtimal məhz fraqment halında

qazanılan bilikdən yaranır və şüur tam mənzərəni görmək, dərk etmək istəyir.

Ehtimal şübhə deyil. Hər nə qədər aralarında müəyyən oxşarlıq olsa da, aralarında əsaslı fərqlər var. §57-də şübhədən danışanda qeyd etdiyimiz kimi, o, intensiyanın dağılması, qeyri-sabitliyidir və səbəb biliyin azlığıdır. Ehtimal isə, əksinə, intensiyanın bir obyekt ətrafında cəmləşməsidir və zaman fərqli biliklərin uyğunluq dərəcəsinin axtarılmasıdır. Hər ikisi axtarışdır, lakin birində şüur düzgün obyekt axtarır, digərində obyektə düzgün yanaşmanı. Şübhə ayrı-ayrı obyektlər arasında seçim etməkdirsə, ehtimal eyni istiqamətdə davamlı irəliləmədir.

Yəqinlik və ehtimalı bir medalın iki üzü adlandırmaq olar. Xatırladaq ki, sufizm kimi, sufi fenomenologiyada da idrak prosesi üç mərhələdən – yəqinin (həqiqətin) bilinməsi, görülməsi və Haqqı. Sufizmdə "yəqinlik bütün halların əslidir və bütün hallar onda bitər. O, halların sonudur və batinidir. Bütün hallar yəqinliyin zahiridir. Yəqinliyin sonu isə hər bir şəkk və şübhənin izahı ilə qeybin təsdiqi və isbatıdır. Yəqinin sonu səbəb və maneələri ortadan qaldırmaqla yəqinin həqiqətlərinin müşahidəsindən qəlblərin sevinməsi, minacatın şirinliyi, Allaha nəzərin saflığıdır".[1] Burada bir neçə əhəmiyyətli məqama xüsusilə diqqət yetirək: yəqinlik a) tək yolda irəliləməkdir; b) şüurun tədricən maddi səviyyədən ilahi qata keçməsidir; c) şüurun tək həqiqətdən başqasından arınması – reduksiyasıdır. Xatırladaq ki, yəqinliyin ilk mərhələsi şüurun müəyyən səviyyəsindən başlayır, daha dəqiq desək, prosesin başlanması üçün rasional şüur hazırlıqlı olmalıdır. Bu səviyyə nə qədər aşağı olarsa, bir o qədər ehtimallar da zəif olar və əldə olunan həqiqət də hisslərin çərçivəsindən o tərəfə keçməz. Yəqinlik bu çərçivədən, konkretlikdən çıxmaq, həqiqətin fərqli – noematik qatına çatmaqdır. Sufi mütəfəkkirlərdən biri deyir: "Əgər mənada yəqinliyə çatsa, ona müşahidə halı vaqe olar. Mənanın həqiqətləri onun üçün açılsa, yaradılmışların sıxıntılarından çıxıb, onlara [Allaha] yaxınlıqla müraciət edər. Bu, həqiqi kəşfdir

[1] Tusi. Lümə, s. 103-104.

və Allah-Təala onlara müşahidə əhli kimi müraciət edər...".[1] Belə məlum olur ki, yəqinlik obyektiv həqiqətin tam məlum olub, ehtimalların sıfırlanmasıdır. Daha vacibi isə, şüur və obyekt arasında maneələrin ortadan qalxıb, ümumi enerji axınının yaranmasıdır.

Ehtimal şüurun yanaşma yollarıdır, yəqinlik obyektiv həqiqətin özüdür. Ehtimal zamanı insan məhz öz biliyini, metodlarını istifadə edir. Məsələn, hər nə qədər Tesla kəşflərini Allahdan aldığını desə də, teoremləri yazan, bilikləri müqayisə edib müəyyən nəticəyə gələn onun özüdür. Allah fizik deyil, ona hazır teorem diktə etmir. O, insanın intensiyasını artırır, düzgün istiqamətə yönəldir və bunun üçün yenə də onun öz potensialından istifadə edir. Az əvvəl də qeyd etdiyimiz kimi, yəqinlik obyektin tam işıqlanması və subyektlə arasında hər hansı maneənin qalmamasıdır. Buradan belə məlum olur ki, ehtimaldan yəqinə aparan ən böyük qüvvə imandır.

Ehtimal şübhənin sakit haldan çıxıb bu həyəcanı ağla da ötürməsidir. Bunun içində maraq, müəyyən qədər şübhə olmaqla yanaşı, mütləq inam da olmalıdır. Əks halda irəliləyə bilməz. Hər nə qədər nəticəni bilməsə də, hətta təsəvvür belə etməsə də, onun olacağına inanır və irəliləyir. Təcrübələrdə bu addım fərqli atılır. Elmi təcrübədə mümkün biliklərin qarşılaşdırılması, müəyyən şərait daxilində eksperimentlərin qoyulması, ruhani təcrübədə isə Yaradana, ilahi iradəyə güvənilməsi inamın təzahürüdür. İnam potensial gücdür və yalnız şüurla bir yerdə reallaşmaq imkanı var. O, insan irəliyə aparmaqla yanaşı, özü də güclənir. İlk baxışda, imanlar fərqli görünür, ancaq deyil. Sual yarana bilər ki, Mütləq qüdrətə itaətlə ağlın axtarışı, hər şeyi təhlil etmək istəyi nə dərəcədə eyni ola bilər? Bir daha vurğulayaq ki, iman şüurun axtarışının işığını artırır, onun susmasını kənardan köməyin gəlməyini gözləmir. Fiziklərin söhbəti zamanı Nils Bor Heizenberqin atom fizikasında tam olmayan determinizmin ilahi müdaxiləyə geniş imkan yaradıb-yaratmaması, burada insan iradəsinin nə dərəcədə azad olması haqqında sualına cavab olaraq onların mütləq üst-üstə düşməsinin zəruriliyini vurğulayır

[1] Yenə orada, s. 104.

və bildirir ki, "söhbət ilahi müdaxilədən düşəndə, belə görünür ki, hadisələrin təbii elmi şərtlənməsi deyil, həmin hadisəni başqaları ilə yaxud insan təfəkkürü ilə bağlayan məna əlaqəsi nəzərdə tutulur. Bu məna əlaqəsi də, təbii elmi şərtlənmədən az olmadan gerçəkliyə aiddir və onu müstəsna şəkildə gerçəkliyin subyektiv tərəfinə aid etmək, əlbəttə, çox kobud bəsitləşdirmə olardı".[1] İlahi müdaxilə və insanın öz iradəsinin, axtarışının birləşməsi intensiyanın güclənməsi deməkdir. Zahirən onun adı nə olursa-olsun, bu, daxili enerjinin vahid istiqamətə yönəlməsidir.

Belə məlum olur ki, ehtimallarının yəqinliyə çevrilməsi təcrübədir və bu zaman şüur gerçəkliyin obyektiv qatına qədər enə bilər. Bununla yanaşı, ehtimallar şüurun obyektiv həqiqətdən ehtiva edəcəyi həcmin çərçivəsidir. Mövcud ehtimallardan yenilərinin doğulması insanı yaddaşının hüdudlarından çıxmağa, noema qatına qədər irəliləməyə imkan verir. Lakin bunların hamısı şüurdan, onun potensialından doğulan ehtimallar olur. Nəticədə obyektiv həqiqət məhz şüurun intensiyasının radiusu qədər işıqlanır. İnsan obyektiv qanunauyğunluğu qorumağa çalışsa da, bu subyektiv çərçivədə təqdim olunan bir obyektivlik olur. Heizenberq yazır: "Ehtimal funksiyası obyektiv və subyektiv elementləri birləşdirir. O ehtimallıq, daha yaxşı desək, tendensiya (Aristotel fəlsəfəsində potensiya) haqqında iddialar ehtiva edir və bu iddialar tamamilə obyektivdir. Onlar heç bir müşahidədən asılı deyil. Bundan başqa, ehtimal funksiyası bizim biliklər sistemimiz haqqında da iddiaları ehtiva edir və bu, subyektiv, belə ki, o, fərqli müşahidəçilərdə fərqli ola bilir. Əlverişli şəraitdə ehtimal funksiyasının subyektiv elementi obyektiv elementlə müqayisədə nəzərə çarpmayacaq qədər kiçik olur və belə olanda "təmiz hadisədən" danışırlar".[2] Noemaya aparan noezalar çoxdur və hər şüur öz ideyasına uyğun olanı seçir. Ehtimallar şüurun özündən uzanan noezalardır. Tamamlanan hər ideya yəqinlikdir. Noemaların mürəkkəbliyini və sonsuzluğunu nəzərə alsaq, həmin yəqinliyin məhz həmin şüura xas olduğunu iddia edə bilərik. Sufi mütəfəkkirlərdən birinin dediyi kimi, "qul

[1] Гейзенберг. Физика и философия, с. 216.
[2] Yenə orada, s. 24.

yəqinliyini təsdiqləyəndə yəqinlik ona vətən olana qədər yəqinlikdən yəqinliyə keçər".[1] Əvvəlki təhlillərimizi xatırlasaq, yəqinliyi idrak çevrəsinin tamamlanması və nurun dalğa halına keçməsi adlandırmaq olar.

## *§ 146. Həqiqət və gerçəklik. İlk və son həqiqət.*

İdrak ilk və son həqiqət arasındakı trayektoriyadır. Xatırladaq ki, çevrə xarakterli bu prosesdə ilk və son nöqtə mütləq birləşməlidir. Bununla yanaşı, onu da vurğulamışdıq ki, son nöqtə ilklə tam eyni olmur, çünki proses boyu dəyişir, tamamlanır, hətta ümumiyyətlə irəliləmədən yarıda da qala bilir. İdrakın "fəaliyyət sahəsi" gerçəklikdir. Gerçəkliyə baxış bucağından asılı olaraq fərqli həqiqətlər açılır. Onun bir neçə qatının varlığını iddia etməklə biz, bir tərəfdən, həm də onun bir neçə həqiqətinin mövcudluq faktını qəbul etmiş oluruq. Onlar bir bütövün hissələri olsalar da, konkret məqamda hətta bir-birinə zidd görünəcək qədər fərqli ola bilirlər. Digər tərəfdən, təcrübə formaları da gerçəkliyə eyni bucaq altında işıq salmır və buna görə də açılan həqiqətlər eyni olmur. Daha əvvəl də qeyd etdiyimiz kimi, həqiqət maddi dünyada, ayrı-ayrı konkret şeylər arasında daha çox parçalanır, nəinki alt qatlarda. Gerçəkliyin nümunəsində bunu görmək daha rahatdır.

Bunlarla yanaşı, o da nəzərə alınmalıdır ki, gerçəklik ümumiləşmiş həqiqətlərdən ibarətdir və burada öz fərqli subyektiv həqiqətinin sərhədini təyin etmək çətindir. Düzdür, hər ağıl obyektiv həqiqətdən özünün ehtiva edə bildiyi qədər ifadə edir və bu, onun öz həqiqəti olur. Lakin, bir daha təkrar edək ki, o, ümumiləşmiş həqiqətlər sırasından olduğuna görə, mütləq onunla hesablaşmalıdır. Buna görə də, kimsə qatığa qara, ayı ikinci günəş adlandıra bilməz. Müəyyən bir həqiqətin bütöv forması məlumdursa, onun bir hissəsi haqqında fərqli (yanlış) qənaəti subyektiv həqiqət kimi qəbul etdirmək mümkün deyil. Öz subyektiv həqiqətini təsdiq etmək üçün məlum çərçivədən kənara çıxmalıdır. Xüsusilə vurğulayaq ki, həmin həqiqət də yalnız özünüreduksiya müddətində subyektiv olur, ümumilə-

[1] Tusi. Lümə, s. 103.

şəndən sonra isə digər obyektiv həqiqətlər sırasına qarışır.

Dediklərimizdə bir vacib məqam üzərində xüsusi dayanaq: gerçəklik bütünlüklə ümumiləşmiş həqiqətdən ibarətdir. Hər idrak sahibi öz (!) ilk həqiqətindən başlayır. Yalnız sonda bəlli olur ki, o nə dərəcədə yeni və bəşəriyyət üçün ilk imiş. Bununla belə, ilk həqiqət mütləq ümumiləşmiş biliklər arasından, gerçəkliyin üst qatından başlayır. Təsadüfi deyil ki, idollar da gerçəkliyin məhz üst qatındadır. Son həqiqət də ilklə birləşib, onun təsdiqləyirsə, deməli, o da gerçəkliyə aid olmalıdır. Əslində, hər hansı bir şüurun oradan yeni bir ideya başlaması da normal və məntiqlidir. Nə qədər paradoksal səslənsə də, xatırladaq ki, birincisi, idrak prosesi zahiri aləmdən, yəni mövcud gerçəklikdən başlayır. İkincisi, şüurda doğulan ilk ideya da insanın öz potensialından doğulur. Deməli, yeni olan məsələyə baxış bucağıdır. Almanın ağacdan düşməyi yeni bir hadisə deyil, amma Nyutonun ona baxışı yeni oldu. Deməli, müəyyən bir şeyi konkret çərçivəsindən kənarda görməyi bacarmaq lazımdır, bu isə fərqli təcrübələrin kompleksidir. Heizenberq yazır: "Həqiqətlə, yaxud xristian dili ilə desək, Allahla bilavasitə əlaqə hiss orqanlarımız tərəfindən qavranılan dünyanın reallığından daha böyük əhəmiyyəti olan yeni reallıqdır. Allahla bilavasitə əlaqə dünyada deyil, insanın könlündə baş verir və bu problem Platondan sonra iki min il ərzində insan düşüncəsini hər hansı başqa bir şeydən daha çox məşğul edib".[1] Heizenberq gerçəkliyin dərki üçün hiss orqanlarının yetərsizliyi və yeni bir idrak bacarığının – ruhun iştirakını, başqa sözlə desək, insanın malik olduğu potensialdan tam istifadənin zəruriliyini xatırladır. Obyektiv reallıq zəngindir, sonsuzdur. İnsan yaradılmış varlıq kimi məhduddur, lakin ruhu və mahiyyətindəki nur vasitəsilə sonsuzluğa çıxışı var. Bunun üçün bütün potensialını səfərbər etməlidir, çünki yalnız bu halda öz həqiqətini tapa bilər. Məsələn, Heizenberq Plankın Allah və xristianlığa güclü meyli haqqında düşüncələrinə belə izah verir: "Mənə elə gəlir ki, Plank üçün din təbiətşünaslıqla əlaqəlidir, çünki, onun fikrinə görə, onlar gerçəkliyin tamamilə ayrı sahələrinə aiddirlər. Təbiətşünaslıq obyektiv

[1] Гейзенберг. Физика и философия, с. 40.

maddi dünya ilə məşğuldur. O, qarşımızda bu obyektiv gerçəklik haqqında düzgün ifadələr formalaşdırmaq və orada olan mövcud əlaqələri anlamaq məsələsini qoyur. Din isə dəyərlər dünyası ilə məşğuldur”.[1] Deməli, söhbət şüur və obyektiv dünya arasında balansın yaradılmasından gedir: şüur nəinki sonsuzluğa keçməyə hazır olmalı, həm də orada qavradığı həqiqəti rasionallaşdırmağı bacarmalıdır. Mövcud ümumiləşmiş biliklər sahəsindən kənara aparan ilk ideya şüurun ilk həqiqəti hesab edilə bilər. Obyektiv reallıqda isə o, ümumi sistemin bir zərrəsidir, nə ilkdir, nə də son. Bu meyarlar yalnız insanın özünə və gələcəkdə, əgər təsdiq olunarsa, ümumiyyətlə bəşəriyyət aiddir.

Əsl həqiqət noema qatındadırsa, deməli, ilk və sonu da orada axtarmağımız doğru olar. İlk həqiqət şüurda doğulur. Hər nə qədər o, gerçəkliyin üst qatından başlasa da, əslində, ilk həqiqət özünüreduksiyanın nəticəsidir. Bəli, Nyuton düşən almanı gördü, lakin daha vacibi, həmin alma alimin müəyyən hesablamalarına, şüurun təhlillərinə təkan verdi. Deməli, ilk həqiqət gerçəkliyin üst yox, ən alt qatında – noemalarda doğulur. Hər ilk həqiqət potensial olaraq yeni bir gerçəkliyin quruluşunu ehtiva edir.

Əgər gerçəkliyin digər qatlarında bir həqiqət digərini görünməz edə bilirsə, noema qatında bu, mümkün deyil və hər şey bütöv şəkildə mövcuddur. Burada bir məsələni xüsusilə vurğulayaq: söhbət məhz gerçəkliyin əsas “ölçü meyarı” olduğu həqiqətdən gedir, yəni rasionallaşmış biliklərin ağılda sistemləşməsindən. Başqa sözlə desək, bu, ruhani təcrübə zamanı qazanılan irrasional biliklərin də rasionallaşması burada mütləq vacibdir. Prosesdə həm yaddaşda olan, yəni artıq rasional şüura bəlli olan və ağılda möhkəmlənən biliklər istifadə olunur, həm də proses boyu qavranılan yeniləri. Şüur nə qədər güclü intensiyaya və özünüreduksiyaya malik olarsa, bir o qədər yeni noemalara nüfuz edə bilər. Bunu bir növ un dəyirmanına bənzətmək olar: şüur bilik-buğda tökür, su-işıq onu hərəkətə gətirir, ağıl-dəyirman daşı üyüdür, un edir. Alt qatdan başlanan proses üst qatla bitir. Şüurun daxilində doğulan ilk həqiqət son

[1] Yenə orada, s. 208.

nəticədə ortaya məhz gerçəkliyin üst qatında məlum olur. Deməli, ilk və son həqiqətin birləşməsi və çevrənin tamamlanması prosesi şüurun daxilində baş verir, gerçəklikdə isə bu, sxem 36-nın altdakı tək nöqtəsindən başlayaraq tam yaradılmasıdır. Yaradılan yeni gerçəklik əvvəlkini özündə ehtiva etməklə yanaşı, həm də ondan daha böyükdür, onun son uc nöqtəsi – son həqiqəti əvvəlki çevrədən kənara çıxmış olur. Məhz bu halda həmin son həqiqət yalnız insan deyil, bəşəriyyət üçün yeni üfüq olur. Başqa sözlə desək, daxildən başlanan bir proses elə əvvəlki sahəni ehtiva etməklə böyüdü. Ağlın sxem 33-dəki sxemini xatırlasaq, indi girdab daha geniş radiusu əhatə edir. Nəhayət, əhəmiyyətli bir məqamı da əlavə edək ki, bir var, şüurun öz həddi – son həqiqəti, bir də var, ümumiləşmiş biliklər üçün son həqiqət. Əgər şüur ümumiləşmiş həqiqət sahəsindən çıxmırsa və onun intensiyası bununla tükənirsə, bu, şüurun son nöqtəsidir, həqiqətin deyil. Əgər, şüur ümumi çərçivədən çıxırsa, yeni bir üfüq təyin edə bilirsə, o zaman həmin həqiqət yenisi təyin olunana qədər son hesab ediləcək.

Son həqiqət – yəqinlikdir. Hər şüurun öz subyektiv yəqinliyi olsa da, obyektiv mənada yəqinliyin sonu yoxdur. Burada hər şey asılıdır şüurun potensialından və intensiyasının gücündən. Noema qatına nüfuz edə bilmiş şüur ümumi nur axınına düşür, deməli, əlavə güc və təkan qazanır. Məhz belə olan halda, şüur heç cür sakitləşmir və hər son həqiqətin ilk həqiqət olduğunu anlayır. Xatırladaq ki, idrak prosesi çevrə xarakterlidir və hər yeni çevrə köhnədən daha geniş radiuslu olmalıdır ki, şüur inkişaf etsin. Yəni hər son nöqtə məntiqli olaraq ilkdən daha böyük, zəngindir və yeni idrak trayektoriyasını potensial olaraq ehtiva edir. Sufizmdə ruhani təcrübənin mərhələləri də bu prinsip əsasında davam edir: hər hal və məqam özündən sonra gələni şərtləndirməlidir. Buna görə də, Mənsur Həllac özünün sonuncu məqamını başlanğıc adlandırır.[1] Yaxud Əbu Yəzid Bistami deyir ki, "Hər dəfə sona çatdığımı zənn edəndə, mənə, bu, hələ işin başıdır deyə səda gəlirdi". Əbu Osman Məğribi isə: "Nə vaxt yolun sonuna çatdımsa, onu yenə yolun başına

---

[1] Həllac, Təvasin, s. 21.

qaytarın ki, cahil qalmasın», – deyirdi. Çünki yaxşılığı istənilən hər kəs, sondan yenə əvvələ qaytarılır ki, onda biliksizlik, aldanmadan əsər-əlamət qalmasın",[1] – deyə bildirir. Bu, idrak prosesinin təkrar xarakterli olması deyil, sonsuz İlahi Həqiqətin hər yeni sikldə yeni qatlarının açılmasıdır. Maraqlıdır ki, eyni fikri həqiqəti bütöv halda öyrənmək üçün məhəmmədilərə müraciət etməyi tövsiyə edən Hegel də deyir və idrakı "əvvəlin son ilə birləşməsi"[2] adlandırır. Burada vacib olan məqam idrak prosesinin qırılmaması, mənəvi, ruhani zəncirin davamlı olması, hər sonun yeni ilkə təkan verməsidir.

Deyilənlərdən belə məlum olur ki, hər insan universal həqiqətin müəyyən hissəsini qavrayandan sonra yerini başqasına verir. Yəni hər insan ilk və sondur olmaqla yanaşı, universal bir axının zərrəsidir. Məsələyə bu prizmadan baxdığına görə, Şopenhauer belə qənaətə gəlir ki, "Ölüm və həyat – özlüyündə nə əvvəli, nə sonu olan və təkbaşına sanki varlığın substansiyası olan iradənin şüurunun daimi yenilənməsidir (lakin hər belə yenilənmə özü ilə həyat iradəsini inkar etmək imkanını da gətirir). Şüur – idrakın subyektinin və ya beyninin həyatıdır, ölüm isə bu subyektin sonudur. Ona görə də, şüur əlbəttə, həmişə yenidir, hər dəfə başdan başlayır".[3] Filosofun sözlərində bir məqamı dəqiqləşdirək. Yeni olan, əvvəl və sonu olmayan yol, həm də noema qatında olan yoldur, şüur isə müəyyən arxivə malik, özündən əvvəlkilərin də yükünü daşıyan "köhnədir" və subyektiv yolu intensiyası bitəndə dayanır. Xüsusilə vurğulayaq ki, bir ölüm demirik. Çünki bir şüurun özünüreduksiyası fərdi və təkrarsız olsa da, onun gəldiyi nəticələr – son həqiqətlər başqa bir ilk həqiqətin başlanğıcı ola bilir. Bu, müəyyən mənada onun da yolunun, intensiyasının davamıdır. İştirakçılar dəyişir, həqiqət isə davam edir. Fizioloji ölüm insana aiddir, həqiqətə deyil və müvafiq olaraq bitən-başlayan konkret varlıq olan insandır, noema qatına keçmiş düşüncə deyil. Onu da qeyd edək ki, adətən dəqiq elmlərdə belə bir varis-

[1] (Suləmi. Tabaqat), s. 145 السلميإبو عبدالرحمانمسئلة درجات الصادقين,تسعة كتب, حققهاوعلق عليهسليمان آتش, آنكرا, طبعةلجامعة, 1981,
[2] Гегель. Философия духа, с. 12.
[3] Шопенгауер А. *Обитель духа*. М., Эксмо Алгоритм, 2008, s. 150.

liyin mövcudluğundan danışırlar, humanitarlarda, xüsusilə fəlsəfədə isə hər kəsin fərdi bir dünya qurduğunu əsas gətirirlər. Lakin söhbət məhz obyektiv həqiqətin ifadəsindən gedirsə, burada da eyni xətti izləmək mümkündür. Məsələn, Platonun dialoqlarındakı eydos anlayışı əsrlər boyu ayrı-ayrı filosoflar tərəfindən davam etdirilib, fərqli mövqelər irəli sürülüb, bu gün də bizim fəlsəfənin əsas xəttidir. Yaxud İbn Ərəbinin tələbələri Sədrəddin Konəvi və İbn Səbi ilk dəfə mütəfəkkirin fəlsəfəsindən nəticə çıxararaq "vəhdət əl-vücud" terminini yaradandan sonra hətta onlardan əvvəl yaşamış mütəfəkkirlərin də görüşləri o prizmadan dəyərləndirilməyə başlayıb. Yəni son həqiqətlə bir növ etalon yaratmış olurlar. Burada, bir tərəfdən iddia etmək olar ki, Platonun, İbn Ərəbinin (və ya hər hansı başqa şəxsiyyətin) subyektiv həqiqəti başqa biri üçün obyektiv həqiqətə və limitə çevrilir. Bunu hətta ağılda yaranmış sonsuzluğa meylli şüura süni hədd – idol (!) da adlandırmaq olar. İdol – şüurun inkişafının yolunu kəsib, yolun bitdiyini iddia edən, reallığın hər hansı ideyasının süni şəkildə böyüdülərək başqalarını sıxışdıran mövqedir. Ancaq əgər müəyyən ideya yenilərinə təkan verirsə, obyektiv həqiqətə fərqli bir baxış bucağı yaradıb alternativ düşüncə üçün də qida verirsə, bu, idol ola bilməz. Bəli, həddir, son həqiqətdir, ancaq özündən sonra mərhələnin olduğunu da inkar etmir. Nəhayət, belə ideyalar məhz noema qatına aiddir, idollar isə, qeyd etdiyimiz kimi, gerçəkliyin üst qatında olur.

İlk həqiqət şüura, son həqiqət ağla aiddir, çünki məhz onun vasitəsilə ifadə olunur, gerçəkləşir. Ağlı bir burulğana, girdaba bənzətməklə, daimi hərəkətin onun mövcudluğunun göstəricisi olduğunu vurğulamağa çalışırıq. Onu hərəkətə gətirən şüurdur. İlk həqiqət şüurun dalğa halında olan enerjisinin həyəcanlanmış zərrələrindən biridir. Şüur nə qədər eyni çevrə boyunca hərəkət edərsə, bu ağılda passivliyin yaranmasına gətirər, bu isə öz növbəsində psevdomərkəzlər üçün əlverişli şərait deməkdir. İstənilən psevdomərkəz ağılda ilk həqiqətin doğulması ilə baş verir. Burada maraqlı bir məqam üzərində xüsusi dayanaq. Bir tərəfdən, əgər başqa bir həqiqətin dərki prosesi gedirsə, yaranan psevdomərkəz

həmin prosesi yarıda qoyur. Əslində, psevdomərkəzin yaranması halı, artıq həmin prosesin zəif getdiyinə dəlalət edir. Psevdomərkəzlərin sayının artması isə ümumiyyətlə xaosun yaranmasına, nəticədə ağlın heç bir istiqamət üzrə hərəkət etməməsinə gətirər. Digər tərəfdən, şüurun özünün fəaliyyətinin artması, özünüreduksiyanın güclənməsi hər hansı ilk ideyanın doğulması psevdomərkəzlərin mövcudluğuna son qoya bilər. Aradakı fərq ondadır ki, birinci halda, ilk həqiqət şüurdan gəlmir, birbaşa kənar təsirlə ağlı həyəcanlandırır və normal axınından çıxarır. İkinci halda isə, əksinə, həqiqət şüurun özündə doğulur. İlk həqiqət yalnız sonla birləşdiyi halda güclənir. Deməli, şüurda doğulan həqiqət sonda şüuru, kənar təsirlə yaranan həqiqət isə elə həmin mərkəzi, yəni onu yaradan şüuru gücləndirəcək. Bir növ ağılda parazit yetişməyə başlayacaq və şüurun bütün potensialına özünə çəkəcək.

Son həqiqət əslində növbəti mərhələnin başlanğıcı olmalıdır. Hər nə qədər alimlər öz ideyasını son hesab etsələr də, yəqinliyin sonu yoxdur. Məsələn, qeyd etdiyimiz kimi, Eynşteyn özünün nisbilik nəzəriyyəsinin obyektiv vahid həqiqətin sonu deyil, bir hissəsi olması ilə heç cür barışa bilmir və buna görə də kvant fizikasını qəbul etmir. Onun yaxın dostu hollandiyalı fizik Paul Erenfest dostcasına ona irad bildirir ki, “Sənin əvəzinə mən utanıram. Axı bir vaxtlar əleyhdarlarının sənin nisbilik nəzəriyyənin əleyhinə çıxış etdikləri kimi indi də sən kvant fizikasının əleyhinəsən”.[1] Yaxud XVI əsrdə Cordano Bruno daha çox N.Kuzanlıya istinad etməsinə baxmayaraq, N.Kopernikin sistemini öyrənməsi onun həmin dövr üçün qəbul edilmiş “son həqiqətdən” kənara çıxmasına səbəb olur. Bruno gerçəkliyin üst qatından alt qatına qədər enir: “Əşyalarda hərəkətin iki aktiv başlanğıcını nəzərdən keçirtmək lazımdır: biri əşyanın sonlu olmasına müvafiq olaraq sonludur və o, zaman içərisində hərəkət etdirir; digəri – sanki ruhun ruhu, hər bir şeydə hər şey olan və ruhu hər bir şeydə hər şey olmağa məcbur edən dünyanın və ya ilahinin ruhuna müvafiq olaraq sonsuzdur və o, ani hərəkət et-

[1] Гейзенберг. Физика и философия, с. 207.

dirir".[1] Filosofun fikrinə görə, Allahı yaradan deyil, ilk başlanğıc və ilk səbəbdir[2] və insanın da həmin sonsuzluğa çıxışı var. Son – gerçəkliyin üst qatındadır. Eyni zamanda, qeyd etdiyimiz kimi, son həqiqət ağla məxsusdur, onun vasitəsilə ifadə olunur. Daha dərin qata enən şüurdur və onunla əlaqəsi olmayan ağıl yalnız üst qatla kifayətlənməli olur.

Yeri gəlmişkən, onu da əlavə edək ki, depressiya – insanın dar çərçivədən çıxa bilməmək hissi müəyyən mənada ağlın çatdığı son həqiqətdən sonrakı mərhələyə addım ata bilməməsi ilə əlaqəlidir. Konkretlik – məhdudluq arasında sıxılan ağıl heç cür müəyyən bir mərkəz ətrafında cəmləşə bilmir. Məsələn, maraqlı faktdır ki, şüuru ilə ağlı arasında əlaqəsi güclü olan adamlarda depressiya daha az rast gəlinir. Eyni zamanda, depressiyada olan bir şəxsin o haldan çıxması üçün ağıl içəridən – şüurdan güclənməsə, xaricdən göstərilən istənilən kömək aciz olacaq.

Nəhayət, başlanğıcda dediyimiz fikrə təkrar qayıdaq: ilk və son həqiqət insana xasdır, obyektiv reallığa yox. İnsan yaradıcıdır, lakin Mütləq Yaradandan fərqli olaraq onun yaratdıqları həm sonlu olur, həm də sonsuz. Əvvəlki noemaları dağıdaraq öz noemasını quranda, əldə elədiyi nəticə sonlu həqiqətə malik olur. Hər nə qədər "Pyeta" zamana, məkana meydan oxuyacaq qədər möhtəşəm əsər olsa da, o, öz noematik sistemi, öz bitkin həqiqəti olan konkret heykəldir. İnsan noemaları dağıtmadan, öz şüuru ilə oradan müəyyən hissəni ehtiva etməklə öz noemasını qurursa, o, son olmur, növbəti addım olur. Fizika qanunları kimi. Bu, ümumi noemadan qopmadan müstəqilləşən həqiqətdir. Lakin dediklərimizdə bir məqamı vurğulayaq: sonlu həqiqətlər idol kimi növbəti addımın qarşısını almır, sadəcə özü yeni başlanğıc ola bilmir. Nəzərə alsaq ki, həmin əsərlər subyektiv ruhun obyektiv ruhla kəsişməsinin inikasıdır və özündə mütləq ruhun bir zərrəsini ehtiva edir, o zaman noematik qatda onun da Sonsuzluqla əlaqəsini görmək çətin deyil.

---

[1] Бруно Дж. "О бесконечности, вселенной и мирах". *Избранное*. Самара, Агни, 2000, с. 352.

[2] Бруно Дж. "О причине, начале и едином". *Избранное*. Самара, Агни, 2000, с. 228.

## § 147. Gerçəklik: şər və xeyir

Dediklərimizdə açıq-aşkar bir paradoks mövcuddur. İlk təəssürat belədir ki, gerçəkliyi olduğu kimi dərk edən şəxs yalnız xeyir verir. Yaxud, belə düşünmək olur ki, yalnız müsbət, yüksək mənəviyyatlı, xüsusi istedadlı insanlar həqiqəti anlamağa qadirdirlər. Belə olan halda, sual yaranır: bəs həqiqəti təhrif edənlər, gerçəkliyi qısa, yaxud uzun müddətə kökündən sarsıda bilən, insanlığı məhvə aparan şəxslər kimdir? Onlar hansı gerçəklikdən çıxış edir? Bu suallardan da öz növbəsində başqa sorğu işarələri yaranır, belə şəxslər hansı gerçəkliyə istinad edir, hansı həqiqətlə silahlanırlar ki, seçilmiş istedadlı mütəfəkkirlərdən daha güclü olurlar? Necə olur ki, gerçəkliyin mahiyyətinə nüfuz edib həqiqəti dərk edən bir alimin ixtirasından sui-istifadə edib onu neqativ bir şeyə çevirə bilirlər? Bu da gerçəklikdirsə (ki, buna şübhə ola bilməz), belə nəticə çıxartmaq olarmı ki, xeyir və şər gerçəkliyin özündədir, sadəcə kimsə birini, bir başqasını da digərini qavrayır və müvafiq hərəkət edir? Əslində, şər haqqında suallar insanın özü qədər qədimdir. Hələ Epikürün qoyduğu suallara David Yum cavab verməyə çalışıb, ancaq hələ də müzakirələr səngimir: "Allah şərin qarşısını almaq istəyir, ancaq bacarmır? Deməli, mütləq qüdrət sahibi deyil. Bacarır, ancaq istəmir? Onda O, şərdir. Həm bacarır, həm də istəyir? Bəs şər haradandır?"[1] Diqqət edilsə, bizim suallar bu fərqli istiqamətlidir. Epikürdən başlayan mübahisədə əsas mövzu Tanrının – Yaradanın şərlə nə dərəcədə əlaqəli olduğu, onunla mübarizə aparmağıdır. Biz isə məsələni yalnız gerçəklik səviyyəsində, yəni insanın var olduğu və hökm etdiyi məkanda nəzərdən keçiririk. Bu, a) insan iradəsinin varlığını xatırlatmaqdır; b) xeyir və şər anlayışlarının yalnız insan dünyasına xas olduğunu vurğulamaqdır. Suallar çoxdur, lakin əgər məsələnin kökünü araşdırsaq, bir-birindən doğulan suallar da kəsiləcək.

---

[1] Hume David. *Dialogues Concerning Natural Religion*, 2017, p. 44 https://www.earlymoderntexts.com/assets/pdfs/hume1779.pdf.

Hər şeydən əvvəl vurğulayaq ki, bəli, biz xeyir və şəri yalnız insanın hökmünün işlədiyi məkanda – gerçəklikdə nəzərdən keçirəcəyik. Allahın şəri yaratması, onun qarşısını alması məsələləri də bu kontekstdə, yəni yenə də subyektiv prizmadan təhlil ediləcək. Biz bir çox filosofları narahat edən teodiseya – şər işlərdə Allaha haqq qazandırmaq probleminə toxunmadan, öz baxış bucağımızı təqdim edəcəyik. Bu, məntiqlidir, çünki insan yalnız dərk etdiyi şey haqqında onun xeyir və ya şər olması haqqında hökm yürüdə bilər. Bundan sonra ikinci iddiamız – xeyir və şərin subyektiv olmasını aksiom kimi təqdim etməyimiz də mübahisə yaratmaz. Bir ərəb atalar sözündə deyilir: "Mələk olmağa çalışma, çünki onun da qanadlarının səsi kimə isə mane olur, xoş gəlmir". Açar söz "kim isə"dir. Məhz kim isə şəxsi marağından çıxış edərək nəyi isə xeyirli, yaxud ziyanlı hesab edir və buna uyğun hökm verir; kim isə öz xeyri üçün atdığı addım başqasına ziya vurur və s. Nadir halda şər əməlin sahibi etdiyinin şər olduğunu qəbul edir və tərəzinin gözündə həmin əməlin xeyrinin daha ağır olduğunu sübut etməyə çalışır, çünki öz məntiqinə görə, xeyirli iş gördüyündən əmindir.

Teodiseya terminini elmi ədəbiyyata gətirən Leibnizin dediyinə görə, "Bizim ağlımızın tez-tez dolaşdığı iki məşhur labirint var: biri azadlıq və zərurət, əsasən isə şərin yaranması və başlanğıcı haqqında böyük sualla əlaqəlidir; o biri isə davamlılıq və bu davalılığın elementləri olan və sonsuzluq haqqında araşdırmanın da daxil olduğu bölünməzlər haqqında mübahisə haqqındadır. Birinci labirint insan nəslinin əksəriyyətini dolaşığa salıb, ikinci isə ancaq filosofları çətinə salıb".[1] Sufi fenomenologiyanın kontekstindən çıxış eləsək, birinci labirint gerçəklikdir – ağılların kəsişdiyi məkan. Lakin burada da bir sıra əhəmiyyətli məqamın dəqiqləşməyə ehtiyacı var.

Sxem 36-da gerçəkliyin ən alt qatı – obyektiv həqiqət – Mütləq varlığı yaratdığı noemadan bir zərrədir. Burada bütöv strukturda bir harmoniya var və bütün hissələr bir-birini tamamlayır. Hətta mövcud zid-

---

[1] Лейбниц Г.В. "Опыты теодицеи о благости Божией, свободе человека и начале зла". *Сочинения в четырех томах*. Т. 4, М., «Мысль», 1989, с. 53-54.

diyyətlər də müəyyən bir zərurətdən doğulur və bir-birinin varlığını şərtləndirir. Bunun gözəl nümunələrini təbiətdə görmək mümkündür. Başqa sözlə desək, gerçəkliyin obyektiv həqiqət qatında hər şey öz yerində, öz funksiyasını yerinə yetirir, çünki vahid bir İradə tərəfindən idarə olunur və bir mahiyyəti ifadə edirlər. Həmin qatdan hansı isə bir həqiqəti seçən, fərqləndirən insan şüurudur. Özünüreduksiya, daha sonra ağılda ümumi sistemə salınması həmin həqiqətdən müəyyən hissələri götürür, bəzilərini isə mötərizəyə alır (gerçəkliyin üçüncü qatı). Məhz bu qatda həmin ağıl digər ağıllarla kəsişir, müqayisələr aparır, yeni biliyə ehtiyac hiss edir, yaxud onu ümumiləşdirib digər həqiqətlər sırasına qatır.

Gerçəkliyin ikinci qatında, yəni düşünülən ideyaların təməlinin hazırlandığı mərhələdə şərin ilk rüşeymləri doğulur. Burada əhəmiyyətli bir məqamı da vurğulayaq: şərin doğulması bilavasitə ağıl və şüur arasındakı əlaqədən asılıdır. Ağılda psevdomərkəzin varlığı onun şərə meylli olmasına işarədir. Ağıl maddi dünya çərçivəsində formalaşan, insanın bütün bilik və gücünün sistemləşdiyi, daxilində baş verənləri maddi dünyada reallaşdıra bilən gücdür. Məhz güc adlandırırıq, çünki cəmiyyətdə insanın gücünün ən böyük göstəricilərindən biri, birincisi onun ağlıdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, ağlın gücü onun mərkəzinin gücüdür. Bu, şüur olarsa, deməli, ağıl şüur vasitəsilə ilahi aləmdən qidalanacaq və universal harmoniyanın qanunlarına tabe olmağa çalışacaq. Əksinə, bu, ağılda yaranmış hər hansı bir psevdomərkəz olacaqsa, deməli, burada üç proses gedəcək: 1) ilahi aləmlə əlaqə kəsiləcək, 2) ağlın bütün potensialı başqa istiqamətdə cəmləşəcək, 3) şüur və gerçəklik arasında əlaqə təhrif olunacaq. Ağlın gücünə uyğun olaraq şərin də miqyası fərqli olur.

Deyilənlərdə bir məqam üzərində xüsusilə dayanaq və təkrar edək: şər iki marağın toqquşmasından deyil, ağıl və şüur arasındakı əlaqənin pozulmasından doğulur, yəni ağlın özündə. Dini mətnlərdə şərin mənbəyinin İblis olduğu bildirilir, çünki insanı Haqq yoldan azdırır. İblisin məqsədi insanın Allahın sevgisinə, güvəninə layiq olmadığını göstərməkdir. O, özü pis bir iş görmür, öz əmin olduğu həqiqəti sübut et-

məyə çalışır. İblis yalnız insana Yaradanın buyurduğu yola alternativ təklif edir. Maraqlı bir incəliyi də vurğulayaq, Qurani-Kərimə görə, Şeytan özü insanla bərabər günah, bəd əməl törətmir, çünki bildirir ki, “Mən aləmlərin Rəbbi Allahdan qorxuram (Quran 56/19; 8/48). Söhbət, ağılda hərəkətverici mərkəzin şüurdan – ilahi mənbə ilə əlaqəli olan nöqtədən başqa yerə sürüşdürülməsindən başlayır. Dində şərin ən böyüyü və günahın ən ağırı Haqq yoldan çıxmaqdır. Haqq yol dediyimizin başlanğıcı isə şüurdur və ağıl ondan nə qədər uzaqlaşarsa, onun dediklərini nə qədər təhrif olunmuş şəkildə qəbul edərsə, bir o qədər əməlləri şər olar. Gerçəkliyin üst qatları subyektiv maraqların kəsişdiyi, eyni zamanda, ağlın gücünün maddiləşdiyi, əyaniləşdiyi məkandır. İnsanın hakimiyyəti ağlının ehtiva etdiyi məkanda qüvvədədir. Bəzən öz dünyasının və öz imkanlarının sərhədlərini unudanda o, özünü Mütləq Yaradana da rəqib görür.

Yeri gəlmişkən, sual yarana bilər ki, əgər Haqq yol şər yaratmırsa, bəs dinlərarası toqquşmalar niyə yaranır? Dinlər iman çərçivəsindən çıxıb siyasətə çevriləndə, kiminsə marağına xidmət etməyə başlayanda, yəni gerçəkliyin üst qatına keçiriləndə və hətta insanların şüurunu da öz axarından çıxartmağa cürət edəndə o, konflikt və təhlükə mənbəyinə çevrilir. İman şüurun və ruhun əlaqəsindən yaranan gücdür. Onun təhrifi, başqası tərəfindən idarəsi həm şüurları, həm də ağılları təhrifə gətirir. İstər-istəməz Epikürdən qalma sualı bir də təkrar etməli oluruq: Allah niyə bunun qarşısını almır? Gerçəklik dörd qatdan ibarətdir və onun yalnız iki üst qatından insan şər törədə bilir. Bu, insanın özünün qurduğu, özünün idarə etdiyi bir məkandır və burada Allah onu bütünlüklə özü ilə üz-üzə qoyub. Şər gerçəkliyin müəyyən bir hissəsinin ilahi mənbədən ayrı düşməsidir. İnsanın şəri bu çərçivədən kənara çıxanda, təbii quruluşun, enerjinin özünübərpa proqramı özünü göstərir.

Noema qatında şər yoxdur, daha dəqiq ifadə etsək, qarşıdurma və subyektivlik yoxdur. Düzdür, insan özü də noema yaratmaq iqtidarındadır, lakin nəzərə almaq lazımdır ki, həmin noema bütövün bir hissəsi olur, yəni ümumi harmoniyaya qoşulur, obyektiv həqiqətin subyektiv-

ləşmiş parçası olur. Bu baxımdan, noema qatında şər ola bilməz. Sxem 36 bir ideyanın üzərində qurulmuş gerçəklikdir. Lakin nəzərə almaq lazımdır ki, ideya ümumiləşəndən, yəni üçüncü qatdan sonra həmin ideyadan istifadə edərək fərqli gerçəkliklər quranlar var. Yəni noema qatına enmədən, universal vəhdəti tanımadan həmin ideyanı öz maraqları çərçivəsinə salırlar. Qeyd etmək lazımdır ki, bir çox halda ideya müəllifinin özünün qurduğu gerçəklik, cəmiyyətin tələblərini daha yaxşı bilənin qurduğu gerçəklikdən zəif olur. Hətta bəzən noema qatına enən şəxslər asosial, öz dünyasına qapandıqlarına görə, ümumiyyətlə gerçəkliyin formalaşmasına qarışmırlar. Məsələn, Tesla dahiyanə ideyalarına, kəşflərinə baxmayaraq cəmiyyətdə öz mühitini, məktəbini qurmadı, gerçəkliyin tələbləri ilə uyğunlaşa bilmədi. Eyni sözləri bir çox dahi şəxsiyyət haqqında demək mümkündür. Maraqlıdır ki, gerçəkliklə qarşılaşanda ən kiçik şər qarşısında belə onlar aciz qalır. Bunu güclü tufan olan okeana bənzətmək olar: üstdə dalğalar gəmiləri parçalayır, dibində isə sakitlikdir. Gerçəkliyin alt qatına və ümumiyyətlə gerçəkliyin noemasına nüfuz etmiş şəxs bir növ okeanın dibində üzən şəxsdir. Eynşteyn yazır: “Orada, kənarda bizdən, insanlardan asılı olmayan və qarşımızda nəhəng əbədi tapmaca kimi duran, ancaq müəyyən dərəcədə bizim qavrayışımıza və bizim ağlımıza açıq olan böyük bir dünya mövcud idi. Bu dünyanın öyrənilməsi azadlıq kimi cəzb edirdi və mən tezliklə əmin oldum ki, mən dəyər verib, hörmət elədiyim şəxslərin çoxu öz daxili azadlıqlarını və əminliklərini bütünlüklə bu məşğuliyyətə qapılmaqla tapıblar. İmkanımız çərçivəsində bizə açıq olan bu möhtəşəm dünyanın fikri ehtivası mənə yarı-şüurlu, yarı qeyri-şüuri şəkildə, ali məqsəd kimi təqdim olunurdu”.[1] Belə şəxslər hər nə qədər okean haqqında əsl həqiqəti bilsələr də, üst qata qalxanda onun real təhlükəsi qarşısında aciz qalırlar. Bir də var məhz tufanların, dalğaların mahiyyətini, ondan qorunmağın yollarını bilən, həmin dalğaların enerjisindən istifadə edənlər, hətta özləri belə dalğa yaratmağı bacaranlar. Belə məlum olur ki, bir ideyanı – obyektiv həqiqəti şəxsi maraqlar çərçivəsinə salanda mövqelər

[1] Эйнштейн. Религия и наука, с. 260.

toqquşur, hər bir tərəf öz sərhədini genişləndirməyə çalışır. Ortaya şər məfhumu çıxır. Ən yüngül halda tərəflər bir-birini məhv edir, sıxışdırır, ən pis halda isə obyektiv həqiqətin özünə ziyan dəyir. Məsələn, okeanın sərvətləri üstündə ölkələr arasında münaqişə yaranır, tərəflərdən biri işğalçı, digər məzluma çevrilir, savaş nəticəsində insanlar ölür, okeanın flora-faunasına ciddi ziyan dəyir, iqlim dəyişiklikləri başlayır və s.

Deyilənlər maraqlı bir məqama da diqqət çəkdi: gerçəkliyin üst qatında ayrı-ayrı situasiyaların hökmü daha güclü olur. Əbu Turxan dediyi kimi, "Yaxındakı köz uzaqdakı Günəşdən daha betər yandıra bilər".[1] Bu baxımdan, üst qatda hakim olan ani bir şər daha böyük həqiqətdən güclü və təsirli görünə bilir. Nəzərə almaq lazımdır ki, standart ağıllar noema qatına enmədən, elə üst qatla kifayətlənirlər və onlar üçün anın, situasiyanın hökmü hansı isə böyük həqiqətdən daha inandırıcıdır. Bu isə, öz növbəsində həmin böyük həqiqəti ayrı-ayrı situasiyalardan asılı vəziyyətə salır. Gerçəklik məlum olur ki, gerçəkliyə təsir göstərən, hətta onun inkişafını neqativ istiqamətə dəyişmək üçün heç də noema qatına nüfuz etməyə gərək qalmır. Gerçəkliyi neçə illər ərzində zəhərləyən faşizm yaradıcı bir şəxsin şüurunun nəticəsi deyildi. Gənc nəslin mənəviyyatını məhv edən terrorist, yaxud satanist təriqətlər üçün də noema qatı lazım deyil, onlar müəyyən situasiyadan istifadə edərək mövcud ideyaları fərqli, təhrif olunmuş şəkildə təqdim edirlər. Yəni burada böyük həqiqətdən deyil, yalnız situasiyanın tələbindən və həqiqətin onun çərçivəsində istifadəsindən gedir. Nəzərə almaq lazımdır ki, hər nə qədər ilahi aləmlə əlaqədə olsa da, insanın şüuru məhduddur və subyektivdir. Bu, o deməkdir ki, onun yaratdığı noemada bütöv həqiqətin yalnız bir hissəsi ehtiva olunur və bu, gələcəkdə onun fərqli istiqamətlər istifadəsinə, hətta təhrifinə imkan yaradır. Məsələn, Eynşteynin kəşfi bəşəriyyəti məhv edə bilən atom bombasının da, enerji istehsalı olan atom enerjisinin də, universal həqiqətin öyrənilməsində daha bir addım olan kvant fizikasının da yaranmasına səbəb oldu.

Psevdomərkəzin yaranması ilə eyni olan şər həm də ağlı normal

---

[1] Əbu Turxanın hikmət dünyası, s. 115.

ahəngindən çıxaran bir faktdır. Təsadüfi deyil ki, öz daxili dünyasını tanımaq, həqiqəti parçalanmadan qavramaq istəyən şəxslər gerçəklikdən, daha dəqiq desək, onun üst qatından – mövqelərin toqquşduğu, xırda şərlərin böyük həqiqəti görünməz etdiyi məkandan uzaq dururlar, hətta özlərini təcrid edirlər. Burada sufilərin, ayrı-ayrı mütəfəkkirlərin həyat təcrübəsini nümunə gətirmək olar. Öz avtobioqrafik qeydlərində Eynşteyn yazır: "Mənim kimi insanların inkişafında dönüş nöqtəsi o zaman baş verir ki, həyatın başlıca marağı yavaş-yavaş ani və şəxsi olandan qopur və get-gedə daha çox şeylərin təbiətini düşüncəsi ilə əhatə etməyə cəmlənir".[1] Ancaq nə qədər paradoksal olsa da, belə şəxslərin özləri, şəxsiyyətləri şərdən uzaq olsalar da, eyni sözləri onların ümumiləşmiş ideyaları haqqında demək olmur. Mənsur Həllacın ölümündən sonra onun ideyaları əsasında 20-dən çox bidət sufi təriqət yaranmışdı, yaxud yüksək materiyadan, ali məqsədlərdən, "Allahın düşüncələrini bilmək"[2] iddiasında olan Eynşteynin ideyaları atom bombasının yaranmasında həlledici rol oynadı. Əslində, belə şəxsiyyətlər öz ağıllarını şərdən qoruyublar. Şər dağıdıcı, pozucu qüvvədir və ilk növbədə doğulduğu ağlın ahəngini pozmaqla məhv etməyə başlayır. Əlbəttə, eydosu məhv etmək mümkün deyil, ancaq dağılan gerçəkliyin üst qatı – insanların bilavasitə aid olduqları ətraf, ona istinad edən standart, hətta ixtisaslaşmış ağıllar olur. Ağıllarda yaranan xaos, psevdomərkəzlər yeni şərlərin doğulmasına şərait yaradır, xırda şərlər cəmiyyətin hakiminə çevrilir. Məhz belə məqamlarda şərin necə güclü, çox olması faktı aktuallaşır, ona inam artır və ağıllar ona istinad etməyə çalışır. Elmi məlumata görə, dalğalar nə qədər güclü olsalar da, onlar okeanın dibinə enmir. Sunamilər isə məhz dibinə qədər enir və bu zaman yer səthinin özündə dəyişiklik baş verir. Az əvvəl də qeyd etdiyimiz kimi, nə qədər ki, insanın şəri gerçəkliyin alt qatına çatanda enerjinin özünübərpa proqramı işı düşür. Məhz noematik qat reqenerativ – bərpaedici xüsusiyyətə malikdir, belə demək mümkündürsə, yaradılışın və bəşəriyyətin toxunulmaz

[1] Эйнштейн. Религия и наука, с. 260.
[2] Дилтс Р. Стратегии гениев, с. 362.

bazasıdır. Bu səbəbdən miflərdə, əfsanələrdə xeyir-şər qarşıdurmasında xeyir həmişə qalib olur. Məsələ burasındadır ki, şər nə qədər artsa da, onun təməli yoxdur, istinad etdiyi subyektiv maraqların sahibləri çox tez-tez birini əvəz edə, bir şəri mütləq daha böyük şər məhv edir.

### *§ 148. Ontoloji və ontik gerçəklikdə ağıl*

Ağıl insanın gerçəkliyə təzahür edən kimliyidir. O, bir tərəfdən, insanın gerçəkliyin hansı qatının həqiqətləri ilə yaşadığının dəlili olmaqla yanaşı, həm də şüurunun səviyyəsinin göstəricisidir. Başqa sözlə desək, ağıl insanın həm ontik, həm də ontoloji varlığının inikasıdır. Haydeggerin bu barədə görüşlərini müasir mövqedən tədqiq edən S.S. Xorujiy insanı üç növə ayırır: ontoloji, ontik və virtual insan. Alim diqqətini daha çox "insandan ayrılmış kölgə" adlandırdığı və "varlıqsız da ötüşən" ontik insana yönəldir.[1] Haydeggerin mövcudluğunu ümumiyyətlə qəbul etmədiyi ontik insanı Xoruyiy belə təqdim edir: "Gizlədilənin predikatı, varlıqdan qapanma, varlığı unutma, ontoloji fərqlərin ortadan qaldırılması və s. ontik insanın müəyyənedici predikatlarına yaxındır...". [2] Bundan başqa, təhlilləri ilə alim belə nəticəyə gəlir ki, "intuitiv olaraq, əgər, Haydeqqerə görə, Ontoloji İnsana həmişə *varlığın izini* saxlayan *varlığı unutmaq* xasdırsa, o zaman Ontik İnsanı nə isə daha radikal, məsələn, *varlığı kənarlaşdırma,* dönməz, son və birmənalı olan bir şey təyin etməlidir".[3] Xorujiyin fikirləri ilə razılaşmaqla yanaşı, insanın ontik və ontoloji varlığında ağlın rolunu göstərək.

İnsanın fəaliyyəti onun ağlının, ağıl isə öz növbəsində öz mərkəzinin inikasıdır. Məntiqlə insan həmin mərkəzin maddiləşmiş formasıdır. Bu mərkəz ilahi aləmlə əlaqə imkanları olan, özünün üst səviyyəsinə qədər yüksəlmiş və güclü özünüreduksiyaya malik şüur da ola bilər, başqası tərəfindən "yerləşdirilmiş virus" – psevdomərkəz də. Məhz bu

---

[1] Хоружий С.С. Как обходиться без бытия, или механика Латона. Вопросы философии 06.11.2013 г.
http://vphil.ru/index.php?option=com_content&task=view&id=840

[2] Yenə orada.

[3] Yenə orada.

mərkəzdən asılı olaraq ağlın ontoloji və ontik baxış bucağı formalaşır, yəni insan ya bütün mahiyyəti ilə var olur, ya da təbiət zəncirinin bir halqası olaraq mövcudluğunu yaşayır. Haydegger yazır: "İnsan öz mövcudluğuna Varlığın tələblərini eşitdiyi qədər aiddir. Yalnız bu tələbə görə onun "varıdı", o, mövcud olduğu mühiti tapıb. Yalnız bu mühitə səbəb onun "dili" "var", onun ekstatikliyini qoruyan ev kimi. Varlığın zolağındakı hala mən insanın ekzistensiyası deyirəm. Yalnız insana belə bir varlıq növü xasdır. Belə ki, ekzistensiya dediyimiz yalnız ağlın, ration-un imkanlarının təməli deyil, ekzistensiya insanın mövcudluğu öz təyinatının mənbəyini qoruduğu şeydir".[1] Belə görünür ki, Haydegger yalnız ağlın şüur mərkəzini qəbul edir və ondan danışır, lakin yazıdan da göründüyü kimi, deyilənin əksi də mümkündür. Varlıq və mövcudluq ağlın hansı mərkəz ətrafında sistemləşməsidir. Şüurmərkəzli ağıl ilahi mənbə ilə əlaqəlidir və öz fəaliyyətini daha böyük sistem əsasında qurur, öz varlığının mahiyyətini dərk edir. Bu, var olmaqdır. Psevdomərkəzli ağlın sahibi isə başqa biri üçün müəyyən funksiyalar yerinə yetirir, onun "dili" ilə danışır, onun həqiqətləri naminə yaşayır. Bu, mövcudluqdur. Məsələn, bir var, öz insanlıq missiyasını anlayan və bunu imkanı, potensialı daxilində reallaşdırmağa çalışan və bununla da digərləri arasında fərqlənən ixtisaslaşmış, yaxud xüsusi ağıl, bir də var ümumi informasiya selində itib-batmış, ani situasiyalarla bərabər dəyişən standart ağıl. Biri özünün ayrıca bir sistem olduğunu dərk edir, olduğu gerçəkliyə təsir etmək gücünə malik olur, ikinci isə, ümumiyyətlə öz varlığını başqa varlıqlar fonunda görə bilir. Düzdür, heç də hər kəs gerçəkliyə təsir edəcək gücə malik deyil. Lakin söhbət gerçəkliyin dərin qatlarına nüfuz etməkdən deyil, elə üst qatında – öz ailəsində, kollektivində öz varlığını hiss etdirə bilən ağıldan gedir.

Gerçəklik varlıq qazanmış bir ideyanın müəyyən zaman və məkanda reallaşmasıdır. İdeyanın dəyişməsi ilə o da başqası ilə əvəz oluna bilir, yaxud ayrı-ayrı ağıllar tərəfindən dəyişdirilib, fərqli təqdim oluna bilər. Maraqlıdır ki, bəzən gerçəkliyin üst qatı dəyişməmiş görünsə də,

---

[1] Хайдеггер М. Письмо о гуманизме. http://bibikhin.ru/pismo_o_gumanizme.

alt qatında ciddi dəyişikliklər ola bilər. Gerçəkliyin üst qatı kifayətlənən və mühakimələri bu çərçivədən kənara çıxa bilməyən standart ağıl sahibi ontik insandır. Onu da əlavə edək ki, gerçəkliyin üst qatı daha aktiv və dinamik olduğuna görə, insanların, xüsusilə gənclərin müasirlik adına həmin üst qatın təsirinə daha ciddi məruz qaldığını nəzərə alaraq belə bir nəticəyə gəlmək mümkündür ki, ontik insanlar ontoloji insanlara nisbətdə daha çoxdurlar. Növbəti qatları anlamaq insanın öz varlığını da dərk etməyi tələb edir təyin edir. Öz varlığını tanımaq özünüreduksiyadır və bu, tədricən gerçəklik haqqında da dərin məlumat əldə etməkdir, yəni ontik mövcudluqdan ontoloji varlığa keçməkdir.

Xorujiyin təsnifatında müasir dövr üçün adi hal sayılan virtual insan da var. Virtual aləm gerçəkliyin yeni bir qatıdır və yeni olsa da, kifayət qədər ciddi təsirə malikdir. Bizim fikrimizə görə, o, ontik insanın bir növüdür. Virtual aləmin öz qanunları, öz cazibəsi var və burada başlıca fakt informasiyaların sürətlə bir-birini əvəz etməsi və insanın şəxsiyyətinin virtual kimlik altında görünməz qalmasıdır. Müəyyən mənada onu "qaranlıq fiqurların", yaxud kölgələrin oyun məkanı da adlandırmaq olar. Virtuallıq gerçəklikdən qopmaq kimi təqdim edilsə də, nəzərə almaq lazımdır ki, bu da gerçəkliyin üst qatıdır. Lakin burada əhəmiyyətli bir fərq var: vizual gerçəklikdən fərqli olaraq burada hiss aləmi bütünlüklə ön plana keçir və gerçəkliyin alt qatlarına, ontoloji varlığa ümumiyyətlə keçid qalmır. Hisslərin hakim olduğu bu qaranlıq məkanda, təbii ki, qaranlıq yaddaşın məkanı da genişlənir, sadəcə, onlar rasional şüurun təhlilindən keçmədən, elə sıxılmış hisslər şəklində üzə çıxır. Virtual insanın ağlı standart səviyyədə olsa da, burada növbəti səviyyəyə keçid imkanı çox azdır, çünki psevdomərkəzlərin yaratdığı xaos mövcudluğun dinamikliyi, rəngarəngliyi kimi qəbul edilir. Bu məsələdə ən paradoksal məqam ondan ibarətdir ki, "qaranlıq fiqurların oyun məkanı" idarə edənlər özləri virtual kimliyə sahib deyillər və gerçəkliyi kifayət qədər yaxşı dəyərləndirən, ən azından onun ikinci qatına enmiş şəxslərdir.

İnsan ağlının "mənimsəyə bildiyi" məkanda hakim olub, iradəsini

göstərə bilir. Ağlın radiusunu təyin edən isə şüurdur, daha dəqiqə desək, özünüreduksiyadır. Yalnız özünə belə bir məkan yaratmış ağıl sahibini ontoloji varlıq hesab etmək olar. Ontik mövcudluqla kifayətlənən insanın da ağlı var, ancaq öz radiusu, təsir dairəsi, deməli, iradəsi yoxdur. O, başqa bir ağlın "xammalıdır". Qəribə paradoksdur və ilk baxışda nəzərə çarpmayan bir həqiqətdir: ontik insanın ağlı var, ancaq öz kimliyinə, öz idrak xəttinə xidmət etmir, özünü ifadə etmir. Hətta o, yeganə bildiyi, tanıdığı gerçəkliyin üst qatında da hər hansı "sözə", "izə" malik deyil. Haydegger belə bir təhlükə ilə üzbəüz olan insanın çıxış yolunu belə xarakterizə edir: "İnsanın yenidən varlığa yaxınlaşa bilməsi üçün əvvəlcə o, adsız məkanda mövcud olmağı öyrənməlidir. O aydın şəkildə həm ictimailiyin cazibəsini, həm də şəxsiliyin bacarıqsızlığını görməlidir. İnsan danışmazdan əvvəl yenə varlığın tələbləri üçün açılmalıdır və belə bir riski nəzərə almalıdır ki, bu tələbin qarşılığında onun çətin ki, az, yaxud ümumiyyətlə nə isə cavab vermək imkanı olsun. Yalnız bu şəkildə sözə onun varlığının dəyəri, insana isə varlığın həqiqətində olmaq üçün məkan lütf ediləcək".[1] Burada əhəmiyyətli bir məqam var: sözün dəyəri. Söz insanın öz varlığını ifadə etmək imkanıdır. Yalnız ontoloji varlığa sahib insan söz demək qüdrətinə malikdir. Haydeggerin "adsız məkan" dediyi yer özünütəhlildir. Axı, özünü tanımayan insanın deməyə sözü də olmur.

### *§ 149. Vasitəli və vasitəsiz ağıl*

Ağlın öz mərkəzi – şüurla əlaqəsinə görə, onu vasitəli və vasitəsiz növlərə ayırmaq mümkündür. Düzdür, ağlı yaradan şüurdur və gerçəklik haqqında məlumat da onun vasitəsilə daxil olur, bununla belə, artıq formalaşmış ağlın öz mərkəzi ilə əlaqəsinin pozulması, yaxud bilavasitə gerçəkliyin təsirinə məruz qalması halları da məlumdur. Belə bir prizmadan baxanda, şüur – subyekt, ağıl isə obyekt kimi nəzərdən keçirilir və söhbət məhz subyekt-obyekt əlaqəsindən gedəcək. Şüur ağlın nüvəsi-

[1] Yenə orada.

dir və onların arasında yaranan ən kiçik maneə biliyin təhlilində, ötürülməsində və ayrıca ağlın inkişafında ciddi fəsada səbəb olur. Belə maneələr isə psevdomərkəzlərdir.

Ağıl formalaşan ilk gündən psevdomərkəzlər də yaranmağa başlayır. Hər səviyyənin özünə uyğun psevdomərkəzləri olur. Əslində, bu, fərqli mənbələrdən alınan biliklərin ağlı məşğul etməsidir və müəyyən mənada onun formalaşmasına, təhlil qabiliyyətinə təsir göstərir. Onların varlığı və təsiri haqqında məlumat ağlın səviyyəsinin qalxması ilə alınır. Yəni bir standart ağıl daxilindəki mərkəzin hansı olduğunu nəinki düşünmür, heç onların fərqini də anlamır. Ağlın gerçəkliklə əlaqəsi şüur vasitəsilədir. Psevdomərkəz şüurun "senzurasından" keçmədən biliyin ağla ötürülməsi təhlükəsidir. Ümumiləşmiş, xüsusilə gerçəkliyin üst qatına aid olan biliklər ağla daxil olması o qədər intensiv, az qala mexanikləşmiş bir prosesdir ki, bəzən şüurun arada varlığı unudulur. Belə olan halda şüur və ağıl arasındakı əlaqənin də nə vaxt kəsildiyi diqqətdən kənarda qalır. Məsələ burasındadır ki, şüur nə qədər zəif olsa da, o, ağlın həm hərəkətverici qüvvəsi, həm də enerji mənbəyidir. Hər nə qədər kənar ağıl onu biliklə təmin eləsə də, enerji mənbəyindən ayrı düşməsi və tədricən "qaranlığın" artması onun gərginliyini artırır. Məsələn, istedadlı, savadlı, aktiv həyat tərzi sürən bir yeniyetmənin bir gün dərin depressiyada olması, hətta intihara cəhd etməsi çoxlarını heyrətə gətirir. Şüur və ağıl arasındakı enerji axınının nə vaxt, hansı şəraitdə, hansı sözlə kəsilməsini təyin etmək çox çətindir. Yeni formalaşmağa başlayan yeniyetmə ağlı kiçik bir dövlətə bənzətsək, orada neçə "hakim" tapmaq mümkün olar. Sistemləşməyə macal tapmayan ağıl xaosa düşür və öz yolunu itirir. Məhz bu səbəbdən ağlın yeni formalaşma mərhələsində müəllim, bələdçi böyük və prinsipial rola malikdir.

Ağıl şüurun daxili radiusunun çəkdiyi çevrə boydadır. Biliklərin qavranması şüurun radiusunun böyüməsi ağlın sahəsinin genişlənməsi deməkdir. İnsan üçün aydın olan bir bilik psevdomərkəz yaratmır. Ona görə də, ümumiləşmiş bilik sahəsində kifayət qədər savadlanmış və ixtisaslaşmış səviyyəyə keçmiş ağılda belə bir bilik maneə yarada bilmir və

inkişafa yönəlir. Məsələn, kosmosdakı qara dəliklər haqqında biliklər, nəzəriyyələr bir gənci yeni axtarışlara da sövq edə bilir, xurafata da yönəldər. Uşaq və yeniyetməlik dövründə hansı biliklərin qazanılması bilavasitə müəllim və valideynlərin nəzarəti altında olduğuna görə, əslində şüurun daxili radiusun ölçüsü də onların məsuliyyətinə aid olur. Bu dövrdə ağıl böyüyən orqanizm kimi hər informasiya üçün açıqdır, ona görə də təhlil qabiliyyətinin inkişaf etdirilməsi zəruri addımlardan biri olmalıdır. Yalnız bu halda ağla daxil olan biliklər psevdomərkəz yaratmadan şüurun radiusunun genişlənməsinə yönələcək. Daha əvvəl də qeyd etdiyimiz bir məsələni təkrar edək ki, biliklərin qavranması ilə təhlil qabiliyyəti fərqli proseslərdir. Təhlil qavranılan biliklərin öz subyektinə – şüura yönəlməsidir.

Ağlın öz şüuru ətrafında formalaşması və inkişafı onun ümumi orqanizmlə daxili əlaqəsinin varlığı deməkdir. Belə olan halda, o, həm şüurun mahiyyətindən və ruhdan güc ala bilir, həm də ümumi enerji axınına qoşulur. Psevdomərkəz bu axına maneədir və ağıl bir növ ümumi sistemdən kənarda qalır, başqa bir sistemin "filialına" çevrilir. Bunu dərk edən şəxs özü problemi həll edə bilməyəndə müəllimindən, valideynindən, hətta psixoloqdan kömək istəməyə məcbur olur. Buna nümunə kimi, keşişin yanına etiraf üçün gələn şəxsi, sufizmdə mürşid-mürid, ən nəhayət, fəlsəfi məsləhətləşmə zamanı filosof və müştərinin münasibətlərini göstərmək olar. Bir daha təkrar edək ki, belə köməyi yalnız həmin problemi anlayan, bundan əziyyət çəkən və həll etmək istəyən şəxsə göstərmək mümkündür. Belə məlum olur ki, ağlın öz nüvəsi çalışır, sadəcə zəifdir və məqsəd onu yenə də öz daxilindən kömək almağa yönəltməkdir. Heç bir ağıl öz həcmindən böyük problemlə yüklənə bilməz. Hətta problem böyük olsa belə, ağıl ondan yalnız özü boyda, öz səviyyəsinə olan hissəni ehtiva edəcək. Bu həcmi təyin edən isə şüurdur, deməli, onun daxilində həmin problemi həll edəcək güc var, sadəcə, onu açmaq, tətbiq etmək lazımdır.

Ağıl və şüuru yumurtanın qabığı və sarısına bənzətmək olar. Onun böyüməsi üçün yaradılan lazımi şəraiti arasında o yumurtanın daxilinə

müdaxilə etmək yoxdur. Bir insanın ağlının güclənməsi üçün ona edilən istənilən müdaxilə onun istiqamətini pozur, zəiflədir. Ağla daxil olan bilik şüurun süzgəcindən keçməlidir. Bəzən tələbəsinin ağlının işini "yüngülləşdirmək" istəyən bələdçi (müəllim və ya valideyn) öz şüurunun təcrübəsini daha üstün bilir və onu təlqin edir. Şübhəsiz ki, müəllimin təcrübəsi daha güclüdür, zəngindir və məhz elə buna görə də tələbə üçün uyğun deyil. Buna gözəl nümunə kimi, sufizmdə ruhani təcrübənin mərhələlərini göstərmək olar. Bu təcrübədə son mərhələlərdən, hallardan biri fənadır – tək ideyadan başqa hamısının mötərizəyə alınması. Sonralar bu ifadəni müəyyən sufi təriqətlərdə konkretləşdirərək "fəna fil-lah" etdilər və bunu "ölmədən əvvəl ölmək", "Allahın varlığında yox olmaq" kimi izah etdilər. Bir növ, Allahın varlığını bütün mövcudatdan ayırdılar. Daha sonra bəzi təriqətlərdə əlavə mərhələlər də düşünməklə "fəna fiş-şeyx" (şeyxdə yox olma), hətta "fəna fil-ixvan" (qardaşda yox olma) hallarını da əlavə etdilər. Yəni öz ideyasına doğru irəliləyən şüur bu "köməkçi" mərhələlərdən keçməli olur. Birmənalı şəkildə bunlar psevdomərkəzlərdir. Müvəqqəti olub daha sonra əsas mərkəzə yönəldəcəyi, yaxud elə şeyxin şəxsiyyətində dayanacağı artıq sonrakı məsələdir. Hazırda isə bunlardan hər biri əsas mərkəzdən yayındıran psevdomərkəz, ağıl və şüur arasında vasitə, başqa bir ağlın hökmünün qəbuludur.

Ağlın ruhla və ümumiyyətlə metafizik həqiqətlərlə əlaqəsi rasional şüurun imkan verdiyi, daha dəqiq desək, onun rasionallaşdıra bildiyi qədərdir. Xüsusi ağıl haqqında danışanda bu barədə müəyyən məlumat vermişdik. Burada isə bir neçə əhəmiyyətli məqamı əlavə edək. Ruhla əlaqənin yaranması və üstşüurun açılması özünüreduksiyanın və bu, öz növbəsində ağlın mərkəzinin gücünü artırır. Belə olan halda, 1) hər hansı psevdomərkəzin yaranma imkanı qalmır, 2) ağıl və şüur arasındakı əlaqə o qədər sıxlaşır, az qala sərhəd itir. Məsələn, Məhəmməd İqbal "Quranı sənin özünə vəhy olunurmuş kimi hiss edənə qədər oxu!" deməklə ilahi vəhy və insanın şüurunun, deməli həm də ağlının arasından bütün vasitələrin ləğv olunmasına çağırır. Yaxud fenomenoloji epoxé-də bütün kənar hisslər, düşüncələr o qədər təmizlənir ki, prosesin

ağılda, yoxsa şüurda getməsi anlayışı da yox olur. Husserl yazır: "Bizim təcrübədən keçirdiyimiz şeylərin sferası bizim üçün indi təbiət elmlərinin sferasını təyin edir. Bundan sonra biz belə bir təbii-elmi mövqedə qalırıq və ona görə də bizə aydın olur ki, belə etməklə biz müəyyən mənada ayırma, (epoxé-nin bir növünü) həyata keçirmiş oluruq. Adi həyatımızda bizim Obyekt-təbiətlə bir əlaqəmiz olmur. Bizim əşya kimi götürdüklərimiz şəkil, heykəl, bağ, ev, masa, paltar, alətlər və s.-dir. Bunlar hamısı fərqli növlərin dəyər-Obyektləri, istifadə-Obyektlər, praktik Obyektlərdir. Onlar təbiət elmlərində tapa biləcəyimiz Obyektlər deyil".[1] Ağlın sabit mənbəyi ilə şüurun özünüreduksiyası bütünlüklə eyniləşir, nəticədə ağıl sanki özü noema qatına nüfuz etmiş olur.

Gerçəkliyin noematik qatından danışanda belə təəssürat yaranır ki, o, haradasa kənarda, ucalarda, maddi dünyanın fövqündədir. Əslində, bu, şüurun özünün nüfuz etmə, qavrama qabiliyyətinin inkişafıdır. Vasitəsiz ağıl bu bilikləri bilavasitə öz mərkəzindən – şüurdan aldığı halda, vasitəli ağıl onu başqa təcrübələrinin nəticəsi kimi qavramalı olur. Gerçəkliyin üst qatı konkret və müxtəlif həqiqətlər arasında vurnuxmaqdır, noematik qat eyni həqiqətləri əlaqəli və bütöv halda qavramaqdır. 1949-cu ildə Eynşteyn özünə nekroloq yazmaq fikrinə düşür və orada "dünyaya" – ideyalar dünyasına gəlişini belə təsvir edir: "...Başqa şüurların çata bilmədiyi çox şeyi öz yaşadıqlarından əxz eləmək mümkündür. Mən insanların çoxuna dinclik vermədən həyatı boyu qovan ümid və cəhdlərin rəzilliyini hələ sütül cavan olanda çox tez anladım".[2] Bənzər cümləyə Nikola Teslanın gündəliyində də rast gəlmək mümkündür: şüur gerçəkliyin alt qatına nüfuz etməklə, bir tərəfdən, dünyaya baxış bucağı dəyişib, digər tərəfdən, bir növ universal həqiqətlə eyni dalğaya düşüb.

Nəhayət, onu da qeyd edək ki, yalnız vasitəsiz ağıl standart ağıl səviyyəsindən yüksəyə qalxmağa və nə isə yaratmağa qadirdir. Əlbəttə, söhbət ilk ideya üzərində yeni noemanın yaradılmasından gedir. Xatırla-

---

[1] Husserl. Ideas…II, p. 29.

[2] Эйнштейн А. Собрание научных трудов в 4-х томах, т. 4, М., Наука, 1967, с. 259.

daq ki, bu prosesi keçən və obyektiv həqiqətdən hansı isə hissəni ehtiva etməklə öz noemasını yaratmaq şüurun funksiyasıdır. Ağıl şüurun ifadəçisidir. Aralarında əlaqə nə qədər düz və yaxın olarsa, bir o qədər ideya və onun təzahürü də yaxın olar, ideya mükəmməl ifadə olunar. Arada maneənin olması, daha əvvəl də qeyd etdiyimiz kimi, həm ideyanın təhrifinə, həm yaradıcı enerjinin zəifləməsinə, həm də ümumiyyətlə ağlın başqa "xidmətçisinə" çevrilməsinə səbəb olur. Məsələnin, prinsipial tərəflərindən biri də, məhz vasitəsiz ağlın daxildən böyümək potensialının olmasıdır.

### *§ 150. Ağıl və zaman. Ağıl indi və əbədiyyət kontekstində.*

§20-də "İndi və zaman"dan danışanda biz əsas diqqəti eydoslara, yəni varlığın ən kiçik zərrələrinə fokuslamışdıq. Bununla zamanın da, bir tərəfdən, universal vahid sistemin bir hissəsi olduğunu göstərməyə çalışdıq, digər tərəfdən, zaman kontekstində varlığın fərqli bir inkişaf xəttinin mövcudluğunu xatırlatdıq. Eydoslar prizmasından baxanda yalnız *indi* – zamanın ən kiçik zərrəsi var və o, bütöv sistemin başlanğıc nöqtəsidir. Lakin nəzərə almaq lazımdır ki, gündəlik həyat zərrələrlə deyil, daha mürəkkəb məfhumlarla tanınır: vaxt, ay, il. Ağıl da istər idrak prosesində, istərsə də sonda anladıqlarını reallaşdıranda məhz bu məfhumların çərçivəsi ilə hesablaşmalı olur.

Hər nə qədər şüur ağlın nüvəsi olsa da, onların gerçəkliyə və varlığa baxış bucağındakı fərq *indi*-yə münasibətdən başlayır. Şüur üçün indi öz ideyası olan eydosdur və zaman zənciri *indi*-lərdən ibarətdir. O, başqa indilərlə deyil, aid olduğu şeyin eydosu ilə vəhdətdə nəzərdən keçirilir. Ağıl isə onu keçmiş-*indi*-gələcək zəncirinin ara halqası olaraq görür və yalnız o kontekstdə, yəni başqa zaman kateqoriyaları ilə müqayisədə təhlil edir. İlk baxışda elə zənn etmək olar ki, ikinci halda indi anlayışı daha geniş ehtivalıdır. Bu, faktdır ki, hər iki halda, indi zamanın ən kiçik zərrəsidir və zamana münasibət, onun haqqında düşüncələr həmin zərrədən başlayır. Bununla belə, nəzərə almaq lazımdır ki, ağlın *indi*-si yalnız maddi dünya hüdudlarına, şüurun *indi*-sində isə universal

zamana çıxış var, onda sual öz-özündən cavablanmış olur. Bundan əlavə, xatırladaq ki, ağıl zamanı yalnız düz xətt boyunca irəliləyən, tək istiqamətli, tək ölçülü və dönməz proses kimi qəbul edir, şüurda isə zaman çoxölçülüdür, istiqaməti aid olduğu varlığın istiqaməti ilə eynidir, yəni fərqlidir, *indi*-lər ayrı-ayrı olduğuna görə istənilən vaxt onlardan biri aktivləşə bilir. Bundan başqa, ağıl üçün zaman şeyin maddi mövcudluq qazanması və itirməsi ilə hesablanırsa, şüurda *indi*-nin başlanğıcı və bitməsi yoxdur, aktivləşməsi və passivləşməsi var və bu, şüurdan asılıdır. Nəhayət, həm şüur, həm də ağıl üçün zaman obyektiv fenomen olsa da, şüur subyektivləşmiş zaman kəsiyində fəaliyyət göstərir, ağıl isə obyektiv zamanla hesablaşır və onun çərçivəsinə yerləşməyə çalışır. Maraqlıdır ki, sadaladığımız fərqlər əslində, bir şəxsin şüuruna və ağlına məxsusdur.

Heraklit hər şeyin daim dəyişməyini nəzərə alaraq iddia edirdi ki, "Bir çaya iki dəfə girmək olmur və fani təbiəti iki dəfə eyni halda görmək mümkün deyil". Bununla bir növ *indi*-ni yaxalayıb tutmağın mümkünsüzlüyü vurğulanır. Lakin sual yaranır: söhbət kimin, nəyin *indi*-sindən gedir? Suyun? – Nəzərə almaq lazımdır ki, çayın içində olarkən belə, o, ilk dəfə girdiyin çaydan fərqlənəcək. Arxın? – O, dəyişmədən yerində durur, dəyişən içindəkidir. Çaya girən insanın? – Burada rəylər ümumiyyətlə haçalanır: o, mənaya baxır, yoxsa zahiri görünüşə? Öz *indi*-sindən çıxış edir, yoxsa obyektin? Və s. Bununla biz zamanın çoxtərəfli və subyektiv olduğunu vurğulamağa çalışırıq. Obyektiv olan isə hər şeyin daim hərəkətdə olması və eydosların bir-birini əvəz etməsidir. Zaman eydosları da onlarla bir yerdə. Sadaladığımız obyektlər arasında bu hərəkət daha çox çayda göründüyünə görə, diqqətlər də ona fokuslanır. Ağıl dəyişən eydosların fərqində olmadan zahiri dəyişikliyə istinad edir və *indi*-nin axıb getdiyini vurğulayır. Şüurun *indi*-si isə axıb getmir. Burada əhəmiyyətli bir məqam üzərində dayanaq. Ağıl gerçəkliyin üst qatının müşahidəsinə və iki mənzərə arasındakı müqayisəyə baxanda gəldiyi nəticə "eyni çaya iki dəfə daxil ola bilməmək" qənaətidir. Əksinə, ağıl indi haqqında şüurdan aldığı biliyə istinad edəndə o zaman

gerçəkliyin üst qatı mənasını itirir və bir ideyanın irəliləməsi prosesi izlənəcək. Ağıl şüuru izləyəcək və dəyişməyən *indi*-ni, belə demək mümkündürsə, çaya daxil olan insanın bir anını tutur və saxlayır. Fotoaparat prosesin bir anını tutduğu kimi. Həmin an hesablama nöqtəsi olaraq qəbul edilir və keçmiş-gələcək ona nisbətdə təyin edilir: *indi*-dən əvvəl və sonra. Onu da əlavə edək ki, o anı tutub saxlayan ağlın öz nüvəsi – şüur da ola bilər, başqa bir ağıl tərəfindən diktə edilə də bilər. Fərq isə bundadır ki, daha əvvəl də qeyd etdiyimiz kimi, öz şüurundan gələn bilik daha sonra böyüyüb universal zamana keçid yarada bilir. Başqa ağıl tərəfindən təqdim edilən indi isə yalnız keçmiş-*indi*-gələcək zənciri ilə kifayətlənməli olur.

Yaradıcılıq və zaman haqqında danışanda belə bir əhəmiyyətli məqamı vurğulamışdıq ki, yaradılan şey maddiləşib tamamlanandan, bir sistem kimi bütövləşəndən sonra onun öz zamanı başlayır. Bu, həm ilahi, həm də bəşəri yaradıcılığa aiddir. İnsanın ilk ideyası sabit mənbələrdə varlıq haqqı qazanır, müəyyən müddətdən sonra ana bətnində formalaşmağa başlayır. Bu müddətdə o, başqa daha böyük sistemin tərkibinə daxil olur, onun zamanına uyğunlaşır. Yalnız doğulandan – ayrıca insan kimi nəfəs almağa başlayanda onun öz zamanı işə düşür. Rəsm əsərinin ideyasının doğulması, çəkilməsə rəssamın zamanına aiddir və yalnız hazır əsər kimi təqdim ediləndə – böyük zaman sistemindən ayrılanda öz zamanı işləməyə başlayır. Ağıl da insan tərəfindən yaradılan bir noemadır. Maddi forması olmasa da, maddi dünyaya aiddir və şüurdan, hətta bədəndən ayrı öz zamanı var. Lakin, maraqlıdır ki, onlardan fərqli olsa da, maddi dünyanın, daha dəqiq desək, gerçəkliyin zamanı ilə uyğunlaşmağa çalışır.

Əvvəlki təhlillərimizdən də məlum olduğu kimi, zaman biliklərlə əlaqəlidir, daha dəqiq desək, hər biliyin öz zamanı var. Buna görə də, gerçəkliyin üst qatında – az qala informasiya xaosu yaşanan, biliklərin sürətlə bir-birini əvəz etdiyi yerdə zaman da sürətlə axır. Obyektiv zamandan asılı olmadan, ağıl bu sürəti qavrayır və onunla ayaqlaşmağa çalışır. Biliklərə istinadən aparılan zaman təsnifatında ağıl keçmiş-*indi*-gələcək zəncirini həm də tarix-çağdaş-perspektiv kimi nəzərdən keçirir.

Tarix artıq biliyə çevrilmiş zamandır, yəni hər nə qədər o zamanın bir zənciri – keçmiş kimi qələmə verilsə də, burada zaman artıq ümumiləşmiş, zaman zəncirindən qopmuş biliyin özüdür. Məsələn, Makedoniyalı İsgəndərin Asiya yürüşü hazırda tarixi məlumat olaraq əhəmiyyətlidir və onun zamanın gedişinə hər hansı təsiri yoxdur. Onun zamanı yalnız həmin dövrün haqqında xronikanın təhlilində xatırlanır. İstənilən zaman kəsiyi keçmişə çevriləndə daşıdığı biliklə yadda qalır, əgər belə bir bilik yoxdursa, zaman da unudulur, "yox olur". Bəzən müəyyən bir informasiya uzun zaman kəsiyini ümumiləşdirir. Məsələn, müharibə, yaxud pandemiya zamanın "adı" və mahiyyətinin xarakteristikasıdır, yaxud "inkvizisiya dövrü", "renessans dövrü", yaxud "maarifçilik dövrü" və s. ideyanın, ideologiyanın mövcudluq müddətinin ifadəsidir. Hətta həmin dövrdə nə isə başqa əhəmiyyətli bir hadisə baş versə belə, onu da həmin adla qeyd edirlər. Təbii ki, bu, obyektiv zaman deyil, hər hansı subyektiv həqiqətin ümumiləşməsidir. Təsadüfi deyil ki, düşüncə tarixinin dövrləşməsi Şərq və Qərbdə fərqlidir. Burada belə bir məqama da aydınlıq gətirək: zamanın hər mərhələsində müəyyən bir həqiqəti var, lakin yalnız gerçəklikdə maddi təzahürü olan və ağlın sistemində yer ala bilmiş həqiqətlər öz zamanını digərləri arasında fərqləndirir və "adlandırır". Zamanın sürətli axınını nəzərə alsaq belə məlum olur ki, *indi*-yə prosesin özü aid olur, reallaşmış, maddiləşmiş ideya isə artıq tarixə, keçmişin yaddaşına keçir.

Belə məlum olur ki, ağıl qəbul etdiyi həqiqətlərə uyğun olaraq zamanı "məhdudlaşdırır". Məhz məhdudlaşdırır, çünki burada söhbət gerçəkliyin üst qatında təzahür edən hadisələr ön plana çəkilir, daha dərin qatlar isə kölgədə qalır. Təbii ki, burada subyektiv mövqe həlledici rol oynayır və məhz həmin subyektiv mövqenin nüfuzundan asılı olaraq onun həqiqəti daha geniş radiusda tanınır. Məsələn, kimin üçünsə bütün il onun toyu ilə assosiasiya yaradır, kimin üçünsə keçmiş Sovet İttifaqının "yenidənqurma" mərhələsi. Yəni gerçəkliyin üst qatında hansı hadisə daha aktual olursa, daha çox ağlı məşğul edirsə, o zamanın "həqiqəti" də o hesab edilir. Xatırladaq ki, şüur da müəyyən bir *indi*-dən başlayaraq öz idrak xəttini qurur. Lakin burada fərqli bir proses gedir. Şüur öz

ideyasının trayektoriyasını qurmağa başlayır və bu zaman o, düzxətli istiqamətdən çıxır, ideyanın mahiyyətindən asılı olaraq ilahi qata qədər, yəni zamanın şaquli xətti boyu da yüksələ bilir. Ağıl isə yalnız gerçəkliyin yalnız üst qatı ilə, yəni rasionallaşmış və artıq öz zamanı olan həqiqətlərlə kifayətlənməli olur. Az əvvəl dediyimiz kimi, şüurun bütün prosesi *indi*-yə daxil olur, nə keçmişə, nə də gələcəyə. Məsələnin əhəmiyyətli tərəfi də budur ki, ağıl məhz müəyyən *indi*-nin həqiqəti ilə sonradan bütöv bir dövrü "adlandırır" və məhdudlaşdırır. Əlbəttə, bu da bir faktdır ki, bəzən müəyyən ideya böyük zaman axınına, ağıllara güclü təsir edir. Məsələn, "Dekart dövrü" kimi. Belə ideyalar o dərəcədə güclü olur ki, həmin dövrdə yaşamış mütəfəkkirlərin görüşlərində, yaxud hadisələrin mahiyyətində də onun təsirini, izini axtarırlar. Belə məlum olur ki, şüur indi vasitəsilə daha böyük həqiqətin dərkinə doğru irəliləyir, ağıl isə həmin həqiqətin özünü zaman tətbiq edir.

Dediklərimizdə vacib bir məqam üzərində xüsusi dayanaq. Ağlın səviyyəsində asılı olaraq zamana münasibət də fərqli olur. Bir var, ağıl gerçəkliyin üst qatından çıxış edərək zamanın varlığını belə düşünmədən ümumi axına tabe olur: zəmanənin tələblərinə uyğunlaşmağa çalışır. Yeri gəlmişkən, onu da əlavə edək ki, zəmanənin tələbi əslində cəmiyyətdə hakim olan müəyyən bir ideyanın – hansı isə *indi*-nin tələbidir. Bir də var, ağıl öz mərkəzinin – şüurun zamanı ilə hərəkət edə və onun *indi*-si ilə hesablaşa. Birincilər daha çox standart, müəyyən vaxtlar hətta ixtisaslaşan ağıl sahibidirlərsə, ikincilər xüsusi ağıllardır. Buradan maraqlı və prinsipial bir məsələyə keçid alaq: gerçəkliyin zamanı kiminsə tərəfindən təyin edilir. Söhbət ayların, illərin bir-birini əvəz etməsindən getmir, çünki o barədə daha əvvəl təhlil vermişdik. Biz "adlı" və müəyyən bir ideya ilə məhdudlaşmış zamandan danışırıq. Gerçəkliyin qatlarından danışanda onu da vurğulamışdıq ki, hər ağıl obyektiv həqiqət qatına enmədən də onun üzərində gerçəklik qura bilir. Gerçəklik zamanın axınının, hökmünün təzahür meydanıdır. Daha dəqiq ifadə etsək, gerçəklik müəyyən bir *indi*-nin böyük zaman axınına çevrilməsidir. Nə qədər qəribə də olsa, ağılların səviyyəsindən asılı olaraq hərəsinin öz *indi*-si olur. Bununla yanaşı, bəzi ağıllar var ki, "zamanı təyin edir",

bəzi ağıllar da var ki, başqasının zamanı ilə ayaqlaşmağa çalışır. Məsələn, yenidənqurma prosesi müəyyən tarixi və siyasi prosesləri nəzərə almaqla bir siyasətçinin verdiyi sərəncamla başladı və gerçəklikdə əhəmiyyətli dəyişiklik yaratdı, son nəticədə 70 illik bir imperiyanın süqutunu tezləşdirdi. Hadisə bir ölkə daxilində baş versə də, dünya siyasətinə, həmin imperiyanın tərkibində olan və indi müstəqillik qazanan xalqların düşüncə tərzinə güclü təsir göstərdi. Bir daha qeyd edək ki, bu, obyektiv həqiqətdən – noematik qatdan bir zərrə deyildi, gerçəkliyin üçüncü qatında – mövcud hadisələrini yönəltmək, idarə etmək üçün həqiqətlər üzərində manipulyasiyalar etmək bacarığı idi.

Gerçəkliyin ən alt qatına – obyektiv həqiqətə nüfuz etməyi bacaranlar öz *indi*-ləri üzərində idrak prosesi quran şəxslərdir. Xatırladaq ki, bu qata daxil olub, oradan bilik qazanmağı yalnız şüur bacarır, daha sonra rasionallaşdırdıqlarını ağla ötürür. Əvvəlki təhlillərimizdən belə məlum olur ki, belə ağıl sahibləri heç də gerçəklik qurmaq, cəmiyyətə təsir göstərmək, ona zaman diktə etmək hökmünə malik olmayıblar. Gerçəkliyin ilk nöqtəsi, başlanğıcı hesab edilən həmin obyektiv həqiqət böyük bir idrak prosesinin nəticəsidir. Həmin nöqtədən başlayıb zaman xəttini uzatmaq – gerçəkliyin üçüncü qatı artıq başqa ağıl sahiblərinin üzərinə düşür. Məsələn, Dekart öz yeni fəlsəfəsini təqdim edəndə gerçəkliyin fəlsəfi mənzərəsi dərindən təhlil etmişdi, şüuru şeylərin eydedik qatına nüfuz etməklə universal həqiqətin yeni bir məqamını qavramışdı. Onun ideyası üzərində qurulan gerçəklik və onu ehtiva edən zaman kəsiyi onun adı ilə tanındı "Dekart dövrü". Lakin onu da qeyd etmək lazımdır ki, bu yalnız müəyyən ixtisaslaşmış və xüsusi ağıllar üçün müəyyən əhəmiyyət kəsb etdi, başqalar hətta onun varlığından xəbər olmadı. Maraqlı fakt kimi əlavə edək ki, Dekart özü də inkvizisiya dövründə yaşayırdı və Qalileyin kilsə tərəfindən cəzalandırılmasının şahidi olub qorxmuşdu, öz yazılarını yandırmaq, yaxud gizlətmək qərarına gəlmişdi. Lakin bu da faktdır ki, o, öz ideyasını tamamlaya bildi. Başqa sözlə desək, Dekart daha güclü bir ideyanın zamanı ilə yaşamalı olsa da, öz *indi*-sini də tamamlamağı bacardı. Əslində, eyni sözləri Qalileyin özü haqqında da demək mümkündür. Söhbət burada məhz noema qatında

tək istiqamətli hərəkədən çıxıb çoxölçülü məkanda təsdiq olunan *indi*-nin ideyasından gedir. Gerçəklik nə qədər fərqli zamanın şərtləri ilə yaşasa da, noema qatında aktivləşmiş ideyanın zamanı mütləq irəliləyir və tamamlanır. Bu, artıq bir insanın deyil, ilahi iradənin hökmü ilə baş verir və bir cəmiyyət üçün deyil, universal səviyyəli olur . Əlbəttə, bir daha təkrar edək ki, həmin qata nüfuz edən şüurdur, lakin nəzərə almaq lazımdır ki, biz də mərkəzi öz şüuru olan ağıllardan danışırıq.

Zaman zamanın keçmiş-*indi*-gələcək sistemini quran ağıldır. Yəni qeyd olunan ardıcıllıq yalnız ağıl tərəfindən qəbul edilir, çünki biliklər ağılda sistemləşir. Şüur üçün yalnız indi var və hər biri müəyyən bir zaman xəttinin yaranması üçün başlanğıc ola bilir. Təhlillərdən belə məlum olur ki, ağlın tətbiq etdiyi zaman ardıcıllığı aldığı həqiqətlərin sistemləşməsinə  əsaslanır. Zamanın subyektivliyi də məhz buradan irəli gəlir. Maraqlıdır ki, əgər şüur təbii quruluşun zamanı daxilində öz zaman xəttini çəkməyə çalışırsa, var olan zamanlarla ayaqlaşmalı olur: obyektiv zaman deyilən şablon (ay, gün, saat, dəqiqə), dövrün hakim ideyasının “zamanının” tələbi və öz subyektiv zamanı. Ağılda gedən prosesləri burulğana, sudakı girdaba bənzətmişdik: bir istiqamətdə, dayanmadan, kənara çıxmadan davam edən hərəkət. Ağlın qəbul etdiyi zaman trayektoriyası da buna uyğundur. Bu hərəkətə istənilən müdaxilə – psevdomərkəz ağlın zamanına müdaxilə hesab olunur: onun hərəkətini ləngidir, xaosa salır. Eyni zamanda, gerçəkliyin ən aktual bir informasiyanın ağlın zamanını “məşğul etməsi” də təəccüblü deyil: ağıl “dəyirmandır”, nəyi qəbul edirsə, onu da “üyüdür”.

## *§ 151. Din, iman və ağıl*

Bu artıq qəbul olunmuş bir aksiomdur ki, iman və din fərqli anlayışlardır. Belə ki, əgər iman yalnız Yaradan və insan arasında gizli bir müqavilə xarakterli razılaşmadırsa, din – ciddi-cəhdlə qurulmuş, gerçəkliyin, insanların psixologiyasını, hətta dövlətlərarası əlaqələri, daxili və xarici siyasəti nəzərə almalı olan bir institut, sistemdir. İman ruha məxsus bir keyfiyyət, haldır. Xatırladaq ki, Hegelə görə, Mütləq ruhun

təzahür formalarından biri də imandır. Filosof konkret olaraq din deyir, lakin ümumi kontekstdən və mahiyyətində belə məlum olur ki, söhbət məhz ruhun özünüifadəsindən, yəni imandan gedir. Onun gücünü ruhla vəhdət yaradan şüur məhz üst səviyyədə, qeyri-müəyyənlik, irrasionallıq qarşısında dayananda hiss edir. Din həmin imanın ağıl tərəfindən institutlaşmış, maddiləşmiş formasıdır. Məhz iç-içə olduqlarına görə, çox vaxt iman və dini fərqləndirmək çətin olur, hətta eyniləşdirilir. Bizim fikrimizə görə, onların arasındakı fərq məhz şüur və ağıl arasında olan qədərdir.

İman noematik qatda idrak prosesinin əhəmiyyətli aparıcı qüvvələrindən biridir. Şüura aid olduğuna görə, imanı ağlın mərkəzində durmalı olan əminlik, onu biliklə təmin edən vasitə hesab etmək olar. Lakin burada iki əhəmiyyətli fakt unudulmamalıdır. Birincisi, imanın qavradığı əsasən irrasional biliklər olur və onların yalnız bir qismi rasionallaşaraq ağla ötürülə bilir. Rasional şüura sığmayıb, "xammal" şəklində ağla sızanda isə, orada əlavə bir mərkəz yaradıb, ağlı öz ahəngindən çıxarmağı bacarır. Bu baxımdan, iman dindən daha geniş ehtivalıdır. İkincisi, həmin biliklər hər nə qədər əbədiyyətlə, universal həqiqətlə əlaqəli olsalar da, ağıl onları gerçəkliyin üst qatına – mövcud hakim ideologiyaya uyğun şəkildə sistemləşdirir. Xüsusilə vurğulayaq ki, gerçəkliyin üçüncü, hətta ikinci qatında olan din əksər hallarda üst qatdan fərqlənir və standart ağıllar məhz üst qatdakı dini tanıyıb, xidmət göstərirlər. Onu da əlavə edək ki, məhz gerçəkliklə uyğun dərəcəsinə müvafiq olaraq bəzən müqəddəs mətnlərin köhnəldiyini, müasir dövrün tələblərinə cavab vermədiyini iddia edirlər. Məsələn, Yeni dövrdə bəzi filosoflar Tanrının artıq təqaüdə çıxdığını iddia edib yeni şərtlərin vacibliyini vurğulayırdılar. Əslində, müqəddəs mətnlərdə cəmiyyət üçün müəyyən göstərişlər var, bununla belə, onlar ilk növbədə iman üçün həqiqət ehtiva edirlər. Bu, məntiqlidir, çünki bu, şəxsiyyət, vətəndaş, adi bir insan kimi yetişməyin təməlidir. Başqa sözlə desək, müqəddəs mətn mahiyyətə aid həqiqətləri göstərib, onun üzərində qurulacaq sistemi isə insanın öz iradəsinə ağlına həvalə edir. Məsələn, Bibliyada İsa Məsih "mənim sizə buyurduqlarıma nə isə artırıb, azaltmayın; sizə çatdırdığım,

Rəbbimin, sizin Allahınızın buyurduqlarına əməl edin" (Bibliya. Qanunun təkrarı 4/2) desə də və hər nə qədər İsa Məsih öz tövsiyələrində həvarilərinə "Mən sizə Rəbbimin, Allahımın buyurduqlarını öyrətdim" (Bibliya. Qanunun təkrarı 4/5) bildirsə də, kilsə institutu öz dövrünün tələblərini ön plana çəkib xristianlığın təbliği və təsdiqi üçün lazım olan addımlar atmalı olurdu. Bu, kilsənin siyasəti idi, mahiyyət üzərində qurulan sistem idi. Yaxud Qurani-Kərimdə: "Biz Quranı ibrət almaq (zikr etmək) üçün asanlaşdırdıq. Amma heç bir ibrət alan (dərk edən) varmı?" (Quran 54/22) deyə buyurulsa da, ilahi ayələri təhlil edən təfsirlər, İslam peyğəmbərinin hədisləri Qurani-Kərim ayələrinə az qala bərabər tutulmaqdadır. Hər kəsi Qurani-Kərimin anlaşılmasının çətin olduğunu inandırmaqla, bir tərəfdən, ayənin özünü inkar etmiş olurlar, digər tərəfdən, bütün bəşəriyyət üçün nəzərdə tutulan ilahi mətni bir alimin ağlının məhsulu olan təfsir, yaxud hədis toplusu ilə məhdudlaşdırırlar. Yəni insanlara imanlarından daha çox dinə – hazır həqiqətlər sisteminə inanmağa, şüur olmadan yalnız ağlın diktəsini dinləməyə çağırırlar. Həmin ağlın kimə isə məxsus olması, öz şüurunun yolunun bağlanma, mahiyyətinin unudulma təhlükəsinin olması faktı isə unudulur. Fromm yazır: "Yeni ideyalar insana məxsus olan kimi, o başladı onları təhrif eləməyə. Özü tam insaniləşmək əvəzinə, o, "yeni məqsədi" açıqlayan Tanrını və doqmaları özünün idoluna çevirdi, o, fiquru və ya sözü öz təcrübəsinin reallığının yerinə qoydu. Amma insan yenə və yenə öz həqiqi məqsədinə qayıtmağa çalışır. Belə cəhdləri biz daha çox din sahəsində, bidət sektalarda, yeni fəlsəfi düşüncələrdə və siyasi doktrinalarda görə bilirik".[1] Frommun dediklərində iki incə və prinsipial məqamı vurğulayaq. Birincisi, insan tanrıdan aldığı həqiqətləri qavramadan, öz mahiyyətinə – insanlığına tətbiq etmədən onu idollaşdırdı, sərt çərçivədə çevirdi. İkincisi, zatən inkişafa, azadlığa meylli olan insan bu çərçivəni sındırmağa çalışacaq, çünki o, həm həqiqətləri təhrif edir, həm də insanın mahiyyətini. Daha əvvəl də qeyd etdiyimiz kimi, istənilən çərçivə idoldur. Bu, ideyanın həqiqətinə gedən yolu bağlayıb gerçəkliyin

[1] Фромм Э. "Искусство любить". *Душа человека*. М., Республика, 1992, с. 86.

yalnız üst qatı ilə kifayətlənmək tələbidir. Əvvəlki paraqrafda dediyimiz kimi, müəyyən bir ideyanın statikləşmiş halı tək həqiqət kimi qəbul edilməklə, gerçəkliyin üst qatı ön plana keçir, mahiyyət, həqiqət isə sonuncu dərəcəyə atılır. Bu isə reallığın nəinki naqis dərkinə səbəb olur, həm də insanın özünün şəxsiyyətinin getdikcə naqisləşməsinə gətirir. Yunq yazır: "Müasir insan orta əsrlərdəki qardaşının metafizik imanını itirib, onun yerinə maddi rifah, təhlükəsizlik, humanizm ideallarını qoyub. Ancaq indi bu idealları toxunulmaz saxlamaq üçün optimizmin böyük bir dozası lazımdır. Hətta təhlükəsizlik də gəmidən kənarda qalıb, belə ki, müasir insan gördü ki, maddi "proqresə" doğru atılan hər addım daha qorxulu bir fəlakət təhlükəsini artırır".[1] Bu sözlər deyilən prosesin hansı isə ara mərhələsində deyilib və hazırda tənəzzül daha da dərinləşib, gerçəkliyin üst qatının təsiri və əhəmiyyəti daha da artıb, intensivləşib. Bununla belə, Frommun sözlərindən də bəlli olduğu kimi, insanın təbiətində, mahiyyətində mövcud olan həqiqətə can atmaq, onu dərk etmək cəhdi istənilən halda özünü göstərir. Bu, insanlığın tələbidir.

Ağlın səviyyəsi nə qədər yüksək olursa, bir o qədər onun həm obyektiv həqiqətdən xəbərdar olur, həm də gerçəkliyin üst qatına təsir etmək gücünə malik olur. Eyni zamanda, gerçəkliyin üst qatında idolların yaradıcısı, çərçivələr qoyan da yüksək səviyyəli ağıl sahibləridir. Aradakı paradoksun belə bir şərhi var. Obyektiv həqiqətin – universal vəhdətin şahidi olan və öz gerçəkliyini onun üzərində quran heç bir ağıl başqasına çərçivə qoymur, çünki bunun mümkünsüzlüyünü anlayır. İdolu yaradanlar gerçəkliyin üçüncü qatında mövcud həqiqətin üzərində fərqli bir gerçəklik quranlardır. Bəli, onlar da yüksək səviyyəli, ixtisaslaşmış ağıl sahibidirlər, ancaq noematik qatdan xəbərsizdirlər. Burada ideya ilə yanaşı, onun müəllifinin də nüfuzu böyük rol oynayır. İman ilahi aləmə açıq bir fenomendir, fərdidir və cəmiyyətə təsiri yoxdur. Din isə məhdud ağlın məhsuludur və qapalı bir sistemdir, fərdə, cəmiyyətə, hətta daha geniş miqyasda təsirə malikdir. Burada iki əhəmiyyətli məqam var. Birincisi, eyni məfhumlar iman və din kontekstində mahiyyətinə görə

[1] Юнг К.Г. *Проблемы души нашего времени*. М., Прогресс, 1994, с. 301.

fərqlənə bilər. Məsələn, imana görə, peyğəmbər Allahın insanlar üçün bir bələdçi, imanı ilə kamilləşən bir insan nümunəsidirsə, dində peyğəmbər obrası kultlaşdırıla, idollaşdırıla, hətta tanrılaşa bilər. İkincisi, iman müəyyən mənada fenomenoloji reduksiyadır və insan yalnız öz obyektini görür, bütün kənar ideyaları uzaqlaşdırır. Din isə, əksinə, ağlın qəbul etdiyi konkretliklər üzərində bərqərar olur, buna görə də yalnız obyektin təqdimi ilə kifayətlənmir, ona sitayiş etməyin üsullarını, bunun mənasını, nəticəsini, etməməyin fəsadlarını və s. öyrədir, daha dəqiq desək, onun üzərində konkret divarı və qanunları olan bir məbəd – idol yaradır.

Dediklərimizlə diqqəti bir məqama yönəltməyə çalışırıq: sitayiş obyekti ilə insan arasında mənəvi, ruhani əlaqə, bağ mövcuddur. Təsadüfi deyil ki, insan öz imanının obyektinı müraciət edəndə bir növ öz ruhuna üz tutur. Fərqli dinlərdə Onun səsini, əmrlərini, hikmətini eşitmək üçün ümumiyyətlə dünyadan təcrid olunurlar. Çünki müqəddəs mətnlərə görə də, Allah insana ruhu Özündən üfürüb, eyni zamanda, onunla daim "ünsiyyətdədir", "şah damarından daha yaxındır" (Quran 50/16). Ağıl bu əlaqəni ayrıca bir obyektə, mərhələyə çevirir və nəticədə əslində bilavasitə Yaradanla əlaqəli olan insan arada vasitəçi ilə üzbəüz qalmalı olur. Yaradılışda müəyyən bir iyerarxiya var, lakin insanla Yaradan arasındakı əlaqə hər hansı iyerarxiyadan keçmir. Din bu iyerarxiyaya öz "korrektələrini" daxili etməklə onu öz sistemi ilə əvəz edir.

### *§ 152. Din, iman və ağıl (idollar, maneələr)*

İman insanla onun sitayiş obyekti arasında düz xətdir. Onun çəkilməsi ilk nöqtədən (insandan) güclü və ruhu ilə vəhdət yarada bilmiş şüur və bu xəttin əyilməməsi, başqa hisslərlə qarışmaması üçün intensionallıq tələb olunur. Bunu müəyyən mənada insanın noematik nüvəsindən uzanan bir işıq zolağına – noezisə də bənzətmək olar. Ağıl şüurun malik olduğu biliklərdən yalnız rasionallaşa bilənləri qəbul edir. Yaşanan ruhani təcrübə və müqəddəslik hissləri elə şüurun özündə qalır. Ağıl isə yalnız çata bildiyi sərhədə qədər olanları təqdim etməyi bacarır. Buna görə də, sitayiş obyektinin özü ilə onun keyfiyyətləri arasında müəyyən fərq olur. Məsələn, sufizmdə Allahın Zatı hər şeyin fövqündədir

və heç bir təsvirə sığmır. Onun sifətləri isə Vəhdət aləmindən başlayır və bütün təhlillər əsasən ora aid olur. Eyni prinsipi Plotinin fəlsəfəsində, yaxud müsəlman məşşailərin emanasiya prinsipində də görmək mümkündür – iyerarxiyadan aşağı endikcə, kamillik səviyyəsi azalır, maneələr çoxalır. Əslində, bu, ağlın anlamaq üçün yaratdığı mərhələlərdir. Burada əhəmiyyətli bir məqam var: mərkəzdə yerləşən sitayiş obyektinin – Allahın yerinə insan (!) – peyğəmbər keçir. Bu, bir tərəfdən, hər şeyin meyarının insan olması anlamına gəlsə də, digər tərəfdən, kamillik mücəssəməsinin məhdud olması deməkdir. Yəni hər nə qədər peyğəmbər insanlar arasında ən yüksək səviyyəyə, Allah tərəfindən seçilmiş bir mərtəbəyə sahib olsa da, o, insandır. O, Allahın malik olduğu fövqəlbəşər keyfiyyətlərdən məhrumdur.

Yaradan öz hikmətini Kitab və peyğəmbəri vasitəsilə izah edir. İman ruh və şüurun vəhdətidir, deməli, ruhani təcrübənin bir də biliklərlə möhkəmlənən təməli olmalıdır. Kitab həmin təməl, peyğəmbər onun bələdçisidir. Onlar konkret, maddi vəsaitdir və ağıl üçün daha əlçatandır. Buna görə də ağıllar yaratdıqları sitayiş iyerarxiyasının başına peyğəmbəri və Müqəddəs kitabı qoyurlar. Onların nüfuzu, daşıdığı missiya bəzən o dərəcədə aliləşdirilir ki, onların vasitə olduqları unudulur, özü sitayiş obyektinə çevrilir, hətta Allahla eyniləşdirilir. Yeri gəlmişkən, maraqlı bir fakt olaraq qeyd edək ki, bəzən peyğəmbərin obrazı o qədər ilahiləşdirilir ki, onların həyatlarında, hərəkətlərində, düşüncələrində hər hansı nöqsanın, səhvin olması faktını qəbul etmirlər. Halbuki, onlar insandır və belə səhvdən xali deyillər. Məsələn, Bibliyada, xüsusilə Tövratda peyğəmbərlərin yanlış addımları xüsusilə vurğulanır.

Peyğəmbərdən sonra onun yaxın ətrafı – əshabələr, həvarilər durur. Öz imanlarına, yüksək əxlaq və mənəviyyatlarına gözə cəmiyyətdə seçilən bu şəxslər peyğəmbərə çox yaxın olduqlarına görə bəzən yanlış nəticələr çıxarılır və peyğəmbərlərlə az qala eyni səviyyədə tutulur, dedikləri peyğəmbər kəlamı ilə eyni tərəziyə qoyulur. Məsələn, xristianlıqda həvarilərin dedikləri, kəlamları Bibliyanın hissələri kimi qəbul edilir. İslamda əshabələrin söylədikləri – hədislər şəriətin əsasını təşkil edir.

Hər nə qədər onlar peyğəmbərə istinadən danışıb, özlərini kölgədə qoymağa çalışsalar da, təbii ki, yalnız adları deyil, obrazları, şəxsiyyətləri müqəddəsləşdirilir, nümunə kimi idollaşdırılır.

İyerarxiyanın növbəti mərtəbəsi ciddi mübahisələrin obyektidir desək, yanılmarıq. Belə ki, buradakıları, bir tərəfdən, dinin sadiq və ağıllı təəssübkeşləri, müdafiəçiləri saymaq olar, digər tərəfdən, onlar öz düşüncələri, ideyaları, şərhləri ilə dini ehkamları kökündən sarsıdan və bu səbəbdən bir çox hallarda bidətçi elan olunaraq rəsmi din tərəfindən ciddi şəkildə təqib olunanlardır. Bu mərtəbənin "sakinləri" hər şeydən əvvəl öz düşündüklərini danışır və yazırlar. Allaha ehtiram öz yerində olmaqla yanaşı, onların öz şəxsiyyətləri də kifayət qədər ön plana keçir. Bu baxımdan, qeyd etdiyimiz kimi, bəzi dairələr onları əshabələrə, hətta peyğəmbərə bərabər tuturlarsa, bir başqaları onları azad düşüncələrinə görə günahlandırır, dinin əleyhdarı hesab edirlər. Bu şəxslər, əsasən, kahin, övliya, filosof, sənətkarlardır, yəni noematik qata nüfuz edib, universal vəhdətin bilavasitə şahidi olanlar. Ən vacibi isə, onlar İlkmənbə ilə bilavasitə əlaqə yaradan və obyektiv həqiqətdən bir hissəni mənimsəyə bilən şəxslərdir. Yəni belə şəxslərin düşüncələrinin kökündə öz anladıqları, öz həqiqətləri durur. Onlar məhz imanlarının bələdçiliyi ilə getdiklərinə görə, eyni uğurla müqəddəsləşdirilib sitayiş obyektinə də çevrilə bilirlər, rəsmi din tərəfindən mövcud gerçəkliyin qadağalarına məhəl qoymadıqlarına görə, təqib də edilirlər. Məsələnin maraqlı tərəfi budur ki, belə şəxslərin düşüncələri gerçəkliyin üst qatı ilə uyğun olanda müqəddəs, zidd gələndə isə kafir elan edilirlər.

Növbəti pillədə duranlar dinin adi xidmətçiləri, məbəd işçiləridir. Onlar cəmiyyətin sıradan üzvləri, bəzən standart ağıl sahibləridir və bu xidmətçilik onların gündəlik iş və qazanc yeridir. Yəni mövcud dinin yaratdığı çərçivədə düşünüb, fəaliyyət göstərən və onu qoruyan şəxslərdir. Lakin burada əhəmiyyətli bir məqam var: onlar hakim çərçivənin qoruyucu olaraq özlərini onun dərin bilicisi və nümunəsi hesab edirlər. Bununla belə, onlar bu işin məhz xidmətçiləri olduqlarına və standart ağıl sahibi olduqlarına görə maddi maraq üstün gələ bilir. Belə olan hal-

da onların mülahizələri nəinki qüsurlu, hətta təhlükəlidir, çünki hər kəslə, cəmiyyətlə ünsiyyətdə olan onlardır və daha üstün mərtəbələri məhz onların prizmasından görürlər: maddi maraq prizmasından. Daha betəri isə, bir çox hallarda iyerarxiyanın özündə boşluq olmasa belə, məhz belə şəxslərin savabsızlığı və şəxsi marağı cəmiyyətə onu boşluqlarla, sürüşmələrlə təqdim edir: peyğəmbər Tanrı, əshabə peyğəmbər yerinə və s. təqdim edilir, dinin çərçivəsi imana da tətbiq olunur. Vacib bir məqam kimi vurğulayaq ki, belə şəxslərin sayəsində, bir tərəfdən, insanlar dini sistemdə boşluqları hiss edir, hikmət kimi qələmə verilənlərin adi söz yığnağı, hətta xurafat, yaxud aldatmaq vasitəsi olduğunu anlayır və bu xəyanəti yalnız həmin adamın deyil, bütöv dinin ayağına yazırlar. Digər tərəfdən, dinin çərçivəsi belə şəxslərin sayəsində sərtləşir, idollaşır – standart ağıllar xüsusi ağılları idarə etmək iddiasına düşür. Məhz bu çərçivəyə daha yaxşı yerləşən düşüncə sahibləri isə filosof, övliya (tarixdə daha yuxarı iddialar da məlumdur) kimi təqdim edilib

Deyilənlərdə əhəmiyyətli fakt budur ki, iyerarxiyanın pillələri arasında sürüşmə baş verəndə boşluqlar yaranır, düzgün meyar və həqiqət itir. Dinin sistemi pozulur, gerçəkliyin üst qatında yaranan çərçivə – idollaşma ilahi qanun kimi qəbul edilir. Məsələn, Avropada neçə illər davam edən inkviziya, Şərqdə düşüncələrinə görə filosof və mütəfəkkirlərin edamı məhz bu çərçivənin tələbi idi. Din ilahi hikmətlərin və yüksək dəyərlərin təbliğat və təşviqat institutu olmaqdan çıxıb düşüncələrin hakiminə çevriləndə o öz mahiyyətindən, yəni imanda uzaq düşmüş olur. İman insanın ruhundadır və onun şüurunun bu sahədə zənginləşməyə ehtiyacı var. Bu baxımdan, dinə müraciət həmin imandan gələn bir tələbdir. Ona görə də, dinin çərçivəyə çevrilib düşüncələri məhdudlaşdırması, eyni zamanda, şəxsi maraqları dini ehkamlar adı ilə təqdim etməsi müvafiq olaraq cəmiyyətin də sistemini pozur: din və insanlar arasında sağlam vasitə, etibar itir, daha təhlükəlisi isə, insanlar imandan üz döndərir və mənəviyyatın pozulmasına səbəb olur. Bütün bu proseslərin fonunda məhz din cəmiyyəti pozan qüvvə kimi təqdim edilir. Din ağlın məhsulu olduğuna görə, ayrı-ayrı şəxsiyyətlər ona təsir edə bilir. Yəni

əslində isə din deyil, onu yanlış təqdim edən şəxs pozucu qüvvədir.

İyerarxiyada təqdim etdiyimiz mümkün sürüşmə ağıllarda ciddi təhrifə səbəb ola bilir. Yaradan hər yaratdığı ilə onun mahiyyətindəki nur vasitəsilə əlaqəlidir. Hər insan öz potensialının imkan verdiyi qədər öz şəxsiyyətini qurur, təsdiqləyir. İman həmin nurun, potensialın reallaşmasında prinsipial rol oynayan faktorlardan biri, hətta birincisidir. Buna görə də onun təhrif olunması, qarşısının alınması, yaxud başqası tərəfindən idarə olunması şüur və ağlın arasındakı tarazlığın pozulmasında özünü göstərir. İman öz mənəviyyatının yüksəlməsinə, düşüncəsinin ali qata qədər irəliləməyinə əminlikdir və onun çərçivəyə alınması insanın daxilən məhdudlaşması və acizləşməsidir. Din imanın ümumiləşmiş, standartlaşmış forması, bələdçisidir. Buna görə də, onda olan yanlışlıq nəinki şəxsiyyətin, ümumiyyətlə cəmiyyətin tənəzzülündə aparıcı rola malikdir.

Vurğulanmalı olan daha bir məsələ ilə iyerarxiyanın təhrifinin düşüncələrindəki enerji axınına mənfi təsir etməsidir. Xatırladaq ki, enerji axınına yaradılan hər maneə – çərçivə həm həyəcanlandırıcı faktor rolunu oynayır, həm də onun kəsilməsinə səbəb ola bilir. İyerarxiyanın pozulması ağılda psevdomərkəzin yaranması deməkdir. Bu isə, bir tərəfdən, ağlın şüurdan aldığı intensiyanın zəifləməsi, parçalanması, hətta təhrifi deməkdir. Digər tərəfdən, bu, şüurun, deməli, həm də ağlın İlkmənbə ilə əlaqəsinin, bu isə öz növbəsində idrak prosesinin zəifləməsidir. Bundan ən çox əziyyət çəkən şüur olur, çünki malik olduğu işıq, enerji xərclənməmiş qalır və heç cür sakitəşmir. Bütünlüklə psevdomərkəzin təsiri altına düşən ağıl isə şüurun əziyyətini ümumiyyətlə görmür. Yəni əslində, şüurun ilk maneəsi elə öz ağlı olur. Yaranmış psevdomərkəz bir növ kosmosdakı qara dəlik funksiyası daşımağa başlayır – məlum bilikləri udur, şüurdan gələn işın yayılmasının qarşısını alır, bütün diqqəti özü tərəf çəkir və şüur heç cür öz daxili idolundan qurtula bilmir. Yeri gəlmişkən onu da vurğulayaq ki, çərçivə gerçəkliyin üst qatında, ətraf aləmdə olanda, şüur və ağıl birləşib onu keçə bilir. Ağıl özü çərçivəyə çevriləndə isə qüvvələr parçalanır. Burada bütün güc yenə

şüurun özünün üzərinə düşür, çünki yalnız daxili təkan tarazlığı düzəltmək və enerji axınını bərpa edə bilər.

### § 153. Kamillik və ağıl

Gerçəkliyi quran insandır. Hər nə qədər Allahın yaratdıqları üzərində və artıq mövcud şeylərin üzərində, onların vasitəsilə nə isə yaratsa da, o, var olana öz iradəsi və hökmü ilə dəyişiklik gətirməyə, yenisini yaratmağa qadir bir varlıqdır. Xüsusilə vurğulayaq ki, biz təbii quruluş, yaxud ətraf mühit yox, məhz gerçəklik deyirik. Sxem 36 – gerçəkliyin strukturu da əslində dediyimizin bir təsdiqidir. Onu da əlavə edək ki, gerçəklikdə dəyişmədən qalan yalnız alt qat – obyektiv həqiqət olur. Daha sonra onun üzərində qurulan struktur da məhz ilk ideyanı nə dərəcədə ehtiva etməsindən asılı olur.

Əvvəlki təhlillərimizdən də məlum olduğu kimi, Yaradan ilk ideyanı olduğu kimi onun formasında da təcəssüm etdirir. Məhz ilk ideya ilə son nəticə tam uyğun olduğuna görə də, ilahi yaradılış kamil hesab edilir. İnsan bilavasitə ağlı vasitəsilə yaradır, daha dəqiq desək, yaradıcılığın bütün nəzəri hissəsi şüurda getsə də, maddi dünya ilə təmas ağıl vasitəsilə olduğuna və şüurun nail olduqlarını ağıl ifadə etdiyinə görə, yaradan da ağıl hesab edilir. Burada iki faktoru vurğulayaq. Birincisi, hər nə qədər şüur ilahi aləmdən bilik qavrasa da, şeylərin eydedik strukturuna dərindən nüfuz etsə də, son nəticədə ağla rasionallaşmış biliklər keçir və yaradıcılıq da onlara əsaslanır. Bu, həm də o deməkdir ki, yaradılmış şeyə aid bir çox irrasional bilik kənarda qalır. Nəzərə alsaq ki, məhz bu biliklərdə əhəmiyyətli incəliklər ehtiva olunur, o zaman yaradıcılıqda nə qədər ciddi nöqsanların ola biləcəyini təsəvvür etmək çətin olmaz. Əlbəttə, burada rasional şüurun, yaxud lazımi bacarığın kifayət qədər inkişaf etməməyinin də böyük rolu var. Deməli, şüur və ağıl arasında əlaqə nə qədər sıx olursa, bir o qədər şüurda gedən proseslər olduğu kimi ağılda əks oluna bilir. Bu isə yaradıcılıqda özünü göstərir. Onu da əlavə edək ki, şüur və ağıl arasında tarazlıq pozulanda, ağıl şüurun verdiyi bilikləri dəyişdirə, təhrif də edə bilir. Yəni insanın yaratdığı şüu-

run qavradıqlarının saf halı deyil, ağlın mürəkkəb sisteminin nəticəsidir. Məhz yaratdığının orijinal ideyadan nə qədər uzaq olduğunu, yaxud bundan daha mükəmməl bir şeyin mümkünlüyünü anladığına görə də daim daha mükəmməlinin axtarışındadır. İkinci vurğulanmalı olan məsələ isə, şüurun özünün məhdudluğudur. Şüur öz noemasını qavradığı noemalar əsasında qurur. Hər noema daha böyük bir sistemin tərkib hissəsidir. Şüur idrak prosesi boyu yalnız öz intensiyasının imkan verdiyi radiusda nə isə qavraya bilir. Bəli, insanın öz ideyası tamamlanır, lakin onun tərkibindəki ideyalar naqisdir. İnsan yaradıcılığı haqqında təhlillərimizi xatırlayıb burada bir məsələ üzərində xüsusi dayanaq. Şüur noematik qatda universal vəhdətə nüfuz edir. Şüurla ağıl arasındakı əlaqənin sıxlığı isə düşünülən ideyanı olduğu kimi yaratmağa imkan verir. Bu, universal vəhdətin bir hissəsi, Mütləq ruhun insan yaradıcılığı vasitəsilə maddi təcəssümü hesab oluna bilər.

Deyilənlərdən belə məlum olur ki, gerçəklik ilahi yaradılışın dəyişdirilmiş halıdır. Buna görə də, ağıl şüurun ilk çərçivəsi hesab edilir, çünki idrak prosesi gerçəklikdən – ağlın yaratdıqlarından başlayır. Ağlın səviyyəsindən asılı olaraq şüur obyektiv həqiqətə də gedə də bilər, əksinə, dar çərçivədə qala da. İdrak prosesinin ilk mərhələləri ümumi biliklər arasında keçir və şüurdakı ilk ideyaya uyğun olaraq onların nə dərəcədə kamil və naqis olması məlum olur. Yəni şüur bir növ idrak prosesi boyu həm də təftiş edir, müqayisələr aparır – naqis və kamil məqamları müəyyən edir. Bir daha təkrar edək ki, söhbət insanın yaratdıqlarından gedir. Gerçəkliyin üst qatında onlar daha hakimdir və buradakı informasiya xaosu bütün baxış fokusunu zəbt edir. Burada kamilliyinin də öz meyarı olduğuna görə, şüur üçün müqayisə aparmaq çətindir. Alt qatlara keçdikcə düşüncə üçün daha geniş meydan açılır, şeylərin əsl ideyası daha çox sezilməyə, naqislik və kamillik fərqlənməyə başlayır və gerçəklik haqqında təsəvvürlər də dəyişir. Beləliklə, ağıl nə qədər dərinə gedirsə, bir o qədər ilahi yaradılışla bəşəri yaradıcılıq arasında paralel aparmaq imkanı qazanır.

Paradoksal bir sual meydana çıxır: kamilliyi görmək üçün insan gerçəklikdən, öz dünyasından uzaqlaşmalıdırmı? Kamilliyi görmək

üçün ağıl a) onu dəyərləndirə biləcək səviyyəyə çatmalıdır; b) həmin şeyin ideyasını anlamalıdır. Məsələ burasındadır ki, şüur aldığı informasiyanı ağla ötürəndən sonra oradakı sistem qərar verir. Eyni zamanda, yalnız zahiri formasına görə verilmiş qərar istənilən halda yanlış olacaq. Deməli, kamilliyi görmək üçün gerçəklikdən uzaqlaşmaq yox, onun daxilinə nüfuz etmək lazımdır. İnsan nəzərə almalıdır ki, o, bu dünyada yalnız deyil və o, yalnız bu maddi dünyanın sakini deyil. Eyni prinsip hər şeyə şamil edilir və kamillik haqqında təsəvvür və qərar da buna görə verilməlidir. Bunları anlamaqla, insan həm özünü universal aləmdə görməyə cəhd edəcək, həm də meqaşüurun bir damlası olaraq özünün imkanlarını, potensialını düzgün dəyərləndirəcək. Şüur nüfuz edə bildiyi hər yeni noema ilə universal harmoniyanın – kamilliyin bir hissəsinə çevrilir, ümumi işıq axınına daha dərindən qoşulur. Bu, universal kamilliyə qarışmaq, həmin böyük hissi yaşamaqdır. Sanki dalğıc okeanın dalğalarına qarışır və özünü bu böyük gücün, sonsuzluğun bir hissəsi kimi hiss edir. Bu, şüurun son ideyasının təsdiq anıdır.

Belə məlum olur ki, kamillik haqqında hər ağlın meyarları var. Əlbəttə, bu da bir həqiqətdir ki, gerçəkliyin üst qatında müəyyən bir kamillik etalonu yaranır və idollaşır. İdol kamillik nümunəsinə çevrilir. Məsələn, Kant öz dövrünü xarakterizə edərək yazırdı ki, "Bu dövrdə insanlar idollara inanırlar və insanların dəyəri həmin idola yaxınlığı ilə ölçülür". Yəni müəyyən bir ideya bütün ideyaların etalonuna çevrilir. Burada istər-istəməz prokrust yatağı yada düşür. Onu da əlavə edək ki, bu idollaşma düşüncələrin inkişaf istiqamətinə də təsir göstərir.

Gerçəklik müxtəlif ağılların kəsişdiyi, kimlərin isə marağına xidmət edən məkan olduğuna görə, onun bütöv kamilliyindən danışmaq mümkün deyil. Yəni əgər ilahi yaradılış bütöv sistem olaraq mükəmməldirsə, eyni şeyi insan yaradıcılığı haqqında demək olmur. İşin maraqlı tərəfi odur ki, ilahi təbiətin özü də mükəmməl sisteminə baxmayaraq maraqlarına uyğun gəlməyəndə insan onu dəyişdirib daha "kamil" formaya salmağa cəhd edir. Məsələn, bataqlıq insanın planlarına, gözəllik haqqında təsəvvürünə, həyat şəraitinə uyğun gəlmir və onu qurudub

yerində ya şəhər salır (Sankt-Peterburq kimi), ya da qazıb torf, başqa faydalı qazıntılar çıxarır. Yəni böyük bir ekosistem dağıdılır, yerini insanın öz ağlının məhsulu tutur. Beləliklə, şeylərin əsl ideyası unudulur, onun mənbəyi arxa plana itələnir və insan yaradıcılığı, insanın yaratdığı kamilliklər arasında rəqabət başlayır. Burada incə bir məqam var: rəqabət ağıllar arasında gedir. Deməli, kamillik istəyi, cəhdi məhz ağıldan gəlir, çünki ideyanın sistemləşməsi və maddiləşməsi ağılda baş verir.

Dediklərimizdə, iki qütb sezilir: bir tərəfdə şüurun qavradığı, hər nə qədər tam rasionallaşdıra bilməsə də, amma fərqində olduğu kamillik, digər tərəfdə ağlın yaratmağa qadir olduğu, gerçəkliyin tələblərinə cavab verən və maddiləşən kamillik. Birinciyə bəzən mənəvi kamillik də deyilir. Burada əhəmiyyətli məqam ondan ibarətdir ki, şüur aktivdirsə, o, nə qədər zəif də olsa, ara-sıra ağla bilik ötürür, onun fəaliyyətini qiymətləndirir, təhlil edir, səviyyəsinin artmasına kömək edir. Təsadüfi deyil ki, mənəvi gözəllik, kamillik hissi canlı olan insanlar bundan məhrum olanlardan fərqlənir: zövqünə, yaradıcılıq qabiliyyətinə, istedadına, dəyərlərinə görə. Hətta belə insanların yaradıcılığı zamanında diqqətə layiq olmasa da, yəni gerçəkliyin üst qatının tələblərinə cavab verməsə belə, bir gün mütləq öz dəyərini alır, çünki universal gözəlliyin bir damlasıdır və özündə yüksək ideya ehtiva edir. Buna təkcə rəssamlıq tarixindən kifayət qədər nümunə gətirmək mümkündür. Maraqlı fakt budur ki, belə zaman sürüşməsi daha çox öz ideyasının noemasını yaradanlarda, yəni incəsənətdə, fəlsəfədə və s. baş verir. Çünki burada ilk ideya obyektiv həqiqətlər arasından deyil, insanın öz şüurundan götürülür. Buna görə də, şüurun səviyyəsi, ilahi aləmlə əlaqəsi, mənəviyyatı prinsipial rol oynayır. Burada ağıl gerçəkliyin deyil, şüurun diktəsi ilə hərəkət etməli olur, çünki şüurda ilahi qüvvənin rolu, hökmü böyükdür. Mikelancelonun "Pyeta"sı yüksək heykəltəraşlıq ustalığı ilə yaradılıb, eyni zamanda, həmin heykələ bir məna, mahiyyət də yüklənib və onu bənzərsiz edən odur. Eyni heykəlin bənzərini düzəltmək mümkündür, ancaq eyni mahiyyəti tam əks etdirmək mümkün olmayacaq, çünki o, bilavasitə heykəltəraşın şüurunun ilahi aləmdən aldığı bir gözəllik, kamillik idi. Universal həqiqətin bir hissəsini ehtiva etmək məqsədi daşıyan dəqiq

elmlərdə isə vəziyyət başqadır, çünki onlar zatən ilahi yaranışın kamillinin bir parçasının ifadəsidir və nə dərəcədə obyektiv həqiqəti əks etdirərsə, bir o qədər tez ümumiləşmiş biliklər arasında təsdiq olunacaq. Burada müəllifin, alimin mənəviyyatı deyil, onun ağlının səviyyəsi əhəmiyyətlidir.

Ağlın kamillik meyarları iki prizmadan təyin edilə bilər. Birinci halda bu, başqa ağlın yaratdığı, cəmiyyətdə etalon kimi qəbul edilən etalon, ən yaxşı halda isə ilahi tərəfindən yaradılmış bir şey ola bilər. Bu, obyektiv meyardır və şeyin kamilliyi onun həmin etalona yaxınlığı ilə ölçülür. Onu da vurğulayaq ki, bu meyarla yaradan ağıl və şüur arasında ziddiyyətin yaranması, ağıl tərəfindən şüurun dediklərinin təhrif olunması mümkündür. İkinci halda isə, kamilliyin meyarı şüurdakı ideya olur, məhz o, öz dəyərlərini diktə edir. Maraqlıdır ki, obyektiv etalon ağıl üçün mövcuddur, şüur üçün yox. Məsələn, fil heykəlinin kamilliyi onun canlı heyvana bənzərliyi ilə ölçülür. Salvador Dalinin fil rəsmi isə həmin nümunədən çox uzaqdır, və o, Dalinin kamillik hissinin təzahürüdür. Belə olan təqdirdə daha bir suala cavab vermiş olarıq: kamillik subyektivdirsə, onun etalonu ola bilərmi? Xeyr. İdeyanın əslinə bənzərlik dərəcəsi var. İşıldaböcəyin öz işığı onun üçün mükəmməldir və ondan köz effekti gözləmək, günəşə bənzəmirsə naqis hesab etmək yanlış düşüncə olar. Hər insan öz bacarığı və potensialı səviyyəsində nə isə yaradır. Kamillik nümunəsi tək olsa və hər kəsdən yalnız ona uyğunluğu tələb edilsə, dünya belə rəngarəng, inkişaf stimulu olmazdı. Hər nə qədər obyektiv kamillik etalonu olsa da, şüurun təkanı olmasa, ağıl yarada bilməz. Şüur üçün isə idol yoxdur. Bununla yanaşı, hər insanın öz kamillik nümunəsi var desək, vəziyyəti daha dəqiq izah edərik. Hər şüur obyektiv dünyada öz subyektiv yolunu keçirsə və özünə uyğun səviyyədə və miqyasda həqiqət qavraya bilirsə, deməli, onun qəbul etdiyi kamillik də subyektivdir. Kamillik hissi insana məxsusdur. Kimsə onun üçün nümunəni gerçəklikdən götürür, bir başqası isə ilahi yaradılışdan. Maraqlıdır ki, məhz ikinci kamillik nümunəsi şüurda özünü büruzə verir.

# III bölmə. Ağıl və Loqos

## *§ 154. Ağıl rasional və irrasional düşüncə işığında*

Ağlın canlı olmağının göstəricisi düşüncədir. Noema olan yerdə noeza – düşüncə də olmalıdır. Sxem 32-ni xatırlasaq, ağıl şüuru əhatə edən çevrədir, daha dəqiq desək, şüur ağlın noematik nüvəsidir. Noeza iki çarx arasındakı dişləri xatırladır *(sxem 37).* Ağlın noezaları daxildən şüurla, xaricdən ətraf aləmlə əlaqələndirən xətdir. Aktiv, canlı ağıl arada qalan məsafədir. Burada prinsipial bir məqam var. Ağlın mərkəzi öz şüuru, özünüreduksiya olanda onlar arasında da düşüncə – noezalar olur. Bu zaman şüurun intensiyası ağla da sirayət edir. Əksinə, ağıl kənar bir ağıl tərəfindən idarə olunursa, yəni psevdomərkəz güclüdürsə, o zaman, daxili çarxlar ya olmur, ya da zəif olur. Bu o deməkdir ki, ağıl şüura, özünüreduksiyaya istinad etmədən, yalnız xaricdən alınan bilik və informasiyalarla "qidalanır" və onlara uyğun hərəkət edir. Bu, həm də o deməkdir ki, gerçəkliyin üst qatından təkan alan ağıl dərinə nüfuz edə bilmir, öz sabit mənbəyi məhdud, kiçik olur. Təbii ki, belə olan halda, intensionallıq da zəif olur. Belə ağıl yalnız ümumi biliklər hüdudlarında irəliləyə bilir, standart səviyyədən yuxarı qalxmır.



*Sxem 37. Daxili və xarici dişli ağıl.*

Ağıl yalnız rasionaldır. İrrasionallıq onun nüvəsinə – şüura xasdır. Düşüncə biliyin təhlil prosesidir. Xaricə, gerçəkliyə yönəli düşüncələr yalnız rasional olur, yoxsa həmin ideyanı nə maddiləşdirmək, nə də ümumiləşdirmək mümkün olar. Daxilə yönəli, yəni şüur və ağıl arasındakı düşüncələr bilikdən asılı olaraq rasional da ola bilər, irrasional da. Bu o deməkdir ki, irrasional düşüncə yalnız ağıl və öz noematik nüvəsi

– şüur arasında mümkündür. Şüur qavradığı irrasional bilikləri ağılla təmasda rasionallaşdıra bilər, yəni həmin biliklərin "emalı" ağlın daxili çarxları vasitəsilə baş verir. Başqa ağla istinad edən, idarə olunan ağıl bu prosesdən məhrum olur. Şüur və ağıl arasında noezaların mövcudluğu ilk növbədə ağlın özünüifadəsində özünü göstərir: düşüncə səlisləşir, aydınlaşır, daha məqsədyönlü olur. Təbii ki, belə ağılda hökm vermək, qərar qəbul etmək, yeni və köhnə arasında fərq qoya bilmək, yaradıcılıq işığını seçmək qabiliyyəti də yüksəlir.

Belə məlum olur ki, düşüncənin irrasional və rasional olması bilavasitə ağlın səviyyəsinin və onun şüurla əlaqəsinin göstəricisidir. İnsanın qavradığı ilk biliklər rasional və ümumi olur. Tədricən şüurun korrelyatları artır və bu ağıl sistemini mürəkkəbləşdirir, eyni zamanda, ağlın gerçəkliyə təsir imkanları da artır. Ağıl sisteminin formalaşması məhz aradakı çarxların yaranması, çalışmasıdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, onlar nə qədər sıx olarsa, bir o qədər ağıl şüurun imkanlarından, xüsusilə onun nurundan yararlana bilir. Bu, daxili enerji mənbəyindən qidalanma və tükənmə təhlükəsindən uzaq olmaq deməkdir. Ağlı formalaşdıran və təbii ki, onun gerçəkliyə təsir imkanını artıran düşüncədir. Heç şübhəsiz, daxildən hərəkətə gətirilən ağıl daha aktiv və güclüdür. Eyni zamanda, hər nə qədər ağılda bütün biliklər rasional olsa da, həmin biliyin gerçəkliyin hansı qatından qazanılması ağlın səviyyəsində, yaradıcılıq qabiliyyətində özünü göstərir. Onu da xatırladaq ki, şüurdakı hər irrasional bilik rasionallaşa bilmir və ağla "xammal" şəklində ötürülür. Bu düşüncənin zəifliyi, rasional şüurun kiçikliyinin təzahürüdür və ağıl onu rasionallaşşana qədər təkrar emal edir – üzərində düşünür, yeni biliklər cəlb edir, mövcud radiusunu genişləndirməyə çalışır.

Şüurun trayektoriyası ağıldan fərqlidir. Onun səviyyələrinin artması düşüncələrin də üçölçülü dünyadan daha üst ölçülü dünyaya keçidini şərtləndirir. İdrak çevrə xarakterlidir və şüurun hərəkəti bütün koordinat oxları boyu mümkündür. Əvvəlki təhlillərimizdə də qeyd etdiyimiz kimi, a) 0 (mərkəz) – şüurun özüdür, başlanğıc və ilk təkan nöqtəsidir; b) mərkəzdən keçən koordinat oxları şüurun hərəkət müstəvisini

bildirir: **0x** (absis) – maddi dünya, **0y** (ordinat) – ilahi aləm, **0z** isə noematik səviyyə və əlavə olaraq **ct** – zaman oxu var (o, hər xətlə paralel olduğuna görə, ayrıca işarə olunmur). Şüurun hərəkətlərin cəmini (*sxem 38)* atomun modelinə bənzətmək olar (əslində sxemdə məhz atom təsvir olunub). Bu bənzərlik təsadüfi deyil, əksinə, qanunauyğunluqdur. Əvvəla, bununla şüurun hər istiqamətdə yüksək sürətlə hərəkət edə bilməsini göstərməkdir. İkincisi, xatırladaq ki, şüur eydosdur və atomun özü də eydosdan ibarətdir.

Ağıl mərkəzdəki şüurun ətrafında formalaşır, yəni eyni nöqtəni həm də ağıl adlandırmaq mümkündür. Sxemdə şüurun xarici radiusları təsvir olunur, ağıl isə onun daxili radiusu – özünüreduksiyanın həcminə uyğun formalaşır. Şüur daha çevikdir və azaddır, fərqli istiqamətlərdə irəliləyir, bilikləri qavrayır, ağıl isə bir nöqtədə qalır və məhduddur. Bunu iddia etmələr biz onun varlığını və gücünü kiçiltmək məqsədi daşımır. Əksinə, ağıl inkişaf etmək və böyümək keyfiyyətinə malikdir və şüurun qazandıqlarının hamısı məhz onun böyüməyinə və potensialının zənginləşməsinə sərf edilir. Xatırladaq ki, ağıl şüurun ətraf aləmlə təması və ifadə bacarığıdır. Şüur və ağıl arasındakı əlaqə – düşüncə ağıl tərəfindən tənzimlənir, yəni ağıl nə qədər tutumlu olarsa, bir o qədər düşüncə də sıx olar. Düşüncə ağlın məhdudluğunu hiss etmir, çünki onun imkanlarını ifadə edir. Bunu hiss edən şüurdur. Çünki məhz o, ilahi mənbənin, Loqosun sonsuzluğunun şahidi olandan sonra irrasionalı bütöv şəkildə rasionallaşdıra bilmir və ağlın, düşüncənin, yaradıcılıq imkanlarının limitini hiss edir. Əhəmiyyətli bir məqam kimi vurğulayaq ki, hər nə qədər şüur daha böyük imkanlara malik olsa da, ağıl və düşüncə onu da məhdudlaşdırmağı bacarır. Bunu dibçəkdəki bir bonsay çinarla, meşədəki çinara bənzətmək olar. Hər ikisi eyni ağac növüdür, sadəcə birinci halda, onun kökü bəlli bir çərçivədə inkişaf edir, kənardan verilən qida



*Sxem 38. Şüurun hərəkət müstəviləri.*

ilə yaşayır, ikinci halda, ağac bilavasitə torpağa özü nüfuz edir, köklərinin hara qədər getdiyini təyin etmək heç mümkün olmur, boyu, şaxələnməyi də kökünə adekvat olur. Bonsaya verilən qidalar nə qədər güclü də olsa, bitdiyi şərait ideal olsa da, bu, başqa bir ağıl tərəfindən qoyulmuş çərçivə hüdudlarındadır. Burada əhəmiyyətli məqam məhz kökün – nüvənin dərinə gedə bilməməsidir. Öz mərkəzi – nüvəsi ilə əlaqəsi kəsiləndə kəsilib deyə, o, başqa bir ağıla möhtac olur. Yaxud məhz belə hallarda insan ağıldan imtina edərək ruhani təcrübəyə üz tutur, yalnız özünün bildiyi və anladığı irrasional biliklərlə yaşamağa üstünlük verir.

Çevrə boyu hərəkət edən şüurdur. Gətirilən biliklər sayəsində formalaşan və böyüyən isə ağıdır. Qeyd etdiyimiz kimi, uşaq yaşlarında, təhsil aldığı müddətdə, yəni ümumi biliklər çərçivəsində şüur yalnız **0x** (absis) koordinatı üzərində hərəkət edir (*sxem 39a*). O, kiçik radiusdan tutmuş ən uzun radiusa qədər böyüyən çevrələr də cıza bilər, yarımçıq da kəsilər, hətta ümumiyyətlə çevrə cızmadan mövcud da olar. Bu, birinci növbədə şüurun, daha sonra isə ağlın səviyyəsinin göstəricisidir. Bu, asılıdır insanın aldığı təhsildən, biliyini hansı sahədə və necə artırmaq istəyindən və istedadından. Ən vacibi isə, şüurun səviyyəsinin artması ilə onun hərəkət trayektoriyası da dəyişir və o, **0y** və daha sonra **0z** üzrə də yüksələ bilir (*Sxem 39b*). Bu, ümumi biliklər çərçivəsindən kənara çıxmaqdır. Onu da əlavə edək ki, şüur nə qədər ağılla sıx əlaqəli olursa, bir o qədər qazanılan biliklər sistemləşir və bu, mərkəz nöqtənin daha güclü olmasına səbəb olur. Ağıl şüurun daxili radiusun, özünüreduksiyanın ifadəsidir. Xüsusilə vurğulayaq ki, bizim təqdim etdiyimiz sxemlər yalnız şüurmərkəzli ağla aiddir. Burada bir incə məqamı da xatırladaq: yalnız bu halda şüur diaqonal boyu hərəkət edib çevrəsini tamamlayır və yalnız bu halda şüurun işığı obyektin – noemanın işığını zəbt edə, onu qavramağa qadir olur. Əks halda çevrələr tamamlanmır, şüurun işığı haradasa itir və




*Sxem 39a.*




*Sxem 39b.*

belə hallar çoxaldıqca şüurun öz işığı tükənməyə başlayır. Psevdomərkəzin zəiflətdiyi ağlın nüvəsi – şüur üst qata yüksələ bilmir. Başqa sözlə desək, hər nə qədər çevrə boyu hərəkət edən şüur olsa da, ağlın potensialı burada təməl rolu oynayır.

Şüurun səviyyələrinin yüksəlməsi idrak prosesinin gerçəkliyin obyektiv qatına və Loqosa qədər uzanmasına səbəb olur. Sxemdəki hər çevrə yalnız bir ideyanın dərki prosesidir. Bir çevrə tamamlanmamış, başqa çevrəyə keçə bilməz. Daha əvvəl də qeyd etdiyimiz kimi, bir anda intensiya yalnız bir istiqamətdə yönələ bilir, əks halda işıq parçalanır və effekt azalır. Hələ zaman haqqında təhlilimizdə gəldiyimiz bir nəticəni təkrar vurğulayaq ki, məhz çevrə tamamlananda həmin ideya tam qavranılmış hesab edilir. Yəni çevrəsi tamamlanmayan bir ideya hələ şüurun özü üçün də qaranlıqdır, deməli, onun rasionallaşması və ağla ötürülməsi də mümkün deyil. Onu da vurğulayaq ki, belə biliklərlə rasionallaşa bilməyən biliklər fərqlidir. Rasionallaşan yalnız tam qavranılmış biliklər arasından olur, lakin gerçəkliyin tələblərindən, ağıl sahibinin istedadı və düşüncələrini çatdırmaq qabiliyyətindən asılı olaraq onlar olduğu kimi maddiləşə bilmir.

Yeri gəlmişkən, onu da vurğulayaq ki, ağıl nə qədər yüksək səviyyəli və sistemli olursa, bir o qədər həmin şəxsin bacarıqları çoxşaxəli olur. İrrasional və rasional düşüncələr çox sıx əlaqəli olduğuna görə, insan öz biliklərini fraqmentlər şəklində olsa belə təqdim etməyə çalışır. Məsələn, Aristotelin yaradıcılığında az qala əksər elmlərin başlanğıcını tapmaq mümkündür. Yaxud Leonardo da Vinçinin fəaliyyət sahələrini o dərəcədə geniş olmuşdur ki, tədqiqatçılar onun kimliyi haqqında konkret qərar verməkdə çətinlik çəkir. Əslində, bu, bir daha təkrar edək, ağlın öz nüvəsini tam ifadə etmək istedadıdır.

Şüurun qalxa biləcəyi ən ali məqam Loqosdur. Hər nə qədər bu, yalnız üstşüurun yüksələ biləcəyi bir səviyyə olsa da, əslində, prosesin təməlində bütünlüklə ağıl sistemi durur. İdrak prosesi mərkəz nöqtənin təyin etdiyi radius boyu irəliləyir, bu isə, şüur və onun ətrafında formalaşan ağıldır. Yəni burada hər koordinat oxunun öz əhəmiyyəti, öz rolu

var. Xatırladaq ki, hər xarici radiusda qazanılan biliklər daxili radiusun genişlənməsinə xidmət edir və hər güclü daxili təkan daha böyük radius deməkdir. Deməli, Loqosa yüksəlmək üçün güclü ağıl sistemi olmalıdır. Ağıl yalnız rasional biliklərə əsaslansa da, Loqosdan xəbərsiz deyil və şüurmərkəzli bir ağıl məhz vasitəli də olsa, Loqosa can atır. Deyilənlərdə bir neçə vacib məqam üzərində xüsusi duraq: a) yalnız noematik qatda şüur koordinat oxlarının bütün istiqamətləri boyu hərəkət edir; b) prosesin hansı müstəvidə getməsindən asılı olmadan qavranılan biliklər rasionallaşaraq ağıl sistemində yerləşməlidir ki, növbəti mərhələnin təkanında yer ala bilsin; c) şüurmərkəzli ağlın sistemləşməsində şüurun intensiyası böyük rol oynaya bilir. Əks halda, o, gerçəkliyin təzyiqində təhrif oluna, deformasiyaya uğraya bilər. Bu, həm də ağlın da nurlanması deməkdir.

### *§ 155. Şüur və ağlın hərəkət trayektoriyaları*

Şüur ağlın nüvəsidir, koordinat oxunda onun mərkəzindədir. İdrak prosesi zamanı hərəkət edən, şeylərin mənasını, mahiyyətini qavrayan şüurdur, ağıl isə hərəkətsizdir, o, yalnız biliklərin sistemləşmə məkanıdır. Koordinat oxunda **0x**, **0y**, **0z** istiqamətləri üzrə yaranan çevrələr şüurun qavradığı, ehtiva etdiyi ərazinin hüdudlarıdır. Burada hərəkət müstəvisinə uyğun olaraq həm rasional, həm də irrasional biliklər yer alır. Ağıl məhz bu biliklər, daha dəqiq desək, onlar arasında rasionallaşanlar əsasında formalaşır və sistemləşir. Bu o deməkdir ki, a) şüurun çevrəsi ağlın hüdudlarından böyükdür; b) şüur ağlın inkişaf potensialıdır; c) ağıl şüurun hüdudları daxilində inkişaf edir. Eyni zamanda, ağıl, daha əvvəl də qeyd etdiyimiz kimi, şüura daxili bir məhdudiyyət yaratmağı bacarır. Məhz öz şüuruna istinad etdiyi halda bu məhdudiyyət yaranmır və ağıl şüurun hüdudsuzluğundan yaralana bilir.

Şüur insan varlığının nüvəsidir və onun maddi varlığından öncə varlıq hüququ qazanır. Yaxud maddi varlıq ona istinadən formalaşır. Ağıl isə sonradan, bilik bazası yarandıqca, şüur özünü təhlil etməyi öyrənəndən sonra formalaşır, yəni maddi dünya çərçivəsində və müəyyən

səviyyəyə çatmış şüur əsasında. Maraqlıdır ki, şüurun varlığı-yoxluğu sualı da bundan sonra meydana çıxır və bu sualı qoyan elə ağıl olur. İnsanın ürəyinin, yaxud başqa orqanlarının varlığı, quruluşu tədris olunur, həmin orqan ağrıyanda yada düşür, ya da mütəxəssis tərəfindən xatırlanır. Yəni maddi bədən haqqında məlumat ümumi biliklər sırasında öyrənilir və ağıl onları mənimsəyir. Ağıl insanın ətraf aləmlə təmas vasitəsi olduğuna görə, bir şəxsin ağlı haqqında təsəvvür, rəy də bunun əsasında formalaşır: gerçəkliyin üst qatına nə dərəcədə uyğunlaşa bilir, ümumiləşmiş bilikləri necə mənimsəyir, özünü cəmiyyətdə necə ifadə edir və s. Dediyimiz kimi, ağıl şüurun özünü təhlili əsasında formalaşır, yəni başlanğıcda onlar eyni nöqtədə bərabər olurlar. Tədricən biliklər çoxalır, eyni zamanda, kənar ağlın (müəllim, valideyn, dostlar, cəmiyyət) təsiri və təzyiqi də artmağa başlayır və psevdomərkəzlər yaranır. Belə olan halda, aradakı nisbət, əlaqə pozulur. Əksər hallarda ağıl bilikləri alsa da, sistemləşmə şüurun əsasında deyil, başqa bir mərkəzin ətrafında gedir və müəyyən müddətdən sonra biliklər də həmin mərkəz tərəfindən daxil olmağa başlayır. Nəticədə ağıl və şüurun inkişaf balansı pozulur: ağıl "şişir", böyüyür, şüur kiçik qalır. Sual yarana bilər ki, biz şüuru ağlın inkişaf hüdudları adlandırırıqsa, bu necə ola bilər?! Bunu orqanizmdə yalnız bir hüceyrənin böyüməsinə bənzətmək olar. Təbii ki, bu, orqanizm üçün, bu kontekstdə isə şüur və ümumiyyətlə şəxsiyyətin yetişməsi üçün böyük maneə, hətta təhlükədir: şüur passivləşir, ağıl və şüur arasındakı düşüncə xətləri yox olur, tədricən xarici düşüncələr də zəifləyir və bu ağıl başqa biri üçün xammal, yaxud plasdarmdan başqa bir funksiya daşıya bilmir. Ağlın öz inkişaf istiqaməti olmur, daxili xaos yaşanır və başqa ağıl tərəfindən idarə olunur. Hətta həmin şəxs özü bir işlə, bir vəzifə ilə məşğul olsa belə, düşüncəsi qeyri-müəyyən olur və bu, özünü onun gördüyü işdə göstərir.

Şüurun varlığı ağıl və şüur arasındakı noezalar inkişaf edəndən və şüurun özü haqqında məlumat ağla daxil olmağa başlayandan sonra məlum olur. Yəni ağıl "şüur nədir?" sualını verərsə, şüur da böyüməyə, inkişaf etməyə başlayar. Bu, artıq özünüdərk mərhələsidir və bu zaman

həm şüur özü inkişafda olur, həm də özünüreduksiya prosesi aktiv olur. Həyat təcrübəsinin yanına elmi təcrübə də əlavə olunur və biliklər arasında təsnifat aparılır, ümumi biliklər arasında tək istiqamət seçilir və şüurun intensionallığı fokuslanmağı öyrənir. Məhz öyrənir, çünki ümumi biliklər arasında şüurun işığı o dərəcədə dağınıq olur ki, onun yada düşmür. İşıq vahid bir istiqamətə yönələndə, tək istiqamətə, obyektə fokuslananda konkret qaranlıq məqamlar da işıqlanmağa başlayır. Tədricən şüurun çevrəsi böyüyür və ağlın imkanlarını artırır. Sxem 32-ni xatırlasaq, burada kompleks bir inkişaf gedir: şüur və ağıl arasında düşüncə, əlaqə sıxlaşır, şəxsiyyət bu bünövrə əsasında formalaşır, qavranılan biliklərin radiusu genişlənir və s. Onu da qeyd etmək lazımdır ki, belə bir inkişaf zamanı ağlın şüurun varlığı haqqında hər dəqiqə düşünməsinə ehtiyac qalmır. Husserl yazır: "Fenomenoloq bütün transsendental təsvirlərində dünya və dünya varlığı olan şəxsi Eqosu haqqında ən kiçik bir mühakimə irəli sürməsə də, o həmişə öz Eqosu haqqında mühakimə yürüdür, hətta onun varlığını təsdiqləyən mühakimə; ancaq indi bu transsendental Eqo olur, yəni özündə və özü üçün var olan, yalnız bu Məndə ilk dəfə ontoloji əhəmiyyət kəsb edən bütün dünya varlığından "əvvəl" olan".[1] Filosofun sözlərində iki məqama diqqət yetirək: 1) ağlın subyektivliyi və şüur çərçivəsində fəaliyyət göstərməsi; 2) şüurun və bu əsasda inkişaf edən Eqonun ontoloji varlığının bundan sonra təsdiq olunması. Belə bir nəticə çıxır ki, şüur ağlın gerçəkliyinin çərçivəsinin təyinedicisidir. Sanki bu iddiamız gerçəklik haqqında mülahizələrimizə zidd gəlir. Əslində, elə deyil. Əvvəla, biz gerçəkliyin bütün qatlarından danışırıqsa, o zaman metafizik qata – obyektiv həqiqətə ağlın ümumiyyətlə nüfuz edə bilməməsi faktını da xatırlamalıyıq. Şüur həmin qata keçməlidir ki, ağıl onun varlığından xəbərdar olsun, oradan alınan bilikləri sistemləşdirəndə bunu nəzərə alsın. İkincisi, biz daim ağlı şüurun plasdarmı adlandırırıq. Ağıl gerçəkliyin bütün qatlarına aid rasionallaşan biliklər əsasında sabitləşir, böyüyür və sistemi mürəkkəbləşir. Sistem nə qədər güclü və düzənli olarsa, bir o qədər hansı biliklərə ehtiya-

[1] Husserl. Ideas…II, p. 413.

cın olduğu bəlli olar. Bəli, əgər ağıl öz şüuru əsasında formalaşıbsa, o zaman onun gerçəkliyi şüurunun obyektiv gerçəklikdən ehtiva etdiyi qədər olacaq. Bu gerçəkliyin hüdudları şüurun hüdudları qədərdir, yəni bir insan miqyasında götürsək, sonsuzdur. Əks halda həmin ağlın gerçəkliyi başqa bir ağıl tərəfindən təyin olunur və onun hüdudları həmin ağlın maraqları qədər olur. Ağıl şüurun gücünün göstəricisidir, çünki o, həm idrak prosesinin çıxış nöqtəsidir, həm də dönüş məkanıdır. Lakin bununla yanaşı, əhəmiyyətli bir məqamı da vurğulayaq. Daha əvvəl də qeyd etdiyimiz kimi, ağıl və şüur arasında əlaqə zəifləyəndə, yaxud kəsiləndə idrak prosesinin trayektoriyası da pozulur. Qavradıqlarını ağla ötürə bilməyən eyni çevrə boyu hərlənib qalır, eyni şəkildə, şüurdan – daxildən təkan ala bilməyən ağlın da fəaliyyətinin öz inkişafına bir faydası toxunmur.

Xatırladaq ki, şüur fərqli istiqamətlərdə, fərqli radiuslarda hərəkət etsə də və eyni anda şüurda iki və ya daha artıq xətt müşahidə etmək mümkün olsa da, onların arasında kiçik də olsa zaman ardıcıllığı, işığın (intensionallığın) dərəcə fərqi vardır. Yəni şüur məqsədyönlü şəkildə bir istiqamətdə irəliləyə, bəlli radiuslu bir çevrə cıza bilir. Əks halda bu intensiyanın yayılması və deməli, zəifləməsi kimi dəyərləndirilir. Ağıl, ondan fərqli olaraq, təkxətli deyil. İstiqamətlilik şüura məxsusdur, çünki o, intensiya sayəsində irəliləyir. Öz mərkəzi ilə əlaqəli olmayan ağlın işığı, yəni istiqaməti də olmur. Buna görə də həm xaosa meyllənir, həm də başqa ağılların təsirinə düşə bilir. Burada incə və prinsipial bir məqamı da vurğulayaq ki, şüurun özünün qavradığı biliklərdə onun işığı qorunub saxlanır, buna görə də şüurun, müvafiq olaraq ağlın da gücü artır. Başqa ağıl tərəfindən "diktə edilən" biliklər işıqsız olur, onların işığı öz sahibində qalır. Bu səbəbdən belə ağıllarda biliklərlə yanaşı, qaranlıq məqamlar da artır. Ağlın "işıqlı" olması orada sistemin daha aydın və dəqiq olması mümkün "qara dəliklərin" zamanında görülüb aradan qaldırılmasına da imkan verir. Bu işıq isə yalnız şüurdan gələ bilər.

Müəyyən daxili qanunauyğunluğu, sabit mahiyyəti olan ağıl sistemli hesab edilir və onun hərəkətini pozmaq, yeni qaydalar diktə etmək

çətindir, hətta şüur üçün də. Burada iki əhəmiyyətli məqamı vurğulayaq. Birincisi, söhbət məhz sabit mahiyyətli, yəni artıq bəlli bir çərçivəsi olan ağıldan gedir. Bu çərçivənin aşılması üçün həm onun kənarına çıxmalıdır, həm də şüur onu təhlil edəcək potensiala malik olmalıdır. İkincisi, nəzərə alsaq ki, ağlın sistemi kökündən dəyişə bilər, o zaman ağla yeni qaydanı yalnız daha güclü iradənin diktə edə biləcəyini də qəbul etməliyik. Əlbəttə, sistemli bir ağılda daha güclü iradə yalnız ilahi iradə ola bilər. Bununla belə, xatırladaq ki, ilahi iradə yenə də şüur vasitəsilə özünü göstərir. Deməli, ağlın hərəkət trayektoriyasını pozan müəyyən mənada şüur özü olur.

Ağıl qavranılmış və rasionallaşmış biliklərin sistemidir. Bu sistem bilavasitə rasional şüurdan başqa yaddaşdan, təxəyyüldən, altşüurdan, eyni zamanda, gerçəkliyin üst qatından uzanan xətlərin cəmidir. Ağılda xətlərin kəsişməsi həmin biliklərin təhlilidir. Hər kəsişmə bir nöqtənin yaranmasıdır və daha sonra bəlli olur ki, həmin nöqtədən neçə yeni xətt çıxacaq, yoxsa orada tamamlanacaq (*sxem 40*). Xatırladaq ki, noematik qatda belə düyünlər noes, yaxud noematik duman kimi tanınır. Onlardan fərqli olaraq, ağıldakı düyünlər daha çox konkret biliklərdən yaranır. Burada istər-istəməz yada Səlahəddin Xəlilovun düyün nöqtələri haqqında nəzəriyyəsi düşür. O yazır: "Düyün nöqtələri iki cür olur. Birincisi, əvvəlki inkişaf xəttinin tamamlanması və yeni inkişaf xəttinə keçid. İkincisi, düyün nöqtəsindən haçalanma və yeni budaqların ayrılması. Bax, bu ikinci yol Kun təlimində nəzərə alınmamışdır. Bizim təklif etdiyimiz düyün nöqtələri və haçalanmalar təlimi daha universal modeldir".[1] Sufi fenomenologiyada bunların hər ikisi nəzərə alınır. Belə ki, bir tərəfdən, şüurdan gələn düşüncə xətləri ağılda hansı isə biliyi tamamlayır, ümumi sistemin çatmayan detalı kimi öz yerinə oturur və müstəqilliyini itirir. Digər tərəfdən, həmin bilik özü başqa bilikləri də ətrafına cəmləyir, onlarla kəsişir və



*Sxem 40. Düyün nöqtələri.*

[1] Xəlilov. Elm haqqında elm, s. 164.

yeni düşüncələrin yaranmağını şərtləndirir. Ağıl mümkün xətlərin keçdiyi, kəsişdiyi məkandır və burada əvvəlki biliklər toplandığı kimi, özündən sonrakı düşüncələr üçün də qida verir. Nə qədər paradoksal səslənsə də, deməliyik ki, ağıl üçün həmin biliyin mənbəyi ikinci dərəcəyə düşür, yəni ağıl özü mənbəyə çevrilir. Ön plana həmin biliyin özü, hazırkı sistemə nə dərəcədə uyğun olması keçir. Bilik nə qədər güclü olarsa, bir o qədər ağıl sistemində özünə yer tapa bilir, əks halda köməkçi bilik olaraq başqa bir biliyin tərkibində əriyəcək və xətt qırılacaq. Onu da əlavə edək ki, ağılda düyün nöqtələri nə qədər çox olursa, bir o qədər ağıl aktiv olur. Daim yaranan və şaxələnən düyünlər düşüncə xətlərinin varlığının dəlilidir. Kənar ağlın təsir altında olan ağılda belə düyün nöqtələri ya olmur, ya da az olur. Digər tərəfdən, yaranmış düyünlərin mütləq açılması prinsipial şərtlərdən biridir. Açılmayan düyünlər bütün düşüncə xətlərini "udan", bir müddət sonra isə ümumiyyətlə psevdomərkəzə çevrilərək ağlı iflic vəziyyətinə sala biləcək potensiala malikdir. Bu özünü insanın gündəlik həyatında problem, depressiya, aqressiya və s. belə əməllərdə göstərir.

### *§ 156. Bəşəri və ilahi yaradıcılıqda ağıl. Alın yazısı.*

Bizim hər zaman təkrar etdiyimiz bir fakt var: insan Yaradanın mülkündə, Onun təyin etdiyi çərçivədə bir yaradıcıdır. Müəyyən müqayisələr, paralellər aparsaq da, bir həqiqəti də qəbul edirik ki, Allahın zatı insan düşüncəsinin fövqündədir. Biz yalnız Onun yaratdıqlarına, əməllərinə görə hər hansı fikir bildirib, Onu təsvir etməyə çalışırıq. Ona şamil etdiyimi əksər xüsusiyyətlər də əslində insana xas olan sifətlərdir. İnsan Yaradanı Onun yaratdıqlarını dərk etməklə tanıyır və Onun yaratdıqları üzərində yaradır. Maddi dünya ilə bilavasitə əlaqəli olan ağıldır, buna görə, yaratmaq missiyası da məhz ona aiddir. Deməli, yaradılışı iyerarxiyasında ağlın da öz yeri var.

Əvvəlki təhlillərimizdə biz şüuru ilahi iyerarxiyada sabit mənbələrə – ayani-sabitəyə bənzətmişdik. Çünki məhz burada biliklər qavranmaqla yanaşı, həm də yeni ideyalar doğulur. Bu ideyalardan bəziləri elə

ideya olaraq qaldığı halda, digərləri reallaşmaq üçün növbəti mərhələlərə keçir. Ağıl bu mərhələlərdən biridir. Düşüncə tarixinə baxanda belə məlum olur ki, ayrı-ayrı fəlsəfələrdə ağıl fərqli əhəmiyyətə malik olub. Sufi fenomenologiyada o, nəzəriyyə və təcrübənin arasındakı son mərhələdir. Qısa bir müqayisə ilə fikrimizi da aydınlaşdıraq.

§103-də *nous*dan danışanda biz ağıl anlayışına müraciət etmişdik və belə qənaətə gəlmişdik ki, Plotinin təqdimatında olan, bilavasitə Yaradandan sonra gələn *nous* sufi fenomenologiyada ağıl anlayışı ilə eyni deyil. Bəşəri yaradıcılıqda *nous* – bütün ideyaların mənbəyi şüurdur. O, ağlın nüvəsi və ilahi aləmdən alınan mahiyyətin özüdür. Plotinə görə, *nous* sonrakı mərhələ can/nəfsdir və "Canın həqiqi xeyri onun, bilavasitə Xeyirdən, öz Atasından sonra gələn *nous*a aid olmasıdır. Can aliyə aidiyyətindən üz döndərən kimi Şər onu yaxalayır. Ona görə də onun yolunun başlanğıcı özündə – üz döndərərkən ona yapışan hər şeydən təmizlənməkdədir".[1] Ağıl məhz öz nüvəsindən ayrı düşüb hər hansı psevdomərkəz ətrafında cəmləşəndə kənar, lazımsız biliklər onu əsl məqsədindən və mahiyyətindən ayrı salır. Ən vacibi isə, yaradıcılıq qabiliyyətini itirir. Söhbət məhz yeni ideya üzərində noema yaratmaqdan, yaxud obyektiv həqiqətin bir hissəsini reallaşdırmaqdan, ümumiləşdirməkdən gedir.

Ağıl şüurda doğulan ideyanın müəyyən, konkret bir sistem kimi formalaşmasıdır. İnsan reallaşdırmaq istədiyi ideyasına "ruh verir" – onun maddi formasını, funksiyalarını, gerçəklikdə yerini düşünür, təyin edir. Yəni ideya ağıl mərhələsində canlanır və enerji verilir. Bunu Plotinin can/nəfs mərhələsi ilə müqayisə etmək olar. Qeyd etdiyimiz kimi, ağıl ideya aləmi ilə maddi dünya arasında keçid mərhələsi rolunu oynayır və burada sistem nə qədər dəqiq, düşünülmüş olarsa, bir o qədər yaradılmış şey həm öz ideyasına yaxın olar, həm də gerçəklikdə öz yerini tuta bilər. Ən vacibi isə, şüur vasitəsilə onun daxilində müəyyən bir enerji axını yaranan və müstəqil mövcudluğuna başlayanda həmin enerji sabitləşər.

Ağlın Plotin fəlsəfəsində canla eyniləşdirməyimizin daha bir səbə-

---

[1] Плотин. Эннеады, I.2.4.

bi isə bu mərhələdə ideya aləmi ilə maddi dünyanın tələblərinin qarşılaşmasıdır. Hələ §6-da ruhun növləri haqqında danışanda can və ruh arasında da müəyyən bir müqayisə aparmışdıq. Hər birinin funksiyasını təhlil edəndə birincinin məhz bədənlə əlaqəli olub, onun istəkləri ilə bağdaşdığını vurğulamışdıq. Düzdür, biliklər hələ şüur mərhələsində rasionallaşaraq ağla daxil olur, Bununla belə, həmin biliyin təyinatını verən ağıl və onun tabe olduğu gerçəkliyin üst qatının tələbləri olur. Və bu mərhələdə insanın maddi istəkləri – nəfsi dövriyyəyə girir, öz tələblərini irəli sürməyə başlayır. Ağılda gerçəkliyin tələblərindən, hökmlərindən irəli gələn biliklər çoxdur və onları görməzdən gəlmək mümkün olmur. Məsələn, hər nə qədər Nikola Tesla müharibənin, qan tökməyin əleyhinə olub, ixtiralarını bu istiqamətdə istifadə etməyə qadağa qoysa da, onun özü də güclü bir silah hazırlayaraq müharibə tərəfdarlarına qarşı tətbiq etmək istəyirdi. Eyni zamanda, nə qədər humanist ideyalardan çıxış etsə də, onun ixtiralarının hamısının mahiyyəti məhz gerçəkliyin müharibə ruhunu əks etdirirdi. Burada əhəmiyyətli bir məqam var. Şüurun qavradığı noemaların mahiyyəti ağla bütöv şəkildə daxil olur. Daha dəqiq desək, ağıl eydosların, yaxud noemaların ayrı-ayrı mənalarına deyil, artıq rasionallaşmış biliyə istinad etdiyinə görə, təbii ki, o, ilk növbədə gerçəkliyin üst qatının tələblərindən çıxış edir. Plotin yazır: "Qeyd etmək lazımdır ki, Canın mənsubluğunda olanlar eydoslar özləri deyil, onların obrazları, izləridir ki, onlar vasitəsilə həqiqi mövcudluqla əlaqəlidir. Biz canın rasional, ağıllı olmasını deyəndə, biz Canın tamamilə nous/ağla doğru yönəldiyi məqamlarda onların şərtsiz yaxınlığını nəzərdə tuturuq. Qalan hallarda isə onlar bir-birindən uzaqdırlar, bizim istifadə etmədiyimiz biliklərin bizim üçün ölü olması kimi".[1] Yenə qayıdırıq ağlın şüurmərkəzli, yaxud pzevdomərkəzli olması məsələsinə. Ağıl nə qədər şüurla yaxın əlaqəli olursa, bir o qədər gerçəkliyin daha alt qatına nüfuz edə, oranın tələblərini nəzərə ala bilir. Yaradıcılıq ideyaya hakim olmaqdır, ideyanın quluna çevrilmək yox. Şüur həmin hakimiyyəti verən enerjidir, ona görə də ona istinad edən ağıl ruhunu eşidə bilir,

[1] Yenə orada.

maddi istəklərin quluna çevrilmir. Dediyimizdən belə məlum olur ki, əslində mənəviyyatı müəyyən maddi marağa qurban verən nəfs deyil, ağıldır. Bir daha təkrar edək ki, yaradıcılıq mənbəyi ruha bağlı bir qabiliyyətdir və bu, yalnız ağıl və şüur arasında sıx əlaqə zamanı ortaya çıxır.

Ağıl maddi gerçəkliklə əlaqəli bir sistem olduğuna görə, səbəb-nəticə prinsipinin qanunları burada artıq qüvvədədir və hakimdir. Buna görə də, bəzən şüurun maddiyyat fövqünə aid metafizik ideyaları bir kənara çəkilməli, yaxud lazımsız qalır. Başqa sözlə desək, ağılda maddi dünyanın qanunları daha keçərlidir, nəinki ilahi aləmin. Belə olan halda, sanki bir paradoks çıxır ortaya. Bir tərəfdən, biz iddia edirik ki, eydoslar hələ ilk yaranışında müəyyən bir mahiyyət qazanır və nüvə olaraq bütün şeyin mövcudluğunu, funksiyalarını, inkişaf yolunu təyin edir. Dini terminlə desək, eydosda bir növ onun alın yazısı ehtiva olunur və ondan kənara çıxa bilmir. Digər tərəfdən, iddia edirik ki, eydoslar ağılda yeni bir sistemə daxil olur və burada bütünlüklə maddi dünyanın tələbləri hakim olur. Əslində, məsələyə fərqli bucaq altında baxanda hər hansı paradoksun olmadığını görmək mümkündür. Xatırladaq ki, hər noemanın mahiyyəti, deməli həm də "alın yazısı" onun noematik nüvəsində, vacib eydosundadır. İnsanda bu, şüurdur. O, bilik deyil ki, rasionallaşıb ağla keçsin. O, şüurun mahiyyətindədir, onun özüdür. İnsan onun hökmünə düşən, yəni ağlının sisteminə daxil olan eydosların üzərində yeni noema yaratmaq, əvvəlkini dəyişmək qüdrətindədir. Nüvə – vacib eydos ağlın hökmündə deyil, ilahi hökmdədir, yəni alın yazısı ağlın fövqündə duran bir fenomendir.

Deyilənlər ortaya bir sıra sual çıxardır. Əvvəla, əgər bütün eydosların müəyyən bir mahiyyəti varsa, o zaman bütün yaradılmışların alın yazısı var deyə bilərikmi? Əgər belədirsə, o zaman insan başqalarının taleyini dəyişmək iqtidarındadırmı? İkincisi, şeylərin taleyi əvvəlcədən məlumdursa, ağlın müəyyən addım atması nə dərəcədə effektiv ola bilər? Belə olan halda, belə bir nəticə alınırmı ki, ağıl ümumiyyətlə ilahi hökmdən kənardadır? Bəli, bütün eydosların ilahidən verilmiş mahiyyətini qəbul ediriksə, deməli, onların da müəyyən taleyinin olmasını qəbul

etmiş oluruq. Və o, həmin şeyin nüvəsində ehtiva olunub. Sadəcə onlardan fərqli olaraq insan öz mahiyyətini dərk etməyə qadirdir. Alın yazısını oxuya bilməsə də və ona əvvəldən hazırlaşa bilməsə də, onun varlığının bilinməsi özü bir hazırlıqdır. Maraqlıdır ki, bəzən insan öz ağlının hökmü ilə nəyi isə dəyişmək qüdrətini hiss edəndə, ona elə gəlir ki, alın yazısını da dəyişir. Sadəcə onu təkrar edək ki, bilmədiyi və hökmündə olmadığı bir şeyi bilmək və dəyişmək mümkün deyil. Bəlkə dəyişdiyi son nəticə məhz elə alın yazısıdır? Məsələn, Heizenberqin yazdığına görə, "Kimyəvi xassəsini dəyişmək istəyən atom nüvəsinin özünü dəyişməlidir, bu isə kimyəvi proseslər zamanı olan enerjidən təqribən milyon dəfə artıq enerjilər tələb edir".[1] Xatırladaq ki, əslində, elmdə nüvəni dəyişməklə bir elementi başqasına dəyişmək halı artıq məlumdur. Atom və onun tərkibinin ən xırda hissəciklərdən ibarət olması faktı təsdiq olunub və bu, fizikada, yəni maddi aləmdə artıq qəbul olunub. Eydos atom və onun hissəciyi deyil, başqa bir müstəvidə nəzərdən keçirilən varlığın ən kiçik zərrəciyidir. Bununla yanaşı, fizikin sözlərini bir daha vurğulayaq ki, burada söhbət kəmiyyəti milyonlarla ölçülən bir enerjidən gedir.

Eyni qənaət bəşəri yaradıcılığa da aiddir: insan öz yaratdığının taleyini özü yazır. Bir mərmərdən baş daşı, yaxud heykəl yaratmaqla həmin mərmərə fərqli tale yazmış olur və bu "alın yazısını" ilk ideyada – noematik nüvədə yerləşdirir. İnsan eydosları yaradıb, məhv edə bilmir, yalnız yaradılmışlar üzərində yenisini yarada bilir, eləcə də, onların taleyini dəyişə bilmir, yalnız var olanlar arasında seçim edə bilir. Bu, şüura aid bir missiyadır, həyata keçirən isə ağıldır. Düzdür, insan yaradılmışın üzərində yaradır, yəni yazılmış yazının üzərində yenisini yazmağa cəhd edir. Burada o, sadəcə "uyğun lövhə" axtarır – ideyasını gerçəkləşdirmək üçün müvafiq ideyalar seçir. Bu seçim yanlış olanda gerçəklik gec-tez bunu sübut edir, yəni əvvəlki yazı özünü göstərir. Bir daha təkrar edək ki, burada gerçəkliyin tələbləri və onları nəzərə alan ağlın rolu böyük əhəmiyyət kəsb edir. Bu, insanın başqa talelərə müdaxiləsi

[1] Гейзенберг. Физика и философия, с. 92.

deyil, öz yaratdıqlarına yeni tale yazmaqdır.

Bəli, öz alın yazısının varlığını bilən yalnız insandır. Bir şir öz taleyini düşünmədən yaşayır və gerçəkliklə hər hansı qarşıdurma hiss etmir. İnsan isə daim nəyi isə dəyişməyə meyllidir. Ancaq maraqlıdır ki, insan öz mahiyyətini nə qədər dərindən dərk edirsə, bir o qədər alın yazısını düşünmür, sadəcə öz mahiyyətində olanları reallaşdırmağa çalışır. Məsələn, Taqor öz varlığını və potensialını o dərəcədə dəqiq bilirdi ki, onu olduğu kimi, mükəmməl şəkildə yaşamağa cəhd edirdi, nəyi isə dəyişmək deyil, olanı reallaşdırmaq istəyirdi: "Biz düşüncələrimizi sonsuza yönəldən zaman həqiqətə çatırıq. Həqiqətin idealı dar çərçivələrlə məhdudlaşan indidə, bizim bu dəqiqə olan həyəcanımızda deyil, bütövün tam dərkindədir; o bizə imkan verir ki, bizi olduğumuz kimi, OLMALI olduğumuz kimi görə bilək. Şüurlu və ya qeyri-şüuru şəkildə biz özümüzdə bu həqiqət hissini daşıyırıq və o, göründüyündən daha güclüdür, çünki bizim həyatımız sonsuza doğru istiqamətlidir və daimi hərəkətdədir".[1] İnsan öz mahiyyətini, öz həqiqətini görəndə və onunla yaşamağa çalışanda, qısa desək, özü olanda bunun alın yazısı, yaxud öz gücü ilə nail olduğunu düşünmür, çünki bilir, dərk edir ki, başqa cür mümkün deyildi. Əksinə, olduğundan fərqli bir şey uğrunda çalışıb, israrla özünü öz mahiyyətindən uzaq təsəvvür etməyə çalışanda tez-tez alın yazısını necə dəyişmək, fərqli bir yolu necə gedə biləcəyini düşünür.

İlahi yaradıcılıq iyerarxiyasında baxanda, ağıl maddi dünyaya, insan çərçivəsinə aid olur. Əslində, şüur da elədir, ancaq, şüur qapalı və stabil bir fenomen deyil, ruhla, ilahi aləmlə əlaqəsi var. Ağıl isə sırf insanın öz potensialı, bilikləri, gerçəklikdəki yeri və imkanları ilə əlaqəlidir. Məsələyə bəşəri yaradıcılıq iyerarxiyası prizmasından baxanda isə ağlın yeri və funksiyası bir az da artır. Yeri gəlmişkən, Aristotel düşüncə və yaradıcılıq arasında kiçik və əhəmiyyətli bir fərqdən yazır: "Yaranmanın və hərəkətin bir növü düşüncə, bir başqası isə yaratma adlandırılır: başlanğıc və formadan çıxanlar düşüncədir, düşüncə üçün sonun-

[1] Тагор Рабиндранат. "Садхана". *Открытие Индии. Философские и эстетические воззрения в Индии XX в.*; М., Худож. Лит., 1987, с. 264.

cu olandan çıxan isə yaratmaqdır”.[1] Deməli, insanın Loqosa qalxan yolunda iki mərhələ var: a) insan düşünür və buraya xarici reduksiya və özünüreduksiya, onların bütün korrelyatları aid olur; b) düşüncə xətti müəyyən mərhələdən sonra əldə etdiyi biliklər, “zəbt etdiyi” eydedik strukturlar əsasında öz ideyasının eydedik strukturunu yaratmağa iddialanır. Bu, yaradıcılıqdır. Ağıl ilahi yaradıcılıq iyerarxiyasındakı maddi aləmdir, insanın özüdür. Yaradıcılıq prosesi şüurda başlayır, obyektlərin eydedik strukturlarına nüfuz edir və nəhayət Loqosa qədər yüksəlib, təsdiqlənir. Bütün bunlarla yanaşı, yaradıcılığın bilavasitə gerçəkləşməsi, forma qazanması ağla bağlıdır və onun səviyyəsindən asılıdır. Eyni həqiqət fərqli səviyyəli ağıllarda tamamilə fərqli şəkildə təzahür edə bilər. Məsələn, bir professorun iqtisadi proqnozlaşmaya aid mühazirəsini dinləyən tələbələrdən hərəsi öz imkan və səviyyəsinə görə nəticə çıxarır, öz ağlının qurduğu sistemdə istifadə edir. Kimsə xüsusi biliyə yönəlir, özü də müəyyən proqnozlaşdırma proqramı hazırlamağa həvəslənir, bir başqası bu bilikləri yeni yaratmaq istədiyi biznesdə istifadə edir, üçüncü biri isə üçüncü dövlətlərin ağır iqtisadi durumunu düşünüb məqalə yazır. Yaradıcılıq həvəsi böyük, enerjili ola bilər, ancaq məhz ağıl mərhələsində onun nə dərəcədə real, praktik, cəmiyyət üçün yeni və yararlı olub-olmaması məsələsi üzə çıxır.

Burada əsrlərdir aktuallığını qoruyan daha bir vacib məsələ önə keçir: hər yaradıcılıq ağıl süzgəcindən keçməlidirmi? Hələ XIX əsrdə yaranmış və sonralar bir hərəkat kimi formalaşmış məlum “incəsənət incəsənət üçün” şüarına uyğun olaraq “yaradıcılıq yalnız yaradıcılıq xətrinə olmalıdır”, “yaradıcılıq seçilmişlər üçün olmalıdır”, yoxsa “yaradıcılıq hər kəs üçün olmalıdır”. Ötən əsrdə Fransada təşəkkül tapan və sonralar bir çox çalarlara da sahiblənən həmin cərəyanın incəliklərinə keçmədən biz öz tezisimizə qayıdaq.

Yaradıcılıq müəyyən bir ideyanın reallaşmasıdır. Yəni istənilən halda ağıl mərhələsindən keçməlidir. Sadəcə burada iki fərqli hal olur. Birinci halda ideya rasionallaşa bilmir, şüurun buna gücü çatmır, yaxud

[1] Аристотель. Метафизика, 7 1032b 15.

həmin həqiqətin böyüklüyünə, gözəlliyinə, obyektivliyinə xələl gətirmək istəmir və sahibi onu olduğu kimi maddiləşdirmək istəyir. Təbii ki, burada istifadə olunan digər köməkçi ideyalar yenə də ağıl tərəfindən təqdim edilir. İncəsənətdə sürrealizm buna gözəl nümunə ola bilər: gerçəkliyin fövqünə aid ideyalar kətana köçürülərkən yenə də həmin şəxsin müəyyən rəssamlıq texnikası, ideyaların artıq məlum həqiqətlərlə müqayisəsi sənətkarın yaradıcılığının mahiyyətini anlamağa kömək edir. Yaxud Sibir şamanları ruhlarla ünsiyyətində hər nə qədər heç kimin anlamadığı səslər, sözlər işlətsələr də, onların istifadə etdiyi texnikanı o artıq uzun illər ata-babalarından öyrənib və onları olduğu kimi təkrar etməlidir. Yəni burada subyektivliklə yanaşı, artıq qəbul edilmiş qanunauyğunluqlara riayət etmək, ağılla onu tətbiq etmək vacib prinsipdir. İkinci halda həm ideya özü, həm də onun reallaşması üçün istifadə olunan biliklər ağıl süzgəcindən keçir, ciddi təhlillər əsasında ağılda sistemlər, strukturlar qurulur və bundan sonra həmin ideya maddiləşir. Məsələn, Bernini "Müqəddəs Terezanın ekstazı" əsərini dövrün, cəmiyyətin tələblərini nəzərə alaraq yaradıb. Maraqlıdır ki, onun ideyası və texnikası bir-birini tamamlasa da, əsl ideyanın maddi təzahürdən daha böyük və dərin olması mübahisəsi bu gün də davam etməkdədir.

Hər iki halda sənətkarın anladığı obyektiv həqiqət, ideya ümumiləşdirilərək geniş auditoriyaya təqdim edilib və məhz həmin ideya – bir sənətkarın üstşüurunun qavradığı həqiqət ona tamaşa edən, onu oxuyan şəxslərin şüuru üçün yeni bir qapı, yeni bir işıq ola bilir. Sürrealizm təqribən 40 il ərzində inkişaf edib bir məktəb halı ala bildi. Berninin əsəri bu gün də insanları düşündürür, müzakirələr açır, yeni bir ideyanın yaranmağına təkan verə bilir. Deməli, ideya ağıl mərhələsində nə qədər çox təhlil olunursa, bir o qədər çox aydınlanır, ümumiləşir. Məsələn, üstşüuru vasitəsilə qavradıqlarını rasionallaşdırmadan təqdim edən Mənsur Həllacın üslubunu tədqiqatçılar "dəmir ləbləbi" adlandırıb. İdeyalara bu cür münasibət, yəni onu "xammal" şəklində təqdim etmək sənətdə, fəlsəfədə, poeziyada normal qəbul edildiyi halda, dəqiq elmlərdə bu mümkün deyil. Başqa sözlə desək, ağlın, rasional təfəkkürün hakim

olduğu elmlərdə heç bir irrasional bilik özünə yer tapa bilmir. Bəlkə də buna görə, dəqiq elmlərdə varislik prinsipi mövcuddur, zəruridir, hər yeni fizik yenidən Yerin cazibəsini kəşf etməli olmur, onlar köhnə çərçivənin konturlarını dərk edib, yeni mərhələyə keçə bilir. Məsələ burasındadır ki, dəqiq elmlərdə insan universal həqiqətin bir hissəsini açmaqla məşğuldur, sənətdə, musiqidə, fəlsəfədə isə o, öz daxili dünyasında doğulan yeni ideyanın noemasını qurur. Bununla belə, burada da xələflərin irsini bilmək ümumiləşmiş biliklər çərçivəsini öyrənmək və onunla hesablaşmaq üçün yeganə yoldur. Birmənalı şəkildə, Aristoteli tanımamağı, yaxud İbn Ərəbini oxumamağı bir heykəltəraşın ustalığına təsiri yoxdur, ancaq onun yeni ideyasının cilalanmasında böyük rolu var.

## *§ 157. Daxili və xarici fenomenoloji reduksiyalarda ağıl*

Şüur ağlın nüvəsi olduğuna görə, onun hər funksiyası orada əks olunur. Aralarında əlaqə sıx olanda biliklər aydın və dəqiq şəkildə ağla ötürülür, balans pozulanda isə, onlar ciddi şəkildə təhrif olunur. Bununla yanaşı, yazılmamış qanunauyğunluq kimi o da qəbul olunur ki, özünüreduksiyaya malik şüur mütləq ağlın mərkəzi olur və biliklərin hər hansı təhrifindən söz gedə bilməz.

Xatırladaq ki, daxili (özünüreduksiya) və xarici reduksiyalar qarşılıqlı şəkildə əlaqəli olan və bir-birini tamamlayan proseslərdir. Onlardan birinin naqisliyi mütləq digərində də əks olunur və nəticə qüsurlu alınır. Ağıl bu iki proses arasında keçid mərhələsidir. Məsələ burasındadır ki, hər iki prosesin ağılda öz rolu və əhəmiyyəti var, buna görə də, onlar vahid şəkildə nəzərdən keçirilməklə yanaşı, ayrılıqda da təhlil edilməlidir.

Qeyd etdiyimiz kimi, ağlın sabit mahiyyəti şüurun daxili radiusu ilə üst-üstə düşür. Deməli, özünüreduksiya ilk növbədə həmin sabitliyi yaradan və təsdiqləyən bir prosesdir. Zatən ağıl özünüreduksiyanın ilk mərhələsində – özünütəhlil zamanı yaranmağa başlayır. Yəni ağlın daxili potensialı və gücü özünüreduksiya zamanı formalaşır. Ağıl orada gedən təhlillərin nəticələrini özündə ehtiva edir və sistemləşdirir, bir növ

özünüreduksiyanın nəzəriyyələrini təcrübədən keçirir. Məhz burada məlum olur ki, özünütəhlil zamanı insan nə dərəcədə gerçəkliklə ayaqlaşır, onun şərtlərini nəzərə ala bilir və nə dərəcədə düşündükləri yenidir. İnkişaf etmiş ağıl adətən öz sahəsi üzrə ümumi bilikləri özündə cəmləyir, buna görə də özünüreduksiyanın nəticələri ağla daxil olandan sonra məlum olur ki, bu biliklər nə dərəcədə yenidir və onun inkişafı üçün ağıl hansı potensiala malikdir. Bu mənada ağlı özünüreduksiyanın "laboratoriyası", yaxud poliqonu adlandırmaq olar. Burada bir tərəfdən, yeni biliklər mövcud təməllə qarşılaşdırılır, digər tərəfdən, mənimsənilir. Məhz özünüreduksiya zamanı şüur qavradığı bilikləri rasionallaşdırır, rasionallaşa bilmədiklərini müəyyənləşdirir. Ən vacibi isə, özünüreduksiya şüurun ağlın mərkəzi olaraq təsdiqlənməsidir: yalnız güclü özünüreduksiyaya malik şüur mərkəz olmağa qadirdir.

Özünüreduksiya şüurun səviyyələrini artıran, eyni zamanda, inşanın malik olduğu biliklərin ağla ötürülməsinin təminatıdır. Məhz onun sayəsində hər hansı bir biliyin qaranlıq yaddaşdan ani olaraq ağla keçməsinin qarşısı alınır. Şüurun daxili maneələrinin aradan qalxması ağla daxil olan biliklərin daha aydın olmasına səbəb olur. Məsələn, bəzən şüuraltından daxil olan, yaxud ilk baxışda tamamilə aidiyyatsız bir bilik özünüreduksiya zamanı şüura böyük bir yaradıcılıq, kəşf ideyası verə bilir. Xatırladaq ki, ağıl məhz özünüreduksiya vasitəsilə ilahi aləmdən faydalana bilir. Düzdür, söhbət bilavasitə təmasdan getmir. Bununla belə, artıq qeyd etdiyimiz kimi, özünüreduksiya vasitəsilə irrasional biliklər təhlil olunur və rasionallaşır. Hər nə qədər rasionallaşmaq həmin biliyin müəyyən çərçivəyə salınması və mahiyyətində bəzi detalların həmin çərçivədən kənarda qalması olsa da, bu, həmin biliyin əsl mahiyyətini dəyişmir. Yəni ağıl ilahi mənbədən yeni biliklər alır və nüvəsi güclənir. Bu isə öz növbəsində ağlın güclənməsi, itilənməsi və psevdomərkəzlərin yox olması deməkdir.

Şüurun malik olduğu işıq – intensiya sayəsində ağıl tək istiqamət üzrə irəliləməyi bacarır. Bu, bir tərəfdən, xaosdan uzaq olmaq, digər tərəfdən, məqsədyönlü şəkildə, bir ideya ətrafında səfərbər olmaq demək-

dir. Üstəlik nəzərə almaq lazımdır ki, sonradan ağlın reallaşdırmağa başladığı ideyaların, layihələrin ilk addımı məhz özünüreduksiya müddətində formalaşır. Özünüreduksiya enerji mənbəyidir. Təbii ki, şüurmərkəzli bir ağılla psevdomərkəzli ağıl eyni enerji ilə fəaliyyət göstərmir. Daha güclü bir mənbə ilə əlaqəli olması mütləq özünü göstərir. Üstəlik nəzərə almaq lazımdır ki, burada həm də ruhun enerjisindən söhbət gedir. Şüurdan alınan nur ağlın daxili sisteminin də işıqlanması, yəni daha dəqiq sistemləşməsini şərtləndirir. Güclü özünüreduksiya ağılda yaranan biləcək istənilən qaranlıq məqamın vaxtında işıqlanmasını və ümumi sistemə qatılmasını təmin edir. Ən nəhayət, onu da vurğulayaq ki, özünüreduksiya ağlın səviyyələrinin inkişafının təkanıdır. Özünüreduksiyaya malik heç bir ağıl standart səviyyədə qalmır və mütləq növbəti inkişaf istiqamətini seçir.

Daxili reduksiyanın nəticələri ağlın süzgəcindən keçəndən sonra şüurun xarici radiusu və müvafiq olaraq xarici reduksiyası müəyyənləşir. Bu zaman ağlın funksiyası dəyişir. Burada olan düyün nöqtələrindən çıxan xətlər – düşüncə istiqamətləri, təbii ki, ilk növbədə ağla istinad edir. Ağlın səviyyəsi, axtarış sahələri, bilik potensialı, ən vacibi isə gerçəkliyin hansı qatına nüfuz edəcəyi xarici reduksiya zamanı müəyyən edilir. Birmənalı şəkildə xarici reduksiyanın təkanı şüurdan olmalıdır, lakin bunun üçün şüur ağla və oradakı sisteminə istinad edir, ona uyğun olaraq öz gücünü, potensialını səfərbər edir. Bu mərhələdə ağlı xarici reduksiyanın həm plasdarmı, həm də təməli adlandırmaq olar.

Bununla yanaşı, daha əvvəl də xatırlatdığımız kimi, bəzən müəyyən biliklər rasionallaşmadan – rasional şüura sığmayıb ağla keçir. Və bununla da kifayətlənməyib ağılda yeni bir mərkəz formalaşdırır və bütün sistemin mahiyyətini dəyişdirə bilir. Ağıl bütün malik olduğu biliklərlə yanaşı aciz qalır. Bu, adətən kifayət qədər güclü ideyalarla baş verir. Belə anlar ilham, vəcd, yaxud vəhy zamanı yaşanır. Yeni bilik gerçəkliklə, mövcud sistemlə hesablaşmadan öz varlığını elan edir, yeni qaydalar diktə edir. Maraqlıdır ki, bəzən belə hallarda ağlı hətta maneə kimi də qəbul edirlər. Mövlana deyir: “Sənin ağlın dəvəçiyə bənzəyir,

sən də dəvəsən. Ağıl səni istər-istəməz hökmünə görə çəkib aparmaqdadır... Nə bələdçini, və dəvəçini! Sən günəşi görən gözü tap və sonra bax!”[1] Türkiyə tədqiqatçısı isə Mövlanaya istinadən yazır: “Ağıl, ağıl olduğuna görədir ki, işlərin sonunu görür, sonu görməyən ağıl kəsilər”.[2] Deyilən bu iki kəlamda sanki iki zidd məqam var. Bir tərəfdən, ağıl hökm sahibi kimi səni istədiyi yerə çəkib aparır və əsl məqsəd unudulur. Digər tərəfdən, belə məlum olur ki, məqsədi, işlərin sonunu görən və ona uyğun hərəkət edən ağıldır. Əslində, hər hansı ziddiyyət yoxdur, ağlın mahiyyətinə işarə var. Mövlananın sözlərinə görə, insan günəşi görən gözünü kəşf etməli, öz gördüyünün arxası ilə getməlidir, hər hansı kənar ağlın – bələdçinin itaətinə düşməməlidir. Şüur ağlın potensialından və gerçəklikdən çıxış etməlidir, əks halda, yarı yolda qala bilər.

Daha əvvəl də qeyd etdiyimiz kimi, rasionallaşmadan ağla keçən hər bilik yeni mərkəz, eyni zamanda qaranlıq bir nöqtədir. Ağıl qaranlıq və şübhəli yerlərdən uzaq durur, artıq işıqlanmış – rasionallaşmış biliklərə istinad etməlidir. Ona görə də, yaranan belə qaranlıq məqamlar işıqlanmayana qədər yeni xarici reduksiya başlaya bilmir. Deməli, ağıl təkrar özünüreduksiyaya qayıdır. Ağıl əvvəlki gücü və potensialı ilə yeni biliyi sistemə sala bilmir, enerji dalğası pozulur. Yəni ağıl əvvəlki radius boyu hərlənə bilmir, eyni zamanda, irəliləmək üçün potensialı kifayət etmir. Qaranlığı işıqlandıran şüur intensiyasıdır. Buna görə də, ağıl təkrar-təkrar şüura – öz daxilinə müraciət edir. Bu, ətraf aləmə müraciət etmədən uzunmüddətli daxili təhlillərə, müqayisələrə dalmaqdır. Ağıl yalnız həmin qaranlıq nöqtəni işıqlanandan sonra yeni xarici radiusa başlanğıc ola bilir. Bəli, düşüncələrin aparıcı qüvvəsi şüurdur, ancaq çıxış nöqtəsi ağıldır – noezalar noemadan uzanmalıdır. Noema isə ağıldır. Düşüncə – noeza noemalar arasında mümkündür, bu əlaqəni yaradan – nur xəttini uzadan isə şüurdur. Müqayisə olaraq şüuru arıya, ağlı isə şana bənzətmək olar.

---

[1] Mesnevi-i Şerif. Terc.: Veled Çelebi (İzbudak), cilt 1, s. 2495. https://dosyalar.semazen.net/MESNEVI-I_SERIF_1.cilt.pdf.

[2] Bozkurt Turan. *Gönüller Sultanı Mevlana*. Alioğlu Matbaacılık, Halk yayınevi, İstanbul 2011, s. 60.

Xarici reduksiya ağılda formalaşan istiqamətlərin davamıdır. Deməli, o, gerçəkliyin tələblərinə uyğunlaşmalı olur. Xüsusilə vurğulayaq ki, əgər özünüreduksiyada şüur öz mahiyyətinə nüfuz etməklə, ruhla əlaqə yaratmaqla ilahi aləmə keçid edə bilirsə və ruhani təcrübə vasitəsilə Loqosa qədər yüksəlirsə, xarici reduksiyada ağıl çərçivə yaradır, konkret istiqamətlər göstərir. Təsadüfi deyil ki, ağıldan başlanan hər idrak prosesi reduksiya deyil. Şüurun ağıldan təkan götürərək xarici reduksiyaya başlaması üçün ağıl a) mütləq şüurmərkəzli olmalı və b) şüurdan lazımi işıq, enerji almalıdır. Onu da əlavə edək ki, yalnız özünüreduksiyadan keçmiş bilik sonradan xarici reduksiyada istifadə oluna bilər. Düzdür, şüurun qavradığı biliklər gerçəklikdən olur, lakin burada həm də onun öz mahiyyətinin böyük əhəmiyyəti var. Ağıl bilavasitə şüurdan alınan ideyaya doğru istiqamətlənsə də, onun növbəti fəaliyyətində, yəni bilavasitə gerçəkliyə təsirində əvvəldən mövcud olan bilik sisteminin də əhəmiyyəti böyükdür. Burada maraqlı və prinsipial bir məqama diqqət yetirək: gerçəklikdən ümumi şəkildə daxil olan bilik üzərində şüur reduksiya aparmaqla oradan lazım olan tək, yaxud xüsusi biliyi seçir və ağla ötürür. Ağıl həmin tək biliyi, ideyanı təkrar digər biliklərlə uyğunlaşdırmaqla, gerçəkliyin tələblərini nəzərə alaraq müəyyən sistemə salmaqla ümumiləşdirir. Şüurda doğulan ilk ideya ilə ağılda ümumiləşən biliklərin sırasında, sistemində o, artıq fərqlidir, çünki fərqli strukturlar daxilindədir. Daha sonra xarici reduksiyaya daxil edilən həmin bilik təkrar arınaraq təklənməyə, yaxud xüsusiləşməyə başlayır, mövcud çərçivənin fövqünə keçir. Bu, kəsilməz bir prosesdir. Bəli, bilik hər zaman təklənmir, nadir halda xüsusiləşir, bununla belə, ümumi şəkildə götürəndə, şüur-ağıl-obyekt və obyekt-şüur-ağıl prosesləri iki fərqli istiqamətdə gedən, ancaq daim bir-birini tamamlayan proseslərdir. Reduksiya bir ideyanın fərqli mərhələlərdən keçib qavranılması və reallaşmasıdır (*sxem 41*). Xüsusilə vurğulayaq ki, reduksiya yalnız bir xətt olsa da, sxemdən də göründüyü kimi, o istiqamətdə qav-



*Sxem 41. Reduksiya.*

ranılan bütün bilikləri ehtiva edir. Bu çevrə gün ərzində bir neçə dəfə başlayır və tamamlanır. O, hər dəfə eyni radius boyu da davam edə bilər, hər dəfə daha böyük radiusla da.

Reduksiya şüurun biliklər arasında irəliləməsi və öz həqiqətini digərlərindən fərqləndirməsidir. Ağıl bu prosesi gerçəkliyin çərçivəsinə salan fenomendir. Həqiqət hansı miqyasda, hansı mahiyyətdə olursa-olsun, onu gerçəkliyə uyğunlaşdıran məhz ağıldır. Şüurun səviyyəsindən asılı olaraq idrak prosesi maddi dünyadan başlayıb onun fövqünə qalxa bilir. Həqiqətin bilinməsi, görülməsi və Haqqı şüurun keçdiyi mərhələlərdir. Ağlın səviyyəsinin göstəricisi onun gerçəkliklə təmasından asılıdır. Bununla yanaşı, o, həm də şüurun irəliləmə potensialını müəyyən edəndir. Yəni idrak prosesinin hər üç mərhələsinin trayektoriyası ağıldan başlayır. Reduksiya Loqosa qədər yüksələ bilən bir prosesdir və yalnız şüura məxsusdur. Ağıl isə yalnız onun nəticələrini sistemləşdirən və bununla ümumi mənzərəni aydınlaşdıran, dəqiqləşdirən bir fenomendir.

### *§ 158. İdeya, mənalandırma və ağıl*

*Nous* hər şeyin vahid nur seli şəklində var olduğu məkandır. Yaradanın diqqəti və iradəsi ilə oradan hər hansı bir zərrə “Ol” əmri ilə müəyyən bir ideya ilə yüklənir və bununla konkretləşir – eydosa çevrilir. Eydos nur selindən gələn xüsusiyyətini – nuru saxlamaqla yanaşı, həm də yeni bir məna qazanır. Həmin xüsusiyyət universal vəhdətin göstəricisi, yükləndiyi məna onun spesifikliyi olur. İdeya qazanması eydosun reallaşma prosesinin əvvəli, ilk addımıdır. Bundan sonra o, öz mahiyyətinə uyğun olaraq müəyyən struktura daxil edilir və bu, onu konkretləşdirən daha bir çərçivə olur. Başqa sözlə desək, reallaşma prosesi nur zərrəsinin məhdudlaşması, konkretləşməsidir və bu, onun məhdud şüurlu insan tərəfindən dərk edilməsi üçün zəruri aktdır. İnsan özü də elə bir zərrənin reallaşmış halıdır. Eyni zamanda, o, eyni prosesi öz miqyasında təkrar edən yeganə varlıqdır. İnsanın *nous*u onun şüurudur. Orada mövcud olan ideyaların konkretləşməsi prosesi isə ağıldan başlanır. Lakin burada iki vacib məsələni vurğulayaq. Birincisi, ağıl eydedik

səviyyədə fəaliyyət göstərmir və yalnız bütövləşmiş strukturlar – noemalarla təmasda olmaq qabiliyyətinə malikdir. Yeri gəlmişkən əlavə edək ki, yalnız xüsusi səviyyəyə yüksələ bilən ağıllar buna malikdir, aşağı səviyyəli ağıllar isə ümumiyyətlə konkret və maddi şeylər əsasında fikir bildirməyə, nə isə etməyə qabildirlər. İkincisi, ağıl malik olduğu əvvəlki biliklərə istinad etdiyinə və gerçəkliyin tələblərini nəzərə aldığına görə, noemaların kənar xüsusiyyətlərini ön plana çəkə və bununla da ona yeni məna verə bilər. Nəticədə insanın yaratdığı yeni noemada əvvəlkinin noematik nüvəsi ümumiyyətlə unudulur. Onu da qeyd edək ki, ağıllar öz yaradıcılıqlarında əvvəlki noemanın istər nüvəsindən, istərsə də ayrı-ayrı xüsusiyyətlərindən istifadə etdiklərinə görə, gəldikləri nəticələr fərqli ola bilir. Ağıl eydosun təyinatını dəyişə bilmir, ancaq noemaya yeni məna verə bilir: vəhşi heyvanı sirk artistinə döndərir, tikinti materialını (məs. kərpic, çəkic) silah kimi istifadə edir, çiçəkdən, böcəkdən bəzək əşyası düzəldir.

Ağıllar arasındakı fərq onların obyektiv həqiqətə – noematik nüvəyə yaxınlıqları ilə ölçülür. Bəzi ağılların qurduğu sistemdə köməkçi xüsusiyyətlərdən biri irəli çıxanda, diqqəti əsas mahiyyətdən yayındıra bilir. Şüurun intensionallığı eydedik struktura nüfuz edəndə və orada əsas, yaxud köməkçi eydosu fərqləndirib həmin biliyi ağla ötürəndə, ağıl yalnız biliyi qəbul edir, onun əsas, yaxud köməkçi olması əhəmiyyət kəsb etmir. Ağıl həmin biliyi yeni struktura daxil edir. Bu zaman həmin bilik, daha dəqiq desək, həmin mahiyyət mərkəz də ola bilər, köməkçi də. Ağıl həmin biliyə yeni məna vermiş olur. Yeni məna nə qədər ilkin noemanın nüvəsindən uzaq olursa, bir o qədər insanın yaratdığı şey, verdiyi yeni məna müvəqqəti və səthi olur. Xatırladaq ki, eydoslar mahiyyətini dəyişmir, amma mənasını dəyişə bilir. Ağlın qurduğu yeni strukturda mahiyyət dəyişməsə də, yeni mənada o görünməz qala bilir. Dünyanın yeddi möcüzəsindən üçüncüsü olan məlum Zevs heykəli qızıl, ağac və fil sümüyündən hazırlanmışdı. Heykəltəraş Fidiyin ağlı və bacarığı ağacın mənasını dəyişmişdi. Ağac strukturunda olan başqa bir eydosun mahiyyətini önə çıxarıb, onu yonub heykəl düzəltmişdi. Möhtəşəm abidənin materialı böyük tanrının kimliyi qarşısında xatırlanmır

belə: ağac yeni məna qazanır və uzun illər bu cür var olur. Lakin məbəddə baş verən bir yanğın zamanı ağacın əsl mahiyyəti özünü göstərdi və o, bir odun kimi yanıb kül oldu. Eydosun əsl mahiyyəti özünü göstərdi.

Şüur eydedik strukturdan çıxış etdiyinə görə, yeni qurduğu struktur da eydedik, yaxud noematik olur. Bu struktur rasional olduğu kimi, irrasional da ola bilir. Şüur həm ayrılıqda eydosların, həm də qurduğu yeni eydedik strukturun mahiyyətini ağla ötürür. Ağıl və şüur arasındakı əlaqənin əhəmiyyəti məhz bu zaman özünü göstərir: a) ağıl şüurdan həmin mahiyyəti, həqiqəti nə dərəcədə olduğu kimi, təhrif olunmadan ala bilir; b) ağlın mövcud məzmunu həmin strukturu reallaşdırmaq üçün nə dərəcədə hazırdır; c) şüurun verdiyi həmin struktur gerçəkliyin tələblərinə nə dərəcədə uyğundur. Burada vacib bir prinsipi də qeyd edək ki, ağıl şüurun ideyasını olduğu kimi yaratmayana qədər şüurun daxilindəki nur dalğası sakitləşmir və təbii ki, ağlı da sakitləşməyə imkan vermir. Buna görə də, bəzən ağıl məntiqlə işi bitirsə də, məqsədinə nail olmur sayılsa da, mənəvi rahatlıq tapa bilmir.

Şüur, bir tərəfdən ilahi aləmlə, digər tərəfdən ağılla əlaqəli olan, qavranılan bilikləri özündə ehtiva edən mənbədir. Bu biliklər özünüreduksiyaya cəlb oluna da bilər, qaranlıqda qala da; irrasional biliklər rasionallaşmaya, qaranlıq yaddaş heç cür ümumi prosesə qoşulmaya da bilər. Bunlar hamısı asılıdır prosesin miqyasından. İntensionallıq oradakı ideyalardan birini fərqləndirir və iradə onu ağıla ötürür. Bununla da həmin ideyanın reallaşması prosesi başlayır. Ağıl çoxsaylı biliklər və ideyalar sistemidir. Şüurun özünüreduksiyası bu sistemi müəyyən bir istiqamətə yönəldir və rekonstruksiya aparır. Bu o deməkdir ki, ağla şüurdan yalnız müəyyən zərrələr – ideyalar keçir və ağıl şüurdan daha məhduddur. Eyni zamanda, yalnız ağla keçən ideyanın reallaşma şansı yaranır və insanın idrak prosesi həmin məhdud ideya üzərində qurulur.

İdeyanın reallaşması ağılda iki prosesin başlanmasına səbəb olur. Bir tərəfdən, ağıl şüurla əlaqəsini qorumalıdır, çünki oradan aldığı nur gələcək sistemin, yaradılacaq noemanın dəqiqliyinin və aydın olmasını təminatıdır. Digər tərəfdən, daxili tarazlığı pozulan ağlın ətraf aləmlə də harmoniyası pozulur və o, öz sistemini tamamlamaqla yanaşı, cəmiyyət-

də öz “yerini də tapmağa çalışır”. Söhbət ilk ideya ilə gerçəklik arasında uzlaşmanın yaranmasından gedir. Əslində, bu, ağır bir prosesdir və heç də hər kəs buna nail olmur. Ağıl həm ümumi biliklərdən faydalanmağa çalışır, həm də yeni biliyin özünün strukturunu qurur və onu möhkəmləndirmək üçün yeni bilik ehtiyaclarını müəyyənləşdirir. Nəticədə xarici reduksiya aktivləşir, şüurun intensionallığı gerçəkliyin növbəti qatlarına nüfuz etməyə çalışır. şüurdan gələn hər yeni ideya məlum ümumi sistemdən yeni mərhələyə, mövcud çərçivədən kənara çıxmaqdır. Yəni artıq ümumiləşmiş, monotonlaşmış fondan bir ideyanın seçilməsi və fərqləndirilməsidir. Bir daha xüsusilə vurğulayaq ki, ilk ideya ağılda təkrar rekonstruksiya olunan zaman mövcud noemalar yeni məna qazana bilir, yəni ağıl yeni sistemdə onlara yeni məna “yükləyir”. Dediklərimiz bir faktı təkrar təsdiqləmiş olur: hər nə qədər şüur güclü olsa da, insanın real potensialı ilk növbədə onun ağlı hesab olunur. Əlbəttə, güclü şüur həm də güclü ağlın təminatıdır, bununla belə, insanın gerçəkliyə təsiri, cəmiyyətdə nüfuzu onun ağlının təzahürüdür.

Ağıl insanın göstəricisidir. Şüurun və onun səviyyələrinin nə dərəcədə aktiv olması özünü ağılda göstərir. Hər nə qədər şüur nüvə olsa da, gerçəklikdən biliyi bilavasitə o qavrasa da, ilahi aləmlə əlaqə onun vasitəsilə qurulsa da, insan cəmiyyətdə ilk növbədə ağlı ilə tanınır. O, idrak prosesinin rasional mərhələsi olduğuna görə, ilk tanınan və dəyərləndirilən də məhz o olur. Belə demək mümkündürsə, ağıl insan adlı gerçəkliyin üst qatıdır və gerçəkliyə nüfuz vasitəsidir.

Ağıl düyün nöqtəsidir – o, bir tərəfdən, mövcud bilikləri sistemləşdirmək, yeni struktur yaratmaq qabiliyyətinə malikdir, digər tərəfdən, yeni düşüncə istiqamətləri üçün mənbədir. Xatırladaq ki, şüurun xarici reduksiyasına istiqamət verən ağıldır. Bununla belə, onu da nəzərə almaq lazımdır ki, onun aktivləşməsi üçün şüur hazır olmalıdır. Əks halda, orada qazanılanlar fərdin öz çərçivəsindən kənara çıxmayacaq. Ağıl daxili və xarici reduksiyalar arasında tutduğu əlaqələndirici missiyası həm şüurun bütün səviyyələrində, həm də gerçəkliyin bütün qatları üçün keçərlidir.

### § 159. Ağıl və üstşüur. Haqq əl-həqiqət ağıl prizmasında.

Gerçəkliyin qatları bir-biri ilə daxilən, eydedik səviyyədə əlaqəli olsalar da, bir-birinin məntiqi davamı deyil. Əslində, eydedik səviyyədə gerçəklik universal aləmin bir hissəsidir. Bu əlaqəni görmək və ondan yararlanmaq üçün gerçəkliyin metafizik qatına nüfuz etmək lazımdır, bu isə yalnız üstşüurla mümkündür. Üstşüurun aktiv olması özünüreduksiyanın gücünün, bu isə öz növbəsində ağlın sabit mənbəyinin və radiusunun göstəricisidir. Bir daha xatırladaq ki, hər nə qədər ağıl yalnız rasionallaşmış biliklərlə əlaqəli olsa da, onun nüvəsinin – şüurun gücü ağılda əks olunur. Üstşüur bir tərəfdən, insanın öz mahiyyətinin dərki və istedadının kəşfidir. İstər yeni bir ideyanın doğulması, istərsə də universal həqiqətə istiqamətlənən hər hansı düşüncənin mənbəyi üstşüur olur. Bu baxımdan, üstşüur ağıldakı mövcud sistemi yeniləyəcək, genişləndirəcək bir qüvvə kimi də nəzərdən keçirilə bilər. Eyni zamanda, ağıl məhz həmin biliklərin əsasında yeni istiqamət götürməyi bacarır.

Ağıl şüurla gerçəklik arasında keçiddir. Şüur deyəndə isə biz onun bütün səviyyələrini nəzərdə tuturuq. Onun ağla ötürdüyü biliklərin hansı səviyyədə qavranılması sırf şüurun çərçivəsində həll olunan bir məsələdir. Bununla belə, nəzərə almaq lazımdır ki, yalnız kifayət qədər hazırlıqlı və rasional şüuru inkişaf etmiş bir şəxs üstşüurdan alınan bilikləri rasionallaşdıra bilər və yalnız inkişaf etmiş bir ağıl onu qəbul edib sistemləşdirməyi bacarır. Bəli, birmənalı şəkildə iddia etmək olar ki, üstşüurda qavranılan hər bilik ağla ötürülmür, lakin onu da xatırladaq ki, bəzən ağla keçən hər hansı irrasional bilik ağlı həmin istiqamətdə daha artıq təhlil aparmağa və daha çox bilik qavramağa sövq edir. Yəni o, ağılda bir katalizator rolu oynayır. Əlbəttə, eyni şeyin müəyyən mənada altşüur haqqında da demək mümkündür. Lakin xatırladaq ki, altşüura çökən informasiyalar daha çox ümumiləşmiş biliklərdən olur, üstşüurun qavradıqları isə şüurun öz subyektiv idrak yolunun nəticələridir.

Ağıl ona daxil olan biliklərlə həm zənginləşir, həm də həmin biliyin alındığı qata yolu açılır. Təbii ki, üstşüurdan alınan biliklər ağlı daha

çox işıqlandırır və ağıl indiyə qədər tanıdığı ümumi biliklərdən kənara çıxmaq imkanı qazanır. Güclü ağıl ümumi çərçivədən çıxmağı bacarandır. Onu da qeyd edək ki, cəmiyyətdə nüfuz qazanan ümumi bilik çərçivəsini genişləndirməyi bacaran şəxslər olur. Maraqlıdır ki, həmin şəxs hətta gerçəkliyin üst qatı ilə ayaqlaşan biri olmasa belə, onun hüdudlarından kənara addım atmış bir şəxs olaraq tanınır. Məsələn, deyilənə görə, Çarli Çaplinin məşhur "Qızıl qızdırma" (1925) filminə baxan Eynşteyn ona öz heyranlığını bildirmək üçün yazır: "Qızıl qızdırma" bütün dünyaya aydındır və Siz mütləq böyük insan olacaqsınız". Cavab olaraq Çaplin yazır: "Mən Sizə daha çox heyranam. Sizin nisbilik nəzəriyyəsini dünyada heç kimə aydın deyil, ancaq Siz yenı də böyük insan olmuşunuz".[1] Hər ikisi öz sahəsində ümumi qəbul olunmuş çərçivədən kənara çıxmışdı və bunu ümumiləşdirmişdilər.

Üstşüur yeni çərçivə açan ən böyük vasitə olsa da, onun verdiklərini gerçəkləşdirən ağıldır. Yəni bu, nur axınının fərqli vasitələrlə çatdırılmasıdır və ağlın müvafiq səviyyədə olmaması həmin işığa maneənin yaranmasıdır və bu, onun keyfiyyətində, daşıdığı hikmətdə özünü göstərir. Məsələn, müqəddəs mətndə deyildiyinə görə, Yeremiya peyğəmbər ona verilən hikməti olduğu kimi çatdıra bilməyəcəyindən qorxur və bildirir ki, "Uca Rəbbim, mən danışmağı bacarmıram, çünki gəncəm" (Bibliya. Yeremiya 6). Onun ağlı – qavradığı biliyi gerçəkləşdirəcək bacarığı kifayət deyil. Başqa bir zamanda isə Musa peyğəmbər Allaha belə dua edir: "Ey Rəbbim, qəlbimi genişlət! İşimi asanlaşdır! Dilimdəki düyünü aç (pəltəkliyimi götür) ki, sözümü başa düşsünlər!" (Quran 20/25-28). Burada şüur və ağıl arasında maraqlı bir ziddiyyət yaranır: ağıl bütün gücünü, potensialını sərf edir ki, həmin həqiqəti gerçəkləşdirsin. Onu kənardan müşahidə edənlər də ideyanın möhtəşəmliyinə heyran qalırlar, ancaq şüur özü həmin həqiqətin tam, mükəmməl reallaşmadığını bilir, çünki daha böyük həqiqətin şahidi olub.

Üstşüur haqqında mülahizələri idrak prosesinin son mərhələsi haqq əl-həqiqət – həqiqətin haqqı ilə ağlın da əlaqəsinə müəyyən aydın-

[1] Charlie Chaplin. https://quoteinvestigator.com/tag/charlie-chaplin/

lıq gətirmiş olur. Həqiqətin bilinməsi və həqiqətin görülməsi gerçəkliyin üst qatlarının öyrənilməsi və tanınmasıdır. Həqiqətin haqqı isə sonuncu, metafizik qata aid obyektiv biliklərin qavranılmasıdır. Haqq əl-həqiqət şüurun obyektiv həqiqəti olduğu kimi tanıması, həmin noematik qatın bir hissəsinə çevrilib, onun enerji axınına qoşulmaqdır. Bonaventura yazır: "Beləliklə, əgər səndə ehtiras və hissi surətlər – həqiqət şüalarının qabağını kəsən bu buludlar olmasa sən özündə sənə yol göstərən həqiqəti görə bilərsən".[1] Ağlın çərçivəsi, gerçəkliyin tələbləri həqiqəti olduğu kimi görməyə mane olur. Lakin Bonaventura bildirmir ki, buludlar olmasa, həmin həqiqətə baxan öz fərdiliyini qorumağı bacaracaqmı?! Şüurun yolu ilahi aləmə açıqdır və fərqi hüdudlarından çıxa bilir. Ağıl isə məhz fərdiliyin çərçivəsi, qoruyucusudur. Ağıl o sonsuz axından bir zərrəni öz subyektiv sistemində gerçəkləşdirir. Yeri gəlmişkən, bildirək ki, həmin zərrə nə qədər kiçik olsa da, universal aləmlə əlaqədir. Burada əhəmiyyətli bir məqam vurğulanmalıdır. Həqiqətin haqqı universal həqiqətdən bir zərrə olsa da, o, ağlın indiyə qədər qurduğu sistemin, şüurda doğulmuş ilk ideya ətrafında formalaşan noemanın mahiyyətinin təsdiq etməli, yəni onun nüvəsi olmalıdır. Yəni müəyyən mənada o, yeni deyil, çünki ilk iki mərhələ ona hazırlıq idi. Əks halda, yəni uyğun gəlməsə, daha əvvəl də qeyd etdiyimiz kimi, mövcud sistem tamamilə dağılmalı və təkrar yenisi qurulmalıdır. Onu xatırladaq ki, həqiqətin haqqı mərhələsində şüur iki şey qazanır: yeni bilik və əlavə nur. Biliyin kiçik bir hissəsi rasionallaşır, subyektivləşir və ağla ötürülür. Nur isə olduğu kimi ağılda əks olunur. Məhz bu nura səbəb şüurun bir mərkəz kimi gücü artır və ağılda mövcud olan digər psevdomərkəzlər ortadan qalxır.

Haqq əl-həqiqət idrak prosesinin sonuncu mərhələsidir, şüurun qavraya biləcəyi həqiqətin son nöqtəsi və şüurun cızdığı çevrənin geriyə dönüş nöqtəsidir. Təbii ki, ağla hər mərhələnin bilikləri daxil olur, lakin nəzərə almaq lazımdır ki, əgər ilk iki mərhələnin bilikləri insan tərəfindən qurulan yeni noemada köməkçi bilik funksiyası daşıyırsa, haqq əl-

[1] Бонавентура. Путеводитель души к Богу. https://psylib.org.ua/books/bonav01/index.htm

həqiqətdə qavranılan bilik istisnasız şəkildə nüvə olur və özündə əsas mahiyyəti ehtiva edir. Bununla yanaşı, xüsusilə vurğulayaq ki, idrak prosesinin ilk iki mərhələsinə ağıl da çata bildiyi halda, haqq əl-həqiqət yalnız şüur üçün açıqdır və orada dərk olunanlar ağla tam şəkildə ötürülə bilmir. Haqq əl-həqiqət bilavasitə subyektiv ruhla obyektiv ruhun təması və şüurun buna şahidliyidir. Sufizmdəki pərvanə və şam alleqoriyasından çıxış etsək, onu təcrübə də adlandıra bilərik. Burada maraqlı, eyni zamanda əhəmiyyətli bir məqam var: bu, ruhun təcrübəsidir, onun maddiləşməsi üçün qavranılan bilik maddiləşməlidir. Yəni, obrazlı desək, şamda yanmış pərvanə yaşadıqlarını səsə, sözə, yaxud rəqəmə çevirməlidir. Ağıl şüurla ruhun vəhdətinin qavradığını öz məhdud imkanları ilə çatdırmağı bacarmalıdır. Bu, sonsuzun bir damlada ehtiva etmək qüdrətidir. Burada əhəmiyyətli məqamlardan biri də budur ki, yalnız şüurun qavradığı bir həqiqətin sonra ümumiləşib bütün ağıllar üçün əlçatan olması üçün ilk növbədə öz ağlının süzgəcindən keçməlidir. İbn Ərəbi fəlsəfəsinin təhlilçisi Əhməd Avnı Konuk deyirdi ki, günəşi görmək üçün önünə bir buludun keçməsi zəruridir: "Haqq Nurun görülə bilməsi üçün ancaq onun təzahürü olan bu aşağı aləm pərdəsi arxasından baxmaq və görmək lazımdır".[1] Ağıl görülməsi, tutulması mümkün olmayanı maddiləşdirir. İlk baxışda inanılmaz, qeyri-adi səslənir, ancaq zaman və məkana meydan oxuyan əsərlərə baxanda bunu mümkün edən ağılların varlığından əmin olursan.

## *§ 160. Loqos və ağıl idrak prosesinin iki qütbü kimi*

İdrak prosesinin başlanğıc və son nöqtəsi şüur və müvafiq olaraq ağıldır. Dərk edilən həqiqətlərin, gerçəkliyin nüfuz edilən qatlarının fərqli olması idrak çevrəsinin radiusunda özünü göstərir. Ən böyük idrak çevrəsinin diaqonalının bir başında şüur və ağıl, digər başında isə Loqos durur. Kiçik idrak proseslərində isə gerçəkliyin metafizik qatı kənarda qalır və şüur yalnız maddi dünyanın hüdudları ilə kifayətlənməli

[1] Konuk. Fususu'l-hikem, s. 37.

olur. Daha dəqiq desək, Loqos ağılla bilavasitə əlaqəli deyil, lakin o, ümumi prosesin mahiyyətində həlledici rol oynayır. Loqosdakı noemalar irrasional və metafizikdir, ağıl isə bütünlüklə rasionaldır. Rasionaldan irrasionala keçid şüur vasitəsilə baş verir. Loqosa qalxacaq hər idrak xətti mütləq ağıldan keçməlidir, ancaq ağıldan çıxan hər düşüncə xətti heç də Loqosa çatmır. Onu da əlavə edək ki, ağıl hər idrak prosesində mütləq mövcuddur, halbuki yalnız yaradıcı və üstşüuru aktiv şəxslər Loqosa yüksələ bilir.

Ağıl bütün proseslərin başında dursa da, funksiyası fərqli olur. Belə ki, idrak prosesi yalnız maddi dünya çərçivəsində gedəndə və gerçəkliyin üst qatları ilə kifayətlənəndə ağıl aparıcı rol oynayır. O, gerçəkliyin tələblərinə uyğun olaraq şüuru istiqamətləndirir, qavranılan bilikləri ona uyğun sistemləşdirir və qurulan strukturlarda mahiyyəti təyin edir. Xüsusilə vurğulayaq ki, şüurun qavradığı bütün həqiqətlər ağlın şablonuna uyğunlaşır və təbii ki, burada bütün proseslər, hətta yaradıcılıq da ümumiləşmiş biliklər çərçivəsində baş verir. Ağıl burada, daha əvvəl də xatırlatdığımız bonsay ağacı kimidir: bilik mahiyyətindən asılı olmadan bəlli forma və ölçüdə təqdim olunur. Təbii ki, belə olan halda biliyin obyektivliyi ciddi şəkildə zərər görür. Onu da əlavə edək ki, belə ağılda psevdomərkəzlərin mövcudluğu adi haldır. Şüur gerçəkliyin metafizik qatına da nüfuz edirsə və idrak trayektoriyası ilahi aləmə qədər yüksəlirsə, onda ağıl yalnız şüur və gerçəklik arasında keçid rolu oynayır. Bu idrak prosesində şüur vasitəsilə Loqosun rolu böyük olur. Loqos deyəndə isə obyektiv həqiqətin ağılda maksimum inikası nəzərdə tutulur. Loqos bilavasitə ilahi iradənin prosesə qarışması, eyni zamanda, şüurun intensiyasının güclənməsi deməkdir. Belə olan halda, hər hansı psevdomərkəz təhlükəsi olmur, əvəzində, üstşüur vasitəsilə ağla sızan irrasional biliyin ağlın çərçivəsini böyütmək imkanı olur. Loqos həm daxili, həm də xarici reduksiyanın radiusunun artması deməkdir.

Deyilənlərdə əhəmiyyəti bir məqamı da vurğulayaq. İdrak prosesi gerçəkliyin üst qatı ilə kifayətlənəndə, o, başlanğıcını ağıldan götürür. Şüur obyektiv ideyalar qatına nüfuz edəndə və öz ideyasını dərk etmək

üçün reduksiya vasitəsilə Loqosa qədər yüksəlirsə, o zaman çıxış nöqtəsi şüur olur. Əlbəttə, ağıl, qazanılmış biliklər müəyyən təməl rolu oynayır, bununla belə, ilk ideya ağıl sistemində hələ yerləşmədən də şüur onunla irəliləyə bilər. Burada ağıl yalnız sonda, onun maddiləşməsi zamanı prosesə qoşulur.

Loqos meqaşüurdur, yəni şüurların qavradığı noemalardan ibarətdir. Loqos ilahi iyerarxiyada olan sabit mənbələrin insana aid, onun dərk edə biləcəyi hissəsidir. Loqos noemalar sistemidir və insan üstşüuru sayəsində bu noemaları ya hissə-hissə, ya da tam şəkildə qavraya bilir. Sufi fenomenologiyaya görə, şüur gerçəkliklə ağıl vasitəsilə təmasda olur. Loqosa qədər uzanan idrak prosesində insanın ağlı meqaşüurun ifadəçisinə çevrilir. İnkar edilməz faktdır ki, ağıl məhduddur, lakin onun daxili təkanla, yəni mərkəzinin təsiri ilə böyümək imkanı var. Bu mərkəz Loqos olanda, təbii ki, onun böyümək tempi də yüksək olur. Başqa sözlə desək, ağıl insanın potensialının hüdudları deyil, yalnız onun ifadəçisidir. "Ağıl məhduddur" kəlməsi insanın idrak qabiliyyətinə, dərk edə biləcəyi həqiqətlərə aid edilmir. Ağıl nə qədər zəngin biliyə malik olarsa, bir ö qədər mürəkkəb sistemə malik olur. Ağılda yalnız sabit və dəqiq sistem olarsa, ondan Loqosa yüksəlmək imkanı yaranır.

Şüur mövcud çərçivənin fövqünə qalxan ideyalarının təsdiqini Loqosda tapır. Məhz bu səviyyədə subyektiv ideyalar ümumi obyektiv harmoniyaya qoşulur və oradan aldığı enerji və işıqla təkrar şüura dönür. Lakin burada əhəmiyyətli bir məqam var: Loqos nəzəriyyələrin təsdiqidir. Üstşüurun Loqosa qədər ucalması, universal harmoniyaya qoşulması şüurda doğulmuş ideyanın obyektiv həqiqətin bir hissəsi olmasının göstəricisidir. Həmin ideyanın ağılda təsdiqini tapması isə prosesin son, lakin əhəmiyyətli mərhələsidir. Xatırladaq ki, irrasional biliklərin hamısı ağla keçmir, yalnız rasionallaşan və ağlın sisteminə yerləşən biliklərin maddiləşməsindən danışa bilərik. Burada maraqlı bir paradoks var. Loqosa noemaların nüvələri vasitəsilə və noemalar arasındakı universal əlaqələri kəşf etməklə yüksəlmək mümkündür. Yəni burada hər hansı yanlışlıq mümkün deyil. Ağılda isə bütün mövcud imkanlar, biliklər

toplanır, dəyərləndirilir, gerçəkliyin tələbləri ilə qarşılaşdırılır və bundan sonra həmin ideyanın maddiləşməsi aktuallaşır. Bu o deməkdir ki, Loqos nəzəriyyənin, ideyanın ağıl isə təcrübənin təsdiqidir. Burada yanlış yanaşmalar, sınaq-səhv üsulları normal hesab edilir, çünki hər ağıl mövcud vəziyyəti bütöv şəkildə qavramağı və dəyərləndirməyi bacarmır. Məsələn, Tesla və Edison arasında sabit və dəyişən cərəyan haqqında uzun illər mübahisə gedib. Tesla nəzəriyyəyə, öz ideyasına istinad edirdi, Edison ağlın öz potensialına, bilavasitə sınaq-səhv metoduna. Buna görə də, Teslanın düşüncələrində, təcrübələrində yanlışlıq faizi minimum idi, yaxud ümumiyyətlə yox idi, Edison üçün isə belə yanlışlıqlar normal hal idi. Bir daha təkrar edək ki, Loqos şüurdakı ideyanın təsdiqidir, ağıl isə həmin təsdiqin maddiləşməsidir. Həm nəzəriyyə, həm də təcrübə öz təsdiqini tapanda, həmin ideya mövcud ümumi çərçivəni sındırıb öz sahəsində yeni bir ölçü vahidi yarada bilir: sənətdə yeni məktəb, poeziyada yeni söz, fəlsəfədə yeni cərəyan, elmdə yeni kəşf.

Dediklərimizdən belə məlum olur ki, Loqos və ağıl idrakın mərhələləri olmaqla yanaşı, yaradıcılıq prosesinin də tərkib hissələridir. Yəni hər ikisi bəşərdən başlanan trayektoriyanın üzərində yerləşir və insanın idrak bacarığından, istedadından asılıdır. Loqos-ağıl – bəşəri yaradıcılığın iki qütbüdür və hüdudlarıdır. Şüur reduksiya vasitəsilə, yəni onu digər biliklərdən ayırmaqla, köməkçi informasiyalardan fərqləndirməklə, konkretlikdən çıxarıb mücərrədləşdirməklə özünün tək ideyasını Loqosda təsdiqləyir. Bununla gələcək noemanın nüvəsini hazırlayır. Ağıl isə əksinə, həmin tək ideyanı təkrar köməkçi ideyalarla tamamlayaraq onu maddiləşdirir, konkretləşdirir. Ağıl Loqosdan alınan biliklərin bir növ süzgəcinə çevrilir. Hər nə qədər şüur Loqosla vəhdət halı yaşasa da, ağıl alınan bilikləri gerçəkliyin çərçivəsinə salır. Onun bacarığı düzgün vasitə və üslub seçməkdir ki, həmin nüvənin təsiri, enerjisi və gücü zəifləməsin. Əks halda, əvvəlki paraqrafda söz açdığımız "incəsənət incəsənət üçündür" şüarı burada hakim olacaq və bilik ümumiləşə bilməyəcək, yalnız seçilmiş və həmin sahə barədə dərin biliyə sahib şəxslər agah olacaq məsələdən. Bu isə öz növbəsində həmin ideyanın müəyyən mənada

kölgədə qalması deməkdir.

Loqos sonsuz sabit mənbələrin bəşər tərəfindən qavranılmış hissəsidir və ona nisbətdə məhduddur. Onun böyüməsi, bir tərəfdən, ilahi hökmdən asılıdırsa, digər tərəfdən, insanın idrak qabiliyyətindən asılıdır. Ağıl da şüurun rasionallaşan hissəsidir və ona nisbətdə məhduddur. Onun da böyümək imkanı şüurdan və qavranılan biliklərdən asılıdır. Ağıl bilavasitə Loqosla əlaqəli deyil. Gerçəkliyin üst qatından Loqosa yol yoxdur. Ağlın böyüməsi, dərinləşməsi Loqos və gerçəkliyin metafizik qatının kəsişdiyi nöqtədən asılıdır. Onu da xüsusilə vurğulayaq ki, bu kəsişmə nöqtəsi universal aləmdə deyil, məhz maddi dünya çərçivəsində baş verir. Belə demək mümkündürsə, ağıl Loqos və metafizik qatın kəsişdiyi həmin irrasional anı rasionallaşdıraraq ümumi biliyə çevirir. Bununla yanaşı, onu da xatırladaq ki, şüur nə qədər güclü olarsa, ağlın sabit mənbəyi bir o qədər geniş olar və təbii ki, daha çox biliyin rasionallaşması üçün imkan yaranar. Şüur Loqosun insanda kiçik inikasıdır, deməli, ağlın öz şüuruna yaxınlığı, əlaqəsinin sıxlığı elə Loqosa yaxınlığı deməkdir.

# Eydosologiya

Girişdə vurğuladığımız kimi, təqdim etdiyimiz yeni fəlsəfi sistemi sufi fenomenologiya ilə yanaşı, həm də eydosologiya adlandırmaq olar. Məsələ burasındadır ki, təməlində sufizm və fenomenologiya duran bu yeni fəlsəfə müəyyən mənada eydoslar və eydedik struktur haqqında nəzəriyyədir. Məhz bu anlayış vasitəsilə sufi fenomenologiyanın köklərini, bir tərəfdən, antik yunan fəlsəfəsi ilə əlaqələndirmək, digər tərəfdən isə, irəli sürülən fikirləri kvant fizikası ilə təsdiqləmək mümkün oldu. Eydos zaman və məkandan, din və əqidədən, fəaliyyət sahəsindən asılı olmadan dünya və yaradılış haqqında fərqli ideyaları özündə ehtiva edən, cəmləşdirən düyün nöqtəsinə çevrildi və bizim yeni düşüncə xəttimiz üçün başlanğıc oldu.

Sufi fenomenologiyada əhəmiyyətini və yerini nəzərə alaraq, nəticədə yalnız eydos anlayışı haqqında gəldiyimiz qənaətləri tezis şəklində təqdim edirik. Əslində, bu, bütün tədqiqat boyu varlıq, idrak nəzəriyyəsi, hətta etika və estetika haqqında gəldiyimiz yekun görüşlərdir. Yəni bu tezislər, sözün əsl mənasında, sufi fenomenologiyanın "eydosları" – kiçik zərrələridir.

Daha əvvəl də qeyd etdiyimiz kimi, sufi fenomenologiyanın yazılmasında Edmund Husserlin "Saf fenomenologiya və fenomenoloji fəlsəfə haqqında ideyalar (I kitab)" əsərini nümunə olaraq götürmüşük və filosofun təklif etdiyi yolu sufi prinsipləri ilə irəliləməyə çalışmışıq. Nəticə yerinə yazılan "Eydosologiya"da isə nümunəmiz Qottfried V. Leibnizin "Monadologiya"sı oldu. Müəllifi olduğumuz "Eşqin hikməti..."

əsərində də qeyd etdiyimiz kimi, monad anlayışı ilk dəfə Yeni Dövrün qadın filosoflarından olan Anne Konvey tərəfindən irəli sürülmüşdür.[1] Tədqiqatçılardan birinin yazdığına görə, "Fəlsəfə sahəsindəki əhəmiyyətli, başqa şeylərdən əlavə, Leibnizin ona ən kiçik substantiv vəhdətə verdiyi monad adına görə borclu olması gərəkirdi."[2] Bununla belə, nəzərə alsaq ki, monadlar haqqında görüşlər məhz Leibnizin təqdimatında bitkin bir sistem halında təqdim olunub, biz də nümunə olaraq, onun əsərini götürdük.

1. Sufi fenomenologiyada maddi və mənəvi olan hər şeyin – zamanın, məkanın, düşüncənin, prosesin, imanın, ruhun ölçü vahidi eydos olduğuna görə, onu həm də eydosologiya adlandırırıq.
2. Eydos – yaradılmışdır, əzəli və əbədi deyil. Yaradılmış hər şey eydoslardan ibarətdir. Allah eydos deyil və onun fövqündədir. Eydosu yaratmaq və məhv etmək yalnız Allahın qüdrətindədir.
3. Yaradılış prosesi daimidir, fasiləsizdir.
4. Eydos varlığın ən kiçik zərrəsidir. Hər nə qədər təhlillərimizdə onu tez-tez kvant fizikasına məxsus kvark, yaxud fotonlara bənzətsək də, onların özləri də eydosdan ibarətdir.
5. Eydos ümumi enerji/işıq selindən – *Nous*dan alınmış və ideya ilə yüklənmiş zərrədir. Buna görə də, hər eydosun mahiyyətində işıq – enerji var. Həmin işıq eydosun hərəkət mənbəyidir. Deməli, hər şey hərəkətdədir.
6. Eydoslar malik olduqları ideyaya görə vacib və mümkün, köməkçi olurlar. Buna müvafiq olaraq, hər varlıq bir eydedik sistemdir, vacib və mümkün (köməkçi) eydoslardan ibarət olur.
7. Hər eydedik sistemin nüvəsi onun vacib eydosudur. Mümkün (köməkçi) eydoslar özləri müəyyən ideyaya malik olsalar da, əsas funksiyaları nüvənin mahiyyətinin və missiyasını həyata keçməsinə xidmət etməkdir. Nüvənin mahiyyəti həm də bütün eydedik sistemin mahiyyəti

[1] Bünyadzadə. Eşqin hikməti..., s. 144.
[2] Women Philosophers of the Early Modern Period. Ed. Margaret Atherton. Hackett Publishing Company, Cambridge, 1994, p. 219.

hesab edilir.

8. Yaradılış eydedik sistemlərin formalaşması prosesidir – sadədən mürəkkəbə, eyni zamanda, bir təkdən digər təkə. İki cür tək var: sadə eydos və eydoslardan yaranmış tək (vahid) sistem.

9. Eydoslar yalnız ideyasına görə fərqlənirlər. Bir eydos digərini əvəz edə bilməz, çünki hər birinin öz yeri və missiyası var.

10. Hər eydos yarandığı zaman aldığı ideya dəyişməzdir. Onu digərləri arasında konkretləşdirən və fərdiləşdirən həmin ideyadır.

11. Eydosların sistemləşməsi prosesi sabit mənbələrdə, sufi termini ilə desək, ayani-sabitədə başlanır. Maddi dünya çərçivəsinə çatanda insan yaradılış prosesinə, şeylərin təbii quruluşuna müdaxilə edə bilir.

12. Şüur – eydosdur. İnsan adlı eydedik sistemin nüvəsidir. İnsanın malik olduğu istedad onun nüvəsində ehtiva olunur. Şüura yüklənən mahiyyət mürəkkəbdir, ona görə də, insan matrisadır.

13. Nüvəyə yaxın köməkçi ideyalar mahiyyətin açılmasında kənarda olanlardan daha əhəmiyyətli rol oynayır. Şeyin aksidensiyaları köməkçi eydoslardan ibarət olur və dəyişə bilir. Eydedik strukturları yalnız köməkçi eydoslar səviyyəsində dəyişmək mümkündür. Nüvənin dəyişməyi bütün sistemin, yəni şeyin dəyişməyi hesab edilir. Bunu yalnız Yaradan edə bilər.

14. Hər eydos özünə uyğun işığa malikdir və var olduğu müddətdə həmin işıq azalıb, yaxud arta bilməz. Yalnız insanın malik olduğu vacib eydosun – şüurun işığı dəyişmək xüsusiyyətinə malikdir.

15. Maddi və ruhani şeyləri fərqləndirən onların eydoslarının malik olduğu ideyadır.

16. Şeylər eydoslardan ibarət mürəkkəb sistemdir. Şeylərin çoxmənalılığı onun tərkibindəki eydoslardan gəlir. İnsanın şeyə münasibətindən asılı olaraq onun müəyyən mənasını anlaya bilir. Köməkçi eydoslar səviyyəsində dərk olunan həqiqətlər bir-birindən fərqlənir. Rəylərin müxtəlifliyi buradan irəli gəlir. Yalnız nüvənin mahiyyəti aydınlanandan sonra, şeyin mənası sabit qalır.

17. Eydoslar öz ideyasının daşıyıcısı olmaqla yanaşı, həm də sis-

temin nüvəsinin mahiyyətinin təsirində olur. Şeyin keyfiyyətləri ayrı-ayrı eydosların təzahürüdür.

18. Bütün eydoslar ayrı-ayrı zərrəciklər olsalar da, ümumi dalğanın hissələri kimi əlaqəlidirlər və bu, universal sistem, yaxud universal struktur adlanır. Bu əlaqə yalnız eydedik səviyyədə tanınır, dərk edilir.

